İradə ƏLİYEVA

REPRESSİYA BURULĞANI

Əməkdar jurnalist İradə Əliyeva 38 ildir ki, Azərbaycan mətbuatındadır. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsini bitirib. İlk iş yeri Azərbaycan KP MK-nın orqanı «Təşviqatçı» jurnalı olub. 1978-ci ildən «Azərbaycan müəllimi» qəzetində ədəbi işçi, tərcüməçi-müxbir, baş müxbir vəzifələrində çalışıb.

1993-cü ildən rəsmi dövlət qəzeti, Milli Məclisin orqanı «Azərbaycan» qəzetində işləyir. Humanitar siyasət şöbəsinin redaktorudur. «Qızıl qələm», «Həsən bəy Zərdabi» mükafatları laureatıdır.

2010-cu ildə ölkə Prezidentinin sərəncamı ilə Əməkdar jurnalist fəxri adına layiq görülüb.

İradə ƏLİYEVA

BAKI – 2015

REPRESSİYA BURULĞANI

Redaktorlar: **Bəxtiyar Sadıqov**
Milli Məclisin deputatı

Sani Hacıyev
tarix elmləri doktoru, professor

Əliyeva İradə. Repressiya burulğanı. "Letterpress" Nəşriyyat Evi. Bakı. 2015, 360 səh.

Ötən əsrin 30-cu illərinin sonunda Azərbaycan xalqının bir çox müdrik, tərəqqipərvər ziyalıları – görkəmli alimləri, istedadlı şair və yazıçıları, dövlət qulluqçuları, qısaca desək, neçə-neçə günahsız insan amansız Stalin repressiyalarının qurbanı olmuşdur. Uzun illər ölkə mətbuatının aparıcı orqanlarında çalışan respublikanın Əməkdar jurnalisti İradə Əliyevanın «Repressiya burulğanı» kitabı həmin dövrün ağrı-acılarını çəkmiş görkəmli elm, mədəniyyət və incəsənət xadimlərinin ömür yollarına, fəaliyyətinə həsr edilmişdir.

Bu insanlar perspektivli mütəxəssis, sağlam düşüncəli ziyalı, bacarıqlı partiya və dövlət işçiləri idi. Əlbəttə, stalinizm öz xəttinə uyğun olaraq belə şəxsləri rahat buraxa bilməzdi. Odur ki, onlara şər və böhtan atılaraq əvvəlcə həbs olunmuş, sonra isə saxta dəlillər əsasında ölümə məhkum edilmişlər.

Gərgin zəhmətlə ərsəyə gəlmiş kitabda müəllif Azərbaycanın ləyaqətli oğul və qızları – Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Heydər Hüseynov, Ruhulla Axundov, Gülarə Qədirbəyova, Xudadat bəy Məlikaslanov, Məmməd Cuvarlinski və başqalarının məşum 37-nin repressiyası tərəfindən məhv edildiyini göstərməklə yanaşı, həm də dövrün mənfur rejiminin iç üzünü açmağa çalışmışdır.

© İradə Əliyeva, 2015

ÖN SÖZ

1993-cü ildə görkəmli tarixçi-alim, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun 37-nin qurbanları ilə bağlı istintaq materialları əsasında yazılmış məqalələrinin tərcüməsi və çapa hazırlanması işi mənə tapşırılmışdı. O zaman «Azərbaycan müəllimi» qəzetində çalışırdım. 30-dan çox insanın – repressiya qurbanının faciə ilə bitən ömür yolları həmin cinayət işlərində öz əksini tapmışdı.

Y.V. Çəmənzəminli, B.Çobanzadə, H.Zeynallı, M.Cuvarlinski, T.Şahbazi, G.Qədirbəyova, X.Qayıbova və digər görkəmli şəxsiyyətlərin saxta ittihamlar, dəlillər əsasında ölümə məhkum edildiyi arxiv materialları o zaman ictimaiyyət arasında geniş əks-səda doğurdu. Həmin dövrdə daxilən hiss edirdim ki, böyük oxucu marağı bu yazıların toplum halda kitab kimi çapına daha çox ehtiyac duyur. Ziya müəllimə fikrimi bildirdim. Məmnun qaldı… Hətta deyərdim ki, sevindi… Razılığını alıb kitabın tərtibinə başladım. Bu dəyərli nəşrə müxtəlif sərlövhələr fikirləşmişdik: «Azərbaycanda repressiya», «Çarpışan ömürlər», «37-nin qurbanları», «Sağalmayan yaralar», «Günahsız qurbanlar» və s. Nəhayət, bir gün Ziya müəllim zəng vurub dedi ki, kitabın adını tapıb: «Qırmızı terror». Beləcə, bu nəşr 10 min nüsxə tirajla işıq üzü gördü. Akademik Ziya Bünyadov kitabın «Ön söz»ündə oxuculara müraciət edərək ölkədə həmin dəhşətli illərdə hökm sürmüş diktator rejiminin bilərəkdən məhv etdiyi həmvətənlərimizin kədərli bioqrafiyalarını, istintaq işlərini böyük ürək ağrısı ilə araşdırdığını bildirirdi: «Sən günahsız güllələnmiş, Sibirə və müxtəlif həbs düşərgələrinə göndərilmiş yurddaşlarımızın həyatlarının son günlərini və saatlarını ancaq fikrən təsəvvürə gətirə bilərsən.

«Sosializm» illərində saysız-hesabsız azərbaycanlıların həyatlarını buğda dəni kimi üyütmüş dövlət cəza dəyirmanının

necə işlədiyini isə ancaq həmin dövrün dəhşətlərini görüb, acısını çəkmiş insanlar bilərlər. Təəccüblü deyil ki, 1920-ci il aprelin 28-də Azərbaycan Demokratik Respublikasının əvəzinə hökumət başına gələn sovet hakimiyyəti Leninin «Yaşasın müstəqil Azərbaycan!» teleqramına əsasən demokratik hökumət tərəfindən əsası qoyulmuş Azərbaycan xalqının tərəqqisinə və çiçəklənməsinə kömək vəd etdiyi halda, hökmranlığının elə ikinci günündən – 1920-ci il aprelin 29-dan Azərbaycanın çiçəklənməsi naminə işləyə biləcək kəslərin hamısını aradan götürmək xəttini həyata keçirməyə başladı».

Akademik yazırdı ki, XI Qırmızı ordunun İnqilabi Hərbi Şurası və Azərbaycanın yeni sovet hökuməti öz fəaliyyətinin ikinci günündən «Müsavat» və «İttihad» partiyalarının rəhbərləri, sovet hakimiyyəti ilə əməkdaşlıq ruhunda bu partiyaların sonradan da fəaliyyət göstərəcəkləri barədə rəsmi müqavilə bağladı. Lakin bu müqavilələr tezliklə Azərbaycan xalqının qəddar düşməni S.Pankratovun rəhbərlik etdiyi XI ordunun Xüsusi şöbəsi tərəfindən pozuldu. Bu xüsusi şöbə, onun ardınca isə FK (Fövqəladə Komissiya) kütləvi həbslər aparmağa başladı. Lenin və Trotski tərəfindən yaradılan həbs düşərgələri az vaxtda Azərbaycanın ziyalı nümayəndələri hesabına doldurudu. Bu, qanunsuz cəza tədbirlərinə məruz qalan həmvətənlərimizin birinci axını idi.

Repressiyanın ikinci, daha güclü dalğası isə 20-ci illərə düşür və bu dalğa minlərlə Azərbaycan kəndlisinin həyatına bais oldu.

Məlumdur ki, bolşeviklər Oktyabr silahlı üsyanını qardaş qırğınına qoşulan kəndli kütləsi sayəsində həyata keçirə bilmişdilər. Çünki onlar kəndlilərə torpaq vəd etmişdilər. Buna görə də əvvəlcə torpağı onlara payladılar. Sonra isə bu insanları tezliklə cürbəcür vergi və ərzaq sapalağı ilə boğmağa başladılar. Kəndlilərin müqaviməti əvvəlcə çoxlu kəndli ailəsini antisovet elementlər kimi Sibirə və Uzaq Şimala – orada hamısı, əlbəttə ki, məhv oldu – sürgün etməklə qırılırdı. Sonradan, 20-ci illərin sonları, 30-cu illərin əvvəllərində bədnam «kollektivləşmə» və ortabab kəndlilərin bir sinif kimi (qolçomaq adı ilə) ləğv

edilməsinə başlandı. Sovet cəza orqanları tərəfindən onların bütün mülkiyyətlərinin əllərindən alınması, daha doğrusu, mülkiyyətlərinin həyasızcasına mənimsənilməsi kəndlilərin kütləvi çıxışlarına səbəb oldu. Kənd sakinlərinin öz hüquqları uğrunda bu çıxışları siyasi orqanlar tərəfindən «banditizm» adlandırıldı və nəticədə orqanlar bu narazılıq və çıxışları silahla yatırtmağa başladılar, özü də həmin dövrün ən müasir silah və hərbi texnikasını tətbiq etməklə. Orqanların yaratdığı fövqəladə üçlüklər Naxçıvan, Qarabağ, Şəki, Zaqatala, Quba, Lənkəran, Abşeron və başqa yerlərin minlərlə sakinini güllələnməyə məhkum edir, sürgünə göndərirdilər. Üçlüklər isə əsasən ermənilərdən ibarət idi.

«Azərbaycan xalqının həqiqi faciəsi isə 1936-cı ildən başlandı. Xalq əleyhinə, xüsusilə ziyalılar əleyhinə cəza tədbirləri 1937-1938-ci illərdə daha da amansızlaşdı, hakimiyyətdə oturmuş dövlət quldur dəstəsi görünməmiş vəhşiliklə Sumbatovun, Borşevin, Gerasimovun, Sinmanın, Şerin, Qriqoryanın, Markaryanın, Qalstyanın, Ohanesyanın, Avanesyanın və onların Atakişiyev kimi nökərlərinin və qeyrilərinin əli ilə təxminən 70-80 min Azərbaycan ziyalı nümayəndəsi – alim, yazıçı, aktyor, müəllim, din xadimi, sovet və partiya idarəsi əməkdaşı, hərbçi, gənc, bir sözlə, bütün düşünən beyinlər, qeyri-adi təfəkkür sahibləri bir ucdan məhv edildilər. Tək bircə xarici dil bilən şəxsləri də qırırdılar. Ölüm və cəza maşını dayanacaqsız və fasiləsiz işləyirdi. Hər bir «xalq düşməni»nə «məhkəmə» zamanı ancaq 15 dəqiqə vaxt ayrılırdı (tək-tək hallarda 20 dəqiqə). İndi qoy oxucu özü 1936-1937-ci illərdə bir saatda nə qədər adamın güllələnməyə məhkum edildiyini, nə qədər zəka sahibinin – azərbaycanlının güllələndiyini özü hesablasın. Bir gündə 24 saat (96 nəfər), ayda 30 gün (2880 nəfər), 2 il yarımda isə 80 000-dən çox. Bakıda bütün bu quldur tribunal iclaslarını Vışinskinin müavini, bəşər övladının qatili Matuleviç öz əlaltıları Zaryanov və Jiqurla birgə aparırdı. Biz ancaq Bakıdan danışırıq! Kim deyə bilər ki, Azərbaycanın kənd rayonlarında bu fövqəladə üçlüklərin xüsusi iclaslarının qərarları ilə neçə min günahsız məhv edilmişdir? Xüsusi düşərgələrə

sürgün edilmiş «xalq düşmənləri»nin ailə üzvlərinin təxmini sayını kim deyə bilər?» – deyə akademik Ziya Bünyadov yenidən oxucularına müraciət edərək bildirirdi ki, unutma, xalqımıza qarşı repressiya 1940-1950-ci illərdə də davam etmişdir.

Xüsusi qeyd etmək istərdik ki, əslində, bu görkəmli şəxsiyyətlərin hər birinin həyatı, yaradıcılığı, ümumi fəaliyyəti ayrıca bir tədqiqat əsərinin mövzusu idi. Ona görə də sözügedən şəxsiyyətlərin hər birinin taleyi insanı istər-istəməz fərdi düşüncələrə sövq edirdi. Azərbaycan mətbuatında çalışdığım bu illər ərzində Stalin repressiyasının qurbanı olmuş neçə-neçə günahsız «müqəssir»in taleyinin izinə düşdüm. Onlar haqqında oçerklər, publisistik məqalələr qələmə aldım. Elə «Repressiya burulğanı» kitabında da sübutsuz-dəlilsiz ittiham olunmuş, həbs edilmiş və qırmızı cəlladların əli ilə həyatına son qoyulmuş bir qrup görkəmli elm, incəsənət, mədəniyyət xadiminin keçdiyi məşəqqətli ömür yolu öz əksini tapmışdır. Bu insanlar dövrün quruluşuna, yəni sovet hakimiyyətinə, sosializmə, kommunist partiyasına xilaf çıxmamışdılar. Onlar öz vətənlərinin layiqli övladı, elini-yurdunu böyük məhəbbətlə sevən bir insan, yüksək ixtisaslı mütəxəssis, bacarıqlı təşkilatçı, ziyalı, elm xadimi, gələcəyi parlaq olacaq dövlət qulluqçuları idilər. Onların öz xalqı qarşısında böyük xidmətləri vardı. Rejimin «xalq düşməni» elan etdiyi, əslində isə xalqın cəfakeşi və fəxri olan bu insanların taleləri həmin illərdə bir göz qırpımında həll olunurdu, hamısı ölüm maşınının, bədxahların böhtanının qurbanlarına çevrilirdi, məhkəmələri cəmi… 15 dəqiqə çəkirdi.

Kitabda toplanan tarixi oçerklər içərisində Teymur Heydər oğlu Salahovun keçdiyi qısa, lakin diqqətəlayiq həyat yolu sanki onun xatirəsinə daha geniş rakursdan işıq salınmasını tələb edirdi. T.Salahov Stalinin silahdaşlarının, o cümlədən erməni millətinin nümayəndələrinin qəzəbinə tuş gəlmişdi, müsibətlərlə qarşılaşmışdı və nəhayət, ən ağır cəzaya – ölüm hökmünə məruz qalmışdı. Stalinizmin digər günahsız qurbanları kimi, Teymur Salahovun da məhkəməsi bir göz qırpımında –15 dəqiqə ərzində başa çatmışdı. Azərbaycanın

say-seçmə oğullarının başlarına gələnlər həm də yaşadıqları dövrün və o zaman mövcud olan quruluşun qanunlarını, həmin illərin ab-havasını özündə tam təcəssüm etdirirdi.

Müəllif kimi neçə il ardıcıl olaraq məni həmin mövzu üzərində düşünməyə və axtarışlar aparmağa sövq edən amillərdən biri də məhz budur.

Əziz oxucu! Sizə müraciət edərək söylədiyim bu Ön sözü akademik Ziya Bünyadovun bir fikri ilə yekunlaşdırmaq istərdim: «Həmin illərdə bizim Sovet Azərbaycanına başçılıq edənlər tərəfindən neçə yüz min şəxsin məhv edildiyini hesablamaq çətin və bəlkə də qeyri-mümkündür. İbrətamizdir ki, öz həmvətənlərinə qarşı qırmızı terroru düşünüb həyata keçirənlərin özləri də cilovsuz qan çanağının qurbanları oldular. Çünki külək yaradanlar mütləq tufana düşməli idilər».

Bu nəşrə akademik Ziya Bünyadovun həyatına və fəaliyyətinə həsr edilmiş oçerk də salınmışdır.

Kitabın redaktorları Milli Məclisin deputatı Bəxtiyar Sadıqov və tarix elmləri doktoru, professor Sani Hacıyevdir.

REDAKTORDAN:

TARİX «QIRMIZI TERROR»U HƏLƏ ÇOX MÜHAKİMƏ EDƏCƏK

XX əsrin əvvəllərindən ortaya çıxan bolşevizm qısa bir müddət ərzində bütün dünyanın nəzər-diqqətini özünə cəlb etdi, Azərbaycan xalqının taleyində də böyük izlər qoydu. Bunların bəzisi xeyirli, böyük bir qismi isə qanlı-qadalı oldu. Bolşevik hakimiyyətinin ən xarakterik xüsusiyyəti onda idi ki, bolşeviklər həm yaxşı, həm də qanlı əməllərini sadə xalq kütlələrinin, fəhlə-kəndli sinfinin adından həyata keçirirdilər. İnsanları bərabərlik prinsipinə istinad edən bir cəmiyyətin formalaşacağına sadəlövhcəsinə inandırır, inanmayanlara cismani və mənəvi divan tuturdular. Bütün dəyərlər, əxlaqi amillər, insan haqları kimi bəşəri ideyalar onlar üçün əhəmiyyətli deyildi. Bolşeviklər dünyanın altıda-birini əhatə edən geniş bir ərazidə elə dövlət maşını qurmuşdular ki, burada yüksək insani meyarlar sinfi dəyərlər pərdəsi arxasında rədd edilirdi. Hər şey bir fərdin, bir fövqəlpartiyanın mənafelərinə tabe etdirilmişdi.

Sözsüz ki, insan haqlarının nəzərə alınmadığı, şəxsiyyətin şərəf və ləyaqətinin inadkarlıqla tapdalandığı bir cəmiyyətdə millətlərin, xalqların hüququndan söhbət belə gedə bilməzdi. Azərbaycan xalqı da öz tarixi faciələrinin bir hissəsini məhz belə bir idarəetmə sisteminin hökmranlıq etdiyi dövlətdə, o cümlədən XX əsrin 30-cu illərində yaşamalı oldu.

Xalqımız 1937-ci ilin keşməkeşlərindən çıxdı, öz milli mənliyini, əxlaqi dəyərlərini, ideoloji və mənəvi bütövlüyünü qoruyub saxlaya bildi. Lakin görünməz əlin Azərbaycana qarşı işə saldığı kütləvi repressiya maşını izsiz qalmadı, öz işini gördü. Milli elitanın bütöv bir nəsli məhv edildi.

Deyirlər ki, insanlar nə qədər dözümlü olsalar belə, bu bədnam illəri həmişə «qara illər» adlandıracaqlar. Tarix isə insan təbiətinə və mənəviyyatına zidd prinsipləri tətbiq etməyə çalışanları həmişə əzib keçir, gec-tez cəzasına çatdırır. Qanlı olayları təşkil edənlər yüzillər ötsə də, insanlıq düşməni kimi damğalanır, layiqli və mənəvi cəzalarını alırlar. Tarix 1937-ci ilin də unudulmasına imkan verməmişdir. Ona görə də son dövrlərdə jurnalistlərimiz və yazıçılarımız, tarixçilərimiz və publisistlərimiz Stalin repressiyası mövzusuna tez-tez müraciət edirlər. Dövri mətbuatda, televiziyada bu mövzudan geniş bəhs edilir, nəşriyyatlar tərəfindən ayrı-ayrı müəlliflərin kitabları çap olunur, alimlər dissertasiya mövzusu olaraq 1930-cu illərin «qırmızı terror»unu araşdırırlar.

Bütün bunlar təsadüfi deyil. Bu, tarixi yaddaşın itməzliyidir. Azərbaycan xalqının say-seçmə oğul və qızlarının heç bir səbəb olmadan, saxta, uydurma ittihamlarla aradan götürülməsi, sürgünlərə göndərilməsi, amansızcasına güllələnməsi ürək ağrıdan, dərin düşüncələrə sövq edən tarixi yaddaşın elə özüdür.

«Azərbaycan» qəzetinin şöbə redaktoru, respublikanın Əməkdar jurnalisti İradə xanım Əliyevanın yaradıcılığında da bu mövzu aparıcı yerlərdən birini tutur. Peşəkar jurnalistin qələmindən repressiya qurbanlarının keşməkeşli həyatı haqqında yazılmış onlarca oçerk, publisistik məqalə çıxıb. Hələ 1993-cü ildə akademik Ziya Bünyadovun «Qırmızı terror» kitabının tərcüməçisi və tərtibçisi olan İradə Əliyeva sonralar da bu işi davam etdirmiş, neçə-neçə günahsız «müqəssir»in taleyinin izinə düşmüşdür. Odur ki, onun yazdıqları adi bir xronika-məqalə çərçivəsindən uzaq olub, yorulmaz axtarışların, geniş araşdırmaların, gərgin zəhmətin bəhrəsidir.

İradə Əliyevanın Teymur Salahov və Azərbaycanın digər repressiya qurbanları haqqında yazdığı sənədli oçerklər oxucuların rəğbətini qazanır, xüsusilə gənclər tərəfindən maraqla oxunur. Bu oçerklərin hamısında onun humanist qələmi duyulur: sənədli və bədii elementlər bir-birini tamamlayır. Bu da onun yazılarını oxunaqlı edir, tarixi mənbə kimi əhəmiyyətini artırır.

Müəllifin qəhrəmanlarının – rejimin «xalq düşməni» elan etdiyi, əslində isə xalqın cəfakeşi və fəxri olan bu insanların taleləri o illərdə bir göz qırpımında həll olunurdu, hamısı ölüm maşınının, bədxahların böhtanının qurbanlarına çevrilirdi, məhkəmələri cəmi... 15 dəqiqə çəkirdi. Bu insanların hər biri ayrıca şəxsiyyətdir, hərəsinin öz həyat yolu, ailəsi və uşaqları, xalq qarşısında xidmətləri vardı. Odur ki, bu gün onların hər birinin həyat və fəaliyyətinin ayrı-ayrılıqda araşdırılıb öyrənilməsinə böyük ehtiyac duyulur. İradə Əliyevanın oxucular a təqdim olunan «Repressiya burulğanı» adlı kitabı da ilk növbədə bu nöqteyi-nəzərdən dəyərləndirilməlidir.

Kitabda «30-cu illər dövrünün mənzərəsi» adlanan məqalədə o dövrün narahat sosial-sinfi prosesləri, rejimin əvvəlcədən ölçülüb-biçilən amansız siyasəti, baş verən olayları təhlil edilir, qanunsuz və kütləvi repressiyaların qəddar mahiyyəti, siyasi hədəfləri tarixi faktlar və sənədlər əsasında açılıb göstərilir. Bu yazıları oxuyarkən həmin faktlarda həyəcanlı bir harayın gizləndiyini hiss edirik. Müəllif şər, böhtan, insan taleyinə laqeydlik, ehkamçılıqla dolu bu tarixi mərhələnin amansız «mətnaltı» həqiqətlərini qələmə alır. Cəza, qisas, yaddaş, xəyanət, halal və haramı süzgəcdən keçirir, həqiqətin və ədalətin gücünü ön plana çəkir.

Kitabda Teymur Heydər oğlu Salahovun keçdiyi qısa, mənalı, lakin sonu faciə ilə bitən həyatına həsr olunan əsər sənədli povest janrında qələmə alınıb. Teymur Salahovun məhz şərə, böhtana düşdüyü, əslində isə namuslu və sədaqətli qulluqçu, partiya işçisi olduğu, xidmət etdiyi quruluşa heç də xilaf çıxmadığı dəlil-sübutlarla, arxiv sənədləri əsasında jurnalist qələmi ilə aydın göstərilir.

Kitabda toplanan oçerklərin dili yığcam və aydındır. İradə Əliyeva dövrün mürəkkəb siyasi ziddiyyətlərini, üzdə olan bolşevik məmurların obrazlarını konkret, amma sərrast cizgilərlə canlandırır. Əsərdə Bakı partiya təşkilatında «at oynadan» erməni bolşeviklərin fitnəkarlığı da dəqiq faktlarla ifşa edilmişdir. Müəllif xüsusi olaraq vurğulayır ki, ermənilər Moskva ilə Bakı arasında «vasitəçilik» etməklə öz millətçi

niyyətlərini güdür və Azərbaycan xalqının hesabına sərvət yığırdılar. Məhz bu sərvət sonralar bizim başımıza bəla oldu.

Oçerklərdə Heydər Hüseynovun, Bəkir Çobanzadənin, Teymur Salahovun, Xədicə Qayıbovanın və başqalarının obrazı təbii, inandırıcı qələmlə yaradılmışdır. Bu obraz oxucuda onlara böyük rəğbət və məhəbbət hissi oyadır.

Kitab bir daha Stalin rejiminin Azərbaycan xalqının belə qorxmaz ziyalı oğul və qızlarına mənəvi və cismani zərbələr vurduğunu təsdiqləyir. Hənəfi Zeynallı, Yusif Vəzir Çəmənzəminli, Məmməd Cuvarlinski, Ruhulla Axundov kimi güclü və işıqlı insanların nə qədər böyük arzuları ürəklərində boğulub məhv edilmişdi. Neçə-neçə ailə sahibsiz, böyüksüz qalmışdı… Stalinin amansız rejimi, bu rejimin qəddar və qanlı qanunlarını yerinə yetirən məmur və müstəntiqlər, «böyük rəhbər»in «silahdaşlar»ı (o cümlədən, bizlərə zərbə vurmaq üçün əlinə fürsət keçmiş ermənilər) dünya durduqca, tarix yaşadıqca nəsillərin mühakiməsindən yaxa qurtara bilməyəcəklər. Əsərin əsas ideyası da budur.

İradə Əliyeva bu kitabı ilə təkcə tarixi faktları, xronikanı izləmir, onları dəqiq mənalandırır, oxucuya aydınladır, gözəl üslubu, təhkiyəsi, publisist qələmi ilə canlı obrazlar yaradır. Redaktor kimi əminəm ki, kitab bədii baxımdan da oxucular üçün dəyərli olacaq, onların zövqünü oxşayacaq.

Sani HACIYEV,
tarix elmləri doktoru, professor

ZOR DÜNYANI DARMADAĞIN EDİR, ZAMAN İSƏ BÖYÜK İŞLƏR GÖRÜR

(30-cu illər dövrünün mənzərəsi)

Deyirlər ki, keçmiş həm də müəyyən əxlaqların tarixidir. Bu baxımdan qələm əhlinin keçmişə müstəsna həssaslığı və marağı təsadüfi deyil. Yaxın keçmişimizin sərt, acı təcrübəsi ilə aşkarlanan ibrətli əxlaqi dərs odur ki, bütün zamanlarda yanlış ideoloji təlimlər, saxta nəzəriyyələr və siyasi konsepsiyalar cəmiyyətə böyük zərbələr vurmuşdur. Bu isə, hər şeydən əvvəl, şəxsiyyət və istedad itkilərinə, mənəvi dəyərlərin, əxlaqi sərvətlərin gözdən düşməsinə, sosial məsuliyyətsizliyə gətirib çıxarmışdır. Ən sadə insani dəyərlər həm ideoloji, həm də mənəvi fəaliyyətin bütün sahələrində eyni dərəcədə mühüm əhəmiyyət kəsb edir. Onların inkarı dövlətləri, xalqları və siyasətçiləri həmişə dalana dirəyir. Ona görə də yanlış, səhv siyasi təlimlərin, ideologiyaların təhlili bütün zamanlar üçün aktualdır. Həqiqət işığında görünməyən və oxunmayan heç nə qalmamalıdır.

Digər tərəfdən, tarixindən ibrət almayan xalq gələcəksizdir, – deyirlər. Keçmiş bizə gələcəyin təməli kimi lazımdır. Keçmiş sabaha yol göstərir, irəliyə hərəkəti işıqlandırır. Tarixi yaddaş məhz buna görə gərəklidir!

Xalqımız 70 ildən artıq bir dövrdə çoxmillətli sosialist cəmiyyətində yaşamışdır. Düzdür, həmin dövrün müsbət nəticələri, dəyərləri də danılmazdır. Ancaq demokratik mərkəziyyət adlı rəsmi bolveşik idarəçiliyi, məsuliyyətsiz direktivlər, nizamsız proseslər nə qədər ziyalımızın məhvinə, taleyinin dağılmasına səbəb olmuş, fasiləsiz repressiyalarla tamamlanmışdır. Nə qədər istedadın susdurulduğunu, N.Nərimanovun, M.Hadinin, H.Cavidin, Ə.Cavadın, M.Müşfiqin qadağa altına düşdüyünü görmüşük, əsərlərinin oxunmasının məhdudlaşdırıldığının, qadağan edildiyinin şahidi olmuşuq. İnsanın bütün mənəviy-

yatını və ağlını iflic etmək üçün bundan qorxulu tədbir düşünmək mümkün deyil. Şəxsiyyətə pərəstiş dövründə, xüsusilə 1937-ci ildə məhv olan əxlaqi dəyər və sərvətlər fiziki ölümlərdən qat-qat çox olmuşdu. Həmin vaxtlarda beyinləri kütləşən, dildodağı tutulan, əl-ayağı qıc olan, qol-qanadı qırılan yalnız sürgünlərdə olanlar deyildi, ən böyük itki müstəqil düşüncədə, şəxsiyyətin azad fikrinə münasibətdə baş vermişdi. Stalin repressiyaları, əslində, öz xalqına qarşı böyük və görünməz bir cəbhə idi! Bu, mülkiyyət, var-dövlət talanından da ağır bir savaşa çevrilmişdi. Azərbaycanın düşünən adamlarının, say-seçmə övladlarının məhvi, bəlkə də, şəhər və kəndlərin, obaların, bənd-bərələrin alınmasından da dəhşətli bir zərbə idi. 37-ni görənlərin ruhundan, əxlaqından bu kabus – qorxu, şübhə və xof hələ də silinməyib. Ona görə də deyirlər ki, məsuliyyət və cavabdehlik olmayan yerdə sosial əxlaq itir, insanlıq meyarları yox olur. Hökmü isə zaman verir!

«Yaddaşın məhkəməsi» deyilən bir anlayış da var. Burada Azərbaycan xalqına dəyən zərbələr, reallıqlara yox, keçmişə saxta don geydirənlər, Stalin epoxası ilə bağlı qanlı həqiqətləri törədənlər mühakimə edilir və süzgəcdən keçirilir. Bu isə başımıza gətirilən faciələrlə dolu keçmişimizi daha dərindən öyrənmək, səhv və əyintilərdən ibrət götürmək üçün çox lazımdır.

Tarixə Stalin repressiyası kimi düşmüş dövrün tükürpədən reallıqları tarixçi alimlərin, tədqiqatçıların həmişə diqqət mərkəzində olmuşdur. Çünki məhz bu dövr həmin illərin əsl mahiyyətini, ideoloji prinsiplərini, sosial-siyasi qanunauyğunluqlarını aşkar bir formada ortaya qoyur. 1937-ci il sovet idarəetmə sisteminin və düşüncəsinin fəlsəfi məzmununu özündə ehtiva edən ən mürəkkəb və ziddiyyətlərlə dolu bir mərhələdir. Bu baxımdan, təsadüfi deyil ki, hələ indinin özündə də, bizi o dövrdən təxminən 70 ildən çox bir zaman ayırdığı halda da 1937-ci ilin tam təsvirini vermək çox çətindir.

Həmin dövrdə elə hadisələr baş vermişdi ki, onların gerçək mahiyyətini, eyni zamanda səbəblərini insan şüuru ya ümumiyyətlə qavraya bilmir, ya da çox çətin qavrayır. O illərdə ən

görkəmli ziyalıların, ən ağıllı mütəxəssislərin taleyi cəmi 15 dəqiqəlik bir zaman kəsiyində məhkəmə proseslərində həll edilirdi. Verilən hökm əksər hallarda güllələnmə ilə nəticələnirdi. Sürgünlük nə qədər ağrılı, işgəncəli olsa da, bu cəzaya məhkum edilənlər ölümün pəncəsindən qurtulduqlarına görə şükürlər edirdilər. Niyə? Təəssüf ki, bu sistemin ideoloqları bu cür suallara cavab vermək istəmirdilər və əslində, heç bunun cavabı da yox idi. Bu, sadəcə olaraq, insanlığını itirmiş bir ovuc cəlladın fəaliyyət strategiyasının əsasını təşkil edirdi. Bu, milyonlarla sadə insanın qanı bahasına qurulmuş bir cəmiyyətin mövcudluğu üçün ağlasığmaz «mübarizə» metodları uydurmağı bacaranların vəhşiliyinin təcəssümü, zirvə nöqtəsi idi və həmin vəhşiliyin dürüst adını vermək üçün hətta «repressiya» məfhumu da bəs etmirdi.

İnsan cəmiyyətini sarsıdıb silkələyən, onun tarixi yaddaşında qanlı bir iz qoyan, bir tərəfdən şəxsiyyətə hədsiz pərəstişi təbliğ edən, digər tərəfdən isə şəxsiyyətlərin alçaldılmasını adi həyat norması kimi mənimsəyən sovet totalitarizminin 1930-cu illərdə həqiqi siyasi mahiyyəti belə qanlı idi. Milyonlarla insan ona görə qorxu kabusunun təsiri altında yaşayırdı ki, Leninin «kommunizm» adlanan mücərrəd illüziyaları nə vaxtsa xalqlara «firavanlıq» gətirməliydi və buna görə də minlərlə, yüz minlərlə ziyalı həbsxanalarda çürüyür, güllələnmə ilə «mükafatlandırılırdı». Onlar nə qurmaq və necə qurmaq istəyirdilərsə, hər halda bu qurulmaqda olan «nəisələr» xalqdan çox-çox uzaq bir sistemin, yabançı bir qurumun konturlarını cızırdı. Nəticədə nələr baş verdi?..

Sovet imperiyasının 1937-ci illərdə tətbiq etdiyi siyasi mübarizə, idarəetmə metodları və həyata keçirmək istədiyi dövlət quruculuğu bütün mahiyyəti ilə bəşəriyyətin minilliklər ərzində formalaşmış dəyərlər sisteminə zərbə oldu. Sovet cəza maşınının böyük bir sürətlə fəaliyyət göstərdiyi bu illər minlərlə insanın, o cümlədən azərbaycanlının qanı ilə tarixə yazıldı. İmperiya cəlladları, demək olar ki, hamını eyni bir «cinayət»də – «vətənə xəyanət»də ittiham edib, alovun içinə atırdılar.

Təkcə bir faktı qeyd edək ki, o illərdə 80 mindən çox azərbay-

canlı mahiyyəti hələ də tam məlum olmayan səbəblərdən repressiya maşınının hədəfinə tuş gəlmişdi. Azərbaycanın düşünən beyinləri, görən gözləri, ölkənin tarixində müstəsna rol oynamış, yaxud oynaya biləcək ZİYALI təbəqəsi bir neçə dəqiqə sürən məhkəmə proseslərində güllələnməyə məhkum edilirdi və bu prosesin başında Sumbatov-Topuridze, Borşev, Gerasimov, Qriqoryan, Sinman, Beriya, Ohanesyan, Markaryan, Avanesyan, Qalstyan kimi cinayətkarlar dayanırdı. Baş verənlərin bütöv bir xalqa qarşı qəsd olduğunu anlamaq üçün bu siyahıdakı soyadlara diqqət yetirmək kifayətdir. Sovet repressiya maşınının var gücü ilə işlədiyi o günlərin xronikasını göz önünə gətirərkən bir daha əmin olursan ki, bu dəhşətli bəla millətimizin iradəsini sarsıtmağa, nəsillər arasındakı əlaqəni, varisliyi məhv etməyə və onun qəlbindəki əbədi azadlıq idealını öldürməyə xidmət edirdi.

Bu insanlar sosializm qurmaq istəyirdilər, amma nəticədə məlum oldu ki, heç öz istədikləri sistemi də qura bilməyiblər və tamamilə əcaib bir quruluş meydana gəlib. Bu quruluşda insan amili hər şeydən arxada qalıb, bütün iqtisadi-siyasi münasibətlər kollektiv maraqlar müstəvisində həll olunsa da, unudulub ki, hər bir kollektiv elə ayrı-ayrı insanlardan təşkil olunur. Onları real maraqlar ətrafında birləşdirən ümumi bir məxrəc olmalıdır. O dövrün ideoloqları bax bunu, insanları vahid bir məqsəd ətrafında birləşdirməyin düzgün yolunu kəşf edə bilməyiblər.

Stalinizm ənənələrinin yaranması da, çox güman ki, elə keçmiş Sovetlər İttifaqında hökm sürən ideoloji zorakılığın, siyasi məntiqsizliyin və tarixi yanlışlıqların təzahürü kimi qiymətləndirilməlidir. Stalinçilik təxminən XX əsrin ortalarına kimi, hətta marksizm-leninizm cərəyanını belə kölgədə buraxaraq SSRİ-də hakim ideologiyaya çevrildi. Şəxsiyyətə pərəstiş üzərində qərar tutan bu sistem cəmiyyətdə baş alıb gedən sistemsizliyin üzərində intişar tapdı. Sosializm quruculuğu özünü doğrultmamışdı və elə buna görə də «dəmir əl» prinsipi işə düşdü. Həm də bu elə bir sürətlə başladı ki, cəmiyyət uzun müddət yaşadığı ölkədə nə baş verdiyini anlaya bilmədi. Kütləvi repressiyaların geniş vüsət alması insanların psixoloji durumuna,

siyasi baxışlarına və düşüncə tərzinə ciddi zərbə vurdu. Amma «şanlı stalinçilər» bunun fərqində deyildilər.

1936-cı ildən etibarən Stalin rejimi azərbaycanlı ziyalılara qarşı total hücuma başladı. 1937-ci ildə bu proses özünün zirvə nöqtəsinə çatdı və 1938-ci ilə kimi səngimək bilməyən sürətlə davam etdi. Şübhəsiz ki, sonrakı illərdə də kütləvi repressiyalar ara verməyəcəkdi, lakin müharibənin astanada olması vəziyyəti bir qədər dəyişdi və rəhbərliyin diqqətini «əsas məsələ»dən yayındırdı. Cəmi bir neçə il çəkən bu müddət ərzində on minlərlə ziyalımız məhv edildi və nə qədər qəribə görünsə də, onların hamısı «imperialistlərlə əlaqə»də, «vətənə xəyanət»də, «türkçülük»də ittiham olunurdu. O zaman azərbaycanlı ziyalıların bir təbəqə olaraq «ləğvi» stalinizmin başlıca məqsədlərindən birinə çevrilmişdi. Məsələ burasında idi ki, kütləvi repressiyalar bütün SSRİ-ni əhatə etsə də, Azərbaycanda «xalq düşmənlərinə qarşı mübarizə» adı altında həyata keçirilən bu proses həm də başqa məqsədlərə, ilk növbədə millətin genofondunun məhvinə yönəldilmişdi. Belə ki, Stalin və onun tərəfdarları hakimiyyətin uzunömürlüyünü təmin etmək, eyni zamanda real əsaslara söykənməyən sosialist dövlət quruculuğunu davam etdirmək üçün düşünən beyinlərin aradan götürülməsinə can atırdılar. Azərbaycanda həm də milli azadlıq ideyalarının yenidən baş qaldırması təhlükəsi və ənənəvi etnik ayrı-seçkilik amili də öz rolunu oynayırdı.

Azərbaycanda sovet totalitarizminin spesifik xüsusiyyətləri vardı. Bu, ilk növbədə dünyagörüşü, psixologiya, siyasi yönüm, milli mentalitet, xalqın mədəni səviyyəsi ilə bağlı idi. Burada totalitar sistemin mənbəyi sayılan bolşevizmin tarixi XX əsrin əvvəllərindən başlayır. XIX əsrin son illərində Bakı sosial-yönümlü demokratik hərəkatın yaranması və yayılması mərkəzlərindən biri olmuşdu.

Marksın nəzəriyyəsinə əsaslanan bolşevizmin məqsədi sosializmi qurmaq, sonradan bir sinfin diktaturası və şəxsi mülkiyyətin ləğvi yolu ilə kommunist cəmiyyəti yaratmaq idi. İctimai həyatın bütün atributları və parametrlərinə görə bərabər

olaraq bu cəmiyyət kollektiv psixologiyaya əsaslanırdı.

Lakin yerli əhalidə bolşevizmə xüsusilə mənfi münasibət var idi. Bu məsələdə milli amil də mühüm rol oynayırdı. Azərbaycanda bolşevikyönümlü təşkilat və komitələrin yaranması buraya əhalinin erməni hissəsinin kütləvi axını ilə müşayiət olunurdu ki, bu da azərbaycanlılarda güclü narahatlıq doğururdu. Ermənilərin müsəlmanlara qarşı törətdikləri vəhşilik və dəhşətlər yerli əhalinin hafizəsində böyük iz qoymuşdu. 1918-ci ilin mart hadisələri də bu məsələdə həlledici rol oynamışdı. Bakı kommunası Azərbaycan xalqının tarixində qanlı izlərlə yaddaşlaşmışdı. Məhz erməni bolşeviklərinin əli ilə daşnakların hərbi birləşmələri bütün türklərdən və Azərbaycanın bölgələrində yaşayan müsəlman türklərindən qanlı qisas alırdı. Azərbaycanlılar bu mənfur millətdən olan əhalinin fəal iştirak etdiyi siyasi təşkilatlara və partiyalara əvvəldən şübhə ilə yanaşırdılar.

Digər tərəfdən, bolşeviklər özləri də yerli əhalini həmin təşkilatlara cəlb etməyə səy göstərmirdilər. Belə ki, onları savadsız və siyasi baxımdan passiv kütlə kimi qəbul edirdilər.

Məlum olduğu kimi, sosializmin təşəkkülü, fəhlə-kəndli hökumətinin qərarlaşması bizim respublika üçün daha ağrılı keçmişdir. XI ordunun Hərbi İnqilabi Şurası və yeni qurulmuş Sovet hökuməti öz fəaliyyətinin hələ ikinci günü «Müsavat» və «İttihad» partiyalarının rəhbərləri ilə əməkdaşlıq etmək barədə müqavilə imzalamışdı. Lakin bu müqavilə tezliklə Semyon Pankratovun rəhbərlik etdiyi XI ordunun Xüsusi şöbəsi tərəfindən pozulmuşdu. Həmin şöbə, sonra isə Fövqəladə Komissiya (FK) kütləvi həbslər aparmağa başlamış, həbs düşərgələri az vaxtda Azərbaycanın qabaqcıl ziyalı nümayəndələrinin hesabına doldurulmuşdu.

S.A.Pankratov kim idi? Əvvəllər adi dənizçi olan bu insan XI ordunun Xüsusi şöbəsinin rəisi, bolşevik istilasının ilk günlərindən 1920-ci ilin iyun ayınadək Azərbaycan Fövqəladə Komissiyasının sədri olmuşdur. Azərbaycanda ilk kütləvi qırğınların, sui-qəsdlərin və repressiyaların təşkilatçılarından idi. Bu, həmin Pankratov idi ki, onun tabeliyində Azərbaycan

kommunistlərinin gələcək lideri Mircəfər Bağırov xidmət etmişdir. Semyon Andreyeviç Pankratov hələ Bakı hadisələrindən əvvəl «Qanlı Həştərxan» olaylarından məşhur idi.

Bu barədə sosialist emiqrant Melqunov deyirdi: «1919-cu ilin martında Həştərxan fəhlələri tətilə başlamışdı. Onların mitinqi qoşunlar tərəfindən mühasirəyə alınmışdı. Hərbçilər tətilçilərə pulemyotlardan atəş açmış və onlara qumbaralar atmışlar. Səhraya qaçmaq istəyənləri isə süvari atlılar doğrayırdılar.

Şəhərdə kütləvi həbslər başlanmış, Moskvaya isə üsyan haqqında təcili teleqram vurulmuşdu.

Trotski «amansız cəzalandırma» əmrini göndərmişdi və S.M.Kirov, habelə çekistlər – matros Pankratov və quldur Çuqunovun rəhbərliyi ilə edamlara başlanmışdı.

Bərələrdə və gəmilərdə yerləşdirilmiş insanların bir çoxunun boynuna daş bağlayaraq dənizə atırdılar. «Qoqol» gəmisində bir gecədə 180 nəfər batırılmışdı. Güllələnənləri çətinliklə qəbiristanlığa çatdıra bilirdilər. Sonradan başa düşdülər ki, onlar ancaq «proletariatı» qırırlar və «üsyan» mənzərəsinin daha zəngin alınması üçün üzlərini «burjuylar»a döndərdilər. Zəngin məhəllələrdə yoxlamalara və qırğınlara başlandı. Bu özbaşınalıq aprelin axırınadək davam etdi və təxminən 4 min nəfər qətlə yetirildi».

Pankratov qısa müddətdə – 1920-ci ilin may-iyun aylarında Az.FK-ya başçılıq etmişdi. N.Nərimanov Azərbaycana gəldikdən sonra Hərbi-İnqilabi Komitəyə (HİK) şikayət edir ki, FK HİK-lə razılaşdırılmadan adamları güllələyir. Bu məlumatdan sonra Pankratov Az FK-dakı işlərini «milli kadr» Baba Əliyevə təhvil verir və yenidən XI Qırmızı ordunun Xüsusi şöbəsinə qayıdır. Lakin çox keçmir ki, 1920-ci il avqustun 26-da Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu üsyanların yatırılması haqqında məsələni müzakirə edərkən bunun üçün yaradılmış «dördlük»də Xüsusi şöbədən Pankratov da yer alır. Çünki FK o zaman matros

Pankratovun rəhbərliyi ilə «daha uğurla» işləmişdi.

1920-ci ilin aprelində hakimiyyət qan tökülmədən ələ keçirilsə də, tezliklə bolşeviklərin müstəmləkəçilik siyasəti Gəncə, Şuşa, Zaqatala, Qarabağ, Lənkəran və digər uyezdlərdə çoxlu üsyana səbəb oldu.

1920-1924-cü illərdə 54 genişmiqyaslı silahlı üsyan baş vermişdi. Üsyançıları və onları dəstəkləyən mülki əhalini amansızcasına, məhkəməsiz, istintaqsız yerindəcə edam etmişdilər. Tədqiqatçıların yazdıqlarına görə, ümumilikdə 1920-ci ilin aprelindən 1921-ci ilin avqustunadək Azərbaycanda «qırmızı terror»un 48 min qurbanı olmuşdu. Həmin insanların təxminən dörddə-biri ən iri Gəncə üsyanı (1920-ci il 26-31 may) zamanı öldürülmüşdü.

Gəncə üsyanından sonra onun iştirakçılarından olan 23 zabit, o cümlədən 6 general Nargin adasına gətirilmişdi. Bolşeviklərin əsir götürdüyü general-mayor Feyzulla Mirzə şahzadə Qacar Bakıya göndərilmiş və bu adada güllələnmişdi.

1920-ci il iyunun 6-da Gəncə yaxınlığında 79 yüksək rütbəli azərbaycanlı zabit həbs edilmişdir. Pankratovun əmri ilə onlar da Nargin adasında güllələnmişlər. Yüksək rütbəli zabitlər arasında Gəncənin general-qubernatoru Xudadat bəy Rəfibəyov, general Əbdülhəmid bəy Qaytabaşı, podpolkovnik İsmayıl xan Ziyadxanov, general İbrahim ağa Usubov, general Əmir Kazım Qacar, Bakı Şəhər Polis İdarəsinin rəisi Quda Qudiyev, milyonçu Murtuza Muxtarov, general Məhəmməd Mirzə Qacar, general-leytenant Məmməd bəy Sulkeviç, general Həbib bəy Səlimov, İsgəndər bəy Seyfulin və digərləri var idi.

Generallar Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov Nəriman Nərimanovun zaminliyi sayəsində sağ qalmışdılar.

Sovet hökuməti üçün narahatlıq yaradan yüzlərlə şəxs Nargin adasına aparılmış və orada öz aqibətini gözləmişdir. Onların arasında Üzeyir bəy Hacıbəyli Memorial Muzeyinin sabiq direktoru, mərhum Ramazan Xəlilov da var idi. O deyirdi: «1920-ci ilin iyununda mən «Dikaya diviziya»nın alaylarından birinin sabiq unter-zabiti kimi XI Qızıl Ordunun Xüsusi

şöbəsinin əməkdaşları tərəfindən həbs edildim. Staro-Poliseyskaya (indiki Məmmədəliyev küçəsi, ev 5) küçəsində yerləşən həbsxananın ümumi kamerasında ay yarım qaldıqdan sonra məni «əşyalarımla» Nargin adasına göndərdilər. Bu ada mənim üçün dəhşət idi. Bizi çirkli, qoxulu və dar baraklarda yerləşdirdilər. Bizdən əvvəl burada əsir götürülmüş türklər saxlanılırdı. Gündüzlər dözülməz günəş istisindən özümüzü qaynar sobadakı kimi hiss edirdik. Boğucu gecələrdə də rahatlıq tapmırdıq. Hərdən yeməyə heç nə olmurdu. Yanğımızı isti çirkli su ilə söndürürdük. Bütün gün ərzində dırnaq boyda bitlər bizə rahatlıq vermirdi. Gecələr isə çarpayılarımızda siçovullar gəzirdi. Ağcaqanadların dişləməsindən və qaşınmadan üzlərimiz tanınmaz hala düşmüşdü, əllərimiz, ayaqlarımız və bütün bədənimiz yara içində idi.

Mədə-bağırsaq xəstəliklərindən çox əziyyət çəkirdik. Məhbuslar dünyalarını dəyişirdi. Onları adanın şərq hissəsində – çalalarda 5-6 nəfər bir yerdə, yaxud daha çox basdırırdılar.

Xüsusi şöbədə «əşyasız» yola düşməyi əmr etdikləri adamları isə yaxınlıqda yerləşən Pesçanıy (Qum adası) adasına güllələməyə aparırdılar. Bu adada sentyabrın axırınadək qaldım və Nəriman Nərimanovun zaminliyi sayəsində azad olundum».

Sonradan 20-30-cu illərdə bədnam «kollektivləşmə» dövrü start götürdü. Ortabab kəndlilər qolçomaq adı ilə bir sinif kimi ləğv edilməyə başlandı. Sovet cəza orqanları tərəfindən onların bütün mülkiyyətlərinin əllərindən alınması kəndlilərin kütləvi çıxışlarına səbəb oldu. Bu çıxışları «banditizm» adlandıran siyasi orqanlar həmin narazılıqları silah gücünə çox amansızlıqla yatırdılar.

Bolşevizmə mənfi münasibətin təşəkkülündə əsas rollardan birini müsəlman ruhaniləri oynayırdılar. Bolşeviklər Sovet hakimiyyətinin ilk günlərindən nüfuzlu müsəlman ruhanilərini də ağır işgəncələrlə, ən amansız üsullarla aradan götürməyə başladılar.

Qurani-Kərimi ilk dəfə Azərbaycan dilinə tərcümə edənlər-

dən biri, Bakı qazisi, 83 yaşlı Mir Məhəmməd Kərim ağa Nargin adasında güllələndi. Bibiheybət məscidi yerlə yeksan edildi.

Tədqiqatçıların fikrincə, bir faktı da qeyd edək ki, o zaman respublikada güclü siyasi lider də yox idi. 1920-ci illərin əvvəllərində Azərbaycanda bolşevik partiyasının bir neçə görkəmli xadimi işləyirdi, lakin Nəriman Nərimanovdan başqa onların hamısı özgə millətlərin nümayəndələri idi. N.Nərimanov isə partiya hakimiyyətinin bütün şaxələrini birləşdirə bilməmişdi. Tezliklə o, opponentləri tərəfindən respublikanın siyasi səhnəsindən sıxışdırılıb çıxarıldı. Azərbaycan 1930-cu illərin ortalarınadək, əslində, güclü siyasi lidersiz qalmışdı. Demək olar ki, hər il respublikada rəhbərlik dəyişirdi. Fitnə-fəsadlar, qruplaşmalar, çəkişmələr, şəxsi münasibət zəminində intriqalar hakim partiyanın yuxarı təbəqəsini sarsıdırdı.

Mərkəzi partiya orqanları Azərbaycan üzrə bir neçə qərar və qətnamə qəbul etmişdi. Mircəfər Bağırov AK(b)P MK-nın birinci katibi vəzifəsinə təyin edildikdən sonra ayrı-ayrı qrupların mübarizəsi və çəkişmələr də tədricən səngimişdi, sonra isə bütünlüklə dayandırılmışdı. N.Nərimanov, S.Kirov, L.Mirzoyan, Ə.Qarayev, Polonski, Ruben və respublikanın digər rəhbərlərinin edə bilmədiklərini bu zaman Mircəfər Bağırov həyata keçirirdi. Azərbaycan partiya təşkilatının bütün problemlərini respublikanın yeni başçısı çox asanlıqla həll edirdi. O, öncə özünün siyasi opponentlərini aradan götürürdü.

Totalitar sistemin, demək olar, bütün birinci şəxsləri kimi, M.Bağırov da güclü, eyni zamanda amansız idi. O, bacarıqla manevr edir, hər hansı fikir ixtilafını «fraksiyaçılıq» adlandırır, onunla hər hansı mübahisəni sevmir, səhvləri və öz ünvanına tənqidləri bağışlamırdı. Bununla belə, o, respublikanın başçısı kimi öz hərəkətlərində tam azad və müstəqil də deyildi.

Beləliklə, 1920-ci illərin axırlarında bolşeviklər dövlət orqanları üzərində sərt nəzarət sistemi yarada bildilər. Respublikada qanunverici, icraedici və məhkəmə hakimiyyəti bolşevik partiyasının nümayəndələrindən ibarət oldu, onun göstərişlərini yerinə yetirməyə başladı.

M.Bağırov AK(b)P MK-nın birinci katibi təyin olunan

vaxtlaradək bolşevik hökuməti elə bir sistem yaratmışdı ki, burada partiyaya üzvlük şəxsiyyət üçün bütün mühüm həyati problemləri həll edirdi. Kommunistlər cəmiyyətdə hakim mövqe tuturdular. Yetişməkdə olan nəsil partiya tərbiyə sisteminin müəyyən mərhələlərindən keçirdi: azyaşlılar üçün pioner təşkilatları, gənclər üçün komsomol, yaşlılar üçün partiya.

Bu cür sistemin yaradılmasında bolşevik ideologiyası, təbii ki, mühüm rol oynayırdı. 1920-ci illərin ortalarında Azərbaycanda mətbuat azadlığı rəsmən ləğv edilmişdi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin xüsusi qərarı ilə başqa cür düşünən mətbuatın yaradılması və respublikaya «ağqvardiya» mətbuatının gətirilməsi qadağan edilmişdi. Bütün qeyri-bolşevik partiyalar və təşkilatlar qanundankənar elan edilmişdi.

İctimai-siyasi sahədə bolşevik hakimiyyətinin möhkəmləndirilməsi tədbirləri sosial-iqtisadi həyatda adekvat hərəkətlərlə müşayiət olunurdu. Sovet hakimiyyətinin ilk günləri ölkənin bütün sərmayə və sərvətinin dövlətləşdirilməsi və milliləşdirilməsi ilə nəticələndi. Respublikada rəsmən şəxsi mülkiyyət ləğv edildi. Sosial-iqtisadi xarakterli tədbirlər keçirilərkən mərkəz yerli xüsusiyyəti və şəraiti, Azərbaycan iqtisadiyyatının imkanlarını nəzərə almırdı.

Beləliklə, 1920-ci illərin axırlarında Azərbaycanda bərqərar olmuş totalitar rejim Rusiya imperiyasının əməlləri ilə bağlı idi. Bu sistemin bütün atributları və xüsusiyyətləri mərkəzi partiya orqanlarının göstərişi ilə yaradılırdı. Kütləvi repressiyalar, təqiblər, sürgünlər və yerli əhaliyə münasibətdə aparılan digər cəza tədbirləri xüsusilə amansız səciyyə daşıyırdı.

1934-cü il dekabrın 1-də Leninqrad Vilayət Partiya Komitəsinin katibi S.M.Kirov qəfildən öldürülür. Bu hadisə SSRİ-də total repressiyaların başlanmasına bəhanə olur. Bir neçə saatdan sonra Siyasi Büronun təcili yığıncağı çağırılır və SSRİ MİK-in «1 dekabr qanunu» adını almış qərarı hazırlanır.

Əslində, ölkədə nəzərdə tutulan kütləvi repressiyalar üçün baza ilin əvvəlindən hazırlanmışdı. Belə ki, 1934-cü il yanvarın 26-da partiyanın XVII qurultayında Stalin tərəfindən antisovet

qüvvələrə qarşı mübarizənin konsepsiyası bəyan edilmişdi. Bu qurultayda Lavrenti Beriyanın çıxışı yaddaqalan olmuş və alqışlarla qarşılanmışdı. Sonrakı illərdə bu qurultayın 1966 iştirakçısından 1108-i, o cümlədən MK-nın 139 üzvündən 98-i güllələnmişdi.

1936-cı il avqustun 3-də Azərbaycan KP MK-ya ÜİK(b)P MK-nın qapalı məktubu daxil olur. Elə həmin gün Mircəfər Bağırov MK-nın təcili yığıncağını çağırır. Burada qəbul olunan qərarda ÜİK(b)P MK-nın qapalı məktubu ilə əlaqədar Azərbaycanda və Bakıda əksinqilabi terrorçu qrupların fəaliyyəti haqqında konkret material hazırlamaq Anastas Akopova tapşırılır (A.Akopov BK-nın ikinci katibi idi. Azərbaycanda kütləvi repressiyaların həyata keçirilməsində əsas fiqurlardan olan A.Akopov 1 fevral 1936-cı ildə Azərbaycan K(b)P MK-nın ikinci katibi postunda A.Aqrbanı əvəz etdi).

Bu ərəfədə Beriyanın «Pravda» qəzetində böyük bir məqaləsi çap olunur. Məqalədə Cənubi Qafqaz şəhərlərində, o cümlədən Bakıda və Kirovabadda sosializmin, xalqın düşmənlərinin – əksinqilabçıların trotskçi-zinovyevçi qruplarının ifşa edilməsi haqqında məlumatlar verilir. Bundan sonra Bağırov, Akopov, Sumbatov-Topuridze, Yemelyanov, Markaryan, Qriqoryan, Borşev və başqalarının cəza maşını bütün gücü ilə işləməyə başlayır. Xalqın «sayıqlığı» o dərəcədə artırılır ki, hamı hər yerdə, hətta öz ailəsində belə «düşmən» axtarışına başlayır.

İlkin dövrlərdə həbslər XDİK-in əvvəlcədən tərtib olunmuş kartotekaları əsasında aparılırdı. Sonra isə istintaq vasitəsilə əldə edilmiş «ifadələrə» üstünlük verilməyə başlandı. Müstəntiqlər donoslardan yalnız köməkçi material kimi istifadə edirdilər.

Bakıda dəniz kənarındakı beşmərtəbəli binanın (indi Dövlət Sərhəd Xidmətinin binası) içərisində vaxtilə nələr baş verdiyini çoxları bilmir. Bu binanın həyətində iki-üç mərtəbəli daha bir bina da var. Bura Daxili İşlər Nazirliyinin istintaq həbsxanası idi. Bu binanı 30-cu illərdə Mircəfər Bağırov tikdirib. İç bina qəsdən elə inşa olunub ki, divarların arasından keçən yollar, müxtəlif işgəncə otaqları, xaricə səs buraxmayan xüsusi kameralar

buradakı cinayətləri ört-basdır etməyə ideal şərait yaradır *(F.Sabiroğlu, «İki ölüm arasında» məqaləsi).*

Bu binanın ikinci mərtəbəsində qadınlar, qalan mərtəbələrdə isə kişilər saxlanılırdı. Dustaqlar mühakimə olunduqdan sonra binanın birinci mərtəbəsindəki iki-dörd adamlıq kameralarda saxlanılırdılar. Qalan mərtəbələrdəki kameralar təkadamlıq idi. Binanın hər mərtəbəsində 40 hesabı ilə cəmi 200 kamera var idi. Zirzəmidə də çoxlu sayda kameralar mövcud idi.

1937-ci il iyulun 30-da XDİK-in «Keçmiş qolçomaqların, cinayətkarların və başqa antisovet elementlərin repressiya olunması üzrə əməliyyat haqqında» 00447 nömrəli və 1937-ci il avqustun 15-də «Vətən xainlərinin arvadlarının və uşaqlarının repressiya olunması üzrə əməliyyatlar haqqında» SSRİ XDİK-in 00486 nömrəli operativ əmrləri müzakirə edilir. Hər iki əmr xalq daxili işlər komissarı N.Yejov tərəfindən imzalanır. Bu, «böyük terror» dövrünün ən amansız aksiyası idi. Sənəddə repressiya olunmalı kontingent çox dəqiq müəyyən edilmiş və iki kateqoriyaya ayrılmışdır. Birinci kateqoriyaya təcili həbs olunaraq güllələnənlər, ikinci kateqoriyaya isə 8 ildən 10 ilə qədər müddətə düşərgələrdə və ya həbsxanalarda azadlıqdan məhrum edilənlər aid idi. Hər bir vilayət, diyar və respublika üçün bu iki kateqoriyadan repressiya olunanların sayı limit üzrə müəyyənləşdirilmişdir. Azərbaycan üçün müəyyən edilmiş limitdə birinci kateqoriyaya aid edilənlərin sayı 1500 nəfər, ikinci kateqoriyaya aid edilənlərin sayı isə 3 min 750 nəfər idi. Ümumilikdə SSRİ üzrə 259 min 450 nəfərin həbs edilməsi nəzərdə tutulmuşdu. Bunlardan 72 min 950 nəfəri güllələnməli idi. Əmr yerli rəhbərlərə Moskvadan əlavə limitlər almaq hüququ da verirdi. Hökmlərin icrası üzrə maddənin ikinci bəndində deyilirdi ki, birinci kateqoriya üzrə hökmlər yerlərdə xalq daxili işlər komissarlarının... göstərişi üzrə, hökmün icra olunma vaxtı və yeri tam məxfi saxlanılmaqla həyata keçirilməlidir. Hökmün icra olunması haqqında sənədlər ayrıca zərfdə hər bir məhkumun istintaq işinə əlavə olunmalıdır.

Bütün bunlardan əlavə, üçüncü kateqoriyaya aid edilən qrup-

lar da var idi. Buraya aid edilənlərin siyahısını yerli XDİK-lər hazırlayırdılar. Sürgün həyatı gözləyən belə insanların taleyini Azərbaycanda Xalq Daxili İşlər Komissarlığının Xüsusi müşavirəsinin sədri Xoren Qriqoryan həll edirdi. Sürgün olunanlar üçün Uzaq Şərqdə, Sibirdə və Orta Asiya çöllərində xüsusi yerlər ayrılmışdı.

Stalinin həyata keçirdiyi repressiyalar sovet dövrü tarixinin ən gərgin, məsuliyyətli bir mərhələsini təşkil edirdi. Məhz bu dövrdə kollektivləşmə geniş vüsət almaqda idi, Sovet İttifaqı beynəlxalq aləmdə öz mövqelərini gücləndirmək üçün yeni müttəfiqlər tapmışdı, pis-yaxşı, dövlət idarəetmə sistemi oturaqlaşırdı, cəmiyyətdə zahiri sabitlik bərqərar olunmuşdu və s. Bütün bunlara baxmayaraq, xalqdan qorxu hissi hələ kommunistləri tərk etməmişdi. Ən maraqlı məqam bundan ibarət idi ki, Stalin idarəçiliyinə xas olan bir keyfiyyət – bütün insanların timsalında xəyanətkar axtarışı, hamıdan şübhələnmək bu sistemin əksər məmurlarının psixoloji portretinin əsas ştrixini təşkil edirdi. İosif Stalin ölkənin hətta hər bir kəndində belə kiçik «stalinlər» yaratmışdı. Stalin «qolçomaqlar» sinfini ləğv etmək göstərişini verməklə və kollektiv mülkiyyət anlayışını gündəmə gətirməklə, əslində, sovet dövlətinin dayağı ola biləcək bir sinfin – orta təbəqənin məhvinə nail oldu. «Sovet İttifaqında, əslində, əvvəldən bir sistemsizlik hökm sürürdü və stalinizmin meydana çıxması da elə bu sistemsizliyin nəticəsi idi. Çünki sosializmi qurmaq üçün cəmiyyətdən sosial sifariş olmadığından tamamilə zorun və gücün təsirinə əsaslanan bir mexanizmin yaranmasına ehtiyac duyulurdu» *(Z.Bünyadov. «Qırmızı terror», Bakı, 1993).* Stalin məhz belə bir mexanizmin yaranmasına nail ola bildi.

Sovet Azərbaycanının tarixi həm də kütləvi deportasiyalarla xarakterizə olunur. Bu deportasiyaların, demək olar ki, hamısı məhz Stalinin dövründə həyata keçirilmişdir. Milli-etnik ayrıseçkiliyin geniş vüsət alması azərbaycanlılara qarşı düşmənçilik mövqeyi tutan ermənilərə yeni imkanlar vermiş və məhz onların ardıcıl səyləri nəticəsində yüz minlərlə azərbaycanlı öz doğma yurdlarından didərgin salınmışdı. Bu plan İosif Stalinin xeyir-

duası və Mircəfər Bağırovun dəstəyi ilə reallaşdırılmışdı. Sonralar M.Bağırov öz xalqına qarşı törətdiyi cinayətlər haqqında bunları söyləmişdi: «Mənim əsas səhvim odur ki, Beriyaya və onunla bağlı olan, onun düşmən mövqeyini müdafiə edən, orqanlarda birgə iş üzrə onunla uzun illər boyu əlaqədə olan Sumbatov, Borşev, Qriqoryan, Markaryana və başqalarına göz yummuşam, onların iç üzünü tanımamışam. Mən onlara inanaraq XDİK orqanlarını, demə, «cəlladlara» etibar etmişəm. Bu işdə xalqın qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək belə azdır».

M.Bağırovun ifadələrindən də açıq görünürdü ki, azərbaycanlılara qarşı törədilən cinayətlərdə ermənilər xüsusi fəallıqla iştirak edirdilər. Əslində, bu mənfur millətin Azərbaycan xalqına qarşı nifrətinin daha dərin kökləri var idi və yalnız Stalin dövrünü əhatə etmirdi, amma məsələ burasındadır ki, məhz ötən əsrin 30-cu illərində həmin proses SSRİ rəhbərliyinin açıq himayəsi altında həyata keçirilirdi.

Artıq 1920-ci ildə Azərbaycanın Zəngəzur bölgəsi ermənilərə verilmişdi. 1921-ci ildə isə Dağlıq Qarabağı da Ermənistana birləşdirmək ideyası meydana çıxmış, yalnız Nəriman Nərimanovun müqaviməti bu çirkin niyyətin həyata keçirilməsinə imkan verməmişdi. Ermənilər isə bütün sahələrdə mübarizəni davam etdirirdilər. 1923-cü ilin iyulunda Dağlıq Qarabağa muxtariyyət verilməsinə nail ola bildilər. Lakin Stalinin havadarlığı ilə azərbaycanlılara qarşı yönəlmiş təzyiqlər bununla yekunlaşmırdı və 1945-ci ilin noyabrında Ermənistan KP MK-nın birinci katibi Q.Arutyunov İ.Stalinə məktubla müraciət edərək Dağlıq Qarabağın Ermənistan SSR-lə həmsərhəd olmasını, iqtisadiyyatı ilə guya sıx bağlılığını nəzərə alaraq onun Ermənistan SSR-ə birləşdirilməsinin zəruri olduğunu bildirir. İ.Stalin bu təklifə, demək olar ki, heç bir etiraz etmədən onu araşdırılmaq üçün K.Malenkova göndərir. Sonradan həmin məktub Azərbaycan rəhbərliyinə verilir və təklifin həyata keçirilməsinin nə dərəcədə real olduğunu araşdırmaq tapşırılır.

Doğrudur, cavab məktubunda M.Bağırov Dağlıq Qarabağın

tarixən Azərbaycan torpağı olması barədə ətraflı izahat verərək qeyd edir ki, Şuşa rayonunu çıxmaq şərti ilə Azərbaycan həmin təklifə etiraz etmir, bir şərtlə ki, Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR-də əsasən azərbaycanlılar yaşayan, Azərbaycanla həmsərhəd olan və tarixən Azərbaycanın ayrılmaz hissəsi olmuş ərazilər də Azərbaycana birləşdirilməlidir. Bu, faktiki olaraq, ermənilərin təklifinə rədd cavabı demək idi. Amma sonrakı mərhələdə M.Bağırov öz mövqeyini sona qədər qorumadı və nəticədə ermənilər Muğan–Mil düzlərində pambıq əkilən rayonları işçi qüvvəsi ilə təmin etmək bəhanəsi ilə Ermənistan ərazisində olan azərbaycanlıları köçürmək və onların yerlərində xaricdən gələn ermənilər yerləşdirmək planını həyata keçirməyə nail oldular.

Beləliklə, SSRİ Nazirlər Soveti 1947-ci ilin dekabr ayının 23-də «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür–Araz ovalığına köçürülməsi haqqında» 4083 saylı qərar qəbul edir. 1948-ci il martın 10-da SSRİ Nazirlər Soveti İ.Stalinin imzaladığı və bilavasitə qərar hissəsindən başlanan bu sənədə əlavə olaraq ikinci bir qərar qəbul edir və bu dəfə İ.Stalinin imzaladığı ikinci qərarda azərbaycanlıların köçürülməsi ilə əlaqədar tədbirlər planı geniş şəkildə öz əksini tapır.

23 dekabr 1947-ci il tarixli qərarın birinci bəndində göstərilirdi ki, 1948-1950-ci illərdə «könüllülük prinsipləri əsasında» Ermənistan SSR-də yaşayan yüz min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür–Araz ovalığına köçürülsün.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı və 1948-ci il 10 mart tarixli 754 saylı qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə 150 000-dən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından sürgün edilmişdi. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır

köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşdu. Bu işdə erməni şovinist dairələrinin və keçmiş SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrdəki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə biganə, mənafeyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdı.

Bizim üçün maraqlı, həm də ibrətamiz məqamlardan biri də ötən əsrin 30-cu illərində Ermənistan SSR-də kolxoz hərəkatına müqavimət göstərənlərin də, repressiyaya məruz qalanların da əksəriyyətinin azərbaycanlılardan ibarət olmasıdır. Kütləvi repressiyaların və sürgünlərin geniş vüsət aldığı bu dövrdə Ermənistanda yaşayan 50 000 nəfərdən artıq azərbaycanlı əhali ailəliklə Qazaxıstan çöllərinə köçürülmüşdü. Sonradan burada onların xeyli hissəsi həlak olmuşdu. Cəza müddəti qurtardıqdan sonra öz evlərinə qayıtmaq istəyən ailələrin isə əksəriyyətini Ermənistana buraxmamışdılar və böyük məhrumiyyətlər bahasına geri qayıdanların bir çoxu yenidən deportasiyaya məruz qalmışdı.

Göründüyü kimi, azərbaycanlılara qarşı törədilən kütləvi terror və deportasiya əməliyyatlarında Stalin rejiminin izləri açıq şəkildə özünü göstərirdi. Stalin rəhbəri olduğu illərdə qanunun diktaturasını yaratdığını iddia edirdi, halbuki sistemin əsl mahiyyəti məhz diktaturanın qanunsuzluğu üzərində intişar tapmışdı. Belə bir qanunsuzluğun hökm sürdüyü cəmiyyətdə, təbii ki, ədalət, demokratiya, bərabərlik anlayışlarından danışmağa belə dəyməzdi.

Hər şey bir nəfərin iradəsinə tabe etdirilmişdi, nə bilirdisə, onu da edirdi, çünki «o, hər şeyi bilirdi». Şəxsiyyətə pərəstişin ifrat və ən ikrahdoğurucu forması olan bu düşüncə tərzi, bəlkə də, ən qatı, mürtəce rejimin hökmranlıq etdiyi cəmiyyətlərdəki ilə eyni idi. Hətta Stalin öldükdən sonra da heç kim «böyük rəhbərin vaxtsız vəfatına» inanmırdı. Stalin bütün sovet adamları üçün «ölməzlik etalonu»na çevrilmişdi və bu da təsadüfi deyildi. O, özü haqqında cəmiyyətdə elə bir xof yaratmışdı ki, heç kim

bu qəddar, amansız insanın dünyasını dəyişdiyinə sadəcə inana bilmirdi.

İndi bir çox tarixi araşdırmalarda Stalinin ölümünün SSRİ-də böyük bir kədər hissi ilə qarşılandığına dair faktlara rast gəlirik. Nə idi xalqın bu əzazil insana «hədsiz məhəbbət»inin sirri? Əlbəttə, heç bir səmimi sevgidən söhbət gedə bilməzdi. Bu, sadəcə, qorxunun doğurduğu bir «sevgi» idi və onun arxasında həm də uzun illərdən bəri cəmiyyətə zorən qəbul etdirilmiş «Ata» obrazı dayanırdı. Amma zaman keçdikcə sübut olundu ki, bu cür təbliğat texnologiyaları özünü doğrultmur və əgər cəmiyyətdə hər hansı liderə rəğbət onun həqiqi, təqdirəlayiq əməlləri əsasında formalaşmırsa, bunu qorxu mexanizminin köməyi ilə yaratmaq mümkün deyildir.

Əlbəttə, Stalin dövrü artıq bizim və bütün postsovet məkanının tarixi keçmişidir. Lakin gələcəyə doğru daha uğurla addımlamaq üçün keçmişə nəzər salmaq həmişə vacibdir. Bu baxımdan Azərbaycan tarixinin Stalin rejiminin əhatə etdiyi illərini tədqiq etməyə həmişə ehtiyac olacaqdır.

BU DÜNYA BİR TƏLƏDİR

Teymur Heydər oğlu Salahov: 1956 №li məhbus

Biz də o əsrin övladlarıyıq – tarixdə bir çox misilsiz hadisələri ilə yaddaşlarda qalan XX əsrin. Ancaq həmin yüzilliyin bir çox olayları bizdən qabaq baş vermişdi. Dünyaya göz açandan və onu dərk edəndən sonra biz həmin hadisələrin nələr törətdiyini eşitmiş, oxumuş, öyrənmişik.

Yaxşı yadımdadır, hələ gənc yaşlarımda ötən əsrin 30-cu illərinin Stalin repressiyaları haqqında bildiklərim barədə tez-tez danışardım. Hər dəfə də evdəki yaşlı insanların keçirdiyi narahatlıq hissindən təəccüblənərdim. Ömrünün qürub çağını yaşayan bu insanlar mənim Stalin haqqında dediklərimdən möhkəm təşvişə düşürdülər. Mən isə cidd-cəhdlə onlara anlatmaq istəyirdim ki, sizin dediklәriniz artıq keçmişdə qalıb: hamı tərəfindən mühakimə edilən, hökmü oxunmuş bir keçmişdə. İndi bütün insanlar həmin dövrü qəlb ağrısı, kədərlə xatırlayır və Stalinin həyata keçirdiyi kütləvi repressiyaları bəşəriyyətə, o cümlədən özünün rəhbərlik etdiyi ölkəyə, sovet cəmiyyətinə qarşı yönəlmiş cinayət aktı kimi qiymətləndirirlər və bu barədə danışmağın heç bir qorxusu yoxdur. Amma mənim bütün arqumentlərim bu insanların yaddaşında iz qoymuş Stalin kabusu önündə qat-qat zəif və aciz idi, onları fikirlərindən döndərə bilmirdi. Mən isə hər dəfə yaxınlarımın üzündəki qəribə təlaşı görür, onların keçirdiyi qeyri-ixtiyari qorxu hissini anlaya bilmirdim. Anam deyirdi ki, «NKVD» (XDİK) deyilən binanın yanından keçəndə oradan gələn dəhşətli, tükürpədən səslər, bağırtılar, sızıltılar, ah-nalələr indiyədək içimi titrədir. Ona görə də bu barədə çox danışma, yaşlılar qorxur.

Zaman keçdi və mən 30-cu illərin faciəli olayları haqqındakı tarixi araşdırmaları oxuduqdan sonra həmin dəhşətləri yaşayan

adamların keçirdikləri həyəcan hissinin səbəblərini anlamağa başladım. Onların qorxmağa haqları var idi, çünki Stalin rejimi, doğrudan da, bütün bəşəriyyətin ehtiyat etdiyi dəhşətli bir kabus kimi insanların – ovaxtkı sovet vətəndaşlarının həyatında və yaddaşında faciələrlə dolu bir iz qoymuşdu. İstənilən anda bu qorxu stereotipi hər bir insanı silkələyə, qəfil elektrik cərəyanı kimi bütün vücudunu «titrədə» bilərdi. Və indi, 1930-cu illər barədə danışarkən bu qorxulu olaylar xatırlananda o dövrü gözləri ilə görən, min bir əzab-əziyyətə qatlaşan, ağrı-acılar çəkən adamların həyəcandan sifətlərinin rənginin, simalarının dəyişdiyi yadıma düşür. Mənə elə gəlir ki, o həyəcan Stalin dövrünün bütün mahiyyətini tam dəqiqliyi ilə özündə ifadə edə bilmək qüdrətinə malikdir və 30-cu illərdə nələrin baş verdiyini anlamaq üçün bundan daha gözəl sübut ola bilməz.

İndiyədək repressiyaya uğramış 50-dən çox insanın cinayət işi ilə tanış olmuşam, həyat və fəaliyyətlərini araşdırmışam, onların haqqında məqalələr yazmışam. Sanki bu insanlar eyni ananın övladları idi. Hər dəfə şəkillərinə baxanda məhbusların hamısının dəhşətli dərəcədə bir-birinə bənzədiklərini görürəm. Təkcə boy-buxun, görkəm sarıdan deyil, tale, qədər oxşarlığı baxımından da… Onlar sovet həbsxanalarında, DTK-nın zirzəmilərində eyni işgəncələri, əzab-əziyyətləri görmüşdülər. Çətinlikləri, müsibətləri, fiziki təzyiqlərə məruz qalmaları, bəzən günlərlə ac-yalavac, susuz saxlanmaları hamısının baxışına, şişib tanınmaz hala düşmüş üzlərinə, üst-başlarına, ən əsası isə günahsız qurbanların gözlərinə çökmüşdü.

Tarix heç nəyi silmir, unutmur. İlləri də, dövrü də, zəmanəni də, cəmiyyətdə gedən prosesləri, baş verən olayları, pisliklərі, ağrı-acıları, faciələri də… Həmin dövrü araşdırarkən mənə bir daha aydın oldu ki, miskinlər öz ətraflarında hansısa bir şəxsiyyətin, istedadın mövcudluğuna dözə bilmirlər. Ona görə də məşum 37-nin olaylarının baş verdiyi illərdə işləmək, fəaliyyət göstərmək çox çətin və təhlükəli idi. Özünü qoruya bilməyib repressiyanın axınına düşənlər başqa yolların mümkünlüyünü ağıllarına belə gətirmirdilər. Bu, həmin zəmanənin vizit kartına çevrilmişdi.

Teymur Heydər oğlu Salahov (1896 – 1938)

Teymur Heydər oğlu Salahov da məhz belə bir dövrün haqsız qurbanlarından idi. Onun həyat və fəaliyyəti sosializm ideyalarına xidmət işində keçmişdi. Minlərlə Azərbaycan ziyalısı kimi, o da bu yeni ictimai quruluşun xalqlara xoşbəxtlik gətirəcəyinə sidq-ürəkdən inanmışdı. Lakin minlərlə Azərbaycan ziyalısı kimi, onun da bu inamının üstündən 30-cu illərin repressiya maşını qanlı bir xətt çəkmişdi.

QISA ARAYIŞ:

Teymur Heydər oğlu Salahov 1896-cı ildə anadan olmuşdur. Milliyyətcə Azərbaycan türkü, sosial vəziyyəti fəhlə idi.

1910-1920-ci illərdə Nobel qardaşları və Benkendorfun sahibkar olduqları Balaxanı neft mədənlərində fəhlə işləmişdir.

1920-1923-cü illərdə Birinci kommunist polkunda Qırmızı ordunun əsgəri kimi xidmət göstərmişdir. Sonra Ali İnqilabi Tribunalın üzvü olmuşdur.

1923-1924-cü illərdə Azərbaycan Fövqəladə Komissiyasında nəzarətçi vəzifəsində çalışmışdır.

1924-1928-ci illərdə Sovet Partiya Məktəbinin kursantı olmuşdur.

1928-1929-cu illərdə Azərbaycan Baş Siyasi İdarəsində (Az.QPU) komendantın köməkçisi vəzifəsini icra etmişdir.

1929-1931-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda partiya təşkilatının katibi vəzifəsində işləmişdir.

1931-1932-ci illərdə Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Dəstafur rayon komitəsinin katibi olmuşdur.

1932-1933-cü illərdə Gəncədə və Ağdaşda Sənaye Bölməsinin və Kütləvi Təbliğat Şurasının rəhbəri işləmişdir.

1933-1934-cü illər ərzində Əli Bayramlı rayonunda (hazırda Şirvan) Qaraçala sovxozunda Siyasi şöbənin rəis müavini vəzifəsini icra etmişdir.

1934-1935-ci illərdə Laçın rayonunda heyvandarlıq sovxozunun siyasi şöbəsinin rəisi kimi fəaliyyət göstərmişdir.

1935-1936-cı illər ərzində T.Salahov Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Laçın rayon komitəsinin birinci katibi kimi məsul vəzifədə işləmişdir.

1936-cı ildən həbs edilənə kimi Azərbaycan Meyvə-Tərəvəz Ticarəti Birliyinin direktor müavini vəzifəsini daşımışdır.

ADİ REPRESSİYANIN TARİXİ VƏ YA BİR QIZIL ƏSGƏRİN TALEYİ

(Sənədli povest)

Hər həyat səhifəsi ömrün bir yazıdır.
Əbu Turxan

I. Raykom katibini Bakıya nə üçün çağırdılar

1936-cı ilin mayında Laçın Rayon Partiya Komitəsinin katibi Teymur Heydər oğlu Salahovu vəzifəsindən azad edib Bakıya çağırdılar. O, buna təəccüblənmədi. 1935-ci ildən icra etdiyi Laçındakı birinci katib vəzifəsi yeddinci iş yeri idi. Tutduğu vəzifələrin hamısı AK(b)P MK-nın nomenklaturası hesab edilirdi. Partiya intizamı isə hərbidə olduğu kimi, bəlkə də daha sərt sayılırdı. Teymur 1919-cu ildən partiyaçı idi və hərbi intizama çoxdan öyrəşmişdi. Həm də ona görə ki, 1920-ci ilin mayından, Demokratik Cümhuriyyətin yerinə Sovet hökuməti elan olunduğu günlərdən Qırmızı orduda – Birinci kommunist polkunda 1923-cü ilin sentyabrınadək qulluq etmişdi.

Həmin dövrdə bolşeviklərin hamısı hərbi paltar geyinirdi, ona görə mülki və hərbi adamları fərqləndirmək çətin idi. Teymur da partiya işinə keçəndən sonra əynini dəyişməmişdi. Əslində, geyməyə bir şey də yox idi. Fabriklər, zavodlar dağılmışdı. Kasıblıq baş alıb gedirdi. Hərbi paltar isə ucuz və davamlı idi.

O, Laçından Bakıya yola düşəndə hətta bir az sevindi də... Ailəsi ilə görüşəcəkdi. Rayonda tək yaşayırdı. Beş uşağından ikisi Bakıda məktəbə gedirdi. Böyük oğlu Sabir ikinci, ortancıl Mahir birinci sinifdə oxuyurdu. Kiçik Tahir bu il məktəbə getməli idi. Qızı Zərifə isə hələ balaca idi – 3 yaş yarımın

içindəydi. Uşaqları rus bölməsinə qoymuşdu, çünki özü əvvəllər rus dilini zəif bildiyi üçün çox əziyyət çəkirdi. Yazı-pozu hər yerdə bu dildə aparılırdı. Çoxları bircə rusca bildiyinə görə dövlət vəzifələri tuturdu. Ona görə də bütün dəftərxanalarda ruslar və ermənilər oturmuşdu. Teymur da istəyirdi ki, övladları rusca savad alıb həyatda özlərinə yer tutsunlar.

May ayı Laçının yağışlı-dumanlı vaxtı idi. Gecələrin şaxtası təzəcə çəkilmişdi. Yevlaxa – dəmir yoluna qədər iki günluk at yolu idi. Laçından çıxanda yağış yağırdı. Bərdəyə çatanda həm özü, həm də onu ötürən iki beşaçılanlı milis nəfəri də başdan-ayağadək islanmışdı. Milis nəfəri onları qohum evinə apardı. Hava qaralmışdı. Ev sahibi hündür, lopabığ kişi idi, qonaqları mehriban qarşıladı. Deyəsən, hazırlıq da görmüşdülər. Bir göz qırpımında isti çay, yemək qoydular. Teymur neçənci dəfə idi ki, kənd camaatının mehribanlığı barədə fikirləşirdi. Onlardan yaşlı kişi qonaqların üstündə əsirdi. Bakıda – şəhər yerində belə deyildi.

Söhbət, həmişəki kimi, havadan düşdü. Teymurun danışmağa halı yox idi. Bütün günü at üstə yol gəlib yorulmuşdu. Beli ağrıyır, ayaqları zoqquldayırdı. Amma yorğunluq barədə milislərin yanında nəsə demək istəmirdi. İki gün əvvəl raykomun büro iclasında katib vəzifəsindən azad olunsa da, hamı ona yenə «yoldaş katib» deyə müraciət edirdi. İşlərini müavininə təhvil vermişdi.

Büronun yeddi üzvü vardı. Bakıdan gələn nümayəndə Laçına axşam çatdı, Teymurdan xahiş etdi ki, tez büronu çağırsın. Amma məsələ barədə Teymura heç nə demədi. O da soruşmadı. Nümayəndəni uzaqdan tanıyırdı, amma yaxınlıqları olmamışdı. Göstərişləri icra etməyə öyrəşmişdi, hərbi adam kimi onun üçün belə rahat idi. Büronu toplamaq beş-altı saat çəkdi. Onlardan ikisi böyük sovxozların siyasi şöbə rəisləri idi, arxalarınca atlı yolladılar. Teymurdan başqa dörd nəfər Laçının özündə çalışırdı: milis rəisi, rayon soveti icraiyyəsinin sədri, katibin müavini və raykomun təbliğat şöbəsinin müdiri. Kəndlərdəki iki nəfər gecə 1-ə işləmiş gəlib çıxdı.

MK-nın nümayəndəsi cəmi beş-altı kəlmə dedi. Bildirdi ki, rayonda aparılan işləri Bakıda diqqətlə izləyirlər. Dövlət planları artıqlaması ilə yerinə yetirilməlidir. Gündəlik məsələni çox qısa izah etdi:

– Büromuzun gündəliyində bir məsələ var. MK Teymur Salahovu başqa işə keçməsi ilə bağlı Bakıya çağırmağı qərara alıb. Xahiş edirəm, büro onun azad edilməsi məsələsini həll etsin.

– Kim razıdır, səs versin, – deyə Teymur özü təklif irəli sürdü. Katib vəzifəsindən ikinci dəfə azad olunurdu. 1931-ci ildə doqquz ay Dəstafur (Samux) Rayon Partiya Komitəsinin katibi işləmişdi. Necə azad olunduğu yadında idi.

Hamı əlini qaldırdı, bir kəlmə də danışan olmadı. Qərar qəbul olundu. Qonaq əlavə etdi:

– Teymyr Salahov Bakıya qayıdır, ona görə də onun Laçın Rayon Firqə Komitəsinin büro üzvü qalmasına ehtiyac yoxdur. Səsə qoyun...

Bu qərar da yekdilliklə qəbul olundu. Sonra katibin vəzifələri müavinə həvalə edildi.

MK nümayəndəsi gecə yatmaq üçün milis rəisinin qaldığı evə getdi. Büro üzvləri də kəlmə kəsmədən dağılışdılar. Teymur raykomun binasındakı – keçmiş bəy evindəki otağına getdi. Pendirlə yuxa yeyib, qatıq içdi, uzandı. Amma yata bilmədi. Yuxusu ərşə çəkilmişdi. Təzədən qalxıb siqaret yandırdı. Teymur Bakıya çağırılmağının xeyirə, yoxsa şərə olduğunu ayırd etmək istəyirdi. Ağlına pis bir şey gətirmirdi. Zaman çox qarışıq idi. Partiyada qorxulu işlər baş verirdi. Sovetlər təzə gələndə bolşevikləri istəməyənləri qırırdılar. İndi isə partiyaçıları tuturdular. Tutulanların çoxu mənşəcə yoxsul olmayanlar, savadlı, ziyalı adamlar idi. «Yəqin, onları düz tuturdular, çünki partiya fəhlə-kəndlilərin idi, varlı balalarının orada nə işi vardı?..» – deyə öz-özünə düşünən Teymur otaqda var-gəl etməyə başladı.

Teymur yoxsul, torpaqsız kəndli oğlu idi, 1896-cı ildə anadan olmuşdu. 1910-cu ildən Balaxanıda Benkendorfun sahibkar olduğu neft mədənlərində dartayçı işləmişdi. 1914-1916-cı illərdə Sabunçuda Nobelin neft mədənlərində çalışmış-

dı. 1916-cı ilin yazından təzədən Balaxanıya qayıtmış, Nobelin 5-ci mədənində işləmişdi, burada maaş bir az yuxarı idi. 1919-cu ilin yazında «Ədalət» partiyasına yazılmışdı. Ona zarafatla deyirdilər ki, yaxın vaxtlarda təzə inqilab baş verəcək, xozeyinlərin mədənlərini bölüb kasıblara paylayacaqlar. Bizim də neft quyumuz, faytonumuz olacaq.

Bir il sonra deyilən inqilab oldu. Rus qoşunu şəhərə doldu, amma neft mədənlərini bölüb kasıblara paylamadılar. Rus-erməni necə kontorlarda oturmuşdu, elə də öz yerlərində qaldılar. Fərq onda idi ki, əvvəllər xozeyinlər mülki paltarda olurdu, indi isə hamısı hərbi geyimdə gəzirdi. Bir müddət sonra Teymura məsləhət bildilər ki, Kommunist polkuna yazılsın. Orada paltar, ayaqqabı, pulsuz yemək, bir də yaxşı maaş verəcəklər. Vəd edilənlərin bəzilərini verdilər, amma maaş vermədilər. Əsgərlər gündə iki kərə verilən şorbanın ümidinə qaldılar.

II. «Ədalət»dən Birinci kommunist polkuna və ya sosializm demokratiyası pərdəsinə bürünmüş cəmiyyət

Bəzən biz yolu seçirik,
bəzən də yol bizi seçir.
Əbu Turxan

XI ordu 1920-ci il aprelin 27-də Azərbaycan sərhədini keçənə qədər ölkəni işğal etmək üçün dəqiq plan hazırlamışdı. Bu, əslində, hərbi əməliyyat planı deyildi, Demokratik Cümhuriyyətin strukturlarını dağıtmaq planı idi. Bolşevik kəşfiyyatı cümhuriyyət vaxtı ancaq respublika fəallarının siyahılarını hazırlayırdı. Hərbçilər həmin siyahılardakı adamları tutub məhv etməli idilər.

Siyahıdan başqa F.Dzerjinskidən alınmış təlimat da vardı. Bu təlimat XI ordunun Xüsusi şöbəsinin müdiri Semyon Andreyeviç Pankratovda idi. Təlimata görə, XI ordu dəstələri

yaşayış məntəqələrinə girib məscidlərdə yeni hökuməti elan etməli, həmin günün axşamı isə cümhuriyyətin qurumlarında işləmiş səxslər, müsavatın üzvləri, cümhuriyyət polisində və ordusunda çalışanlar həbs edilməli və əhalini qorxutmaq üçün həmin yasayış məntəqəsinin ərazisində güllələnməli idilər. Heç bir məhkəmə olmamalı və hökmlər inqilabın adından elan edilməli idi.

Hərbi plan isə çox sadə idi: bolşeviklər bilirdilər ki, cümhuriyyətin nizami ordusu yox kimidir, yəni çox zəifdir. XI ordu Dağıstanda Dağlı hökumətinə eyni qayda ilə divan tutandan sonra iki zirehli qatarla Azərbaycanın sərhədini keçdi və heç bir müqavimətə rast gəlmədən səhər Bakıya daxil oldu. Cümhuriyyət parlamenti artıq hakimiyyəti Azərbaycan bolşeviklərinə təhvil vermək haqqında qərar qəbul etmişdi. Bolşeviklər Dərbənd–Bakı dəmir yolu boyu stansiyalarda balaca hərbi dəstələr qoyurdular. Bu dəstələrə isə bolşeviklər yox, XI ordunun Xüsusi şöbəsinin zabitləri rəhbərlik edirdilər. Onlara verilmiş təlimata görə yeni hökuməti elan edir, siyahıda nəzərdə tutulanlardan əllərinə kim keçirdisə, güllələyirdilər.

XI ordunun əsgərləri Balaxanıya mayın 2-də gəlib çıxdılar. Əvvəlcə firqəçiləri axtardılar. Balaxanıda dörd firqəçi çıxdı. Onlardan biri də Teymur idi. Zabit dedi ki, köhnə hökumətin fəalları həbs olunmalıdır, yerlilərdən onların ünvanlarını soruşdu. 1903-cü ildən Balaxanıda yaşayan qoca fəhlədə balaca siyahı da vardı. Məsciddə kəndin ümumu yığıncağı oldu. Əvvəlcə XI ordunun Xüsusu şöbəsinin zabiti rus dilində, sonra isə bir azərbaycanlı bolşevik ana dilində kəkələyə-kəkələyə danışdı. Dedi ki, bugündən fəhlə və kəndlilərin hökuməti qurulur. Mədənlər və zavodlar fəhlələrə verilir.

Zabitlər Nikolay padşahın pristavının otağında yerləşmişdilər. Qaş qaralan kimi XI ordunun iki-üç əsgəri və Xüsusi şöbənin zabiti cümhuriyyət fəallarını həbs etmək üçün onların evlərinə getdilər. Teymur pristavın otağında qaldı. İki saat sonra məscidin həndəvərindən güllə səsləri gəldi. Əsgərlər pristavın otağına qayıdanda Teymurun həmkəndlisi Hənifə də onlarla idi. Onu tanımadı. Hənifənin rəngi ağappaq olmuşdu.

– Güllə atan kim idi? – Teymur pıçıltı ilə dostundan soruşdu, – niyə heç kəsi həbs etmədiniz?

– Güllələdilər onları... Köpək uşağı tutmaq demişdi, güllələmək söhbəti yox idi...

– Kimi güllələdilər?

– Səhər adları siyahıya salınanları… Onlar neyləmişdilər? – Hənifənin gözlərindən yaş tökülürdü.

Demokratik Cümhuriyyətin könüllü verdiyi hakimiyyəti bolşeviklər belə təhvil alırdılar. Mayın 2-də gecə saat 12-nin yarısında Balaxanı kəndinin mollası, məktəbin İstanbulda oxumuş üç ali təhsilli müəllimi, cümhuriyyət polisində işləyən iki nəfər, beş «Müsavat» firqəsi fəalı və Gəncə hərbiyyə məktəbinin iki müdavimi güllələndi.

Bu, Teymurla dostluq edən həmkəndlisi Hənifənin Birinci kommunist polkundakı fəaliyyətinin ilk günü idi. Onlar bunu bir gün sonra bildilər. Teymurla Hənifəni iki rus əsgərinin müşayiətilə şəhərə, Salyan kazarmasına gətirdilər. Təzə hərbi paltar verib sıraya düzəndən sonra komandir onların qarşısında çıxış edib dedi:

– Yoldaş əsgərlər, bugündən siz Azərbaycan Qırmızı ordusunun əsgərlərisiz. Azərbaycan fəhlə və kəndlilərinin ilk qırmızı polkuna Kommunist polku adı verilib. Bu, sizin üçün böyük şərəfdir...

Kommunist polku sözdə Azərbaycan Qırmızı ordusu sayılsa da, əməldə onların qərargahı, rəhbərliyi, partiya təşkilatı və Xüsusi şöbəsi eyni idi. Əslində, onlar XI ordunun tərkib hissəsi sayılırdı. Azərbaycan Kommunist Partiyası kimi, Azərbaycan Qırmızı ordusu da kağız üzərindəydi, gözdən pərdə asmaq üçün görüntü kimi yaradılmışdı. Bunu hər yerdə cümhuriyyət ordusunun zabit və əsgərlərinin məhkəməsiz güllələnməsi də sübut edirdi. Azərbaycan Qırmızı ordusu gərəkli hesab edilsəydi, bu qədər hərbi qulluqçunu ən təhlükəli düşmən kimi güllələməzdi.

Qırx gündən sonra Kommunist polkunun əsgərləri hərbi and içdilər. Anddan sonra polk komandirlərin qarşısından hərbi addımlarla keçdi. Sonda Çingiz İldırım Azərbaycan

dilində çıxış etdi. Teymur ancaq onu anladı ki, xozeyinlərin neft quyuları, zavod və fabrikləri alınıb fəhlələrə və kəndlilərə veriləcək.

Sabahı onların hamısına əsgər vəsiqəsi paylayıb bir günlük evə buraxdılar.

Salyan kazarmasına qayıdanda Teymur dostu Hənifəni tapa bilmədi. Polku sıraya düzəndə başqa bir neçə adamın da qayıtmadığı ortaya çıxdı. Anası oğluna dəfələrlə eyham vurmuşdu ki, bəlkə hərbi qulluqdan imtina eləsin. Amma o bunu heç ağlına gətirmirdi. Hərbdəki intizamı çox bəyənirdi. Bir də, adamların hərbi geyimə olan hörməti ona xoş idi. Hərbi paltar öz-özünə hörmət, nüfuz yaradırdı. And içməzdən əvvəl onları başa salmışdılar ki, andı pozmaq hərbi vəziyyətdə tribunal deməkdir...

Bir həftə sonra da Hənifədən xəbər çıxmadı. Onun uzaq qohumları Balaxanıya yaxın bir yerdə yaşayırdı. Ora getmək üçün icazə almaq lazım idi. Bu isə çox çətin idi.

Səhərlər polku sıraya düzəndən sonra onlara hər gün Hərbi İnqilab Komitəsinin dekretlərini – icrası bütün dövlət orqanları üçün məcburi olan qərarları oxuyurdular. Dekretlərin hamısı milliləşdirmə və müsadirə ilə bağlı idi. Tək-tək hallarda maarif və mədəni tədbirlərlə əlaqədar dekretlər olurdu. Əvvəllər Teymur «milliləşdirmə»nin mənasını anlaya bilmirdi. Sonra başa düşdü ki, fabriklərin gəlirinin hamısı dövlətin olacaq.

Mədən və zavod sahibləri mülk və mallarının müsadirə olunması barədə qərarları, hamı kimi, «Bakinski raboçi», ya da «Kommunist» qəzetlərindən oxuyurdular. Həmin qərarların əsasında Kommunist polkunun beş-altı rus və iki-üç azərbaycanlı əsgəri Hərbi İnqilab Komitəsinin qərarında göstərilən ünvana gedirdi. Sahibkarlar özləri gəlib mal-mülklərini siyahı ilə təhvil verməli idilər. Əsgərlər müəyyən edilmiş yerlərdə durur, təhvil-təslim sakit və müqavimətsiz keçirdi. Hamı bilirdi ki, müqavimət göstərənlər düşmən kimi məhkəməsiz güllələnirlər.

Belə əməliyyatlarda iştirak edəndə Teymur görürdü ki, böyük xozeyinlər quzuya dönüblər, necə müti olublar. Vaxtilə

heç kəsi saya almayan, zəiflərə zülm edən bu adamların fağır vəziyyəti ona xoş gəlirdi.

Sənaye sahələrinin çoxunda hərbi vəziyyət elan olunmuşdu, işçilər hamısı hərbiyə səfərbər edilmiş sayılırdı. Əslində isə bu yolla onlara işdən çıxmaq qadağan olunurdu. Üstəlik, işə çıxmayanlar tribunala verilə bilərdi və verilirdi. Çox vaxt maaş almayan işçilərin qaçıb dağılmasının qarşısını almaq üçün təktək iri müəssisələrdə də hərbi vəziyyət elan edirdilər.

Dəmir yolunda, hətta Maarif Komissarlığında belə hərbi vəziyyət hökm sürürdü.

Lakin belə amansız tədbirlər də müsadirə edilən, sahibkarlardan alınan mülkiyyətin tez bir zamanda dağılmasının qarşısını ala bilmirdi. Banklar birinci milliləşdirildiyindən maliyyə sistemi dağılmışdı. İşçilərə əməkhaqqı verməyə pul tapılmırdı. Bir əsas məsələ unudulurdu ki, milliləşən müəssisələri sahibkardan alandan sonra onu necə idarə etmək haqqında heç kimin anlayışı yox idi. Ona görə zavod və fabriklər milliləşən kimi iki ayın içində fəaliyyətini dayandırırdı, demək olar ki, dağılırdı. Komissarlar və bolşeviklər Moskvadan ancaq milliləşdirmə barədə əmrlər alırdılar. Amma sonradan bu qədər sənaye müəssisəsi ilə nə etmək gərək olduğunu düşünən və bilən yox idi.

Teymurgil üç-dörd aydan bir maaş alırdılar. Amma hamı dolanırdı.

III. «AzFK» – «AzÇK»

Yarımçıqlar toplana bilmir.
Əbu Turxan

Oktyabr çevrilişindən dörd ay sonra bolşevik hökuməti könüllü rus ordusuna müqavimət üçün seçkili yox, nizami ordu qurmağa başladı. Bu işin başında L.D.Trotski dururdu. Ənənəvi hakimiyyət orqanları və dövlət binaları bolşeviklərdə olduğu üçün zabitlərin də azsavadlı hissəsi onları qanuni hökumət kimi tanıyıb bolşevik hökumətinə xidmət etməyə başladı.

Teymur Salahov silahdaşları ilə

Lakin 1918-ci ilin fevralında yaradılan XI ordunun adı ordu idi, özü isə vətəndaş müharibəsində cəza dəstələri kimi istifadə olunan başıpozuq qruplardan təşkil edilmişdi. Birinci Dünya müharibəsi cəbhələrində qan içində vəhşiləşmiş zabit və əsgərlər reallıq hissini və mərhəmət duyğusunu itirmişdilər. Həm bolşeviklər, həm də ağqvardiyaçılar deyilən hərbi dəstələr döyüşlərdə əsir götürülmüş qarşı tərəfin adamlarını amansızcasına qırırdılar.

Beləcə, bolşevik hərbi birləşmələrinin rəhbərləri misilsiz və sərhədsiz hakimiyyət sahibi oldular. Onların çoxu bolşevik deyil, rus millətçisi idi. Bolşevik rəhbərləri, xüsusilə Lenin orduda öz təsirini gücləndirmək üçün siyasi şöbələr yaratdılar. Siyasi şöbə ancaq bolşevik partiyasının üzvü olan nümayəndələr üçün təşkil edilirdi və öz adı ilə əlaqəsi yox idi. Hərbi Şura üzvü deyilən vəzifələr yarandı. Amma ordu böyüdükcə bolşeviklərin orada nəzarəti azalırdı. Onda siyasi şöbələrin içində xüsusi şöbələr yarandı. Bu isə artıq gizli jandarm idarələrini başqa adla bərpa etmək idi. Həmin idarələr bolşeviklərin ənənəvi rəqibi idilər. Ona görə onları ayrı adla – Ümumrusiya Fövqəladə Komissiyası (yəni «ÇK») adı ilə bərpa etdilər.

Ad müxtəlifliyinə baxmayaraq, ölkədə vətəndaş müharibəsi nəticəsində iki hakimiyyət yarandı: bolşevik partiyasının aparatı və vətəndaş müharibəsini udub qələbənin sahibi olan

Qırmızı ordu. Orduda yaranan bütün siyasi təşkilatlar və «ÇK» özü bolşevik partiya aparatının filialları idi.

Ordu ilə partiya təşkilatları və bolşevik partiya aparatı arasındakı ziddiyyətlər L.Trotski ilə İ.Stalin arasında münaqişəyə çevrildı. Lakin Stalin və Siyasi Büro üzvləri sonadək hərbi paltar geyinirdilər. Bu, onların da ordu adamı olmasına işarə edirdi, amma əslində bu, yalan və saxtakarlıq idi. Leninin vəfatından sonra Stalin bolşeviklərin vətəndaş müharibəsindəki ağlasığmaz qələbəsinin müəllifi L.D.Trotskini bütün vəzifələrdən uzaqlaşdıra bilmişdi.

Bolşevik partiyasının qlobal nəzarətini təmin etmək üçün orduda «ÇK» orqanı, xüsusi şöbələr artıq 1919-cu ildə var idi. Siyasi şöbələr şəxsi heyətə, xüsusi şöbələr isə komanda heyətinə nəzarət etməli idi. Bir çox yerlərdə və Azərbaycanda da bolşevik partiya məclislərini iki rəhbər orqan yaradırdı: siyasi bürolar və təşkilat büroları.

Bu ondan irəli gəlirdi ki, artıq vətəndaş müharibəsi zamanı bolşeviklərin siyasi təbliğatları ilə real siyasətləri arasında uçurum yaranmışdı. Sadə desək, onlar real olaraq ancaq hakimiyyət uğrunda vuruşurdular, kommunizm barədə söhbətlər isə xəyalpərəst adamları aldatmaq üçün idi. Təşkilat büroları təbliğat aparmalı, adamları Sovet hökumətinin yaxşı, humanist, yüksək dəyərlərə malik olduğuna inandırmalı idi. Siyasi bürolar isə dövləti qurmaq və möhkəmlətmək işinə başlamalı idi.

Siyasi büro partiyanın içində yaradılan «ÇK»-nın yarıaçıq işləyən qurumu sayılırdı. «ÇK»-nın da xüsusiyyəti ondan ibarət idi ki, bu qurum üçün ideologiya yox idi. «ÇK» ideologiyanın fövqündə dayanırdı, o, dövləti qurur və qoruyurdu.

1920-ci ilin 28 aprelində Hərbi İnqilab Komitəsi Azərbaycan Fövqəladə Komissiyasını da yaratmışdı. Lakin bunların da heç bir müstəqil fəaliyyəti yox idi. Bakıda hətta tanınmış adamların həbsindən onlar yalnız qəzetlərdən xəbər tuturdular.

Beləcə, 1920-ci ilin 28 aprelindən Azərbaycanda real və yeganə həqiqi hakimiyyət XI ordunun Xüsusi şöbəsi idi. Onun göstərişləri ilə 1921-ci ilin sonunadək məhkəməsiz və istintaqsız 48 min azərbaycanlı güllələnmiş, sürgün edilmişdi.

Belə bir gərgin və çoxunun baş verən prosesləri anlamadığı vaxtda Teymur Salahov Birinci kommunist polkunda, sıravi əsgər olduğu zamandan fərqli olaraq, başqa bir sosial təbəqəyə keçdiyini hiss edirdi. Bu dəyişiklik ilk növbədə «ÇK»-nın xofu ilə bağlı idi. «ÇK» 1920-ci illərdə həm dövlət, həm də hakimiyyətin özü hesab edilirdi. Bolşevik partiya orqanları belə özünü hələ hakimiyyət kimi hiss etmirdi. Bu səlahiyyət bolşevik partiya orqanının başında oturmuş Nəriman Nərimanovda da yox idi. Çünki Moskvanın Bakıya verdiyi əsas səlahiyyətlər «ÇK»-da idi. Ona görə «ÇK»-nın qeyri-rəsmi əsgəri olan Teymur 1920-ci ilin axırlarında tanış və qohumlar arasında böyük nüfuz qazandığını hiss edirdi. Ona ən qəribə gələni evdə ata-anasının və böyük qardaşının münasibətinin dəyişməsi idi. Onlar Teymurla özlərindən böyük adam kimi rəftar edirdilər.

O isə tez-tez Hənifəni xatırlayırdı. Dostu onun yadından çıxmırdı. Hənifəni Bayıl türməsindən gecə gəmiyə mindirilənlər arasında görmüşdülər. Bu, doğru idisə, onda Hənifə fərariliyə görə güllələnmişdi. Amma Teymur buna inanmaq istəmir, hansısa möcüzəyə ümid bəsləyirdi.

1923-cü ilin fevralında qızıl əsgər Teymur Salahovun karyerasında ən mühüm hadisə baş verdi: ona hərbi rütbə verib «ÇK»-nın rəsmi ştatına işə qəbul etdilər. Bu keçidin böyük mənası vardı. Onu əməldə Azərbaycanı idarə edən və ancaq Moskvaya tabe olan idarəedici hərbi qurumun ştatına qəbul etmişdilər. Bu o demək idi ki, Teymur Salahov Rusiya «ÇK»-sının yoxlamalarından çıxmış kiçik bir qrupdan, nomenklaturaya daxil olan azərbaycanlı kadrlardan biriydi. Ona dövlətin hər bir işini və sirrini eibar etmək olardı və o da istənilən əmri icra etməyə hazırdı.

1924-cü ilə qədər Teymur ermənilərin iyrənc hərəkətlərini müşahidə edir, bir də rus dilini öyrənirdi.

«ÇK»-da işinin bir ili tamam olmamış ona Bakının mərkəzində ikiotaqlı mənzil verdilər. Qonşularının hamısı Kommunist polkunda xidmət etmiş şəxslər idi və onların əksəriyyətini uzaqdan da olsa, tanıyırdı. Həmin insanların çoxu «ÇK»-da, savadlılar isə artıq partiya və sovet orqanlarında çalışırdı. Hamısı 28 aprel çevrilişindən qabaq «Hümmət»in və

«Ədalət»in üzvü idi. Onların arasında Teymur kimi kasıb ailələrdən olanlar azlıq təşkil edirdi. Əksəriyyəti çar Nikolayın zamanında hökumət dəftərxanalarında çalışmış adamların uşaqları idi. Varlı olmasalar da, savadlı idilər.

IV. Bolşevik funksioneri

Hər ötən günə kiçik bir həyat kimi baxmaq lazımdır.
M.Qorki

1922-ci ildə Bakıda fəhlə-kəndli kadrların savadını artırmaq üçün dördillik Sovet-Partiya İşçiləri Məktəbi açılmışdı. O vaxtın tələblərinə görə ali təhsil verən bu məktəb bütün Cənubi Qafqaz üçün nomenklatur kadrları savadlandırmalı idi. 1924-cü ilin avqustunda AK(b)P MK həmin məktəbə təhsilə göndərilən kadrların siyahısını təsdiq etdi. Siyahıda Teymur Salahovun da adı vardı.

Teymur əvvəlcə buna sevinib-sevinməyəcəyini bilmədi. Amma həyat yoldaşı Sona sevindi. O, savadın, təhsilin gücünə inanırdı. Rus-tatar məktəblərinə gedən qardaşlarına da həmişə qibtə etmişdi. Məktəb oxuyanların görkəmi xozeyin balalarına oxşayırdı. Onlar kimi geyinir, kontorlarda oturmuş rus-erməni ilə bərabər adamlar kimi danışa bilirdilər. Zəmanə oxumuşlarındı, bunu atasından da tez-tez eşitmişdi.

Amma bu bolşevik məktəbində də əzbərçilik hökm sürürdü. Bütün fənlər partiya sənədləri üzrə öyrədilirdi. Tarix əvəzinə Marks və Engelsin sitatları əzbərlənirdi, iqtisadiyyat əvəzinə Marksın nəzəriyyələri. Fəlsəfə əvəzinə dinə qarşı ateist təbliğat aparılırdı. Ən böyük avtoritet isə dərsliklər yox, «Pravda» qəzetinin baş məqalələri idi. Burada yazılanlar rəhbər sənəd kimi qəbul olunur və diskussiyalar təşkil edilirdi. Həmin diskussiyaların mövzusu Moskva, orada Stalinin köhnə bolşeviklərə qarşı mübarizəsi ilə bağlı idi.

Belə müzakirələrin Bakıdakı işlərə aidiyyəti olmasa da, burada onlar həyatda tətbiq olunur, Azərbaycanda Trotskinin və

Zinovyevin tərəfdarları axtarılırdı. Haqq-nahaq, bələləri üzə çıxarılır və qızğın yığıncaqlarda ifşa olunurdu. Çoxlarının orta savadı olmadığından ali təhsil proqramını mənimsəmək onlar üçün çətin idi. Mühazirələrin də əksəriyyəti rus dilindəydi və zəif mənimsənilirdi.

Məktəb rəhbərliyi əsas diqqəti partiya mətbuatının öyrənilməsinə yetirirdi. Ona görə Moskva qəzetləri də, onların tərcüməsi olan «Kommunist» qəzeti də Teymurun əlindən düşmürdü. Onun dörd ili, demək olar ki, qəzet oxumaq və partiya diskussiyalarında iştirakda keçmişdi. Müxtəlif uklonçulara və fraksiyaçılara qarşı iclaslar keçiriləndə tələb olunurdu ki, hamı öz mövqeyini bildirsin, çıxış etsin. Bu qayda Teymurun xoşuna gəlmirdi. Amma canını dişinə tutub öz qayğılarından çox-çox uzaq olan məsələlərdən danışır, qəzetdə yazılan tezisləri təkrar edirdi.

Şəxsi həyat cəhətdən isə, demə, «Sovpartşkola»da oxuduğu dörd il onun ən xoşbəxt illəri idi.

1929-cu ilin martında Teymur Sovet Partiya Məktəbini bitirib diplomunu aldı. Yenə də özündən soruşmadan onu «ÇK»-ya işə yolladılar.

Teymur işləri qəbul edəndə «ÇK»-nın kameraları varlı ailələrdə böyümüş cavan tələbə və gənclərlə dolu idi. Onların bir çoxunu Rusiyanın müxtəlif şəhərlərində, təhsil aldıqları ali məktəblərdə həbs etmişdilər. Üç-dörd aylıq istintaqdan sonra bu gənclərə millətçi təşkilat üzvü olmaq adı ilə 8-10 il iş kəsib Sibirə yollayırdılar.

«ÇK»-ya qayıtdıqdan il yarım keçən kimi Teymuru partiya işinə apardılar. Onu Kənd Təsərrüfatı İnstitutunun partiya təşkilatının katibi təsdiq etdilər. Bu işdə onun bircə nəfər də köhnə tanışı yox idi: burada, əsasən, kənd rayonlarından gələn təsərrüfatçılar təhsil alırdılar. Hamısı inqilabdan əvvəl çoban, muzdur, ya da nökər olmuşdu. Çoxu qəzeti üzündən belə çətinliklə oxuyurdu. Amma illər keçdikcə başa düşdü ki, kənd rayonlarından gələnlər arasında bir nəfər də təsadüfi adam yoxdur: hamısı Bakıda vəzifəsi olanların qohumu, ya tanışı, ya da qonağı idi. Onlara bir söz deyəndən sonra sahibləri üzə çıxırdı.

Toxunmamağı, kömək etməyi xahiş edirdilər. Teymur institutda az müddət işləsə də, bütün düşmənlərini də burada qazandı. Kənd kommunistləri üzdə müti, arxada isə aqressiv və qisasçı idilər.

Onların heç biri təhsil almır, kitab və qəzet oxumurdu. Müəllimlərin evinə pay daşımaqla bolşevik məmurluğunu öyrənirdilər. Bu, elə əvvəlki nökərçiliyin eyni idi: üstəlik, bolşevik məmur müdirlərinə qarşı tam lal olmalı idi. Bu isə yetkinlik sayılırdı.

Ona təsdiq vaxtı demişdilər ki, kənd rayonlarında partiyaya çoxlu trotskiçi soxulub. Teymur onları aşkara çıxarıb ifşa etməlidir.

T.Salahov instituta işə gələndən sonra çağırdığı birinci büro iclasında hamıya tapşırdı ki, trotskiçilərə qarşı sayıq olsunlar və onları aşkar edəndə şəxsən ona xəbər versinlər. O da gələn siqnalları MK-nın partiya komissiyasına yollayırdı. Arxayın idi ki, orada trotskizmi yaxşı bilən adamlar oturub. Amma məsələ burasında idi ki, MK-dakı funksionerlər də Trotskidən, ölkədə gedən proseslərdən baş çıxarmırdılar. Siqnalları alan kimi həmin adamları – onların əksəriyyəti keçmiş çobanlar və muzdurlar idi – partiyadan çıxarır və adlarını xüsusi siyahıya salırdılar. Hər ayın axırında bu siyahıların üzünü səliqə ilə köçürüb Moskvaya yollayırdılar. Bu, «Azərbaycan Kommunist Partiyasının trotskizmə qarşı mübarizəsi» adlanırdı.

Partiya yığıncaqlarında bir adam trotskiçi adlandırılan kimi hamı onun üstünə düşürdü. Bu, onun trotskiçiliyini sübut üçün edilmirdi. Trotskiçi əleyhinə danışmaq trotskiçi olmamağın əsas arqumenti idi. Lakin terminin mənasını heç kəs bilmirdi. Yalnız Moskvada Siyasi Büroda kimin kimə tərəf olduğu bəlli idi, dünyanın altıdabirində təqlid gedirdi. Ümumiyyətlə, bolşeviklərin tətbiq etdiyi ideoloji təqlid ancaq dində olub, amma dinin tarixində də bu miqyasda olmayıb.

Bir neçə həftə işləyəndən sonra Teymur anladı ki, Kənd Təsərrüfatı İnstitutu başqa bir aləmdir, ona yad yerdir. Buradakı insan materialının özünəməxsusluğu başqa cürdür. Doğrusu, Bakıda və Moskva MK-sında da kəndə şübhəli

münasibət vardı. Kəndli sinfi fəhləyə yad olan xüsusi mülkiyyətçi instinktinin daşıyıcısı sayılırdı. Amma Teymurun gördüyü bu deyilənlərə oxşamırdı. Burada ucqar partiya təşkilatlarında təqlidin əlaməti yox idi. Feodal-kəndli münasibətləri hökm sürürdü. Dinləyicilərin çoxu keçmiş ağaların uzaq qohumları idi. Onlardan istəniləni araşdıranda dövlət işinə və oxumağa öz qohumu və ağası tərəfindən yollandığı məlum olurdu.

Ona görə bunları nə qovmaq olurdu, nə də saxlamaq. Kənd Təsərrüfatı İnstitutunda oxuyan tək-tək orta təhsilli adamlar isə 1927-1928-ci il təmizləmələri zamanı oradan qovuldular. Həmin insanlar çar zamanı rus dəftərxanalarında xidmət etmiş qulluqçuların uşaqları idi. Təmizlənmədən sonra muzdurlar qaldı. Buradakı intriqaları sonralar Teymur heç yerdə görmədi. Amma MK kənddə işə böyük fikir verirdi, çünki ölkədə permanent aclıq idi və bunun qarşısı alınmalıydı. Kənddəki repressiyalar nəticə vermirdi. Başqa yol tapmaq lazım idi.

Teymur bir il iki ay institutda katib işləyəndən sonra onu 1931-ci ilin yanvarında Dəstafur (indiki Samux rayonu) Rayon Partiya Komitəsinə katib təsdiq etdilər. Təsdiq Bakıda, seçki isə rayonda oldu. Bakıda ona dedilər ki, kolxozlarda toplanmış mal-qara kollektivləşəndən sonra şam kimi əriyir. Kolxozlar tərəkəmələr arasında tez bir zamanda müflis olduğuna görə xırda təsərrüfatları birləşdirib böyük sovxozlar yaratdılar. Əsas tapşırıq sovxozları möhkəmləndirmək idi, yəni mal-qoyunun qırılmasının, dağıdılmasının qarşısını almaq. Amma bunu necə etmək barədə ona aydın söz deyən olmadı. Partiya işçiləri də, «ÇK»-dakı ermənilər də, mətbuat da düşmənlərdən dəm vurur və yazırdı. Yəni çoxlu tutdurmaq, qırdırmaq, adamları qorxutmaq halları baş alıb gedirdi. Amma belə terror nəticə vermirdi, çünki əslində bu terror daim gedirdi, amma düşmənlər də azalmırdı. Ac qılınca çapar, – deyiblər.

Teymur yaman tora düşmüşdü: işində nəticə olmasaydı, onu da düşmən və ziyankar siyahısına salacaqdılar. Güdaza gedəcəkdi. Təzə partiya işində Teymur ilk dəfə taleyi barədə fikirləşdi və özünə söz verdi ki, hər gün təhlükəsizlik barədə fikirləşsin, özünü qorusun.

O dövrdə kadrlara qarşı şübhəli bir münasibət hökm sürürdü: Moskva MK-sında gedən hakimiyyət uğrunda mübarizə yerlərə də təsir göstərir və inamsızlıq toxumu səpirdi. Azərbaycanda bu vəziyyət daha qabarıq idi. Bakıda rəhbərliyin tez-tez dəyişməsi kadrların sabitləşməsinə, öz işini öyrənməsinə mane olurdu. Teymur 1930-1936-cı illərdə bir yerdə il yarımdan artıq işləyə bilmədi. Ən çox Dəstafur rayonunun katibi vəzifəsində işlədi: bir il doqquz ay ərzində o, kolxoz və sovxozların dağılmasının qarşısını aldı.

Amma onun ortabab kəndlilərdən adamları vəzifələrə irəli çəkməsi də diqqəti cəlb edir və Bakıya şikayətlər getməsinə səbəb olurdu. Orta və aşağı səviyyəli partiya işçiləri buna doğru qiymət verə bilmirdilər. Amma böyük vəzifəli partiya işçiləri katibin işinə, rəhbərik etdiyi sahələrdə nəticələrə baxanda müsbət amillər görürdülər.

Dəstafur rayonundan onu azad edib Gəncə Şəhər Partiya Komitəsinin sənaye sektoruna müdir qoydular. Bu, Bakıda qəbul olunmuş qərar idi: Gəncəətrafı rayonların dağılan təsərrüfat və müəssisələrini dirçəltmək lazım idi. Sənaye sektoru Gəncəətrafı rayonların ərzaq planlarına cavabdehlik daşıyırdı. Dəstafurdakı siyasəti davam etdirməklə Teymur təsərrüfatlarda heyvanların sayının azalmasının qarşısını alırdı. Lakin 1933-cü ilin əvvəlində onun irəli çəkdiyi ferma müdirlərindən ikisi oğurluq üstə tutuldu. Buna görə ona töhmət verib aşağı vəzifəyə saldılar. Ağdaş rayonuna raykomun təbliğat şöbəsinə yolladılar. Təbliğat işi isə, əslində, onun ürəyindən deyildi.

Amma 1934-cü ilin yanvarında Teymuru təzədən məsul təşkilat işinə yolladılar. Bu, Lacın rayonunda təzə yaradılmış heyvandarlıq sovxozunun siyasi şöbə rəisi vəzifəsi idi. Dağ rayonlarında kolxoz təşkil etmək baş tutmurdu. Əhali çox kasıb idi. Ona görə nümunə üçün burada dövlət təsərrüfatı – sovxoz yaratdılar və sovxozun ziyankarlardan qorunması üçün siyasi şöbələr təşkil etdilər. Siyasi şöbələr isə heyvandarlıq müəssisəsində ştatda səlahiyyətli partiya işçisinin oturması demək idi. 1934-cü il ərzində Teymur sovxozun xeyli vəzifəli adamını

dəyişdi. Onun təyin etdiyi şəxslər özlərini ağa kimi sərt aparırdılar. Amma başqa çarə yox idi.

Teymurun kənd rayonlarında iş zamanı bircə istəyi vardı: o da buradakı bataqlıqdan, yəni ağır və əziyyətli işdən canını qurtarmaq. Heyvandarlığın inkişafı onun işi deyildi, hərçənd ki, həmin sahədə aldığı nəticələr başqalarından yaxşı qiymətləndirilirdi. Bu da Teymur Salahovun düşmənlərinin sayını artırır, barəsində söz-söhbətlər yaradırdı.

V. Mircəfər

Diktatorların xoşbəxtliyi adi,
faciəsi isə böyük olur.
Kant

1935-ci ilin mayında Laçındakı heyvandarlıq sovxozunun siyasi şöbə rəisi Teymur Salahovu Bakıya çağırdılar. Həmişəki kimi, o, nigarançılıq və ümid qarışıq hisslərlə Bakıya yollandı. Yevlaxdan gələn qatar Bakıya gecə çatdığı üçün MK-ya yox, evə getdi. Sona onu görən kimi sevndiyindən ağladı. Teymur da doğma evinin qoxusunu alıb kövrəldi. Uşaqları böyümüşdü. Onlara baxanda ürəyində Sonaya minnətdarlıq etdi: uşaqları axır 5 ildə o böyüdürdü.

Teymur evə girəndən Sona Mircəfər Bağırov haqqında danışırdı. Onu altı ay əvvəl Azərbaycan KP MK-nın birinci katibi seçmişdilər. Nəriman Nərimanovdan sonra bu vəzifədə azərbaycanlı işləməmişdi. Moskvada bolşeviklər Bakıya Rusiyaya aid bir şəhər kimi baxırdılar və buraya bir-birinin ardınca ancaq milliyyətcə rusları təyin edirdilər. Hərəsi də bir il, il yarım işləyirdi. Ruslar bir neçə səbəbə görə Azərbaycanda rəhbər işləyib sabitləşə bilmirdilər: ölkə əhalisinin 75 faizi kənddə yaşayır və rus dilini bilmirdi. Bakıda isə sənayeni və nefti ruslar, inzibati orqanları və Bakı partiya təşkilatını ermənilər idarə edirdilər. Ölkənin kadrlarını tanıyan və idarə edən adam yox idi.

Mircəfərin təyinatı Azərbaycandakı vəziyyətlə az bağlı idi. Stalin 1933-cü ildə artıq partiya daxilində hakimiyyəti almaq və təkbaşına mütləq hakim olmaq üçün mübarizəni udmuşdu.

Mircəfər Stalinin standartlarına cavab verirdi: onun, Siyasi Büronun bütün üzvləri kimi, ağıllı görünmək iddiası yox idi. M.Bağırovun gənclik dövrü, ümumiyyətlə, ziddiyyətli və qaranlıq olmuşdu. Rus dilini gözəl bilirdi. Həştərxanda ikiillik pedaqoji kursu bitirmişdi. Təhsil alıb geri qayıtdıqdan sonra Quba qəzasının Nəcəf kəndində, sonra isə yəhudilər yaşayan məhəllədə rus dili müəllimi işləmişdi. 1917-ci il Fevral inqilabı dövründə M.Bağırov açıq və gərgin inqilabi fəaliyyətə başlamış, Qubada fəhlə və kəndli deputatları sovetinin yaradılması, fəhlə və kəndli ittifaqının möhkəmlənməsi, xan və bəy torpaqlarının kəndlilər tərəfindən zəbt olunması uğrunda mübarizə aparmışdı.

1921-ci ildə Azərbaycan KP MK-nın iclasında iştirak edən M.Bağırova Azərbaycanda icraedici orqan olacaq Azərbaycan Fövqəladə Komissiyasının (FK) təşkil edilməsi işi tapşırılır. O, 1921-ci ilin aprelində Azərbaycan FK-nın sədri təsdiq olunur, həmçinin Azərbaycan xalq daxili işlər komissarı və Azərbaycan SSR Xalq Komissarları Soveti sədrinin müavini vəzifələrini icra edir. İlk dəfə olaraq Nəriman Nərimanovun təklifi ilə Mircəfər Bağırov Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun 1921-ci il oktyabrın 15-də keçirilən iclasında Qafqaz Bürosunun tərkibinə salınır.

Nəriman Nərimanovdan sonra M.Bağırovun həyatında ikinci önəmli rol oynayan şəxs Lavrenti Beriya olur. Mircəfər Beriya ilə 1914-1916-cı illərdə Petrovski (Həştərxan) şəhərində oxuduğu vaxt dostluq etmişdi. Onlar çar Nikolayın məxfi orqanları ilə əlaqə yaratmışdılar. O zaman tələbə hərəkatı imperiyanın başağrısı idi. Beriya Dağıstan tərəfdən olan tələbələrlə xüsusilə yaxınlıq edirdi. Tədqiqatçıların yazdıqlarına görə, onun millətçi ovqatlı cavanlarla da, xüsusilə Mirzəbala Məmmədzadə ilə dostluq münasibətləri olmuşdu. Həmin vaxt məhz Mirzəbalanın zəmanəti ilə Lavrenti Beriya Xalq Cümhuriyyətinin məxfi əks-kəşfiyyat xidmətinə işə düzəlmişdi. 1921-ci

ildə Mircəfər və L.Beriya Azərbaycan «ÇK»-sında məsul vəzifələrə təyin ediləndə aşkara çıxmışdı ki, onların hər ikisi Demokratik Cümhuriyyət dövründə bolşevik rejiminin məxfi orqanlarına işləmişdir. Bir növ, ikili rol oynamışdılar. Stalinə gəlincə isə, böyük rəhbər Mircəfəri yaxşı tanımırdı. Onun namizədliyini L.Beriya vermişdi.

Beləliklə, o zaman – 1933-cü ildən 1953-cü ilədək – 20 il Azərbaycana rəhbərlik etmiş bir şəxs – Mircəfər Stalin təxəyyülünün məhsulu ilə cəmiyyətdə yeni bir quruluş formalaşdırırdı. Bu quruluşda Stalin kimi düşünməyən insanlar, ziyalılar sıradan çıxarılırdı. Stalin isə, əslində, paranoidal düşüncə tərzinə malik idi. «Böyük rəhbər» üçün əsas Mircəfərin ona şəxsi sədaqəti idi. Stalin primitiv qoçu əxlaqına sinfi şüurdan daha artıq əhəmiyyət verirdi. M.Bağırovun həyatı çoxlarına müəmmalı görünən ziddiyyətlərlə dolu idi. Ancaq bir həqiqət hamıya aydındır ki, ömür yolunun ən keşməkeşli çağlarında belə o, əqidəsindən dönməmişdir. Stalinin göstərişlərinin Azərbaycanda yerinə yetirilməsindən hədsiz iftixar hissi keçirmişdir. Yalançı sosializm demokratiyası pərdəsinə bürünmüş bir cəmiyyətin zorakılıq metodlarına qanuni hal kimi baxmışdır. Çünki avtoritar hakimiyyət üsulunun bundan başqa çıxış yolu yox idi.

Mircəfərin statusu əvvəlki katiblərdən seçilirdi: o, partiyanın vəzifəli şəxsi yox, Stalinin Azərbaycanda canişini idi. Bu o demək idi ki, Bakı ermənilərinin də Mircəfərin başı üstündən Moskvaya, «böyük rəhbər»ə müraciət etməsi artıq mümkün deyildi. İkinci tərəfdən, Azərbaycan Mərkəzi Komitəsinin nomenklaturasında olan vəzifələrə Mircəfər özü adamlar qoyur və müstəqil şəkildə çıxarırdı. Yeni şərait ilk növbədə Bakı Partiya Komitəsində on beş il ağalıq edən ermənilərə Mircəfərin səlahiyyətinə vermişdi. Bu, nisbi səlahiyyət olsa da, böyük siyasi dəyişiklik idi.

Bütün partiya işinin Moskvaya təqlid əsasında qurulması prinsipi qalırdı. Xüsusilə siyasi terror və kampaniyalar zamanı Mircəfərin səlahiyyətləri mütləq xarakter alırdı. İstintaqa cəlb olunmaq üçün bütün sənədlər ilk mərhələdə Mircəfərin üstünə

gəlir, yalnız o, sənədi imzalayıb daxili işlər komissarına icranı davam etdirmək üçün göndərəndən sonra həmin şəxs barədə istintaq hərəkətləri başlanır və sonradan həbs edilirdi. Moskvaya gedən bütün şikayət ərizələri də oradan Mircəfərə göndərilirdi. Bir qayda olaraq, onların üstünə Mircəfər belə qeyd yazırdı: «Filankəsin işinə tikilsin» – yəni davam edin. Həmin şəxs güllələnirdi. Əgər əksinqilabi dəstəyə aid edilmirdisə, deməli, ölməsinə ehtiyac yoxdur, onu məhkum edirdilər.

1937-ci il avqustun 5-də SSRİ XDİK bir qərar çıxarır. Həmin qərara üç nəfər – SSRİ daxili işlər naziri Yejov, Mikoyan və Stalin qol çəkir. Qərarda yazılırdı ki, müsavatçılar, ittihadçılar, sosial-demokratlar, hümmətçilər, eyni zamanda menşeviklər və daşnaklar güllələnməlidir.

Ceyhun Hacıbəyliyə görə, 1937-ci ilin oktyabr ayında keçirilən məhkəmələr Azərbaycan sovet rəhbərliyinin təmizlənməsinin ən qızğın vaxtı idi. Bağırovdan başqa bir çox şəxs vəzifələrdən azad edilmiş və həbs olunmuşdu. Beriya ilə yaxın dostluğu Bağırovun köhnə bolşevik kimi ortadan götürülməsinə imkan verməmişdi. Mircəfər vaxtilə L.Beriyanı həbsdən azad etmiş və onu özünə köməkçi təyin etmişdi. Ceyhun bəy Bağırovu Beriya ilə yaxın əlaqələrinə görə xilas olmuş potensial qurban kimi görürdü. Lakin Bağırov repressiyanın təməlini hazırlayan partiya qurultaylarında və həmin illərdə keçirilən məhkəmələrdə öz rəqiblərini ləkələməkdən və onlara qarşı ittihamlar irəli sürməkdən geri çəkilmirdi. Hətta bunu amansızcasına həyata keçirirdi.

Obyektivlik naminə bir faktı da demək lazımdır ki, Mircəfərin Azərbaycan Kommunist Partiyasının birinci katibi seçilməsinin milli dövlətçiliyin saxlanmasında, azərbaycanlılardan ibarət sabit kadr bazasının yaranmasında rolu olmuşdur. Düzdür, bunlar azsavadlı, stalinçi kadrlar idilər, lakin hər halda milli siyasi elitanı təşkil edirdilər və sabit dövlətçilik baxımından əhəmiyyətli hadisə sayılırdı. Mircəfərə qədər milli kadr məsələsi ümumiyyətlə ciddi qəbul olunmurdu.

…Teymur qəbuldan əvvəl MK-nın Təşkilat şöbəsində oldu: orada onu təbrik etdilər. Büroya Salahovu Laçın Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə təsdiqə çağırmışdılar.

Xəbəri eşidəndə Teymur nə sevindi, nə də kədərləndi. Sevinmədi, ona görə ki, kənddə gedən siyasəti başa düşmürdü və onun nəticə verəcəyinə də inamı yox idi. Kədərlənmədi, çünki ona vəzifə verirdilər. O, adi icraçı olmaqdan uzaqlaşırdı. Birinci icraçı olmaq isə çox çətin idi. Bir də hələlik düşmənlərin ona dişi batmırdı. O görürdü ki, çar dövründən qalan ali savadlı partiya işçiləri mövqelərdən çıxarılır, amma onun kimi fəhləlikdən gələnlərin mövqeyi möhkəmlənirdi.

Teymur əvvəllər Mircəfəri «ÇK»-da işlədiyi vaxtlarda çox görmüşdü, amma yaxın münasibətləri, ünsiyyətləri olmamışdı. Teymur barədə Mircəfərə iki arayış vermişdilər, biri «ÇK»-dan, biri isə MK-nın Təşkilat şöbəsindən. O, ancaq «ÇK»-nın arayışını gözdən keçirdi: orada onun əqidəli bolşevik olduğu yazılmışdı, amma varlı kəndliləri mənşəyinə baxmadan vəzifələrə qoyması da xüsusi vurğulanırdı.

– Partiya sizə böyük etimad göstərir, büro sizi Laçın Rayon Partiya Komitəsinə katib təsdiq edir, – Mircəfər bu sözləri ləhcəli rus dilində sakit səslə deyir, Teymurun üzünə baxmırdı, – fəhlə sinfinə ərzaq lazımdır, bir də oradakı bütün sağ uklonçuları ifşa etməlisiz. Kadrları seçəndə diqqətli olun, bizim siyasətimizə, yoldaş Stalinə sadiq adamlara üstünlük verin.

Mircəfər sözünü bitirəndə sükut çökdü: büro formal bir qayda idi, onun iclaslarında ancaq Mircəfər danışırdı. Yazılmamış qayda belə idi.

– Partiyanın etimadını doğrultmağa çalışacağam, – Teymur Təşkilat şöbəsində ona öyrədilmiş bu sözləri həyəcanla dedi və sözü bitən kimi Mircəfər dilləndi:

– Sizə uğurlar arzulayırıq, çətinliklər olanda müraciət edin. Yaxşı yol. – Mircəfər üzünə baxmadan Teymura getməyə icazə verdi.

…Evə çatanda Bakı–Yevlax qatarının yola düşməyinə üç saat yarım vaxt qalmışdı. Doğma evdən yığışıb çıxmaq onun üçün ən çətin iş idi. Sona heç vaxt gileylənmirdi. Şikayət etmirdi. Bircə uşaqları növbə ilə ondan soruşurdular:

– Ata, gedirsən?

– Ata, nə vaxt qayıdacaqsan?

Teymur uşaqlarını dizinin üstündə oturdub onları sakitləşdirir, nəsihət verirdi:

– Ananızın sözünə baxın, onu incitməyin... Dərslərinizi oxuyun.

Qaş qaralanda Teymur evdən çıxıb piyada vağzala tərəf getdi. Gedə-gedə evini gözü qabağına gətirir, onun qoxusunu burnunda saxlamağa çalışırdı. Qatara minəndən sonra heç kimlə kəlmə kəsmirdi. Onu da dindirmirdilər, çünki hərbi geyimindən bilinirdi ki, hökumət adamıdı.

Teymur Laçına çatıb işə başlayanda vəziyyətə mat qaldı, qanı qaraldı. Çox yerdə işlər kağız üstə idi, amma burada heç kağız da yox idi. Laçında raykom yarıqaranlıq kabinetdən və Nikolaydanqalma dəmir seyfdən ibarət idi. Seyfdə bir möhür və Bakıdan daxil olmuş bir neçə məktub var idi. Raykomun işçiləri nə latın əlifbasını, nə də rus dilini bilirdilər. Yəqin, ona görə idarənin heç bir sənədi yox idi.

Salahov qardaşları

İkinci katib aparatın işçilərini ona təqdim edəndə vəzifələrini yox, hansı kəndə və hansı tayfaya aid olduqlarını deyirdi. Teymur aparat işini sevmirdi, ona görə raykomun işini yenidən qurmaqla yox, kəndlərdə, təsərrüfatlarda vəziyyətlə maraqlanmağa başladı.

Orada apardığı yığıncaqlarda Teymur pis vəziyyətdə olan kolxoz və fermalarda kadr dəyişikliyi edirdi. Köhnə işçilərin əksəriyyətini vəzifədən kənarlaşdırırdı. Nəticədə raykomun bəzi əməkdaşları ondan Bakıya şikayətlər yazmağa başladılar.

Teymur qəribə halla rastlaşdı: Laçın geridə qalmış bir yer idi, amma buranın Bakıda, xüsusilə «ÇK»-da, milisdə, prokurorluqda orta vəzifələrdə çoxlu adamları vardı. Həmin adamlar gözə görünmədən burada aparılan işlərə qarışırdılar. Teymur anladı ki, ona qarşı şikayətlər Laçında yox, Bakıda yazılır. Yerli adamlar da kənardan gəlmələri sevmir, özlərinkinə daha asan tabe olurdular. Bu, tayfa hissiyyatı idi. Teymur sadə bir həqiqəti heç kəsə başa sala bilmirdi: Laçında kolxoz və sovxoz malını sakitcə dağıdıb yeyirlər, amma heç kəs bunun cavabını verməyin lazım gələcəyini anlamır. Ona görə ki, bu dağlarda dövlət mülkiyyəti heç vaxt olmamışdı. Adamlar bunun nə olduğunu başa düşmürdülər. Biri tutulsa da, o biriləri heç nə olmamış kimi davam edirdilər.

Teymur belə bir vəziyyəti hələ Laçının heyvandarlıq sovxozunda siyasi şöbə rəisi işləyəndə başa düşmüşdü. Heç bir repressiya, heç bir təsir həmin dağlardakı camaatın yaşayış tərzini dəyişə bilməzdi. Bu, mühafizəkar bir aləm idi. Laçında Bakıdakı Sovet hakimiyyətindən əsər-əlamət belə yox idi. Ona görə Teymur «ÇK» sədrindən və prokurordan mal-heyvan dağıntısını daha dərindən araşdırmağı, israfçıları vəzifəyə qoyanlarla maraqlanmağı tapşırırdı. Həmin ərəfədə raykomun iki təlimatçısı artıq həbs olunmuşdu.

On gün sonra onu Bakıya MK-ya çağırdılar. Təşkilat şöbəsində Teymura bir qalaq şikayət məktubu göstərdilər. Onları yazanlar arasında müavini və başqa vəzifəli Laçın məmurları da var idi. Teymur məktubları nəzərdən keçirib izahat yazmalı oldu. Bu izahatda o, əsəbilikdən bir neçə səhvə yol verdi. On-

lardan ən böyüyü onun Laçındakı təsərrüfat yeyintilərinin arxasında Bakıda oturmuş məmurların olduğunu yazmağı idı. Sonra isə göstərdi ki, şikayətlər onun raykom aparatından qovduğu adamlar tərəfindən təşkil edilir. Yeyintinin də arxasında duran həmin adamlardır.

Belə izahatla qurbağa gölünə daş atdığını anlamayan Teymur Laçına qayıtdı. Bakıda isə bu izahatla bağlı uzağa gedən hadisələr baş verdi.

Təlimatçı Teymurun izahatını rus dilinə sözbəsöz dəqiq tərcümə edib makinadan çıxardı, gətirib müdirinə verdi. Təşkilatın müdiri də izahatın bir nüsxəsini arxivə, ikincisini isə MK-nın Xüsusi şöbəsinə yolladı. Onun «ÇK» sədrinin müavini səviyyəsində səlahiyyəti vardı, arxası Moskvaya bağlı idi. MK-nın Xüsusi şöbəsi izahatın bir surətini də Azərbaycanda «ÇK»-nın sədri erməni Sumbatova yolladı.

Sumbatov isə məktubun bir surətini öz əlavə izahat məktubu ilə Moskvaya, o birini isə Mircəfərə göndərdi. Bunun böyük mənası var idi. Moskvada, Mərkəzi «ÇK»-da bilsinlər ki, Bakıda Mircəfərdən də sayıq çekistlər var. İlk vaxtlar – 37-nin güllələmə maşını işə düşməmiş Bakı ermənilərı və rusları həm partiya içində, həm də «ÇK»-da Mircəfərə qarşı qısqanclıq edirdilər. Onlar ancaq sonradan qorxdular: 1920-ci illərdə AKP-yə rəhbərlik etmiş xadimlərin istintaqına Mircəfərin Moskvanın icazəsi ilə faktiki rəhbərliyi aydın olandan sonra özlərini yığışdırdılar. Çünki azərbaycanlılarla yanaşı, Bayıl həbsxanasında erməni və ruslar da güllələnirdi.

Teymurun MK-da izahat yazmağından heç bir ay keçməmiş onu mayın ortalarında Laçın Partiya Komitəsinin katibi vəzifəsindən azad edib Bakıya çağırdılar. Onun özünün qəzəbli vaxtında yazdığı izahat ətrafında başlamış Moskva–Bakı intriqalarından xəbəri yox idi.

Qəribə işdi, savadlı işçiləri qırırlar, amma kağız hesabatını artırırlar. Kağız isə zəhlətökən şeydi. Teymur heç vaxt kağızla işləməmişdi. Amma Dəstafurda, Gəncədə çalışanda kağızlar və hesabatlar onun əhdini kəsmişdi. Bununla belə, xeyli şey də öyrənmişdi.

Bakının adamı bürodan sonra səhər tezdən yola düşdü. Qonaq gedəndən sonra Teymur seyfdəki sənədləri və möhurü müavinə təhvil verdi. Seyfdə sənəd çox idi. Teymur katib seçiləndən rayonda partiya sıralarında təmizləmə aparırdı. Bunu ona Laçına təsdiq olunduğu vaxt Bakıda MK-nın Təşkilat şöbəsində göstəriş vermişdilər. Həmin təmizləmə, formal olaraq, 1926-cı il nümunəvi partiya biletlərinin dəyişdirilməsi ilə bağlı idi. Amma əslində, hamı hər yerdə düşmən axtarırdı. Teymur özü solla sağın, Trotski ilə Zinovyevin fərqini düzəməlli bilmirdi. Çünki o, 30 yaşınadək siyasətdən uzaq olmuşdu. Amma ifşa olunanların çoxu trotskiçi kimi tutulurdu. Tutulanlar üçün plan yox idi, amma MK-dakı iclaslarda orta rəqəmlər açıq deyilirdi: filan rayonda filan qədər, o birində isə filan qədər trotskiçi ifşa olunub. Bu rəqəmlərdən hamı öz işini bilirdi.

VI. Terror maşınının içində

Silah cingildəyəndə qanunlar susur.
V.Hüqo

Laçından gələndən bir həftə sonra onu Azərbaycan Meyvə-Tərəvəz Birliyinə direktor müavini təsdiq etdilər. Əslində, keçmiş «ÇK» əməkdaşının bu vəzifəyə təyinatı onun siyasi karyerasının sonu demək idi. Çünki bolşeviklər ticarətdə çalışanlara burjua nümayəndəsi, zərurət üzündən dözülən adamlar kimi baxırdılar. Çox güman ki, Teymuru ticarət işinə qoymaq fikri Mircəfər Bağırovdan gəlirdi. Bu vəzifə də, raykom katibi kimi, MK-nın nomenklaturasında olsa da, eyni zamanda hər hansı adamı şərləmək üçün ən münasib yer idi. Meyvə-Tərəvəz Birliyində heç bir siyasət yox idi. Siyasət Azərbaycanın rayonlarında idi. Orada sovet quruluşu və kolxozlar təzəcə möhkəmlənirdi. Birlik isə rayonlardan yığılıb gətirilən məhsulu ticarət təşkilatlarına paylayıb satdırırdı.

Teymur təzə-təzə vəziyyətini aydın dərk etmirdi. Onda öz günahsızlığına mistik bir inam vardı. Əslində, Teymuru Bakıya araşdırma işlərini və istintaq hərəkətlərini rahat aparmaq üçün

çağırmışdılar. Vəzifə almağının da səbəbi çox sadə idi: aşkar edilib istintaqa verilən ziyankar «düşmənlər» vəzifə başında tutulmalı idi. Bu isə repressiya aparatının işinə sanbal görüntüsü verirdi.

1936-cı ildə Teymur Salahov partiya aparatında kifayət qədər tanınan və Kommunist polkuna mənsubluğu ilə çox etibarlı sayılan bir adam idi. O, Bakı Şəhər Partiya Komitəsinin büro üzvü olmuşdu. Rayonlarda çalışanda isə AK(b)P MK plenumunun üzvü idi. O, həm Stalin kursunun səmimi tərəfdarı, həm də bioqrafik mənşəyi ilə bu xəttə uyğun idi. Lakin Teymurun bir uyğunsuzluğu vardı: o, təşəbbüskar, ardıcıl və vicdanlı idi. Bu isə aparat işçisi üçün arzuolunmaz haldı və ona düşmənlər qazandırırdı.

Meyvə-Tərəvəz Birliyində də Teymur öz iş strategiyasına sadiq olmağa çalışdı: dağıntı və oğurluğa qarşı mübarizəyə başladı. Amma burada onun ifşa etmək istədiyi adamlar artıq azərbaycanlı deyildi. İndi onun rəqibləri ruslar və ermənilərdi. Teymur bilirdi ki, əsl bolşeviklər üçün milliyyətin heç bir əhəmiyyəti yoxdur. Bunu qəzetlərdə həmişə yazır, iclaslarda da deyirdilər. Amma Azərbaycanı idarə edən «ÇK» üçün rusla azərbaycanlı arasında hamıya məlum olan böyük fərq vardı. Rus və erməni sadiq sahibkar – məhz sahibkar sayılırdı. Bu sahibin rüşvətxorluq, oğurluq, içki düşkünlüyü kimi qüsurları ola bilərdi. Amma o, heç vaxt Rusiyaya xəyanət etməzdi. «ÇK»-nın və Moskva elitasının məntiqi belə idi.

Meyvə-Tərəvəz Birliyinin direktoru Gerasimov, partiya təşkilati katibi Kotelnikov milliyyətcə rus, mərkəzi anbarın müdiri Sarkisov, mühasib Musaelyan isə erməni idilər. Birlikdə ərzaq oğurlanmasına və qaimə yazmadan anbardan mal buraxılmasına bu iki erməni rəhbərlik edirdi. Onlar oğurlanan dövlət malını pula çevirir və aralarında bölürdülər, bir hissəsini də yuxarı – Gerasimovla Kotelnikova və onlardan əlavə Bakı Şəhər Partiya Komitəsinin katibi Melkumyana yollayırdılar.

Lakin Teymur bunları kifayət qədər aydın bilmir, Meyvə-Tərəvəz Birliyində yuva salmış cinayətkar dəstə barədə MK-ya, şəhər partiya komitəsinə və «ÇK»-ya qədər məlumatlar verirdi.

Amma düşünmürdü ki, onun məktublarının hamısı Bakı Şəhər Partiya Komitəsinin katibi Melkumyanın stolunun üstünə gəlir. Ona görə qəribə vəziyyət alındı: Birlikdə qayda-qanunu bərpa etmək istədiyi üçün Teymuru partiyadan çıxartdılar.

T.Salahov mühüm bir amildən gec nəticə çıxartdı: onun səlahiyyətli orqanlara göndərdiyi məktublar əsasında heç bir tədbir görülmürdü. Elə bil məsələ heç kimi maraqlandırmırdı. Əslində, bu, belə deyildi: Meyvə-Tərəvəz Birliyində yoxlamanı Melkumyan təşkil etməli idi. Amma etmirdi, çünki Birlik, faktiki olaraq, iki ermənինin əlindəydi. Anbardarı, mühasibi, partiya təşkilatı katibi, içki düşkünü Kotelnikovu da vəzifələrə o özü qoymuşdu. Ona görə Melkumyan adamlarının sıradan çıxarılmasına göz yuma bilməzdi.

Teymur səhvini gec başa düşdü: anladı ki, «azərbaycanlı rusu və ermənini ifşa edə bilməz». Məhz həmin təşəbbüsünə görə Bakı Partiya Komitəsinin faktiki sahibi olan ruslar və ermənilər birləşib Salahovu asanlıqla aradan götürdülər. Onun şikayətləri əsasında yaradılmış komissiya Teymurun özünü partiyadan xaric etmək üçün sənədlər hazırladı. Ona hətta iranlı işçilərdən dəstə düzəltmək kimi absurd ittiham da verildi.

Teymur Salahovu Sov.İKP sıralarından çıxarmaq üçün irəli sürülən bütün ittihamlar formal və mahiyyətsiz idi. Əsl səbəb ondan ibarət idi ki, o, rus və ermənilərin səlahiyyətinə aid işlərə müdaxilə etmişdi və məhz buna görə də cəzalanmışdı. Əldə olan sənədlər, əslində, bunu təsdiq edirdi.

Azərbaycanın partiya-sovet orqanlarına soxulmuş Melkumyan, Markaryan, Qriqoryan kimi türk xalqının qanını içməyə hazır olan qatı şovinistlər öz çirkin niyyətlərini müxtəlif vasitələrlə həyata keçirirdilər. Onların öyrətdikləri, ələ aldıqları muzdlu şahidlər yalan və iftira dolu ifadələri ilə Teymurun üzünə durdular. İnsanlıq simasını, şərəf və ləyaqətini itirmiş həmin adamlardan bir neçəsinin ifadəsi artıq «ÇK» işçiləri tərəfindən alınmışdı.

Bu cür məsləksiz, imansız şahidlərin ifadələri ilə Salahovun guya «millətçiliyi» sübut edilir və o, bilərəkdən aradan götürülürdü. Ermənilərin fitvası ilə öyrədilmiş şahidlər türkçülüyü,

müsəlmanlığı qabartmaqla onun «əksinqilabçı xalq düşməni» olduğunu sübuta yetirməyə çalışırdılar.

VII. Həqiqət və yalan: bir partiya, bir ideologiya, bir diktatura

Əql nadanlıqla, xeyir şərlə, işıq qaranlıqla qarışanda böyük faciələr baş verir.
Əbu Turxan

1937-ci il yanvarın 10-da Teymur Salahovu Bakı Partiya Komitəsinin bürosunda Sov.İKP sıralarından çıxartdılar. Bunun iki formal səbəbi vardı. T.Salahov ədalətsiz qərardan sonra Mircəfər Bağırova şikayət ərizəsi ilə müraciət edir. 1937-ci il yanvarın 21-də isə Melkumyan öz imzası ilə respublika rəhbərinə «məxfi» qrifli arayış yollayır. Burada Teymurun partiyadan çıxarılmasının səbəbləri cəmi 14 sətir təşkil edir!

Bunun birinci abzası Salahovu «əksinqilabçı-trotskiçilərlə əlaqələrini partiyadan gizlətmək»dən, ikincisi isə «Meyvə-Tərəvəz Birliyinin partiya və təsərrüfat rəhbərliyinə qarsı dəstə düzəltmək» ittihamından ibarət idi. Məsələnin büroya çıxarılma səbəbi kimi partiya sənədlərinin dəyişilməsi göstərilsə də, katib Melkumyanın özünün məruzəçi olması qərarın artıq əvvəldən verildiyini təsdiqləyirdi. Qərarda Teymurun Meyvə-Tərəvəz Birliyinin rəhbərliyinə qarşı ittihamlarının məzmunu barədə bir kəlmə də deyilmirdi.

Əksinqilabçı-trotskiçi kimi tanınan Məmmədlinskinin onun haqqında ifadə verməsindən Teymur xəbərdar idi. Amma o, bunu əhəmiyyətsiz sayırdı, çünki yuxarılarda başlanmış terrorun səbəblərindən və gedişindən xəbərsiz idi. Məmmədlinski AKP MK-nın Təbliğat şöbəsinin müdiri olmuşdu. Onu Azərbaycanın 1920-ci ilin mayında qurulan birinci hökumətin maarif komissarı D.Bünyadzadənin işi ilə bağlı tutmuşdular. Bu, Moskvada Buxarin üzərində qurulmuş məhkəmənin analoqu idi və ölkənin bütün yerlərində düşmənlərin varlığı barədə rəsmi partiya tezisini təsdiq etməliydi. Həmin işlərlə Stalin özü maraqlanırdı, çünki Dadaş Bünyadzadə, Ruhulla

Axundov kimi adamların həbsi Buxarinin düşmən olduğu versiyasını inandırıcı şəklə salmalı idi.

Belə illərə aid edilənlərin hamısı güllələnirdi. İrəlidə görəcəyimiz kimi, Mircəfər Bağırov 1936-cı ilin 21 sentyabrında qoyduğu bir dərkənarla Teymur Salahovun da işi ilə bağlı hökmünü vermişdi.

Bu dərkənardan sonra, 5 oktyabr 1936-cı ildə Bakı Şəhər Partiya Komitəsinin katibi Melkumyan gözlənilmədən T.Salahovu yanına çağırıb sorğu-sual etmişdi. Həmin günə qədər Melkumyan Meyvə-Tərəvəz Birliyindəki yaxın adamlarına qarşı Teymurun sərt mübarizəsindən artıq xəbərdar idi.

– Siz Məmmədlinskini tanıyırsınızmı? – Melkumyan onunla hökmlə, ixtiyar sahibi olan müstəntiq kimi danışırdı.

– Bəli.

– Siz 1927-ci ildə partiya fəallarının yığıncağından sonra Məmmədlinski ilə birlikdə Bazar küçəsi ilə Şaxski küçəsinin tinində yaşayan Abdullayevin mənzilinə getmisinizmi?

– Yox.

– Əgər Məmmədlinski desə ki, siz onunla Abdullayevin mənzilində olmusunuz, onda necə?

– Əgər Məmmədlinski desə ki, mən onu kiminlə tanış etmişəm, o adamın familiyası necədir, o adam kimdir, mən onları hansı məqsədlə tanış etmişəm, onda mən partiya qarşısında cavab verməyə hazıram.

Birinci görüş elə bu cür də başa çatmışdı. Lakin T.Salahov məsələnin düzgün araşdırılması üçün ciddi səy göstərirdi. O, Melkumyandan təkidlə xahiş edirdi ki, haqqında yanlış məlumat çatdıran adamın adını açıqlasın. Lakin bütün bu cəhdlər heç bir nəticə vermirdi. T.Salahov Mircəfər Bağırova ünvanladığı 19 yanvar 1937-ci il tarixli məktubunda bu barədə yazırdı: «Bundan sonra mən dəfələrlə yoldaş Melkumyana müraciət etdim ki, mənim haqqımda təxribat xarakterli materiallar ötürən şəxsin adını açıqlasın (yeri gəlmişkən, raykomun 10 yanvar 1937-ci il tarixli iclasına mənim haqqımda bu cür materialların müzakirəyə göndərilməsindən xəbərsiz olmuşam) və təkidli tələblərimə baxmayaraq, yoldaş Melkumyan və yoldaş Hüseynov bunu etmədilər».

Teymurun «ÇK»-dan daxil olmuş məxfi məktubdan xəbəri yox idi.

Üstündən 5 ay keçdikdən sonra şəhər partiya komitəsinin ikinci katibi Hüseynov yenidən T.Salahovu qəbuluna çağırır. Bu hadisə 1937-ci il yanvar ayının 4-də baş verir. Hüseynov həmin gün bildirir ki, 1926-cı ildə verilmiş partiya biletlərinin nümunələri dəyişdirilir və onun çağırılma səbəbi bununla bağlıdır. Azərbaycan Meyvə-Tərəvəz Ticarəti Birliyi partiya komitəsinin katibi Kotelnikov da orada idi. Söhbətdən Teymura aydın olur ki, Melkumyanın siyasi ittihamlarına Kotelnikovun da idarədən, yəni Birlikdən təşkil etdiyi materiallar əlavə olunub. Ona görə vəziyyət daha da ciddiləşir.

Kotelnikov özü də Teymura qarşı işləyir, materiallar təşkil edirdi. Söhbətdən sonra o, partiya mənsubiyyəti olmayan 3 nəfəri T.Salahovun əleyhinə ifadə verməyə razı salır. Guya Teymur Salahov onlara deyib ki, gəlin direktor Gerasimovun və partiya təşkilatının katibi Kotelnikovun fəaliyyətinə mane olaq, sonra mən sizi rəhbər vəzifələrə gətirəcəyəm. Və onlar da buna razı olublar. Yanvarın 9-da Kotelnikov bu mənfur adamlardan izahat alır və şəhər komitəsinə təqdim edir. O, T.Salahovun partiya üzvlüyü məsələsinin yanvarın 10-da «qorkom»un bürosunda müzakirə olunacağından xəbərdar idi.

Beləliklə, 1937-ci il yanvarın 10-da T.Salahovu şəhər partiya komitəsinin büro iclasına çağırırlar və burada Melkumyan Məmmədlinski adlı şəxsin onun haqqında dediklərini bildirən məlumatı iclas iştirakçılarına elan edir. Məlumatda göstərilir: «Teymur Salahov 1927-ci ilin sentyabrında partiya fəallarının iclasından sonra, həm də Bakı partiya konfransından əvvəl mənimlə görüşmüş və mənim Bakı partiya fəallarının iclasında partiya əleyhinə əksinqilabi-trotskiçi çıxışımdan məmnun qaldığını bildirmişdir. Bundan başqa, Salahov əksinqlabi-trotskiçi baxışları haqqında danışmış və demişdir ki, AK(b)P rəhbərlərindən cana doyub, xüsusən də MK-nın keçmiş katibi Əliheydər Qarayevdən. Bütün bunlarla yanaşı, o, yəni Salahov söylədi ki, məni öz əksinqilabçı-trotskiçi həmfikirlərindən biri ilə tanış etmək istəyir və həqiqətən də adını bilmədiyim Abdul-

layev familiyalı bir şəxslə tanış edir. Mən Abdullayevin Bazar küçəsi ilə Şaxski küçəsinin tinində yerləşən evinə getdim».

Bu kiçik «təqdimat»dan sonra Melkumyan sözü Salahova verərək deyir:

– Etiraf edin ki, siz 1927-ci ildə partiya fəallarının iclasından sonra Məmmədlinski ilə birlikdə Abdullayevin evinə getmisiniz.

T.Salahov çıxışında bütün ittihamları qəti şəkildə rədd edir:

– Birincisi, mən 1927-ci ildə Azərbaycan «QPU»-da (Baş Siyasi İdarə) işləməmişəm, sovet partiya məktəbində oxumuşam. İkincisi, mən bu məsələ ilə maraqlanmışam və müəyyən etmişəm ki, bu mənzildə Abdullayev familiyalı adam yaşamayıb və yaşamır, ona görə də mən Məmmədlinski ilə olmayan Abdullayevin evinə gedə bilməzdim.

Çıxışının qalan hissəsini Salahov ona qarşı irəli sürülən əksinqilabi fəaliyyətlə bağlı iddiaların heç bir əsası olmadığını dəlillərlə sübut etməyə həsr edir.

Lakin Melkumyan Salahovun bütün arqumentlərini qulaqardına vurur və deyir:

– Çox güman ki, Salahov partiya sıralarında fəaliyyət göstərdiyi dövrdə Əliheydər Qarayevdən narazı olmuşdur və buna görə də Məmmədlinskini Abdullayevin evinə apararaq onu naməlum şəxslə tanış etmişdir.

Çox maraqlı bir fakt: T.Salahov M.Bağırova yazdığı məktubda qeyd edir ki, Melkumyan bu ittihamların həqiqiliyini onunla sübut etməyə çalışır ki, guya Məmmədlinski heç vaxt yalan danışmır. Əlbəttə, bu, gülünc bir arqument idi. Axı necə ola bilərdi ki, Kommunist Partiyasının nümayəndələri partiyaya illərlə xidmət emiş bir insanın deyil, istintaqda olan şəxsin sözlərinə inansın?! Deməli, əsas məqsəd Salahovun əksinqilabi fəaliyyət göstərməsi barədə deyilənləri araşdırmaq yox, onun aradan götürülməsini təmin etmək idi.

T.Salahov həmin məktubunda partiyadan çıxarıldığını düzgün saymırdı və Bağırovdan xahiş edirdi ki, onu «Lenin–Stalin partiyasının sıralarına bərpa etsin».

T.Salahovun partiya sıralarından xaric edilməsi o qədər tələsik və sürətlə həyata keçirildi ki, hətta yalançı şahidlərin

ifadələri ilə qəbul olunmuş qərar arasındakı vaxt cəmi iki gün çəkdi. Yəni bu faktın özü də, əslində, ittihamın sifarişli olduğunu söyləməyə əsas verir. Ən maraqlısı budur ki, ifadələrin heç birində konkret ittihamlara və faktlara rast gəlmək mümkün deyildi. Salahovun işi ilə bağlı ifadə verən Azərbaycan Meyvə-Tərəvəz Ticarəti Birliyinin əməkdaşı *Butuzovun dediklərindən*: «Salahov və Məmmədov görüşərkən həmişə nə barədəsə danışırdılar, lakin mən yaxınlaşan kimi söhbəti dəyişir və mənə təsərrüfatla bağlı müxtəlif suallar verirdilər, yaxud da mən onlara sual verirdim. Məmmədov Yavər müsavat ordusunda iştirakına, partiya-sovet hakimiyyətinə qarşı fəal mübarizə apardığına və 1930-cu ildə öz mənzilində müsavatçı qrupun yığıncağını təşkil etdiyinə görə 1936-cı ildə AK(b)P-nin Dzerjinski RK-sı tərəfindən partiyadan xaric olunmuşdu».

Adırxayevin ifadəsindən: «Salahov mənimlə söhbət zamanı demişdi ki, əgər biz Gerasimovu aradan götürə bilsək, onda müavin yoldaş Məmmədov olacaq».

Lakin şahidlərdən Salahovun lehinə ifadə verənlər də var idi. Məsələn, Cavad Bağırov öz ifadələrində T.Salahovun əksinqilabçı-trotskiçi olduğunu nəinki təsdiq etməmiş, əksinə, qəti inkar edərək onun trotskiçilərin əleyhinə fəaliyyət göstərdiyinə dair tutarlı bir fakt söyləmişdi. O, partiya məktəbində T.Salahovla tələbə yoldaşı olduğunu bildirmiş və qeyd etmişdi ki, «həmin dövrdə, 1927-ci ildə bir qrup trotskiçi məktəbdə partiya əleyhinə təbliğat aparmaq istəyərkən məhz T.Salahov onlara qarşı çıxmış, buna imkan verməmişdir». Qeyd edək ki, bu ifadəni Abbas Cəfərqulu oğlu Sadıqov və Əlisəttar Murad oğlu İbrahimov da təsdiq etmişlər.

Ə.İbrahimovun ifadəsindən: «Mən Teymur Salahovu S.Şaumyan adına Mərkəzi Sovet Partiya Məktəbində işlədiyim dövrdən – 1924-cü ildən tanıyıram. Partiya məktəbində müəllim işlədiyim dövrdə partiya əleyhinə hər hansı fəaliyyətini müşahidə etməmişəm. Əksinə, bir dəfə şəhər partiya komitəsinin göstərişinə əsasən AKP-nin partiya məktəbindəki komitəsinin 15-ci partiya konfransının yekunlarına və 16-cı partiya konfransına dair iclas üçün hesabat hazırlayarkən Teymur Salahov fəal şəkildə öz çıxışları və ümumi iclasın təyin olunmuş gündə işinin

qurulmasında fəal iştirakı ilə trotskiçilərə qarşı aparılan mübarizəyə kömək etmişdir».

Beləliklə, növbəti əsassız ittihamlara rəvac verilir – bütün faktlar T.Salahovun xeyrinə olduğu halda, onun partiya sıralarından çıxarılması üçün heç bir dəlil-sübut göstərilmədiyinə baxmayaraq, Melkumyanın səyləri nəticəsində günahsız insan barəsində ilk ədalətsiz qərar çıxarılır.

Əlbəttə, bir azərbaycanlı ziyalı kimi T.Salahovun həqiqətən də ermənilərin və digər millətlərin nümayəndələrinin Azərbaycanda yüksək vəzifələrdə əyləşməsindən narahat olması mümkün idi. Ola bilsin ki, elə Teymur Salahova qarşı təzyiqlərin əsas mahiyyəti də məhz buradan irəli gəlirdi. Hər halda ermənilər və digər qeyri millətlər belə bir mötəbər ziyalının millətçiliyindən şübhəli ola bilərdilər və nəzərə alsaq ki, Stalin rejimi onların əl-qolunu əməlli-başlı açmışdı, onda bu cür təxribatın məhz həmin qüvvələr tərəfindən planlaşdırıldığını düşünməyə dəyər. Amma bununla belə, həmin faktın özü də baş verənlərin həqiqi məzmununu dəyişmir. İşlərin kim tərəfindən qurulmasına baxmayaraq, T.Salahovun aradan götürülməsi cəhdi Azərbaycan ziyalılarına qarşı total hücum kampaniyasının tərkib hissəsi idi və bu prosesin əsas məsuliyyəti məhz Stalin rejiminin üzərinə düşürdü.

Teymur Salahovun qızı Zərifə xanım deyir ki, Mircəfər Bağırovla atası Kommunist polkunda eyni vaxtda hərbi xidmətdə olmuşlar. Bu xidməti fəaliyyət sonralar onların arasında yaxın dostluğa, yoldaşlığa çevrilmişdi: «Mircəfər ailəsi ilə birlikdə dəfələrlə bizim Zuğulbadakı bağımızda olmuş, bir süfrə başında çörək kəsmişlər. Buna görə də atamın məktublarının cavabsız qalması, laqeyd münasibət onun dünyasını qaraldırdı. M.Bağırov Dövlət Filarmoniyası ilə üzbəüz binada yaşayırdı. Günlərin birində atam əsəblərini cilovlaya bilmir və Bağırovun evinin yaxınlığında onun işə gedəcəyi vaxtı gözləməyi qərara alır. Birinci katib qapıdan çıxıb pillələri düşərkən atam onun qarşısını kəsir və deyir:

– Yoldaş Bağırov, siz ki məni yaxşı tanıyırsınız. Bir yerdə firqəçi olmuşuq, eyni vaxtda Kommunist polkunda xidmət etmişik. Məndən xəyanətkar, xain olar?.. Mən kommunist ideologiyasına həmişə sədaqətli olmuşam...

Mircəfər Bağırov onu dinlədikdən sonra bir kəlmə də demir, sakitcə maşınına oturub gedir. Bu hadisə Teymur Salahovun vəziyyətini daha da ağırlaşdırır. Bəlkə də onu heç tutmayacaqdılar... Lakin nə etmək olar, olan olmuşdu...»

Heç bir vəchlə təslim olmaq istəməyən Teymur Salahov son ana qədər öz günahsızlığını sübut edə biləcəyinə əmin idi və onun hələ həbs edilənədək müxtəlif instansiyalara göndərdiyi məktublarda bu cəhd, inam bir daha aydın görünürdü. 1937-ci il aprel ayının 10-da T.Salahov Mircəfər Bağırova belə bir ərizə ilə müraciət edir:

«AK (b) P MK-nın katibi
yoldaş Bağırova
partiyanın sabiq üzvü
Teymur Salahov tərəfindən

Ərizə:

1936-cı ilin avqust ayından indiyə qədər mənim partiya vəziyyətim müəyyən olunmamış qalır və günü-gündən uzadılır.

Yoldaş Bağırov! Mən artıq 9 aydır ki, mənəvi cəhətdən öldürülmüşəm, buna görə də Sizdən xahiş edirəm ki, mənim məsələmin həllini sürətləndirəsiniz».

T.Salahovun 10 gündən sonra M.Bağırova yazdığı ərizənin məzmunu da təxminən eyni idi:

«Möhtərəm yoldaş Bağırov!

Mənim işimi 9 aydır ki, sürüdürürlər. Sizdən artıq dərəcədə rica edirəm, işimə şəxsən özünüz baxasınız. Mən Lenin–Stalin partiyası üçün həmişə sədaqətli olmuşam və sədaqətlə də öləcəyəm. Mənim Sizdən başqa heç kəsim yoxdur. Təkrarən xahiş edirəm, mənim işimə şəxsən özünüz baxasınız.

Teymur Salahov.
20.04.37».

Teymur Salahov bu ərizəsində Lenin və Stalin sözlərinin altından qalın bir xətt çəkmişdi. O, bununla partiyaya sədaqətini daha qabarıq şəkildə nəzərə çarpdırmağa çalışırdı. Amma

artıq Lenin–Stalin partiyası da onun taleyinin üstündən xətt çəkmişdi. Hələ həbs olunmazdan bir neçə ay əvvəl T.Salahov «Mən Lenin–Stalin partiyası üçün həmişə sədaqətli olmuşam və sədaqətlə də öləcəyəm» deməklə, əslində, onu qarşıda nələrin gözlədiyini bildiyinə işarə edirdi. Bundan sonra o, M.Bağırova daha bir məktub yazır: *«Əgər mənim barəmdə bir balaca şübhəniz varsa, o vəqt, rica edirəm, Xalq Daxili İşlər Komissarlığına göstəriş verəsiniz məni tutsunlar. Mən orada özümün Lenin–Stalin partiyasına həmişə sədaqətli olduğumu isbat edərəm. Əgər şübhəniz yoxsa, o vəqt, rica edirəm, mənim işimə şəxsən özünüz baxasınız. Mən 9 aydır ki, mənəvi cəhətdən əzab çəkirəm. Sizdən təkrarən rica edirəm, mənim məsələmi özünüz həll edəsiniz».*

Teymur Salahov bu məktubu yazarkən həbs ediləcəyini, çox güman ki, bilirdi. Amma bununla belə, hələ də günahsız olduğunu sübut edəcəyinə ümidini itirməmişdi.

Kənd Təsərrüfatı İnstitutunda Xalq Daxili İşlər Komissarlığının 3 nəfər trotskiçi əməkdaşı – Qamalyan, Martirosov və Xaçaturov onun vasitəsilə ifşa olunmuşdu. Odur ki, həm ermənilər, həm də əvvəllər ifşa olunaraq cəzalandırılmış adamlar fürsət düşən kimi Teymurdan intiqam almağa çalışırdılar. Həmin dövrdə respublika partiya təşkilatında, eləcə də cəza orqanlarında erməni millətindən olan xeyli əməkdaş çalışırdı. Onlar T.Salahovun bütün fəaliyyətini izləyir, azacıq büdrəməsini gözləyirdilər ki, ondan qisas alsınlar.

1937-ci ildə partiya və dövlət orqanlarında görünməmiş qəddarlıq, azğınlıq hökm sürürdü. Hamı qorxu içində olduğundan çalışırdı ki, tutulanların yox, tutanların, ittiham edənlərin tərəfində olsun. Bu, kütləvi psixoz halını almışdı.

1937-ci il aprelin 1-də Xalq Daxili İşlər Komissarlığı sovet ticarətində çalışan partiyaçı və bitərəf fəalların müşavirəsini keçirir. Təbiidir ki, sanballı bir idarənin rəhbər işçisi olan Teymur Salahov da həmin müşavirəyə dəvət edilməli idi. Lakin sonradan məlum olur ki, onun müşavirədə iştirak etməsi üçün adına buraxılış vəsiqəsi yazılmayıb. Teymur bunun səbəbini XDİK-in əməkdaşından soruşanda cavab verir ki, sadəcə olaraq, bu, onların yadından çıxıb.

T.Salahov həmin hadisə ilə bağlı Xalq Komissarları Sovetinin sədri H.Rəhmanova yazdığı məktubda öz narazılığını belə ifadə etmişdi:

«Fikirləşdim, burada elə bir ciddi şey yoxdur və hökumətin üzvü, direktor müavini kimi məni müşavirəyə buraxarlar. Odur ki, durub getdim. Xalq Daxili İşlər Komissarlığının bir nəfər əməkdaşından məni içəri buraxmasını xahiş etdim. Həmin şəxs Qədimbəyovdanmı, yoxsa Lesniçnidənmi icazə alıb məni müşavirə gedən zala buraxdı. Azacıq sonra Qarayan məni yanına çağırıb dedi ki, sənin buraxılış vəsiqən yoxdur, odur ki, zalı tərk etməlisən. Mən razılaşdım. Çıxmaq istərkən mühasib Qəhrəmanov məni çağırdı və dedi ki, yoldaş Qədimbəyov səni görmək istəyir. Təzədən zala qayıtdım, baxdım ki, Meyvə-Tərəvəz Ticarəti Birliyinin işçisi Kotelnikov təklif verir və deyir ki, Salahov partiyadan xaric edildiyi və trotskiçi olduğu üçün onu iclasdan qovmaq lazımdır. Mən Qədimbəyova müraciət edib söz almaq istədim, lakin mənə söz verməyib fitə basdılar və iclasdan qovdular.

Yoldaş Rəhmanov, mən partiyadan 10 yanvar 1937-ci ildə xaric olunmuşam. Yoldaş Bağırova ərizə ilə dəfələrlə müraciət etmişəm. O isə dərhal mənim ərizəmə reaksiya vermiş və Melkumyandan izahat tələb etmişdir. Mənim işimin təhqiq edilməsi M.Nərimanova həvalə olunub. Təhqiqat işi bu yaxınlarda başa çatacaq və mənim məsələmə Mərkəzi Komitənin Bürosunda baxılacaqdır.

Yoldaş Rəhmanov, MK mənim partiyadan xaric olunmağımı hələ təsdiq etməyib və hazırda Meyvə-Tərəvəz Ticarəti Birliyi direktorunun müavini vəzifəsində işləməkdə davam edirəm. Mənim vəzifəm AK(b)P MK-nın nomenklaturasına daxildir. Bundan əlavə, böyük Sovetlər İttifaqının vətəndaşıyam. Nəyə görə insanlar mənim əsəblərimlə oynayıb ələ salırlar?! Onlara bu hüququ kim verib? Özünüz də bilirsiniz ki, partiyadan xaric edilənlərə münasibətdə partiyanın müəyyən göstərişi vardır. Deməli, insanlar partiya və hökumətin qərarlarını, Stalin Konstitusiyasını bu cür anlayırlar?!»

Azərbaycan Meyvə-Tərəvəz Ticarəti Birliyində özünə yuva salmış və yüksək səviyyəli partiya funksionerləri tərəfindən himayə edilən bu cinayətkar dəstə hər vəchlə çalışırdı ki, Teymur Salahovu ləkələyib idarədən uzaqlaşdırsın. Ona görə də cürbəcür saxtakarlıqlar düşünüb tapırdılar.

İstintaq materialları ilə tanışlıq bir daha sübut edir ki, T.Salahov barəsində müxtəlif orqanlara kifayət qədər təxribat xarakterli «donos» göndərilmişdi. Nəyin bahasına olursa-olsun onu günahlandırıb məsuliyyətə cəlb etməyə, sıradan çıxarmağa çalışırdılar. Bu əsassız ittihamlar içərisində müxtəlif bəhanələr, iftiralar, hətta insan ağlına gəlməyən böhtan və hədyanlar kifayət qədər idi. Teymur onun əleyhinə qalxmış bir qrup cinayətkardan ibarət dəstəyə qarşı təkbaşına, özü də ləyaqətlə mübarizə aparırdı, haqq və ədalətin qalib gələcəyinə inanırdı. Lakin o, eləcə də minlərlə onun kimi günahsız insanlar başa düşmürdülər ki, tarixə qanlı repressiya illəri kimi daxil olacaq 37-ci ilin ssenarisi İ.Stalin tərəfindən yazılmış planlı bir proses idi.

Teymur Salahov İ.Stalinə inansa da, onun üçün qurulmuş tələnin qisas olduğunu da anlayırdı. Şikayət məktublarından birində yazırdı: «*Kotelnikov mənim əleyhimə bu işi ona görə açdırıb ki, mən Gerasimovun qarşısında onun rüşvət alması, sərxoşluq etməsi, cinayətkar ünsürlərlə əlaqədə olması, öz adamlarını şəxsi maraqları naminə yerləşdirməsi barədə məsələ qaldırmışdım. Elə həmin gün Gerasimov mənim yanımda bunların hamısını Kotelnikovun üzünə dedi. O isə qətiyyən özünü təqsirli hesab etmədi*».

Teymur Salahova qarşı guya onun əksinqilabçı-trotskiçilərlə əlaqədə olması ittihamının irəli sürülməsi, əslində, Məmmədlinskinin 1936-cı il iyulun 23-də verdiyi (daha doğrusu, ondan alınmış) ifadə ilə bağlı idi. Bu, absurd bir ittiham idi, çünki Teymur rus dilini çox zəif bildiyindən ideoloji mübarizələrdən çox uzaq bir adam idi. O zaman güllələnənlərin hamısı belə ifadələr əsasında tutulurdu. Başqa dəlillər isə yox idi.

VIII. İstintaq

Kölgəni yox edə bilmək üçün günəş
öz zirvəsinə qalxmalıdır.
Amma zor olan yerdə bunu edə bilmək çox çətindir…
Əbu Turxan

Teymur Salahovun repressiyaya məruz qalması məsələsi onun Meyvə-Tərəvəz Birliyindəki işi ilə, əslində, az bağlı idı. Bu işin öz süjeti vardı. Həmin süjet o zaman vəzifəli partiya

işçilərini repressiya etməyin vahid mexanizminə əsaslanırdı. Bu mexanizmin iki variantı mövcuddu.

Birinci variant ictimai xadimlər üçün idi. Onlar barədə əvvəlcə qəzetlərdə kampaniya təşkil olunur və müzakirələrdən sonra həmin adamlar guya cəmiyyət tərəfindən ifşa olunmuş kimi partiyadan çıxarılır və həbs edilirdilər. Teymur ikinci variantla həbs olundu.

İkinci variant belə idi: artıq həbsdə olan ictimai xadimdən zorakı yolla tutmaq istədikləri şəxs barədə ifadə alırdılar. İfadənin məğzi də belə olurdu ki, guya filankəs də bizim gizli təşkilatın üzvü idi. Teymur ictimai xadimlər, keçmiş komissarlar və partiya funksionerləri ilə əlaqədə olmamışdı. Ona görə Mircəfərin «ÇK» sədri Sumbatova 1936-cı ilin aprelində etdiyi zənglə Teymuru tutmaq üçün zəruri olan sənədin ortaya çıxması beş ay çəkdi. Həmin sənəd 1936-cı il sentyabrın 23-də M.Bağırovun stolunun üstünə gəlib çatdı. Sənəd «ÇK»-dan gəlmişdi və Teymurun həbsinə Mircəfərin şəxsi icazəsi tələb olunurdu.

Günahsız insanı həbs və edam etməyə icazə verən bu ilkin sənəd zahirən ziyansız və xırda görünürdü. Ona görə həmin sənədin rus dilindən tərcüməsini olduğu kimi veririk:

«Tamamilə məxfi

Əksinqilabçı-trotskiçi Məmmədlinskinin ÜİK(b)P-nin üzvü, indi Azərbaycan Meyvə-Tərəvəz Ticarəti Birliyində (Azplodovoşsoyuz) işləyən Teymur Salahov barədə ifadəsindən çıxarışı baxılmaq üçün Sizin sərəncamınıza yollayırıq.

Azərbaycan FK-nın rəisi: Sumbatov

Siyasi istintaq idarəsinin rəisi: Gerasimov».

Zahirən adi görünən bu sənəd Teymurun güllələnməsindən doqquz ay əvvəl çıxarılmış ölüm hökmü idi. Həmin hökm Mircəfər Bağırovun aşağıdakı dərkənarı ilə verilmişdi:

«Yoldaş Yaqubova!

Materialı araşdırmaq və baxılmaq üçün qorkomun katibi Melkumyana göndərin.

İşi şəxsi nəzarətinizə götürün.

Mircəfər

22.09.1936».

Bu dərkənar, əslində, AK(b)P-nin 18 il staji olan partiya funksionerini güllələmək üçün əvvəlcədən icazəsi idi.

1937-ci ilin iyulunda Teymur Heydər oğlu Salahov «əksinqilabi fəaliyyətinə görə» ittihamı ilə gecə öz mənzilində həbs edildi.

Qızı Zərifə Salahova həmin günü belə xatırlayır: «...Saat təxminən 10 olardı. Pəncərələrimiz ikinci mərtəbəyə açıldığından biz çox vaxt burada palaz salıb yatırdıq. O axşam da anam palazları salıb yer hazırlamışdı. Atam qəzet oxuyurdu, mən də yanında uzanmışdım. Axşamın sükutunda qapının döyüldüyünü eşidib dik atıldıq. Atam cəld qalifesini geyinib qapıya tərəf getdi. Açdı. İçəri iki nəfər keçdi. Oturdular. Mən də atamın yanında əyləşdim. Adamlardan biri nə isə dedi. Anamın rənginin qaçdığını görüb qorxdum. Atam köynəyini geyinib, kəmərini bağladı, anama: «Mənə pul ver», – dedi. Anam çaşmış halda: «Bəyəm pulun harada olduğunu bilmirsən?» – deyə soruşdu. Atam dolabdakı pulları götürdü. Anam narahat halda: «Nəsə baş verib?» – deyə maraqlandı. Atam: «Məndən şübhəli olmayın. Bir azdan qayıdacağam, darıxma...», – dedi. Sonra onu apardılar. Mən pəncərəyə tərəf qaçıb arxasınca baxdım. Atam həmin adamların əhatəsində tini burulub gözdən itdi. Bu mənzərə hafizəmdə ömürlük həkk olundu. Atamı bir daha görmədim. O gecədən sonra hələ uzun aylar pəncərənin qarşısında əyləşib onun burulub gözdən itdiyi tinə baxırdım. Onda elə bilirdim ki, atam qayıdacaq. Amma qayıtmadı…

Bilirsiniz, evimizin qapısı hər kəs üçün açıq olub. Atamın dostları, tanışları həmişə bizə gəlirdilər. Həmin günün gecə qonaqları isə bizdə bir vahimə, qorxu yaratdılar. Onlar həmişə gələn səmimi, gülərüz qonaqlara oxşamırdılar. Hamımız donub qalmışdıq. Atam qapıdan çıxanda nədənsə bizi ağlamaq tutdu. O vaxt mənim 5 yaşım vardı. Səssizcə hamımız ağlayırdıq, ürəyimizə dammışdı ki, nə isə pis bir hadisə baş verəcək».

1937-ci il iyulun sonlarında Azərbaycan Xalq Daxili İşlər Komissarlığının Dövlət Təhlükəsizlik İdarəsinin 4-cü şöbəsinin rəisi L.A.Sinman Teymur Salahovun işi ilə bağlı tərtib etdiyi arayışda yazırdı: «**Azərbaycan SSR-də əksinqilabi burjua-millətçi təşkilatın üzvlərindən Heydər Vəzirov (Azərbaycan SSR xalq torpaq komissarı) və Həsən Səfərov (AK(b)P MK-**

nın Kənd təsərrüfatı şöbəsinin müdiri) öz ifadələrində göstərmişlər ki, Teymur Salahov əksinqilabi-millətçi təşkilatın mərkəzi komitəsinin üzvüdür. Deyilənlərə əsasən, Teymur Salahovun Azərbaycan SSR CM-in 72, 73-cü maddələri üzrə məsuliyyətə cəlb edilib həbs olunmasını zəruri hesab edirəm».

Akademik Ziya Bünyadov «Qırmızı terror» kitabında yazır: «T.Salahov köhnə partiya işçisi idi. Buna görə də ölkədə və respublikada nə baş verdiyini çox gözəl dərk edirdi. «Xalq düşmənləri»nə qarşı mübarizə ilə əlaqədar ÜİK(b)P MK-nın direktivləri ilə yaxından tanış idi. Həbs olunan intellektualların necə «etiraf ifadələri» verdiklərini yaxşı təsəvvür edirdi. Buna görə də o, nə ifadə verməkdən boyun qaçırdı, nə də istintaqa müqavimət göstərdi. Çünki belə hərəkət heç kəsin davam gətirmədiyi istintaqın digər metodlarının tətbiqinə gətirib çıxaracaqdı».

T.Salahov istintaq prosesinə ciddi müqavimət göstərməsə də, qəti şəkildə əksinqilabi fəaliyyətlə məşğul olmadığını sübut etməyə də çalışırdı. Maraqlıdır ki, T.Salahovun ifadələrində ziddiyyətli məqamlar nəzərə çarpırdı. Əlbəttə, bu faktın özü istintaq prosesinin təzyiq altında həyata keçirildiyini və müxtəlif cəza metodlarının tətbiq edildiyini isbatlayırdı. T.Salahov uzun müddət bolşeviklərə xidmət etmişdi. Yaşadığı quruluş, üzvü olduğu partiya, irəliləyişi naminə çalışdığı dövlət qarşısında vicdanı təmiz, üzü ağ idi. Qırmızı terror isə gözünü qan örtmüş çoxbaşlı əjdaha kimi bunlara məhəl qoymurdu. Ən müxtəlif işgəncə metodları ilə ondan izahatlar alınırdı.

«Qırmızı terror» kitabında yazılır: «Beləliklə də müstəntiq 1937-ci il oktyabrın 7-8-də iki gün çəkən birinci istintaqda müttəhimə ənənəvi sualla müraciət edir:

– Sizə verilən ittihamlarda özünüzü günahkar bilirsinizmi? Yəni Azərbaycan əksinqilabi-millətçi təşkilatın mərkəzi komitəsinin üzvüsünüzmü?

Cavab: Mənə verilən ittihamlarda özümü günahkar bilirəm. Mən, Teymur Salahov həqiqətən də Azərbaycan əksinqilabi-millətçi təşkilatın üzvüyəm.

Müstəntiq: Bu əksinqlabi təşkilata nə vaxt və kim tərəfindən cəlb edilmisiniz?

Cavab: 1935-ci il mayın sonlarında Dadaş Bünyadzadə tərəfindən cəlb olunmuşam.

Müstəntiq: 1935-ci ildə harada və hansı vəzifədə işləmisiniz?

Cavab: 1935-ci ildə Azərbaycan SSR-in Laçın Rayon Partiya Komitəsinin katibi vəzifəsində işləmişəm.

Müstəntiq: Azərbaycan əksinqilabi təşkilatının məqsədi nə idi?

Cavab: Bizim əksinqilabi-millətçi təşkilatın məqsədi Azərbaycanda sovet hakimiyyətini devirmək, onu SSRİ-dən ayırmaq və müstəqil Azərbaycan Burjua Demokratik Respublikası yaratmaq idi.

Müstəntiq: Bunlar sizə haradan məlumdur?

Cavab: Əksinqilabi-millətçi təşkilatın məqsədi haqqında mənə Dadaş Bünyadzadə danışmışdı.

Müstəntiq: Azərbaycan əksinqilabi-millətçi təşkilatı bu məqsədə hansı yolla nail olmaq istəyirdi?

Cavab: Təşkilat Sovet hökumətinə qarşı aşağıdakı mübarizə yollarını nəzərdə tuturdu:

Kapitalist dövlətləri tərəfindən SSRİ-yə qarşı müdaxilə zamanı silahlı üsyan.

Azərbaycanın xalq təsərrüfatında ziyankarlıq işi aparmaq.

Müstəntiq: Bu barədə sizə kim danışmışdı?

Cavab: Sovet hökumətinə qarşı mübarizə metodları haqqında mənə Dadaş Bünyadzadə və Heydər Vəzirov məlumat vermişdilər.

Müstəntiq: Azərbaycan əksinqilabi-millətçi təşkilatının sizə məlum olan üzvlərinin adlarını söyləyin.

Cavab: Əksinqilabi-millətçi təşkilatın aşağıdakı üzvlərini tanıyıram: Ruhulla Axundov, Hüseynbala Ağaverdiyev, Əsgər Eyvazov, Bahadur Vəlibəyov, Həmid Sultanov, Heydər Vəzirov, Qəzənfər Musabəyov, Dadaş Bünyadzadə, Soltanməcid Əfəndiyev, Həsən Səfərov, Qədirli, Mikayıl Hüseynov. Onlar haqqında mənə Dadaş Bünyadzadə və Heydər Vəzirov danışmışlar».

Bu insanlar artıq o vaxt həbs edilib istintaqa cəlb olunmuşdular.

Diqqət etsək görərik ki, istintaqın Teymura verdiyi bu suallar onun günahını əsaslandırmağa yox, Azərbaycanda böyük əksinqilabi təşkilat olduğunu sübut etməyə yönəlmişdi. Əsas məqsəd də bu idi. Ona görə də istintaq prosesi birtərəfli qaydada aparılır, müstəntiq müvafiq təlimat əsasında işini qurur və T.Salahovu məhz istintaqçıların istədiyi cavabı verməyə məcbur edirdilər.

Ziya Bünyadov «Qırmızı terror» kitabında daha sonra yazır ki, ikinci istintaq 4 gün çəkmişdi. Bu, 1937-ci il oktyabrın 25-dən 28-nə qədər davam etmişdi. İstintaq zamanı T.Salahovun guya həqiqətən əksinqilabi fəaliyyətlə məşğul olması təsdiq edilmişdi. O, əksinqilabi təşkilatın tərkibinin artırılması məqsədilə buraya yeni üzvlər cəlb etdiyini, kənd təsərrüfatında ziyankar fəaliyyət göstərdiyini, kolxozçular arasında narazılıq yaratdığını, Sovet hökumətinə qarşı silahlı üsyan təşkil etmək istədiyini «etiraf etmişdi».

1937-ci il oktyabrın 31-də Teymur Salahova Azərbaycan SSR Cinayət Məcəlləsinin 64, 69 və 70-ci maddələri üzrə əlavə ittihamlar irəli sürüldü.

1937-ci il noyabrın 6-da onun işi üzrə istintaqın başa çatması haqqında protokol tərtib edildi.

İstintaq prosesində T.Salahovdan müəyyən şəxslərin əleyhinə alınan ifadələr yeni repressiyalar üçün «hüquqi əsas» yaratmaq məqsədi daşıyırdı. Yeri gəlmişkən onu da qeyd edək ki, sonrakı ifadələrində T.Salahov dediklərindən imtina etmişdi.

Ziya Bünyadovun yazdığına görə, ittiham verilənə və məhkəmə başlayana qədər T.Salahov 88/5 nömrəli kamerada saxlanılırmış. Kamera yoldaşları Kazım Əliyev, Nikolay Boqaçov, Lazar Vartanov sonralar T.Salahovun kamerada etdiyi söhbətlərdə onun istintaq prosesinin aparılmasından narazı qaldığını, təzyiqlər olduğunu söyləmişdilər.

Lakin T.Salahov özü 1937-ci ilin noyabr və dekabr aylarında onlarla üzləşərkən söylənilənlərin həqiqətə uyğun olmadığını demişdir. Şübhəsiz ki, bu fakt istintaq prosesinin ağır şərtlər altında həyata keçirildiyini sübut edir. Salahovu kamera

yoldaşlarının ifadələrini təkzib etməyə vadar edən isə, çox güman ki, işgəncələrə məruz qalmaq qorxusu olmuşdur.

Teymur Salahov beş körpənin atası idi. «Uşaqlar bizim gələcəyimizdir» deyən dövlətin başında duranlar isə minlərlə belə körpənin atalarını sürgün, həbs edir, yaxud birdəfəlik məhv edirdi… Qadını guya köləlikdən qurtaran, ona azadlıq verən quruluş, digər repressiyaya məruz qalanların ailələri kimi, Teymur Salahovun əliuşaqlı xanım-xatın həyat yoldaşını da həbsxana yollarında naçar qoymuşdu.

Bu, «sülh və humanizm prinsipləri üstündə qurulan dövlətin» simasının daha bir üzü idi…

Qızı Zərifə Salahovanın dedikləri: «Anam ayda cəmi bir dəfə atamla görüşə bilirdi. Saatlarla növbəyə dayanırdı ki, atama apardığı yeməyi və isti paltarı ona verə bilsin. Anam əmin idi ki, atamı heç bir günahı olmadan həbs ediblər və o, hökmən azad ediləcək. Amma bu, belə olmadı…»

O dövrdə istənilən şəxsdən müəyyən adamların lehinə və ya əleyhinə ifadə ala bilmək istintaqın əlində suiçimi kimi bir şey idi. İnsaf xatirinə demək lazımdır ki, Teymur haqqında ifadə «vermiş» D.Bünyadzadə, Heydər Vəzirov, Məmmədlinski və başqaları hec bir məsuliyyət daşımırdılar. Çünki bunların hamısı istintaq tərəfindən «düzəldilən» saxta dəlillər-sübutlar idi.

Bakıda təşkilat vardısa, onun rayonlarda da filialları olmalı idi. Ona görə Bakı kadrları rayon kadrları barədə, rayon kadrları isə Bakı kadrları barədə ifşaedici sübutlar deməli idi və istintaq bunları məhbusların ifadələrinə yazırdı, onların özlərinə imzalatdırırdı.

Ona görə istər Teymur, istərsə də 37-nin qurbanı olan digərləri öz ifadələrinin müəllifi deyildilər. Böhtan, şər dolu «dəlil-sübutlar»ın əsl müəllifi terror maşını, istintaqçılar idi. Qurbanlar tələb edən əsas qatil isə siyasi rejim və onun icraçıları idi.

1938-ci il aprelin 25-də Teymur Salahov öz xahişi ilə yenidən istintaqa çağırılır. İstintaqda o, əvvəllər əleyhinə ifadə verdiyi iki nəfər – İbrahim Səmədov və Süleyman Rəhimov haqqında dediklərini inkar edir: **«Bildirirəm ki, İbrahim Səmədovun, Süleyman Rəhimovun və ifadələrimdə adları çəkilən digər**

şəxslərin əksinqilabi-millətçi təşkilata məxsusluğu haqqında mənim əvvəllər verdiyim faktlar həqiqətə uyğun deyildir. Səmədov və Rəhimov millətçi təşkilatın üzvü olmamışlar. Qalan şəxslərin də əksinqilabi-millətçi təşkilatla heç bir əlaqəsi olmamışdır. Verdiyim ifadələr tamamilə uydurmadır».

Əlbəttə, istintaq materiallarına əsaslansaq, T.Salahovun əvvəlki ifadələrini təkzib etməsi bəlkə də o qədər təəccüblü görünməz. Amma məsələ bundadır ki, həmin ifadələrin məzmunu bəzi şübhələrə əsas yaradır. T.Salahovun dediklərindən də göründüyü kimi, o, əsasən iki nəfərin – İbrahim Səmədovla Süleyman Rəhimovun günahsızlığını sübut etməyə çalışır. Çox güman ki, Salahovu bu cür çıxış etməyə vadar edən səbəb məhz yuxarıdan həmin şəxslər haqqında şübhəli sənədləri aradan götürmək göstərişi olmuşdur. Əlbəttə ki, bu göstəriş T.Salahova verilə bilməzdi, məhz istintaqçılar onu yerinə yetirməliydilər. İstənilən şəxsdən müəyyən adamların lehinə və ya əleyhinə ifadə ala bilmək isə odövrkü hüquqşünasların əlində bir içim su kimi idi. Deməli, T.Salahovun bu cür ifadə verməyə məcbur edildiyini düşünməyə dəyər. Belə ki, haqqında ifadələrin təkzib olunduğu həmin adamlar sonradan nəinki repressiya maşınının cəzasından qurtuldular, əksinə, müxtəlif yüksək vəzifələrə irəli çəkildilər.

1932-ci ildən 1956-cı ilə qədər Azərbaycanın Baş Siyasi İdarəsində, Xalq Daxili İşlər Komissarlığı, Dövlət Təhlükəsizlik Nazirliyi və Daxili İşlər Nazirliyi orqanlarında işləmiş Vasili Çuvaşov Mircəfər Bağırovun işi ilə bağlı istintaqa verdiyi ifadədə deyirdi: *«1936-1938-ci illərdə mən Xalq Daxili İşlər Komissarlığında əməliyyat müvəkkili işlədiyim vaxtlarda kütləvi həbslər həyata keçirilirdi. Bu həbslər müvafiq şəkildə yoxlanılmış materiallar əsasında yox, əksinə, dustaqların yoxlanılmamış ifadələri üzrə aparılırdı.*

Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığında qabaqlar həbs olunmuş şəxslərin yoxlanılmamış ifadələri əsasında aparılan kütləvi həbslərlə yanaşı, istintaq zamanı dustaqların amansızcasına döyülməsi və qanunla qadağan olunan digər üsullar tətbiq edilirdi. Dustaqlara çox vaxt «stoyka» üsulu, yəni onları bir neçə sutka boyu dindirmək və həmin müddətdə oturmağa qoymamaq tətbiq olunurdu. Bu üsulla

dindirilən dustaqların qan dövranı pozulur, ayaqları şişib kündəyə dönürdü. Belə işgəncəyə çox az adam tab gətirirdi, çoxları huşunu itirib yıxılırdı. Müstəntiqlər bu üsulları tətbiq etməklə dustaqlardan özlərinə sərfəli olan yalan ifadələri almağa nail olur, sonra həmin yalan ifadələrdən günahsız adamların həbs olunması üçün istifadə edirdilər.

İstintaq zamanı dustaqlardan hələ azadlıqda olan şəxslərin antisovet təşkilatının üzvü olması barədə ifadə almağa nail ola bilməyən müstəntiqlər işçi hesab olunmurdular. Xalq Daxili İşlər Komissarlığı işçilərinin bir yığıncağı yadıma düşür. Həmin yığıncaqda xalq komissarı Sumbatov az adam tutan işçilər barədə böyük bir nitqlə çıxış etdi. Sumbatov hansı üsulla alınmasından və həqiqətə nə qədər uyğun olub-olmamasından asılı olmayaraq dustaqlardan hələ azadlıqda olanlar barədə yalan ifadə alınmasını təkidlə tələb edirdi.

Dustaqların istintaqı barədə Sumbatov deyirdi ki, Xalq Daxili İşlər Komissarlığı orqanları tərəfindən həbs edilmiş bütün məhbuslar xalq düşmənləridir, onlardan cinayətkar əlaqələri barədə ifadəni hər hansı üsulla – istər qanuni, istərsə də qanunsuz yolla almaq zəruridir.

1938-ci ilin əvvəllərində mən gecə saat 2-də işdən çıxdım. Adətən, əməliyyat işçiləri işdən səhərə yaxın çıxır və gündüz istirahət edirdilər. İşdən «vaxtsız» çıxmağımdan xəbər tutan xalq daxili işlər komissarının müavini Borşev məni yanına çağırdı, layiqsiz sözlərlə təhqir edib bildirdi ki, mən şübhəli adama oxşayıram, çünki dustaqları gecə vaxtı dindirmirəm.

Mən Borşevin göstərişini o vaxt belə başa düşdüm ki, gecələr dustaqları sistematik şəkildə dindirməklə onları normal yuxudan məhrum etmək lazımdır.

O vaxtlar həbslər bu qaydada rəsmiləşdirilirdi: əməliyyat işçisi məhbusun hələ azadlıqda olan şəxsin cinayətkar fəaliyyəti barədə ifadə verməsinə nail olandan sonra arayış tərtib edirdi. Həmin arayış barədə şöbə rəisinə məlumat çatdırılırdı, o da həbs barədə göstəriş verirdi. Alınmış ifadələrin doğru olub-olmadığı yoxlanılmırdı. Bundan sonra arayışa həbs barədə qərar da əlavə olunurdu. Şöbə müdiri həmin sənədləri mütləq xalq komissarına təqdim etməli idi. O da həbs barədə qərarı təsdiq edib «orderi» imzalayırdı. Adi operativ işçilər bilmirdilər ki, arayışlar komissarlıqdan MK-nın ağası Mircəfərin stolunun üstünə gedir. O da icraçılardan biri kimi yazılı razılığını bildirib, öldürməyə icazə verən qolunu çəkirdi.

Kütləvi həbslərin keçirilməsi barədə bu cür cinayətkar təcrübə Sumbatovun, Rayevin və Markaryanın xalq komissarı olduqları dövrdə geniş yayılmışdı».

Bütün bunlar bir daha göstərir ki, 30-cu illərdə həbs edilən şəxslərin taleyi onların tutulmalarından hələ çox-çox əvvəl həll olunurdu. Yəni kimləri həbs etmək lazımdırsa, onların «cinayətkar fəaliyyəti» barədə şahid ifadələri alınır və bunlar üst-üstə toplanırdı. Digər tərəfdən, istintaqçıların «vətən xaini» elan olunmuş bir şəxs haqqında humanist davranaraq onun xahişinə dərhal əməl etmələri də az şübhə yaratmırdı. Görünür, bu «xahiş» heç də könüllü edilməmişdi.

Ziya Bünyadov yazır: «1938-ci il mayın 3-də Teymur Salahov axırıncı dəfə istintaqa çağırılmışdı.

Müstəntiq: 1938-ci il aprelin 25-də verdiyiniz ifadələrdə bildirirsiniz ki, əvvəllər adlarını çəkdiyiniz şəxslərin əksinqilabi-millətçi təşkilatda heç bir iştirakları olmamışdır. Bu ifadənizi bir daha təsdiq edirsinizmi?

Cavab: Bəli, təsdiq edirəm.

Müstəntiq: Şəxsən siz özünüz əksinqilabi-millətçi təşkilata məxsusluğunuzu etiraf edirsinizmi?

Cavab: Xeyr, təsdiq etmirəm. Mən əksinqilabi-millətçi təşkilatın üzvü olmamışam.

Müstəntiq: Necə üzvü olmamısınız ki, əvvəllər bu suala siz daha ətraflı cavab vermisiniz?!

Cavab: Bu sualla əlaqədar əvvəllər verdiyim cavablar həqiqətə uyğun deyildir. Mən özümə böhtan atmışam.

Müstəntiq: Nə üçün özünüzə böhtan atmısınız?

Cavab: İstintaq tərəfindən cəzaya məruz qalacağımdan qorxduğuma görə.

Müstəntiq: Deməli, siz millətçi təşkilata məxsusluğunuzu qəti rədd edirsiniz?

Cavab: Bəli, rədd edirəm!»

Bununla da T.Salahov sonuncu istintaq prosesində əvvəlki ifadələrini təzyiq altında verdiyini təsdiqləmişdi. «İstintaq tərəfindən cəzaya məruz qalacağımdan qorxduğuma görə» ifadəsi, əslində, prosesin həqiqi mahiyyətini aşkara çıxarırdı və bu da T.Salahovun işinin qərəzli şəkildə aparıldığına daha bir

əyani sübutdur. Lakin bütün bunlar hadisələrin istiqamətini dəyişmədi. Artıq Teymur Salahovun taleyi həll olunmuşdu. O, edam maşınında növbə gözləyirdi. Bütün cari məsələlər, istintaq prosesi, dindirmələr, «şahid ifadələri» isə baş verənləri rəsmiləşdirmək məqsədi daşıyırdı.

1938-ci ilin may ayında T.Salahovun işi ilə bağlı ittiham qərarı hazırlandı və o, Azərbaycan SSR Cinayət Məcəlləsinin 64, 69, 70 və 73-cü maddələri ilə təqsirli bilindi. İttiham qərarı 1938-ci ilin 15 mayında xalq daxili işlər komissarının müavini Borşev, 1938-ci ilin 2 iyununda isə Baş hərbi prokurorun köməkçisi Şults tərəfindən təsdiq edildi. İttiham qərarında deyilirdi: ***«1936-cı ilin sonlarında Azərbaycan SSR XDİK Bakı şəhərində əksinqilabi-millətçi-terrorist təşkilat aşkar etmiş və dağıtmışdır. Təşkilatın məqsədi silahlı üsyan yolu ilə Azərbaycanı SSRİ-dən ayırmaq, ziyankarlıq və casusluq işi aparmaq, partiya və hökumət rəhbərlərinə qarşı terror tətbiq etmək idi.***

Təşkilat özünün əksinqilabi-millətçilik fəaliyyətində trotskiçi-zinovyevçi-terrorist mərkəz və sağların əksinqilabi mərkəzi ilə əlaqədə idi.

Adıçəkilən əksinqilabi təşkilatın üzvü kimi Teymur Heydər oğlu Salahov məsuliyyətə cəlb edilmişdir. 1935-ci ilin mayında T.Salahov əksinqilabi təşkilatın mərkəzinin üzvü Dadaş Bünyadzadə ilə əlaqəyə girmiş və həmin ildən əksinqilabi təşkilatın tərkibinə daxil olmuşdur. Sonra əksinqilabi-millətçi təşkilatın tərkibi, məqsəd və vəzifələri ilə tanış olmuş, təşkilatın Sovet hökumətinə qarşı mübarizə metodlarına tamamilə şərik olduğunu bildirmişdir. T.Salahov yuxarıda adı çəkilən təşkilatın Azərbaycan SSR Laçın rayonu üzrə rəhbəri kimi əksinqilabi iş aparmışdır.

Sovet hökumətinə qarşı silahlı üsyana hazırlıq məqsədilə Salahov əksinqilabi-millətçi təşkilatın tərkibinə yeni üzvlər cəlb edilməsi yolu ilə üsyançı dəstələrin yaradılmasına və onların silahla təchiz edilməsinə çalışmışdır.

Bundan başqa, T.Salahov 1935-1936-cı illər ərzində kənd təsərrüfatı üzrə ziyankarlıq işini həyata keçirmişdir».

Bütün prosedur qaydalar icra edildikdən sonra Teymur Salahovun işi ilə bağlı 1938-ci il iyun ayının 2-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası (Matuleviç, Kolpakov, Kulik) səyyar sessiyasının hazırlıq iclası oldu. Burada T.H.Salahovun işinin Azərbaycan SSR Cinayət Məcəlləsinin 64, 69, 70, 73 və 74-cü maddələri üzrə məhkəməyə verilməsi barədə qərar qəbul edildi. Qapalı məhkəmə iclasına T.Salahovun işinə ittihamçısız, müdafiəçisiz və şahidlərsiz baxılması tapşırılırdı. Salahova qarşı düşmənliyin və qərəzliyin sübutu üçün təkcə bu faktın özü kifayətdir!

Sabahısı gün – 1938-ci il iyun ayının 3-də Hərbi Kollegiyanın qapalı məhkəmə iclası keçirildi. İclas saat 22.25-də başladı və cəmi 15 dəqiqədən sonra – saat 22.40 dəqiqədə başa çatdırıldı. *Ziya Bünyadovun «Qırmızı terror» kitabında bu barədə yazılır:* «Məhkəmədə T.H.Salahov özünü günahkar bilməmişdir və ilkin istintaq zamanı verdiyi ifadələri təsdiq etməmişdir. Son sözdə müttəhim bildirmişdir ki, o, kənd təsərrüfatı sahəsində və kollektivləşmə dövründə namus və vicdanla işləmişdir. Buna görə də məhkəmədən ona bəraət qazandırmasını xahiş edir».

Lakin T.Salahovun bütün cəhdlərinə baxmayaraq, məhkəmə ona bəraət verilməsini təmin etmədi. 1938-ci il iyunun 3-də Teymur Salahov ən ağır cəzaya – güllələnməyə məhkum edildi. Qurbanların «məhkəmə»ləri edam yerindən on addım aralıda aparılırdı. Növbə böyük, vaxt isə az idi. On beş dəqiqəlik məhkəmə hökmünün icrası isə heç on beş dəqiqə də çəkmədi. Və hökm dərhal yerinə yetirildi.

Zərifə Salahova: «Anam atamla axırıncı dəfə 1938-ci il iyunun 3-də görüşmüşdü. Atama apardığı boğçanın içində anam 6 ədəd yaylıq da qoymuşdu. Atam onlardan üçünün üstünə qardaşlarımın – Mahir, Tahir və Sabirin adlarını yazıb geriyə qaytarmışdı, aldığı şeylərin adları qeyd edilən kağıza isə qol çəkmişdi. Anam qorxusundan həmin yaylıqların üçünü də, həmin kağızı da yandırmışdı. Biz sonralar başa düşdük ki, atam bununla demək istəyirmiş ki, məni ayın 3-də güllələyəcəklər. Anam isə savadsız qadın idi və buna görə də atamın işarəsini başa düşməmişdi».

Z.Bünyadovun «Qırmızı terror» kitabında T.Salahovun güllələnməsi barədə hökmün yerinə yetirilməsi haqqında aktın

SSRİ Xalq Daxili İşlər Komissarlığının arxivində saxlanıldığı qeyd olunur: «İşdə T.H.Salahovun 1938-ci il iyunun 3-də Bakı şəhərində güllələnməsi haqqında arayış vardır. Hökmün yerinə yetirilməsi haqqında akt SSRİ XDİK-in 1-ci Xüsusi şöbəsinin Xüsusi arxivində (8-ci cild, s.44) saxlanılır».

IX. Bəraət

Həqiqət almaz kimidir,
qaranlıqda daha çox parlayır.
F.Bekon

T.Salahovun həbsindən sonra onun ailəsinin də taleyi təhlükə altında idi. O illərdə «vətən xainləri»nin ailəsini və yaxınlarını nələrin gözlədiyi məlumdur. Onlar, ən azı, sürgün olunmalı idilər. «Ənənə»yə görə, bu təhlükə Salahovlar ailəsindən də yan keçməməli idi.

Zərifə Salahovanın dediklərindən: «Atamın həbs edilməsindən bir neçə ay sonra anamı Xalq Daxili İşlər Komissarlığına çağırdılar. Orada dedilər ki, sizi Qazaxıstana sürgün edəcəyik. Səhv etmirəmsə, dəqiq tarixi də göstərmişdilər. O vaxt anamın qardaşı Əhməd dayım məşhur alim idi. 1947-ci ildə Azərbaycanda ilk elmlər namizədlərindən olmuşdu. Botanika bağının direktoru vəzifəsində işləyirdi. Çox savadlı, siyasi proseslərdən baş çıxara bilən bir şəxs idi. Dayım o vaxt 500 rubl xərcləyərək müxtəlif ünvanlara teleqramlar göndərdi: Stalinə, Voroşilova, Kalininə və başqalarına.

Biz isə artıq hazırlaşmışdıq ki, sürgün olunacağıq. Gecə gəlib bizi aparmalı idilər. Mənim o vaxt artıq 6 yaşım var idi və hər şeyi yaxşı xatırlayıram. Gecə saat 12-də gəlib anamı Daxili İşlər Komissarlığına apardılar. Orada anama bir sənədə qol çəkdirmişdilər. Həmin sənəddə yazılmışdı ki, Salahovun ailəsi və mənzili Moskvanın sərəncamına verilir. Anam evdar qadın idi və bu sənədə qol çəkir, amma heç olmasa sənədin surətini də istəmir.

Anam bir neçə saatdan sonra gəlib çıxdı və biz sürgünə göndərilmədik. Bu sənədin sonralar da bizim taleyimizdə çox

böyük əhəmiyyəti oldu. Yoxsa indi, kim bilir, harada idik. Bir qədər sonra bizimlə eyni blokda yaşayan qonşularımız – onlardan biri erməni idi – Suren Qriqoryan, biri isə azərbaycanlı ailə idi, başladılar yuxarılara yazmağa ki, «xalq düşməninin ailəsi ikiotaqlı mənzildə yaşayır, biz isə çətin şəraitdə birotaqlı mənzillərdə yerləşmişik». Amma bütün bunlara baxmayaraq, anamın özünün də bilmədən qol çəkdiyi həmin sənəd bizim ailənin taleyində çox mühüm rol oynadı və bizə heç kim toxunmadı. Elə həmin evdə də yaşadıq. Bunda dayımın həddən artıq böyük zəhməti olmuşdu, məhz onun sayəsində ailəmiz sürgündən xilas ola bildi».

Oğlu Tahir Salahov: «Evdar qadın olan anam Sona xanım 5 uşaqla təkcə qaldı. Böyük qardaşım Sabirin 11, ortancıl qardaşım Mahirin 10, mənim 9, kiçik bacım Zərifənin 5 yaşı vardı, körpə Leyla isə cəmi 2 aylıq idi. Atamın həbsi ilə bizim bəxtəvər uşaqlığımıza son qoyuldu. Atamın reabilitasiyasınacan – 20 il ərzində qapımızı Əhməd dayımdan başqa bir nəfər də döymədi. Dayım botanik idi və uzun illər Botanika bağının direktoru vəzifəsində çalışmışdı. Miçurinçilər hərəkatının fəal üzvü olub. Bakıda bir çox faydalı ağacların əkilməsinin təşəbbüskarı kimi tanınırdı. Lakin təəssüflər olsun ki, dayım da cavan yaşında dünyadan köçdü. Tamamilə köməksiz qalan anam olmazın əzablarla beş uşağı böyüdüb oxutdura bildi».

Teymur Salahovun ailəsinin sürgündən xilas olması, əslində, möcüzə kimi qiymətləndirilə bilərdi və Tahir Salahov da bu xoşbəxt təsadüfü elə bu cür səciyyələndirir. Bəli, Teymur Salahovun həyat yoldaşını və balalarını ulu Tanrı hifz etmişdi. Çünki o, günahsız idi, əməlisaleh insan idi. Amma bütün bunlar 37-ci ilin repressiyalarına bəraət qazandırmır. Azərbaycan ziyalılarının kütləvi şəkildə məhv edilməsi tarixi bir cinayət aktı idi. Sonralar, lap sonralar bu cinayətin müəllifləri öz cəzalarına çatacaqdılar. Amma bu, repressiya qurbanlarının özlərinə və ailələrinə, eləcə də Azərbaycan xalqına dəymiş maddi-mənəvi zərbənin miqyasını kiçildə bilərdimi? Əlbəttə ki yox!

Tahir Salahov daha sonra xatırlayır: «Atamın məhkəməsindən sonra savadsız anam işə düzəlməyə cəhd etdi. Axı uşaqları



Sona xanım

dolandırmaq lazım idi. 1940-cı ildə o, «Azərnəşr»ə işə düzəldi. Burada asılqanda işləməyə başladı. Səhər saat 7-də işə çıxan anam günortalar tikiş tikir, gecələr isə işçilərin xalatlarını yuyurdu. Orada bufetdə işləyən Şura adında bir qadın anamın ailə saxladığını bilib hər gün işə çıxmayanların payından ona 10 kökə (pirojki) verirdi ki, bizə gətirsin. Beləcə, bizi acından qırılmaqdan saxlayırdı. Uşaqlığımızın böyük bir hissəsi «Azərnəşr»in zirzəmisində keçdi.

Amma bu «firavan» həyat da çox çəkmədi. Kökələrin üstündə anamla üz-göz olan müəssisənin direktor müavini Axundov onu işdən azad edib «Bakinski raboçi» zavoduna

poladtökmə sexinə səfərbər etdi. Bu o demək idi ki, biz uşaqlar başsız qalmalıydıq. Yenə də möcüzə nəticəsində anam yeni iş yeri tapa bildi – bu dəfə dərzi atelyesində. Yadımdadır, bir dəfə anam atamın şinelindən mənə və qardaşıma iki palto tikmişdi».

Bir faktı da qeyd edək ki, ailə üzvlərindən heç birinin Teymur Salahovun güllələnməsindən xəbəri yox idi.

Zərifə Salahova: «Bizə demişdilər ki, atama görüşmək hüququ verilmədən on il azadlıqdan məhrumetmə cəzası kəsilib. Biz də buna inanmışdıq və 1955-ci ilə kimi onun güllələnməsindən xəbər tutmadıq. Mən 5-ci sinifdə oxuyanda Moskvaya məktub da yazmışdım. Çünki biz əmin idik ki, atamın heç bir günahı yoxdur və onu hökmən azadlığa buraxacaqlar. Anam da həmişə bunu bizə təlqin edirdi.

1947-ci ildə, – onda artıq mən böyük qız idim, – biz atamın nə vaxt azad olunacağını dəqiqləşdirməyə cəhd etdik. Həmin ilin avqust ayının 18-də bizi Xalq Daxili İşlər Komissarlığının Oktyabr (indi Yasamal) rayon şöbəsinə çağırdılar. Məndən soruşdular ki, atanı nə vaxt həbs ediblər? Cavab verdim ki, 1937-ci ildə. Dedilər ki, artıq onun vaxtı bitmək üzrədir və bu yaxınlarda gələcək, darıxmayın».

Bu da Stalin rejiminin daha bir sifəti idi. Teymur Salahov artıq on il idi ki, güllələnmişdi, amma ailə üzvləri hələ də onun taleyi barədə dürüst məlumata malik deyildilər. Əlbəttə ki, bu və buna bənzər faktların gizli saxlanılması heç də repressiyaya məruz qalmış insanların yaxınlarına ürək yanğısı ilə yanaşmaqdan irəli gəlmirdi, sadəcə olaraq, mənfur rejim öz mahiyyətini mümkün qədər gizlətməyə çalışırdı.

Zərifə Salahovanın dediklərindən: «1948-ci ildə mən Sabir adına Pedaqoji Texnikuma daxil oldum. İdmanla məşğul olmağa başladım. Bundan sonra Lenin adına Pedaqoji İnstituta (indiki ADPU) qəbul olundum.

İdmanla məşğul olduğuma görə Azərbaycanın qadınlardan ibarət yığma komandasının da üzvü idim. Biz 1955-ci ilin fevral ayında Moskvaya yarışa getmişdik. Geriyə qayıdarkən qatarla gəldik və mən eşitdim ki, Azərbaycan Dövlət Təhlükəsizlik

Salahovlar ailəsi

Komitəsinin sədri Quskov da həmin qatardadır. Xarkov stansiyasında qatar 20 dəqiqəlik dayanmalı oldu və mən Quskovun olduğu vaqona yaxınlaşdım və nəzarətçidən məni içəri buraxmasını xahiş etdim. Nəzarətçi qadın mənə dedi ki, onlar indi istirahət edirlər, sən Rostova çatanda yaxınlaşarsan. Belə də etdim. Rostovda vaqona yaxınlaşdım və mənə Quskovla görüşmək müyəssər oldu. Kupeyə daxil oldum və gördüm ki, onun yanında bir qadın da var. Sonra bildim ki, bu qadın Quskovun həyat yoldaşıdır. Mən özümü təqdim etdim və bundan sonra həmin qadın üzünü pəncərəyə çevirərək, bir növ, bizim sərbəst söhbət etməyimizə şərait yaratdı. Mən Quskova bildirdim ki, atamızı 37-ci ildə həbs ediblər və onu 47-ci ildə buraxmalı idilər, amma hələ indiyə kimi heç bir xəbər yoxdur. O, məndən ailəmiz haqqında hər şeyi soruşdu, anamı, qardaşlarımı, bacımı. Bizim haqqımızda bütün məlumatları öyrəndi. Nə ilə məşğul olduğumuzla maraqlandı. Mən hamısını ona danışdım. Soruşdu ki, bəs anan bu barədə nə deyir? Cavab verdim ki, anamın fikrincə, əgər atamızı güllələməyiblərsə, o,

sağ qalar, çünki sağlam və möhkəm adam idi. Quskov mənə dedi ki, həftənin 3-cü günü qəbul günümdür (biz Bakıya gəldiyimiz gün həftənin 1-ci günü idi), gələrsiniz yanıma.

Üçüncü gün mən DTK-ya getdim. Katibə dedi ki, artıq hamı qəbula yazılıb, sən növbəti dəfə gələrsən. Ona söylədim ki, yoldaş Quskov mənə söz verib, bu gün qəbul etməlidir. Soruşdu ki, familiyanız necədir, dedim Salahova. Bundan sonra katibənin yadına düşdü, dedi ki, yoldaş Quskov gələcəyim barədə ona deyib və məni bu gün qəbul edəcək. Beləliklə də Quskovla görüşə bildim. O, məni çox yaxşı qarşıladı. Dedi ki, otur, ananın adından ərizə yaz ki, atanızın işinə yenidən baxılmasını xahiş edirsən. O vaxt artıq Bakıya SSRİ Hərbi Tribunalından 3 nəfərdən ibarət nümayəndə heyəti gəlmişdi, 37-ci ildə güllələnənlərin və sürgün edilənlərin işini araşdırmalı idilər. Rəhbərləri də polkovnik Çestnyakov idi».

1955-ci il mart ayının 2-də Teymur Salahovun həyat yoldaşı Sona Dərya qızı Salahova DTK-nın sədri Quskovun adına ərizə yazaraq həyat yoldaşının işinə yenidən baxılmasını xahiş edir. Beləliklə də T.Salahovun əvvəla harada olması və günahkarlığı məsələsi araşdırılmağa başlanır.

Zərifə Salahova: «Bir həftədən sonra məni yenidən DTK-ya çağırdılar, Quskovun qəbulunda oldum. O, əvvəlki suallarını bir də təkrar etdi və xüsusi vurğuladı ki, nə yaxşı sizi sürgünə aparmayıblar. Söhbətimiz elə bu cür də başa çatdı. Son sözü isə bu oldu ki, sən hər üç aydan bir Hərbi Tribunala – Çestnyakovun qəbuluna gedərsən, o sənə bu barədə işi araşdırıb qurtarandan sonra məlumat verəcək.

Bir müddətdən sonra məni 3-cü dəfə DTK-ya çağırdılar. Dedilər ki, səni Zamanov qəbul edəcək. Mən A.Zamanovun qəbuluna düşdüm, amma dedim ki, yoldaş Quskovla görüşmək istəyirəm. Quskovun qəbulunda oldum. Bu vaxt artıq mənə atamın güllələndiyini demişdilər. Mən hönkürə-hönkürə ağlayırdım. Quskov məndən soruşdu ki, niyə ağlayırsan? Cavab verdim ki, bəs mənə dedilər atamı güllələyiblər. O, çox

Sona xanım və Tahir Salahov

hüznlü bir görkəm aldı və bildirdi ki, görürsən də bizim vəziyyətimizi, heç bir günahımız yoxdur, amma bunu sizə deməliyik. Atanızı 1938-ci ildə güllələyiblər. Amma yenə də siz oxuyub bir yana çıxa bilmisiniz, o birilərinin ailələri, uşaqları sürgündə çürüyüblər.

Beləliklə də mən hər üç aydan bir Hərbi Tribunala gedirdim və hər dəfə də deyirdilər ki, hələ iş araşdırılıb başa çatdırılmayıb. Nəhayət, 1956-cı ilin fevralında – düz bir ildən sonra növbəti dəfə Hərbi Tribunala getdim və mənə dedilər ki, Salahov familiyalı bir nəfərin işinə artıq baxıb qurtarmışıq. Soruşdular ki, atanızın adı, atasının adı necə idi? Dedim ki, Teymur Heydər oğlu. Sənədləri bir də vərəqləyib diqqətlə baxdılar. «Günahsızdır!» – deyə mənə belə cavab verdilər».

Bundan sonra Teymur Salahovun günahsızlığını göstərən sənədlər təsdiq olunmaq üçün SSRİ Ali Məhkəməsinə göndərildi. 1956-cı il iyul ayının 14-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası 1938-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi

Kollegiyası tərəfindən Teymur Heydər oğlu Salahovun işi üzrə çıxarılmış hökmün ləğvi barədə qərar verdi. T.Salahovun işində cinayət tərkibi olmadığı üçün o, xətm edildi. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının bu barədə verdiyi arayışda qeyd olunurdu: «**14 iyul 1956-cı ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasında Salahov Teymur Heydər oğlunun ittiham olunması ilə bağlı cinayət işinə yenidən baxılmışdır.**

Hərbi Kollegiyanın 1938-ci il iyulun 3-də T.H.Salahovun istintaq işi üzrə çıxardığı hökm dəyişdirilib və işdə cinayət tərkibi olmadığı üçün xətm edilib».

Bu arayış polkovnik Kostromin tərəfindən imzalanmışdı.

17 dekabr 1956-cı ildə isə Azərbaycan KP MK-nın büro iclasında Teymur Heydər oğlu Salahovun partiya sıralarına bərpa edilməsi barədə qərar qəbul olundu.

Bununla da Teymur Salahovun bəraət alması prosesi başa çatdı. Stalin rejiminin daha bir qurbanının günahsızlığı sübut edildi. El arasında deyirlər ki, böhtandan da qorxulu bir silah var – bu, həqiqətdir. Həqiqət isə almaz kimidir, qaranlıqda daha çox parıldayır. Əlbəttə, bu, müsbət bir hadisə idi ki, artıq bütün Sovetlər İttifaqında hətta rəhbərlik səviyyəsində belə Stalin rejiminin həqiqi mahiyyəti aydın şəkildə dərk edilirdi. Lakin bu müsbət məqamın özü heç nəyi dəyişmirdi. Yüz minlərlə insan repressiyaya məruz qalmışdı, on minlərlə ailə uzaq Sibir və Qazaxıstan çöllərində iztirab çəkir, çürüyürdü. Teymur Salahov kimi nə qədər insan həyatını itirmişdi. Stalin dövrünün eybəcərlikləri o zaman Sovet İttifaqı adlanan ölkədə birləşən bütün xalqların taleyində öz izini buraxmışdı və itirilənlərin yerini nə ilə doldurmaq mümkün deyildi. Cəmiyyətin özünün daxilində sanki bir mənəvi boşluq hökm sürürdü, çünki insanların bir çoxu kommunizm quruculuğunu tamamilə başqa cür təsəvvür edirdi. Ancaq tarixin hökmündən qaçmaq da mümkün deyildi. Stalinin ölümü faciələrlə zəngin böyük bir mərhələyə son qoydu. Sovet xalqlarının həyatında yeni mərhələ başladı.

Hadisələrin gerçək mahiyyəti bundan ibarətdir ki, Stalinin repressiyaları nəhəng bir ölkənin xalqlarına qarşı yönəlsə də,

onun ən ağrılı nəticələrini məhz Azərbaycan öz üzərində hiss etmişdi. Azərbaycan xalqının ziyalı təbəqəsinin məhvi, əslində, mahiyyət etibarilə onun gələcəyinin məhvi anlamına gəlirdi. Lakin heç kəs törətdiyi əməllərə görə tarixi məsuliyyətdən yaxasını qurtara bilməz. Tarix belələrini mühakimə etməkdə aciz deyil və onun mühakiməsi hətta ən ağır işgəncə metodlarını tətbiq edən rejimlərin repressiyalarından daha sərt, daha qəddar olur.

1953-cü il martın 5-də Stalin vəfat etdi.

Mircəfər Bağırov və onun silahdaşları Stalinin ölümündən dərhal sonra həbs edildilər. Bağırov Mircəfər Abbas oğlu, Atakişiyev Ağasəlim İbrahim oğlu, Markaryan Ruben Ambarsumoviç, Qriqoryan Xoren İvanoviç, Borşev Timofey Mixayloviç və Yemelyanov Stepan Fyodoroviçin 0043 nömrəli cinayət işi üzrə RSFSR-in Cinayət Məcəlləsinin 58-1 (b), 58-8, 58-2 maddələri ilə müqəssir bilinmələri barədə ittihamnamədə deyilirdi: «**1953-cü ilin iyununda L.P.Beriyanın xarici kapitalın mənafeyi naminə sovet dövlətini sarsıtmaq, hakimiyyəti ələ almaq, sovet fəhlə-kəndli quruluşunu dağıtmaq, burjua hakimiyyətini bərpa etmək məqsədilə SSRİ hökumətini və Sov. İKP-ni Daxili İşlər Nazirliyindən asılı vəziyyətə salmaq cəhdləri dövlət, partiya tərəfindən cinayətkar fəaliyyət kimi MK tərəfindən ifşa edilmişdir.**

SSRİ Ali Sovetinin 1953-cü il 8 dekabr tarixli qərarına müvafiq olaraq Beriyanın və onun əlaltılarının işi baxılmaq üçün SSRİ Ali Məhkəməsinə göndərilmişdir.

1953-cü il dekabrın 23-də SSRİ Ali Məhkəməsi vətənə xəyanət və digər ağır dövlət cinayətləri törətdiklərinə görə Beriya və onun yaratdığı xəyanətkar qrupun digər üzvləri: Merkulov, Dekanozov, Kobulov, Qoqulidze, Meşik, Vladimirski ən ağır cəzaya – güllələnməyə məhkum edilsinlər».

Günahsız adamların istintaq işinin saxtalaşdırılması, onlara qarşı yalançı əksinqilabi fəaliyyət barədə ittihamın irəli sürülməsi yolu ilə Beriyanın sui-qəsdçi qrupu Cənubi Qafqazın bir çox partiya və sovet işçilərini, mədəniyyət xadimlərini və ziyalı nümayəndələrini terrorçuluqla məhv etmişdi. Beriya və

onun əlaltıları qorxu, xof yaratmaq, namuslu adamlar arasında şübhə, inamsızlıq toxumu səpmək, milli zəmində düşmənçilik törətmək, onları ifşa edə biləcək insanları aradan götürmək yolu ilə törətdikləri cinayətlərin məsuliyyətindən yaxa qurtarmağa çalışırdılar.

Ən maraqlı məqamlardan biri ondan ibarət idi ki, vaxtilə on minlərlə günahsız insanı vətənə xəyanətdə, sovet dövlətinə qarşı üsyan hazırlamaqda, dövlət çevrilişinə cəhddə, əksinqilabi fəaliyyətdə ittiham edənlər özləri eyni ittihamlarla müttəhimlər kürsüsündə əyləşdilər. Əlbəttə, bunu tarixin ironiyası da adlandırmaq olar, amma bu, daha çox tarixin intiqamına bənzəyir. Çünki onlar öz qanlı əməlləri ilə zamanın təkərini istədikləri istiqamətə döndərməyə, zamanın özünə hökm etməyə çalışırdılar. Onlar üçün zaman anlayışı Stalinin dəmir intizamına tabe idi. Hamı bu qəddar, əzazil adamın hər şeyin, hətta zamanın da fövqündə dayanmaq qabiliyyətinə malik olduğunu düşünürdü, ancaq yanılmışdı.

Epiloq əvəzi

Qaranlıq quru ağac kimidir,
onu bir qığılcım külə çevirir.
Əbu Turxan

Hörmətli oxucu!

Mənfur Stalin rejiminin qurbanı olmuş 80 minə yaxın soydaşımızdan tək birinin – Teymur Salahovun timsalında dövrün eybəcərlikləri, bu eybəcərliyi törədən tarixi şəraitlə az-çox tanış olduq. Bu dövrün fəlakətləri, faciə və bəlaları çox vaxt bədii ədəbiyyatda obrazlı şəkildə «qırmızı terror» adlandırılır. Kütləvi terror zamanı bu kitabın «qəhrəman»larından olan, xalqımızın qəddar düşmənləri Sumbatov, Borşev, Gerasimov, Sinman, Şer, Qriqoryan, Markaryan, Qalstyan, Ohanesyan, Avanesyan, habelə M.Bağırov kimi cəlladların əli 80 000 azəri oğlunun qanına bulaşdı. Neçə-neçə ailə Sibirin, Qazaxıstanın insan yaşamayan çöllərinə sürgün edildi. Xüsusi düşərgələrdə, sürgündə min cür iztiraba, işgəncəyə məruz qalaraq tələf olanların sayını isə heç kəs bilmir. Halbuki SSRİ-də belə bir saxta və yalan fikir geniş təbliğ olunurdu ki, guya yalnız bu ölkədə elan edilmiş hüquqlar öz həqiqi təcəssümünü tapıb. Guya SSRİ Konstitusiyası ən ali qanun, SSRİ vətəndaşları isə ən azad insanlardır. Guya onların hüquqları dünyada ən humanist, ən demokratik və ədalətli hüquqlardır. Repressiyanın tüğyan etdiyi dövrdə – 1936-cı ildə qəbul edilmiş və Stalin Konstitusiyası kimi tarixə düşmüş SSRİ Konstitusiyasında, doğrudan da, humanist müddəalar var idi. Amma nə olsun? Həmin müddəaları ali hakimiyyət orqanları qətiyyən saya almırdılar. Başqa sözlə, bu qanunlar və hüquqlar dövrün eybəcərliyini gizlədən pərdə idi.

Totalitar rejimin at oynatdığı, şəxsiyyətə pərəstişin görünməmiş şəkil aldığı, bütün məsələlərin diktaturaya tabe olduğu, kütləvi repressiyaların getdiyi vaxtlarda hansı insan hüquqlarından, hansı demokratiyadan danışmaq olardı?! Nəinki ayrı-ayrı insanlar, fərdlər, hətta bütöv millətlərin,

xalqların ellikcə təqib olunduğu, əzildiyi vaxtlarda insan hüquqlarından danışmaq cəfəngiyatdan başqa bir şey deyildi.

Demokratik azadlıqlar, insan haqları, sivil münasibətlər baxımından hər bir millətin, xalqın dilinə, tarixinə, klassik irsinə hörmət və qayğı göstərmək, ana dilində təhsil almasına şərait yaratmaq və s. mühüm əhəmiyyətə malik dəyərlərdir. Elə bu baxımdan deyək ki, «müstəqil, suveren» respublikalardan yalnız ikisində – Ermənistan və Gürcüstanda milli dilin dövlət dili olması onların konstitusiyalarında elan olunmuşdu. Sonralar buna ümummilli lider Heydər Əliyevin böyük səyləri nəticəsində Azərbaycan da əlavə olundu. Bütün respublikalarda partiya dili rus dili idi. Qurultaylar, plenumlar bu dildə aparılır, əsas sənədlər həmin dildə tərtib olunurdu. Bir çox respublikalarda, xüsusən Orta Asiyada təhsil rus dilində idi. Belarusda ana dilində məktəb, demək olar ki, qalmamışdı. İki respublikanın – Tacikistan və Qırğızıstanın paytaxtı belə milli ad daşımırdı (müvafiq olaraq Stalinabad və Frunze adlanırdı). Azərbaycanın ikinci böyük və qədim şəhəri olan Gəncənin adı dəyişdirilərək Kirovabad olmuşdu. Bakının o vaxt 17 rayonunun, demək olar ki, heç biri milli ad daşımırdı (Lenin, Stalin, Voroşilov, Molotov, Kaqanoviç, Orconikidze, Şaumyan, Caparidze, Fioletov, Oktyabr və s.). Bakıda təhsilin rus dilində aparıldığı məktəblər çoxluq təşkil edirdi. Yeganə universitetimiz Kirovun adını daşıyırdı.

Respublikamızdan kənarda yaşayan azərbaycanlıların vəziyyəti daha çətin idi. Ermənistandan azərbaycanlıları zaman-zaman kütləvi şəkildə deportasiya edirdilər. Azərbaycanlılara məxsus coğrafi yer adları, toponimlər tamamilə ləğv edilərək dəyişdirilmişdi.

Mədəniyyətdə, cəmiyyət həyatının bir çox digər sahələrində də vəziyyət belə idi. Latın qrafikalı əlifba Kirill əlifbası ilə əvəz olunmuşdu. Bu, SSRİ-də bütün müsəlman respublikalarına aid idi.

Milli iftixarımız və əsl xalq dastanı olan «Kitabi-Dədə Qorqud» «xalqa zidd», «mürtəce» epos adlandırılmış və yasaq edilmişdi. Qafqaz xalqlarının milli-azadlıq mübarizəsi olan

Şamil hərəkatı amansızcasına pislənilirdi, ondan müsbət mənada danışmaq qadağan olunmuşdu. Az-çox danışanları isə təqib, hətta məhv edirdilər.

1937-ci ilin kütləvi təqibləri, repressiyalar, «qırmızı terror», milli müsibət və digər amansız hərəkətlər, əməllər şəraitində hansı insan hüquqlarından, hansı demokratiyadan danışmaq olardı?!

Hələ heç vaxt heç bir dövlət, hakimiyyət öz xalqına, öz əhalisinə bu dərəcədə divan tutmamışdır. Sovet totalitar rejimi isə əsas hədəf kimi öz əhalisini seçmişdi. Milyonlarla adamın məhv edildiyi şəraitdə məgər «insan hüquqları»ndan danışmaqmı olardı?

Əmək hüququ kobudcasına pozulmuşdu. 1940-cı ildə qəbul edilmiş qərara görə, işə gəlməmək, hətta gecikmək üstündə insanlar amansız cəza tədbirlərinə məruz qalırdılar.

İnsan hüquqlarının ən kobud şəkildə pozulmasının geniş təzahürlərindən biri din sahəsinə, vicdan azadlığı məsələsinə aid idi. Sözdə vicdan azadlığı elan edib, əslində isə bunun əksinə hərəkət edirdilər. O vaxtlar məscidə gedən, dini ayin və mərasimləri icra edənləri mütləq cəza, özü də ağır cəza gözləyirdi. Xüsusən də bunu kommunist etmiş olsaydı, vəziyyəti daha ağır olardı. Beləsini dərhal partiyadan çıxarır, gözümçıxdıya salır, təqib edirdilər. 1920-1930-cu illərdə, elə sonralar da nüfuzlu din xadimlərinə divan tutulur, başlarına olmazın müsibətlər gətirilirdi.

Dinin özünə qarşı amansız mübarizə aparılırdı. Xristian (pravoslav) kilsələri, müsəlman məscidləri vəhşicəsinə dağıdılır, məhv edilir, din xadimləri tutulub həbs olunur, təqiblərə məruz qalırdılar.

Bakıda tarixlərin yadigarı, memarlıq baxımından gözəl sənət əsəri olan Bibiheybət məscidi uçurulub məhv edilmişdi. Beriyanın bilavasitə göstərişi ilə Səfəvi şahı Şah Abbasın 1624-cü ildə Tiflisdə tikdirdiyi möhtəşəm və əzəmətli məscid binası yerlə yeksan edilmişdi.

Həmin illərdə minlərlə din xadimi kütləvi repressiyaların qurbanı oldu. Hər bir insanın özünün istədiyi kimi evlənmək, toy etmək, kəbin kəsdirmək və ya əzizini istədiyi kimi dəfn

etmək, yas saxlamaq hüququ vardır. Lakin insan hüquqlarını qətiyyən saya almayan totalitar rejim bu məişət məsələlərinə, adi adətlərə, ənənələrə də ən kobud şəkildə müdaxilə edirdi. Yasa molla çağıran, «Yasin» oxutduran və ya oğluna, qızına bir qədər geniş toy eləyən, kəbin kəsdirən partiyadan, işdən çıxarılır, bu hərəkətləri pislənilirdi.

Hər şey, o cümlədən insan hüquqları da ideologiyaya, yuxarının siyasi ambisiyalarına, diktaturanın tələblərinə tabe edilmişdi. Misal üçün, Şamil hərəkatını çarizmlə mübarizədə müsbət hadisə adlandırdığına görə Azərbaycanın görkəmli filosofu Heydər Hüseynov ittiham olundu və nəticə etibarilə haqlı, düzgün sözünün qurbanına çevrildi. Yəni totalitar rejimdə kim olur-olsun, insan kimi o, heç bir hüquqa malik deyildi. Yaşamaq hüququ da bir parça kağızdan, rəsmiyyətdən asılı idi. Qeydiyyatı olmayan adamın haqqı nə idi iri şəhərlərdə, məsələn, Moskvada, Leninqradda (indi Sankt-Peterburq), respublikaların paytaxtında, vilayət mərkəzlərində yaşasın!.. Xəbər çatan kimi onu dərhal çıxarır, sürgün edir, hətta tuta da bilirdilər.

Bəli, adına Stalin epoxası deyilən dövrün hökmü belə idi. Nəinki ayrı-ayrı insanların, fərdlərin, hətta rəsmi idarə və təşkilatların da, səlahiyyətli orqanların da müstəqilliyə, az-çox sərbəst hərəkət etməyə ixtiyarı yox idi.

1956-cı ildə M.Bağırovun məhkəməsində aydın oldu ki, bir çox işlər, bir sıra tədbirlər barəsində Bağırov Stalinə müraciət edib ali rəsmi orqanların, xüsusən MK-nın fikrini, göstərişini, qərarını gözləməyi xahiş etdikdə Stalin deyirmiş ki, ***«Какой ЦК, ЦК – Это я, иди принимай меры».***

Tarixin ibrət dərslərindən lazımi nəticə çıxarmaq, gələcəkdə bu hadisələrin yenidən təkrar olunmaması üçün dövrün özünə qiymət vermək olduqca vacibdir. Lakin SSRİ dövründə bunlar edilmədi. Sov.İKP MK keçmişindən xəcalət çəkdiyindənmi, insanların ona olan inamının sarsılacağından qorxduğundanmı tariximizin repressiya dövrünün üstündən sükutla keçdi.

Azərbaycan Sovet Ensiklopediyasının özündə belə o dövrün hadisələrinə həsr edilmiş bircə məqalə tapmazsan. Bu, azmış kimi, türk xalqlarının öz tarixi keçmişini qoruyub saxlamaq və XX əsrdə müqavimətlərlə üzləşdiyi bir zamanda əsarət altına

düşməmək üçün bayraq etdikləri pantürkizmin demokratik məzmunu təhrif edilərək ASE-də «millətçi-şovinist burjua ideologiyası» kimi izah edilmişdir.

Yalnız respublikamız müstəqillik qazandıqdan sonra tarix elmimizin Heydər Əliyev konsepsiyası meydana gəldi və XX əsr tariximizə münasibət dəyişdi.

Ulu öndər Heydər Əliyev tələb edirdi ki, Azərbaycan tarixi ümumdünya tarixi kontekstində tədqiq edilməli və burada sosial-iqtisadi, ictimai-siyasi və mədəniyyət tarixi öz əksini tapmalıdır. O, tarixçilərə müraciət edərək deyirdi: «Bizim tariximiz – həm qədim tariximiz, həm orta əsrlər tariximiz, həm də son dövrlərin, yəni XVIII, XIX və XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb».

Ümummilli lider göstərirdi ki, Azərbaycanın tarixini, əsrlər boyu keçdiyi yolu həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamıza maraq göstərənlərə tanıtmaq borcumuzdur. Bu sahədə də tarixçilərimizin qarşısında çox böyük vəzifələr durur, onların üzərinə böyük məsuliyyət düşür.

Tarix elmimizin Heydər Əliyev konsepsiyası Azərbaycan tarixinin şanlı səhifələrini iftixarla araşdırmağı və təbliğ etməyi öyrədir, eyni zamanda bu tarixin faciəli tərəflərini də olduğu kimi, obyektiv şəkildə tədqiq etməyi vacib sayır. Azərbaycan tarixinin «Stalin repressiyası» dönəmi də bu baxımdan istisna deyil.

Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, tarixi təhrif etmək olmaz, 70 illik sovet dövründə tarix, ümumiyyətlə dünya tarixi, o cümlədən Azərbaycan tarixi, habelə keçmiş Sovetlər İttifaqının ərazisində yaşayan digər millətlərin tarixi təhrif edilib. Ona görə də «tarixi olduğu kimi qiymətləndirmək lazımdır, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq olmaz».

Azərbaycan tarix elminin Heydər Əliyev konsepsiyasını əsas götürərək tariximizin hər səhifəsini olduğu kimi, tam obyektiv izləmək bizim nəslin borcudur!

P.S. Stalin rejimi Azərbaycanın bir çox ləyaqətli oğulları kimi, Teymur Salahovun da həyatına «balta vurdu». Bilmirəm

cümlədəki son söz birləşməsi ilə fikrimi hansı dərəcədə ifadə edə bildim. Amma bu, həqiqətdir ki, gələcəyi çox ümidverən, perspektivli, cavan bir insanın həyatı cəllad əli ilə yarımçıq qırıldı. Teymurun qəlbi nə qədər incə, intellekti nə qədər yüksək, arzuları nə qədər işıqlı idisə, əlibaltalı cəlladlar bir o qədər qəddar, qaraniyyətli, qaniçən idilər. Onlar düşünmürdülər ki, ağacı gövdəsindən baltalamaq mümkündür, lakin o ağacın kökü varsa, torpaqdan qida, güc, qüvvət alıb təzədən pöhrələnir, qol-budaq atır, bar-bəhrə verir.

Teymur adlı kökdən də beş budaq şaxələndi. Mərd bir ana onun beş yadigarını qanadı altına alıb həyatın boranından, şaxtasından qorudu, böyütdü, pərvazlandırdı.

Teymurun üç oğlu, iki qızı vardı. Hamısı da xalq üçün gərəkli övladlar, vətən üçün lazımlı ziyalılar oldu. Biz onların hər biri haqqında ətraflı söhbət açа bilərik. Lakin belə qərara gəldik ki, bu ailənin sonrakı taleyini izləmək üçün Teymur Salahovun övladlarından ikisi – oğlu, dünya şöhrətli rəssam Tahir Salahov və qızı, tanınmış ziyalı Zərifə Salahovanın həyat yolundan söhbət açmaq kifayətdir.

Salahovlar sülaləsi davam edir

...2008-ci il noyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli rəssam Tahir Salahova «Heydər Əliyev» ordenini təqdim etdi. 80 yaşlı rəssam həmin günə qədər çox mükafat almışdı. O, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, SSRİ Xalq rəssamıdır. Lakin yubiley ilində aldığı «Heydər Əliyev» ordeni onun üçün çox əziz və dəyərli idi. Bu, həm sənətkarın Azərbaycan xalqı və incəsənəti qarşısındakı xidmətlərinə verilən yüksək qiymət, həm ona ulu öndərlə şəxsi dostluğunu xatırladan əvəzsiz bir nişanə, həm də ümumiyyətlə parlaq rəssam istedadının bir daha qeyd edilməsinin, nəzərdiqqətdə olmasının təzahürü idi…

Böyük rəssamın rəsm çəkməyə uşaqlıqdan həvəsi var idi. Bu həvəsi ona da, qardaşlarına da atası aşılamışdı. Ailənin

Tahir Salahov

nahar etdiyi otaqda divardan bir rəsm əsəri asılmışdı. Qızılı çərçivədə şüşə altına salınmış şəkildə saçları çiyninə dağılmış gözəl bir qadın təsvir olunmuşdu. Qadının əlləri dəmir zəncirlə bağlı idi. Olsun ki, bu, knyaginya Tarakanovanın portreti idi. Onun çox maraqlı duruşu və baxışları vardı. Tahir gözünü dünyaya açandan bu şəkli divarda görmüşdü. O, saatlarla həmin şəklə baxmaqdan doymurdu.

Teymur Salahov hər axşam uşaqlarının mürəkkəbqablarının altına bir manat pul qoyar, hərəsinə bir parça kağız verib tapşırardı ki, baxdığınız kinofilmlərin qəhrəmanlarının şəklini çəkin. Beləliklə, uşaqlar rəsm çəkməyə həvəslənərdilər. Fərqlənənlər ata tərəfindən mükafatlandırılardı.

Bir dəfə Tahir o vaxt Bakıda fəaliyyət göstərən Belinski adına kitabxanaya gedir. Kitabxanaçı qadın diqqətlə ona baxıb deyir: «Kitabı oxuyun və oxuduqlarınıza aid illüstrasiyalar çəkib mənə gətirin».

Bir müddətdən sonra Tahir şəkli çəkib kitabxanaya aparır. Kitabxanaçı şəkli bəyənir və götürüb saxlayır. Demə, o, uşaqların rəsmlərini bu yolla toplayır, sonra onlardan sərgi təşkil edirmiş. Bu, Tahirin sənət yollarının başlanğıcı idi…

Tahir Salahov məktəbə gedəndə atası hələ sağ idi, həbs olunmamışdı. 6 saylı məktəbə də onu Teymur Salahov özü aparmışdı. Sonra Tahiri evlərinin yaxınlığındakı 189 saylı məktəbə qoydular. Bir müddətdən sonra isə 132 saylı məktəbə keçdi. Bu məktəb qızların və oğlanların oxuduğu ayrı-ayrı hissələrə bölünəndə Tahir yenidən 6 saylı məktəbə qayıtdı.

Həyat Salahovları sınamaqda davam edirdi. 37-ci illərin repressiyalarından, ailənin başsız qalmasından sonra çəkdiyi çətinliyin üstünə İkinci Dünya müharibəsinin gətirdiyi problemlər də əlavə olundu. 1942-ci ildə Tahir, demək olar ki, məktəbə getmədi. Qardaşı Mahirlə birlikdə şəhər su kəməri idarəsində işləyib xırda xərclik əldə edirdilər. O, həmin günləri belə xatırlayır: «Ev-ev gəzib sayğacları yoxlayırdıq. Yarıac-yarıtox həyat sürürdük. Tərslikdən şəhər çörəkxanası evimizin yanında yerləşirdi. Təzə bişən çörəyin xoş ətri evimizə dolub bizi rahat yatmağa qoymurdu».

Sonra Tahir təhsilini yenidən davam etdirir. 1950-ci ildə o, Leninqrada gedir və sənədlərini Repin adına instituta verir. Tərcümeyi-halında valideynlər qrafasında atası haqqında həqiqəti yazır. Amma heç ağlına belə gətirmir ki, bu həqiqət onun üçün necə maneçilik törədəcək. Ancaq instituta qəbul olunmayanda və sənədləri geri qaytarılanda həmin qrafanın altından qırmızı rəngli qələmlə xətt çəkildiyini görüb məsələnin nə yerdə olduğunu dərk edir…

O vaxt kimdənsə eşitmişdi ki, Leninqradda BaronŞtiqles adına (sonralar Muxinskoye kimi tanınan) bir məktəb də var. Vaxt itirmədən oraya gedir. Məktəbdə boş qalan iki yeri tutmaq üçün 40-a yaxın namizəd sınaqdan keçməli idi. Tahir rektorun qəbuluna düşür, başına gələnləri danışır və soruşur ki, atası ilə bağlı həqiqətlər instituta qəbul zamanı ona mane olacaqmı? Rektor fikirləşib otaqdan çıxır və beş dəqiqədən sonra qayıdıb deyir: «Bilirsinizmi, mənim üçün bunun heç bir əhəmiyyəti yoxdur. Əgər bütün imtahanları əla versəniz, sizi qəbul edəcəyəm».

Belə də olur. İllər sonra, artıq SSRİ Rəssamlar İttifaqının birinci katibi olduğu vaxtlarda Tahir Salahov həmin institutun rektoruna 70 illiyi münasibətilə ölkə rəssamları adından təbrik

teleqramı göndərir və ona həmin hadisəni və keçmiş tələbəsi olduğunu xatırladır.

Lakin sözügedən institutu bitirmək Tahirə qismət olmur. Səbəb isə 25 günlük hərbi təlimlər zamanı baş verən olaylar idi. Təlim keçən cavan serjantın lap əvvəldən Tahiri gözü götürməmiş və ona cəmi 25 günün içində 28 cəza vermişdi. Bir dəfə Tahir çaşıb «vintovka» əvəzinə «tüfəng» demişdi. Qəzəblənmiş serjant isə onu itələyib soyuq suya salmışdı. Bundan sonra Tahir möhkəm soyuqlamış və uzun müddət özünə gələ bilməmişdi.

Sonradan Leninqraddan Moskvaya gələn gənc rəssam orada Surikov adına instituta qəbul olundu. Xeyli sonra, 1976-cı ildə Tahir Salahovun yolu Leninqrada düşdü. Bu zaman o, artıq tanınmış rəssam, yüksək vəzifə sahibi idi. Repin adına institutda məşhur heykəltəraş Annikuşinin yubileyi keçirilirdi. Yubileydə çıxış edən T.Salahov dedi: «Mən bu binada iki dəfə olmuşam. Birinci dəfə rəssamlıq kursuna qəbul olunmayanda və ikinci dəfə SSRİ Rəssamlar İttifaqının sədri kimi». Görünür, bu da taleyin işi idi…

1957-ci ildə Tahir diplom işini müdafiə edir. 1958-ci ildə Bakıya gəlir. Tələbəlik illərində sevib evləndiyi Vansetta xanım və qızı Alagözlə. Doğma şəhərdə də Tahir bir sıra problemlərlə üzləşir. Onu bir müddət Rəssamlar İttifaqına qəbul etmirlər. İttifaqa üzv olandan sonra isə mənzil məsələsi ləngiyir. Çünki o vaxt ev növbəsinə duranlar çox idi.

Tahir ailəsi ilə birlikdə anasıgildə qalırdı. Burada onun daha bir qardaşı və bacısı yaşayırdı.

Dünya yaxşı insanlardan xali deyil. Səttar Bəhlulzadə Əmircanda yaşadığından Bakıda ona verilən mənzildən imtina edir və Rəssamlar İttifaqının rəhbərliyindən xahiş edir ki, həmin mənzil Tahirə verilsin. Beləliklə, cavan rəssam ikiotaqlı mənzilə köçərək Maral Rəhmanzadə, Ağalar Abdullayev, Cahangir Rüstəmov kimi sənətkarlarla qonşu olur.

Bir neçə il Tahir Salahov Rəssamlar İttifaqında işləyir, hətta rəyasət heyətinin üzvü olur. 1960-cı illərdə olduqca gərgin çalışır. Bəstəkar Qara Qarayevin böyük rəğbətlə qarşılanan portretini də həmin dövrdə yaradır. Rəssam bu işə başlamazdan bir il əvvəl Qara Qarayevin «İldırımlı yollarla» baletinin məşqlərində iştirak edərək bəstəkarın daxili aləmini öyrənir, mənəvi zənginliyinin şahidi olur. Sonra portretin rakursu barədə söhbət edirlər.

Dahi bəstəkar Tahir Salahovun əsərində əynində ağ jaket piano arxasında təsvir olunub.

Tanınmış rus bəstəkarı Dmitri Şostakoviç Tahir Salahovla görüşəndə tələbəsi Qara Qarayevin portretini çox bəyəndiyini söyləyir. Beləcə, Şostakoviçin də portretini çəkmək ideyası yaranır. Bu əsər də çox uğurlu alınır.

Müvəffəqiyyət Salahovun çoxsaylı əsərlərinin hər birinə müyəssərdir. Çünki o, düşünmədən əlinə fırça götürmür. Hər bir əsəri beynində tamamlayır, sonra çəkməyə başlayır.

1966-cı ildə Tahir Salahov Naxçıvandan SSRİ Ali Sovetinə deputat seçilir. İki il sonra gənclərin məsələləri üzrə SSRİ Rəssamlar İttifaqının katibi təyin edilir. 1973-cü ilə qədər bu vəzifədə çalışır. 1972-ci ildə onu Azərbaycan Rəssamlar İttifaqının birinci katibi seçirlər. Bir il sonra T.Salahov artıq SSRİ Rəssamlar İttifaqının birinci katibi olur. Sonrakı 20 il ərzində dörd dəfə bu vəzifəyə yenidən seçilərək sözügedən quruma başçılıq edir.

1980-ci illərin əvvəllərində Tahir Salahov Azərbaycanda Rəssamlıq Akademiyası açmaq arzusunda olur. Bu münasibətlə ulu öndər Heydər Əliyevə müraciət edir. Heydər Əliyev soruşur ki, belə bir akademiyanın açılmasına ehtiyac varmı? «Respublikada baş memar var, baş rəssam da olmalıdır. Biz öz kadrlarımızı yetişdirməliyik», – deyə Salahov cavab verir.

Bundan sonra Azərbaycanın bir sıra bölgələrində, o cümlədən Naxçıvanda, Gəncədə, Şəkidə Rəssamlar İttifaqının şöbələri açılır, gənc rəssamların sayı artır. Əhmədli qəsəbəsində və 8-ci mikrorayonda 130 yeni emalatxana tikilib rəssamların ixtiyarına verilir.

Hazırda xalqımızın adlı-sanlı, layiqli oğlu, dünya şöhrətli rəssam Tahir Salahov Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidentidir. Burada 1979-cu ildən çalışır. Moskvada dünyanın ən məşhur rəssamlarının sərgilərini təşkil edir. 19 il Surikov adına institutda sənət emalatxanasının rəhbəri olub. Çoxlu yetirmələri var. Onlardan biri də kiçik qızı Aydandır.

Salahovlar nəsli davam edir.

2011-ci il, yanvar

ALOV OCAQDAN QALXAR

Zərifə Salahovanın üzündə həmişə bir doğmalıq, məhrəmlik var. Bu, onun insanlarla ünsiyyətinə bir körpü yaradır. Gözlərində sadəlövh və hər şeyə heyrət etməyə hazır olan ifadə tükənməz enerjidən xəbər verir. O, maraqlanmağa və təəccüblənməyə, öyrənməyə və araşdırmağa daim hazırdır. İctimai-siyasi hadisələrdən, mədəni tədbirlərdən kənarda qalan deyil. Qayğıya ehtiyacı olan aztəminatlı qadınlara, qaçqın-köçkün, şəhid, əlil ailələrinə xüsusi mərhəmət göstərir. Tükənməz enerjini də bu fəaliyyət meydanından – insanlardan, onlarla ünsiyyətdən, böyük Azərbaycan mədəniyyətinə və maarifinə bağlılıqdan alır.

Deyirlər, həyat hərəkətdir. Bunun doğruluğunu Zərifə Salahovanın timsalında, onun ictimaiyyətçi, maarifçi, naşir və xeyriyyəçilik fəaliyyətində görmək olar. Bəzən onun bu qədər işləri necə çatdırdığına heyrət edirsən. Amma sonra görürsən ki, Zərifə xanım çoxşaxəli fəaliyyətindən xüsusi zövq və güc alır. Axtarış həvəsi, ideyalar yarışı, düşüncə və fikir cəsarəti, sərbəst polemik meydan onun üçün hər şey deməkdir. Mənəvi ab-havada ritorik, gurultulu, bərli-bəzəkli sözlərdən uzaqdır. Özünün dediyi kimi, yalnız düzlük və həqiqət, saflıq və təmizlik həmişə insana inam və etibar gətirər. Yarımçıq həqiqətləri isə qəbul etmir: «Çünki həqiqət parçalananda intellekt iflici baş verir», – deyir. Həyat həqiqəti, bütövlüyü, tamlığı sevir. Zərifə Salahovanın da xarakterini səciyyələndirən bu xüsusiyyətlər onun əsl ziyalılığına dəlalət edir. O, bu mühitə, bu qayğılara daxil olduqca öz fitrətinə yaxınlaşmış və özünə qayıtmış olur.

Alov ocaqdan qalxar. Zərifə xanım qədim ziyalı kökləri olan əsilzadə nəslindən pərvəriş tapmışdır. Onun bütün ən yaxşı xüsusiyyətləri bu köklərdən gəlir. Axı əsil-nəcabət yeddi arxa davam edir, – deyirlər.

Sona xanım, oğlu Tahir, qızı Zərifə xanım, nəvələri Tariyel və Suadla birlikdə

Zərifə xanım repressiya qurbanı olmuş bacarıqlı mütəxəssis, qabaqcıl ziyalı, cəsarətli dövlət işçisi Teymur Salahovun beş yadigarından biridir. Məhz əsl ziyalı, ruhani kökləri onlara – Teymurun övladlarına bəyan etmişdi ki, ruhdan gələn möhtəşəm qüvvə, qüdrət heç nədə ola bilməz. Odur ki, bu ailədən dünya şöhrətli rəssam Tahir Salahov, yorulmaz Azərbaycan ziyalısı Zərifə Salahova, rəssam kalliqraf Sabir Salahov, sənətşünas Mahir Salahov, ədəbiyyatçı Leyla Salahova ərsəyə gəlmişlər. Onların yaşadığı ev keçmiş Füzuli, indiki Nizami küçəsində – Daxili İşlər Nazirliyinə baxan binada yerləşirdi. Gələcəyin böyük bəstəkarı Qara Qarayev, məşhur cərrah Müseyib Qarayev, incəsənət xadimi Hökumə Qurbanova, digər tanınmış elm və maarif adamları həmin məhəllədə böyüyürdülər.

Məktəbi bitirdikdən sonra Zərifə xanım rus dili müəllimi olmaq qərarına gəlir. Təhsil illərində klassik rus və dünya ədəbiyyatını öyrənməkdən yorulmur. O zaman Bakının məktəblərində teatr, musiqi, poeziya dərnəkləri geniş yayılmışdı. Belə bir mühitdə formalaşan Zərifənin şeirə, incəsənətə, bədii sözə məhəbbəti getdikcə artır. Odur ki, sonralar onun bütün əmək, ictimai fəaliyyəti maariflə, təhsillə üzvi şəkildə bağlı olur.

Zərifəni komsomol işinə dəvət edirlər. Yeni-yeni insanlarla, həyatın müxtəlif problemləri ilə üzləşir. Bütün bunlar onu daxilən zənginləşdirir, daha böyükmiqyaslı işlərə həvəsləndirir.

Az sonra həyat Zərifəni gənclik şəhəri sayılan Sumqayıta, quruculuq işləri ilə yaşayan həyata gətirib qoşdu. Qəzetdə çalışdı, şəhər partiya komitəsində təlimatçı, şöbə müdiri vəzifələrində işlədi. Moskvada Ali Partiya Məktəbini bitirdikdən sonra onu irəli çəkib şəhər partiya komitəsinin ikinci katibi vəzifəsinə təyin etdilər. Bir qədər sonra Zərifə Salahova MK-nın Təşkilat-partiya işi şöbəsində partiya informasiya bölməsinin müdiri vəzifəsində işlədi. 1970-ci ildən 1981-ci ilədək 11 il böyük şəxsiyyət Heydər Əliyevin rəhbərliyi altında çalışdı. Bu da onun idarəçilik, insanlarla işləmək bacarığını daha da artırdı, ölkənin humanitar mühitində çalışan ziyalılarla yaxından tanış oldu.

Dövlət işindən sonra Zərifə xanım öz həyatının əsas mövzularından uzaq düşmədi: Azərbaycan Respublikası Kitabsevərlər Cəmiyyətinin sədri seçildi. Bu cəmiyyətdə o, özünü daha rahat hiss edirdi. Başlıcası isə, vaxtını və enerjisini Azərbaycan incəsənətinə, mədəniyyətinə, ədəbiyyatına, maarifinə sərf edirdi. İctimai işlərdə təcrübəsi, aparat strukturunu, mühitini yaxşı bilməsi, geniş şəxsi əlaqələri, nüfuzu ona istənilən problemləri həll etməkdə yardımçı olurdu. Bir də o, xarakterini səciyyələndirən ən başlıca xüsusiyyətlərə – başladığı işə bütün qüvvəsini qoyub sona çatdırmaq ənənəsinə sadiq idi.

Onun gəlişi ilə «Kitab» Cəmiyyətinin işi canlandı. Zərifə xanım nadir formatlı kitablar buraxmağı planlaşdırdı və pilləpillə bu fikrini həyata keçirdi. Klassik ədəbiyyat korifeylərinin seçilmiş əsərlərindən tutmuş mini-kitablaradək bütün nəşrlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanırdı. Bu kitablar həqiqi sənət nümunəsi kimi yaradılırdı. Bir tərəfdən onların tematik, problematik seçiminə xüsusi diqqət yetirilir, digər tərəfdən Azərbaycanın elm, mədəniyyət tarixi üçün ən vacib əsərlər nəşr edilirdi. Bunlar, əslində, suvenir kitablar idi, evlərdə ən əziz, qiymətli əşya kimi saxlanmaq üçün nəzərdə tutulurdu. Azərbaycanın neçə-neçə yazıçısının və şairinin kitabları indi xaricdəki həmvətənlərimizin evlərində qiymətli yadigarlar kimi yaşayır.

Sonradan ideyadan ideya doğdu – Zərifə xanım ömrünün ən maraqlı işini həyata keçirmək qərarına gəldi. Nadir və miniatür kitablar muzeyi yaratmaq məqsədilə yaşadı. Dünyada bu qəbildən olan muzeylər çox azdır. Ağlagəlməz zəhmətlər hesabına 20 il müddətində toplanmış 4 minə yaxın kitabın insanlar kimi tərcümeyi-halı vardır. Zərifə xanım onlardan hər birinin əldə edilməsi tarixindən ayrıca bir kitab, tərcümeyi-hal yaza bilər. Bunu isə sözdə demək asandır. Belə ağır zəhmətin öhdəsindən gəlməyə ancaq öz işini yüksək qiymətləndirən, sevən insanlar qadirdir. Ulu öndər Heydər Əliyevin dəstəyini və xeyir-duasını alan Zərifə xanım artıq bu işi sona çatdırmışdır. İçərişəhərdə bütün dünyada yeganə olan ilk Miniatür Kitab Muzeyi yaradılmışdır.

Azərbaycanda erməni separatizminə qarşı xalq hərəkatı və müstəqillik illəri Zərifə xanımın fəaliyyətində yeni bir coşqun dövr açdı. O, özünəməxsus müdriklik, enerji, qətiyyət və cəsarətlə bütün vacib tədbirlərdə iştirak edir. Hər şeydən əvvəl, həqiqi ziyalı qadın kimi, Mömünəxatunların, Məhsətilərin davamçıları kimi. Onun səsi Amerikada, İngiltərədə, Belçikada, Almaniyada, Fransada, Çində, İranda, Türkiyədə, İsveçrədə, Hollandiyada, MDB-nin çoxsaylı şəhərlərində keçirilmiş beynəlxalq forumlarda, konfrans və simpoziumlarda eşidilir, xalqımızın ərazi bütövlüyü və müstəqilliyi, ədalətli mübarizəsi bu çıxışlarda ehtirasla müdafiə olunur. Ermənilərin Avropada yaydığı antiazərbaycan mifləri əleyhinə Zərifə xanım həmişə qəzəb dolu bir məntiqlə danışır. Çünki erməni daşnakları bizə qarşı xaricdəki kampaniyaları xüsusi riyakarlıq və saxtakarlıqla aparırlar. O, Azərbaycan həqiqətlərini Avropa ictimaiyyətinə çatdırmaq üçün diasporların aparıcı nümayəndələri ilə daim əlaqə saxlayır.

Zərifə Salahovanın son iki onillikdə yeni, coşqun inkişaf dövrü keçən qadın hərəkatında xüsusi rolu və zəhməti ölçüyəgəlməzdir. Neçə ildir Azərbaycan Qadınlarının Bakı Assosiasiyasının sədridir. O, iştirak etdiyi, əl yetirdiyi hər bir tədbirə yüksək mədəniyyət, hədəf konkretliyi, söz sərrastlığı gətirir. Onun ciddi məntiqi, aydın nitqi, auditoriyanı ələ almaq

və duymaq bacarığı hamı tərəfindən böyük rəğbətlə qarşılanır. Zərifə Salahova qoşulduğu hər bir işə xüsusi enerji ilə qatılır. Onun məsləhətləri ilə hər bir müşkül məsələni həll etmək mümkündür. Xalq arasında belə adamlara yolgöstərən və işbilən deyirlər. Onun zəngin təcrübəsi ilə bütün çətinlikləri həll etmək, bunun üçün qısa və sadə yollar tapmaq olar.

Belələrinə həmişə «işıqlı insan» deyirlər. Zərifə xanımın timsalında gördüyümüz işıq onun böyüdüyü ailədən gəlir və bu evin çırağının heç vaxt sönməyəcəyindən, bu ocağın odunun həmişə gur olacağından xəbər verir.

2008-ci il, mart

TALEYÜKLÜ GÖRÜŞ...

Zərifə Salahovanın atası haqqında yazdığı məqalə tərcümə olunub oxucuları təqdim olunur

1955-ci ilin qışı idi. Həmin ilin fevralında mən Moskva – Bakı qatarının plaskart vaqonunda Oryoldakı yarışlardan qayıdırdım. Nədənsə, o vaxt bu qatarları «500-şən» adlandırırdılar. Yol gəldiyimiz üç günün birində təsadüfən eşitdim ki, qatarımızın beynəlxalq vaqonunda Azərbaycan DTK-sının sədri yoldaş Quskov Anatoli Mixayloviç də səfərdən qayıdır və mən düşünmədən atam barədə hansısa bir məlumat əldə etmək üçün onunla görüşmək qərarına gəldim. Atam 1937-ci ilin sentyabrında həbs olunmuşdu və məşhur 58-ci maddə ilə 10 il müddətində yazışma hüququndan məhrum olunmaqla mühakimə edilmişdi. O vaxtdan 18 il keçsə də, biz onun aqibəti barədə heç bir məlumat əldə edə bilməmişdik. Anamın adından ərizələri həmişə mən yazırdım. Çünki Teymur Salahovu şəxsən tanıyan, evimizə gedib-gələn və anamın hazırladığı xörəklərin dadından heyran olan Azərbaycan KP MK-nın sabiq birinci katibi M.Bağırov onun övladlarını xatırlayan kimi Tahiri Ə.Əzimzadə adına Rəssamlıq Məktəbindən xaric etmişdilər. Və anam onun məktəbə bərpa olunması üçün məmurların qarşısında ağlayır, onlara yalvarırdı. Yaşda məndən böyük digər qardaşlarım isə, ümumiyyətlə, ali təhsil almaq imkanından məhrum idilər. Böyük qardaşım Sabir 10-cu sinfi bitirəndən sonra tramvay parkında çalışır, ortancıl Mahir İnşaat Texnikumunda oxuyur, axşamlar isə kinomexanik işləyirdi...

Elə qonşularımız da daim bizdən şikayət edir, donoslar yazırdı – guya, dördüncü mərtəbədə «xalq düşməni»nin ailəsi yaşayır... Yəqin ki, bu əzabverici qeyri-müəyyənlik və ailəmizin hücumlara daim məruz qalması həmin görüşə getmək üçün mənə cəsarət verdi...

Xarkovda qatarın yarım saatlıq dayanacağı zaman mən beynəlxalq vaqonun bələdçisindən yoldaş A.Quskovla görüşməyi xahiş etdim.

– Ay qızım, onlar indi istirahət edirlər. Sən Rostovdakı dayanacaqda yaxınlaşarsan,– deyə o, cavab verdi.

Mən də onun dediyi kimi etdim. Qatar Rostova yaxınlaşanda bələdçi məni vaqona buraxdı və lazımi kupeni göstərdi. Qapını döydüm və A.M.Quskov məni içəri dəvət edərək əyləşdirdi və «sizi dinləyirəm», – dedi.

– Mənim atam 37-ci ildə həbs olunub. Bizi Qazaxıstana sürgün etməli idilər. Lakin dayım Stalinə, Kalininə və başqalarına teleqramlar vurdu. Hər gün sürgün ediləcəyimizi gözləyirdik və günlərin birində gecəyarısı Xalq Daxili İşlər Komissarlığından (XDİK) gəlib anamı apardılar. Mənzilimizin və Teymur Salahovun ailəsinin Moskvanın sərəncamında olması barədə arayışla anamı kimin tanış etdiyi barədə məlumatsızıq. Və beləliklə, bizi sakit buraxdılar. 1947-ci ildə mən XDİK-ə ərizə göndərdim və Oktyabr rayon şöbəsinin əməkdaşının qəbuluna düşdüm. O, atamın tutulduğu tarixlə maraqlandı. «29 sentyabr 1937-ci il», – deyə mən cavab verdim. Görüşümüz 1947-ci il avqustun 18-də baş tutduğundan o, məni əmin etdi ki, sentyabr ayında atam həbsxanadan buraxılacaq. O vaxtdan artıq 18 il keçsə də, biz hələ də onun taleyindən xəbərsizik...

Söylədiklərimi diqqətlə dinləyən A.M.Quskov mənim və qardaşlarımın nə ilə məşğul olduğu, anamın bu barədə nə dediyi və mənim indi haradan gəldiyimlə maraqlandı. Söhbətimizin sonunda o, məni çərşənbə günü saat 13:00-da komitəyə dəvət etdi. Qatar isə Bakıya bazar ertəsi çatırdı.

Çərşənbə günü saat 13:00-da mən «Dinamo» İdman Cəmiyyəti ilə üzbəüz yerləşən DTK-nın əsas binasına gəldim. Orada mənə bildirdilər ki, DTK sədrinin qəbuluna düşmək üçün qeydiyyat artıq başa çatıb. Lakin soyadımı deyən kimi məni dərhal yoldaş A.Quskovun qəbul otağına apardılar. Orada

nəhəng oval masa arxasında xeyli adam oturmuşdu. Onların danışıqlarından və pıçıltılarından anladım ki, həmin vaxt həbs olunmuş və istintaqı gedən M.Bağırovun işi ilə bağlı toplaşıblar. 15 dəqiqəlik üzücü gözləntidən sonra məni A.Quskovun otağına gətirdilər. O, yenidən məni təfərrüatlarla sual-cavab etdi, sonra isə ağ vərəq uzadaraq atamın işinə yenidən baxılması üçün onun adına ərizə yazmağı tapşırdı. Bildirdi ki, ərizə 1936-1938-ci illərdə Azərbaycanda repressiya olunanların işlərini araşdıran SSRİ Hərbi tribunalına baxılmaq üçün ünvanlanacaq (1955-ci ildə həmin tribunal köhnə «İnturist»ə yapışan binada yerləşirdi). Mən anamın adından bu ərizəni yazdım.

– Zərifə, yaxşı ki, hər şey belə oldu. Siz sağ-salamatsınız və ən əsası, bir yerdəsiniz, – deyə A.M.Quskov mənimlə vidalaşarkən bildirdi. Elə bu sözlərlə də mən oranı tərk etdim...

Növbəti çərşənbə günü məni yenidən DTK-ya dəvət etdilər və A.Quskov yenə də anam və həyatımız, yaşayışımız haqqında mənə suallar verməyə başladı... Sonra biz bir az da söhbət etdik və o, qəflətən soruşdu:

– Sizi mənzildən çıxarmışdılar?

– Yox, – deyə cavab verdim. Bütün bu illər ərzində biz altı nəfər Moskvanın sərəncamında olan ikiotaqlı kiçik evimizdə yaşamışıq.

Bu dəfə də söhbətimiz nəticəsiz alındı. Bir həftədən sonra, artıq üçüncü dəfə mən yenidən DTK-ya dəvət olundum. Qəbul otağında xeyli adam var idi və onların arasındakı ağsaçlı bir ahıl kişi mənə azərbaycanca müraciət etdi:

– Qızım, sən Teymurun övladı Zərifəsən?

Heç nə anlamadan təəccüblə «hə» deyə cavab verdim. Bundan sonra o, ayağa qalxaraq məni qucaqladı, öpdü və ağlaya-ağlaya anam və qardaşlarım barədə maraqlandı.

– Bəs sən burada neyləyirsən, – deyə o soruşdu. Mən ona başımıza gələnləri qısa şəkildə danışdım.

– Bəs sonuncu dəfə sizdən atanız üçün nə vaxt bir şey qəbul ediblər, – deyə o, məndən soruşdu.

– 38-ci ilin 3, yaxud 4 iyununda. Faktiki olaraq həbsindən on ay sonra.

– Bilirsən, qızım, həmin gün Teymuru güllələdilər...

Bunu eşidən kimi mən şok keçirdim...

HAŞİYƏ: (Anamın dedikləri yadıma düşdü. O, ayda bir dəfə atama yemək, paltar apararkən xüsusi blanka apardıqlarının siyahısını qeyd edirdi. Məhbus imza atdıqdan sonra blankın ikinci nüsxəsi geri qayıdırdı. Güman ki, sonuncu sovqatdan qayıdan blankın üzərində yazdıqları ilə atam bizimlə həmişəlik vidalaşırdı və kağıza qardaşlarımın adlarını yazmışdı – Sabir, Mahir və Tahir... Bəlkə də bununla bizə nə isə bir işarə vermək istəyirmiş... Lakin təəssüf ki, həmin kağız qalmayıb, çünki bu cür sənədləri evdə saxlamaq qorxulu olduğu üçün anam onları məhv edirdi...

Atam bəraət aldıqdan sonra anam fərdi təqaüdçü oldu və ömrünün sonunadək atamın pensiyasını aldı.

Atam bəraət aldığından və bizim evimizdən heç nə müsadirə olunmadığından anama atamın iki aylıq əməkhaqqını – 600 sovet rublu verirdilər və bu pullara anam mənə «Zarya» saatı almışdı. Atamdan vida hədiyyəsi...).

Mən ayaqüstə ağlayırdım və bu an DTK sədrinin müavini yoldaş Zamanovun otağına dəvət olundum. Lakin ondan xahiş etdim ki, məni A.Quskovun otağına aparsın. Sədrin kabinetinə daxil olduqda o, məndən soruşdu:

- Zərifə, niyə ağlayırsan?

Mən ona atamı və bizi uşaq ikən tanıyan, 18 il cəza çəkən, indi isə M.Bağırovun işi üzrə şahid qismində keçən bəraət almış insanla görüşüm barədə məlumat verdim.

– Bilirsiniz biz indi nə vəziyyətdəyik? – Bizim heç bir təqsirimiz yoxdur, halbuki sizə bu cür acı xəbəri çatdırmalıyıq! – deyə A.M.Quskov bildirdi. – Bütün çətinliklərə rəğmən hamınız sağ-salamatsınız, başınız üzərində dam var, halbuki hər şey daha acınacaqlı ola bilərdi...

Əlbəttə, o, haqlı idi! Lakin bütün bunlar mənim vəziyyətimi yüngülləşdirmirdi. Biz atamızı görmək üçün günləri sayırdıq.

İndi isə belə bir xəbər aldıq... Bəli, biz sağ- salamatıq və ailəmizi kiçik, 36 kvadratmetrlik ikiotaqlı, ayaqyolu üçüncü mərtəbədə yerləşən mənzildən qovmadılar. Halbuki atam Laçın rayonunun Birinci katibi idi. Nə isə... Bir az sakitləşdikdən sonra A.M.Quskov mənə ayda bir dəfə hərbi tribunala gəlməyi və atamın işi ilə maraqlanmağı tövsiyə etdi.

İlk dəfə mən 1955-ci il mart ayının axırlarında Hərbi tribunalın binasına daxil oldum. Və məni polkovnik Çestnyakov qəbul etdi. Düz bir ildən sonra – 1956-cı ilin fevralında növbəti dəfə atamın işi ilə maraqlanmaq üçün oraya getdikdə polkovnik məni öz kabinetinə dəvət etdi və soruşdu:

– Atanın və onun atasının adını de.

– Teymur Heydər oğlu – deyə cavab verdim.

– Təqsirsizdir, – deyə yoldaş Çestnyakov bildirdi. – Bütün bu materialları biz SSRİ Ali Məhkəməsinə göndəririk və onlar öz qərarını çıxardıqdan sonra siz atanızın bəraət alması barədə rəsmi sənəd alacaqsınız.

Atam güllələndikdən 18 il sonra anam SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 14 iyun 1956-cı il tarixli, 4 n-046689 nömrəli qərarını aldı: «SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Salahov Teymur Heydər oğlu barəsində 3 iyul 1938-ci il tarixli hökmü ləğv olunmuş və hərəkətlərində cinayət tərkibi olmadığı üçün onun barəsində işin icraatı dayandırılmışdır. T.H. Salahov bu iş üzrə ölümündən sonra bəraət almışdır».

Neçə il keçdi... Artıq mən Kitabsevərlər Cəmiyyətində işləyirdim və tez-tez cəmiyyətin Rəyasət Heyətinin üzvü olan akademik Ziya Bünyadovla görüşürdüm. Bir dəfə o, repressiyaya uğramışların işləri ilə məşğul olduğunu bildirdi. Mən ondan atamın işi ilə maraqlanmasını xahiş etdim. Bir aydan sonra Ziya Bünyadov atamın işi ilə bağlı hazırladığı geniş materialı mənə təqdim etdi. Yazının sonunda akademik bu sözləri qeyd etmişdi: «Məhkəmə cəmi 15 dəqiqə davam etmişdi...»

Ziya Bünyadov hansısa yolla DTK arxivlərində atamın

güllələnməzdən əvvəl anfas və profildən çəkilmiş sonuncu şəklinin neqativini əldə etmişdi. Mən dərhal onun şəklini çəkib neqativi yenidən Ziya Musayeviç Bünyadova qaytardım. Həmin ağ-qara şəkildən mənə atamın çox yaxın və doğma – arıq, əzabkeş, güllələnməyə məhkum olunmuş insanın üzü baxırdı... Lakin məni ən çox onun edamdan əvvəl boynundan asılmış məhbus lövhəsindəki nömrə sarsıtdı – 1956. Bu dörd rəqəm atamın ölümündən sonra bəraət aldığı tarixlə üst-üstə düşürdü! Bax, belə bir qəribə təsadüf...



AZƏRBAYCAN ELMİNƏ ATILAN GÜLLƏLƏR

Bu da bir repressiya idi…

HAQSIZLIĞA ÖLÜMÜ İLƏ ÜSYAN ETDİ

Deyirlər, tarix zaman-zaman təkrarlanır… XII əsrdə yaşamış, Şərqin ən böyük filosoflarından olan Şihabəddin Yəhya Sührəvərdinin (1154-1191) elminə görə hakimlər tərəfindən təqdir olunduğu, amal və qayəsinə görə isə öldürüldüyü barədə həqiqəti tarix öz səhifələrində indiyədək qoruyub saxlayır. Qəribədir ki, buna bənzər taleyi XX əsrdə bizim daha bir soydaşımız yaşamalı olub.

1950-ci ildə azərbaycanlı alim-filosof Heydər Hüseynov o dövrün ən yüksək mükafatlarından olan Stalin mükafatına layiq görülüb. Elə həmin ildə də sözügedən mükafatdan məhrum edilib. Tamam-kamal, unikal bir əsər yaradan müəllifi bədxahların gözü götürməyib. Onu məhv etmək üçün dövrün repressiya silahından istifadə ediblər. Sovet quruluşunun təzadları, gərginlikləri, Stalin rejiminin «qanun»ları, əslində, pambıqla baş kəsib. Böyük alimi güllələməyiblər. Onu elə vəziyyətə gətiriblər ki, cavan ömrünə özü qəsd edib…

Heydər Hüseynov sovet dövründə yaşayıb-yaratmış görkəmli Azərbaycan filosofudur. Fəlsəfə elmləri doktoru, professor, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü olan alim həm də bacarıqlı təşkilatçı, fəal ictimai xadim kimi tanınırdı. İki dəfə – 1948 və 1950-ci illərdə Stalin mükafatına layiq görülmüşdü.

Əslən qədim Azərbaycan torpağı olan İrəvandan idi. Bu şəhərdə 1908-ci il aprelin 3-də tacir Hacı Nəcəf Kərbəlayı Hüseyn oğlunun ailəsində dünyaya göz açmışdı. Sonbeşik körpənin sevincini yaşayan ailəyə qəfildən bədbəxtlik üz verir. Belə ki, Heydər dünyaya gələndən az sonra atası vəfat edir, altı uşaq anası Məşədi Gülsüm xanımın üstündə yetim qalır.

Dövr, zəmanə sonralar da bu ailəni çox sınağa çəkir. 1918-ci ildə Heydərin böyük qardaşı Yusif erməni dəstələri tərə-

Heydər Hüseynov

findən öldürülür. Ailə əvvəlcə Batuma, sonra Stavropola köçür. Nəhayət, anası Məşədi Gülsüm xanım övladları ilə Bakıya gəlib çıxa bilir. Bu vaxt Heydərin artıq 12 yaşı vardı. Bakıya köçəndən sonra o, 18 nömrəli orta məktəbdə oxumağa başlayır.

Tərcümeyi-halı ilə tanış olduqca qısa bir ömür çərçivəsində bu qədər vəzifəyə, elmi rütbəyə, yüksək adlara, mükafatlara necə çatdığına az qala təəccüb edirsən. Belə ki, 1927-1931-ci illərdə Heydər Hüseynov o zaman Leninin adını daşıyan Pedaqoji Universitetin tələbəsi olur. Həm pedaqoji, həm də şərqşünaslıq fakültələrində təhsil alır. 1924-cü ildən əmək fəaliyyətinə başlayır, Pedaqoji Texnikumun kitabxanasında işləyir.

1931-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutu İctimai elmlər fakültəsinin qiyabi şöbəsini bitirir. Ali təhsilini başa çatdırdıqdan sonra isə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olur.

1936-cı ildə Azərbaycan Xalq Komissarları Soveti yanında təşkil olunmuş Azərbaycan Sovet Ensiklopediyası Komitəsində, daha sonra SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı Ensiklopediya və Lüğətlər İnstitutunda işlərkən elmi tədqiqatları və təşkilatçılıq qabiliyyəti ilə hər kəsin diqqətini cəlb edir. 1939-1940-cı illərdə onun rəhbərliyi altında bir neçə lüğət hazırlanır. Bunlar «Rusca-azərbaycanca lüğət», «Rusca-azərbaycanca məktəb lüğəti», «Azərbaycanca-rusca izahlı lüğət» idi.

1939-cu ildə «M.F.Axundzadənin fəlsəfi görüşləri» əsərini Tbilisi Universitetinin elmi şurasında müdafiə edir və fəlsəfə elmləri namizədi alimlik dərəcəsi alır.

1944-cü ildə doktorluq dissertasiyası müdafiə edir. Elə həmin ildə də professor elmi adını alır.

Heydər Hüseynov bu illərdə vəzifə pillələri ilə də ardıcıl surətdə irəliləyirdi. 1939-1945-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan filialının sədrinin müavini, 1945-1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti olmuşdu. 1943-1945-ci illərdə Azərbaycan Dövlət Universitetinin əvvəl Marksizm-leninizmin əsasları, sonra Fəlsəfə kafedralarına rəhbərlik etmişdi. 1945-1950-ci illərdə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun direktoru vəzifəsində çalışmışdı.

Elmi fəaliyyətinə qısaca nəzər yetirsək görərik ki, Heydər Hüseynov tarix və fəlsəfə elminin inkişafına böyük töhfələr verib. O, Azərbaycan tərcümə məktəbinin əsasını qoyub, ilk azərbaycanca-rusca və rusca-azərbaycanca lüğətləri redaktə edib. Elmi məqalələrinin sayı 100-dən çoxdur. Bir çox alim, şair və mütəfəkkirlər haqqında ciddi tədqiqat işləri, araşdırmalar aparıb. Elmi müzakirələrdəki çıxışları da sübut edir ki, Heydər Hüseynov həm Qərb, həm Şərq fəlsəfəsi sahəsində fenomenal biliyə malik şəxs idi.

H.Hüseynov Azərbaycan dilinin dərin bilicisi idi. Bununla yanaşı, o, rus dilini də mükəmməl səviyyədə mənimsəmişdi. Ərəb və fars dillərində mütaliə edir və sərbəst yazırdı.

Geniş elmi fəaliyyət göstərən bu alim Elmlər Akademiyasında işləməklə yanaşı, Marks-Engels-Lenin İnstitutunun (sonralar Partiya Tarixi İnstitutu adlanırdı) direktoru və Bakı Dövlət Universitetinin (o zaman ADU) Fəlsəfə kafedrasının müdiri vəzifələrində çalışırdı. O, digər yüksək səviyyəli mütəxəssislərə başçılıq edərək dörd cilddən ibarət «Rusca-azərbaycanca lüğət»i yaratmışdı. Bu unikal işə görə lüğətçilərlə birlikdə Stalin mükafatına layiq görülmüşdü.

H.Hüseynov Azərbaycanda marksizm-leninizm fəlsəfəsinin görkəmli tədqiqatçısı və təbliğatçılarından biri olmuşdur. Onun «Dialektik materializm», «Dialektika və metafizika», «Marksist dialektik metod» və başqa əsərləri o zaman Azərbaycan dilində yazılmış ən qiymətli əsərlərdən sayılırdı. Geniş elmi ictimai fəaliyyəti, təşəbbüskarlığı ilə ictimaiyyətin rəğbətini qazanan H.Hüseynov Kommunist Partiyasına həmişə sədaqətli olmuş-

du. Azərbaycan KP Bakı komitəsinin büro üzvü olan alim Azərbaycan SSR ikinci çağırış Ali Sovetinin deputatı seçilmişdi. O, Yazıçılar İttifaqının üzvü idi. 1943-cü ildə çıxan «Azərbaycan ədəbiyyatı tarixi»nin müqəddiməsində Heydər Hüseynov ədəbiyyatmızın ən gözəl xüsusiyyətlərini saymaqla yanaşı, özünün də bu ədəbiyyata məftun olmasının səbəblərini göstərmişdir. Azərbaycan ədəbiyyatının nailiyyətləri fəlsəfə alimini daha çox sevindirirdi. Onun C.Cabbarlının, S.Vurğunun və başqa yazıçıların yaradıcılığı haqqında yazdığı məqalələr bunu aydın sübut edir. S.Vurğun yaradıcılığı ilə maraqlanan, onun dram əsərlərini yüksək qiymətləndirən H.Hüseynov xalq şairi haqqında 1942-ci ildə «Vətənpərvər şair Səməd Vurğun» adlı kitab çap etdirmişdi. O, Vurğunun dramlarını dərindən təhlil etmiş, bu əsərlərdəki böyük ideyanı – xalqa məhəbbət ideyasını açıb göstərmişdir. 1945-ci ildə nəşr olunan «Ədəbi qeydlər» kitabçası Heydər Hüseynovu həm də bir ədəbiyyatşünas və tənqidçi kimi yaxşı xarakterizə edirdi.

Taleyininmi, yoxsa yaşadığı dövrün əsən sərt yellərinin hökmününmü nəticəsi idi ki, Heydər Hüseynovun ömrü kimi, yaradıcılıq illəri də uzun olmadı. Cəmi iki onillikdən bir az çox dövrdə elmi fəaliyyətlə məşğul ola bildi. Bu dövrdə o, yalnız dialektik materializmə aid əsərlər yazmaqla kifayətlənmədi, Azərbaycanda fəlsəfi və ictimai fikir tarixini tədqiq etdi. Əsərlərində Nizaminin ictimai görüşləri, Füzulinin, Bəhmənyarın fəlsəfəsi öz təhlilini tapdı. Məsələn, 1941-ci ildə Nizaminin «İqbalnamə»sinə yazdığı müqəddimədə müəllif böyük şairin humanizminin hansı tarixi-fəlsəfi köklərdən qaynaqlandığını, tərbiyəvi əhəmiyyətini göstərmişdir. O yazırdı: «Nizami yalnız ümumi mənada abstrakt olaraq götürülmüş azad bir cəmiyyət təsvir etmir. O, hər şeydən əvvəl, azad insan cəmiyyəti prinsiplərini şəxsi mülahizəsinə görə açır. Əməkdə bərabərlik, əldə edilən məhsulun bölünməsi, sağlamlıq qaydaları və s. bu kimi prinsipləri irəli sürən Nizami azadlıq və səadəti insanların öz əlləri ilə yaradacaqlarına inanmışdır».

Heydər Hüseynovun tədqiq edilməsi, onun kimliyinin gənc nəslə çatdırılması yalnız Stalin rejiminin ləğvindən, vaxtilə

haqsız-sübutsuz repressiyaya məruz qalanlar bəraət qazandıqdan sonra mümkün olub. Bu istiqamətdə ilk addım alimin ölümündən 15 il sonra atılıb. Belə ki, «Azərbaycanın elm və mədəniyyət xadimləri» seriyasından «Heydər Hüseynov – biblioqrafiya» adlı kiçik bir kitab nəşr olunub.

H.Z.Mahmudov soyadlı şəxsin tərtib etdiyi bu kitabçada alimin yaxın dostu, akademik Məmməd Arif Dadaşzadənin onun haqqında verdiyi məlumat o qədər geniş olmasa da, hər halda oxucuda, insanlarda düzgün və aydın təsəvvür yaradır.

Kitabda Heydər Hüseynovun şəxsiyyətini, xarakterini səciyyələndirən xüsusiyyətləri göstərən maraqlı epizodlar var. M.A.Dadaşzadə yazır: «Çap olunan şey qalacaqdır» sözlərini təkrar edən H.Hüseynov nəşriyyat işinə xüsusi əhəmiyyət verirdi. İstər Elmlər Akademiyasında və istərsə də Partiya Tarixi İnstitutunda kabinetə girən adamı o, təzəcə çapdan çıxmış kitablarla sevindirməyə çalışırdı. Qəhvəyi cildli kitabı əlinə götürüb iftixarla deyirdi: «Görürsünüzmü? Leninin bu cildi də çıxdı. Tərcümə işində respublikalar içərisində biz qabaqda gedirik… Bax bu da Üzeyir Hacıbəyovun «Azərbaycan musiqisinin əsasları» əsəridir. Xalq musiqisi haqqında misilsiz bir kitabdır. «Əliağa Şıxlinskinin xatirələrini» oxumusunuzmu?..» H.Hüseynov meydana çıxan hər bir yeni elmi əsərə ürəkdən sevinirdi. Nizami poemalarının elmitənqidi mətnlərinin, onun haqqında yazılan tədqiqat əsərlərinin, Azərbaycan ədəbiyyatı tarixinə aid kitabların, Üzeyir Hacıbəyovun «Koroğlu» operasının, Səməd Vurğunun «Vaqif» dramının meydana çıxmasını H.Hüseynov xalqın mənəvi həyatında böyük bir bayram kimi qarşılayırdı.

Görkəmli alim ixtisasca filosof idi. M.F.Axundzadənin fəlsəfi görüşlərinə aid namizədlik dissertasiyası böyük mütəfəkkirin fəlsəfəsi haqqında sovet dövründə yazılmış ilk və böyük əhəmiyyət kəsb edən əsər idi. Cavan alim Mirzə Fətəlinin materialist görüşlərinin formalaşmasına təsir edən amilləri, onun fəlsəfi fikirlərinin mahiyyətini açmışdır».

Heydər Hüseynovun həyatını əks etdirən sözügedən kitabdan sonra onun adı tez-tez çəkilməyə başlayır.

Xalqımızın elm, ədəbiyyat, incəsənət və s. sahələrdə böyük işlər görmüş övladlarını yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev akademik Heydər Hüseynovun da xatirəsinə ehtiramla yanaşmışdır. 1998-ci ildə görkəmli alimin 90 illiyi ümummilli liderin imzaladığı sərəncama əsasən təntənəli surətdə qeyd olunmuşdur.

Elə həmin il Heydər Hüseynovun həyatı haqqında vaxtilə tələbəsi olmuş Sabir Əsədovun genişhəcmli kitabı çapdan çıxmışdır. Bu kitabda böyük alimin çoxlarına yaxşı məlum olmayan həyat və yaradıcılığı barədə geniş məlumat verilmiş, ömrünün ayrı-ayrı məqamları işıqlandırılmışdır.

Müasirlərinin öz xatirələrində qeyd etdiklərinə görə, o zaman Azərbaycanın rəhbəri olan Mircəfər Bağırov əvvəllər Heydər Hüseynova xeyirxah münasibət bəsləyirmiş. O, vəzifə pilləsi ilə yüksəldikcə qarşısında maneələrin olmaması da bu münasibətdən qaynaqlanırmış. 1945-ci ildə respublikada Elmlər Akademiyası yaradılanda onun ilk akademikləri sırasında 37 yaşlı bu alimin də olmasına, hətta akademiyanın vitse-prezidenti vəzifəsinə irəli çəkilməsinə etiraz etməmiş, əksinə, razılığını bildirmişdi. Deyilənlərə görə, o zaman tənzənəli iclasların birində Heydər Hüseynovun etdiyi məruzə M.Bağırovun xüsusilə xoşuna gəlmiş, «Bu, Mərkəzi Komitənin təbliğat üzrə katibinin yerinə hazırdır!» – demişdi. Heydər Hüseynova qarşı qibtə, qısqanclıq, düşmənçilik kampaniyası da məhz bu hadisədən sonra başlanmışdı. Onu Bağırovun gözündən salmağa cəhdlər etmişlər.

Bir neçə il sonra Heydər Hüseynov «XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən» adlı kitabını yazır. Bu kitab ona həyatı bahasına başa gəlir.

Əsər ilk dəfə 1949-cu ildə, ikinci dəfə 1958-ci ildə müəyyən ixtisarlarla çap edilmişdir. Azərbaycan dilində isə ilk dəfə 2006-cı ildə nəşr olunmuşdur. Kitabın redaktoru akademik Aleksandr Makovelski (1884-1969) «Redaktorun ön sözü» adlı yazısında bu əsəri «XIX əsrdə Azərbaycan fəlsəfəsinin inkişafının sistemli şərhinin ilk təcrübəsi» kimi dəyərləndirmiş və öz münasibətini bildirmişdir.

«Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən» böyük həcmli, 733 səhifəlik fundamental bir əsərdir. Bu,

həqiqətən də, müəllifin gərgin axtarışlarının bəhrəsi kimi meydana gəlmişdi. Belə ki, burada XIX əsrdə xalqımızın görkəmli elm və mədəniyyət xadimlərindən Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Kazımbəy, Mirzə Fətəli Axundzadə və Həsən bəy Zərdabinin ictimai fəaliyyəti, dünyagörüşü, yaradıcılığı, irsi haqqında geniş bəhs olunur. Bununla belə, əsərdə XIX əsrdən əvvəlki dövrlərə də yer verilir. Müəllif Azərbaycan xalqının hələ qədim zamanlardan bəşəriyyətə elm və mədəniyyət dühaları bəxş etdiyini vurğulayır. Bu insanların yaratdığı əsərlərin dünya elminə və mədəniyyətinə bir töhfə olduğunu söyləyir.

O zaman əsər təkcə Azərbaycanın deyil, bütün SSRİ alimlərinin diqqətini cəlb etmişdi. Məsələn, şərqşünas-alim, akademik İ.Kraçkovski yazırdı: «Mən sizin bu əsərinizlə daha çox maraqlanıram, mənim bu marağım yalnız əsərinizin əsas mövzusuna görə deyil, həm də ona görədir ki, burada bizim XIX əsrdə şərqşünaslıq tariximizin bir çox məsələləri qeyd edilmişdir».

«XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən» monoqrafiyası nəşr olunduqdan sonra müəllif ənənəyə görə və ürəyinin istəyi ilə kitabını dostlarına bağışlayır. Bir nüsxə də o vaxt SSRİ Yazıçılar İttifaqının sədri olan Aleksandr Fadeyevə hədiyyə edilir. Xatırladaq ki, kitab SSRİ-də hamının başa düşməsi məqsədilə rus dilində yazılmışdı. Fadeyev bu əsəri çox bəyənir və onu Stalin mükafatına təqdim edir. Mükafat öz sahibini tapır.

Bu hadisə Bağırova başqa rakursdan təqdim olunur. Guya Hüseynovun artıq gözü ayağının altını görmür, özündən çox razıdır və Bağırovu zərrə qədər də saymadan onun başı üstündən kitabını mükafata təqdim etdirib. Əlbəttə, məqsəd aydın idi və bədxahların bəd niyyəti bu zaman, çox təəssüf ki, baş tutur.

«Etibarlı» mütəxəssislərdən ibarət qrup yaradılır. Onlara tapşırılır ki, necə olursa-olsun kitabda ideoloji «səhvlər» tapılsın. Kitabın siyasi baxımdan ziyanlı olduğu sübut edilsin.

Bəs əsl həqiqət necə idi? «Etibarlı» mütəxəssislər hansı doğrunu yalan kimi qələmə verəcəkdilər? Azərbaycan Yazıçılar

Birliyinin üzvü, vaxtilə Heydər Hüseynovla birlikdə işləmiş və dostluq etmiş İmran Seyidov bu məsələyə belə aydınlıq gətirir: «H.Hüseynovun monoqrafiyasının fəsillərindən biri böyük şərqşünas, Peterburq İmperator Universitetinin professoru, bir çox xarici elmi cəmiyyətlərin fəxri üzvü Mirzə Kazımbəyə həsr olunmuşdu. Bu fəsildə çoxlu təzə və az məlum olan material var idi. Dərin və hərtərəfli alim olan M.Kazımbəy öz əsərlərindən birini Şamilə və müridizmə həsr edərək onları müsbət baxımdan səciyyələndirmişdi. H.Hüseynov monoqrafiyada M.Kazımbəyin bu əsərinə rəğbətlə yanaşmış və onun təhlilinə iki səhifəyədək yer vermişdi. Məhz bu məqam H.Hüseynovun taleyini həll etmişdi. Mirzə Kazımbəy Şamili çar mütləqiyyətinə qarşı dağlıların azadlıq mübarizəsinin qəhrəmanı və başçısı kimi qiymətləndirmişdi. Həmin dövrün bütün tarix nəşrlərinin və hətta orta məktəb dərsliklərinin səhifələrində Şamil məhz bu cür təqdim olunmuşdu. Lakin bu, əlbəttə, «regional hökmdar» Bağırovu dayandıra bilməzdi. O, «tarixçilər» və «filosoflar» sırasından «xidmət göstərən» yoldaşlarının köməyi ilə bədnam elmi məqalə yazdırıb dərc etdirərək tarixi faktlara və sanballı elmi dəlil-sübutlara məhəl qoymadan Şamili guya Sultan Türkiyəsinin təhriki ilə Rusiyaya və rus xalqına qarşı mübarizə aparmış «Türkiyə casusu» elan etdi. Təbii ki, belə bir «xoşagəlməz» şəxsi «dağlıların azadlıq mübarizəsinin qəhrəmanı» elan etmiş şəxs mükafatlandırılmalı deyil, ciddi surətdə pislənməli və cəzalandırılmalı idi».

Məlum olduğu kimi, 1950-ci il iyunun 14-də keçirilmiş «Azərbaycan ziyalılarının növbəti vəzifələri haqqında» müşavirə, əslində, akademik Heydər Hüseynovun məsələsinə həsr olunmuşdu. Bu müşavirədə MK-nın birinci katibinin 8 qəzet səhifəsini tutan məruzəsinin yarıdan çoxu onun kitabından bəhs edirdi. Daha doğrusu, məruzənin ikinci bölməsi «Tarix məsələlərinin işıqlandırılmasında ciddi səhvlər haqqında» adlanırdı. Məruzəçi birbaşa mətləbə keçərək akademikin kitabını misal gətirərək respublikada fəlsəfə sahəsində vəziyyətin heç də yaxşı olmadığını göstərdiyini deyir: «H.Hüseynovun kitabı marksizm nöqteyi-nəzərindən zərərlidir.

Burada Azərbaycanda ictimai fikir tarixinin işıqlandırılmasında kobud siyasi və nəzəri səhvlərə yol verilmişdir. Hüseynov Azərbaycanın ayrı-ayrı mütəfəkkirlərinin bu və ya digər idealist, mürtəce fikirlərini öz kitabında verərkən bunları marksizm-leninizm nöqteyi-nəzərindən təhlil etmir, onları tənqid etmir, həmin fikrə şərik olur və onları təbliğ edir».

Son məqsədin Heydər Hüseynovu sıradan çıxarmaq (əvvəlcə mənən, sonra da, yəqin ki, fiziki cəhətdən) olduğunu daha aydın göstərmək üçün Mircəfər Bağırovun məruzəsindən bir parçaya da diqqət yetirək: «Bəzi tarixçilərin iddia etdiklərinə baxmayaraq, Şamil xalq tərəfindən imam seçilməmişdi. Şamilin katibi Hacı Əli öz xatirələrində yazır ki, Şamili «ağsaqqal üləmalar və mötəbər şəxslər məclisi», yəni mürtəce müsəlman nümayəndələri imam seçmişlər. Şamilin başçılıq etdiyi müridlər xalqdan ayrılmışdılar və xalqın əleyhinə idilər. Məhz buna görə də onlar xalq kütlələrinə qarşı zorakılıq və təcavüzkarlıq edirdilər. Müridizm imamın başçılığı ilə xırda bir qrup müridlərin Dağıstan kəndliləri kütləsi üzərində hökmranlığı idi».

Müridizmin bu «tərif»i ilə Bağırovu Heydər Hüseynovun düşmənləri tanış etmişdilər. Məruzə başdan-başa bir-birinə zidd fikirlərlə dolu idi.

Hamımız yaxşı bilirik ki, Böyük Sovet Ensiklopediyasında, bütün orta və ali məktəb dərsliklərində, tarixə aid digər ədəbiyyatlarda Şamil hərəkatı mütərəqqi hərəkat, xalq azadlıq hərəkatı kimi qiymətləndirilir. Kitabında bu barədə heç bir səhvə yol verməyən, ümumiyyətlə, sovet dövləti və kommunist partiyası qarşısında heç bir günahı olmayan (əksinə, xidmətləri olan) alimin ləkələnməsinin səbəbi şərhsiz də məlumdur. Vəziyyət getdikcə gərginləşir. «Məşhur» müşavirədən dərhal sonra respublikanın bütün elmi idarələrində, yaradıcılıq ittifaqlarında Mircəfər Bağırovun məruzəsinin müzakirəsi təşkil edilir. Dünənə qədər akademikin qarşısında milyon dəfə baş əyən, məddahlıq edənlər ona hücuma keçirlər. Şər, böhtan xarakterli, elmi cəhətdən araşdırılmamış faktlarla fəlsəfə elmləri doktorunu, akademiki marksizm-leninizm nəzəriyyəsini bilməməkdə, pantürkizm ideyalarını yazmaqda ittiham edirlər.

Beləliklə, kitabının dördüncü fəslində Mirzə Kazımbəyin bir əsərinin – «Şamil və müridizm» əsərinin adı çəkildiyi üçün görkəmli elm fədaisi Heydər Hüseynovun taleyi faciə ilə sona yetir.

Böyük alimə qarşı təklif olunan cəza həyata keçirilir. Özü də bu, ağla gəlməyən, misli görünməyən bir cəza olur. Heydər Hüseynovu aldığı Stalin mükafatından məhrum edirlər. Kitabını qüsurlu və zərərli sayaraq «damğalayır», belə sərt bir nəticə çıxarırlar. Artıq əsrin 50-ci illəri başlansa da, bu elə 37-nin bənzər forma və məzmunda davamı idi.

Bununla da sakitləşməyib, H.Hüseynovu Marks-Engels-Lenin İnstitutundakı vəzifəsindən azad edirlər. Belə ki, «o, səhər iş otağına daxil olduqda direktor stolunun arxasında müavininin oturduğunu görür. Müavin dinib bu məsələnin «ora»dan, yəni MK-dan tapşırıldığını izah etməmişdən qabaq da Heydər Hüseynov mətləbi olduğu kimi anlayır. Oradan akademiyaya gəlir və ona göstərilən təzyiqlərə, gələcəkdə baş verəcək cəzalara bəri başdan etiraz olaraq intihar etmək qərarını verir, hər iki biləyində damarlarını kəsir…»

O zaman alimi həyata qaytarmaq mümkün olur. Lakin təzyiqlər bundan sonra da səngimək bilmir. Heydər Hüseynovun özünə qəsd etməsini «yuxarılar» özbaşınalıq, itaətsizlik, onlara qarşı etiraz notu kimi qəbul edirlər. Buna görə də cəza maşını hərəkətini dayandırmır.

Təsadüfi deyil ki, filarmoniyanın yay salonunda «Şəhər ziyalılarının yığıncağı» adı altında keçirilən ifşa tədbirinə H.Hüseynova yaxın olanlar da dəvət edilir. «Yuxarı»nın tapşırığı ilə onlar bir-bir növbə ilə öz dost və həmkarlarının ardınca danışır, onun özünü və kitabını böhtanlayırlar. Bu, Bağırova çox xoş gəlir. O vaxt Nizami adına Ədəbiyyat İnstitutunun direktoru olan Məmməd Arif Dadaşzadəyə söz verilir. Natiq mətləbdən uzaqlaşmaq məqsədilə rəhbərlik etdiyi elmi müəssisənin iş-gücündən, problemlərindən danışmağa başlayır. Bağırov məsələni dərhal başa düşərək onun sözünü yarımçıq kəsir və deyir: «Sən Türkiyə casususan. Sən Heydər Hüseynovdan da pissən!..»

O dövrün «qanun»larına görə, «Türkiyə casusu» kimi qələmə verilən şəxsi son dərəcə ağır cəza gözləyirdi. Amma xoşbəxtlikdən Məmməd Arifə bir qədər yüngül cəza tətbiq edilir: cəmi bir neçə gündən sonra onun partiya biletini əlindən alıb, direktor vəzifəsindən azad edirlər.

SSRİ Elmlər Akademiyasının müxbir üzvü, akademik Aleksandr Makovelski, yəni kitabın redaktoru Fəlsəfə İnstitutunun direktoru vəzifəsindən götürülür.

Əvəzində isə H.Hüseynovu pisləyənlər yeni vəzifələrlə mükafatlandırılırlar.

Heydər Hüseynov hələ çox perspektivlər vəd edən bir alim idi. AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədov «Fəlsəfi fikrimiz: ona laqeyd qalmaq olmaz» məqaləsində yazır: «Akademik H.N.Hüseynov 40-cı illərdə Bəhmənyarın kiçikhəcmli iki fəlsəfi traktatını aşkara çıxarıb tədqiqat obyektinə çevirməklə sırf elmi-fəlsəfi irsimizin varlığını elan etdi. Görkəmli tədqiqatçının milli ruhda Azərbaycan fəlsəfəsi tarixinə dair yazdığı kitab elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı, Stalin mükafatına layiq görüldü. Lakin alimin öz xalqının tarixən yüksək elmi-fəlsəfi təfəkkürə malik olduğunu aşkar söyləməsi imperiya ağalarının zəhmindən qorxan kölələrə xoş gəlmədi…»

Tədqiqatçı Adıgözəl Məmmədov isə belə yazır: «Yaradıcı şəxs o hala çata bilər ki, onda suisid (intihar) baş versin. Bu mənada Heydər Hüseynovun ölümü buna bariz nümunədir. Heydər Hüseynov öz dövrünün konyunkturunun girovuna çevrilmişdi. Ancaq o bu girovluqdan çıxmaq üçün cəhd edirdi. Genealoji olaraq informasiyalar onu bu girovluqdan çıxmağa məhkum etmişdi…

Heydər Hüseynov bu təzyiqlərə tab gətirə bilmədi. Nəticədə bir dəfə şah damarını kəsdi, akademik Topçubaşov onu ölümdən xilas etdi. Xəstəxanadan çıxdıqdan bir neçə gün sonra isə onu özünü asmış vəziyyətdə tapdılar. Dəfnini tez-tələsik həyata keçirdilər. Dəfnində cəmi bir neçə nəfər iştirak edirdi».

İntihar etmək dini baxımdan günah sayılır. Yaradanın verdiyi canı yalnız O Özü ala bilər, verdiyi ömrü nə vaxt istəsə Özü kəsə bilər.

Elm, təbabət intiharı acizlik, gücsüzlük, mübarizə apara bilməmək, hətta xəstəlik kimi xarakterizə edir.

Böyük istedada malik insanların intiharı isə elmə, mədəniyyətə, incəsənətə, yəni bu sahələrin hansına mənsubdursa, məhz ona ağır zərbədir. Belə məntiqi nəticə çıxır ki, belələri intihar edərkən öz istedadlarını xalqdan əsirgəyir, vətəni onların gələcək xidmətlərindən alacağı bəhrələrdən məhrum edirlər…

Heydər Hüseynov da intihar etmişdi. Lakin onun intiharı söylənilən motivlərin heç biri ilə səciyyələnmirdi. Əvvəla, Heydər Hüseynov filosof idi, həyat qanunlarını yaxşı bilirdi. Həm də «Allah adamları»nın ailəsində böyümüşdü. Onun babası kərbəlayı idi, atası həcc ziyarətinə getmiş, anası məşədi olmuşdu və o, bilməmiş deyildi ki, intihar böyük günahdır.

Heydər Hüseynovun özünə qəsd etməsi acizlik də deyildi. Çünki bu qədər zəhmətə qatlaşıb tədqiqatlar, araşdırmalar aparan, əziyyət çəkib əsərlər yazan alim iradəcə zəif ola bilməzdi.

Nəhayət, Heydər Hüseynov hələ uzun illər öz xalqına və vətəninə xidmət etmək istəyində, amalında idi. Lakin onu bu arzularını həyata keçirməyə qoymadılar.

Odur ki, bu intihar, əslində, bir üsyan idi, bir etiraz idi. Boyun əyməmək, alçalmamaq, bəlkə də dünyadan namərd əli ilə köçməmək qərarı idi!

…Vəzifədən çıxarılandan, mükafatı əlindən alınandan sonra doğmaları Heydər Hüseynovu bağa aparıblarmış. Deyilənə görə, köhnə tanışları, həmkarları onu görəndə özlərini görməzliyə vurar, yanından səssizcə, salamsız ötüb keçirlərmiş. Ancaq tarix, qədirbilən Azərbaycan xalqı, elmimiz onun adının üstündən keçməyib.

Doğrudur, Heydər Hüseynov 42 yaşında, yaradıcılıq qüvvəsinin çiçəkləndiyi bir vaxtda həyatdan köçdü. O, qısa ömrü ərzində çox iş görmüşdü, ancaq daha böyük işlər görə bilərdi. Bununla belə, amansız rejimin, uğursuz taleyin ona macal verdiyi qədər yazıb-yaratdıqları nəsillərə gərəkdir, əvəzsiz bir yadigardır.

41 YAŞINDA ÖLÜMÜNƏ FƏRMAN VERİLDİ

Stalin repressiyası qurbanlarının çoxu istintaq zamanı onun adını çəkirdi. Guya sovet dövlətinə, Kommunist Partiyasına dönüklüyü bu insandan öyrənmişdilər. Belə çıxırdı ki, sovetlərin ən böyük düşməni 1919-cu ildən Kommunist (bolşeviklər) Partiyasının (sonralar Sov.İKP adlandı) üzvü olan, qısa ömrünü sovet dövlətinin inkişafına həsr edən, alim, publisist və tərcüməçi kimi şöhrət qazanan, qəlbən inandığı, sevdiyi quruluşa sədaqətlə xidmət göstərən Ruhulla Əli oğlu Axundov idi. Respublikada Mərkəzi Komitənin katibi vəzifəsinə qədər yüksələn bir insan necə «xalq düşməni»nə çevrilə bilərdi?! Təbii ki, bu, çox məntiqsiz bir yanaşma idi. Amma bütün bunlara baxmayaraq, sovet rejimi Ruhulla Axundova 41 yaşında güllələnmə hökmü vermişdi.

«Ən yaxşı və bacarıqlı azərbaycanlı marksistlərdən biri olan Ruhulla Axundov kütlələr arasında şöhrət qazanmışdır». İnanılmış partiya rəhbərlərindən olan S.M.Kirovun bu cür yüksək qiymət verdiyi dövlət xadiminə niyə «əksinqilabçı, trostkiçi» damğası vurulmuşdu? Onun həyat və fəaliyyət tarixçəsini araşdıranlar həmin ittihamların absurd olduğunu dəfələrlə yəqin etmişlər. Bu insan haqqında deyilənlərin uydurma, saxta fərziyyə olduğu isə hamıya gün kimi aydın idi. Çünki Ruhulla Axundov kommunist ideyalarının işıqlı gələcəyinə bütün varlığı ilə inanmışdı. 20 il bu yolda çalışmış, mübarizə aparmışdı. Amma bu cür sədaqətlə xidmət etdiyi quruluş, əslində, ona xilaf çıxmış, bütün əziyyətlərini və əməyini danmaqla kifayətlənməyib, onu ləkələmiş, şərləmiş və ölümə məhkum etmişdi.

Ruhulla Axundov 1897-ci ildə Bakının Şüvəlan kəndində dünyaya göz açmışdı. Qısa ömrünü müşayiət edən sevinclə kədər, bədbəxtliklə bəxtiyarlıq həyata onunla sanki qoşa gəlmişdi. Birinci xoşbəxtliyi onda idi ki, elmə, biliyə meyilli

Ruhulla Axundov

kökdən boy atmışdı. Atası Əli kişi ziyalı bir insan, müəllim idi. Bağdadda ali ruhani təhsili almışdı. Bakıya qayıtdıqdan sonra ruhanilikdən tamamilə uzaqlaşmışdı. Məktəblərdə uşaqlara ərəb və fars dillərindən dərs deyirdi.

Ruhulla dörd yaşında ikən atası vəfat edir. Həmin vaxtdan da o, həyatın acılarını dadmağa başlayır. Ona bacıları baxsa da, ehtiyac içərisində böyüyür. İllər keçdikcə ən ağrılı sınaqlarla üz-üzə gəlir. Sonralar həmin günləri yada salaraq yazırdı: «Mən böyük bacımın yanına köçərkən onun həyat yoldaşı məni nəinki öz dükanında işlədir, hətta məni evdə saxladığına görə pul da tələb edirdi».

Bütün bunlara baxmayaraq, Ruhulla təhsil almaq, bilikli, elmli olmaq arzusunda idi. Odur ki, ilk təhsilini kənd məktəbində aldıqdan sonra bir müddət şəhərdə rus-Azərbaycan məktəbinə gedir. Bakı realnı məktəbində isə yaxşı oxumağı, elmə həvəsi ilə müəllimlərin, xoş davranışı, ünsiyyət qurmaq bacarığı ilə yoldaşlarının hörmət və məhəbbətini qazanır. Elə müəllimi, görkəmli yazıçı Abdulla Şaiqin diqqətini də burada cəlb edir.

Lakin maddi ehtiyac Ruhullanı yenə yarı yolda qoyur. O, realnı məktəbin altıncı sinfində artıq buranı tərk edir. Sonralar Bakı Ticarət Məktəbində oxuyur, amma məcburiyyət qarşısında buradan da getməli olur. Qərara gəlir ki, işləyib dolanışığını özü təmin etsin.

Yazıçı Abdulla Şaiq sonralar keçmiş şagirdini xatırlayaraq yazırdı: «Az gülən, az danışan, ağır təbiətli olan Ruhulla xaricən də o qədər nəzərə çarpmırdı. Qarayanız, arıq bir tələbə idi. Ancaq qara, düşüncəli gözləri sinifdə həmişə parlayırdı. Bir tələbə kimi o öz yoldaşlarından xeyli seçilirdi. Dərslikdən ayrı-

ayrı bədii parçaları o qədər gözəl, səlis və mənalı oxuyurdu ki, insan valeh olmaya bilmirdi. Gözəl natiqlərə məxsus gur və ahəngdar səsi var idi. Dərslərindən əla alardı. Pedaqoji şuralarda ondan xüsusi bəhs edilərdi».

Birinci Dünya müharibəsinin ağır illərində gənc Ruhulla əmək fəaliyyətinə başlayır. Orucov qardaşlarının mətbəəsində özünə iş tapır. Əvvəlcə ona xırda işlər tapşırırlar, abunə yazılışına sifarişlərin qəbul olunmasına kömək edir. Lakin istedadı ona tezliklə korrektor peşəsinə yiyələnməyə imkan verir. Ruhulla həmçinin rus dilindən tərcümələr etməyə başlayır. Məhz bu dövrdə R.Axundov mətbəə fəhlələrinin həyatına yaxından bələd olur, onlarla qaynayıb-qarışır. Burada ilk dəfə fəhlələrin iqtisadi tətilində iştirak edir. Şagirdlərin gizli dərnəyində fəaliyyət göstərir.

Tədqiqatçı-alim Qaraş Mədətov «Ruhulla Axundov» bioqrafik oçerkində yazırdı ki, mürəkkəb siyasi hadisələrin cərəyanında gənc Ruhullaya öz mövqeyini müəyyənləşdirmək, düzgün mübarizə yolu seçmək olduqca çətin idi. Həmin günlər o, sol sosialist inqilabçılar (eserlər) partiyasına daxil olur. Lakin xalqın azadlığı, onun haqqı və hüququ uğrunda mübarizə ilə bağlılıq, fəhlə hərəkatına yaxınlıq getdikcə bu insanın siyasi görüşlərinin formalaşmasına, əqidəsinə uyğun mübarizə yolu seçməsinə əsaslı təsir göstərir. 1920-ci ildə Moskvada Leninlə görüşür. Bu görüş onun həyatında mühüm rol oynayır. R.Axundov Bakıya döndükdən sonra bir çox məsul vəzifələrdə çalışır. O, Lenin ideyalarına ürəkdən bağlanır.

1921-1923-cü illərdə «Qızıl əsgər» qəzetində və «Savadlı qırmızı əsgər» jurnalında mütəmadi çıxış edir, hətta bir müddət onların rəhbəri olur. Ümumiyyətlə, istər o dövrdə, istərsə də sonrakı illərdə Ruhulla Axundovun hərbi quruculuq barədə özünün ciddi baxışları, fikirləri vardı. O, hərbi quruculuğu sosializmin əsası, üzvi hissəsi hesab edirdi. Azərbaycanlı gənclərin hərbi işə fəallıqla cəlb olunmasını vacib sayırdı. O deyirdi ki, xalq sosializmin nailiyyətlərini qoruyub saxlamaq istəyirsə, hərbi işə yiyələnməlidir.

İndi zaman və ictimai-siyasi formasiya dəyişib, biz müstəqil ölkədə yaşayırıq. Bununla belə, Ruhulla Axundovun hərbi qu-

ruculuq haqqındakı fikirləri bu gün üçün də dəyərli və aktualdır. Nailiyyətlərini qorumaq istəyən, düşmənə qalib gəlmək əzmində olan xalqa, təbii ki, güclü ordu lazımdır. Yeri gəlmişkən qeyd edək ki, onun kəndli-fəhlə müxbirləri haqqındakı fikirləri də çox əhəmiyyətlidir. O, müxbirlərə düzgün istiqamət verilməsini vacib sayırdı. Onları kənddə mədəniyyət ordusunun bayraqdarı olmağa çağırırdı.

R.Axundov iki il mətbəədə işlədikdən sonra Bakı Sovetinin «İzvestiya», 1919-cu ildə isə Azərbaycan bolşeviklərinin qeyrileqal çap olunan «Kommunist» qəzetlərinin baş redaktoru vəzifəsini icra edir. Respublikada sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan K(b)P MK-nın kəndlərdə iş üzrə şöbəsinin müdiri, partiyanın Bakı komitəsinin katibi, «Kommunist» qəzetinin, «Bakinski raboçi»nin və digər dövri nəşrlərin redaktoru olur. 1924-1930-cu illərdə artıq Azərbaycan K(b)P MK-nın katibi, «Azərnəşr»in direktoru, respublikanın xalq maarif komissarı vəzifələrində çalışır. 1930-cu ildə ÜK(b)P Zaqafqaziya Vilayət Komitəsinin katibi seçilir. Daha sonra Mərkəzi Komitənin nəzdindəki Tarix İnstitutunda çalışır, Xalq Komissarlığında İncəsənət işləri üzrə idarənin müdiri vəzifəsini icra edir.

1920-1930-cu illərdə Ruhulla Axundov digər rəhbər işçilərdən dərin savadı ilə fərqlənirdi. O, kommunist ideologiyasının nəzəri əsaslarını köklü surətdə bilən nadir insanlardan idi. Təsadüfi deyil ki, Çarlz K.Mauzer «Zaqafqaziya haqqında qeydlər» kitabında yazırdı: «Azərbaycan revkomunun tərkibi son dərəcə tipikdir. Revkomun sədri tatar doktor Nərimanov təhsilə və dünyagörüşə malik yeganə adamdır. 29 yaşlı xalq təhsil naziri Bünyadzadə öz adını yazmağı da bacarmır. 22 yaşlı xarici işlər naziri Mirzə Davud Hüseynov kifayət qədər ağıllı olsa da, ixtisasca dənizçi köməkçisi idi. Əkinçilik nazirinin 25, xalq təsərrüfatı nazirinin 24 yaşı var – hər ikisi savadsız və səriştəsiz adamdır». Lakin Ruhulla Axundov haqqında bunların heç birini demək mümkün deyildi. O, çox savadlı idi və təəssüf ki, bu bilik və səriştə kommunist rejiminin güclənməsinə sərf edilib. Elə yeganə çatışmayan cəhəti də bu olub – kommunist ideologiyasına dərindən inanması.

«Kommunist» qəzeti Ruhulla Axundovun, Ruhulla Axundov isə bu qəzetin həyatında böyük rol oynamışdı. Qəzetə redaktorluq etdiyi 1922-1923-cü illər bu insanın ömrünün ən qaynar dövrlərindən olmuşdur. «Kommunist» adını daşıyaraq partiyanın qəzeti olsa da, bu mətbu orqan xalqa xidmət edirdi. Redaktor böyük gərginliklə çalışırdı. Nəticədə qəzetin fəaliyyət dairəsi genişlənir, o, Azərbaycanın siyasi, təsərrüfat və mədəni həyatına dərindən nüfuz edirdi. Redaktor olduğu dövrdə Ruhulla Axundov qəzetin ətrafına qələmli fəhlə-kəndli müxbirləri toplaya bilmişdi və onların yazılarına geniş yer verirdi.

1923-cü ilin sonunda qəzetin mininci nömrəsi işıq üzü gördü. Redaktor bu münasibətlə qəzetin 29 dekabr nömrəsində fərəhini gizlətməyərək yazırdı: «Kommunist» bu vaxtadək əlinə aldığı fikir bayrağını böyük fədakarlıqla yüksəltmiş və bundan sonra da Azərbaycan əməkçilərinin tərəqqi və inkişafı ilə yanyana genişlənib artacaq, ən şöhrətli işçi mətbuatı ilə bərabərləşib yorulmadan irəliləyəcək, dayanmadan yüksələcəkdir».

Onu respublikanın hər tərəfində tanıyır və sevirdilər. Bakı fəhlələri bu insan haqqında belə deyirdilər: «Alimdir, təmiz adamdır, əsl kommunistdir».

Azərbaycanda sovet hakimiyyətinin qurulmasının ikinci ildönümü münasibətilə «Kommunist»in 28 aprel 1922-ci il tarixli nömrəsində R.Axundov «Şərq qızılca ərəfəsində» adlı məqalə ilə çıxış edir: «Bu gün Şərq aləmi gözəl bilir ki, …siyasi mübarizə olmadıqca xilas olmaq fikrini heç fikrə gətirmək mümkün deyil. Bakı ənənələrinin həyat təcrübəsi Şərq zəhmətkeşlərini bu yolda tərbiyələndirmişdir… Şərqin gedəcəyi yol da Azərbaycan əmələlərinin (fəhlələrinin) və kəndçilərinin getmiş olduğu yol olacaqdır».

R.Axundov redaktorluqdan başqa vəzifəyə keçdikdən sonra da qəzetlə əlaqəsini kəsmir, burada öz vacibliyi və publisist dəyəri ilə fərqlənən, günün nəbzini tutan məqalələrlə çıxış edirdi.

Ruhulla Axundov inanılmış kommunist, sovet dövlətinə həmişə ləyaqətlə xidmət edən vəzifə sahibi olsa da, onun bütün səyləri öz xalqının rifahına və yüksəlişinə yönəlmişdi. Əslində,

tutduğu vəzifələr, malik olduğu səlahiyyətlər onun üçün Azərbaycan ədəbiyyatının, incəsənətinin, elminin, iqtisadiyyatının inkişafına çalışmaq yolunda bir vasitə idi. O, Azərbaycanın nailiyyətləri ilə fəxr edir, vətənini daha yüksək zirvələrdə görmək istəyirdi: «…Tarix Azərbaycanın öhdəsinə Yaxın Şərq zəhmətkeşlərinin avanqardı olmaq kimi bir vəzifə qoymuşdur. Avanqard olmaq – rəhbər olmaq, müəllim olmaq deməkdir. Bəs savadsız Azərbaycan lazımi mədəni səviyyəyə çatmadan Yaxın Şərq ölkələrinin rəhbəri ola bilərmi?»

R.Axundov hesab edirdi ki, Azərbaycan zəhmətkeşlərinin qarşısında duran ən mühüm vəzifələrdən biri savadlanmaq, elmə və biliyə yiyələnməkdir. O, səylə çalışırdı ki, şəhər və kəndlərdə yeni ümumtəhsil məktəbləri açılsın, kitablar nəşr olunsun, müəllim kadrları yetişsin. Xalq maarif komissarı işlədiyi dövrdə bu insan həmin işlərə böyük həvəslə rəhbərlik edirdi. 1929-cu ildə Azərbaycanda əlifba islahatı keçirilərkən, yəni ərəb əlifbasının latın əlifbası ilə əvəz olunmasında R.Axundovun böyük xidmətləri olub. Yeni Əlifba Komitəsinin orqanı olan «Yeni yol» qəzetinin səhifələrində xeyli məqalələrlə çıxış edib. Azərbaycan ədəbi dilinin inkişafına qayğı ilə yanaşıb, dilin saflığına, təmizliyinə çalışıb. Yeni əlifbanın tətbiqini böyük nailiyyət adlandırıb. Bütün bu tədbirlərdə həm xalq maarif komissarı, həm ictimai xadim, həm də vətənpərvər alim kimi fəal iştirak edib.

Ruhulla Axundov Azərbaycanda elm, ədəbiyyat və incəsənət sahəsində milli kadrların yetişdirilməsinə böyük məsuliyyətlə və qayğı ilə yanaşırdı. Yaradıcı gənclərin əksəriyyəti onun yaxından iştirakı ilə SSRİ-nin Moskva, Leninqrad (Sankt-Peterburq) və digər iri şəhərlərinə təhsil almağa göndərilirdi. Xalq yazıçısı Mirzə İbrahimov bunu belə xatırlayırdı: «Mən Naxçıvan MTS siyasi şöbəsində qəzet işindən qayıdaraq Leninqrada Şərqşünaslıq İnstitutuna oxumağa getmək istəyirdim. Elmlər Akademiyasının filialının kağızı lazım idi ki, məni ora götürsünlər. Kağıza Ruhulla Axundov qol çəkməli idi. O, qol çəkməmiş məni görmək istəmişdi. Mən güman edirdim ki, Ruhullanın işi çox olduğundan ayaqüstü

üzümə baxacaq, bir anket xasiyyətli söz soruşub ya kağıza qol çəkəcək, ya çəkməyəcək, bununla da bizim görüşümüz qurtaracaqdır. Lakin belə olmadı… Biz içəri girəndə ayağa durdu, qara iti gözləri ilə məni süzüb gülümsədi və əl verdi… «Mən çox sevindim ki, sən oxumağa gedirsən», – dedi və oturmağa yer göstərdi».

Yüksək dövlət vəzifələrində çalışmasına baxmayaraq, R.Axundov özünün incə zövqünə, ədəbiyyata olan marağına, daim incəsənətin qayğısını çəkmək ənənəsinə xilaf çıxmamışdı. Müasirlərinin fikrincə, onun dərin zəkasına, dünyagörüşünün genişliyinə, tükənməz enerjisinə qibtə etməmək mümkün deyildi. Gəncləri sevən, onlara qayğı ilə yanaşan görkəmli maarif xadimi və istedadlı alim Ruhulla Axundov bədii ədəbiyyat sahəsinə gələn gənclərin yaradıcılığına istiqamət verir, onları hər cür qərəzli hücumlardan qoruyurdu.

O, Azərbaycan ədəbiyyatı klassiklərinin və şifahi xalq ədəbiyyatının öyrənilməsində mühüm işlər görmüşdür. Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsinə hazırlıq dövründə onun əsərlərinin nəşri, «Koroğlu» dastanının toplanması və çapı, eləcə də dastanın ən nadir əlyazmasının o zaman Tacikistanda işləyən M.D.Hüseynovun köməyi ilə Azərbaycana gətirilməsi R.Axundovun ədəbiyyatımız qarşısında əvəzsiz xidmətləridir.

İllər keçəndən sonra Ruhulla öz sevimli müəlliminin qayğıkeşi olmuşdu. Bu barədə Abdulla Şaiq özü belə yazırdı: «Ruhulla Axundov Azərbaycan ziyalılarına xüsusi ehtiramla yanaşar, onlara böyük qayğı bəsləyərdi. Onlardan biri də mən idim. Mən ömrüm boyu bu nəcib tələbəmin mənə olan qayğıkeşliyini unuda bilmirəm. O, mənim həmişə çətin vaxtlarımda köməyimə gələn, məni həm müəllim, həm yazıçı kimi işə ruhlandıran dövlət işçilərindən olmuşdur».

Ruhulla Axundovun fəaliyyət dairəsi çox geniş idi. O, dövlət vəzifələrindən əlavə tərcüməçilik və alimliklə məşğul olmuşdu. Yeri gəlmişkən qeyd edək ki, R.Axundov ana dilindən başqa rus, fars, ingilis, fransız dillərini mükəmməl bilirdi. Marksın, Engelsin və Leninin əsərlərini Azərbaycan dilinə ilk dəfə tərcümə edənlərdən biri olmuşdu.

1920-1926-cı illərdə Ruhullanın rəhbərliyi ilə Azərbaycan dilində Leninin 26 əsəri 130,5 min nüsxə ilə çap olunur. 1927-1932-ci illər ərzində isə Marks və Engelsin 15 min tirajla 5 əsəri, Leninin 106 min nüsxə ilə 19 əsəri Azərbaycan dilində işıq üzü görür. 1928-1929-cu illərdə nəşr olunmuş ikicildlik rusca-azərbaycanca lüğətin redaktoru olur. Bundan əlavə, tarix, ədəbiyyat, incəsənət mövzusunda bir sıra dəyərli əsərlər yazır.

Ruhulla Axundovun həyatında maraqlı hadisələr çox olmuşdu. Bunlar onun xarakterinin bir çox cizgilərini açır. Məsələn, 1924-cü ilin sonlarında Azərbaycan Kommunist Partiyası və respublika hökuməti nəşriyyatların poliqrafiya bazasını möhkəmləndirmək, onları texniki avadanlıqla təchiz etmək barədə qərar qəbul edir. 1925-ci ildə poliqrafiya avadanlığı, ilk növbədə yeni şriftli linotiplər almaq üçün Ruhulla Axundov Nyu York, Paris, Berlin və Drezden şəhərlərinə ezam olunur. Onunla bərabər «Bakı fəhləsi» kooperativ nəşriyyatının idarə heyətinin sədri Lev Lifşits də xaricə gedir. Onlar Almaniyada nağd pula hazır şriftlər almaq istəyirlər. Lakin məlum olur ki, bu şriftlərdən istifadə etmək çətindir. Təzə şriftlərin hazırlanması isə yalnız Amerikada mümkün idi.

Amerikaya çatdıqda Ruhulla Axundovu həkim müayinəsindən keçirirlər və onun gözlərində traxoma xəstəliyi ortaya çıxır. Belə ki, Nyu Yorkda onun sahilə çıxmasına icazə verilmir, karantində saxlanılır. Ruhulla inadla öz məqsədinə çatmaq istəyir, odur ki, geriyə dönmür. Çünki işi yarımçıq qoymaq, məqsədinə yetməkdə zəiflik göstərmək Ruhullanın şəxsiyyətinə yad olan xüsusiyyətlər idi. Ona görə də Lifşits sovet ticarət nümayəndəliyinin əməkdaşları ilə birlikdə onların sifarişini yerinə yetirəcək bir firma tapır. Həmin firmanın işçisi R.Axundovla danışıqlar aparmağa gəlir…

Öz müasirlərinin xatirəsində bu insan xoş duyğularla yaşayırdı. O, 1927-1928-ci illərdə «İnqilab və mədəniyyət» jurnalının da redakoru olur. Jurnalın səhifələrində klassik Azərbaycan şairlərinin, folklor nümunələrimizin dərc olunmasına böyük diqqət yetirir. O dövrdə bu jurnalda məsul katib işləyən Süleyman Rüstəm öz xatirələrində yazırdı: «Mən Ruhulla

Axundovun mənzilində çox görkəmli alimləri, jurnalist, yazıçı və tərcüməçiləri görmüşəm. Xatirimə gələnlərdən: Tağı Şahbazi, Mehdi Hüseyn, Məmməd Arif, Mikayıl Rəfili, Nemət Bəsiri və başqaları…»

Xalq artisti Barat Şəkinskaya da onun nəcib bir insan olduğunu yazırdı: «37-ci ilin dəhşətlərini xatırlayanda ayaq üstə ölürəm. Əvvəl tanınmış inqilabçıları, siyasi xadimləri, sonra da məşhur ziyalıları – mədəniyyət, ədəbiyyat xadimlərini həbs etməyə başladılar. Onların arasında şəxsən mənim tanıdığım adamlar da az deyildi. İncəsənət İşləri İdarəsinin rəisi Ruhulla Axundov, Bakıdakı Dram Teatrının direktoru Əli Kərimov… O zaman nə baş verdiyini doğru-dürüst anlamaq o qədər də mümkün deyildi. Mənim bildiyim bu idi ki, Ruhulla Axundov çox xeyirxah və nəcib insan idi. Yerində ermənini əyləşdirdilər. Qəddarın, başkəsənin birini…»

Ruhulla Axundovun həyat və fəaliyyəti təzadlarla dolu idi. Çünki çətin bir dövrdə yaşayırdı. 1926-cı ildə S.M.Kirov SSRİ rəhbərliyinə çağırılır və Leninqrada vəzifəyə göndərilir. Həmin il Azərbaycanda MK-nın plenumu keçirilir və yeni rəhbərlik seçilir. Partiyaya rəhbərlik etmək Ə.Qarayevə, N.Ağaverdiyevə, L.Mirzoyana tapşırılır. Bu rəhbərliyə R.Axundov da daxil edilmişdi. Lakin bütün işlər əslində Mirzoyanın əlində idi.

1926-cı ildən Mirzoyanın göstərişi ilə Azərbaycanda din və milli adət-ənənələrə qarşı qızğın mübarizə başlayır. Bu kampaniya elə bir geniş miqyas alır ki, təkcə xalq kütlələrini deyil, artıq partiya rəhbərliyinin özünü də narahat edir. Günbəgün narazılıqlar artır.

Respublikada «Allahsızlar cəmiyyəti» yaradılmışdı və İslam dini ilə mübarizə aparır, dindarları təqib edirdi. Tarixi abidələr dağıdılır, məscidlər yerlə-yeksan olurdu. «Mübarizə» getdikcə güclənirdi. Kollektivləşmə dövründə «allahsızlar» daha da fəallaşmış və Mərkəzi Komitə 1929-cu ilin aprel ayında keçirilən plenumunda bu işlərin vüsətini artırmaq üçün xüsusi tapşırıqlar da vermişdi. Məhz bundan sonra cəmiyyət «Mübariz allahsızlar ittifaqı»na çevrilmişdi. Xalqın əsrlərlə qeyd etdiyi, insanların mənəvi dünyasında yer tutmuş, qanına-iliyinə

hopmuş Novruz, Qurban, Ramazan bayramlarının keçirilməsi qadağan olunmuşdu. Məscidləri bağlamışdılar, dindarları nəfəs dərməyə qoymurdular.

Hələ bu harası idi?! 1928-1929-cu illərdə çadra və milli başörtüyü olan papaqla da mübarizə başlanmışdı. Milli başörtüyündən istifadə edənlər ictimai yerlərdə görünməməli idilər. Onlar keçmişin qalığı və xalq düşməni sayılırdılar. Gənc komsomolçuları ortaya atıb onların vasitəsilə şlyapa və şapkanı təbliğ edirdilər. Gülünc bir şüar irəli sürülmüşdü: «Rədd olsun papaq!»

Bu gün etiraf etmək nə qədər çətin olsa da, deməliyik ki, həmin işlərin hamısı Ruhulla Axundovun rəhbərliyi ilə aparılırdı. Bu, bir tarixdir, faktdır, əslində heç təəccüb və müzakirəyə, qınağa ehtiyac da yoxdur. Bir daha vurğulayaq ki, bu insan bütün varlığı ilə o quruluşa, o cəmiyyətə inanırdı. Onun sadiq xidmətçisi, məmuru, bəlkə də əslində fanatiki idi (amma bir daha: çox təəssüf!).

20-ci illərin sonuna doğru partiya rəhbərliyində L.Mirzoyanın dəstəsinə qarşı qruplaşma yaranır. Ziddiyyətlər, çəkişmələr başlanır. Buna son qoymaq üçün Moskvada 1929-cu il iyulun 11-də «Azərbaycan məsələləri haqqında» qərar qəbul edilir. Üçlük N.Çikalo ilə əvəz olunur. Bundan sonra L.Mirzoyan, Ə.Qarayev, N.Ağaverdiyev və R.Axundov Çikalonu gözdən salmaq üçün güclü iş aparırlar (hərçənd ki, onlar Moskva qarşısında yeni rəhbərliyə mane olmamağa söz vermişdilər).

Beləliklə, 1930-cu il avqustun 5-də mərkəzdə «Azərbaycan məsələləri haqqında» ikinci qərar qəbul olunur. Azərbaycana cəmi bir il iki ay rəhbərlik edən Çikalo vəzifədən uzaqlaşdırılır. O, yeni şəraiti və yerli dili bilməməkdə, qolçomaqlara qarşı zəif mübarizə aparmaqda günahlandırılır.

Azərbaycana V.Polonski rəhbərlik etməyə başlayır. O, özündən əvvəl rəhbərlikdə olmuş bütün şəxsləri respublikadan uzaqlaşdırmağa qərar verir. Ruhulla Axundov da Azərbaycandan ÜİK(b)P Zaqafqaziya ölkə komitəsinin katibi vəzifəsinə məhz bu dövrdə göndərilir.

Həmin illərdə respublika rəhbərliyində tez-tez dəyişikliklərin olması xroniki hal alır. Yüksək səviyyəli azərbaycanlı kadr-

lar respublikadan mədəni şəkildə qovulur, rəhbər vəzifələrə əsasən ermənilər təyin olunurdu. Bu qərəzli, qəsdən düşünülmüş kadr siyasətini yerli əhali narahatlıq və narazılıqla qarşılasa da, mərkəzin qərarına qarşı çıxmaq mümkün deyildi.

1932-ci ilin sonunda Azərbaycan Dövlət Elmi-Tədqiqaqt İnstitutu əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsi yaradılır. Yenidən respublikaya qaytarılmış Ruhulla Axundov onun rəhbəri olur.

Bu dövrdə daxildə olan narazılığı bəzi qüvvələr Polonskiyə qarşı yönəldərək onun da respublikadan çıxarılmasına nail olurlar. Keçmiş rəhbərin yerinə erməni R.Ruben təyin edilir. Bu təyinatın reallaşdırılmasında S.Orconikidzenin böyük rolu olur. Ruben Azərbaycanda rəhbər vəzifədə 11 ay işləyir. 1933-cü ilin dekabrında L.Beriyanın yaxından köməyi ilə M.Bağırov Azərbaycan K(b)P MK-nın birinci katibi təyin edilir. Bununla da Azərbaycana rəhbərin qeyri-millətdən olması ənənəsinə son qoyulur.

Tarix elmləri namizədi Məhərrəm Zülfüqarlı Ruhulla Axundova həsr etdiyi məqaləsində həm onun həyatına, həm də o dövrün bir sıra məsələlərinə aydınlıq gətirir: «M.Bağırov hakimiyyətə gələndən sonra ona qarşı düşmən mövqedə olmuş rəhbər işçilərə, o cümlədən R.Axundova qarşı gizli planlarını tədricən həyata keçirməyə başladı. 1937-ci il iyunun 8-də «Pravda» qəzetində Riklinin imzası ilə «Düşmənin hiylələri» adlı məqalə dərc edilərək R.Axundova qarşı ağır ittiham irəli sürüldü. Məqalədə deyilirdi: «Trostkiçi və müsavatçı Ruhulla Axundov mədəniyyət cəbhəsində uzun zaman nəzarətsiz olaraq istədiyini edib. O, Elmlər Akademiyasının Azərbaycan filialının başçısı olmuş, İncəsənət İşləri Komitəsinə rəhbərlik etmiş, Yazıçılar İttifaqına ağalıq etmişdir. O, bütün təşkilat və idarələri öz adamları ilə, gizli və açıq düşmənlərlə «zibilləmişdir». Düşmənlər heç bir cəza görmədən öz trotskist, müsavatçı, pantürkist əsərlərini çap etdirmişlər. Onlar Azərbaycan ədəbiyyatını möhkəm qıfıl altında saxlayaraq yeni adamları, xalqa və partiyaya sadiq adamları ədəbiyyata yaxın buraxmamışlar». Bütün bunlar R.Axundovun ünvanına yazılan güclü it-

tihamlar idi. Məqalədə gənc şairlər Səməd Vurğun və Süleyman Rüstəmin də ünvanına böhtanlar yağdırılmışdı: «İki qrup öz aralarında didişir. Bu didişmə yaramaz, prinsipsiz, zərərli didişmədir. Vurğunla Rüstəm vuruşur, üçüncüsü isə gülür…»

1937-ci il oktyabrın 26-da Şamaxı şəhərində «Əksinqilabçı, üsyançı, casus-terrorçu, təxribatçı-ziyançı, burjua-millətçi təşkilat»ın mühakiməsi başlanır. İttiham olunan çoxlu sayda rəhbər işçilər arasında R.Axundov da var idi».

Tarixçi qeyd edir ki, bu uydurma «təşkilat»ın işi ilə bağlı 1700 nəfər insan, o cümlədən 20 xalq komissarı və müavini, 34 rayon icraiyyə komitəsinin sədri, 52 rayon katibi, 8 professor və digərləri cəzalandırılıb.

Bəli, xalqın bu ziyalı oğulları cərgəsində Ruhulla Axundovun adı öndə gedirdi. Ədəbiyyatşünas, publisist, alim Vəli Xuluflu haqqında yazılan məqalələrin birində deyilir ki, Sovet hökumətinin Azərbaycandakı cəlladları Az. FAN-a rəhbərlik edən Ruhulla Axundovun həbsini qabağa saldılar. «Onun ziyalılar arasında böyük nüfuzu vardı. Ruhullanın tutulmasını çoxları özünə xəbərdarlıq kimi qəbul etdi. Kimisi tez, kimisi gec «qırmızılar»ın qan çanağında boğulacaqdı. Vəli Xulufluya isə, yəqin ki, uzun müddət gözləmək lazım gəlməyəcəkdi. Çünki o, Ruhullanın yaxın dostlarından biri idi…» *(«El» jurnalı, 5 dekabr 2012).*

Bu fikir çox mətləbləri açır: həm o dövrün faciələrini, hakimiyyətdə oturmuş dövlət quldur dəstələrinin vəhşiliklərini, həm ölüm maşınının ziyalılara doğru çevrilmiş amansız üzünü, həm də cəza tədbirlərinin tüğyan etdiyini…

O, 1936-cı il dekabrın 17-də «Əksinqilabçı, millətçi təşkilat»ın 12493 saylı işi üzrə həbs olunur. Həmin gün partiya sıralarından uzaqlaşdırılır, dekabrın 29-da tutduğu bütün vəzifələrdən azad edilir, Az.MİK-in üzvlüyündən çıxarılır. 1937-ci ilin sentyabrında onun cinayət işi Moskvaya göndərilir. R.Axundovun istintaqını əvvəllər elm, ədəbiyyat xadimlərinin cinayət işinə baxan L.S.Altman aparır. Ziya Bünyadov «Qırmızı terror» kitabında yazırdı: «Azərbaycanda DTK-nın ermənilərdən ibarət olan rəhbərləri «müəyyən etdilər» ki, təşkilatın

başçıları R.Axundov, Ə.Qarayev… və başqaları idilər. Söhbət hansı gizli təşkilatdan gedirdi? Guya bu antisovet üsyanı qaldıracaq rəhbərlərdən biri Ruhulla Axundov gələcək Azərbaycan Burjua Demokratik Respublikasının prezidenti olmalı idi. Beləliklə, Ruhulla Axundov (bir vaxt Lenin ordenli kommunist) həbs edilərək zindana atılır. «Yan»ların göstərişinə əsasən dustaqlardan lazım olan ifadəni almaq üçün onlara işgəncə verilir, vəhşicəsinə döyür və başqa iyrənc vasitələrə əl atırdılar. «…Təşkilatınıza daxil olanların adlarını desən, əvəzində nə sənə, nə də ailənə toxunulacaq». Bu minvalla Ruhulla Axundovdan bir müddət «şahid» kimi istifadə etməyə çalışıblar. Döyülmə və işgəncələrdən havalanan Ruhulla Axundov hətta tanımadığı adamlara da «mənim təşkilatımın ən fəal üzvüdür» demək zorunda qalırdı. Bir canlı kimi nəfəsini və varlığını itirənə qədər Ruhulla Axundova zülmlər ediblər».

Guya R.Axundov İngiltərənin, Almaniyanın və Türkiyənin casusu olub, «qiyamçı qərargaha» başçılıq edib, K.E.Voroşilova qarşı baş tutmayan terror aktına rəhbərlik edib.

O, Ali Məhkəmənin Hərbi Kollegiyasının qərarı ilə ölüm hökmünə məhkum edilir. Güllələnir və NKVD-nin gizli poliqonu olan «Kommunarka-Laza»da dəfn olunur. Ölümündən sonra bəraət alır və 1959-cu ildə sədaqətlə xidmət etdiyi, lakin ona düşmən kəsilən partiyaya üzvlüyü bərpa edilir.

«Bu dünyada kəskin bir silah varsa, o da leninizmdir, bir zəfər bayrağı varsa, o da leninizm bayrağıdır. Tarixin bundan sonra açılacaq bir səhifəsi varsa, o da sosializm səhifəsidir» demişdi Ruhulla Axundov. Elə bu əqidənin və inamın da qurbanı oldu.

NİKBİN NƏĞMƏLƏRİNDƏ SİYASİ MOTİVLƏR «TAPDILAR»

Azərbaycanın ilk peşəkar qadın pianoçusu repressiya qurbanı oldu

Xədicə Qayıbova Azərbaycanın ilk peşəkar qadın pianoçusu idi. Muğamlarımızı yüksək sənətkarlıqla ilk dəfə fortepianoda ifa etmiş, xalq mahnıları əsasında improvizələr yaratmışdı. O, ötən əsrin 20-ci illərinin əvvəllərindən açıq konsertlər verir, müəllimlik edir, musiqi sahəsində böyük təşkilatçılıq işləri aparırdı. Lakin əsrin 30-cu illərində Stalin rejiminə qulluq edən məmurlar, əslində isə həmin rejimin nökərləri bu xanıma elə bir amansız damğa vururlar ki, indi yeni nəsillər onu pianoçudan daha çox repressiya qurbanı kimi tanıyırlar.

O dövrdə hakimiyyət kürsülərində özlərinə yer tutmuş tarixi düşmənlərimizin – ermənilərin nümayəndələrinin əlinə fürsət düşmüşdü. Onlar qəddar siyasi rejimin ab-havasından bəhrələnərək azərbaycanlıları addımbaşı zərbələrlə qarşılayırdılar.

1938-ci il martın 16-da Azərbaycan Xalq Daxili İşlər Komissarlığı Dövlət Təhlükəsizlik İdarəsinin birinci bölməsinin 3-cü şöbə rəisinin müavini leytenant Tevosyan belə bir arayış hazırlayır: «Türk və ingilis qərargahları Bakıda olduqları zaman 1893-cü ildə anadan olan, Azərbaycan Dövlət Konservatoriyasının keçmiş müəllimi Xədicə xanım Qayıbova onlarla yaxın əlaqədə idi, həmin qərargahların zabitlərini evinə qonaq çağırırdı.

Azərbaycanın sovetləşməsindən sonra Qayıbova öz evində «Müsavat» firqəsinin liderlərindən olan Mustafa Vəkilovu gizlətmişdir. Vəkilovu həbs etməyə gələndə Qayıbova ona qaçmaq üçün imkan yaratmışdı. Vəkilov xaricə qaçıb və indi Türkiyədədir.

Xədicə Qayıbova

1924-cü ildə Qayıbovanın evində türk ordusunun zabiti, azərbaycanlı Sultan Hüseynzadə gizlənirdi. Qayıbovanın evindən o, İrana qaçıb və orada alman və yapon kəşfiyyatlarına xidmət edir.

Əksinqilabi-millətçi təşkilatın rəhbərlərindən biri – Ə.Fərəczadənin 1937-ci il iyulun 17-də verdiyi ifadədən görünür ki, Türkiyə kəşfiyyatının agenti Dadaş Bünyadzadə həmin kəşfiyyatla əlaqəsini Qayıbova Xədicə xanımın vasitəsilə saxlayırdı.

Qayıbovanın həyat yoldaşı Rəşid Qayıbov Azərbaycan SSR XDİK tərəfindən əksinqilabi-millətçi təşkilatın üzvü kimi həbs edilmişdir.

1933-cü ildə X.Qayıbova casusluqda təqsirləndirilərək Azərbaycan Dövlət Siyasi İdarəsi tərəfindən həbsə alınmışdı, amma ittiham sübut olunmadığı üçün azad edilmişdi.

Yuxarıdakılara əsasən X.Qayıbova həbs olunub Azərbaycan SSR CM-in 68-ci maddəsinə görə istintaqa cəlb edilməlidir».

Halbuki hər şey tamamilə başqa cür idi. 1930-cu illərdə istedadlı pianoçu Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki Elmi-Tədqiqat Musiqi Kabinetində peşəkar fəaliyyət göstərirdi. O, xalq mahnılarının, muğam və dastanların toplanması ilə məşğul olurdu.

Xədicə Qayıbova çox nikbin, insanlarla ünsiyyət qurmağı bacaran, xeyirxah təşəbbüslərlə çıxış edən bir xanım idi. Xarakterindəki bu keyfiyyətlər ona böyük hörmət gətirirdi. O tez-tez öz evində musiqi məclisləri təşkil edirdi. Belə ki, bura əsl musiqi ocağına, Xədicə xanım isə musiqi salonunun sahibinə çevrilmişdi.

Erməni leytenantın arayışında göstərilirdi ki, bu salona guya sovet dövlətinin və xalqının düşmənləri, müsavatçılar,

pantürkistlər toplaşırdı. Amma o, səhv edirdi. Bura dövrün ən qabaqcıl insanları – ziyalılar, musiqiçilər, şair və yazıçılar, elm xadimləri, aktyorlar yığışırdılar. Xədicə xanım həmin məclislərdə Azərbaycan milli musiqisinin gələcəyi, xalq nəğmələrinin mühafizə olunması, qadın musiqiçilərin təhsil imkanları haqqında müzakirələr keçirirdi. Bu, öz missiyasını dərk edən o dövrün Azərbaycan ziyalısının parlaq fəaliyyəti sayılırdı. Qonaqlar arasında dövlət xadimləri, Bakıya qastrol səfərinə gələn ifaçılar, xarici ölkələrin, xüsusilə Türkiyənin ezamiyyətdə olan alimləri, şairləri var idi. Əgər həmin məclislərə Üzeyir Hacıbəylinin, F.Köprülüzadənin, R.Qliyerin, L.Rudolfun, L.Abın, M.Pressmanın, H.Sarabskinin, Bülbülün, İ.Hikmətin, V.Qorovitsin, N.Milşteynin və dövrün neçə-neçə digər ziyalısının, incəsənət xadiminin də gəldiyini desək, onda buranın nə qədər işıqlı, bütün qaranlıq fikirlərdən uzaq, mütərəqqi bir yer olduğu daha aydın görünər.

Xədicə xanım özü belə deyirdi: «Azərbaycanda sovet hakimiyyətinin qurulmasının birinci günündən mən incəsənət və musiqi sahəsində işləyirdim. Xalq Maarifi Komissarlığı nəzdində olan Şərq musiqisi adlı şöbəyə müdir təyin olundum. Şərq Konservatoriyasını yaratdım və oraya bütün peşəkar musiqiçiləri dəvət etdim. Həmin musiqiçilər elə o zaman təşkil olunan Şərq orkestrinə daxil oldular. Sonra türk qadınları üçün musiqi-dramatik studiya açıldı ki, burada səhnə üçün türk qadınlarından kadrlar hazırlanmalıydı.

Studiyanın işi dəyişəndən sonra mən yaradıcı işlə məşğul olub konsertlər verdim və musiqinin əsaslarını da mükəmməl öyrənmək məqsədilə 1927-ci ildə konservatoriyanın nəzəriyyə və kompozisiya sinfinə daxil oldum. Eyni zamanda konsert verir, Teatr Texnikumunda dərs deyirdim. 1934-cü ildən konservatoriyada elmi-tədqiqat işi aparırdım».

Belə şəffaf bir həyat yaşamasına baxmayaraq, Xədicə xanım 1933-cü ildə hüquq-mühafizə orqanları tərəfindən şübhəli şəxs kimi casusluqda ittiham olunaraq üç ay müddətinə həbs edilir. Onu əksinqilabi fəaliyyətdə və türkçülük ideyalarını yaymaqda günahlandırırlar. Lakin bunu təsdiq edən heç bir sübut tapılmır və Xədicə xanım həbsdən azad olunur.

X.Qayıbovanın acınacaqlı və faciəli taleyinə akademik Ziya Bünyadovun, akademik Rafael Hüseynovun, G.Mirzənin və Bakı Musiqi Akademiyası Musiqi tarixi kafedrasının professoru Fərəh Əliyevanın araşdırmaları işıq tutur. Belə ki, Xədicə xanım 1893-cü il mayın 24-də Tiflis şəhərində dünyaya göz açmışdı. Atası, tanınmış din xadimi Osman Müftizadə el arasında böyük hörmət və nüfuz sahibi idi. Anası Züleyxa xanım Terequlovlar nəslindən idi. Valideynləri çox arzulayırdılar ki, altı uşağın ilki olan Xədicə təhsilli bir xanım olsun. Onlar öz imkanları daxilində bu arzunu həyata keçirməyə çalışırdılar. Odur ki, Qafqaz canişinliyinə qızlarını dövlət hesabına oxutdurmaq üçün ərizə göndərilməsinə nail olurlar və Xədicə püşkatma yolu ilə Tiflisdəki «Müqəddəs Nina» qızlar məktəbinə daxil olur.

İstedadlı qız burada fortepianoda çalmağı öyrənir, musiqi nəzəriyyəsinə yiyələnir. L.N.Knini və Truskovskidən dərs alır.

1911-ci ildə Xədicə təhsilini başa çatdırır və həmin il çox gənc ikən yol mühəndisi Nadir Qayıbovla ailə həyatı qurur. Nadir Qafqaz müftisi məşhur Mirzə Hüseyn Əfəndi Qayıbzadənin oğlu idi. Həmin Mirzə Hüseyn Qayıbzadə ki, «Məşhur Azərbaycan şairlərinin şeirləri» adlı ilk dördcildlik toplumun müəllifi idi. O, həmçinin Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin açılmasının təşəbbüskarlarından biri olmuşdu. Yeri gəlmişkən qeyd edək ki, ərəb və fars dillərini gözəl bilən Hüseyn Əfəndi seminariyanın ilk illərində müəllim kadrlarına olan böyük ehtiyacı nəzərə alıb həmin dillərdən dərs demişdi. O, seminariyadan aldığı əlavə əməkhaqqı hesabına 43 tələbəni öz himayəsində oxutdurmuşdu. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, həmin təhsil ocağını Qayıbov soyadlı 20 gənc bitirmişdi. Belə ki, 1879-cu ildə açılan bu şöbə təxminən 40 illik fəaliyyəti dövründə Ü.Hacıbəyli, C.Məmmədquluzadə, M.Maqomayev, N.Nərimanov, F.Köçərli kimi 350-yə yaxın görkəmli ziyalı vermişdi. Mirzə Hüseyn Qayıbzadə əqidə baxımından özündən fərqli olan, ateist, mütəfəkkir, dövrünün görkəmli maarifpərvər ziyalıları M.F.Axundzadə və məşhur gürcü şairi İlya Çavçavadze ilə

dostluq etmiş, bir sıra ictimai və mədəni problemlərin həllində onlarla həmfikir olmuşdur.

Hüseyn Əfəndinin Azərbaycan qadınlarının təhsili, tərbiyəsi sahəsində fəaliyyəti də xüsusilə təqdirəlayiqdir. O, bu yolda böyük əmək sərf etmiş, qızların yeni məktəblərdə təhsil almalarına təşəbbüs göstərmiş, hətta öz həyat yoldaşı Səadət xanıma «Qafqaz qadınlarının xeyriyyə cəmiyyəti»ndə iştirak etməyə icazə vermiş, övladları Nigar (sonralar general Əliağa Şıxlinskinin həyat yoldaşı) və Gövhəri (sonralar general İbrahim Usubovun həyat yoldaşı) rus dilində Tiflis Nücabə Qızlar İnstitutunda oxutmuşdur. Belə bir ailəyə düşən Xədicə xanım həyat yoldaşının soyadını götürür. Həm Müftizadələrin, həm də Qayıbzadələrin maarifçilik ənənələri, ailələrin və çevrənin mədəni mühiti Xədicə xanımın dünyagörüşünə və şəxsiyyətinin formalaşmasına böyük təsir göstərir.

X.Qayıbova Tiflisdə bir müddət müəllimlik edərək tatar, yəni Azərbaycan məktəbində dərs deyir. 1919-cu ildə isə onlar ailəliklə Azərbaycana köçürlər. Xədicə xanım tezliklə Bakının mədəni həyatına qatılmağa başlayır. Qadın sənətçilərin az olduğu Bakıda qısa müddətdə şöhrətlənir, kübar məclislərində iştirak edir. «İsmailiyyə»də düzənlənən konsertlərdə muğamlarımızı, xalq mahnılarını fortepianoda böyük məharətlə çalır, hamının rəğbətini qazanır. Deyirlər, Hacı Zeynalabdin Tağıyevin Xədicə xanıma xüsusi hörməti var imiş. Hətta ona üstündə öz inisialı olan bahalı çini çay və yemək dəsti və çox qiymətli brilyant qaşlı üzük də bağışlayıbmış… (R.Hüseynov). Sovet dövründə X.Qayıbova musiqi mədəniyyətinin inkişafında daha fəal iştirak etməyə başlayır, pedaqoji sahədə bir çox layihələrə imza atır. 1920-ci ilin əvvəllərində Xalq Maarifi Komissarlığında Şərq musiqisi şöbəsinin müdiri təyin olunur. Elə həmin il onun təşəbbüsü ilə qadın musiqi müəllimləri hazırlamaq üçün «Qısamüddətli Şərq musiqi kursları» açılır, uşaq xoru yaradılır. İstedadlı xanım 1927-ci ildə ali musiqi təhsili almaq üçün Azərbaycan Dövlət Konservatoriyasının Nəzəriyyə və kompozisiya fakültəsinə daxil olur. Dövrün tanınmış sənətkarı L.Abdan musiqi nəzəriyyəsi və bəstəkarlıq dərsi alır.

X.Qayıbova Bakıda ilk Türk Konservatoriyasının yaradıcısı olur. Həmin dövrdə qadınlar üçün Musiqili Dram Teatrının açılması da onun xidmətləri sırasındadır.

Xədicə xanım iki dəfə ailə həyatı qurmuşdu. İstər əvvəlki, istərsə də sonrakı həyat yoldaşı dövrün ziyalı insanları olmuşlar. Yazılanlara görə, birinci ailəsi tez dağılmışdı. İkinci həyat yoldaşı – Rəşid Qayıbovu isə ictimai-siyasi fəaliyyətində dövlət əleyhinə iş aparılması və əksinqilabi-millətçi təşkilatın üzvü kimi 1937-ci ilin noyabrında həbs etmişdilər. O da repressiya qurbanlarından olmuşdur. Lakin tale X.Qayıbovaya bir cüt gözəl övlad payı vermişdi. O, axırıncı dəfə həbs olunarkən oğlu Əbdülkərim 23, qızı Alanqu 11 yaşında idi.

Bu zaman 45 yaşlı Xədicə xanım Şah döngəsindəki 16 nömrəli evdə yaşayırdı. Bax ömrünün belə çiçəklənən bir dövründə, 1938-ci il martın 17-də Dövlət Təhlükəsizlik İdarəsi onu 4390 nömrəli orderə əsasən həbs edir (ikinci əri Rəşid bu vaxt artıq həbsdə idi). Qızı Alanqu xanım həmin günü belə xatırlayır: «Gecə gəlmişdilər. Səs-küyə ayıldım. Anam həmin gəlişə nə qədər hazır olsa da, sarsılmışdı. Rəngi ağappaq idi. Bibim Nigarın əri general Şıxlinski qardaşım Əbdülkərimə gözəl bir şaşka bağışlamışdı. Əsl sənət əsəri idi. Divardan, xalçanın üstündə asılmışdı. Onu da götürdülər».

Beləliklə, bir neçə gündən sonra Qayıbovanın istintaqı başlanır. Martın 20-də keçirilən birinci dirdirmədə müstəntiq Xədicə xanımın əksinqilabi fəaliyyətlə məşğul olduğunu, türkçülük ideyalarının yayılması yönümündə xüsusi iş apardığını söyləyir. O, bu ittihamı qəti şəkildə rədd edir. Sonra müstəntiq xaricdə yaşayan qohumları, tanışları barədə soruşur. Müttəhim Xədicə xanım belə cavab verir: «Qardaşım Məmməd Müftizadə. O, Türkiyəyə 1917-ci ildə gedib, hazırda heç bir əlaqəm yoxdur. 1922-1923-cü illərdə Bakıda İran konsulu olan Məmmədxan, indi o haradadır, bilmirəm. Müsavatın zabiti Sultan Hüseynzadə 1925-ci ildə gizli şəkildə İrana qaçıb. İndi nə ilə məşğuldur, bilmirəm». 1938-ci il martın 23-də keçirilən ikinci dindirmədə ondan türk və ingilis qoşun zabitlərindən kimləri tanıdığı barədə ifadə verməkdə israr edirlər. O, türk qoşunla-

rının rəhbərlərindən Xəlil paşanı, onun adyutantı Cavad bəyi və təyyarəçi zabit Əşrəf Temuçini tanıdığını söyləyir. Xədicə xanım müstəntiqin türk zabitləri ilə tanışlığın hansı mahiyyət daşıdığı barədə sualına qısa və aydın şəkildə cavab verir: «Xəlil paşa dəfələrlə bizim evə gəlib. Məni onunla qardaşım Məmməd Müftizadə tanış edib. Cavad bəyi Xəlil paşa vasitəsilə tanımışam. Təyyarəçi zabit Əşrəf Temuçinlə tanışlığımız indi xalq düşməni kimi ifşa edilən Çingiz İldırım vasitəsilə olmuşdu… General Əliağa Şıxlinski, general İbrahim Usubov mənim keçmiş ərimin qohumlarıdır».

Qeyd edək ki, müsavat zabiti Sultan Hüseynzadə vaxtilə bu gözəl xanımın pərəstişkarı olmuş, onu bir neçə dəfə teatra dəvət etmişdi. İstintaqda bu insanlar haqqında da müttəhim xeyli sorğu-suallara cavab vermişdi.

Sovet hakimiyyəti qurulduqdan sonra Qayıbova öz evində 10-15 gün «Müsavat» firqəsinin və hökumətinin liderlərindən biri – Mustafa Vəkilovu gizlətmişdi. Onun Azərbaycandan getməsinə də bu qadın kömək etmiş və bunda özünün günahkar olduğunu söyləmişdi.

Bütün bunları Xədicə Qayıbova istintaqda özü açıb danışır. Lakin bu şəxslərlə əlaqələrində hökumət əleyhinə heç bir siyasi motivlərin olmadığını söyləyir və dəfələrlə təsdiq edir. Əvvəlki dindirmədə adları çəkilən Dadaş Bünyadzadə, Həmid Sultanov və arvadı, Əliheydər Qarayev və başqaları ilə yalnız işlə və incəsənətlə bağlı münasibətləri olduğunu deyir. İstintaq materiallarına görə isə guya Dadaş Bünyadzadə və digərləri casusluq məqsədilə Xədicə xanıma xüsusi tapşırıqlar verir və onun vasitəsilə Türkiyə kəşfiyyatı ilə əlaqə saxlayırmışlar. O isə bütün bu ittihamları israrla rədd etmişdi.

Diqqəti çəkən cəhət budur ki, bu möhkəm iradəli xanım istintaq zamanı düzü düz, əyrini əyri danışır. Onun boynuna yalan qoya bilmirlər. Elə birinci dindirmədə müstəntiq ondan soruşur: «İstintaq müəyyən edib ki, əksinqilabi fəaliyyətlə məşğul idiniz. Özünüzü müqəssir bilirsinizmi?» Cavab verir ki, heç bir əksinqilabi fəaliyyətlə məşğul olmayıb və özünü müqəssir bilmir.

Müstəntiq onun yalan danışdığını deyir və təkid edir ki, düzgün cavab versin. Xədicə xanım yalnız bunu söyləyir: «Mən axıradək öz cavabımı təsdiq edirəm».

Sonralar da əksinqilabçı kimi fəaliyyət göstərmədiyini, casusluqda əli olmadığını, heç bir xarici kəşfiyyatla əlaqə saxlamadığını dönə-dönə vurğulayır, müstəntiqlərin ona şər, böhtan atdıqlarını onların üzlərinə vurur. Bununla belə, etiraf edir ki, zabit Sultan Hüseynzadənin həbsdən azad olunması üçün Əliheydər Qarayevə və Mirzə Davud Hüseynova müraciət edib. 1925-ci ildə həbs olunmuş tanışı, «Kommunist» qəzetinin əməkdaşı Yusifzadənin həbsdən buraxılmasını isə Mircəfər Bağırovdan xahiş edib. Təbii ki, onun bu istəklərinə əməl olunmayıb. Tədqiqatçıların yazdıqlarına görə, Mircəfər Bağırov Xədicə xanımı şəxsən tanıyırmış və onun özünün, sənətinin pərəstişkarı imiş. Ona görə də birinci həyat yoldaşı Nadir Qayıbovu iki dəfə tutub-buraxırlar. Ərindən ayrılır. 1934-cü ildə ikinci dəfə dövrünün tanınmış ziyalısı Rəşid Qayıbovla ailə qurur. R.Qayıbov 1930-cu illərdə Şamxorun (Şəmkir) birinci katibi vəzifəsində işləyir. Onu da 37-ci ildə tutub, sonra güllələyirlər. Nəhayət, 1938-ci ildə X.Qayıbovanın özünü həbs edirlər. Beləliklə, Xədicə xanımı nə az, nə çox – doqquz dəfə dindirirlər. Onun bütün tanışları, qardaş-bacısı barədə danışıqlar gedir, hər biri ilə münasibətləri saf-çürük edilir.

1938-ci il aprelin 5-də keçirilən beşinci dindirmədə müstəntiq Xədicə Qayıbovaya deyir:

– İstintaq müəyyən edib ki, bir xarici dövlət mənafeyinə casusluq edirsiniz.

Cavab qısa və konkret olur:

– Bu, yalandır. Mən casusluqla heç vaxt məşğul olmamışam.

Lakin müstəntiq cavabla kifayətlənməyib bu xanımın boynuna mütləq casusluq ittihamını qoymağa cəhd edir. Sual-cavab belə xarakter alır:

– İstintaq müəyyən edib ki, xarici kəşfiyyat nümayəndələrindən birisi – Dadaş Bünyadzadə sizin vasitənizlə bir xarici dövlətin kəşfiyyatı ilə əlaqə saxlayırdı.

– Bu, yalandır. Mən heç vaxt Dadaş Bünyadzadədən xarici kəşfiyyatla əlaqədar tapşırıqlar almamışam.

– Belə hal olubmu ki, müəyyən xarici dövlətin adamlarına ötürmək üçün Dadaş Bünyadzadə sizə ayrı-ayrı göstərişlər versin?

– Yox, heç vaxt. Mənim 1926-cı ildən xarici konsulxanaların əməkdaşları ilə heç bir əlaqəm olmayıb.

1938-ci il aprelin 28-də keçirilən sonuncu dindirmədə müstəntiq yenidən bu mövzuya qayıdır. O, təkid edir:

– Sizə ikinci dəfə təklif edilir ki, bir xarici dövlətin kəşfiyyat agenti kimi siz öz praktiki casusluq fəaliyyətiniz haqqında müfəssəl danışasınız.

Cavab həmişəki kimi yenə də qəti olur:

– Mən heç vaxt kəşfiyyat agenti olmamışam və casusluq da etməmişəm.

Xədicə xanım sonralar da D.Bünyadzadənin Türkiyə ilə heç bir əlaqə saxlamadığını və ona heç vaxt tapşırıq vermədiyini söyləyir. Bununla belə, onu məhz bu işdə təqsirləndirirlər. Çünki 1937-ci il iyulun 17-də müttəhim Əsgər Fərəczadə dindirilərkən belə bir ifadə vermişdi: «Dadaş Bünyadzadə Türkiyə kəşfiyyatçısı ilə əlaqəsini öz şəxsi katibi Muravyov və Xədicə xanım Qayıbovanın vasitəsilə həyata keçirirdi».

Xədicə xanımın özünün dediyinə görə, həyat yoldaşı Şamxorda birinci katib işləyəndə Ə.Fərəczadə Azərbaycan Kommunist Partiyasının tədarük müvəkkili olub. Qeyd edək ki, Ə.Fərəczadə özü də «xalq düşməni» kimi güllələnib. Əlbəttə, o, D.Bünyadzadənin də, Muravyovun da, Xədicə xanımın da adlarını güclü təzyiq altında çəkib… Əslində isə Dadaş Bünyadzadə heç bir dindirilmədə musiqiçinin adını çəkməmişdi. Lakin bütün bunlara baxmayaraq, 1937-ci ildə Xədicə Qayıbova «satqın və casus ovu»nda ideal hədəf idi. O zaman X.Qayıbovanın adı müstəntiqlərin diktəsi ilə başqa tutulanların da yadına düşür. R.Axundov guya Əli Kərimovun sözlərindən sonra Xədicə Qayıbovanın əksinqilabi casusluq fəaliyyətini qeyd edir. B.Çobanzadə yenə də guya Zeynallının dediklərini xatırlayır və istintaqa belə məlumat verir: «Zeynallı mənə həm də deyirdi: əksinqilabi-millətçi təşkilat Xədicə Qayıbovanın türk əlaqələrindən də istifadə edir. «İttihad və Tərəqqi» partiyasının

lideri Şükrü bəy Azərbaycan SSR-dən yolüstü keçərkən Qayıbova ilə görüşmüşdür…»

X.Qayıbovanın işi üzrə istintaqın qurtarması haqqında protokol 1938-ci il mayın 7-də tərtib edilir. Ertəsi gün isə müstəntiq Tevosyan 23311 nömrəli istintaq işi üzrə ittihamnamə yazır. Qayıbova Azərbaycan SSR Cinayət Məcəlləsinin 68-ci maddəsi ilə müqəssir hesab olunur.

Xədicə xanım 6 ay həbsxanada saxlanılır. Lakin heç vaxt ağlına belə gətirmir ki, onu güllələyə bilərlər. Həbsxanada digər dustaq qadınlar da vardı. S.M.Əfəndiyevin həyat yoldaşı Zivər xanım öz xatirələrində belə yazır: «Dustaqxana qadınlarla dolmuşdu. Onlar ərlərinə görə tutulmuş vəzifəli şəxslərin, hərbçilərin arvadları idilər. Mənim olduğum kamerada gözəl musiqiçi Xədicə xanım Qayıbova və 30 nəfərdən çox başqa qadınlar da vardı. O, çox iradəli qadın idi. Özünü şux aparır, hərdən zümzümə edib mahnı oxuyur, rəqs edirdi. Bir dəfə belə dedi: «Mən incəsənət adamıyam. Mənim musiqi dünyam yasa batıb. Gərək özümü qoruyam, sarsılmayam. Eybi yoxdur, lap sürgünə də göndərsələr, məhv olan deyiləm. Orada da musiqi klubu düzəldib rəqs edəcəyəm, oxuyacağam, çalacağam. Qoy onlar sevinməsinlər».

Yarım ildən sonra qərar çıxarılır ki, Xədicə Osman qızı Qayıbova Türkiyə konsulxanası ilə əlaqəsinə və casusluq fəaliyyətinə görə güllələnsin, şəxsi əmlakı müsadirə edilsin. Qərarı DTK-nın Birinci Xüsusi şöbəsinin rəisi leytenant Şevçenko imzalayır. X.Qayıbovanın məhkəməsi 15 dəqiqə çəkir. Hökm 1938-ci il oktyabrın 27-də icra edilir.

Xədicə xanımın övladları və qohumları onun güllələndiyini düz 16 il sonra bilirlər. O vaxta qədər isə ailə elə düşünüb ki, ona məktublaşmadan məhrum olaraq 10 il həbs cəzası verilib. Ölkədə, necə deyərlər, nisbətən «sular durulduqdan, qara pərdələr götürüldükdən sonra», yəni artıq 1954-cü ildə Xədicə xanımın qızı Alanqu Sultanova Azərbaycan SSR Daxili İşlər Nazirliyinə anasının işi ilə bağlı müraciət edir. 1955-ci ildə isə Dövlət Təhlükəsizlik Komitəsinin Xüsusi şöbəsinin baş müstəntiqi repressiya qurbanının qızına cavab göndərir. La-

qeydlik, soyuqqanlılıq, biganəlik hopmuş bir neçə cümlə ilə bildirilir ki, X.Qayıbovanın heç bir günahı yox imiş, o, Ə.Fərəczadənin verdiyi yoxlanılmamış və yalan ifadələr əsasında cəzalandırılıb. Bu ifadələr isə D.Bünyadzadənin işində olan sənədlərdə öz təsdiqini tapmayıb. X.Qayıbovanın casusluğunu göstərən heç bir material əldə edilməyib və buna görə də iş xətm olunmalıdır. 1956-cı ildə qızına X.Qayıbovanın bəraət alması haqqında arayış verilir.

Bəraət vermək asan, vurulan yaraları sağaltmaq isə çox çətindir. Belə ağır mənəvi və fiziki zərbələrdən biri də Stalin repressiyalarının, ona dəstəkçi olan erməni məmurların, müstəntiqlərin əli ilə saf duyğulu, təmiz əxlaqlı azərbaycanlı qızı, görkəmli pianoçu Xədicə Qayıbovaya, onun nəslinə vuruldu.

Xədicə xanımın pianosundan qopan şaqraq notlarda, nikbin akkordlarda siyasi motivlər axtardılar və «tapdılar». Beləliklə, bu, bir ailəyə, bir nəslə deyil, incəsənətimizə, musiqi tariximizə, Azərbaycan analığına vurulan zərbə idi.

YARIMÇIQ ÖMRÜN HEKAYƏTİ

O, zəkası ilə ucaldı, haqsızlıqla məhv edildi

Məhkəməsi 20 dəqiqə çəkdi… Bu sözlərə çox rast gəlmişik. XX əsrdə yaşayan, həyatının, yaradıcılığının çiçəklənən dövründə ötən əsrin 30-cu illərinin Stalin repressiyalarının qurbanı olan onlarla şair, yazıçı, alim, həkim, ziyalının tərcümeyi-halında həmin cümlə eynilə təkrar olunur. Bu insanların məhkəməsi ona görə belə qısa olurdu ki, əslində, dəlil-sübut üçün o qədər də çox söz yox idi. Uzun-uzadı istintaqlarda deyilənlər isə uydurma və böhtandan başqa bir şey deyildi.

Qeyri-adi fitri istedada, dərin elmi biliklərə malik olan görkəmli alim Bəkir Çobanzadənin də məhkəməsi 20 dəqiqə çəkib. Ömrü də qısa olub – cəmi 44 illik bir həyat yaşayıb. Amma ömür hekayəti xeyli uzundur…

Böyük şəxsiyyətlər, məşhur insanlar haqqında həmişə çoxlu rəvayətlər, hekayətlər yayılır. Qəribədir ki, eyni insan haqqında ayrı-ayrı şəxslərin danışdıqları çox vaxt bir-birinə bənzəyir. Bəzən də tamamilə təzad təşkil edən fikirlər söyləyir, hadisələr nəql edirlər. Həyatı haqqında ən çox hekayətlər danışılan, bəzi hallarda bir-birinin əksinə olan, hətta həqiqətə uyğun gəlməyən epizodlar söylənilən belə şəxsiyyətlərdən biri də Bəkir Çobanzadədir.

Lakin bu hekayətlər nə qədər çox olsa da, onların mərkəzində dayanan, böyük istedad sahibi olan alim Çobanzadənin yazıb-yaratdıqları, zəngin irsi aydın, şəffaf bir həqiqətdir. Şəxsiyyəti, amalı, əqidəsi də həmçinin bura daxildir. Və həmin həqiqətlərə tarix boyu heç bir qüvvə qaranlıq gətirə bilməz. Necə ki şər və böhtanla, dəhşət və vəhşətlə dolu 1937-ci illərin olayları bunu edə bilmədi, sadəcə gücü çatmadı…

Ədəbiyyatşünas, şair, dilçi, mətnşünas olan bu alim genişmiqyaslı elmi və bədii yaradıcılıq fəaliyyəti göstərib. 1920-ci ildə 27 yaşında ikən filologiya elmləri doktoru elmi dərəcəsini

Bəkir Çobanzadə

qazanan, iki il sonra professor adına layiq görülən, 1934-cü ildə Azərbaycan Yazıçılar İttifaqının üzvü seçilən Bəkir Çobanzadə 1893-cü il mayın 15-də Krımda, Tavrida vilayəti Simferopol (Akməscit) qəzasının Qarasubazar şəhərində dünyaya göz açmışdı. O, ailəsi haqqında vaxtilə «Bakinski raboçi» qəzetində yazdığı məqalədə əsil-nəsilcə çoban oğlu olduğunu və özünün də 14 yaşınadək çobanlıq etdiyini göstərmişdi. Milliyyətcə Krım tatarı olan atası Vahab cəsur, qorxmaz və qoçaq olduğuna görə el arasında ona «Qurd Vahab» deyirlərmiş. Onu bəzən Əbdülvahab da çağırırlarmış. Vahabın həyat yoldaşının adının mənbələrdə gah Zahidə, gah da Zibeydə olduğu göstərilir. Bu ailədə iki övlad böyüyüb – Bəkir və ondan 11 yaş kiçik olan bacısı Zəlixa.

Çoban Vahab zirək, zəhmətkeş, çalışqan olsa da, maddi imkanı çox məhdud idi. Uşaqlarına Tanrı tərəfindən bolluca istedad payı verilsə də, ailə onları oxutdurmaq gücündə deyildi. Belə ki, Bəkir uşaq yaşlarında bir mollanın evində çalışırdı. Elə ilk savadını da burada qazanır: molladan ərəb dilini öyrənir. Sonra Quranı qiraət etməyi, Şərq klassiklərinin əsərlərini oxumağa başlayır. Odur ki, kənddəki rüşdiyyə məktəbinə daxil olanda artıq xeyli biliyi vardı.

Məktəb illəri ilə bağlı xatirələrin birində yazılıb ki, imtahan vaxtı növbə Bəkirə çatanda müəllimi, şair Həsən Səbri onu irəli çıxmağa çağırır. Amma uşaq əynindəki yamaqlı geyimdən utandığı üçün yerindən tərpənmir. Bunu başa düşən müəllim Bəkirə yaxınlaşır. O isə, elə bil, bunu gözləyirmiş kimi uca səslə dil-dil ötməyə başlayır:

– Nə istəyirsiniz, müəllim, soruşun. Sədidən, Hafizdən, Füzulidən sual verin, hamısını əzbər deyəcəyəm. Qurani-Kərimdən soruşun…

Həsən Səbri gülümsünüb köksünü ötürür və ona yaşına görə çətin sayılan suallar verir. Bir-birinin ardınca mürəkkəb sualları cavablandıran uşaq Həsən Səbrini təəccüb içində qoyur və o, həmkarını yanına çağıraraq deyir:

– İsmayıl bəy (İsmayıl Qaspıralı nəzərdə tutulur), sən Allah, bir baxın, burada bir dərya var!

Uşaqdan adını və soyadını soruşurlar. Adını deyir, amma soyadı olmadığı üçün duruxub qalır …

Yoldaşları onun kəndin qurd ürəkli çobanının oğlu olduğunu söyləyirlər. Müəllimləri də belə qərara gəlirlər ki, onun soyadını «Çobanzadə» yazsınlar. Beləcə, o dövrün sayılıb-seçilən maarifçiləri öz tərifləri ilə çoban Vahabın balaca oğlunun böyük bir dünyaya – elm, idrak, zəka dünyasına addımlamasına «vəsiqə» verirlər.

Kənddə ibtidai təhsilini başa çatdırdıqdan sonra dini Müsəlman Xeyriyyə Cəmiyyəti onu Türkiyəyə Qalatasaray liseyinə – Sultaniyyəyə oxumağa göndərir. O zaman Çobanzadə ilə bir yerdə İstanbulda təhsil alan İbrahim Hacıvəliyev xatirələrində yazır ki, Bəkir İstanbula məhsul yığımından sonra gəlmişdi. Bu zaman Sultaniyyəyə qəbul artıq başa çatmışdı. «Belə bir vəziyyətdə Bəkirin bir çıxış yolu qalırdı: maarif nazirinin yanına düşmək… Xeyli cəhd göstərəndən sonra o, nazirin qəbuluna yazılır və onunla görüşür. Görünür, bu gənc ona yaxşı təsir bağışladığı üçün nazir şəxsən özü göstəriş verir ki, onu Sultaniyyə Təhsil Mərkəzinə qəbul etsinlər» *(N.Bədəlov, «El» jurnalı).*

1908-1918-ci illərdə o, burada oxuyur. Tələbəlik illərində ilk şeirlərini, «Anan harda?» poemasını yazır. İstanbul Universiteti nəzdində olan üçillik ali kursda ərəb və fars dillərini öyrənir. Türkiyədə «Müstəqil tatar Krımı» ideyaları ilə yaşayan Tələbə Cəmiyyətinin yaradıcılarından və rəhbərlərindən olur. Həmin dövrdə «Gənc Türklər» hərəkatının təsiri və «İttihad və Tərəqqi» partiyasının ideoloqlarının – Z.Göyalp, Ə.Hüseynza-

də, İ.Qaspıralı, F.Köprülüzadə və başqa ziyalıların türkləri siyasi mübarizəyə qatılmaqdan daha çox maariflənmədə fəal olmağa səsləyən çağırışları o zaman İstanbulda Krım gənclərinin yığıncaqlarında da geniş müzakirə olunurdu. Maariflənmə isə, bir növ, turançılıq ideyası ilə təlimlənmə demək idi.

Burada təhsilini başa vurduqdan sonra B.Çobanzadəni həyat yolları Budapeştə aparır. Budapeşt Universitetinin Tarix-filologiya fakültəsində türk, ərəb və macar filologiyası ilə yaxından tanış olur, «Komanikus Məcəlləsində zahiri sinharmonik uyğunsuzluq və türk dillərində tələffüz qaydaları problemi» mövzusunda doktorluq dissertasiyası müdafiə edir. Bu illərdə Türkiyə, Krım, Orta Asiya və Rusiyanın dövri mətbuatında müxtəlif imzalarla ictimai-siyasi, elmi məqalələrini dərc etdirir. Sonralar «Türk ensiklopediyası»nda Çoban oğlu, Bəkir Baybək, Bəkir Cavbək, Bəkir Yaybək, Çoban oğlu Bəkir Sidqi imzaları ilə məqalələri çap olunur. Macarıstanda təhsil aldığı illərdə B.Çobanzadə, sonralar özünün də etiraf etdiyi kimi, həmin dövrdə kommunistlərin tərəfində olur. 1919-1920-ci illərdə o, maddi durumunu düzəltmək məqsədilə Budapeştdəki Şərq Akademiyasında türk dili müəllimi işləyir. Filologiya doktoru adını alandan sonra dostu Cəfər Səidamətin (İstanbulda Krım Tələbə Cəmiyyətinin sədri) dəvəti ilə İsveçrəyə gedir. Bu səfər Bəkirin taleyində mühüm rol oynayır. Bir müddət orada qalır və İtaliyaya gedir. Oradan isə yenə də İstanbula qayıdır.

Çobanzadə vətəninə, yəni Krıma döndükdən sonra siyasi fəaliyyətlə məşğul olmağa başlayır. Tədqiqatçıların yazdıqlarına görə, 1917-ci ildə yaradılan və qarşısına Krım-tatar milli demokratik respublikası yaratmaq ideyasını qoyan milli firqənin (Xalq Partiyası) ideoloqu kimi çıxış edir (bəzi yazılarda həmin partiyanın sədri olduğu göstərilir). Ümumiyyətlə, Krımda yaşadığı müddətdə B.Çobanzadə var gücü ilə xalqının müstəqilliyi, gənclərin savadlı gələcəyi uğrunda çalışır. Lakin bir müddətdən sonra onun firqəçilərlə fikir ayrılığı meydana çıxır və partiya həmkarlarından ayrılmalı olur. Artıq bu dövrdə bir neçə məsul ictimai vəzifələrdə çalışır. Krım İnqilabi Komitəsinin rəisi, Krım Maarif Komissarlığında Tatar lisaniyyatı və

ədəbiyyatı şöbəsinin müdiri (1920-1922) vəzifələrində işləyir. Eyni zamanda ali məktəblərdə, elmi-tədqiqat institutlarında çalışır. Krım Universitetinin yaradılmasında böyük rol oynayır. Həmin ali məktəbin Şərq fakültəsinin professoru kimi Krım-tatar dili və ədəbiyyatından mühazirələr oxuyur. Krım Universitetinin rektoru olur. Bu dövrdə Krım Mərkəzi İcraiyyə Komitəsinin üzvü kimi ictimai fəaliyyət də göstərir. Varlı ailədən olan Dilarə adlı qızla evlənir. Lakin bu izdivac uzun sürmür.

B.Çobanzadənin sonrakı taleyi bilavasitə Azərbaycanla bağlı olur. Bəs onun buraya gəlməsi necə baş verir?

1922-ci il avqustun 11-də V.İ.Lenin Azərbaycan MİK-in sədri S.İ.Ağamalıoğlunu və onu müşayiət edən A.S.Jenukidzeni qəbul edir. Görüşün səbəbi Azərbaycanda yeni əlifbaya keçməklə bağlı idi. Nəriman Nərimanov o zaman ərəb əlifbasından latın qrafikasına keçilməsinin tərəfdarı idi. Beləliklə, 1923-cü il oktyabrın 20-də latın qrafikasına keçmək barədə dekret imzalanır. Azərbaycanda əlifba islahatını həyata keçirmək üçün milli ruhlu güclü bir mütəxəssis və təşkilatçı gərək idi. Elə bu zaman S.Ağamalıoğlu xaricə səfərlərindən birində gördüyü B.Çobanzadəni xatırlayır. Çünki o, alman, türk, macar, fransız, ərəb, fars, rus, Azərbaycan, özbək, qazax, türkmən dillərini mükəmməl bilir, bu dillərdə sərbəst yazır və danışırdı.

S.Ağamalıoğlu cavan, lakin artıq özünü təsdiq etmiş istedadlı alimi Bakıya dəvət edir. B.Çobanzadə bu təklifi qəbul edir, çünki o, bu zaman vətənində məruz qaldığı təzyiqlərdən bezibmiş. Lakin ağlına belə gətirmirdi ki, bu tale onu izləyir. İllər keçəcək və o, yenidən təqib və təzyiqlərə məruz qalacaq, şərə-böhtana düşüb Stalinin repressiya maşınında məhv ediləcək.

Bununla belə, Bakıda yaşadığı illər Bəkir Çobanzadənin fəaliyyətinin ən qızğın və məhsuldar dövrü olur. 1925-1937-ci illərdə o, burada yaşayarkən özünün qeyri-adi istedadını tam göstərə, tükənməz potensialından lazımınca istifadə edə bilir. Bunun üçün həddindən artıq genişsahəli və son dərəcədə

zəhmətkeş olan bu yaradıcı insanın həmin 12 il ərzində tutduğu vəzifələri göstərmək kifayətdir. 1924-1929-cu illərdə Azərbaycan Baş Elm İdarəsində Terminologiya Komitəsinə rəhbərlik edir. Paralel şəkildə ADU-nun Şərqşünaslıq fakültəsində kafedra müdiri və sonra dekan olur. Ümumiyyətlə, 1920-1926-cı illərdə onun gördüyü genişmiqyaslı, çoxsahəli işləri nəzərdən keçirəndə bir nəfərin bu qədər «yük»ü necə çəkdiyinə təəccüb etməmək olmur. Bakıda onu respublika rəhbərliyi, şəxsən Ruhulla Axundov özü himayə edirdi.

Belə ki, bu dövrdə görkəmli alim B.Çobanzadə Azərbaycanda Yeni Əlifba Komitəsinin sədri, Yeni Türk Əlifbası Ümumittifaq Mərkəzi Komitəsinin rəhbəri təyin edilmişdi. Orta Asiyada, Tatarıstanda, Bolqarıstan və Krımda latın əlifbasına keçidlə əlaqədar ciddi iş aparmışdı. Eyni zamanda Tavrida, Bakı, Daşkənd, Buxara ali məktəblərində türkologiyaya aid mühazirələr oxumuşdu. Bir faktı da qeyd edək ki, Bəkir Çobanzadə Azərbaycan dilçiliyinin əsasını qoyan alimlərdən biri olmuşdur.

Böyük Britaniya və Ərdəbil nüsxələri əsasında Xətai divanının müqayisəli mətnini də alim bu illərdə hazırlamışdı. 1926-cı ildə I Ümumittifaq Türkologiya qurultayının təşkilində fəal iştirak etmişdi. Qeyd edək ki, bu qurultay Azərbaycanda keçirilmiş və dünyanın ən məşhur 24 türkoloq aliminin məruzəsi dinlənilmişdi. Qurultay türk dünyasının həyatında ən əhəmiyyətli bir addım kimi səciyyələndirilmişdir.

Türk xalqlarının yeni əlifbaya keçməsi uğrunda fəal mübarizə aparan alim 1928-ci ildə Moskvada təlimatçı kurslarında mühazirələr də oxumuşdu.

Maraqlıdır ki, Bəkir Çobanzadənin fəaliyyəti təkcə Azərbaycandakı işlərindən ibarət deyildi. Lakin o, bunların hamısını tənzimləyib yerinə yetirə bilirdi. Məsələn, 1930-cu ildə onu Fərqanədə yaradılan Ali Pedaqoji İnstitutda Özbək dili və ədəbiyyatı kafedrasının müdiri vəzifəsinə dəvət edirlər. 1935-ci ildə o, Daşkənd və Buxara universitetlərində «Türk dillərinin problemləri» adlı xüsusi kurs keçir. Üçdilli – azərbaycanca-almanca-rusca lüğəti isə B.Çobanzadə A.Tahirzadə və V.Xuluflu ilə birlikdə işləyib hazırlayır.

Sovet Şərqində ilk professor və ilk dəfə öz sahəsi üzrə universitet kurslarını işləyib hazırlayan alim B.Çobanzadə Moskvada Şərq Xalqları İnstitutunun həqiqi üzvü seçilmişdi. Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun Aspirantura şöbəsinin müdiri işləmişdi. 1932-ci ildə SSRİ EA Zaqafqaziya filialı Azərbaycan şöbəsinin, 1935-ci ildə SSRİ EA Azərbaycan filialının həqiqi üzvü seçilmişdi. Paris Dilçilik Cəmiyyətinin üzvü olmuşdu. Avropanın bir sıra elm xadimləri onun tədqiqatlarına istinad etmişlər. Nəzəri-filoloji irsi zəngin və çoxcəhətli olan alimin sovet Şərqində yaşayan türk xalqlarının bədii ədəbiyyatının, müasir ədəbi prosesin nəzəri problemlərinin tədqiqi və dil tarixinin yaranmasında təqdirəlayiq xidmətləri olmuşdur. O, bir sıra monoqrafik əsərlərlə yanaşı, 1932-ci ildə «Türk dilinin metodikası», «Elmi qramerin əsasları» kitablarını digər müəlliflərlə birlikdə tərtib etmişdir. Elmi məqalələri və bədii əsərləri dövri mətbuatda müntəzəm çap olunmuşdur. B.Çobanzadə bu illərdə ikinci dəfə ailə həyatı qurmuşdu. O, Bakı Opera Teatrının aktrisası Ruqiyyə Abdulina ilə evlənmişdi.

B.Çobanzadəyə təzyiqlər 1930-cu ildə başlandı. Onun əleyhinə «İnqilab və mədəniyyət» jurnalında məqalələr çap olundu. Bu iş sistematik olaraq kampaniya xarakteri aldı. Əslində isə onun yoxlanılmasına bir qədər də əvvəl – 1928-ci ildə başlanmışdı. Lakin heç bir tutarlı dəlil-sübutun tapılmaması bədxahlarını daha da əsəbiləşdirmişdi.

1931-ci ildə təzyiqlər lap çoxalır. İş o yerə çatır ki, Krımda B.Çobanzadə ailəsindən qalmış tək bir nümayəndəyə – alimin bacısı Zəlixaya da təzyiqlər edirlər.

Zəlixa müəllim idi. Simferopol Pedaqoji Məktəbini bitirmiş, sonra da Krımda ali təhsil almışdı. 1933-cü ildə onu hətta Qarasubazarda dərs dediyi məktəbdən qovurlar. Çox çətinliklə bir kənddə özünə iş tapır və həmişəlik orada qalıb müəllimlik edir. Qardaşı kimi, bu xanımın da taleyi acınacaqlı və faciəli olmuşdu. 1940-cı ildə həyat yoldaşı dünyasını dəyişmiş, müharibə illərində isə üç övladını – iki oğlunu və bir qızını itirmişdi.

Bəkir Çobanzadənin təqibi uzun çəkir. Nə az, nə çox – 7 il onu izləyir, şərləməyə çalışırlar. Nəhayət, 1935-ci ilin sonlarında Azərbaycan SSR-in daxili işlər üzrə xalq komissarı olan Y.D.Sumbatov-Topuridze Moskvaya hesabat verir və B.Çobanzadəni həbs etmək üçün heç bir sübutun olmadığını bildirir.

Bədxahlarının əlləri hər yerdən üzüldükdən sonra, 1937-ci ildə Bəkir Çobanzadənin Ruhulla Axundovla dostluğunu bəhanə gətirirlər. Çobanzadənin ehtimal olunan həmin dostunu Mircəfər Bağırov öz taxt-tacına qısqanır, onu rəqibi sanır və ətrafı ilə birlikdə aradan götürməyə can atır. R.Axundovun yaxınları siyahısında B.Çobanzadədən başqa Əziz Qubaydullin, Vəli Xuluflu, Hənəfi Zeynallı, Əli Kərimov, Ağakərim Dadaşov, Qulam Bağırov, Xalid Səid Qocayev, A.Mahmudzadə, Yaqub Zəki və başqaları da vardı. Həmin adamların hamısı o dövrdə ya tutulmuşdu, ya da izlənirdi.

Alimin bioqrafiyasını araşdıranların bir çoxunun mülahizələrinə görə, B.Çobanzadəyə qarşı ardıcıl hücumların başlanması, onun elmi mövqeyinə tənqidlərin artması, baxışlarını kökündən inkar edənlərin sayının çoxalması müəyyən mənada Azərbaycanda Ruhulla Axundovun vəziyyətinin pisləşməsi ilə əlaqədar olmuşdu. Bir faktı da qeyd edək ki, Ruhulla Axundov respublika rəhbərliyindən kənarlaşdırılıb SSRİ Akademiyasının Azərbaycan filialının müdiri Meşşaninovun müavini işlədiyi dövrlərdə belə professor B.Çobanzadə ilə dostluq və əməkdaşlıq münasibətlərini qoruyub saxlamaqda, ona hər cür yardım göstərməkdə davam edirdi. Əslində, istintaq materiallarında *(Ziya Bünyadov. «Qırmızı terror»)* B.Çobanzadə R.Axundovun yaxını kimi də dindirilmiş və bu, əsas ittihamlardan biri olmuşdu.

1935-ci ildən sonra Çobanzadə başı üzərindəki təhlükənin sovuşduğunu güman edərək bir qədər rahatlaşmışdı. Lakin 1937-ci ilin yanvar ayının sonunda onu Kislovodskda, dincəldiyi «Qornyak» («Mədən fəhləsi») sanatoriyasında həbs edirlər. Əvvəlcə Pyatiqorsk həbsxanasında saxlanılır, sonra Bakıya gətirilir.

Çobanzadəni nədə ittiham edirdilər? Guya o, 1924-cü ildən sonra, yəni Bakıda yaşadığı dövrdə əksinqilabi-millətçi

fəaliyyətdə olub. Əvvəla, 1926-cı ildə Krım Milli Firqəsi Mərkəzi Komitəsi adından «Müsavat» partiyasının Mərkəzi Komitəsi ilə birgə iş barədə danışıqlar aparıb. İkincisi, Ruhulla Axundov guya Çobanzadə ilə Sovet hökumətinə qarşı blokda əksinqilabi-trotskiçi təşkilatla birgə işin planları barədə sövdələşiblər. Üçüncüsü isə, demə, Çobanzadə özünün ədəbi əsərlərində və mülahizələrində əksinqilabi-millətçi ideologiyanı geniş yayıb.

Qısası, bütün bunlardan çox-çox uzaq olan alim Cinayət Məcəlləsinin 72-73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilmişdi. Həbsə qərar yanvarın 26-da verilmiş, iki gün sonra, yəni ayın 28-də onu tutmuşdular.

Çobanzadənin ilk istintaqı həmin il fevralın 7-9-da keçirilir. Burada alimin hələ 1919-cu ildə Macarıstanın «qızıl ordu»sunda xidmət etdiyi, 1920-ci ildən 1924-cü ilədək Krım Milli Firqəsinin üzvü və katibi olduğu əsas gətirilir. Halbuki son dövrün tədqiqatçıları, xüsusilə Krım-tatar alimlərinin yazdıqlarına görə, B.Çobanzadə artıq 20-ci illərin əvvəllərində Krımda Sovet hökuməti bərqərar olan kimi siyasətdən uzaqlaşır, buna görə də nə vaxtsa imperializmə qarşı birgə mübarizə apardığı yoldaşlarından ayrılır. Lakin buradaca B.Çobanzadə ağır təzyiq və işgəncələr altında əksinqilabi-millətçi fəaliyyət apardığını boynuna alır. «Əksinqilabi mövqedə duran, əksinqilabi əlaqədə olduğunuz şəxslərin familiyalarını deyin» söyləniləndə alim yaxından tanıdığı, sovet quruluşuna, ədəbiyyatına, incəsənətinə, elminə sədaqətlə xidmət edən, sonradan isə kimlərinsə xoşuna gəlmədiyi üçün həmin quruluşun «düşmən»lərinə çevrilən görkəmli şəxsiyyətlərdən Həsən İmanovun, Vəli Xuluflunun, Yusif Əliyevin, Əli Nazimin və başqalarının adlarını çəkir.

Fevralın 14-də B.Çobanzadənin verdiyi bu əksinqilabçıların və pantürkistlərin siyahısı bir az da «zənginləşir».

Fevralın 16-dakı istintaq mədəniyyət cəbhəsi işçiləri arasında aparılan əksinqilabi-millətçi fəaliyyətin açıqlanmasına həsr olunur. B.Çobanzadəyə bu məqsədlə «Sizin əksinqilabi-millətçi fəaliyyətiniz nədən ibarət idi» sualını verirlər. O da bu fəaliyyətin əksinqilabi milli təbliğat aparmaq, pantürkizmi

geniş yaymaqdan ibarət olduğunu söyləyir. Həmçinin bildirir ki, məqsədi əksinqilabi-millətçi azərbaycanlı ziyalıların sovetlərə qarşı mövqelərini möhkəmləndirmək və öz elmi əsərində əksinqilabi milli ideyaları irəli sürmək olub. Repressiya maşınına daha çox ziyalını, xalq üçün, gələcək üçün lazımlı insanı cəlb etmək və təbii ki, istintaq olunanın cəzasını artırmaq məqsədilə ondan yenə də soruşurlar: «Siz daha kimlərlə əlaqədə idiniz?» B.Çobanzadə bu dəfə alimlərdən Salman Mümtazın, ATİ-nin dosenti Yaqub Zəkinin, həkim Ələkbər Adıgözəlovun, Xalq Səhiyyə Komissarlığının işçisi Reved Şirinskinin və neçə-neçə başqalarının adlarını çəkir. Sonra Şimali Qafqazda, SSRİ-nin digər yerlərində yaşayan insanlardan tanıdıqlarının adlarını verir. Hansı şərtlər altında, – o da məlumdur. Akademik Ziya Bünyadov «Qırmızı terror» kitabında yazırdı ki, həbs olunanlara müxtəlif metodlarla işgəncələr edilir və onlar ağıllarını itirmək dərəcəsinə gəlirdilər. Müstəntiqlər hansı siyahını, hansı arayışı qarşılarına qoyurdularsa, oraya da imza atırdılar.

Ona görə də Bəkir Çobanzadə türklərlə əlaqə saxladığını, onların məlumatçısı və Bakıda Türkiyə konsulu ilə tez-tez görüşdüyünü da «etiraf edir». Bu, fevralın 17-19-da baş verir. Martın 3-5-də isə alim açıqca deyir: «Həbs olunan günədək mən əksinqilabi-millətçi mövqedə durmuşam və SSRİ-dən ayrılmaq şərti ilə türk-tatar xalqlarının vahid müstəqil dövlət halında birləşməsi (Vahid Turan dövləti) məqsədini qarşıya qoymuşam». B.Çobanzadə 1930-cu ildə əksinqilabi qrup yaratdıqlarını və onun iki hissədən – azərbaycanlı ziyalılardan və Krım tatar tələbələrindən ibarət olduğunu da söyləyir.

Mart ayında bir-birinin ardınca altı istintaq B.Çobanzadənin Krımdakı fəaliyyətinə həsr olunur. Nəhayət, aprelin 17-20-də o, «tam boynuna alır» ki, Azərbaycanda əksinqilabi işlərlə məşğul olub və burada Ruhulla Axundovun rəhbərliyi ilə millətçi təşkilatın mövcudluğunu «təsdiqləyir».

Aprelin sonrakı günlərində respublikanın rayonlarında, o cümlədən Qazax–Gəncə bölgəsində təşkilata cəlb olunmuş insanların adları araşdırılır. Belə ki, aprelin 23-25-də istintaq

zamanı B.Çobanzadədən «Azərbaycanın rayonlarında silahlı üsyana hazırlıqla bağlı təşkilat tərəfindən praktiki olaraq nə kimi işlər görülmüşdür?» – deyə soruşurlar.

İyunun 13-də müstəntiq respublikada baş verəcək dövlət çevrilişinin təfsilatını «öyrənir». B.Çobanzadə, bu hadisə həqiqətə çevrildiyi halda, M.Bağırovun aradan götürüləcəyini və onun yerinə Hüseyn Rəhmanovun sahib olacağını «açıqlayır».

Düşünmək olardı ki, artıq ən böyük sirr «açılıb» və daha B.Çobanzadənin sorğu-suala tutulması bitəcək. Lakin istintaq bitib-tükənmək bilmirdi. 12 gün sonra B.Çobanzadə Sovet İttifaqında gizli şəkildə fəaliyyət göstərən əksinqilabi-millətçi-pantürkist təşkilat haqqında daha ətraflı danışmağa məcbur edilir. Suallara cavab verərkən müttəhim təşkilatın 10 üzvünün adını çəkir. Burada Rusiyanın, Özbəkistanın, Dağıstanın bir sıra ziyalı və yüksək vəzifə tutan vətəndaşları ilə yanaşı, Azərbaycan SSR MİK sədri S.Əfəndiyevin, xalq maarif komissarı Mustafa Quliyevin, ZSFSR xalq torpaq komissarı Dadaş Bünyadzadənin də adları hallanır. Vurğulanır ki, Moskvada, Leninqradda, Samarada, Həştərxanda, Donbasda, hətta Sibirdə pantürkist təşkilatları var. Bu qədər adın, bu qədər məlumatın bir adam tərəfindən, özü də müfəssəl şəkildə verildiyi, təbii ki, hər kəsdə təəccüb doğururdu. Həmişə yüksək vəzifələrdə olmuş, müxtəlif sahələrə rəhbərlik etmiş bu insanlar nə üçün öz firavan yaşayışlarına bais olmalı, kimlərisə ittiham etməli idilər?!

Növbəti istintaqda isə müttəhim Sovet hökumətinə qarşı mübarizə aparan həmin pantürkist təşkilatlar arasındakı əlaqələr haqqında suallara «cavab verməli olur». «Əksinqilabi-ittihadçı təşkilat»ın adı çəkilir və onun tərkibinə daxil olan şəxslərin adları sadalanır. İyulun 5-9-da keçirilən bu istintaqdan sonra müstəntiq Çobanzadəni növbəti dəfə həmin ayın 13-14-də sorğu-suala tutur. Müttəhim leninqradlı alimlərin fəaliyyəti barədə danışmalı olur.

İyul ayında daha dörd dəfə (16-17-də, 20-21-də, 27-də, 28-29-da) istintaq aparılır. Müttəhimdən Dağıstandakı təşkilat, Azərbaycandakı müsavatçılar, ittihadçılar və milli təkamülçülər

bloku haqqında «ifadələr alırlar». Ağlagəlməz işgəncələr altında Çobanzadə elm sahəsində aparılan əksinqilabi iş barədə də «məlumat verir».

Avqust ayının 2-də və 25-də aparılan istintaqlarda «SSRİ əleyhinə gedən» daha neçə-neçə günahsız insanın adı aşkarlanır.

1937-ci il sentyabrın 1-də Bəkir Çobanzadə sonuncu dəfə (o bu müddətdə 32 dəfə dindirilmişdi) istintaq edilir. Burada o, etiraf edir ki, verilən ittihamlarla bağlı günahkardır. Növbəti gün isə Çobanzadəyə verilən əlavə ittihamlar üzrə qərar çıxarılır. Beləliklə, guya Çobanzadənin praktik olaraq özünün əksinqilabi fəaliyyətində SSRİ-yə qarşı silahlı üsyana hazırılqla bağlı fəal iş apardığı, xarici dövlətlərin kəşfiyyat orqanları ilə əlaqədə olduğu və onlara öz ölkəsi barədə vaxtaşırı məlumatlar verdiyi, Sovetlər İttifaqına qarşı üsyan qaldırılacağı halda terror mövqeyində dayanacağı yəqin edilmişdi. O, Azərbaycan SSR Cinayət Məcəlləsinin 21-64, 68, 70-ci maddələrində nəzərdə tutulmuş cinayətlərdə təqsirləndirilmişdi. Elə sentyabrın 2-də də Cinayət Məcəlləsinin 64, 69-1, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə B.V.Çobanzadənin təqsirləndirilməsi ilə bağlı sonuncu ittihamnamə tərtib olunmuşdu.

Sentyabrın 21-də Çobanzadə respublikanın xalq daxili işlər komissarı Sumbatov-Topuridzenin adına ərizə yazır. Bu ərizədə özünün əksinqilabi-millətçi fəaliyyətini vurğulayır və xahiş edir ki, elmdə qazandığı nailiyyətləri nəzərə alaraq onu bağışlasınlar. Tarixin öz səhifələrində qoruyub saxladığı bu məktubun çox maraqlı məzmunu var. Belə ki, B.Çobanzadə yazıb: «Mən öz ixtisasım üzrə sovet Şərqinin ilk professoruyam, bu ada Sovet hökuməti tərəfindən layiq görülmüşəm və bu ölkələrdə ilk dəfə ana dilində mühazirə oxumuşam.

Bütün elmi fəaliyyətim dövründə təxminən 150 elmi əsər yazmışam. Onların 100-ü Azərbaycan dili və ədəbiyyatı problemlərinin elmi əsaslarına həsr edilmişdir (Məqalələr Azərbaycan dilində yazılmışdı).

Yüzlərlə dilçi və ədəbiyyatşünas, mütəxəssis hazırlamışam.

Şanlı Kommunist Partiyası və Sovet hökumətindən xahiş edirəm ki, mənə öz ixtisasım üzrə işləməyim və Sovet İttifaqının qüdrətinin daha da artırılmasında, habelə hər cür əksinqilabi-millətçilərin ifşa olunmasında iştirak etmək üçün imkan yaradasınız». Çox güman ki, bu mətn də müstəntiq tərəfindən diktə edilmişdir. Çünki professor onun əfv olunmayacağını çox gözəl bilirdi.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası səyyar sessiyasının bağlı məhkəmə iclası oldu. İclas saat 11.20 dəqiqədə başlandı, saat 11.40-da sona çatdı. Müttəhim son sözündə yenə də güzəşt istədi. Lakin bütün bunlara məhəl qoyulmadan oktyabrın 12-də B.Çobanzadə güllələnməyə məhkum edildi. Bu ən ağır cəzanın növbəti gün icra olunduğu barədə məhkumun işinə arayış da tikilib.

1954-cü ilin fevral ayında və təkrarən bir il bundan sonra B.Çobanzadənin həyat yoldaşı Ruqiyyə xanım onun işinə yenidən baxılmasını xahiş edir. Lakin B.Çobanzadənin vətən xaini olmadığı barədə işin xətm edilməsi ilə bağlı SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası gec qərar çıxarır – 1957-ci il iyunun 6-da…

Bununla da qeyri-adi istedad sahibi olan B.Çobanzadənin hekayəti beləcə bitir. Azərbaycan xalqı və bütün türk xalqları görkəmli alim, günahsız ikən cinayətkar sayılmış insan haqqında bu hekayəti unutmur və unutmamalıdır.

BİR İNSAN HAQQINDA…
YALAN VƏ HƏQİQƏT

Keçən əsrin 30-cu illərinin sonunda ən işıqlı ulduzları söndürən – ən parlaq istedadları məhv edən, Azərbaycan xalqının ən layiqli oğullarını aradan götürən Stalin rejimi Məmməd Hənəfi (Hənəfi) Baba oğlu Zeynallıdan da yan keçmədi. Hənəfi Zeynallı ədəbiyyatşünas alim, folklorçu, tənqidçi, müəllim, naşir idi. Çox qısa zamanda həmin fəaliyyət sahələrinin hər birində özünü doğrultmuşdu. Bu adların hər birini öz gərgin zəhməti, dərin zəkası bahasına qazanmışdı.

Ünvanına yazılan təkcə bir ad qondarma və saxta idi. Stalin rejimi heç bir əsası olmadan onu «xalq düşməni» elan etmişdi. Nəticədə Zeynallının tərcümeyi-halına yad bir ad da yazılmışdı: 703 saylı məhbus. Bəs necə olur ki, elmi, savadı, biliyi ilə xalqına bu qədər xidmət etmiş bir insan birdən-birə «xalq düşməni»nə çevrilir?! Əlbəttə ağlabatan deyil və sənədsiz-sübutsuz da aydındır ki, onların hamısı böhtan, iftira, heç bir bünövrəyə əsaslanmayan, qəsdən vurulan damğadır.

Azərbaycan elminə atılan güllə

30-cu illərin sonunun terror dalğası ilə Azərbaycan elminin üstünə də təhlükəli küləklər əsdi. Respublikanın düşünən beyinləri, elmin müxtəlif sahələrində çalışan və bir alim kimi hələ çox söz deyəcək istedadlar aradan götürüldü. Bunların sırasında Azərbaycan SSR Elmlər Akademiyasının elmi işçiləri, mütəxəssisləri də var idi. H.Zeynallının adı akademiyanın repressiyaya məruz qalan əməkdaşlarının uzun siyahısındakı adlardan yalnız biri idi.

Nədə günahlandırılırdı Hənəfi Zeynallı? Elə işlərdə və hərəkətlərdə ki, onların heç biri alimin fəaliyyətinə yaxın belə

gəlmirdi. Uydurmuşdular ki, 1917-ci ildə o, Eser Partiyasının üzvü olub. Guya 1928-ci ildə Bakıda Türkiyə konsulu Fərid bəylə əlaqə saxlayıb və onun vasitəsilə tanınmış türk millətçi xadimi İsmayıl Hikmətlə məktublaşıb. H.Zeynallı 1929-cu ildə və sonrakı dövrdə müsavatçılardan Baharlı, Feyzullayev, Mövsümov və başqaları, habelə B.Çobanzadə ilə sıx əlaqə saxlamaqda da günahlandırılırdı. İttihamlardan biri də alimin öz əsərlərində guya əksinqilabi-millətçi ideologiyadan yazması idi.

Hənəfi Zeynallı

Həqiqət kimi qələmə verilən bütün bu günahlara görə məhkəmə qaydasında cəzalandırılmazdan əvvəl Hənəfi akademiyada tutduğu bütün vəzifələrdən çıxarılır. Həmin hadisənin ertəsi günü isə onun istintaqı başlanır və üç gün davam edir. Hənəfini bir çox əksinqilabçı və millətçi, o cümlədən Nazim Əfəndi, İsmayıl Hikmət, Xəlil Fikrət, Bəkir Çobanzadə və başqaları ilə əlaqə saxladığına görə ittiham edirlər. Bu adamlarla əlaqəsi olmadığından Hənəfi, təbii ki, ittihamları rədd edir. Həmin hal fevralın 23-də də baş verir. Hənəfi hər hansı antisovet təşkilata məxsusluğunun ağ yalan olduğunu deyir. Müstəntiq ona düzgün ifadə verməyi, müqavimət göstərməməyi təkid edir. Hənəfi isə yenə də yalan danışmaqdan boyun qaçırır.

Lakin bir gün sonra, fevralın 24-dəki istintaqda müttəhim birdən-birə tamamilə dəyişərək başqa sözlər deyir: «Bəli, mən əksinqilabi kitablar alırdım. Bəli, mən əksinqilabi təşkilatın üzvü idim. Cavad Bağırzadəni, Həbib Səmədzadəni, İmran Babayevi də həmin təşkilata cəlb etmişəm. Bəli, mən əksinqilabi-millətçi kadrlar tərbiyə edib yetişdirmişəm. Bəli, mən Türkiyəyə meyil etmək baxımından Azərbaycanın SSRİ-dən ayrılmasına tərəfdar idim» və s.

Millətçi olduğuna və antisovet fəaliyyət göstərdiyinə görə yalançı damğa vurulan bu insanlar, görəsən, niyə birdən-birə dəyişib «etiraf» yolunu tuturmuşlar?! Təzyiq altındamı, yoxsa onsuz da həqiqəti sübut edə bilməyəcəklərini dərk etdiklərinə görəmi? İndiyədək tanış olduğum 37-ci ilin repressiya qurbanlarının bütün istintaq materiallarında ilkin ifadələr təzyiqsiz alındığı üçün verilən izahatlar səmimi və riyasız olurdu. Lakin ifadələr «ÇK»-nı qane etməyəndə işgəncələrlə dolu cəza maşını işə düşürdü. Görünməmiş vəhşiliklər törədən cəza maşınının qarşısında isə çox az adam davam gətirirdi. Beləcə, «medal»ın o biri üzü görünürdü. «Ədalətli və humanist sovet cəmiyyəti»ndə mərdi qova-qova ona zorla «namərd»liyini sübut edirdilər. Üstəlik, bunu onun boynuna da qoyurdular.

Bu rejim heç bir günahı olmayan H.Zeynallıya növbəti günlərdə – fevralın 9-u, 10-u və 11-də əksinqilabi təşkilata R.Axundov tərəfindən cəlb olunduğunu etiraf etdirir. Hənəfi sanki hansısa şər qüvvənin təsiri ilə ona deyilən ittihamların hamısını təsdiqləyir: guya 1936-cı ilin sonunda onun kabinetində Bakıda və respublikanın rayonlarında gəncləri təşkilata cəlb etmək kimi göstərişlər alıb, türk ziyalıları arasında işi genişləndirərək onları terrora, təxribatçılığa, ziyankarlığa, casusluğa və müharibə vaxtı təslimçiliyə istiqamətləndirib.

Hələ bunlar nədir ki? Demə, Hənəfi Zeynallı əksinqilabi təşkilata Gəncədə rayon xalq maarifi şöbəsinin müdiri Namazovu, həmin təşkilatın inspektoru Əhməd Əhmədovu və müəllim Məmməd Quliyevi, Tovuzda RİK-in sədri Salmanovu və texnikum müəllimi Biləndərlini, Şamxorda rayon xalq maarifi şöbəsinin müdiri Qurbanovu, klub müdiri Xəlilovu da cəlb edib. Hələ Bakıda da onun əksinqilabi təşkilata çəkdiyi adamlar var imiş. Ticarət İnstitutunun müəllimi Hacıkərim Sanılı, Mikayıl Müşfiq və Dəmirçizadə, yazıçı Cahanbaxış, riyaziyyat müəllimi Məcid Abdullayev, tarix müəllimi Qafur Əfəndiyev və aspirant Həmid Araslı… Hətta Hənəfi Həmidə tapşırıbmış ki, Pedaqoji İnstitutun tələbələri arasında əksinqilabi əhvali-ruhiyyəli şəxsləri toplasın və özü də təxribatçılıq, ziyankarlıqla məşğul olsun. Bütün bunları H.Zeynallıya işgəncələrin gücü ilə fevralın 13-də və 14-də etiraf etdirirlər. İfadə verərkən ona zorla

xatırladırlar ki, Gədəbəydə rayon XMŞ inspektoru Şahmuru, müəllim Axundovu, habelə Dəstafurda müəllim Əliyevi də bu işə cəlb edib.

Fevralın 16-da Hənəfi daha böyük «günah»larını – terrorda, casusluqda və təxribatçılıqda əli olduğunu «boynuna alır». Fevralın 20-də isə məlum olur ki, Zeynallı hətta ZSFSR-in ləğv edilməsi, SSRİ-dən tam ayrılmaq şərti ilə Azərbaycan SSR-in yaradılması məsələsi üzərində «işləyib». İstintaq materiallarından görünür ki, «Türkiyənin mövqeyindən çıxış edərək Azərbaycanı SSRİ-dən ayırmaq və İran Azərbaycanı ilə birləşdirmək məsələsini irəli sürən nərimanovçular qrupu varmış». Bu qrupa Dadaş Bünyadzadə, Baba Əliyev, Yusif Məlikov, Bağı Cavadi, Teymur Əliyev, Mustafa Quliyev və başqaları daxil idilər. 41 yaşlı elm xadiminin qısa müddətdə dövlət əleyhinə bu qədər cinayətlərdə əli olduğunu düşünmək belə mümkün deyil.

Fevralın 26-da H.Zeynallıya SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında Ruhulla Axundov tərəfindən yaradılan əksinqilabi təşkilatın üzvü olduğunu bir daha yazılı şəkildə «etiraf» etdirirlər. 1937-ci il mayın 5-10-da aparılan istintaq alimin Azərbaycanda dövlət çevrilişi etmək niyyətlərinin aşkarlanmasına yönəldilir. Bu zaman müttəhim «bildirir» ki, çevriliş SSRİ-nin kapitalist dövlətləri ilə müharibəyə başladığı bir vaxtda olmalı idi. Növbəti beş gündə isə guya əksinqilabi təşkilatın üzvlərinin siyahısı bir daha dəqiqləşdirilir. Mayın 25-29-da Hənəfi Zeynallı professor B.Çobanzadə ilə olan antisovet əlaqələrindən «danışır».

Müttəhim getdikcə boynuna daha ağır cinayətləri almalı olur. Belə ki, iyun ayının 22-də o bildirir ki, neft sənayesinə vurulan ziyankarlıq və təxribatçılıqda «əli var». Avqustun 26-da isə L.Beriya və M.Bağırovun öldürülməsinə hazırlıq barədə «məlumat verir». Bağırovu Mərkəzi Komitənin binasının yanında, tində, yaxud MK ilə Xalq Komissarları Şurası binaları arasında, neft rayonlarından birinə gedərkən, yaxud elə MK binasının önündəcə aradan götürməyin nəzərdə tutulduğunu «açıb danışır». Verilən işgəncələrə dözməyən müttəhim saxta və yalançı süjetlər əsasında hazır yazılmış ən ağır ifadələri belə imzalayır.

Sentyabrın 2-də, daha sonra 20-də müstəntiq H.Zeynallını yeni ittihamlarla günahlandırmağa başlayır. Onun adına çalışdığı sahə ilə bağlı daha neçə-neçə ağlagəlməz cinayətlər yazılır. Müstəntiqin ittihamından belə çıxır ki, Zeynallı Ruhulla Axundovun rəhbərliyi altında elm cəbhəsində genişmiqyaslı ziyanlı işlər aparıb. Məktəblər üçün dil və ədəbiyyat dərsliklərinin müntəzəm buraxılışına mane olub. Azərbaycan klassiklərindən M.F.Axundzadənin əsərlərinin və «Molla Nəsrəddin»in nəşrini bilərəkdən saxlatdırıb. İnqilabi folklor tərəfdarlarının əsərlərinin toplanmasını ləngidib. Əvəzinə «Koroğlu»nun materiallarını toplayıb. Çünki məhz burada təşkilatın Azərbaycanın müstəqilliyi haqqında ideyasını əks etdirməli imiş. Başdan-başa ziyanlı terminologiya və orfoqrafiya tərtib edib, onu ziyalılar arasında yayıb.

İşdə H.Zeynallının Sovet hökumətinə qarşı düşmənçilik fəaliyyətini ifşa edən 20-dək müttəhimin ifadələri var idi. M.Hüseynovun ifadəsində bildirilirdi ki, «Azərbaycan millətçi partiyası»nın tərkibində Zeynallı da olub.

1937-ci il oktyabrın 5-də Azərbaycan SSR-in xalq daxili işlər komissarı Sumbatov-Topuridze 12493/81 nömrəli işə verilmiş ittihamnaməni təsdiq edir. Müttəhim Azərbaycan SSR Cinayət Məcəlləsinin 64, 69, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilir.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası səyyar sessiyasının Matuleviçin, Zaryanovun və Jiqurun iştirakı ilə məhkəmə iclası olur. Saat 16.25-də başlanan iclas saat 16.40-da sona çatır.

Hənəfi Zeynallının da məhkəməsi cəmi 15 dəqiqə çəkir. Bütün repressiya qurbanlarının məhkəməsi kimi... Burada Hənəfi Zeynallı özünü tam günahkar hesab etdiyini, təslim olduğunu və mərhəmət dilədiyini söyləyir.

Hərbi kollegiya Hənəfi Baba oğlu Zeynallını ən yüksək cəzaya – güllələnməyə məhkum edir. Bir faktı da qeyd edək ki, o zaman Bakıda bütün quldur tribunal iclaslarını bəşər övladlarının qatili adını almış Matuleviç öz əlaltıları Zaryanov və Jiqurla birlikdə aparırdı.

Hərbi kollegiyanın ertəsi günü hökm yerinə yetirilir. Hənəfi Zeynallının həyatına belə amansızcasına son qoyulması xalqın daha bir düşünən beyninin aradan götürülməsi, Azərbaycan elminə atılan güllə demək idi.

O, «xalq düşməni» ola bilməzdi

Yəqin ki, ölüm haqqında heç düşünməmişdi. Çünki bu qədər dərin biliyə və parlaq istedada malik olan, bu qədər coşqun həvəslə yazıb-yaradan gəncin həyatı hələ qabaqda idi. Nə bir xəstəliyi vardı, nə də narahatlığı. Heç kəsdən özünə qarşı pislik gözləmirdi. Çünki nə bir əyri işi, nə də bir kimsə ilə düşmənçiliyi var idi. Cavanlıq eşqi ilə yaşayıb-yaradırdı, elmi sevən, ziyalılığı, alicənablığı ilə fərqlənən istedadlı bir şəxsiyyət idi.

Amma əfsuslar olsun ki, o dövr özünə «düşmən» axtarırdı. Əzrayıl cəngi ilə xalqın ən yaxşı oğullarından, ən parlaq simalarından yapışır, onları «millətçi», «xalq düşməni» və s. bu kimi adlarla damğalayıb sonra məhv edirdi. Ən amansız sellərdən, ən dəhşətli qasırğalardan da betər olan həmin rejim – Stalin repressiyaları Azərbaycanın say-seçmə oğulları sırasından Hənəfi Zeynallını apardı…

Kim idi Hənəfi Zeynallı? Ədəbiyyatşünas, alim, folklorşünas, tənqidçi, müəllim, naşir… Bunlardan əvvəl isə sadə, ağıllı və istedadlı bir cavan.

Tərcümeyi-halından sətirlər: 1896-cı ildə Bakının Mərdəkan qəsəbəsində dəmirçi-nalbənd ailəsində anadan olmuşdu. Altı yaşından yetim qalmasına baxmayaraq, təhsildən ayrı düşməmişdi. Mədrəsədə oxumuş, rus-müsəlman orta məktəbini bitirmişdi. 1916-cı ildə müvəffəqiyyətlə İmperator Texniki Peşə Məktəbinə (Moskva Ali Texniki İnstitutuna) daxil olmuşdu. Lakin 1917-ci ildə fevral inqilabından sonra təhsilini dayandırmış, 1922-ci ilədək partiya, sovet, ictimai-təşkilati işlərdə çalışmış, müəllimlik etmişdi. 1919-cu ildə bolşeviklər partiyasına daxil olmuşdu.

1922-ci ildə ADU-ya qəbul olunmuş, 1927-ci ildə universiteti bitirərək təyinatını Şərq fakültəsinin Azərbaycan türk ədəbiyyatı kafedrasına, sonra isə APİ-yə almışdı. 1930-cu ildə dosent olmuşdu.

Hənəfi Zeynallının fəaliyyətinin bir qolu da onun naşirliyi idi. 1923-cü ildən başlayaraq o, Azərbaycan Dövlət Nəşriyyatının əsas yaradıcılarından biri kimi fəaliyyət göstərmişdi. Burada baş redaktor vəzifəsində çalışmışdı. Həmin vaxtdan 1931-ci ilə qədər «Kommunist» qəzetində, «Maarif və mədəniyyət», «İnqilab və mədəniyyət», «Maarif işçisi» jurnalları ilə əməkdaşlıq etmişdi.

1930-cu ildən Azərbaycan DETİ-nin ədəbiyyat bölməsində işləmiş, folklor qrupuna başçılıq etmişdi. 1934-cü ildə akademiyada folklor bölməsinə rəhbərlik etmiş və həm də Azərnəşrdə redaktor kimi çalışmışdı.

Hənəfi Zeynallının əsərləri içərisində 1926-cı ildə yazdığı «Azərbaycanın atalar sözləri və məsəllər» kitabı xüsusi dəyərə malikdir. Burada dörd minədək atalar sözü və məsəllər toplanıb. Əgər amansız ruzigar – Stalin rejimi göyü çaxnaşdırıb, yeri lərzəyə salmasaydı, Hənəfinin ömürnaməsinə hələ neçə belə uğurlu səhifələr yazılacaq, kitablarının üstünə yeni kitabları qalaqlanacaqdı. O, hələ nə qədər xalq incisi – folklor nümunəsi toplayacaq, neçə tədqiqat əsərinin altında «Hənəfi Zeynallı» imzası qoyulacaqdı. Amma Hənəfinin elə özünün topladığı həmin folklorun içərisində belə bir məsəl də vardı: sən saydığını say, gör fələk nə sayır...

H.Zeynallının diqqət yetirdiyi janrlar sırasında atalar sözü və məsəllər, bir də nağıllar xüsusi yer tutur. Onun xalq ədəbiyyatına elmi münasibətindən alim əxlaqı ilə bərabər vətəndaşlıq münasibəti də qabarıq görünürdü. O, folkloru toplayıb tədqiq etməyin təkcə vətəndaşlıq işi deyil, həm də tarixi bir vəzifə olduğunu göstərirdi. Atalar sözlərini mənsur yazının qısa, mənalı, tez yayılıb hamının dilinin əzbəri olan bir janrı kimi qiymətləndirirdi. Atalar sözlərinin məna və məzmununa çox geniş ölçüdə yanaşır, onların xalqın həyat tərzi, taleyi, mənşəyi ilə bağlı olması qənaətinə gəlirdi: «Bizcə, bu atalar sözlərinin məna və əhəmiyyəti qayət böyükdür. Hətta o qədər böyükdür ki, onları araşdıran birisi o sözləri yaradan xalqın adı, ailə həyatından başlayıb ictimai münasibətinə qədər, tarix boyu keçirmiş olduğu iqtisadi dövrlərə qədər, hətta o elin bədiiyyat, ruhiyyət, əxlaq, din və fəlsəfəsinə qədər bələd ola bilər».

Hənəfi Zeynallı ədəbiyyat tarixinə müstəqil əsər həsr etməmiş, lakin klassik irsə dair bütün məqalələrini ədəbiyyatımızın tarixi vəziyyətini nəzərə alaraq yazmışdır. O, ədəbiyyat tariximiz haqqında keçən əsrin 20-ci illərində meydana çıxmaqda olan nəzəriyyələrə, dövrünün mövcud ədəbiyyat tarixlərinə laqeyd deyildi.

20-ci illərdə tənqid və ədəbiyyatşünaslığın qarşısında duran problemlərdən biri klassik irsin mənimsənilməsi idi. Bu problemin həllində mürəkkəb, dolaşıq, mübahisəli cəhətlər çox idi. Hənəfi o zaman da ədəbiyyat tariximizin taleyini düşünürdü.

1928-ci ildə ədəbi ictimaiyyət böyük realist sənətkar M.F.Axundzadənin vəfatının 50 illiyini qeyd etdi. Həmin ilin təkcə mart ayında Hənəfinin böyük sənətkara həsr olunmuş üç məqaləsi çap olundu. Müəllif Axundzadəni şair, dramaturq və islahatçı kimi dərk və təhlil edirdi. Müşahidə və mülahizələri göstərir ki, Hənəfi Zeynallı Mirzə Fətəli yaradıcılığını vətəndaş məhəbbəti, həm də ayıq gözlə təhlil etmişdir. Tənqidçi böyük dramaturqun yaradıcılığına əlahiddə nəzər salmır, sənətkar və mühit problemini meydana qoyur və həmin problemə onun həllini təmin edən düzgün mövqedən – maarifçilikdən işıq salır. Onun M.F.Axundzadəyə həsr etdiyi məqalələrini tənqidimizin klassikə obyektiv münasibətinin nümunələri kimi qiymətləndirmək olar.

Hənəfi Zeynallının Mirzə Cəlilə və XX əsr Azərbaycan ədəbiyyatının digər klassiklərinə münasibətində də ən yaxşı cəhət tarixi şəraitdən çıxış edərək qiymət verməsi və realizm mövqeyindən yanaşması idi. Tənqidçi C.Məmmədquluzadənin tip yaratmaq ustalığına yüksək qiymət verir, onların həyatiliyini və bununla bağlı milli xarakterini fərqləndirirdi. Mirzə Cəlilin bütün yazdıqlarını həyatdan alınmış lövhələr hesab edən tənqidçi onun obrazlarının milli məişətimiz üçün tipik olduğunu təsdiqləyirdi.

Hənəfi Zeynallı haqlı olaraq hesab edirdi ki, Hüseyn Cavid XX əsr Azərbaycan ədəbiyyatında görkəmli yer tutan mütəfəkkir sənətkarlardandır. Cavidin yaradıcılığı haqqında ilk fikir söyləyən, onun mühüm əsərlərini nisbətən ətraflı təhlil edən müəlliflər arasında Hənəfi Zeynallı xüsusi olaraq diqqəti cəlb

edirdi. Çünki o, müasirləri olan bir sıra tənqidçilərlə müqayisədə Cavid sənətinə daha obyektiv və əsaslı yanaşırdı. Cavid yaradıcılığını onun sənətinin mahiyyətindən və problemlərindən çıxış edərək qiymətləndirirdi. Hənəfi Zeynallının Hüseyn Cavidə belə geniş, hərtərəfli münasibəti onun və bütövlükdə 20-ci illər tənqidimizin metodoloji imkanlarını əks etdirirdi. Hələ o zaman qoyub həll etdiyi dram və səhnə, tarix və şəxsiyyət, sənətkar və tarix, dram dili və tamaşaçı problemləri bu gün də aktuallığını itirməmişdir.

Hənəfi Zeynallı proletar ədəbiyyatına baxışını da izhar etmişdir. Burada diqqəti cəlb edən xüsusiyyətlərdən biri müasirliklə tarixiliyin vəhdətdə götürülməsi idi. Hənəfi Zeynallı sənəti müvəqqəti şüarlara tabe edən nəzəriyyəçilərin fikirləri ilə barışmırdı. «Çünki bir düşüncənin əsas nöqtələrini nəzərə almadan onu təqris və ya tənqid etmək fənn yolundan sapmaq deməkdir» yazırdı.

Hənəfinin hər fikri onun dərin düşüncə və biliyindən xəbər verirdi. Məsələn, o deyirdi: «Həyatdan alınmış təcrübədən sənət doğur və ona su verir, sənət özü də həyatdan aldığı qüvvətlə yaranır və həyata nüfuz yetirməyə başlayır. Ona görə sənətlə həyat bir-birindən ayrılmaz iki parça kimi meydana çıxır».

Rus və dünya ədəbiyyatının incilərinə laqeyd qalmayan Hənəfi Zeynallı bu sahədə də öz sözünü demişdi. O, rus şairi Mixail Yuryeviç Lermontovun ölümü barədə belə yazmışdı: «Bu ölüm labüd idi. 27 yaşında şair bütün mühitin alçaqlığını üzünə çırpdıqca kimsə ona dost ola bilməzdi. Bu qədər gəncliyinə baxmayaraq, M.Lermontov özündən sonra çox irs qoymuşdur. Onun əsəri üsyançı bir ruhdan doğan, daima irəli, yüksəklərə atılan azadlıq nəğmələridir. Onlar çarpışma üçün susayanların şeiridir».

Həyatdan çox gənc ikən köçmüş, lakin əbədilik qazanmış, Rusiya, bəlkə də bütün bəşəriyyət üçün zəngin bir irs qoyub getmiş Lermontov haqqında bu sözləri yazarkən Hənəfi Zeynallı, görəsən, ağlına gətirmişdimi ki, elə özü də dünyanı vaxtsız tərk edəcək və xalqına, vətəni Azərbaycana böyük irs əmanət edəcək?..

OTUZ DOQQUZ BAHARIN XƏZANI

G.Qədirbəyovanın maarifçilik fəaliyyəti antisovet təbliğatı kimi qələmə verildi

Tarixin bütün mərhələlərində xalqımızın göstərdiyi qəhrəmanlıqlarda qadınlarımızın xüsusi dəst-xətti olub, çətinliklərdə, mübarizələrdə onlar da sınaqlardan mətinliklə çıxıblar. XX əsr də Azərbaycan qadınını bir çox imtahanlara çəkib. Bunlardan biri Stalin repressiyaları idi. Qadına – bu zərif məxluqa işgəncə verməklə, böhtan atıb cəzalandırmaqla həmin rejim, əslində, özünün qaba, zorun, gücün hökmranlığına əsaslanan sistem olduğunu bir daha sübut etdi. Lakin Azərbaycan qadınları əyilmədi. Repressiyaya məruz qalarkən düşdüyü vəziyyətin acınacaqlı olmasına baxmayaraq, mənən qalib gələn, özünün varlığı ilə amansız rejimə meydan oxuyan belə qadınlardan biri də Gülarə İbrahim Xəlil qızı Qədirbəyova idi. Sadəcə Köylü qızı Gülarə...

Xalq arasında və mətbuat aləmində bu təxəllüslə tanınan jurnalist, müəllim, qadın azadlığı hərəkatı uğrunda fəal mübariz olan Azərbaycanın ziyalı qızının həyatını da repressiya dalğaları çıxılmaz burulğanlara yuvarlatmışdı. Çünki keçən əsrin 30-cu illərinin cəllad maşını elə bir «sürət» götürmüşdü ki, xalqın ən istedadlı, perspektivli övladları içərisində istər qadın, ya kişi, istərsə də qoca, yaxud cavan olmasına baxmayaraq, hətta adi insanları belə damğalayaraq ölümə sürükləyirdi. Fərqi yox idi, repressiyaların «dəyirman»ı eyni cür fırlanır, dindirmələr eyni üsulla aparılır, ittihamlar başdan-başa saxta olurdu. Gözünü qan örtmüş Stalin rejiminin günahsız qurbanları arasında qadınların olması isə ürək ağrıdan və tarixin bağışlamayacağı böyük bir səhv idi.

Gülarə İbrahim Xəlil qızı Qədirbəyova 1903-cü ildə Nuxa qəzasının (indiki Şəki rayonunun) Baş Göynük kəndində

Gülarə Qədirbəyova

ruhani ailəsində dünyaya göz açmışdı. İstintaq materiallarında bu ailənin rayonda məşhur, əsil-nəcabətli və varlı olduğu göstərilir. Gülarə xanımın qız soyadı Əfəndiyeva idi və atasının keçmişdə kəndxuda kimi çalışdığı xüsusi vurğulanır. Sonralar onun Göynük bəyləri tərəfindən öldürüldüyü göstərilir. 1930-1931-ci illərdə dəstəbazlıq dövründə ailənin əksər üzvlərinin Azərbaycan K(b)P MK-nın rəhbərliyinin əleyhinə mübarizədə fəal iştirak etdiyi bildirilir. Bəs əsl reallıq, faktlar nə göstərir? Onu da qeyd edək ki, Qədirbəyov Gülarə xanımın birinci həyat yoldaşının soyadı idi. O da bu soyadı götürmüş, nədənsə ikinci dəfə ailə qurandan sonra belə onu dəyişməmişdi.

Deyilənlərə görə, Gülarə hələ uşaqlıqdan öz fikirlərini sərbəst, aydın və çəkinmədən söyləmək qabiliyyətinə malik imiş. Yaşıdlarından qətiyyəti, cəsarəti, ötkəm xasiyyəti və azad düşüncəsi ilə seçilirmiş. Bundan ailədə hətta narahat da olurmuşlar. Gülarənin ən böyük arzusu təhsil almaq, biliklərə yiyələnmək, insanlara, ən azı öz həmkəndlilərinə xeyir vermək, onların övladlarına savad öyrətmək idi.

O dövrdə imkanlar çox məhdud olduğundan atası Gülarəyə yalnız ibtidai təhsil verə bilmişdi. Bununla belə, elə ibtidai təhsil səviyyəsində qazandığı savad sanki əlindən tutaraq onu irəliyə aparmış, taleyini müəyyənləşdirməkdə yoluna işıq saçmışdı.

Sovetlərin yenicə bərqərar olduğu illər savadlı insanlara böyük ehtiyac duyulduğu bir zaman idi. Buna görə də Gülarə 1920-ci ildə Şəkidə açılmış pedaqoji kurslara daxil olub oranı bitirir və müəllimlik hüququ qazanır. Gənc müəllim kənddə qızlara dərs deməyə başlayır, ictimai fəaliyyətə də həmin

gündən qədəm qoyur. Lakin cəhalətin qan-qan dediyi, köhnəliklə yeniliyin təzadlarının çarpışdığı, əsrlərin ətalətindən çox çətinliklə qurtulan kəndlərdə qızların məktəbə gəlməsi o qədər də asan məsələ deyildi. Gülarə hər gün sinifdə şagirdlərini sayır və dərsə gəlməyən qızların dalınca evlərinə gedib valideynlərini başa salmalı, bəzən uzun-uzadı söhbət etməli, hətta dil tökməli olurdu.

Əlbəttə, bütün bunlar gənc qızın qəlbindəki bitib-tükənməyən arzuların əks-sədası idi. Həmin böyük arzuların müqabilində kənd müəlliminin fəaliyyəti ilə məhdudlaşmaq mümkün deyildi. Çünki Gülarə daim irəliyə, irəliləyişə can atırdı. Elə bu səbəbdən də tezliklə ictimai işlərə qoşuldu. 20 yaşında qəza qadınlar şöbəsinin müdiri vəzifəsinə irəli çəkildi. Həmin vaxtdan da qadın azadlığı uğrunda mübarizənin ön sıralarında addımlamağa başladı. 1923-cü ildə Kommunist Partiyasına daxil oldu. Şəki Rayon Partiya Komitəsində çalışdı.

Daha sonra Gülarə xanım Şamxor, Quba qadınlar şöbəsinə rəhbərlik etdi. Ailə həyatı qurdu, az sonra əri Əhməd Qədirbəyovla birlikdə Bakıya köçdü. 1927-ci ildə ona Azərbaycan MİK Qadınlar şöbəsinin müdiri vəzifəsi həvalə olundu.

1928-ci ildə Azərbaycan K(b)P Mərkəzi Komitəsinin Qadınlar şöbəsi qadın azadlığı məsələsini qəti şəkildə həll etmək üçün bir sıra əməli tədbirlər irəli sürdü. Bunlardan ən başlıcası qadınların çadradan azad edilməsi idi. Bu böyük sosial və mənəvi məsələni həll etmək üçün Səməd Ağamalıoğlunun sədrliyi altında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsində komissiya yaradıldı. Komissiya üzvlərindən biri də Gülarə Köylü qızı idi. Çadra ətalət və əsarət pərdəsi kimi qadınların azadlığına, inkişafına mane olur, mədəni inqilabın sürətini ləngidirdi. Köhnə cəmiyyət isə mövqeyini əldən vermək istəmirdi. Qadınlar azadlıqlarını rəsmi surətdə alsalar da, onlara bunu dərk etdirmək, anlatmaq, cəhalətin, qara çadranın pəncəsindən qurtarmaq, onlara evdə analıq, cəmiyyətdə vətəndaşlıq hüququnu başa salmaq lazım idi. Əski qanunları ayaqları altına çadrayla birlikdə atan qız-gəlinləri öldürənlər, onları cəhalətdən qurtarmağa yardım göstərən müəllim, həkim

və başqa ziyalı qadınları məhv edənlər var idi. Ona görə də təfəkkürdə, ideologiyada yeniləşmə problemin ağılla həlli üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan Gülarə kimi qadınların fəaliyyəti çoxlarının narahatlığına səbəb olurdu. Bu insanları hər dəqiqə təhlükələr gözləyirdi. Həmin ağır zamanlarda G.Qədirbəyova maraqlı, oxunaqlı yazıları ilə ədəbi mühitin də məhəbbətini qazanırdı. Əslində, öz ideyalarını yaymaq məqsədi və sərbəst düşüncə tərzi onu mətbuata çox erkən gətirmişdi. Hələ rayonlarda çalışarkən «Yeni fikir», «Kəndli qəzeti» və başqa mətbuat orqanlarında çıxışlar edirdi. 1923-cü ildə «Şərq qadını» jurnalı nəşrə başlayanda Gülarə burada müəlliflik edən ilk qadın yazarlardan biri olmuşdu. Həmin vaxtdan qələmi onu Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad kimi mütərəqqi ruhlu poeziya ulduzlarına, görkəmli şair və yazıçılara tanıtmışdı.

1931-ci ilin mayında G.Qədirbəyova «Şərq qadını» jurnalının redaktoru təyin olundu və bununla da onun həyatında yeni bir səhifə açıldı. «Köylü qızı» imzası ilə yazırdı. Jurnalın səhifələrindəki hər çıxışı diqqəti cəlb edirdi. Onun qələmindən çıxan alovlu publisistik məqalələr Azərbaycan qadınlarını elmə, savada, maarifə səsləyirdi. Məqalələri həyatın müxtəlif sahələrini əhatə edirdi. Təkcə 1932-1937-ci illərdə yazdığı «Qadın azadlığı və ziyalılarımız», «Qadın klublarında yeni iş sistemləri haqqında», «Bütün savadsız qadınlar savad kurslarına», «Savadsızlıqla mübarizə işinə ciddi əhəmiyyət verməli», «Qızların məktəbə cəlb olunması yolunda qarşıya çıxan kəsirləri qəti surətdə sıradan qaldırmalı», «Qadın klub və guşələrini yenidən qurmalı» sərlövhəli aktual məqalələri bütün ictimaiyyət arasında səs salmışdı.

Jurnalın hər nömrəsində Azərbaycan yazıçı və şairlərinin əsərlərinə geniş yer verilirdi. Seyid Hüseynin, Abdulla Şaiqin, Tağı Şahbazinin, Çəmənzəminlinin, Süleyman Rüstəmin, Mikayıl Müşfiqin, Məmməd Rahimin, H.Natiqin, Əbülhəsənin, Mir Cəlalın, Mehdi Hüseynin əsərləri çap edilirdi.

Bir sözlə, Gülarə Köylü qızı cavan, incə, zərif bir xanım olmağına baxmayaraq, öz xalqının və vətəninin tərəqqisi üçün

böyük qüvvə və səylə çalışırdı. Onun zəhmətsevərliyinin, işi təşkil etmək qabiliyyətinin, əslində, potensialının hüdudu yox idi. Buna görə də jurnalın redaktoru seçiləndən sonra da özünü doğrultmuşdu. Kollektivlə, insanlarla işləməyi də bacarır, hamı ilə dil tapa bilirdi. Ümumiyyətlə, ünsiyyətcil, dostluq etməyi bacaran bir insan idi.

Onun jurnalist və publisist kimi yaradıcılığında yüksək intellektual səviyyə, beynəlxalq hadisələrə yaxından bələdlik aydın hiss olunurdu. Bu xüsusiyyətlər Köylü qızını öz oxucularının, əsasən qadınların (çünki qadın jurnalının rəhbəri idi) siyasi cəhətdən savadlanmasına, onların şüurunun, ədəbi-bədii fikrinin oyanmasına imkan verirdi. Bir şəxsiyyət kimi daim ictimai fəallıq göstərməsi onun jurnalist peşəkarlığını daha da təkmilləşdirirdi. Dünyagörüşünü və fəaliyyət dairəsini mütəmadi genişləndirməsi, gözəl natiqliyi ilə də qadınların siyasi və ideoloji cəhətdən savadlanmasına xidmət edir, geniş təbliğat işi aparırdı.

Köylü qızı 1932-1937-ci illərdə Əli Bayramov adına Mərkəzi Qadınlar Klubunun direktoru vəzifəsinə irəli çəkilir.

Haşiyə çıxaraq deyək ki, sovet rejimi insanları, o cümlədən qadınları da kommunist ideologiyasının təsir dairəsində saxlamaq üçün müxtəlif çeşidli müəssisələr təşkil etmişdi. Bunların sırasında çoxşaxəli fəaliyyət dairəsi olan qadın klubları da vardı. Hələ 1920-ci ildə təşkil edilmiş Əli Bayramov adına Qadınlar Klubu onların ilk qaranquşu idi. Bu klubun ilk direktoru Ceyran Bayramova olmuşdu. Klub öz işinə əvvəllər Əli Bayramovun mənzilində başlamış və az müddət ərzində ətrafına yüz nəfərədək fəal qadın toplaya bilmişdi. Sonralar başqa binaya köçmüş, 1921-ci ildə isə vaxtilə Murtuza Muxtarovun tikdirdiyi indiki «Səadət sarayı»nın binasında yerləşmişdi. Ceyran xanım öz həmfikirləri Xavər Qarayeva, Ayna Sultanova və başqaları ilə birlikdə qadınlar arasında geniş siyasi-kütləvi iş aparırdı. Onlar qadınları ictimai faydalı əməklə məşğul olmağa, çadranı atmağa və mövhumata inanmamağa, mədəni-maarif ocaqlarının, uşaq tərbiyə müəssisələrinin yaradılmasına çağırırdılar.

Əgər 20-ci illərdə Əli Bayramov adına klub qadınları yeni ictimai həyata səsləyir, onların köhnə təsəvvürlərlə mübarizə əzmini canlandırmaq, savadsızlığı ləğv etmək istəyirdisə, sonralar missiyası daha da böyüdü. Məsələn, 30-cu illərdə onları artıq qadınlarla bağlı dövlət orqanlarının qəbul etdiyi qərarların və qanunların real həyatda özünü heç də bütünlüklə doğrultmaması narahat edirdi. Gülarə Qədirbəyova məhz belə bir zamanda kluba rəhbərlik etməyə başlamışdı. O dövrün görkəmli qadınları K.İşkova, Ş.Əfəndiyeva, X.Qarayeva, M.Qiyasbəyli, X.Əzizbəyova, M.Mirzəyeva və başqaları ilə birlikdə işləmişdi. G.Qədirbəyova zamanın və taleyinin verdiyi fürsətdən istifadə edərək maarifin inkişafı, pedaqoji kadrların artırılması, əhalinin siyasi cəhətdən savadlanması naminə çalışırdı. Bu prosesdə onun özü də püxtələşərək kamil bir şəxsiyyətə çevrilirdi. Əli Bayramov adına klub həqiqi mənada mədəni inqilab ocağı idi.

Təsadüfi deyil ki, qadın klublarının 1920-1930-cu illərdəki fəaliyyətini tədqiq edən müəllif G.İbrahimova yazır: «Yüksək intellektual potensiala, siyasi təcrübəyə və savada malik olan bu insanların öz arzu və istəklərini reallaşdırmaq üçün yetişəcək zaman kifayət idi… Bu mübariz fədailərin hər biri üçün özünüdərketmənin təşəkkülü bilavasitə fərdin şəxsiyyətə çevrilməsi prosesində baş verirdi… Repressiyaya məruz qalan Ə.Bayramov adına Qadınlar Klubunun üzvlərinin hər biri isə burada özünün mədəni dünyasını yaratdı. Şəxsiyyətlərinin özünügerçəkləşdirməsinin belə təzahürü yaşadıqları zamanda sərt totalitar rejimin norma və qanunları ilə bir araya sığmadığından onlar məhv edildilər».

Bu sözlər bilavasitə Gülarə Qədirbəyovaya da aiddir. O, xatirələrində yazırdı: «Mənim gənc həyatım qadın hərəkatının ilk həqiqətləri ilə bağlı oldu və böyük təcrübəvi işlərim mənim üçün bir məktəbə çevrildi. Həyatın hər üzünü iş prosesində gördüm». Bu sözlərdə, çox güman ki, mətləbi sirli qalan, sətiraltı nə qədər məna vardı…

Gülarənin belə işıq saçması çoxlarının gözünü qamaşdırırdı. Açığı, onu gözü götürməyənlər çox idi. Əvvəla, o, çox gözəl bir

azərbaycanlı qızı, xanım-xatın, mədəni və kübar Şərq qadını idi. Buna vaxtilə «Pravda» qəzetində Gülarə Qədirbəyovanın portretinin cizgilərini göstərən oçerk də şahidlik edir və həmin yazıdan bir parçanı oxucuların nəzərinə çatdırmağı lazım bilirik: «…O, kənddən-kəndə gedən, qışlaqlardan və sıldırımlardan keçən, dərələrə enən, komalara girən, cəlb edən, öyrədən, təmkinlə dinləyən, kənddə nüfuzunu itirməmək üçün həmişə təmiz, səliqəli, şəhərli kimi geyinən bir qadın idi…

Üstündə «Direktor» sözü yazılmış qapı ehmalca açıldı və biz işıqlı bir otağa daxil olduq. Dərin, nüfuzedici sükut içərisində cavan bir qadının baxışları bizə dikilmişdi. O, hansısa qədim rəssamın, elə bil, sədəfdən düzəltdiyi gözəl lövhəsini xatırladırdı. Dəyirmi, parlaq gözləri, burnunun azca üstünə doğru əyilmiş Şəhrizad qaşları, geniş, açıq alnı vardı…»

Ən başlıcası isə, Gülarə Qədirbəyovanın cavan yaşlarında belə hörmət-izzət qazanması, xalq tərəfindən tanınıb sayılması çoxlarına xoş gəlmir, onları narahat edirdi. Hətta eyni ideya cəbhəsində çalışanların arasında da onu istəməyənlər var idi. Köylü qızının xoş niyyətlə gördüyü işlərdə, yazdığı məqalələrdə belə şübhəli məqamlar axtarırdılar. Hər addımı böyük söz-söhbətə səbəb olurdu. O, təsəvvürünə gətirmirdi ki, Ə.Cavad, H.Cavid, M.Müşfiq kimi istedadlarla, teatr aləmində mükəmməl yazıları ilə fərqlənən Qurban Musayev kimi gənclərlə, Ayna, Xavər kimi mübariz qadınlarla dost, sirdaş olması onun faciəli taleyi üçün nə vaxtsa ağır, təhlükəli ittihamlara çevriləcək. Bir ilə yaxın onun hərəkətləri, görüşdüyü insanlar təqib edildi, söhbətləri dinlənildi, klubun xəttilə keçirilən tədbirlər çək-çevirə salındı. Heç bir şübhəli məqama rast gəlinmədi. Amma bu Azərbaycan qızını daha böyük zirvəyə aparan yolun qarşısını kəsmək üçün mütləq səbəb və üsul tapmaq lazım idi. Min təəssüf ki, o dövrdə bunları etmək çox asan başa gəlirdi. Repressiya maşını işləyir, kimin desən, həyatını yarımçıq kəsirdi. Gülarə Qədirbəyova da həmin minlərdən biri oldu. Onu əksinqilabi-millətçi təşkilatın üzvü kimi şərlədilər. «Dəlil-sübut» isə «Bir sarayın tarixi» adlı kitab oldu.

Məşum repressiyanın iti nəzərləri Gülarə xanımı da öz caynaqlarına aldı. Meşin qapılar arxasında tanıdığı, çörək

kəsdiyi insanlar onun taleyinin acı səhifələrini yazmağa başladılar, tükürpədici, saxta sənədlər qovluqlara tikildi.

«Bir sarayın tarixi» kitabı 1936-cı ildə Əli Bayramov adına Qadınlar Klubunun 15 illiyi ilə əlaqədar Köylü qızı Gülarənin rəhbərliyi ilə yazılır və onun redaktəsi ilə nəşr olunur. Bunu millətçilik ruhunda yazılmış bir əsər kimi qələmə verirlər, redaktorunu isə guya müsavatçı olan, antisovet fəaliyyəti aparan Hüseyn Cavid, Əhməd Cavad, Seyid Hüseyn kimi ziyalılarla dostluq etdiyi üçün təqib edirlər. Üstəlik də Həmid Sultanov «xalq düşməni» kimi istintaq edilərkən təzyiq altında Köylü qızı Gülarənin «Müsavat»ın üzvü olduğunu göstərir.

İş o yerə çatır ki, Gülarənin hətta azərbaycanlı olduğuna şübhə edənlər də tapılır. İmzasız məktubların birində yazırdılar ki, guya o, rus qızıdır. Gülarə məcbur olub doğulduğu Baş Göynüyə getir, ağsaqqallardan və ağbirçəklərdən, onun dünyaya gəlməsində iştirak edən qadından, kəndin ziyalılarından və vəzifəli işçilərindən izahatlar gətirir. Beləliklə, İbrahim Xəlil kişi ilə Ballı xanımın övladı – azərbaycanlı qızı olduğunu sübut edir.

Ərizələrin, şikayət məktublarının, imzasız «donos»ların ardı-arası kəsilmirdi. Yazırdılar ki, qardaşı əksinqilabçı kimi həbs edilib. Gülarə müsavatçılarla əhatə olunub. Cavid hər gün onun evinə gəlir. Ögey atası ilə əlaqəsini kəsmir və s.

Yazıçı-alim Əzizə Cəfərzadə «Köylü qızının taleyi» məqaləsində Gülarə xanımın həyatının həmin dövrünü şərh edərək yazırdı: «Necə kəsəydi əlaqəni? Axı həmin bu ögey ata evində onun doğmaca anası Ballı xanım, kiçik bacısı, ona körpəlikdən atanı əvəz edən Vədud kişi və Gülarəyə əziz olan bütün əqrəba yaşayırdı. Köylü qızı – kəndli qızı deməkdir. Doğrudan da kənddən, əski köydən gəlmiş ozamankı Azərbaycanın işıqlı, ziyalı qızları, qadınları içərisində seçilən, adı dillərdən düşməyən, Hüseyn Cavid kimi ulu bir sənətkarın müsahibi olmaq şərəfi qazanan Gülarə həmin qarmaqarışıq aylarda ən işıqlı arzularla yaşayırdı».

Lakin məsələ çox ciddi vəziyyət almışdı. M.Bağırov «Tamamilə məxfidir» qrifi ilə Sumbatova yazırdı: «Qədirbəyo-

vanın işi ilə əlaqədar əvvəl göndərilmiş materiallara əlavə olaraq bütün məktub və ərizələri sənə yollayıram. Xahiş edirəm ki, bu işi ümumiləşdirin və lazım olduğu kimi axıra qədər təhqiq edin, görün onun ətrafına toplaşan iyrənc yığıncağa gələn naməlum, şübhəli, Qədirbəyova və ifşa olunmuş xalq düşmənləri, keçmiş yazıçılarla əlaqədar olan adamlar kimlərdir».

1938-ci il avqustun 8-də Dövlət Təhlükəsizlik İdarəsinin 4-cü şöbəsinin 6-cı bölməsinin rəisi leytenant Mustafayev həmin şöbənin müdiri baş leytenant Atakişiyevə bir arayış təqdim edir. Arayışda deyilir: «Azərbaycan SSR XDİK DTİ əksinqilabi-millətçi təşkilatın üzvləri Qasımov Mirzə Məmməd (Sabirabad RİK-in keçmiş sədri) və Sultanov Həmid (Azərbaycan SSR Kommunal Təsərrüfatı Komissarlığının keçmiş rəhbəri) öz ifadələrində göstəriblər ki, Qədirbəyova Gülarə əksinqilabi-millətçi təşkilatın üzvüdür».

Daha sonra arayışa adları çəkilən şəxslərin sözləri də əlavə olunur. Mirzə Məmməd Qasımov deyir ki, «mən onunla 1936-cı ilin iyul ayında AK(b)P Mərkəzi Komitəsinin yanında görüşdüm. Birlikdə Nazirlər Şurasının yanındakı bağçaya endik və orada söhbət etdik. Söhbətimiz uzun oldu və lap əvvəlindən millətçilik ruhunda keçdi. Qədirbəyova şikayət edirdi ki, onu hər dəfə bir iş yerindən o birisinə köçürürlər və onunla hesablaşmırlar. O, qəzəblə deyirdi ki, ərini – Asəf Rəhmanovu əbəs yerə həbs ediblər və bu işdə MK rəhbərliyini təqsirləndirirdi. O, qəzəblə deyirdi ki, MK milli kadrlardan istifadə etmir, əksinə, bu kadrlara heç bir əhəmiyyət verilmir və i. Nümunə üçün Ruhulla Axundovun adını çəkirdi. Onun fikrincə, Ruhulla Azərbaycanda daha böyük vəzifə tuta bilərdi. Sonra söhbət əksinqilabi-millətçi təşkilat haqqında oldu və Qədirbəyova dedi ki, mənim əksinqilabi təşkilatda olmağımdan xəbərdardır. Özündən danışanda isə bildirdi ki, o da əksinqilabi təşkilatın üzvüdür və təşkilata İbrahim Tağıyev tərəfindən cəlb olunub. Gülarə dedi ki, o, əksinqilabi işi məsul vəzifələrdə olan azərbaycanlı qadınlar arasında aparır və bunu təşkilatın göstərişi ilə edir».

Bu sözləri Qasımov 1937-ci il sentyabrın 4-də ifadə verdiyi zaman deyir.

Qədirbəyova haqqında təqdim olunan arayışa həmçinin Həmid Sultanovun 1937-ci il iyulun 31-də verdiyi ifadədən bir parça da əlavə olunmuşdu. O, Gülarə Qədirbəyovanın əksinqilabi təşkilata Qasımov Mirzə Məmməd tərəfindən cəlb olunduğunu təsdiq edirdi.

Bu, hələ Gülarənin ünvanına söylənilən böhtanların hamısı deyildi. Azərbaycan SSR Prokurorluğu Kadrlar şöbəsinin keçmiş rəisi Bilqeyis Həşimzadə 1937-ci ildə iki dəfə – fevralın 25-də və iyunun 17-də M.Bağırovun adına ərizə yazaraq göstərmişdi ki, Gülarə Qədirbəyovanın artıq həbs edilmiş və ölümə məhkum edilərək güllələnmiş müsavatçı yazıçılar Qurbanovla, Əhməd Cavadla, Hüseyn Cavidlə əlaqələri olub. Bilqeyis onun, həmçinin, Tamara Salikova, Sənubər Əyyubova və Xavər Qarayeva ilə (məhkum olunublar) əlaqə saxladığını bildirmişdi. Ərizələrdə Qədirbəyovanın «Azneft»in mühəndisi Xədicə Hüseynova və başqaları ilə də münasibətləri qeyd edilirdi.

Beləliklə, 1938-ci il iyulun 23-də Köylü qızının həbs olunması üçün L-956 nömrəli order verilir. İyulun 26-da İsmayıllı rayonunun Basqal kəndinə anasının dəfninə gəlmiş Gülarəni elə oradaca həbs edirlər. Bu vaxt onun Azərbaycan SSR CM-in 72 və 73-cü maddələri ilə məsuliyyətə cəlb edilməsi irəli sürülmüşdü.

Təəccüblüdür ki, Qədirbəyovanın həbs olunması barədə qərar onun tutulmasından bir gün sonra – iyulun 27-də yazılır. Bu da bütün baş verənlərin məqsədli olduğunu, tələm-tələsik həyata keçirildiyini və bu zaman qanunun kobud şəkildə pozulduğunu göstərir.

Gülarə Qədirbəyova həbs ediləndə 35 yaşı vardı. Cavan olsa da, ona tapşırılan vəzifələrin hamısını ləyaqətlə yerinə yetirmiş, bununla da məmuru olduğu dövlətə, xidmət etdiyi quruluşa öz sədaqətini kifayət qədər göstərə bilmişdi. Odur ki, Köylü qızı haqqında deyilənlərin və yazılanların hamısı uydurma və böhtan idi.

Gülarə Qədirbəyova barədə məlumatların hamısı kor-koranə təhrif olunur, hadisələr repressiya rejiminin xeyrinə işləyirdi. Məsələn, Mirzə Məmməd Qasımov öz ifadəsində onun dəstəbazlıq dövründə AK(b)P MK rəhbərliyinin əleyhinə mübarizədə fəal iştirak etdiyini söyləmişdi. Gülarənin Məbud Zeynalov və onu partiyaya götürən İbrahim Tağıyevlə də sıx əlaqə saxladığını demişdi.

1938-ci il noyabrın 17-də XDİK-in müvəkkili Korneşovun G.Qədirbəyovanın işi ilə bağlı şahid sifəti ilə dindirdiyi Bilqeyis Həşimzadə də «məhkum» haqqında geniş «məlumat» verir. O, Köylü qızı Gülarə haqqında yazdığı «donos»larla kifayətlənməyib, burada da ürəyindəki kinləri açıb tökür. «Şahid» bildirir ki, Gülarənin qardaşı Kərim Qazıyev «Müsavat» partiyasının fəal üzvü kimi əksinqilabi fəaliyyətinə görə məhkum olunub sürgün edilmişdi, digər qardaşı Yusiflə daim əlaqə saxlayır. Onların ailəsi haqqında həqiqətə uyğun olmayan digər «faktlar» da göstərir.

Bilqeyis Həşimzadə öz ifadələrində Köylü qızının müsavatçı yazıçılar və digər ifşa olunmuş «xalq düşmənləri» ilə münasibəti olduğunu tam «sübuta yetirir». Beləliklə, «Bir sarayın tarixi» kitabının taleyinə də öz versiyası üzrə «aydınlıq» gətirir: «Kitabın hazırlanmasını o, müsavatçı yazıçıya, Musayev Qurbana tapşırmışdı. Musayev isə kitabı ideoloji cəhətdən qüsurlu, mənfi ruhda tərtib etmişdi. Qədirbəyova isə bundan nəticə çıxarmayaraq əsərin tərtibini başqa müsavatçı yazıçıya – Əhməd Cavada tapşırmışdı. O isə kitabı ideoloji cəhətdən daha da yararsız hala salmışdı. Qeyd etməliyəm ki, Qədirbəyova «Bir sarayın tarixi»ni şəxsən özü redaktə edirdi. Buna görə də heç təsadüfi deyil ki, bu kitab müsavatçılıq ruhunda yazılmışdı. Qədirbəyova dəfələrlə şəxsən mənə deyirdi ki, o, artıq ifşa olunmuş xalq düşməni, müsavatçı yazıçı Hüseyn Cavidlə yaxınlıq edir. Bir də Qədirbəyovanın artıq xalq düşməni kimi ifşa olunmuş mühəndis Xədicə Hüseynova ilə də çox sıx əlaqələri var idi. Onlar ikisi də Əli Bayramov adına sarayda işləyir, birlikdə vaxtlarını keçirir, dostluq edirdilər».

1938-ci ildə Köylü qızı dörd dəfə – avqustun 15-də, oktyabrın 31-də, noyabrın 15-də və 21-də istintaq dindirilməsinə cəlb

olunur. Elə buradaca haşiyə çıxaraq deyək ki, repressiyaya məruz qalan Azərbaycan qadınlarının hamısı istintaq zamanı özlərini çox mərdliklə aparmışlar. Onlar müstəntiqlərin suallarına qorxmadan cavab vermiş, reallıqda olanları demişlər. Repressiyaya məruz qalmış bu azərbaycanlı xanımların həyat və fəaliyyəti, mübarizəsi ilə maraqlanıb tanış olarkən gəldiyimiz qənaət belədir. Hətta o dövrün vicdanını itirmiş, özləri də bilə-bilə yalan və böhtan yağdıran müstəntiqləri belə onların boynuna etmədikləri işləri qoya bilməmişlər. Zənnimizcə, Azərbaycan xanımlarına bütün tarix boyu müyəssər olan bu yüksəkliyin «xırdalanmağa», yəni şərhə ehtiyacı yoxdur.

Bu faktı məhz Köylü qızı Gülarə haqqında danışarkən xatırlatmağımız da təsadüfi deyil. Elə müstəntiq tərəfindən birinci dəfə dindirilərkən ona əksinqilabi-millətçi təşkilatın üzvü kimi təqsirləndirildiyinin doğruluğunu etiraf etmək təklif olunur.

Gülarə xanım belə cavab verir: «Rədd edirəm. Mən heç bir təşkilatda olmamışam».

Ona deyirlər ki, müqavimət göstərməsin, onsuz da adıçəkilən təşkilatın üzvü olduğunu istintaq müəyyən edib.

Gülarə yenə də qətiyyətlə cavab verir ki, heç zaman heç bir təşkilata daxil olmayıb. Növbəti dindirmədə Köylü qızı öz işi ilə əlaqədar kimlərlə yaxınlıq etməsi barədə sualı da doğru-dürüst cavablandırır: «Mən 1930-cu ildə Tiflisdə Zaqafqaziya Vilayət Komitəsinin Qadınlar bölməsinin müdiri işləyirdim. ÜİK(b)P-nin Qadınlar şöbəsinin keçmiş müdiri İşkova Klavdiya ilə əlaqəm var idi. Sultanova Ayna və Rəhmiyeva Məmurə ilə də. «Şərq qadını» jurnalında işləyəndə Səməd Vurğunla, Şamilovla, Qantəmirlə, Süleyman Rüstəmlə».

Üçüncü dindirmədə də müstəntiq Gülarə xanıma öz dili ilə əksinqilabi təşkilatın üzvü olduğunu etiraf etdirmək istəyir. O, dönə-dönə təkrar edir ki, bu təşkilatın olması barədə məlumatı belə olmayıb, heç qəzetlərdə də bu barədə oxumayıb.

Müstəntiq vaxtilə Həmid Sultanovun və Mirzə Məmməd Qasımovun onun haqqında verdikləri ifadələri səsləndirir. Qədirbəyova Həmidi yalnız məsul işçi kimi tanıdığını və onun

dediklərinin böhtan olduğunu bildirir. Mirzə Məmmədin dediklərinə gəldikdə isə, Gülarə bu şəxsin ona qarşı pis münasibətdə olduğundan belə böhtanlar yaydığını söyləyir.

Sonuncu – dördüncü dindirmə də heç bir nəticə vermir. Bütün suallara rədd cavabı alınır. Əzab, işgəncə yolu ilə onun iradəsini sındırmaq istəyirlər. Bütün cəhdlər boşa çıxır. Nəhayət, 1939-cu il yanvarın 20-də Gülarə Qədirbəyovanın işi üzrə istintaqın bitməsi haqqında protokol tərtib olunur. Protokolla onun özü də tanış edilir və oraya bu sözləri yazır: «Mən partiyanın namuslu və sadiq üzvü olaraq qalıram».

Qədirbəyovanın işi üzrə tərtib olunmuş ittihamnamədə deyilir: «Qədirbəyova Gülarə İbrahim Xəlil qızı müqəssirdir, ona görə ki, o, əksinqilabi-millətçi təşkilatın fəal üzvü olaraq, həmin təşkilatın üzvləri ilə əlaqə saxlayırdı. O, AK(b)P MK rəhbərliyini hörmətdən salmaq üçün millətçi söhbətlərdə iştirak edirdi və əksinqilabi iş aparırdı, yəni Azərbaycan SSR CM-in 72 və 73-cü maddələri ilə cinayət məsuliyyəti daşıyır. Qədirbəyova özünü müqəssir bilmir.

Qədirbəyovaya təqdim edilən ittihamın sübut olunduğunu nəzərə alaraq həmin işin baxılması SSRİ xalq daxili işlər komissarı yanında olan Xüsusi müşavirəyə verilsin. İşə əşyayi-dəlil olan «Bir sarayın tarixi» adlı kitab əlavə edilir».

1939-cu il fevralın 1-də Azərbaycan SSR prokurorunun müavini Selivestrov, martın 28-də XDİK yanında Xüsusi müşavirə katibliyinin 1-ci şöbəsinin müdiri leytenant Borovkov və Xüsusi müşavirə katibliyinin rəisi kapitan Markeyev bu ittihamnaməni təsdiq edirlər. Həmin il iyunun 9-da isə Xüsusi müşavirə qərar çıxarır və onun məzmunu 14 nömrəli protokolda öz əksini tapır. Gülarə Qədirbəyovanı guya antisovet təşkilatında iştirak etdiyinə görə beş il müddətində həbs düşərgəsinə göndərirlər. Qeyd edək ki, həmin müşavirənin gündəliyini Azərbaycan SSR XDİ komissarını əvəz edən baş leytenant Xoren Markaryan tərtib edir (mənfur millətin nümayəndələri fürsət düşən kimi Azərbaycan xalqının sayseçmə övladlarına gücləri çatan ağırlıqda zərbə endirmək məqamını əldən vermirdilər).

Taleyinin hökmündənmi, yoxsa amansız rejimin naqisliyindənmi, bəlkə də hər iki səbəbdən bu cəfakeş, mübariz qadının qarşısına daim mənəviyyatsız adamlar çıxırdı. Heç şəxsi həyatında, ailədə də xoşbəxt olmamış, başına müsibətlər gəlmişdi. Birinci ailəsində səadət tapa bilməmişdi. Hətta Gülarənin istintaq işinin içində həyat yoldaşı Əhməd Qədirbəyovun hələ 1928-ci ilin noyabrında Azərbaycan Dövlət Siyasi İdarəsinin məxfi şöbəsinin rəisi Moroza və həmin idarənin Şərq şöbəsinin müdiri Jukova yazdığı böhtan dolu məktub da var idi.

İkinci həyat yoldaşı Asəf Rəhmanovu isə günahsız olduğu halda həbs etmiş və 1938-ci il yanvarın 3-də güllələmişdilər. O, uzun müddət təhlükəsizlik orqanlarında işləmişdi, çekist idi. Qardaşı Kərim Qazıyev «Müsavat» partiyasının fəal üzvü kimi sürgün edilmişdi.

Lakin bütün bunlara baxmayaraq, Azərbaycan xalqına dəyərli ziyalılar vermiş bu ailənin yeni nəslinin nümayəndələri bu gün də yaşayır, qurub-yaradırlar. Onlar Gülarənin bacı-qardaşlarının övladları, nəvələridir.

Azərbaycan Dillər Universitetinin İngilis dilinin leksikası və ölkəşünaslıq kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Məsməxanım Qazıyeva ilə telefonla həmsöhbət olduq. Məsməxanım bibisi Köylü qızı Gülarəni ən xoş və kövrək duyğularla yad etdi. Ondan öyrəndik ki, Gülarənin Qori Seminariyasının məzunu olan qardaşı, yəni Məsməxanımın atası Yusif müəllimliklə məşğul olub. Vaxtilə Abdulla Şaiqdən dərs almış filoloq Yusif Qazıyev bir müddət Bakı Dövlət Universitetində dərs deyib. Repressiyanın qurbanı olan Kərim isə həm riyaziyyatçı idi, həm də gözəl qələmi vardı. Qazıyevlərin ulu babası «Zövqi» təxəllüsü ilə şeirlər yazmış, tərcümələr etmişdir.

Məsməxanım bibisi haqqındakı bu qeydlərdə faktların düzgün olmasında, bir sıra qaranlıq məqamların açılmasında da bizə böyük dəstək verdi.

İndiyədək bizim tanış olduğumuz mənbələrin bəzilərində Gülarə xanımın 1942-ci ildə sürgündə vəfat etdiyi bildirilirdi.

Səbəbi isə heç göstərilmirdi. Bəzi mənbələrdə isə onun son taleyinin naməlum olduğu qeyd edilirdi.

Hətta 1950-ci ilin oktyabrında DTK-nın bölmə rəisi polkovnik-leytenant Ələkbərov nazir müavini polkovnik Kərimova bu barədə bir raport da yazır. Raportda deyilirdi: «1942-ci ilin may ayında məhbus Qədirbəyova Gülarə İbrahim Xəlil qızı Sibladan (Marinskdən) yox olub və onun indi harada olduğu yer məlum deyil. Qədirbəyova Gülarə DTK və SSRİ Prokurorluğunun 1948-ci il 28 oktyabr tarixli 656/241 ss nömrəli qərarına görə yenidən həbs olunmalıdır. Xahiş edirəm, Qədirbəyovanın axtarılmasına sərəncam verəsiniz».

Kərimov həmin raporta bu məzmunda bir dərkənar yazır: «Axtarış elan edilsin… Yeri müəyyən olunandan sonra həbs olunsun». Cəzasının bitməsinə bir il qalmış guya Gülarə xanım yoxa çıxıb, agent müşahidəsindən qaçıb gizlənib. Halbuki o vaxt Gülarə artıq həyatda yox idi…

1990-cı illərdə Azərbaycanda Gülarə Qədirbəyovanın xatirəsinə bir yubiley düzənlənir. Həmin tədbirdə professor Əzizə Nəcəfova ürək göynədən bir hekayət danışır. Bu hekayət bizlərə Köylü qızının son taleyinin də çox acınacaqlı olduğunu xəbər verir. «Xalq düşməni» elan edilmiş günahsız müqəssir, mətin qəlbli əzabkeş həkim Tehran Şəmsəddinskaya sağlığında gəlini Əzizə xanıma danışıb ki, sürgündə G.Qədirbəyova ilə eyni düşərgədə olublar. Tezliklə dostlaşıb, sirdaşlaşıb, xoş münasibət qurublar. Günlərin birində Gülarənin qarın nahiyəsində güclü ağrılar başlayıb. O, bu şiddətli ağrılara dözə bilməyib düşərgə həkiminə müraciət edir. Korbağırsağın iltihabından şübhələnirlər. İki dəfə cərrahiyyə əməliyyatı edilir. Yenə də ağrılar ara vermir. Gülarə 1942-ci il dekabrın 29-da Tomskaya dəmiryol stansiyasının xəstəxanasında, peşəkar həkim, tibb bacısı, dava-dərman tapılmayan yerdə üçüncü cərrahiyyə əməliyyatından sonra, elə masadaca həyata əbədi olaraq əlvida deyir. Bu, Köylü qızının sürgündən yoxa çıxmasının (bu da rejimin ona atdığı daha bir, növbəti və son böhtan idi!) yalan olduğunu təsdiqləyən mühüm fakt idi. Tehran xanım Gülarənin nə zaman, harada vəfat etdiyini görüb,

dəfninin iştirakçısı olub. Bax bu «məlumat» Qədirbəyovanın işinin toplandığı qovluqda olmayıb.

İllər sonra, yəni 1957-ci il sentyabrın 13-də Azərbaycan SSR prokurorunun müavini İsmayılov Gülarə Köylü qızının cinayət işi üzrə etirazını bildirir. Xahiş edir ki, Qədirbəyova haqqında Xüsusi müşavirənin 1939-cu il 9 iyun tarixli qərarı ləğv edilsin və işdə cinayət tərkibi olmadığı üçün xətm olunsun.

Həmin il oktyabrın 10-da Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə kollegiyasının qərarı ilə bu xahiş yerinə yetirilir.

Cəmi 39 il yaşadı Gülarə Köylü qızı. Bu illərin bəziləri fərəh və şöhrət, bəziləri iftira və böhtan, bəziləri isə əzab və işgəncə ilə dolu oldu. Amma Köylü qızı hər bir şəraitdə qəlbində işıqlı arzular, bahar duyğuları yaşatdı. Sonadək ümidini itirmədi. Lakin zamanın amansız hökmü onu ömrünün 40-cı baharını qarşılamağa imkan vermədi, həyatını xəzana döndərdi. Artıq onilliklərdir insanların qəlbində özünə yer tapıb Köylü qızı. Baş Göynük kəndində adını daşıyan orta məktəbin şagirdləri kimi, yeni nəsillərin nümayəndələrinin hamısı onu həmişə istedadlı jurnalist, alovlu maarifçi, iradəli, qətiyyətli, nadanlara baş əyməyən qeyrətli bir insan kimi yad edəcək.

Təsəlli verəcək bir fakt da var ki, Gülarə Qədirbəyova malik olduğu ən yüksək keyfiyyətlərini – müstəqilliyini, cəsarətini, mərdliyini, hətta inadkarlığını ömrünün son anına qədər itirməmişdi. Odur ki, bütün Azərbaycan xalqının qan yaddaşında hörmət və nüfuzunu indiyədək qoruyub saxlamaqdadır.

UYDURULMUŞ CİNAYƏTİN AMANSIZ CƏZASI

Repressiyaya uğramış Azərbaycan ziyalıları içərisində maarif komissarı Məmməd Cuvarlinski 33-cü idi

XX əsrin 50-ci illərinin ikinci yarısında Sovet hökuməti vaxtilə Stalin repressiyası dövründə saxta ittihamlar əsasında sürgünlərə göndərilmiş, işgəncələrə məruz qalmış, amansızcasına güllələnmiş yüzlərlə insana bəraət verdi. Bu addım tarix və yeni nəsillər qarşısında həmin adamların günahsızlığını, vicdanının paklığını, şəxsiyyətlərinin bütövlüyünü göstərdi. Amma nə yazıqlar ki, onların özlərini həyata qaytarmaq, həmin insanların şəxsində xalqın itirdiklərini bərpa etmək artıq mümkün deyildi. Söhbət ötən əsrin 30-cu illərində «böyük rəhbər»in əlaltılarının (onların arasında mənfur qonşularımızın nümayəndələri ön sırada idi) cəllad qılıncı ilə həyatlarına son qoyulmuş ləyaqətli Azərbaycan oğullarından gedir.

1950-ci illərdə verilən bəraət sənədlərindəki ifadələrlə desək, «haqqında qaldırılan iş uydurma», cəzası «tamamilə əsassız olmuş» görkəmli Azərbaycan ziyalılarından biri də Məmməd İsmayıl oğlu Cuvarlinski idi.

M.Cuvarlinski öz əməyi sayəsində ucalan, həyatın enişli-yoxuşlu yollarında öz gücü ilə irəliləyən, xalqına bacardığı qədər fayda verməyi xoşbəxtlik sayan həqiqətən işıqlı bir şəxsiyyət idi. Hələ cavan ikən bir sıra məsul vəzifələrə irəli çəkilmişdi. 35 yaşında «qırmızı terror»çuların gülləsinin qurbanı olana qədər raykom katibi, nazir müavini, nazir kürsülərində oturmuş, auditoriyalarda mühazirələr oxumuş, sayılmış, seçilmiş, nüfuz və söhrət qazanmışdı. Bu insan xarakterindəki bir xüsusiyyətlə daha çox fərqlənirdi: yalana,

Məmməd Cuvarlinski

riyakarlığa qarşı barışmaz idi. «Düzü düz, əyrini əyri» dediyi üçün yaşadığı zamanın bəlalarına tuş gəlmişdi. Başqa sözlə, Cuvarlinskinin yeganə «səhv»i bu olmuşdu ki, Mircəfər Bağırovu tənqid etmişdi. O dövrdə belə bir hərəkət etmək üçün böyük cəsarət, risk, sarsılmaz iradə gərək idi!

Zaman keçib, illər ötəndən, sular durulandan sonra, yəni 1955-ci il iyunun 17-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasına Məmməd İsmayıl oğlu Cuvarlinskinin işi üzrə verilən hökmün dəyişdirilməsi barədə qərar təqdim edilmişdi. Qərarda deyilirdi ki, M.Cuvarlinskinin həbsi tamamilə əsassız olmuş, onun haqqında qaldırılan iş uydurma materiallardan düzəldilmişdir.

Həmil il avqustun 3-də kollegiya 1937-ci il oktyabrın 12-də verilmiş hökmü ləğv etmiş və cinayət tərkibi olmadığı üçün iş xətm olunmuşdu.

Əslində M.Cuvarlinski kim idi və hansı günahına görə təqsirləndirilirdi?

Məmməd İsmayıl oğlu Cuvarlinski 1902-ci ildə Qaryagin qəzasının (indiki Füzuli rayonu) Cuvarlı kəndində kasıb bir ailədə doğulmuşdu. 1911-ci ildə ikisinifli kənd məktəbinə getmiş, lakin maddi çətinliklər onun tam təhsil almasına imkan verməmişdi. Atası kimi fərdi təsərrüfatda çalışmağa, ailənin dolanışığına kömək etməyə məcbur olmuşdu. Bununla belə, oxumağa, savadlı, elmli olmağa marağı onu bir an belə tərk etmirdi. Odur ki, 1916-cı ildə Gəncə əmək məktəbinə daxil olur. Lakin burada da peşə qazanmaq arzusu boşa çıxır. Bir müddət əvvəlcə şəhər idarəsində, sonra isə quberniya komissarlığında gözətçi işləyir. Həyat bu yeniyetməni addımbaşı sınağa çəkir, lakin onun həvəsini öldürə bilmir.

Gəncədə yaşadığı illərdə gənc M.Cuvarlinski sosial-demokratların bolşevik fraksiyasına meyil edir. İnqilabi təbliğat və təşviqatla məşğul olmağa başlayır. Əhali arasında intibahnamələr yayır, partiyanın tapşırıqlarını böyük məsuliyyətlə yerinə yetirir. Getdikcə bolşeviklərin ideyalarına daha yaxından bələd olur, bu istiqamətdə dünyagörüşünü günbəgün genişləndirir.

Rusiyada oktyabr çevrilişinin baş verməsi, Bakıda cərəyan edən hadisələr Məmmədin ictimai şüuruna, onun siyasi cəhətdən formalaşmasına güclü təsir göstərir. O zaman Gəncənin yerli hökuməti M.Cuvarlinskinin bolşeviklərdən olması barədə xəbəri eşidən kimi onu işdən azad edir. Beləliklə, doqquz aya yaxın fəhlələlik etdikdən sonra öz kəndinə qayıdır. Qəzanın kəndlərində təbliğat apararaq insanları sovetlərin qurulmaqda olan hökuməti uğrunda mübarizəyə səsləyir.

Azərbaycanda Sovet hakimiyyətinin ilk dövrlərindən özünü fəal komsomol təşkilatçısı kimi göstərdiyinə görə tezliklə, 1920-ci ilin sentyabrında M.Cuvarlinskini bolşevik partiyasının sıralarına qəbul edirlər. Partiya bileti, bir növ, onun vəzifə pilləsi ilə irəliləməsində vəsiqə rolunu oynayır. M.Cuvarlinskini Qəza İnqilab Komitəsinin təlimatçısı təyin edirlər. Cəmi bir ildən sonra isə o, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Sovet Partiya Məktəbinə göndərilir. Oranı da bitirdikdən sonra M.Cuvarlinskiyə Azərbaycan K(b)P Qaryagin Qəza İnqilab Komitəsinin Təbliğat-təşviqat şöbəsinə rəhbərlik etmək tapşırılır.

Bir müddətdən sonra o, Moskvada ÜİK(b)P MK yanındakı partiya işçiləri hazırlayan kursa oxumağa göndərilir, eyni zamanda Pedaqoji Texnikumu bitirir. Sonra həyat yolları onu yenidən Gəncəyə gətirir. Beləliklə, 1926-1929-cu illərdə əvvəlcə Gəncədə, sonra da Qubada dairə komitəsində təşkilat şöbəsinin müdiri olur. 1930-cu ildə isə Azərbaycan Maarif İşçiləri Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin məsul katibi vəzifəsində işləyir.

Bu zaman gənc partiya işçisinin vəzifələri tez-tez dəyişirdi. Heç nəyə baxmayaraq, o, hər vəzifədə etimadı doğrulda və işi irəli apara bilirdi. Ötən əsrin 30-cu illərinin əvvəllərindən ona

tapşırılan vəzifələr yenə də bir-birinin ardınca yuxarıya doğru dəyişməyə başlayır. Sabirabad Rayon Partiya Komitəsinin katibi, Dövlət Plan Komitəsinin bölmə rəisi, Azərbaycan K(b)P MK-nın Sovet ticarəti şöbəsi müdirinin müavini kimi məsul vəzifələrdə çalışır.

Həmin dövrdə M.Cuvarlinski ali məktəb müəllimi kimi də fəaliyyətə başlayır. 1932-1934-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Sosialist təsərrüfatı nəzəriyyəsi kafedrasına rəhbərlik edir, auditoriyalarda isə sosialist təsərrüfatı və partiya quruculuğu məsələlərindən dərs deyir. 1933-cü ildə artıq ona dosent elmi adı verilir.

M.Cuvarlinski Azərbaycanda maarifin inkişafı naminə çox işlər görüb. Hələ xalq maarifi komissarının müavini olanda Gəncə Kənd Təsərrüfatı İnstitutunun yaradılmasına böyük dəstək verir.

1934-1935-ci illərdə M.Cuvarlinski Azərbaycan xalq maarifi komissarı vəzifəsində çalışır. Bu, respublikada təhsilin yeni inkişaf mərhələsinə qədəm qoyduğu, sahənin bir çox problemlərinin nisbətən öz həllini tapdığı illər idi. Cuvarlinski var qüvvəsi ilə çalışaraq bütün məsələlərə diqqət yetirməyə, heç nəyi yaddan çıxarmamağa, işə kompleks yanaşmağa nail olurdu. Ümumtəhsil məktəbləri şəbəkəsinin yaradılması, yüksəksəviyyəli pedaqoji kadrların hazırlanması xüsusi önəm daşıyırdı. Xatırladaq ki, bu dövrdə o, həm də paralel olaraq Pedaqoji İnstitutda çalışırdı, kafedra müdiri idi.

Məhz 30-cu illərdə icbari ibtidai təhsilə keçid uğurla sona çatdı. Ümumi icbari yeddiillik təhsilə keçid başlandı, savadsızlığın kütləvi ləğvi sahəsində uğurlar qazanıldı. Bununla belə, təhsilə siyasi nəzarət, onun məzmununun siyasi ideologiyaya tabe etdirilməsi hələ də hökm sürürdü.

Sərt və ciddi qanunların tətbiqi ilə səciyyəvi olan 30-cu illərdə məktəblə bağlı qəbul olunmuş qərarlar, sinfi mübarizənin gücləndirilməsi haqqında Stalin ideyası yeni, arzuolunmaz istiqamətin formalaşmasına səbəb olurdu. Bunlar «təkcə siyasi sənəd deyil, pedaqoji prosesə partiyalı rəhbərliyi təmin edən metodoloji proqram idi» *(F.Rüstəmov, «Azərbaycanda*

pedaqogika elminin inkişaf yolları (1920-1991)» Bakı, 2003). Bu dövrdə işləmək də çətin idi. Repressiya dalğası, ifşaedici yığıncaqlar, «pantürkist», «panislamist», «əksinqilabçı» damğaları addımbaşı hər kəsi izləyirdi. Millətinə bağlı nə qədər ziyalı – pedaqoq, işıqlı təfəkkür sahibləri ölüm maşınının qarşısına yuvarlanırdı.

Ruslaşdırma siyasəti davam edirdi. Proqram və dərsliklər Moskvada tərtib edilir, sonradan Azərbaycan dilinə tərcümə olunurdu. Yalnız ana dili və ədəbiyyatı üzrə proqram və dərsliklərin Azərbaycanda hazırlanmasına icazə vardı. Respublikada latın qrafikasından Kirilə keçilməsi də siyasi qərar xarakteri daşıyırdı.

1933-cü il mayın 20-də Azərbaycan KP MK «Proqram və dərs kitablarının ümumiləşdirilməsi haqqında» qərar verdi. Bütün fənlər üzrə (ana dilindən başqa) dərsliklər və proqramlar Rusiya Xalq Maarifi Komissarlığının nəzarəti altında, onların tərtib etdikləri proqramlarla eyni olmalı idi. Bununla belə, Azərbaycan alimləri və pedaqoqları verilən icazələr daxilində əllərindən gələni edirdilər. Bu işdə Cuvarlinskinin xidmətləri xüsusi vurğulanmalıdır. Həmin dövrdə ibtidai məktəblər üçün orijinal dərsliklərin tərtibinə başlandı. Azərbaycanlı müəlliflər tərəfindən sabit dərs kitabları yaradıldı.

Yuxarı siniflər üçün dərsliklər rus dilindən olduğu kimi tərcümə edilirdi. Yalnız müəyyən fəsillərə Azərbaycan haqqında qısa məlumatlar əlavə olunurdu. Bu, qənaətedici deyildi. Həmin dövrdə yazıçı Mirzə İbrahimov böyük cəsarətlə yazırdı: «Balalarımız Yunanıstanın, İtaliyanın, İngiltərənin, Rusiyanın tarixini keçir, lakin üzərində doğulduğu torpağın və qucağında pərvəriş tapdığı xalqın tarixindən xəbərsiz qalaraq məktəbi bitirirlər».

Əlbəttə ki, belə ağır şəraitdə, qısa bir vaxtda tələbləri ödəyən dərsliklər yaratmaq çətin idi. Bu işdə buraxılan səhvlər az sonra dövlət orqanlarının tənqid obyektinə çevrildi. SSRİ Xalq Maarifi Komissarlığı və partiyanın Mərkəzi Komitəsi «İbtidai, natamam, orta məktəblər üçün dərs kitablarının nəşri və satışı haqqında» xüsusi qərar qəbul etdi. Azərbaycan dilində dərsliklərin

nəşrinə respublika rəhbərliyi səviyyəsində nəzarət olunmağa başlandı.

Bir daha vurğulayaq ki, Cuvarlinskinin Xalq Maarifi Komissarlığında rəhbər vəzifələrdə işlədiyi illər ən vacib qərarların qəbul edildiyi, mühüm addımların atıldığı, genişmiqyaslı işlərin görüldüyü dövr idi. Onlardan yalnız bəzilərini sadalamaqla bu tədbirlərin əhatə dairəsini aydın təsəvvür etmək mümkündür. Məsələn, 1931-ci il yanvarın 25-27-də Azərbaycan müəllimlərinin V (II) qurultayı keçirilir. Elə həmin il iyulun 1-də Azərbaycan SSR Xalq Komissarlığının əmri ilə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji İnstitutu yaradılır.

1932-ci ilin aprelində Xalq Maarifi Muzeyi təşkil olunur. Avqustda isə ÜİK(b)P MK «İbtidai və orta məktəblərin rejim və tədris proqramları haqqında» qərar qəbul edir.

1932-1933-cü illərdə icbari təhsilə keçidlə bağlı respublikanın ibtidai məktəblərində təhsil müddəti beş ildən dörd il müddətinə müəyyənləşdirilir.

1933-cü il fevralın 12-də ibtidai və orta məktəb dərslikləri və dərs kitabları ilə bağlı bir gündə iki qərar qəbul edilir. 1934-cü ilin əvvəlində elmi-pedaqoji kadrların attestasiya sistemi yaradılır. Həmin ilin may ayında isə SSRİ-də, o cümlədən Azərbaycanda ümumtəhsil məktəblərinin tipləri müəyyənləşdirilir. 1934-cü ildə Azərbaycan Dövlət Universiteti bərpa olunur. «Kommunist maarifi» («Azərbaycan müəllimi») qəzeti nəşrə başlayır.

1935-ci ildə məktəblərdə tədris işinin təşkili və məktəbdaxili qaydalar xüsusi qərarda öz əksini tapır. Ali təhsil müəssisələrinə və texnikumlara qəbul zamanı məhdudiyyətlər aradan qaldırılır. İcbari natamam orta təhsilə keçid başlanır.

Bütün bu qərarlar və başlanğıclar çərçivəsində görülən işlərə xalq maarif komissarı Cuvarlinski rəhbərlik edir, müvafiq qüvvələrin həmin işlərə səfərbər olunmasında səylə çalışır.

Bu zaman sədaqətlə xidmət etdiyi dövlət və partiya ona növbəti vəzifəni tapşıraraq başqa sahədə iş verir. Nuxa (Şəki) Şəhər Partiya Komitəsinin birinci katibi olur.

Cuvarlinskinin çoxşaxəli fəaliyyətindən danışarkən onun mətbuatla əlaqələri və əməkdaşlığı da xüsusi vurğulanmalıdır.

O, bir müddət hətta «Partiya işçisi» jurnalının redaktoru vəzifəsində çalışır.

Maarif, pedaqoji iş sahəsində qazandığı təcrübəni, nəzəri və praktiki bilikləri geniş yaymaq üçün Məmməd müəllim tez-tez dövri mətbuatda çıxış edirdi. O, eyni zamanda, məktəb və maarif haqqında bir kitabça və 20-yə qədər məqalənin müəllifi idi. Mətbuat səhifələrindəki hər çıxışı məktəb həyatının, pedaqoji kadrların yetişdirilməsinin və s. ən aktual problemlərinə toxunurdu. Məsələn, «Bakinski raboçi» qəzeti 15 yanvar 1931-ci il tarixli nömrəsində Cuvarlinskinin geniş bir məqaləsini dərc etmişdi. Məqalə kənddə mədəni-maarif işlərinin təşkilində və inkişafında müəllimlərin roluna həsr olunmuşdu. Başqa sözlə desək, Cuvarlinskinin bu məqaləsi sanki kənd müəlliminin rolunu müəyyənləşdirən bir proqram idi. Müəllif yazırdı ki, kənd müəllimi təbliğatçıdır, mühazirəçidir, maliyyə işçisidir, sözün geniş mənasında, kənd ictimaiyyətçisidir. Zaman da dəyişir, quruluş da. Amma müəllim kənddə aparıcı bir sima olaraq qalır. O, indi də kənd ziyalılarının önündə gedərək öz sözü, nüfuzu ilə fərqlənir. Xalq üçün, vətən üçün layiqli övladlar, bilikli insanlar yetişdirir.

Cuvarlinskini dövrünün ziyalı, mütərəqqi şəxsiyyətləri ilə sıx dostluq telləri bağlayırdı. O, musiqi sənətinin inkişafı ilə maraqlanar, bu sahənin problemlərinə yardım edərdi. Bəstəkar Müslüm Maqomayev məktublarının birində ona bildirirdi ki, yeni opera üzərində işləyir. Cuvarlinski bunun cavabında sevindiyini və ona uğurlar arzuladığını yazırdı.

Məmməd Cuvarlinski Azərbaycan Xalq Cümhuriyyətinin baş naziri Nəsib bəy Yusifbəyli ilə yaxın qohum idi. O, Nəsib bəyin böyük qardaşı Həmid bəyə arxa olub onu həbsdən qoruyanda heç bilmirdi ki, bir gün özü də yalançı iddialarla günahlandırılıb «xalq düşməni» elan ediləcək.

Həmid bəy Azərbaycan və rus ədəbiyyatının mahir bilicisi olub. 30-cu illərin əvvəllərində o, «Türkan» adlı bir pyes yazır və əsər Gəncə Dram Teatrının səhnəsində tamaşaya qoyulur. Həmid bəy antisovet təbliğatı aparmaq bəhanəsi ilə həbs edilir. Lakin o, izahatında yazır ki, aparın məni edam edin, mənə qarşı

irəli sürülən iddianı qəbul etmirəm. Bir il DTK-da saxlandıqdan sonra heç bir dəlil-sübut tapılmadığı üçün azadlığa buraxılır.

Həmid bəyin bacısı nəvəsi Rafat Cuvarlinski yazır ki, «otuzuncu illərdə Kommunist Partiyasının sıralarında yüksək vəzifələrdə işləyən qohumu Məmməd Cuvarlinski o zaman Həmid bəyin dadına çatır. M.Cuvarlinskiyə görə bir müddət ona dəymirlər. 1932-ci ilin sentyabrında Kirovabad (indi Gəncə – **İ.Ə.**) İndustrial (Sənaye) Politexnikumuna işə düzəlir və bununla bərabər Gəncədə 15 nömrəli məktəbdə dərs deyir… Həmid bəyin dayısı oğlu Eyyub Xanbudaqov 1937-ci il oktyabr ayının 12-dən 13-nə keçən gecə dahi şairimiz Əhməd Cavadla bir gündə güllələnir. Həmin gün onlarla birlikdə atamın əmisi, keçmiş xalq maarif komissarı Məmməd Cuvarlinski şəxsən Mircəfər Bağırovun əli ilə qətlə yetirilir».

Başqalarını dövrün bəlalarından qoruyan Cuvarlinski özü bu fəlakətlə üz-üzə qalır…

1937-ci il aprelin 14-də Azərbaycan SSR XDİK DTİ-nin 4-cü şöbəsi Azərbaycan K(b)P Nuxa şəhər komitəsinin keçmiş (təzəcə işdən çıxarılmış) katibi Məmməd İsmayıl oğlu Cuvarlinski haqqında arayış tərtib edir. Məzmunu «xalq düşməni» elan olunanların hamısı haqqında yazılanlara bənzəyir: «12493 nömrəli istintaq işi üzrə ittiham olunan əksinqilabi-millətçi təşkilatın üzvü Tixomirov öz ifadəsində göstərmişdir ki, Məmməd Cuvarlinski Azərbaycan əksinqilabi-millətçi mərkəzlə əlaqə saxlamışdır. Bu təşkilatın üzvlərindən Əli Kərimov və Eminbəyli Məmməd Cuvarlinski ilə sıx əlaqədə olduqlarını boyunlarına almış, Azərbaycan SSR maarif komissarı və Azərbaycan K(b)P MK aparatında işləyərkən onun əksinqilabi fəaliyyətini etiraf etmişlər.

Yuxarıda göstərilən faktlara əsasən Məmməd Cuvarlinskinin həbs olunub Azərbaycan SSR CM-in 72, 73-cü maddələri üzrə cinayət məsuliyyətinə alınmasını zəruri hesab edirik».

M.Cuvarlinskinin həbsi haqqında akt Dövlət Təhlükəsizlik İdarəsinin 4-cü şöbəsinin rəisi Sinman tərəfindən təsdiq olunur. Aprelin 14-də isə Azərbaycan XDİK rəisi Sumbatov təqdim olunan ittiham haqqında qərarı imzalayır. Bu qərar müttəhimə

yalnız iyulun 18-də çatdırılır. Çünki qərar verilən vaxt o, artıq Moskvaya şikayətə getmişdi.

Ziya Bünyadovun «Qırmızı terror» kitabında SSRİ XDİK DTİ-nin dördüncü şöbəsinin rəisi Volkovun SSRİ daxili işlər komissarının müavini M.P.Frinovskiyə (bu şəxs xidmət etdiyi rejimin qəzəbinə tuş gəlmiş və 1940-cı ildə güllələnmişdir) göndərdiyi məktubun məzmunu göstərilir. Məktubda deyilir: «Bu il iyunun 24-də Azərbaycan K(b)P MK-nın katibi yoldaş Bağırov SSRİ XDİK-ə xəbər vermişdir ki, Bakıda antisovet trotskiçi təşkilatın fəal üzvü kimi ifşa olunmuş Cuvarlinski istintaq orqanları tərəfindən axtarılır. Əldə olunan məlumata görə, hazırda Cuvarlinski Moskvada bu ünvanda: Stoleşnikov döngəsi, ev 9, mənzil 20-də yaşayır. Cuvarlinskinin həbsinə icazə verilməsini xahiş edirik».

İyunun 25-də Frinovski məktuba «Həbs edilsin» dərkənarını qoyur.

M.Cuvarlinskini Moskvada iyunun 25-də həbs edirlər. Onun həbsinə 2569 nömrəli order isə iki gün sonra verilir. Axtarış zamanı ondan Baş Dövlət Təhlükəsizlik İdarəsinə verilmək üçün Q.M.Malenkovun (ÜİK(b)P MK-nın Siyasi Bürosunun üzvü və MK-nın Rəhbər partiya orqanları ilə iş şöbəsinin müdiri) adına göndərilmiş məktubun, A.A.Andreyevə (ÜİK (b)P MK-nın katibi, MK-nın Siyasi Bürosunun üzvü), Bağırova və «Pravda» qəzeti redaksiyasına göndərilən ərizələrin – 28 səhifəlik beş ərizənin qəbzi götürülmüşdür. Sabahı gün SSRİ XDİK Baş DTİ-nin 4-cü şöbəsinin bölmə rəisi İ.Norko tərəfindən M.Cuvarlinski dindirilir. O, ifadələrində açıq şəkildə bildirir ki, Azərbaycan K(b)P MK-nın rəhbərliyindən və birinci katib M.Bağırovdan şikayətə gəlib. Əsas səbəb isə respublikanın rəhbər orqanlarında azərbaycanlıların qatı düşmənlərinin (yəqin, ruslar, ermənilər nəzərdə tutulurdu) kök salması ilə əlaqədar idi. Bundan sonra güclü təqiblər başlanır.

İyulun 8-də Cuvarlinski xüsusi mühafizə ilə Bakıya gətirilir və təkadamlıq ayrıca kamerada yerləşdirilir. Məhbusun Bakıya gətirilməsi çoxlarını sevindirir. Çünki ilk növbədə M.Bağırovun əmri yerinə yetirilmiş olur. Sumbatov dərhal Bağırovun

adından Baş İstintaq Qərargahına əmr verir ki, Cuvarlinski ilə hər cür rəftar etmək olar. Bütün müstəntiqlər, o cümlədən Şer «qatı cinayətkar»a qarşı cəzalara başlayırlar.

Və bir daha: Cuvarlinskinin günahı nə idi? Məsələnin bütün mahiyyəti onun həbsxanadan Stalinə yazdığı məktubda açılıb göstərilir. Maraqlıdır ki, 1945-ci ildə arxiv sənədləri saxlanılan yerdə yanğın baş verir, bir çox sənədlər məhv olur. Cuvarlinskinin göy mürəkkəblə qələmə aldığı, qəlbinin fəryadını ifadə edən və əsl həqiqəti gələcək nəsillərə çatdıracaq məktubunu təsadüf, yaxud hansı bir gözəgörünməz qüvvə isə qoruyub saxlayır. Həmin məktubda oxuyuruq: «1936-cı ilin dekabrında Azərbaycan K(b)P MK-nın plenumunda respublika rəhbərliyinin yarıtmaz işini, nöqsanlarını tənqid etmişdim. Bu çıxışım Bağırovun qəti narazılığına və etirazına səbəb olmuşdu. Elə həmin vaxtdan mən açıqca təqibə məruz qaldım.

1937-ci il martın 14-də Sovetlər qurultayının partiya qrupunda çıxış edərək Azərbaycan SSR-in konstitusiya layihəsinə bəzi düzəlişlər etdim. O zaman M.Bağırov əleyhimə qalxaraq məni qatı millətçilikdə günahlandırdı. 1937-ci il martın 19-da Azərbaycan K(b)P MK-nın plenumu Bağırovun təklifi ilə məni MK-nın bürosundan, martın 20-də partiya işindən xaric etdi.

Bütün bu çirkinliyə dözməyib Moskvaya gəldim və Malenkovun qəbuluna düşəcəyim günü gözlədim. Onun qəbulunda 1937-ci il iyunun 27-si və ya 28-i olmalı idim. Lakin iyunun 25-də gecə SSRİ XDİK-in nümayəndələri mənzilimə gəlib məni həbs etdilər. Artıq altıncı gündür ki, Butırski həbsxanasındayam.

Əziz rəhbərimiz! Budur, təmiz və namuslu bir bolşevik olduğum halda həbsxanaya düşmüşəm. Bu, təsadüfi deyil, Az.K(b)P MK rəhbərliyində yuva salmış çirkin əməllərin nəticəsidir və Bağırov isə bu yuvanın hörümçək toruna düşmüşdür. Mən Az.K(b)P MK rəhbərliyindəki çirkinliklərin qurbanıyam.

Yoldaş Stalin! Xahiş edirəm mənə kömək edəsiniz, əks-təqdirdə Bağırov məni məhv edəcək».

Bu məktubda həyəcanlı bir xəbərdarlıq harayı hiss olunurdu. M.Cuvarlinski artıq başı üstündə qatılaşan buludu,

həyatı və taleyi üzərində zorakılıq aktı ilə nəticələnən irticanı görür və yenə də həqiqətə, ədalətə güvənib «birinci adam»dan yardım istəyirdi. Bu, sadəcə olaraq, baş verənlərin məntiqi sübutu və faktdır.

1937-ci il iyulun 15-də Cuvarlinski dindirilir. Təbii ki, əksinqilabi-millətçi təşkilatda iştirakını qəti surətdə rədd edir. O, sonradan DTİ-nin 4-cü şöbəsinin rəisi Sinman və bölmə rəisinin köməkçisi leytenant Şerin (azərbaycanlıların qatı düşməni) tərtib etdikləri akta qol çəkmir. Orada oxuyuruq: «Hazırkı akt tərtib olunur, ondan ötrü ki, müttəhim Məmməd Cuvarlinski 1937-ci il iyulun 16-da keçirilən istintaqda hökumət rəhbərlərinin ünvanına böhtan ataraq bildirmişdir ki, Azərbaycan K(b)P MK-nın katibi M.Bağırov Cuvarlinskinin əleyhinə uydurulmuş materiallar hazırlamışdır. Azərbaycan XDİK-in rəisi Sumbatov və DTİ-nin 4-cü şöbəsinin rəisi Sinman bu işdə onun yaxın köməkçiləri olmuşlar.

Müttəhim Cuvarlinski hazırkı aktı imzalamaqdan imtina etmişdir».

Heç bir günahı olmayan Məmməd Cuvarlinski ona qarşı əvvəlcədən hazırlanmış uydurma faktlara inadla etirazını bildirir və «yoldaş Stalinə» yazdığı məktubdan xəbər gələcəyinə ümid edir. Cavabdan isə səs-soraq yox idi…

«Günah»ını boynuna alması üçün Məmməd Cuvarlinskiyə olmazın işgəncələr verilir. Bunları sözlə ifadə etmək, dilə gətirmək çox çətindir. Amma arxiv sənədləri dindirilmələrin hansı şərtlər altında keçdiyinə şahidlik edir.

DTİ-nin keçmiş əməkdaşı İ.M.Krotkov (1954-cü il noyabrın 30-da alınmış ifadə) bunu belə xatırlayırdı: «Bir dəfə Şerin göstərişi ilə Cuvarlinskini 5-6 müstəntiq əhatəyə alıb rezin dəyənək və burulmuş nəm döşəkağı ilə döyüb işgəncə verirdilər. Cuvarlinski küt ağrılara dözməyib yıxılır, yenidən təpik və yumruqla ayağa qaldırıb vururdular. Bütün bunlar təhqir xarakteri daşıyırdı. Sonra isə bunu əyləncə məqsədilə edirdilər. Verilən işgəncələr nəticəsində Cuvarlinski tam taqətdən düşürdü, yarışüurlu vəziyyətdə özünə heç bir hesabat vermədən istənilən sənədə, ifadəyə qol çəkirdi. Şer, Kolya,

Musatov, Mədət Həsənov, Mustafa Mustafayev və mən Cuvarlinskiyə olmazın işgəncələr vermişik.

1937-1938-ci illərdə kütləvi həbslər zamanı partiya sovet orqanlarının bütün rəhbər işçiləri, xalq komissarları və onların müavinləri tutulurdular. Məsələn, Maarif Komissarlığında beş xalq komissarı – Pənah Qasımov, Məmməd Cuvarlinski, Müseyib Şahbazov, Məmmədsadıq Əfəndiyev, Maqsud Məmmədov, habelə maarif komissarının iki müavini repressiyaya məruz qalmışdı».

Azərbaycan XDİK idarəsinin keçmiş əməkdaşı S.S.Zıkovun dedikləri də bunu təsdiqləyir: «Xoren Qriqoryanın köməkçisi Şerin keçmiş maarif komissarı Cuvarlinskini necə döydüyünün mən özüm şahidi olmuşam. Bu barədə Qriqoryana danışdım, lakin Cuvarlinskinin döyülməsi haqqında verdiyim xəbəri Qriqoryan gülümsəməklə qarşıladı». Bir qayda olaraq, əvvəlcə müttəhimlərdən etiraf ifadəsi almaq üçün onları döyür, sonra isə əksinqilabi təşkilatın digər iştirakçılarının adlarını çəkmək məqsədilə əziyyət verirdilər. Ən axırda isə müttəhim həqiqətən düşmən olduğu və bunu etiraf etdiyi üçün işgəncələrə düçar olurdu. Cuvarlinskiyə qarşı da məhz bu sınanmış üsul tətbiq edilmiş, insanlıq anlayışına sığmayan münasibət göstərilmişdi.

Nəhayət, Cuvarlinski Bağırova və Sumbatova «təslim məktubu» yazır. Ağrılardan və gücsüzlükdən az qala əli qələm tutmayan məhbus 1937-ci il iyulun 21-də müstəntiqlərin diktəsi ilə qələmə aldığı məktubda «etiraf edir» ki, burjua millətçiləri Ə.Qarayev, Y.Qasımov, D.Bünyadzadə, Ə.Əmiraslanov və başqalarının təsiri altına düşərək əksinqilabi təşkilata daxil olub.

Daha sonra Cuvarlinski əksinqilabi təşkilata 1936-cı ilin sentyabrında Mərkəzi Komitənin Mədəniyyət şöbəsinin keçmiş müdiri Mikayıl Hüseynov tərəfindən cəlb edildiyini yazır. Hətta Nuxada əksinqilabi təşkilatın rəhbəri olduğunu qeyd edir.

Demə, Məmməd Cuvarlinskinin rəhbərliyi altında bu təşkilat rayonun kənd təsərrüfatı sahəsində və sənayesində ziyankarlıq işi aparmış, üsyançı kadrlar hazırlamışdır. Cuvarlinski şəxsən özü əksinqilabi təşkilata neçə-neçə şəxs cəlb etmişdir.

Lakin məlumatlar müstəntiqlərə azlıq etdiyi üçün Cuvarlinski əksinqilabi «təcrübə»sini bir az da əvvəldən – 1935-ci ildən topladığını, təşkilata həmin ilin sentyabrında Ruhulla Axundov tərəfindən cəlb olunduğunu deyir.

1937-ci il sentyabrın 7-də Şer M.Cuvarlinskinin işi üzrə istintaqın başa çatması haqqında protokol tərtib edir. Sentyabrın 13-də isə Sinman M.Cuvarlinskinin təqsirləndirilməsi ilə əlaqədar ittiham qərarını yazır. O, üç əsas cinayət üzrə günahlandırılırdı: əvvəla, guya Cuvarlinski silahlı üsyan yolu ilə Azərbaycanın SSRİ-dən ayrılmasını qarşısına məqsəd qoyan, ziyankarlıq, casusluq işi aparan, partiya və hökumət rəhbərlərinə qarşı terror tətbiq edən əksinqilabi-millətçi təşkilatın üzvü idi.

İkincisi, praktik inqilabi işdə fəallıq göstərərək rayondakı əksinqilabi üsyançı təşkilatın rəhbəri olmuşdu.

Nəhayət, kənd təsərrüfatında və sənayedə ziyankarlıq işi təşkil etmiş, üsyançı kadrlar hazırlamışdı.

Beləliklə, Cuvarlinski Azərbaycan SSR CM-in 64, 69, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilirdi. «Xalq düşməni» adı ilə damğalanan Azərbaycanın bir çox ləyaqətli övladları kimi, onun da taleyi 15 dəqiqədə həll olundu. 1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının səyyar sessiyası bağlı məhkəmə iclası keçirdi və Məmməd Cuvarlinski ən ağır cəzaya – güllələnməyə məhkum olundu. Saat 21.30 dəqiqədə başlanan iclas 21.45-də sona çatdı.

Cuvarlinskini heç bir günahı olmadan, heç bir cinayət işlətmədən, yalnız haqq söz dediyinə görə məhv etdilər. 1937-ci il oktyabrın 13-də ölüm hökmü yerinə yetirildi.

O, tək deyildi, 12493 nömrəli istintaq işi üzrə güllələnmiş yüzlərlə Azərbaycan ziyalısı içərisində 33-cü idi.

Özü yana-yana ətrafına işıq saçan bir şam ömrü yaşadı Cuvarlinski. 35 yaşında qətlə yetirildi. Daha 35 il yaşaya bilsəydi, nələr etməzdi?! Bir ziyalı, müəllim, bacarıqlı təşkilatçı, rəhbər işçi kimi Azərbaycana çox fayda verə bilərdi. Onun işıqlı xatirəsi xalqın yaddaşındadır. İndi hamı belə oğullara «xalq düşməni» adı verənlərin özlərinin xalqın düşməni olduqlarını yaxşı bilir.

HƏYATI ODLAR İÇİNDƏ KEÇDİ

1887-ci ildə Şuşada dünyaya göz açan və 1943-cü ildə Rusiyanın bir şəhərində həyatdan köçən Yusif Vəzir Çəmənzəminlini hələ sovet dönəmindən çoxu istedadlı yazıçı kimi tanıyırdı. Çünki geniş ictimaiyyətə çatan onun yalnız kitabları idi və təbii ki, cavanların bu insanın həyat və fəaliyyəti haqqında bildikləri tam deyildi. Sovet dövrünün sərt ideoloji rejimi bu şəxsiyyətin ömür salnaməsinin müəyyən səhifələri barədə açıqlamalar verməyi qadağan etmişdi. Əslində isə Y.V.Çəmənzəminli həm də görkəmli ədəbiyyatşünas, tarixçi-etnoqraf, gözəl hüquqşünas, bacarıqlı müəllim, peşəkar tərcüməçi, ictimai-siyasi xadim, bir sözlə, dövlət adamı olub. Yaşadığı dövrün keşməkeşləri onun da həyatından yan keçməyib. Çəmənzəminli, bir çox görkəmli həmvətənləri və müasirləri kimi, Stalin repressiyalarının qurbanı olub.

Yusif Mirbaba oğlu Vəzirov Şuşa bəylərindən olan bir ailədə doğulmuşdu. Atasının bəyliyi 1873-cü ildə Şuşa qəza idarəsi tərəfindən təsdiq edilmişdi. Vəzirov soyadı isə XVIII əsr Qarabağ hökmdarı İbrahimxəlil xanın yüksək savada, biliyə malik nüfuzlu, adlı-sanlı vəzirlərindən olan Mirzə Əliməmmədağanın tutduğu vəzifə titulu ilə bağlı olaraq nəsildən-nəslə keçmişdi. Bir çox elmlərdən xəbərdar olan Mirzə Əliməmmədağa Məşədi Mirbabanın ulu babası idi. 1797-ci ildə İran hökmdarı Ağaməhəmməd şah Qacar Şuşanı işğal etdiyi zaman İbrahimxəlil xan tərəfindən Türkiyəyə yenicə səfir təyin olunmuş Mirzə Əliməmmədağanı tutdurub qətlə yetirmişdi.

Belə bir nəslə mənsub olan Yusifə hərtərəfli istedadı da irsən keçmişdi. Atası Məşədi Mirbaba bir çox ölkələri gəzmiş, İranda, Orta Asiyada, Türkiyədə olmuş, fars və türk dillərini mükəmməl öyrənmişdi. Ədəbiyyata böyük maraq göstərirmiş, Füzulini, Firdovsini çox sevirmiş, xanəndələrə muğamatdan dərs deyirmiş. Cavan vaxtlarında yaxşı dolanışığı, varı-dövləti

olan Məşədi Mirbaba xeyli keçəndən sonra kasıblıqla üzləşmişdi. Ağdamda əttar (dərman və ədviyyat satan) dükanı açmış və bu dükan sayəsində ailəsini dolandırırmış.

Yusif Vəzir Çəmənzəminli

Yusif Vəzirin həyatının asan və rəvan olmayacağı çox erkən, onun təhsil illərindən özünü büruzə verir. O, əvvəlcə Şuşada «Kor Xəlifə» ləqəbi ilə tanınan Molla Mehdinin məktəbində oxuyur. Lakin burada təhsilin səviyyəsinin aşağı olduğunu görən atası Yusifi Ağdama gətirir. Həmin vaxtdan Məşədi Mirbaba oğlunun təhsili ilə özü məşğul olur. Ona türk və fars dillərini öyrədir. Lakin ata oğlunun həm də rus dilini bilməsini arzulayırdı. Ağdamda rus məktəbi olmadığından Yusif Muradbəylidə oxumaq məcburiyyətində qalır. Bir il rus məktəbində təhsil aldıqdan sonra realnı məktəbə hazırlaşmaq üçün 1896-cı ildə yenidən Şuşaya qayıdır.

O dövrdə Şuşa realnı məktəbi tədris və təchizat baxımından bütün Qafqazın orta məktəbləri sırasında birinci yeri tuturdu. Yusif bu məktəbə daxil olsa da, çox yüksək nəticələr qazana bilmir. Çünki riyaziyyata o qədər də maraq göstərmirdi. Uşaqlıqdan rəssamlığa meyli vardı. Sonralar ictimai-siyasi motivli karikaturalar da çəkməyə başlamışdı. 1904-cü ildə o, rus dilində «Şikayət» adlı ilk şeirini yazır. Müəllimi Klemiya şeiri nəzərdən keçirib ona Çexovu oxumağı məsləhət görür. Yazıçının hekayələri Yusifin çox xoşuna gəlir və onun formalaşmasında, sonrakı yaradıcılıq fəaliyyətində mühüm rol oynayır. Bundan sonra o, rus və əcnəbi klassiklərin əsərləri ilə yaxından tanış olmağa başlayır. Bu zaman Yusifin həmin məktəbdə oxuyan 21 yaşlı qardaşı Əbdülhəsən dünyasını

dəyişir. Ata-ananın sonsuz sarsıntıları, ailədə hökm sürən hüzn və kədər ona da mənfi təsir göstərir. Ailəyə bir-birinin ardınca bədbəxtliklər üz verir. Yusif 19 yaşında olanda atası vəfat edir. Ailə onun himayəsində qalır. İmkansızlıq, maddi cəhətdən çətinlik üzündən atasının Ağdamdakı əttar dükanını satır. Çox keçmədən Yusif özü ağır yatalaq xəstəliyinə tutulur. Anası Seyid Əziz xanım ağrı-acı, fikir içində qovrulur, oğlunun yanından çəkilmir, əlindən gələni edir ki, onu həyata qaytarsın. Üzüntülər ananı da haldan salır. Belə çətin bir məqamda həyətlərində yaşayan üç qardaş bu ailənin dayağı olur. Qardaşlar Cənubi Azərbaycanın Çəmənzəmin kəndindən aclıq əlindən baş götürüb Şuşaya gəlibmişlər. Məşədi Mirbaba onlara əl tutmuş, öz həyətində sığınacaq verib himayəsinə almışdı. İndi isə onlar Yusifə imdad edir, onun sağalması üçün özlərini oda-közə vururdular. Yaxınlarının, qohumlarının, doğmalarının etmədikləri köməyi, qayğını bu qardaşlardan görən Yusif bir gün anasına deyir ki, «gələcəkdə adlı-sanlı şəxs olsam, bu qardaşların kəndinin adını özümə təxəllüs götürəcəyəm». Ümidsiz xəstə sağalır. Yusif əhdinə sadiq qalır. «Çəmənzəmin-li»ni özünə təxəllüs seçir.

1905-1907-ci illərdə Şuşada baş verən milli ədavət, erməni daşnaklarının təbliğatı ilə törədilən milli qırğınlar Vəzirovlar ailəsini də ata-baba yurdundan didərgin düşməyə vadar edir. Onlar Aşqabada köçürlər. Bu dövrdə Yusif Vəzir qardaşı Əbülhəsəndən ona qalan zəngin kitabxanadakı klassiklərin əsərlərini mütaliə etməyə başlayır.

Mübahisələr, keşməkeşli hadisələr, çətinliklər, bəzən hətta böhtan və qalmaqallar gənc yaşlarından Yusifin yaradıcılığını da addım-addım, qarabaqara izləmişdir. 1907-ci ildə o, «Şahqulunun xeyir işi» adlı hekayəsini yazır. Bundan sonra 20 yaşlı müəllif «Molla Nəsrəddin» jurnalında Qarabağın pir və ocaqlarını kəskin tənqid edən «Müridi-möhtəşəm» sərlövhəli məqalə ilə çıxış edir. Yazı Aşqabadda və Bakının Hacağa karvansarasında yaşayan qarabağlılar arasında təlatüm yaradır. Aşqabada təhqir və hədə dolu məktublar gəlir. Məktub müəllifləri tələb edirlər ki, Yusif Vəzir belə yazını çap etdirdiyi

üçün «Molla Nəsrəddin» jurnalında üzr istəsin. Belə olmasa, onu məhv edəcəklər.

1907-ci il noyabrın 5-də «Tazə həyat» qəzetində çıxış edən Yusif Vəzir bildirir ki, «Molla Nəsrəddin»dəki məqaləni yazmaqda məqsədi heç də müqəddəs pir və ocaqlara hədyan atmaq deyil, yalnız fanatizmi yayanları, riyakarları ifşa etməkdir: «Mən göstərirəm ki, adını müsəlman qoyanların içində çoxusu qurd libasına girib millətə xəyanət edirlər, millətin gözünü bağlayıb ümumi insaniyyət nöqtəsindən uzaq salırlar. Camaatın dərdinə qalıb məktəblər açmaqdan, yetim uşaqları oxutdurmaqdan ki, gələcəkdə küçələrdə qalıb camaata zərər yetirməsinlər… bütün bunları eləməyin əvəzində fəqir-füqəranın axır qəpiklərini alıb ac-acına qoyurlar. Görünür ki, bəzi oxucular məqalədəki alovlu vətənpərvərlik hissini fərqləndirə bilməyib ağızdan-ağıza yalan və şişirdilmiş şayiələr uydurub yayıblar».

Yeniyetməlik dövründən taleyi Yusif Vəziri şəhərdən-şəhərə atırdı. Bakıda realnı məktəbdə oxumağa ona Hacı Zeynalabdin Tağıyev kömək edir. Milyonçu Qafqaz canişininə müraciət edərək 13 müdavim üçün əlavə yer alır. Həmin yerlərdən biri qəbula gecikən Yusif Vəzirə verilir. O, 1909-cu ildə buranı bitirib təhsilini davam etdirmək üçün yollar axtarmağa başlayır. Bu məqsədlə iyul ayında Sankt-Peterburqa gedib sənədlərini Mülki Mühəndislər İnstitutuna verir. Orada qaldığı vaxt «Cənnətin qəbzi» hekayəsini və Dağıstanın milli qəhrəmanı Şeyx Şamilə həsr etdiyi şeirini yazır. Bir aydan sonra fikrini dəyişib Daşkəndə üz tutur. Nəhayət, 1910-cu ildə Kiyevə gəlib Müqəddəs Vladimir adına İmperator Universitetinin Hüquq fakültəsinə qəbul olunur.

Yusif Vəzir heç vaxt siyasətçi olmaq istəməyib. Lakin yollar onu bu axara qovuşdurub. Belə ki, 1915-ci ildə universiteti bitirən Y.V.Çəmənzəminli Saratov məhkəmə palatasında hakimlik vəzifəsinə namizəd qəbul olunur. Lakin bu, maaşsız vəzifə olduğu üçün iş axtarmağa yenidən Kiyevə dönür. Orada «Zemstvo» təşkilatına daxil olub cəbhəyə gedir. Fevral inqilabı baş verən zaman Yusif Vəzir Qalitsiyada idi. Təcili oradan

Kiyevə gəlir və Ukraynanın milli azadlıq hərəkatında, çarizmə qarşı mübarizədə fəal iştirak edir. «Müsavat»ın üzvü olan Y.V.Çəmənzəminli burada azərbaycanlı tələbələri ətrafına toplayaraq «Türk Ədəmi Mərkəziyyət Firqəsi»nin – «Müsavat»ın Kiyev şöbəsini yaradır və ora sədr seçilir. Bolşevikləri daim tənqid edən Y.V.Çəmənzəminli bu dövrdə «Azərbaycanın muxtariyyatı», «Biz kimik və istədiyimiz nədir?» kitablarını yazır, Krımdakı «Millət» qəzetində «Azərbaycan və azərbaycanlılar» məqaləsini çap etdirir.

1918-ci ildə Azərbaycanda Demokratik Cümhuriyyətin yaradılması ərəfəsində vətənə dönmək istəyən Y.V.Çəmənzəminli çox əziyyət çəkir. Nəhayət, çətinliklə Bakıya gəlir. «Azərbaycan» qəzetində «Xarici siyasətimiz», «Milli və mədəni işlərimiz» başlığı ilə silsilə məqalələr çap etdirməyə başlayır. Artıq həm siyasətçi, həm diplomat, həm də ölkədə gedən proseslərə aydın qiymət verən yazar kimi formalaşan ədib hökumətin ilk yığıncaqlarından birində Türkiyədə Azərbaycan səfirliyinin yaradılması təşəbbüsü ilə çıxış edir. 1919-cu ildə Türkiyədə Azərbaycan səfirliyi yaradılır və Çəmənzəminli oraya səfir göndərilir. İstanbulda diplomatik fəaliyyəti ilə yanaşı, Yusif Vəzir ədəbi yaradıcılıqla da məşğul olur, kitablarını nəşr etdirir. Azərbaycanı və onun ədəbiyyatını türk aləminə tanıtmaq üçün elmi faktlarla zəngin olan «Azərbaycan ədəbiyyatına bir nəzər», «Tarixi-coğrafi və iqtisadi Azərbaycan» adlı kitablarını yazıb onları İstanbulda nəşr etdirir.

Lakin tezliklə Azərbaycanda sovet hakimiyyəti qurulur və o, missiyasını bitmiş hesab edərək könüllü surətdə vəzifədən çıxır. Bir faktı da qeyd edək ki, cümhuriyyətin süqutu Y.V.Çəmənzəminlinin bütün həyatını alt-üst edir. O, Parisdə Siyasi Elmlər İnstitutunun Diplomatiya fakültəsində təhsil alan kiçik qardaşı Mirabdullanın yanına gedir. Burada da həyat onu sınağa çəkir. Əcnəbi olduğu üçün Fransada onu öz ixtisası üzrə hüquqşünas işləməyə qoymurlar. Yusif Vəzir məcburiyyət qarşısında qalıb Parisin yaxınlığında yerləşən Klişidə 3 il ağır fəhləlik həyatı keçirir. Eyni zamanda «Paris xəbərləri» qəzeti ilə əməkdaşlıq edir, orada «Şərq məktubları» rubrikası ilə maraqlı publisistik yazıları çap olunur.

Sonrakı illərdə vətəninə qayıtmaq istəyir, buna da nail olur. Amma bu qayıdışın da kədərli bir tarixçəsi var.

…1924-cü ildə Mirabdulla ağır xəstələnir. Bir ildən çox çəkən xəstəlik nəticəsində o, dünyasını dəyişir. Yeganə qardaşının vaxtsız vəfatı Yusifi həddindən artıq sarsıdır. Üstəlik də, Parisdə işləri yaxşı getmir. Azərbaycana qayıtmaq üçün Parisdəki sovetlərin səlahiyyətli nümayəndəliyinə ərizə ilə müraciət edir. Eyni zamanda, Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Qəzənfər Musabəyova (vaxtilə tələbə yoldaşı olublar) xüsusi məktub yazır. Q.Musabəyov həmin məktubu o zaman Azərbaycana rəhbərlik edən S.M.Kirova göstərir. Kirov Y.V.Çəmənzəminlinin vətənə qayıtmasına razılıq verir.

Beləliklə, Ümumittifaq İcraiyyə Komitəsinin 18 yanvar 1926-cı il tarixli qərarına əsasən Yusif Vəzir artıq sovet vətəndaşı sayılır. Həmin ilin aprelində isə mühacirətdən vətəninə dönür.

Azərbaycanda Yusif Vəzir yazıçı, hüquqşünas və müəllim kimi fəaliyyət göstərir. Əvvəlcə «Bakı işçisi» nəşriyyatında bədii şöbənin redaktoru olur. Sonralar Dövlət Plan Komitəsinin ictimai-mədəni bölməsində öz ixtisası üzrə hüquqşünas işləyir. Y.V.Çəmənzəminli eyni zamanda Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq və pedaqoji fakültələrində, daha sonra isə pedaqoji, tibb və neft institutlarında Azərbaycan və rus dillərini tədris edirdi. Qeyd edək ki, Yusif Vəzir 10-a yaxın Şərq və Avropa dillərini mükəmməl bilirdi.

O zaman Ruhulla Axundovun redaktəsi ilə çıxmış «Rusca-azərbaycanca lüğət»in müəlliflərindən biri də Çəmənzəminli idi. Bu gün isə o, həmçinin Azərbaycan dilində terminologiyanın yaradılmasında böyük rolu olmuş bir insan kimi də hörmətlə xatırlanır.

Ümumiyyətlə, 1930-1935-ci illər yazıçının yaradıcılığının qızğın dövrü sayılırdı. O, həmin vaxt Azərbaycan Neft İnstitutunda işləyirdi və burada çıxan jurnalda «Neft və onun tarixi», eləcə də bir çox digər dəyərli məqalələr yazıb dərc etdirirdi. Yazıçının «Maarif və mədəniyyət» jurnalında da silsilə hekayələri çıxırdı. Sonralar o, «Studentlər», «1917-ci il» və s.

romanlarını da nəşr etdirir. 1935-ci ildə «Həzrəti-Şəhriyar» adlı komediyasını yazıb bitirir.

Yusif Vəzir həm də bacarıqlı tərcüməçi idi. O, L.Tolstoyu, Turgenevi, Neverovu, Qoqolu, Lavrenevi, Seyfulinanı, Hüqonu rus dilindən azərbaycancaya tərcümə edir.

Geniş oxucu kütləsinə müəllifin «Soyuq öpüş» («Əli və Nino» romanının ilk orijinal versiyası), «Bir cavanın dəftəri», «Keçmiş səhifələr», «Qazanc yolunda», «Qaranlıqdan işığa», irili-xırdalı digər çoxsaylı əsərləri yaxşı tanışdır. Bununla belə, Y.V.Çəmənzəminlinin iki romanı – «Qızlar bulağı» (1934) və «Qan içində» (əsl adı «İki od arasında», 1936-1937) əsərləri Azərbaycan ədəbiyyatı romanı tarixində öz orijinallığı ilə fərqlənir. Ona görə də ədəbiyyatşünaslar, tədqiqatçılar Yusif Vəzir haqqında söz deyəndə ilk növbədə ədibin roman janrının təşəkkülü və inkişafındakı xidmətlərini yüksək qiymətləndirirlər. «Qızlar bulağı»nda Azərbaycan tarixi, mifologiyası və folklor materialları əsasında ulularımızın həyat təcrübəsi, mənəvi-əxlaqi, fəlsəfi görüşləri, yaşayış tərzi, xalq adət-ənənələri əksini tapmışdır. Azərbaycan tarixi romanının klassik nümunəsi sayılan «İki od arasında» əsərində isə müəllif Qarabağ xanlığını Azərbaycanın rəmzi kimi göstərmişdir (M.Təhmasib). Romanda XVIII əsrin ikinci yarısında ölkənin ictimai-siyasi həyatı, Qarabağ xanlığında İbrahimxəlil xanın dövründə baş verən hadisələr təsvir olunmuş, M.P.Vaqifin surəti yaradılmışdır. Məmmədhüseyn Təhmasib roman haqqında belə yazırdı: «Bu əsər yazıçının ən bitkin romanlarından biri olduğu kimi, həm də tarixi, adət və ənənələri, inam və etiqadları, sınaq və yozumları, ayin və mərasimləri çox yaxşı bilən folklorçu, tarixçi, etnoqraf, şərqşünas alimin bütün müşahidə və tədqiqatlarının kiçikhəcmli qamusudur».

Y.V.Çəmənzəminli zəngin yaradıcılığında «erməni məsələsi»nə xüsusi yer ayırmışdı. O, elə sənətkarlardandı ki, qismətinə üç dövrdə – çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti və sovetlər imperiyası illərində yaşamaq düşmüşdü. Bu dövrlərdə ermənilər tərəfindən törədilən qırğınları izlədiyi, digər tərəfdən, bir müddət xarici işlər idarəsində çalışdığı, səfir

kimi fəaliyyət göstərdiyi vaxtlarda müxtəlif ölkələrin diplomatik nümayəndələri ilə danışıqlar aparan rəsmi şəxs olduğu üçün bu mənfur millətin azərbaycanlılara, ümumiyyətlə türklərə qarşı yeritdiyi məkrli siyasətdən çox yaxşı xəbərdar idi. O, Ukrayna, Türkiyə və Fransada olduğu illərdə ermənilərin çirkin əməlləri ilə tanış olmuş və bunlar barədə əsərlərində, xüsusən «Ermənistan və biz», «Əfkari-ümumiyyə», «On beş gün Ermənistanda» məqalələrində, «Studentlər» və «Qan içində» romanlarında bəhs etmiş, yeni fikirlər irəli sürmüşdür. Həmin fikirlər bu gün də aktuallığı ilə seçilən tarixi faktlar kimi qiymətləndirilir.

Yusif Vəzir «Əfkari-ümumiyyə»də yazırdı: «Hankı millət yaşamaq istərsə, öz dərdini söyləməlidir, səsini çıxarmalıdır. Səsini çıxarmağı bilməyən bir millət həmişə əzilər. Səs vasitəsi də qəzetlər və məcmuələrdir. Qonşularımızdan bağırmaları ilə məşhur olanı ermənidir. Bu millət dərdini və tələblərini bildirməkdə böyük istedad sahibidir. Dünyada elə bir qəzetə yoxdur ki, «erməni məsələsi»ni yazmasın. Bundan başqa, özlərinə məxsus bir çox qəzetə və məcmuələri var. Moskvada rus dilində «Armyanski vestnik» məcmuəsi verilirdi. Bu məcmuə başdan-başa ermənliyi təqdir və tərvic etmək ilə məşğul idi. Məcmuənin fikri ermənini ən mədəni bir millət şəklində Avropaya tanıtmaq idi: Odessada dəxi eyni fikirdə bir qəzetə çıxırdı. Bu gün İstanbulda ermənilərin fransızca qəzetələri var. Tələblərini Avropanın qulağına söyləməkdən çəkinmirlər». Yusif Vəzir 1919-cu ildə yazdığı bu məqalədə ermənilərin milli məsələ ilə bağlı doqquz yüz əsər çap etdirdiklərini bildirir və son abzasda göstərir ki, «bütün müsəlman aləmində əfkari-ümumiyyənin rəğbətini qazanmaq üçün az çalışılır. Onun üçün dərdlərimiz kimsəyə bəlli olmur və biz ilə maraqlanan az olur… Siyasi adamlar məmləkətdən xəbərsiz olduqda biz ermənilərdən də çox çalışmalıyıq ki, özümüzü tanıdaq».

Çəmənzəminli «Ermənistan və biz» məqaləsində ermənilərin böyük iddiaları barədə söhbət açır. Məqalədə oxuyuruq: «Böyük Ermənistan» xəritəsini gördüm. Üç dəniz arasında təşəkkül edəcək imiş. Ağ, Qara və Xəzər dənizləri arasında.

Xəritədə Gəncə, Lənkəran, Salyan, Təbriz, Marağa və başqa şəhərlər də Ermənistana daxil edilmişdir. Əgər bu xəritə erməni amalının şəklidirsə, onda «erməni məsələsi» yenə bir çox münaqişə və mücadiləyə səbəb olacaq və həlli yenə kağız üzərində qalacaqdır». Böyük demokrat romanlarında da «erməni məsələsi»nə toxunur, xalqımıza, millətimizə qarşı onların bütün məkrli siyasətlərindən xəbərdar olmağı, dünya ictimaiyyətinə mənfur əməllərinin puçluğu və əsassızlığı barədə düzgün məlumat verməyi zəruri hesab edirdi.

Yusif Vəzir, harada yaşamasından asılı olmayaraq, milli təəssübkeşlik hisslərindən uzaqlaşmamış, ən çətin, ən ağır məqamlarda belə öz sözünü elmi dəlillərlə söyləyə bilmişdi.

Yüksək səviyyədə oxunan, tarixi romanları ilə tanınan, rəğbətlə qarşılanan Yusif Vəzirə münasibət 30-cu illərin ortalarında qəflətən pisləşir. Onu sıxışdırmağa başlayırlar. O dövrdə Stalin repressiyası, «xalq düşmənləri»nin aşkarlanması prosesi bütün Azərbaycan ərazisində həyata keçirilirdi. Yaradıcılıq təşkilatlarında da eyni ab-hava davam edir, ittifaq üzvləri bir-birinə qarşı qaldırılır, iclas və yığıncaqlarda yaradıcılıq işlərindən çox siyasi mövqe ortaya qoyulurdu. Azərbaycan ədəbi mühitində repressiya hərarəti 1937-ci ilin ortalarında son həddi də adlayırdı. Hamı bir-birinə «düşmən», «xain», «trotskiçi», «zinovyevçi», «pantürkist», «əksinqilabçı» kimi baxır, əsərlərində qüsurlar axtarırdılar. Yığıncaqlarda belə insanlara lənətlər yağdırır, onların həbsini, məhkum olmalarını tələb edirdilər.

1937-ci ilin martında Yazıçılar İttifaqının plenumu keçirilir. Burada dörd məsələ müzakirəyə qoyulur: H.Cavidin, M.Müşfiqin, Ə.Cavadın, Y.Vəzirin məsələsi. Üç gün davam edən plenumda Yusif Vəzirin «Studentlər» romanı «kontr-revolyusion» mahiyyətli əsər hesab edilir. Mircəfər Bağırovun sərt çıxışı, ədibin burjua-millətçi mövqe tutmaqda təqsirləndirilməsi ona mənəvi cəhətdən əzab verir, günləri vahimə içində keçir. Bir neçə vaxtdan sonra Yusif Vəzir işdən çıxarılır. Həmçinin dərs dediyi ali təhsil ocaqlarından uzaqlaşdırılır. Yazıçılar İttifaqının üzvlüyündən xaric olunur. Ailənin

dolanışığı dözülməz həddə çatır. «Əzizləyə-əzizləyə qoruyub saxladığı «Molla Nəsrəddin» jurnalının illik saylarını cildlətdirib satdırır. Sonra növbə Tolstoyun əsərlərinə çatır… Bununla nə qədər dolanmaq olardı ki?!» *(«El» jurnalı)*. İş üçün hara gedirdisə, qapılar üzünə bağlanırdı, qəbul etmirdilər.

Yusif Vəzir 1937-ci ilin aprelində tamamladığı «İki od arasında» romanını işdən çıxarıldığı üçün çap etdirə bilmir. Yazıçılar İttifaqından kənarlaşdırılmamışdan 2-3 ay əvvəl «Azərfilm»ə təqdim etdiyi «Altunsaç» adlı kinossenarisi geniş mütəxəssis rəyindən keçib bəyənilsə də, kinostudiyanın direktoru Merkel Yusif Vəzirə bildirir ki, «Studentlər» romanınız tənqid edildiyi üçün sizinlə müqavilə bağlamaq mümkün olmayacaq.

1937-ci il iyunun 8-də «Pravda» qəzetində O.Riklin imzası ilə «Düşmənlərin hiylələri» adlı məqalə dərc edilir. Burada Y.V.Çəmənzəminlinin «Studentlər»i iki yerdə kəskin formada tənqid edilir: «Ələkbərlinin (yazıçı, tənqidçi Məmmədkazım Ələkbərli – **İ.Ə.**) redaktəsi ilə müsavatçı Yusif Vəzirin «Studentlər» adlı alçaq, faşist kitabı buraxılmışdır». Həmin məqalənin digər yerində oxuyuruq: «Şamilovun (nasir, publisist, tərcüməçi Seyfulla Şamilov nəzərdə tutulur – **İ.Ə.**) redaktorluğu ilə çıxan azərbaycanca «Ədəbiyyat qəzeti»nin son nömrələrindən birində çap edilən bir məqalədə Yusif Vəzirin kontrrevolyusion «Studentlər» kitabı «əhəmiyyətli ədəbiyyat əsəri» kimi qeyd edilmişdir». Təbii ki, bu hadisələr yazıçıya pis təsir edir. Həyatını xalqın istiqlaliyyətinə və tərəqqisinə həsr edən Yusif Vəzir özündə heç bir günah görmədiyi üçün əvvəlcə M.Bağırova ərizə ilə müraciət edir. Cavab gəlmir. Sonra İ.Stalinin adına ərizə yazır. Oradan da heç bir reaksiya verilmir. Çarəsiz qalan ədib Bakıya qayıdır.

1938-ci ildə «Kommunist» qəzetində çıxan bir elan Y.Vəzirin diqqətini cəlb edir. Orada bildirilirdi ki, Özbəkistan SSR-in Ürgənc şəhərindəki Xarəzm Vilayət Pedaqoji İnstitutunda rus dilindən dərs deməyə müəllim yeri tutmaq üçün müsabiqə elan olunur. Yusif Vəzir sənədlərini toplayıb Ürgənc şəhərinə göndərir. Müsabiqədən keçib rektorluqdan dəvət alır. 1938-ci

ilin avqustunda Ürgəncə yola düşür. O, Pedaqoji İnstituta baş müəllim və eyni zamanda təhsil ocağının kitabxanasına müdir təyin olunur.

Bir müddət ona dəymirlər. 1940-cı ildə Y.V.Çəmənzəminli yenidən yada düşür.

Üstəlik də, 1937-1938-ci illərdə Azərbaycanın repressiyaya məruz qalmış bir sıra elm və mədəniyyət xadimlərinin verdikləri ifadələrdə Yusif Vəzirin adı çəkilir. 1940-cı il yanvarın 25-də bu ifadələr əsasında Vəzirov Yusif Mirbaba oğlunun həbs olunması haqqında qərar çıxarılır.

Qərarda deyilir: «1929-cu ildə Bakıda «müsavatçılarla milli təmayülçülərin antisovet bloku» yaradılmışdı. Yusif Vəzirov bu antisovet blokun rəhbər heyətinə məxsus idi. İstanbulda Müsavat hökumətinin konsulu olan Yusif Vəzirov ingilis-fransız və Türkiyə kəşfiyyatçıları ilə əlaqə saxlamışdır. Yusif Vəzirov öz həmfikirləri arasında müntəzəm olaraq əksinqilabi görüşləri təbliğ etmişdir. 1931-ci ildə Yusif Vəzirov Azərbaycanın əksinqilabi-millətçi təşkilatına cəlb olunmuşdur».

Həbs haqqında qərardan sonra – yanvarın 27-də onu Ürgəncdə tutub Bakıya gətirirlər.

Fevralın 13-də Vəzirovun istintaqına başlanır. Birinci istintaq zamanı 1937-ci ilədək olan tərcümeyi-halı vərəqlənir.

Növbəti günlərdə – fevralın 14 və 15-də aparılan istintaqlarda Yusif Vəzir 1917-ci ildə Kiyevdə oxuyarkən «Müsavat» partiyasına daxil olduğunu və «Müsavat»ın Kiyevdəki təşkilatının rəhbəri seçildiyini söyləyir. Həmin təşkilata o zaman daxil olmuş azərbaycanlı tələbələrin adları çəkilir. İstanbulda səlahiyyətli nümayəndə vəzifəsinə 1919-cu ilin yayında hökumət başçısı Nəsib bəy Yusifbəyov tərəfindən təklif edildiyini isə fevralın 16-da danışır. Eyni zamanda daxili işlər nazirinin müavini Rüstəmbəyov, yol-nəqliyyat naziri Məlikaslanov və xarici işlər naziri Cəfərovla şəxsi tanışlığı barədə də həmin gün ifadə verir.

Fevralın 24-də Vəzirov bildirir ki, 1922-ci ildə İstanbulda «Azərbaycan ədəbiyyatına bir nəzər» və «Azərbaycanın tarixi-coğrafi və iqtisadi icmalı» əsərlərini yazıb. Parisdə isə

Azərbaycan səfirliyinin buraxdığı «Paris xəbərləri»nin əməkdaşı olub.

Vəzirovun istintaqının gedişini qoruyub saxlayan arxiv sənədləri göstərir ki, ona verilən suallar çox adi və primitiv xarakter daşıyırdı. Yəni müttəhimi ittiham etmək üçün nə isə yazmaq lazım gəldiyinə görə o bu qədər mənasız sorğu-suala tutulub.

Fevralın 25-də verilən suallara cavab olaraq Y.V.Çəmənzəminli bildirir ki, özünün «Bolşevik təhlükəsi» və «Studentlər» əsərlərini millətçi ruhda yazılmış mütərəddid əsərlər hesab edir. Lakin o, əksinqilabi-millətçi təşkilata məxsus olduğunu və əksinqilabi-millətçi görüşlər yayması fikrini qəti şəkildə inkar edir. Müstəntiq «Etiraf elə!» qışqırdıqca Yusif Vəzirin başına sanki hər dəfə ağır zərbə endirirdilər.

Fevralın 27-də Y.V.Çəmənzəminlidən soruşurlar: «Sizi «Müsavat»a kim cəlb etmişdi?» Cavab verir ki, 1917-ci ildə Kiyevdə tələbələrin türk federalist «Müsavat» komitəsi yaradılmış və o, həmin komitənin sədri olmuşdur.

Yusif Vəzirin ittiham edilməsi barədə 1940-cı il fevralın 26-da qərar çıxarılmışdır. Səbəb kimi onun 1919-cu ildə Müsavat hökumətinin konsulu vəzifəsində işləyərkən ingilis-fransız və Türkiyə təşkilatları ilə əlaqədə olması kimi saxta dəlillər göstərilmişdir. Bundan başqa, guya Y.V.Çəmənzəminli qatı müsavatçı kimi qeyri-leqal «Müsavat» təşkilatının rəhbər özəyinə məxsus olub. 1927-ci ildə müsavatçılarla milli təmayülçülərin yaratdıqları antisovet bloka keçib. Öz həmfikirləri arasında mütəmadi şəkildə əksinqilabi görüşləri təbliğ edib. 1931-ci ildə Azərbaycan əksinqilabi-millətçi təşkilatının tərkibinə daxil olub. Ona görə də Azərbaycan SSR CM-in 72-73-cü maddələrində nəzərdə tutulmuş cinayətlər üzrə ittiham edilib *(Z.Bünyadov, «Qırmızı terror»).*

Yusif Vəzirov qərarla tanış olur və vərəqin sonuna öz dəstxətti ilə belə yazır: «Mənə verilən üç maddədən ibarət ittihamlar ağ yalandır. Mən özümü günahkar hesab etmirəm». Yazdığını imzası ilə təsdiqləyir.

Bununla belə, martın 7-də, 13-də, 17-də və 19-da yenidən istintaqlar keçirilir. Vəzirov yenə də əksinqilabi fəaliyyətdə

olduğunu və təbliğat apardığını, əksinqilabi təşkilatın üzvlüyünü qətiyyətlə inkar edir. Lakin onun işinə əksinqilabi təşkilata məxsusluğu barədə professor Bəkir Çobanzadənin 1937-ci ildə verdiyi ifadə tikilmişdi. 1938-ci ildə isə Neft İnstitutunun dosenti N.Şahsuvarov ifadə verərək demişdi ki, Çəmənzəminli əksinqilabı-millətçi təşkilatın rəhbər heyətinə daxil olub. Bu heyətdə ondan başqa daha 10 nəfər var idi. Çəmənzəminli buraya 1931, yaxud 1932-ci ildə daxil olmuşdu.

Yusif Vəzir bu ittihamların hamısını rədd edir. Ona olan ittihamlardan biri də 1937-ci ildə Hacağa Nəzərlinin öz ifadəsində göstərdikləri idi. İttiham ondan ibarət idi ki, Cəbiyev, R.Axundov və Ə.Qarayev burjua millətçi-müsavatçı Əhməd Cavadın, Hüseyn Cavidin və Yusif Vəzirovun güclü təsiri alıtnda olublar. Üstəlik, elə 1937-ci ildə B.Çobanzadə bir sıra müsavatçıların adlarını çəkmiş və Vəzirovun İngiltərə, Fransa, Türkiyə və Almaniya təşkilatları ilə olan əlaqələrindən danışmışdı. Müttəhim, təbii ki, bu ittihamları da, əvvəlkilər kimi, rədd edir.

1940-cı il aprelin 3-də Y.Vəzirov müstəntiqə bu məzmunda bir ərizə yazır: «Xahiş edirəm mənim əmanət kitabçamın həyat yoldaşıma çatdırılmasına icazə verəsiniz. Çünki ailəm iki aydan çoxdur ki, kənardan heç bir maddi kömək almır».

Çəmənzəminlinin əmək kitabçasında 4 min manat pul var idi. Bu vəsait müttəhimin ailəsinə verilir.

Yusif Vəzirin xoşbəxt ailəsi vardı. O, 1927-ci ildə, 40 yaşında evlənmişdi. 3 övladı vardı – Orxan, Fikrət və qızı Gülarə.

1940-cı il aprelin 16-da Y.Vəzirovun işi üzrə ittiham qərarı çıxarılır. Aprelin 19-da ittihamnamə SSRİ Xalq Daxili İşlər Komissarlığı yanında Xüsusi müşavirədə baxılmaq üçün təqdim olunur. İyun ayının 11-də Xüsusi müşavirə Vəzirov Yusif Mirbaba oğlunu antisovet fəaliyyətinə görə 1940-cı il yanvarın 27-dən 8 il müddətinə islah-əmək düşərgəsində həbs cəzasına məhkum edir.

Qəribədir ki, Vəzirovun istintaq işinə 13 nəfər «xalq düşməni»nə verilən hökmlər barədə arayışlar tikilib. Bir də nədənsə, onun işində fotoşəkli deyil, yalnız barmaq izləri var idi.

Yusif Vəzir altı ay həbsxanada ailəsi ilə görüş veriləcəyi günü gözləyirdi. Lakin bu görüş verilmədi, onu həbs düşərgəsinə göndərdilər. Ən böyük nigarançılığı övladlarından və həyat yoldaşı Bilqeyis xanımdan idi. Bir də əsərlərinin, əlyazmalarının itib-batacağından, məhv ediləcəyindən qorxurdu. «Bəraət almış yazıçı» adlı əsərini Özbəkistanda tələbəsi ilə birgə yazmışdı. Həmin əsər Azərbaycana gəlib çatdı, sonra isə yoxa çıxdı. «İki od arasında» romanını və başqa əlyazmalarını qayınanası Kiçikxanım qoruyub saxladı.

1956-cı il fevralın 7-də Azərbaycan SSR-in Baş prokuroru tərəfindən Yusif Mirbaba oğlu Vəzirovun işi üzrə protest təqdim edildi. Fevralın 28-də hökm ləğv olundu və ittiham sübuta yetmədiyi üçün işə xitam verildi. Ölümündən 13 il sonra Yusif Vəzir bəraət aldı.

Y.V.Çəmənzəminli 1943-cü il yanvarın 3-də Nijni-Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsində vəfat etdi. O, Betluqa çayının sahilindəki qəbiristanlıqda dəfn olunub.

Nə qədər qəribə olsa da, ağır və keşməkeşli taleyi Çəmənzəminlini ölümündən, hətta bəraət almasından sonra da izləyib. Çoxillik və çoxşaxəli yaradıcılığı dövründə yazıçı bir sıra təxəllüslərdən istifadə etdiyindən sonralar bu, onun üçün müəyyən əngəllər törədib. Məsələn, «Əli və Nino» əsərini Qurban Səid imzası ilə yazdığı üçün bu məsələ son illərə qədər mübahisə doğururdu.

«Əli və Nino» romanının müəllifinin Y.V.Çəmənzəminli olduğunu hələ vaxtilə Üzeyir Hacıbəylinin Fransada yaşayan qardaşı Ceyhun Hacıbəyli də təsdiq edib. 1973-cü ildən başlayaraq Azərbaycan mətbuatında əsərin məhz Çəmənzəminliyə məxsusluğu barədə bir çox çıxışlar olub. Müəllifin övladları Orxan və Fikrətin apardıqları tədqiqat romandakı bir çox səhifələrin Yusif Vəzirin gündəliklərində və dərc edilmiş digər əsərlərində olduğunu da göstərir. Bu məsələyə 21 iyun 1994-cü il tarixli nömrəsində «Azərbaycan» qəzeti də müraciət edir. Yazıçı Qılman İlkin böyük tədqiqat işi apardıqdan sonra «Əli və Nino» romanının müəllifi Yusif Vəzir Çəmənzəminlidir» adlı

məqaləsini dərc etdirir. Bunun ardınca, 1994-cü il iyulun 26-da yazıçı Süleyman Vəliyev bu mövzuya həsr olunmuş «Böyük sənətkarın sirləri…» məqaləsi ilə «Respublika» qəzetində çıxış edir.

Yazıçılardan Qılman İlkin, Süleyman Vəliyev, Kamal Talıbzadə, Hüseyn Abbaszadə, Famil Mehdi 1995-ci ildə Mətbuat və İnformasiya Nazirliyinə müraciət edirlər ki, roman əsl müəllifinin adı altında çap olunsun. Lakin texniki səbəblərdən bunu həyata keçirmək mümkün olmur.

Ədəbiyyat İnstitutunda keçirilən müzakirələrdən sonra mübahisəyə son qoymaq məqsədilə Yazıçılar Birliyinin sədri Anarın başçılığı ilə məsələyə bir daha baxılır. Yekdilliklə qəbul olunur ki, «Qurban Səid» Yusif Vəzir Çəmənzəminlinin təxəllüsüdür.

Xalqını ürəkdən sevən, onun üçün çalışan, yazıb-yaradan görkəmli Azərbaycan ziyalıları sırasında Y.V.Çəmənzəminlinin xüsusi yeri və mövqeyi var. Çox təəssüflər ki, zəmanəsinin bir çox şəxsiyyətləri kimi, o da nəinki layiqli qiymətini almamış, hətta sürgünə göndərilmiş, əslində, məhv edilmişdir. Qoy oxucuların Çəmənzəminlinin kitablarını vərəqlədikcə onlardan bilik, dünyagörüşü əxz etməsi unudulmaz yazıçımızın mükafatı, ruhunun rahatlığı olsun.

ƏQİDƏSİ XALQINA SEVGİSİNDƏN QAYNAQLANIRDI

Azərbaycan Xalq Cümhuriyyəti tarixində fədakar fəaliyyəti, ideyaları, misilsiz xidmətləri ilə daim yaddaqalan simalardan, istiqlal mücahidlərindən biri də Aslan bəy Ağalar bəy oğlu Səfikürdski olmuşdur. Çar mütləqiyyəti, sonralar sovet rejimi şər və böhtanlarla, hətta «panislamist», «pantürkist» adı ilə onu gözdən salmağa, düşmən elan etməyə çalışsalar da, bu görkəmli ictimai-siyasi xadimi unutdurmağa nail ola bilməmişdilər.

Odur ki, Aslan bəy Səfikürdskinin adının o dövrdə yaşayıb-yaradan görkəmli şəxsiyyətlərin adı ilə yanaşı çəkilməsi təsadüfi deyil. Doğrudur, onun həyat və fəaliyyəti tədqiqatçılar tərəfindən daha dərindən öyrənilməlidir. Bununla belə, ensiklopediyalardan, cümhuriyyət dövrünün dövlət xadimləri haqqında yazılmış kitablardan və digər mənbələrdən bu şəxsiyyət haqqında müəyyən məlumatlar əldə etmək mümkündür. Məsələn, Səfikürdskinin fəaliyyətini xarakterizə etməli olsaq, professor Ə.Tahirzadənin onun barəsində yazdıqlarından bir parçanı göstərə bilərik: «Aslan bəy Səfikürdski Azərbaycan tarixində önəmli iz buraxmış şəxslərdəndir. Onun haqqında yetərincə olmasa da, müəyyən qədər araşdırma aparılıb, yazılar yazılıb. Azərbaycan türk aydınlarının qabaqcıl nümayəndələrindən olan Aslan bəy ölkəmizin ictimai həyatında daim fəal iştirak edib, həmişə ən qaynar nöqtələrdə bulunub. Bəzən yanılmalara yol versə də, dedikləri ilə etdikləri çox vaxt üst-üstə düşüb. O, çar dönəmində də, cümhuriyyət illərində də, sovet çağında da əməlləri ilə xalqına fayda verməyə çalışıb və həmişə xalqın gözü önündə olub. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının, Azərbaycan parlamentinin üzvü olub. Cümhuriyyət hökumətində poçt-teleqraf və əmək naziri, cümhuriyyətin baş prokuroru vəzifələrində çalışıb, sovetləşmədən sonra

Aslan bəy Səfikürdski

isə Xalq Ədliyyə Komissarlığı Kollegiyasının üzvü olub. 1922-ci ildə eserlərin işi üzrə həbs edilib. Buraxıldıqdan sonra «Azneft»də hüquq məsləhətçisi işləyib və 1937-ci ildə kommunistlər hamı kimi, onu da güllələyiblər. Bu, onun ən qısa tərcümeyi-halıdır».

Lakin burada bir qeyri-dəqiqliyə yol verilir. Digər tədqiqatçıların əsərlərində Səfikürdskinin güllələndiyi göstərilmir. Bununla belə, sovet rejimi Aslan bəyi özünə düşmən bildiyi üçün onu mənən işgəncələrə məruz qoyur və o, ağır xəstəlikdən sonra 1937-ci il sentyabrın 20-də vəfat edir.

Aslan bəy Səfikürdski 1881-ci il sentyabrın 30-da Gəncə qəzasının Səfikürd kəndində dünyaya göz açmışdı. Ona babasının adını vermişdilər. Soyadını isə doğulub böyüdüyü kəndin adından almışdı.

Aslan bəy 20 yaşında Gəncə Klassik Gimnaziyasını bitirmiş və Xarkov Universitetinin Hüquq fakültəsinə daxil olmuşdu. O zaman çar ali məktəblərində tələbələrin ictimai mənşəyinə ciddi fikir verilirdi. Bu barədə ətraflı məlumat olan xüsusi sənəd də tələb edilirdi. Atası vəfat etdiyindən Aslan bəy üçün həmin sənədi əmisi almışdı. Orada yazılmışdı: «Bu, Gəncə Qəza İdarəsindən Səfikürd kəndinin sakini Həsən bəy Aslan bəy oğlu Səfikürdskiyə ona görə verilir ki, Səfikürd kəndinin 1886-cı ildə ailə siyahısından göründüyü kimi, onun qardaşı oğlu Aslan bəy Ağalar bəy oğlu Səfikürdski imtiyazlı təbəqədəndir...»

Beləliklə, 1901-ci ildə Səfikürdski Xarkov Universitetinə daxil olur. Bir il orada oxuduqdan sonra – 1902-ci ilin yayında universitetin rektoruna ərizə yazaraq Sankt-Peterburq Universitetinin eyni, yəni hüquq fakültəsində təhsilini davam

etdirmək üçün icazə istəyir. Bunun səbəbini həmin şəhərdə yaşayan yaxın qohumunun ona maddi kömək göstərəcəyi ilə izah edir.

Rektor da, öz növbəsində, Sankt-Peterburqdakı həmkarına yazır: «A.Səfikürdski Məhəmmədiyyə dinindəndir. 30 sentyabr 1881-ci ildə doğulub. Xarkov Universitetinə Gəncə gimnaziyasından 4 iyul 1901-ci ildə aldığı 616 saylı kamal attestatı ilə daxil olub və hüquq fakültəsinin mühazirələrini dinləyib».

Bununla da Aslan bəy öz xahişi ilə Sankt-Peterburq Universitetinə keçərək növbəti tədris ilində təhsilini orada davam etdirir. Tələbə hərəkatında iştirak etdiyinə görə 1903-cü ilin yazında universitetdən xaric olunur. 1904-cü ilin yanvarında isə yenidən ali məktəbə bərpa edilir.

Yeri gəlmişkən qeyd edək ki, Aslan bəyin qardaşları da o zaman Rusiyanın ali məktəblərini bitirmiş yüksək ixtisaslı mütəxəssislər olublar. Ortancıl qardaşı Nəsrəddin bəy (1884-1920) 3 il onunla birgə Sankt-Peterburq Universitetində oxuyub. 1920-ci ildə Gəncədə Sovet hakimiyyəti əleyhinə qalxmış üsyanın iştirakçılarından biri kimi şəhid olub.

1890-cı ildə anadan olmuş kiçik qardaşı Ağalar bəy 1917-ci ildə Moskva Universitetinin Tibb fakültəsini bitirib. Əvvəlcə Gəncədə həkim işləyib. Sovet hakimiyyəti illərində Bakıda səhiyyə sahəsində məsul vəzifələrdə çalışıb. 1966-cı ildə vəfat edib.

Sankt-Peterburq həyatı Aslan bəy Səfikürdskinin bir ziyalı kimi yetişməsində daha böyük rol oynayır. O, burada azərbaycanlı tələbələrin təşkil etdiyi «Həmyerlilər» təşkilatının üzvü olur.

1907-ci ildə Aslan bəy ali təhsilli hüquqşünas kimi Gəncəyə qayıdır (Başqa bir mənbədə isə Səfikürdskinin təhsilini başa çatdıraraq Gəncəyə 1905-ci ildə qayıtdığı göstərilir). 1907-1911-ci illərdə Gəncənin ədliyyə orqanlarında andlı müvəkkil köməkçisi vəzifəsində işləyir. Eyni zamanda xeyriyyəçiliklə məşğul olur. Tezliklə Gəncədə «Müsəlman Xeyriyyə Cəmiyyəti»nin rəhbərlərindən biri, «Aktyorlar Cəmiyyəti»nin sədri seçilir.

1911-ci ildə A.Səfikürdski Şuşa Şəhər Dumasında iclasçı, sonra andlı müvəkkil vəzifəsində çalışır. Burada 7 il işlədikdən, yəni 1917-ci ilin fevral inqilabından sonra Gəncə Qəza İcraiyyə Komitəsinin tərkibinə, həmçinin Gəncə Müsəlman Milli Şurasına üzv seçilir.

1915-ci ildə Kiyevdə Sankt-Peterburq Universitetinin professoru Boduen-de Kurtilin sədrliyi ilə ölkənin qeyri-rus millətlərinin qurultayı keçirilir. O, həmin qurultayda Qasım bəy Əmircanovla birlikdə Azərbaycandan nümayəndə kimi iştirak edir. Burada ilk dəfə olaraq «Azərbaycan muxtariyyatı» haqqında məsələ qaldırılır. A.Səfikürdski məsələ ilə bağlı ətraflı çıxış edir və Azərbaycana milli muxtariyyət verilməsi haqqında təkliflər irəli sürür. Sonralar «Azərbaycan» qəzetinin 1919-cu il 28 may tarixli nömrəsində A.Səfikürdski bu barədə belə yazır: «O vaxt elan olunmuşdur ki, Azərbaycanda məskun olan xalqlar tam muxtariyyət almalıdırlar. Qurultayda iştirak edən Gürcüstan və Ermənistan nümayəndələri də bu cür nöqteyinəzərdə dayanmışlar. Onda Qafqaz xalqları arasında sərhədlər barədə indikinə nisbətən mübahisə və fikir ayrılığı az idi. O vaxt bildirilmişdir ki, Azərbaycan bütün Bakı və Yelizavetpol (Gəncə) quberniyalarını, Zaqatala dairəsini, İrəvan və Tiflis quberniyalarının bir hissələrini əhatə etməlidir ki, Azərbaycan türkləri ilə məskundur. Gürcüstan və Ermənistan nümayəndələri buna etiraz etmirdilər. Hal-hazırda isə, təəssüf ki, bu məsələdə razılıq yoxdur».

1917-ci il noyabrın 11-də Aslan bəy Cənubi Qafqazın siyasi partiya və ictimai təşkilatlarının nümayəndələrinin Tiflisdə keçirilən konfransında iştirak edir. Elə həmin il Eser Partiyasının tərkibindən çıxır, Müsəlman Sosialistləri Blokuna daxil olur. Başçılıq etdiyi blok Rusiya Müəssislər Məclisinə seçkilərdə 3 yer qazanır.

Rusiya Müəssislər Məclisi buraxıldıqdan sonra Səfikürdski 1918-ci il fevralın 12-də təsis edilən Zaqafqaziya Seyminin Müsəlman Fraksiyasının, sonra isə Azərbaycan Milli Şurasının üzvü olur. Seymin Müsəlman Sosialistləri Blokunun lideri olması ona imkan verir ki, Bakıda müsəlman əhaliyə qarşı

vəhşiliklərin qarşısının dərhal alınmasını tələb etsin. Bir fakt da qeyd olunmalıdır ki, Azərbaycan Milli Şurası yaradılanda onun məqsəd və vəzifələrini xalqa çatdırmaq üçün bütün müsəlman bölgələrinə nümayəndələr göndərilirdi. Onların arasında A.Səfikürdski də var idi.

1918-ci ilin iyun ayında Gəncədə «İyun böhranı» adlanan hökumət böhranı baş verir. O zaman Səfikürdski Osmanlı dövləti rəhbərlərinin Azərbaycan xalqının maraqlarına zidd addımlar atmasına təəssüfləndiyini bildirir, Azərbaycan Milli Şurasının və birinci hökumətin buraxılmasına etiraz kimi Müsəlman Sosialistləri Bloku adından partiyanın yeni hökumətin tərkibinə daxil olmayacağını bəyan edir.

1918-ci ilin sonunda Səfikürdski Qazax qəzasından Azərbaycan Xalq Cümhuriyyəti parlamentinə deputat seçilir. Müsəlman Sosialistləri Bloku adından Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini yüksək qiymətləndirən Aslan bəy daim kəndlilərin mənafeyini müdafiə edir, aqrar problemin həllini parlamentin ən vacib məsələsi sayır və tələb edirdi ki, torpaqlar əvəzsiz olaraq kəndlilərə paylansın.

Aslan bəy həmçinin siyasi məhbuslara əfvi-ümumi verilməsi üzrə xüsusi komissiyanın üzvü idi. O özünün bu vəzifə və səlahiyyətlərindən də istifadə edərək kəndlilərə kömək etməyə çalışırdı. Belə ki, əfvi-ümuminin kənd yerlərindən olan siyasi məhbuslara tətbiq edilməsini təklif etmişdi.

Təklif qəbul olunmuşdu.

Səfikürdski Azərbaycan Cümhuriyyətinin 3-cü hökumət kabinetində poçt-teleqraf və əmək naziri, 4-cü kabinetində isə ədliyyə və əmək naziri vəzifələrini yerinə yetirmişdi. Qeyd edək ki, 3-cü kabinet 1918-ci il dekabrın 26-dan 1919-cu il martın 14-nə qədər olan dövrü əhatə edib. 4-cü kabinet isə 1919-cu il martın 14-dən dekabrın 22-dək fəaliyyət göstərib.

Danılmaz faktdır ki, ölkə rabitəsinin tarixində xalqı çarizm hökmranlığından qurtaran Azərbaycan Xalq Cümhuriyyəti dövrü xüsusi yer tutur. 1918-ci il oktyabrın 6-da Poçt və Teleqraf Nazirliyi təşkil olunur. Məhz bu dövrdə müstəqil Azərbaycan

rabitəsinin təşəkkülü və təkamülü istiqamətində əhəmiyyətli addımlar atılır. Xalq Cümhuriyyətinin ilk rabitə nazirlərinin gördüyü nəhəng işlər indi də öz mahiyyətini itirməyib. Ona görə də ilk rabitə nazirləri olan Xudadat bəy Məlikaslanov, Ağa Aşurov, Aslan bəy Səfikürdski və Camo bəy Hacınskinin fəaliyyətləri heç vaxt yaddan çıxmamalıdır.

Məlum olduğu kimi, Səfikürdski Azərbaycan Xalq Cümhuriyyətinin 3-cü hökumət kabinetinin poçt-teleqraf və əmək naziri vəzifəsində çalışmışdı. Onun təşəbbüsü ilə respublikanın ayrı-ayrı bölgələrindəki poçt-teleqraf müssisələrində əməliyyatlar və poçt daşımaları bərpa edilmiş, yerlərdə telefon danışığı məntəqələri açılmışdı.

Səfikürdski yaxşı bilirdi ki, istənilən sahəni yüksək ixtisaslı, mükəmməl, bilikli kadrlar olmadan irəli aparmaq mümkün deyil. Ona görə də nazir olduğu dövrdə rabitə sahəsi üçün kadrların hazırlanması məsələlərinə xüsusi diqqət yetirirdi. Təsadüfi deyil ki, 1919-cu ildə o, Bakıda xüsusi poçt-teleqraf məktəbinin fəaliyyətə başlamasına nail olur.

Səfikürdski çox çalışırdı ki, Azərbaycanın qonşu dövlətlərlə rabitə əlaqələri qaydaya salınsın və inkişaf etdirilsin. Məhz onun nazir olduğu dövrdə üzərində Azərbaycan dövlətinin nişanları olan poçt markaları buraxılmağa başlamışdı.

Səfikürdski ədliyyə naziri olanda bu sistemin də işinin təkmilləşdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirir. Məhz onun göstərişi ilə Ədliyyə Nazirliyinin nəzdində Azərbaycanda ilk dəfə olaraq hüquq elmi üzrə mükəmməl kitabxananın təşkilinə başlanılır. Eləcə də Azərbaycan Məhkəmə Palatası nəzdində Andlı Müvəkkillər Şurası yaradılır.

Ədliyyə sistemində daha çox milli kadrların çalışmasına nail olmaq Aslan bəyi qayğılandıran məsələlərdən idi. O, məhkəmə orqanlarına qəbul olunan şəxslərin dövlət dilini bilməsini zəruri hesab edirdi.

Səfikürdski deyirdi ki, xalq məhkəməyə deyil, məhkəmə xalqa xidmət etməlidir. Ona görə də yerli dairə məhkəmələri şəbəkələrinin genişləndirilməsinə çalışırdı. Onun Şəkidə, Şuşada və Kürdəmirdə üç yeni dairə məhkəməsinin açılışına nail olması da bu səbəbdən irəli gəlirdi.

Səfikürdski eləcə də cinayətlərin qarşısının alınması istiqamətində ardıcıl iş aparır, cinayətkarlığa qarşı mübarizəni gücləndirmək üçün əməli tədbirlər görürdü.

1919-cu ilin iyun ayından başlayaraq Aslan bəy Səfikürdski Azərbaycan Xalq Cümhuriyyəti Dövlət Müdafiə Komitəsinin, 1920-ci ilin yanvarından isə Müəssislər Məclisinin çağırılması üzrə Mərkəzi Komissiyanın üzvü olur.

1920-ci ildən Səfikürdski fəaliyyətini əsasən parlamentlə bağlayır. Belə ki, fevralın 5-də maliyyə-büdcə komissiyasının üzvü seçilir. Paris Sülh Konfransının Ali Şurası tərəfindən Azərbaycanın suverenliyinin de-fakto tanınması münasibətilə Sosialist fraksiyası və bütün Azərbaycan zəhmətkeşləri adından parlamenti təbrik etmək məhz ona qismət olur.

Bu dövrdə Aslan bəy Səfikürdski təklif irəli sürür ki, Azərbaycanı xarici ölkələrdə təmsil etmək üçün səfirliklər ilk növbədə Şərq ölkələrində, xüsusilə Yaponiyada, Çində, Əfqanıstanda və Türkiyədə açılsın. O, birinci növbədə Rusiyada səfirliyimizin açılmasını zəruri hesab edirdi. Bunun səbəbini oradakı azərbaycanlıların hüquqlarının müdafiəyə ehtiyacı olduğu ilə əsaslandırırdı.

1920-ci il aprelin 27-də o, parlamentin müşavirəsi tərəfindən seçilmiş fövqəladə səlahiyyətli nümayəndə heyətinin üzvü kimi bolşeviklərlə hakimiyyət haqqında danışıqlar aparır. Həmin gün parlamentdəki çıxışında deyir: «Biz Azərbaycan kommunistlərinin təklifini rədd etməyib qəbul etməli, hakimiyyəti və bununla birlikdə millətin ixtiyarını onlara verməliyik... Hərgah onlar istiqlaliyyəti müdafiə edə bilməzlərsə, onda camaat özü müdafiə edər və öz istədiyinə nail olar».

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra kommunistlər Aslan bəy Səfikürdskiyə vəzifə vermişdilər. O, Azərbaycan SSR xalq ədliyyə komissarının müavini işləyirdi. Lakin sovetlər Səfikürdskini yenə də özlərinə düşmən hesab edir və onu gözdən qoymurdular. Nəhayət, Səfikürdskini «Eser Partiyasının Zaqafqaziya təşkilatının işi» üzrə ittiham etdilər. Səfikürdski üç il azadlıqdan məhrum edilərək həbs olunur.

Həbs müddəti bitdikdən sonra Aslan bəy Səfikürdski «Azneft» sistemində hüquq məsləhətçisi işləyirdi. Bununla belə, o, daim təqib edilir, ətrafındakı xoflu adamlar onda nə isə neqativ bir hərəkət axtarırdılar.

Səfikürdskinin keşməkeşli, çətin həyatının sonu isə lap ağır olur. 1937-ci ildə dünyasını dəyişəndə bir kəs irəli durub onun cənazəsini dəfn etməyə cürət göstərmir. Hamı hökumətdən, NKVD-dən qorxurdu.

Nəhayət, qara xəbər doğulduğu Səfikürd kəndinə çatır. Oradan atası Ağalar bəyə vaxtilə yaxın olmuş insanlar Bakıya gəlir və onu torpağa tapşırırlar.

Bununla belə, Aslan bəy Səfikürdskinin məzarının harada olması bu gün də heç kəsə bəlli deyil. Çünki dəfndə iştirak edənlərdən bu barədə bir kəlmə belə deməmək barədə yazılı iltizam alınmışdı.

Fırtınalar içində doğulan, enişli-yoxuşlu yollar qət edən, odlu-alovlu ömür yaşayan Səfikürdskinin həyatı beləcə sakitcə və hüznlə bitdi. Sovet hakimiyyəti dövründə onilliklər boyu bütün silahdaşları kimi, onun da adını çəkmək yasaq edildi. Xalqın tarixinin həmin dövrü barədə hamı susmalı oldu.

Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra isə tarixi yaddaşımız təzələndi. İndi yaddaşlarda əməlləri ilə yaşayan həmin insanlardan biri – Aslan bəy Səfikürdski də qəlbimizdə yenidən qürur doğurub, iftixar mənbəyinə çevrilib.

FƏALİYYƏTİNƏ «ƏHSƏN», ÖZÜNƏ «DÜŞMƏN» DEDİLƏR

Tarix boyu yaşayıb-yaratmış elə şəxsiyyətlər olub ki, onların işlədiyi, fəaliyyət göstərdiyi illər müxtəlif ictimai-siyasi quruluşlar dövrünə təsadüf edib. Bu insanların bir çoxu quruluş dəyişərkən öz vətənpərvərlik mövqelərini saxlayaraq yenə də xalqına sədaqətlə xidmət yolunda əllərindən gələni əsirgəməyiblər. Əfsuslar olsun ki, əksər hallarda belələrini düzgün başa düşməyiblər.

Görkəmli ictimai-siyasi xadim Məmmədhəsən Hacınskinin payına da belə bir tale qismət olub. O, çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti və Sovet hökuməti dövrlərində yaşayıb və fəaliyyət göstərib. Maraqlısı budur ki, hər zaman da yüksək vəzifələrdə çalışıb. Ona görə ayrı-ayrı dövrlərdə Məmmədhəsən Hacınskiyə münasibət müxtəlif olub. Cümhuriyyət dövründə onu bolşevik hesab ediblər. Sovet hakimiyyəti zamanı «müsavatçı», «xalq düşməni» adı ilə damğalayıblar. Ölkəmiz müstəqillik qazandıqdan sonra istiqlal mücahidləri haqqında əsərlər yazılarkən, onların fəaliyyəti yüksək dəyərləndirilərkən M.H.Hacınski, demək olar ki, kənarda qalıb. Buna səbəb onun Sovet hakimiyyəti illərində yüksək vəzifələrdə işləməsi olub.

Əslində, bu münasibətlərin hamısı nisbidir. Maarifçi-demokrat, ictimai-siyasi xadim Məmmədhəsən Hacınskinin həyat və fəaliyyətinə tamamilə başqa rakursdan yanaşmaq lazımdır. Onda çox aydın görünür ki, yaşadığı ictimai-siyasi quruluşdan asılı olmayaraq, bu insan daim öz xalqı və vətəni üçün çalışıb. Bunu səciyyələndirən xüsusiyyətlər də məhz hər zaman təqdir olunacaq fəaliyyəti və sədaqətidir.

Olmazın işgəncələrə və əzablara məruz qalaraq həbsxanada özünə qəsd edən Hacınskinin keçən əsrin 30-cu illərinin repressiya qurbanları sırasında olması böyük təəssüf doğurur. 2015-ci ilin mart ayında görkəmli ictimai-siyasi xadimin anadan olmasının 140 illiyidir.

Məmmədhəsən Hacınski

Məmmədhəsən Hacınski əslən bakılıdır. Atası Cəfərqulu Hacızadə tacir idi və tez-tez səfərlərə çıxırdı. Belə səfərlərin birində Qahirədə ərəb qızı Fatiməni sevmiş və ailə quraraq onu Bakıya gətirmişdi. Gənc ailədə əvvəlcə qız övladı dünyaya gəlmişdi. 1875-ci il martın 3-də ailənin ikinci uşağı Məmmədhəsən anadan olmuşdu. O, Bakı realnı məktəbində oxumuş və burada dəqiq elmlər sahəsində fitri istedadı üzə çıxmışdı.

1895-ci ildə Hacınski Sankt-Peterburqda I Nikolay adına Texnoloji İnstitutun Tikinti mühəndisliyi fakültəsinə qəbul olunur. Təhsilini 1902-ci ildə başa çatdırır.

Məmmədhəsən bəy bir müddət Moskvada azərbaycanlı milyonçu və xeyriyyəçi Şəmsi Əsədullayevin neftayırma zavodlarının tikintisində çalışır. Sonra Bakıya qayıdıb şəhər upravasının (bələdiyyəsinin) tikinti şöbəsinin rəisi işləyir. M.Hacınski 1908-ci ildən Bakının abadlaşdırılmasına və inşaat işlərinin genişləndirilməsinə çalışır. Şəhərin hələ 1898-ci ildə fon der Nonne tərəfindən tərtib olunmuş baş planının layihəsini təkmilləşdirir. 1909-cu ildə Bakı Dumasının iclasında M.Hacınski çıxış edərək deyir: «Əhalinin asudə vaxtının keçirilməsi üçün şəhərdə yeganə olan Mixaylovski bağı (indiki Filarmoniya bağı – **İ.Ə.**) azlıq edir və günün tələblərinə cavab vermir».

Ertəsi gün Bakıda çıxan bütün qəzetlər onun çıxışını şərh edir, sevinclə xəbər verirlər ki, nəhayət, şəhərdə Dənizkənarı bulvar yaradılacaq, bu işlərə Hacınski rəhbərlik edəcək.

1909-1910-cu illərdə Bakı Dənizkənarı parkının salınması və 1912-ci ildə bununla bağlı tikinti işlərinin tam başa çatdırılması, eləcə də «Olimpiya» kinoteatrı, «Eldorado» restoranı və dəniz

hamamının inşası bilavasitə Hacınskinin fəaliyyəti nəticəsində mümkün olur.

Tikintisi iki il çəkən Bakı bulvarı tezliklə şəhər sakinlərinin sevimli istirahət yerinə çevrilir. Bulvar Qafqaz Merkuri körpüsündən, yəni indiki Kukla Teatrının yanından başlayaraq o zaman Seyid Mirbabayevin evi kimi tanınan «Azneft»ə qədər uzanır.

Memar Hacınski eləcə də 1912-ci ildə Bakı küçələrinin abadlaşdırılması layihəsinin müəllifi və rəhbəri olur. Filarmoniyanın yay səhnəsinin tikintisi də onun vəzifədə olduğu dövrə təsadüf edir.

Hacınskinin şəhərin baş planına aid təklif etdiyi layihə o vaxta qədər Bakıda heç zaman tətbiq olunmamışdı. Onun layihəsinə görə, Bakının küçələri, Parisin «Ulduz» meydanında olduğu kimi, bir dairədən şüalar şəklində çəkilməli idi. «Yelpik» adlı həmin layihə şəhərdə geniş meydanların və bağçaların olmasını nəzərdə tuturdu.

Xatırlatmaq yerinə düşər ki, sonralar Bakının baş planı yenidən işlənərkən Hacınskinin və fon der Nonnenin layihəsi əsas götürülüb. Hacınski vəzifədə olduğu illərdə Bakının tarixi abidələrinin qorunmasına da böyük diqqət göstərib. Məhz onun təklifi ilə Zivər bəy Əhmədbəyov Şirvanşahlar sarayının bərpası ilə bağlı elmi-tədqiqat işləri aparıb.

Tikinti şöbəsinə rəhbərlik edərkən Hacınski ilk növbədə şəhərin su təchizatı məsələsini yenidən gündəmə gətirir. Problem, nəhayət, uğurla həll olunur. Bakı Şəhər Duması o zaman Rusiyada ən uzun su kəməri sayılan Şollar suyu layihəsini təsdiq edir.

Mənbələrdə göstərilir ki, Məmmədhəsən Hacınski aktiv siyasi fəaliyyətə gizli yaradılmış «Müsavat» cəmiyyətində başlayıb. 1904-cü ilin sonlarında həmin cəmiyyət əsasında Rusiya Sosial-Demokrat Fəhlə Partiyası Bakı komitəsinin nəzdində müsəlman sosial-demokrat «Hümmət» təşkilatı yaradılır. Bu qurumun yaradıcıları üç nəfər – Məhəmməd Əmin Rəsulzadə, Mir Həsən Mövsümov və Məmmədhəsən Hacınski olur. Təşkilata N.Nərimanov, M.Əzizbəyov və S.Əfəndiyev də daxil idilər.

1917-ci il fevral inqilabından sonra Hacınski açıq siyasi fəaliyyətə keçir. Həmin il hadisələr çox sürətlə cərəyan edir. Martın 5-də o, təşkil edilən Bakı İctimai Təşkilatları Şurası İcraiyyə Komitəsinin üzvü, martın 27-də isə Bakı Müsəlman İctimai Təşkilatı Müvəqqəti Komitəsinin sədri seçilir. Apreldə Qafqaz Müsəlmanlarının Bakı qurultayının Rəyasət Heyətinə daxil olur. May ayında Rusiya müsəlmanlarının Moskvada keçirilən qurultayında iştirak edir. İyulda Bakı Müsəlman İctimai-Siyasi Təşkilatları İcraiyyə Komitəsinin iclasında Ə.Topçubaşov komitənin sədri, M.H.Hacınski və M.Ə.Rəsulzadə onun müavinləri seçilirlər.

«Müsavat» partiyasının oktyabrın 26-31-də keçirilən birinci qurultayında Hacınski Mərkəzi Komitənin üzvü olur. Noyabrın 15-də yaradılmış Zaqafqaziya Komissarlığında ticarət və sənaye komissarının müavini olan Məmmədhəsən həmin ayın 23-də Türkiyəyə rəsmi danışıqlara gedir. Sonra Ümumrusiya Müəssislər Məclisinə «Müsavat» partiyasından üzv seçilərək Zaqafqaziya Seyminə daxil olur.

Artıq bir siyasətçi və məmur kimi püxtələşmiş M.Hacınski 1918-ci ildə seymin Osmanlı dövləti ilə danışıqlar aparan nümayəndə heyətinin tərkibində Trabzon konfransına yola düşür.

M.Hacınski ilk dəfə nazir kürsüsünü Zaqafqaziya Federativ Respublikası hökumətində tutur. Batum konfransında M.Ə.Rəsulzadə ilə birlikdə Azərbaycanı təmsil edən də məhz Hacınski olur. Ümumiyyətlə, Azərbaycan Milli Şurasının Milli İstiqlal Bəyannaməsini qəbul edən 26 üzvündən biri də o olur.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olunur. Bitərəf Fətəli xan Xoyski birinci hökumət kabinetini təşkil edir. Məmmədhəsən Hacınski xarici işlər naziri təyin olunur. O bu xəbəri Batumda eşidir və dərhal vəzifəsinin icrasına başlayaraq İstanbul radiosu ilə milli istiqlalımızı müxtəlif dillərdə dünyaya bəyan etdirir.

1918-ci il iyunun 4-də M.Hacınski Gürcüstan hökumətinə nota göndərərək gürcü qoşunlarının Borçalı qəzasından dərhal çıxmasını tələb edir. Sonra isə Gürcüstana və Ermənistana

sərhədlərin dəqiqləşdirilməsi üçün müştərək komissiya yaratmaq təklifi verir. Ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımlarını araşdırmaq üçün Fövqəladə İstintaq Komissiyası yaradır ki, bu da dövlət xadimi və vətənpərvər olaraq onun müstəsna xidməti kimi dəyərləndirilməlidir.

Xalq Cümhuriyyətinin ikinci hökumət kabinetində M.Hacınski oktyabrdan dekabradək maliyyə naziri kimi çalışır. «Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun»a əsasən, o, parlamentin tərkibinə daxil edilir.

M.Hacınski üçüncü hökumət kabinetində bir müddət – 1918-ci ilin dekabrından 1919-cu ilin yanvarınadək dövlət nəzarəti naziri vəzifəsini icra edir. Bu dövrdə Paris Sülh Konfransına gedən nümayəndə heyətinə sədrlik etmək ona tapşırılır.

Hacınski Parisi oktyabrın sonunda tərk edir və Bakıya qayıtdıqdan sonra dördüncü və beşinci hökumət kabinetlərində daxili işlər naziri təyin olunur. Daxili işlər naziri postunda da Məmmədhəsən Hacınskinin prinsipiallığı, məsuliyyəti, xalqının xeyri naminə çalışması və digər müsbət xüsusiyyətləri özünü göstərir.

Lakin bəzi müsavatçılar onun məmur özbaşınalığına qarşı sərt mövqeyini ittihadçılar və kommunistlərlə birləşmək meyli kimi qiymətləndirirlər. Ona görə də Hacınski 1920-ci il fevralın 18-də daxili işlər naziri vəzifəsindən çıxarılır. Bununla belə, kabinetin tərkibində ticarət, sənaye və ərzaq naziri kimi qalır.

Tarix Məmmədhəsən Hacınskinin adını cümhuriyyət hökuməti kabinetinin birincisində xarici işlər naziri, üçüncüdə maliyyə naziri və beşincidə daxili işlər naziri kimi qoruyub saxlayır.

1920-ci il aprelin 28-dən – Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Hacınski Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasında çalışır. Var qüvvəsi ilə respublikanın şəhərlərinin abadlıq-quruculuq işlərində iştirak edir. Azərbaycan mətbuatında tez-tez çıxış edərək görülən işlər barədə məlumat verir. 1922-ci ildə nəşr olunmuş «Hophopnamə»dən görünür ki, Mirzə Ələkbər Sabirin abidəsinin tikintisinə də Hacınski rəhbərlik edib.

O, ailəsi ilə Bakının Aşağı Məzarlıq küçəsində yaşayırdı. Günlərin birində mənzilindən yalnız həyat yoldaşının cehizi, ailəsinin sevincinin və kədərinin şahidi – gümüş şamdanlı fortepianonu da götürüb Bakıdan köçür. Beləcə, 1922-ci ilin may ayından Hacınskilər Tiflisdə qərar tutur. 1923-cü ildə Hacınski Zaqafqaziya Dövlət Plan Komitəsi sədrinin birinci müavini təyin olunur. O, Azərbaycanda sənaye şəhərlərinin salınması işinə dəstək verir, xüsusilə Daşkəsənin iqtisadiyyatının inkişafına çalışırdı.

Hacınskilər ailəsi artıq Tiflis şəhərinin Piroqov küçəsindəki 8 nömrəli evin ikinci mərtəbəsində yaşayırdı. Zaqafqaziya Diyar Partiya Komitəsinin birinci katibi Lavrenti Beriyanın və 1902-1905-ci illərdə Bakıda «Nina» bolşevik mətbəəsində çalışmış Vano ləqəbli İvan Fyodoroviç Sturuanın mənzilləri isə üçüncü mərtəbədə idi. Hacınski Beriyanın bədniyyətli adam olduğunu hər zaman duymuş və dərk etmişdi. Amma komissar Sturua ilə yaxşı münasibətləri vardı, uşaqları onu «Vano dayı» deyə çağırırdılar. Hacınski dəfələrlə Vanoya Beriya kimi yaramazla qonşu olduğuna görə təəssüf etdiyini söyləmişdi.

Bu həmin dövr idi ki, Finlandiyaya gedə bilmiş M.Ə.Rəsulzadə Almaniyadan Türkiyəyə gəlmiş, parçalanmış milli və siyasi qrupları öz ətrafında birləşdirərək Azərbaycan Milli Mərkəzini (AMM) yaratmağa müvəffəq olmuşdu. Mərkəzin Paris bölməsinə Ə.Topçubaşov rəhbərlik edirdi. Bu bölmə Azərbaycanda gizli fəaliyyət göstərən mərkəzin beynəlxalq əlaqələrinin tənzimlənməsində mühüm rol oynayırdı.

AMM Rusiyadan üz çevirib neft sənayesində əsas müttəfiq kimi nəzərdə tutduğu İngiltərəyə arxalanırdı. Mərkəzin gizli sənədlərində Nazirlər Şurasının sədri vəzifəsi Məmmədhəsən Hacınskiyə verilməli idi. Lakin 1927-ci ildə SSRİ-nin təzyiqi ilə Türkiyə hökumətinin mərkəz üçün ayırdığı cüzi yardıma son qoyuldu. Beləliklə, təşkilatın Azərbaycan bölməsinin beynəlxalq aləmlə əlaqəsi kəsildi.

1930-cu il dekabrın 3-də Hacınskinin mənzilində axtarış aparılır. O, L.Beriyanın göstərişi ilə həbs olunur. Dövlət

Təhlükəsizlik Komitəsinin arxivindəki P.S.75525-ci qovluqdakı 233 nömrəli orderi Tatyan (burada da «yan») və AK QPU-nun sədr müavini L.Beriya təsdiq edirlər.

Hacınski həbs olunandan 25 gün sonra – dekabrın 28-də həyat yoldaşı Səadət xanım Moskvaya yola düşür, Sov.İKP MK Siyasi Bürosunun üzvü Serqo Orconikidze ilə onun Kremldəki mənzilində söhbət edir. Orconikidze Hacınski ilə həmişə xoş münasibətdə olmuşdu. Zadəgan əsilli Serqo Hacınskinin xanımını hörmətlə qarşılamış və söyləmişdi ki, Məmməd-həsənin günahkar olduğuna inanmır. Ona ümid verərək evinə dönməsini məsləhət bilmişdi.

Lakin bu ümidlər özünü doğrultmur. Hacınski isə həqiqətən günahsız idi. Yüksək vəzifəli sovet məmuru olmasına baxmayaraq, kasıb dolanırdı. Həbsxanadan ailəsinə və dostlarına göndərdiyi məktublar onun həyat tərzi haqqında çox söz deyirdi.

Bəs həbsxanaya, təkadamlıq kameraya salınan Hacınskini nədə günahlandırırdılar? Əsas ittiham kimi mühəndis Ələsgər bəy Bəylərbəyovun verdiyi ifadə götürülmüşdü. Bu ifadədə bildirilirdi ki, təxminən 1928-ci ilin payızında Bakıya gəlmiş M.Hacınski Dövlət Plan Komitəsi sədrinin kabinetində İngiltərə və Fransanın Bakıya olan marağının Ə.Topçubaşovla bağlanmış məxfi müqavilədə öz əksini tapması xəbərini vermişdi. Yəni o, Azərbaycan Milli Mərkəzinin işi ilə bağlı ittiham edilirdi.

Qəribədir ki, vaxtilə onu Xalq Cümhuriyyətinə xəyanətdə günahlandırmışdılar. AXC Əks-Kəşfiyyat İdarəsinin rəisi Nağı bəy Şeyxzamanlı-Keykuru «Azərbaycan istiqlal mücadiləsi xatirələri» kitabında yazmışdı: «Hökumətimizin daxilində çox məşum rol oynamış Məmmədhəsən Hacınski gizli olaraq Moskva agentləri ilə sözləşmiş, hökumətimizin və xalqımızın əleyhinə çalışmışdır. Moskvanın göstərişi ilə hərəkət etmişdir».

İndi isə sovet hökuməti onu dönüklükdə, düşmənçilikdə təqsirləndirirdi.

Hacınski 1931-ci il fevralın 8-də həbsxanada mələfədən hazırladığı kəndirlə özünü asaraq intihar edir. Ertəsi gün Za-

qafqaziya QPU-nun həkimi Vantsyan imzası ilə bunu təsdiqləyir və sənəd 11886 nömrəli istintaq işinə tikilir.

İntihar etməzdən əvvəl M.Hacınskinin S.Orconikidzeyə və Ş.Eliavaya yazdığı məktub isə Hacınskinin bütün daxili düşüncələrini, siyasi baxışlarını, qulluq etdiyi quruluşa münasibətini tam açır. Fikrimizcə, M.Hacınski haqqında qalın-qalın kitablar yazılsa da, onu özünün bu qısa məktubu kimi xarakterizə edə bilməz. O yazmışdı: «Tabutdan da sizə yalvarıram ki, mənim əməllərimə işıq tutub heç olmasa bu biabırçılıqların azalmasına yardım edəsiniz. Ölüm anında bildirmək istəyirəm ki, mən həqiqətən sizin quruluşa düşmən olsam da, bu hakimiyyət barədə ağzıma gələni danışsam da, əslində, açıq və qəti fəaliyyət üçün hər zaman tərəddüd etmişəm. Odur ki, mənim Sovet hökumətinə qarşı törətdiyim hər hansı bir ziyanlıqdan söhbət gedə bilməz».

Bu vaxt Səadət xanım oğlu Şamillə Məmmədhəsənə baş çəkmək üçün həbsxanaya gəlir. Lakin burada intihar hadisəsini eşidir. Cəsədi ailəyə vermirlər. Kor-peşman evə dönən Səadət xanım uşaqlarını başına toplayır, mərhumun ruhuna dualar oxuyur.

Səadət xanım bəd xəbəri eşidən kimi S.Orconikidzeyə teleqram göndərib xahiş edir ki, ona əri ilə heç olmasa vida görüşü versinlər. Orconikidze bu barədə göstəriş verir və Səadət xanımla Şamil mərhumla vidalaşırlar. Onlara Məmmədhəsənin özü ilə apardığı kiçik çamadanı təhvil verirlər. Həmin gün Məmmədhəsənin qızları fəryad qoparır, oğlanları isə çamadandan çıxan kəndiri aparıb F.Xoyskinin, H.Ağayevin və M.F.Axundzadənin məzarlarının yanında torpağa basdırırlar.

Bəs atanın dünyasını dəyişməsindən sonra bu böyük külfətin güzəranı necə olmuşdu?

Deyildiyi kimi, Məmmədhəsənin heç bir var-dövləti qalmamışdı. Yenə də S.Orconikidzenin tapşırığı ilə ailəyə cüzi təqaüd kəsilir. Lakin 40-cı ildə ailə üzvlərinin də təqibi başlanır, onlar məktəbdən və işdən çıxarılırlar.

1939-cu ildə Tofiq və Murad Hacınskilər əsgərliyə çağırılır. Bundan sonra ailənin vəziyyəti çətinləşir, mənzilləri də

əllərindən alınır. Ailə məcbur olub Bakıya köçür. Burada onlar öz evlərinin bir otağında kirayənişin kimi yaşamalı olurlar. Bu zaman əvvəlki Məzarlıq küçəsi Arsen Əmiryan küçəsi olmuş, Hacınskinin evində isə iki erməni ailəsi məskunlaşmışdı. Onlar Məmmədhəsənin ailəsini incidir, «donos»lar yazırdılar.

Bir sözlə, öz ölümü ilə haqsızlıqlara qarşı üsyan edən M.Hacınskinin bu hərəkəti, əlbəttə, hakim dairələrin xoşuna gəlməmişdi. Ona görə də onun bütün ailəsi və nəsli repressiyalara məruz qalır. Həyatın əzablı yollarında övladlarının heç birinə yaxşı ömür yaşamaq qismət olmur.

M.Hacınski 1958-ci il mayın 29-da bəraət alır.

TƏZADLAR DÖVRÜNÜN BÖYÜK ZİYALISI

Əhməd bəy Mirzə Həsən oğlu Ağayev (Ağaoğlu) 1869-cu ildə əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağda, gözəl Şuşa şəhərində dünyaya göz açmışdı. 70 il sonra, 1939-cu ildə isə dünyasını türk torpağında, qədim İstanbulda dəyişmişdi. Əhməd bəy Ağayevin yaşadığı yeddi onillikdə Azərbaycanda, Qafqazda, Şərqdə və ümumiyyətlə, dünyada hansı siyasi hadisələrin baş verdiyini, heç olmasa onların ən əsaslarını xatırlasaq, Şuşada başlanan bu ömrün nə üçün İstanbulda bitməsinin səbəblərini başa düşərik. Əhməd bəy haqqında hələ tam məlumatımız olmasa belə…

Ə.Ağaoğlunun valideynləri Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın nəslindən idilər. Babası Mirzə İbrahim gözəl xəttat idi, həmçinin Azərbaycan və fars dillərində şeirlər yazırdı. Atası Mirzə Həsən və əmisi Mirzə Məhəmməd öz zəmanələrinə görə mükəmməl savad almış, həm dini, həm də dünyəvi elmlərlə yaxından maraqlanan, ərəb, fars, rus dillərini bilən insanlar olmuşlar. Evlərində həmişə dövrün savadlı, irfan əhli toplaşar, dini mövzuda uzun-uzadı söhbətlər edərdilər. Təbii ki, o zaman Azərbaycan dini həyatın sıx əhatəsində idi və həmin ailədə böyüyən uşaqlar ilk təhsillərini dini məktəblərdə almalı idilər. Ə.Ağaoğlu bu barədə yazırdı: «O zaman Azərbaycan-türk ailəsində patriarxal ruh və ənənəyə bağlılıq hakim idi. Çox sərt və zabitəli bir adam olan böyük əmim Mirzə Məhəmməd bütün ailə üzərində hakimi-mütləqdi. Onun hər sözü bir yerdə yaşayan və sayı ən azı qırx nəfərə çatan bütün ailə üçün qanun idi. Mirzə Məhəmməd çox təəssübkeş və dindar adamdı». Sonralar xatirələrində bu cür təsvir etdiyi əmisinin təkidi ilə müctəhid olmağa hazırlaşdırılan Əhməd bəy əvvəlcə mollaxanada oxuyur. Lakin anası və şəhər bələdiyyə idarəsi rəisinin müavini olan dayısı bu zəkalı uşağın mollaxana

Əhməd bəy Ağayev

təhsili ilə çox da uzağa gedə bilməyəcəyini dərk edərək onu atasından və Mirzə Məhəmməddən gizli rus gimnaziyasına verirlər. Gimnaziyada o, dünyəvi elmlərə yiyələnməklə yanaşı, həyata baxışını da formalaşdırır.

Beləliklə, Əhməd bəy Ağayev əvvəlcə Şuşada rus məktəbində, sonra Tiflis gimnaziyasında oxuyur. Oranı bitirdikdən sonra Peterburqa gedib dövrün aparıcı ali təhsil ocaqlarından olan Mühəndis-Texniki İnstitutuna imtahan verir. Lakin sonuncu fəndən – triqonometriyadan lazımi bal toplaya bilmədiyindən Peterburqa əlvida deyir və Parisə yollanmaq qərarına gəlir.

Parisdə Əhməd bəy hüquq məktəbini və Sorbonna Universitetini bitirir. Bu illərdə Şərq xalqlarının tarixini, ərəb, fars və türk dillərini mükəmməl öyrənir, 1890-cı ildə Şərq fəlsəfəsinə və ədəbiyyatına dair ilk elmi məqaləsini nəşr etdirir. Beləliklə də onun publisist kimi fəaliyyətinə yol açılır və bunun ardınca Əhməd bəyin müxtəlif məcmuələrdə yazıları dərc edilir. O, Praktik Ali Tədqiqatlar Məktəbində «Avesta»nın məşhur tədqiqatçısı C.Darmstaterin «Şərq xalqlarının tarixi», Şərq Dilləri Məktəbində isə Şeffer və Barbye de Meynarın ərəb, fars və türk dillərinə dair mühazirələrini dinləyir. C.Darmstater onu Parisin elmi və ədəbi ictimaiyyətinə təqdim edir. Xatirələrində yazır ki, «…professor C.Darmstaterin sevgisini qazandım. O, haqqımda unudulmaz lütf və inayətlər göstərməyə başladı. Məni evinə dəvət etdi... Paris ədibləri arasında xüsusi mövqe qazanmış Mari Robinzona təqdim etdi» *(V.Quliyev. «Ağaoğlular», Bakı, 1997).*

1892-ci ildə 23 yaşlı Əhməd bəy Ağayev Londonda keçirilən Beynəlxalq Şərqşünaslıq Konqresində iştirak edir. Onun «Şiə

məzhəbinin mənbələri» mövzusunda yüksək səviyyəli məruzəsi nümayəndələr tərəfindən bəyənilir, konrqesin qərarı və Kembric Universitetinin vəsaiti ilə həmin məruzə bir neçə Qərb dillərində nəşr olunur.

Bu əsərə görə İran şahı ona firuzə qaşlı üzük bağışlayır. Əhməd bəy çətin və keşməkeşli həyat yolları ilə irəliləməyə başlayır. Bu yolları ardıcıllıqla, mərhələ-mərhələ izləmədən, öyrənmədən Ağaoğlu haqqında tam təsəvvürə malik olmaq və onu kiməsə tanıtmağa çalışmaq mümkün deyil.

Beləliklə, həyatın Fransa dövrü. Bu dövr onun fikri inkişafında mühüm bir mərhələ təşkil edir. Burada o, təkcə Qərbi deyil, Şərqi də «kəşf edir». 1890-cı ildə Ə.Ağaoğlu fransız dilini artıq mükəmməl bilirdi. Fransa mətbuatında Şərq, Şərq fəlsəfəsi və İslam dini ilə bağlı maraqlı məqalələrlə çıxış edirdi. Parisdə o, məşhur filosof və mütəfəkkir Şeyx Cəmaləddin Əfqani ilə tanış olur. Ədib xatirələrində yazır: «İslam aləminin mütəfəkkirlərindən Cəmaləddin Əfqani Parisdə olarkən mənim sadə evimi başqalarının zəngin saraylarından üstün tutmuşdu və həftələrlə bir yerdə qalmışdıq». Bu tanışlıq onun dünyagörüşünə, ictimai-elmi fəaliyyətinə güclü təsir göstərmişdi.

Paris həyatı 6 il davam edir və 1894-cü ildə atasının ölüm xəbərini eşidən Ağaoğlu İstanbul yolu ilə vətəninə qayıdır.

Müasiri və qohumu olan Yusif Vəzir Çəmənzəminli Ağaoğlunu belə xatırlayırdı: «İslam və türk tarixinə hər kəsdən artıq vaqif idi… Məclisdə danışanda heç bir molla cəsarət edib onun fikirlərinə qarşı çıxa bilmirdi. Əhməd bəy sərt və əsəbi bir adamdı, bilxassə bəylərin qudurğanlıqlarına dözə bilməzdi, onlarla bir məclisdə qarşı-qarşıya gəldimi, həmişə dalaşardı, həmişə də tapançasını hazır saxlardı».

Əhməd bəy həm də islamşünas və şərqşünas kimi püxtələşməkdə idi. Lakin vətənində onu hələ yaxşı dərk edə bilmirdilər. 1896-cı ildə o, Şuşaya gedir və realnı məktəbdə fransız dili müəllimi işləyir, qiraətxana-kitabxana açır, ilk teatr tamaşaları təşkil edir. Bir sözlə, Şuşada yaşadığı üç il müddətində həmyerliləri arasında milli şüuru oyatmaq üçün əlindən gələni əsirgəmir. Müqabilində isə «Firəng Əhməd» ləqəbi qazanır.

Ümumiyyətlə isə Ağaoğlu istedadı bir şəhərin, bəlkə də bir məmləkətin sərhədləri daxilinə sığa bilməzdi. O, daha geniş miqyas tələb edirdi.

Hələ 1894-cü ildə Azərbaycana qayıdarkən o, «Məşriq» adlı qəzet buraxmaq üçün hökumətdən icazə istəmiş, lakin xahişi yerinə yetirilməmişdi. 1897-ci ildə böyük mesenat Hacı Zeynalabdin Tağıyev onu Bakıya dəvət edir. Burada realnı məktəbdə fransız dilindən dərs deyir, «Kaspi» qəzeti ilə əməkdaşlıq edir, 1898-1907-ci illərdə qəzetə Əlimərdan bəy Topçubaşov redaktorluq edəndə Ə.Ağaoğlu ədəbiyyat şöbəsinin müdiri olur.

Əhməd bəy bu qəzetdə tarixi faktlara əsaslanan təəssübkeş məqalələrlə çıxış edirdi. Türk xalqlarının, müsəlmanların birliyi ideyasını müdafiə edirdi. Bu məqalələr tuşlandıqları hədəfə – bütün Yaxın və Orta Şərqi öz nüfuz dairəsi altına salmağa səy göstərən çar Rusiyasının məmurlarına və bu işdə onların sadiq «silahdaşları» olan ermənilərə bütün kəskinliyi ilə çatırdı. Ermənilər Əhməd bəy Ağaoğlunun ciddi bir qüvvə olduğunu, Azərbaycan türklərini birləşməyə çağırdığını və sözünün kəsərliyini yaxşı dərk edirdilər. Ona görə də 1895-ci ildən başlayaraq rus və erməni şovinistləri «alyans» yaradaraq Ə.Ağaoğlunu zərərsizləşdirməyə çalışırdılar.

1905-ci ildə erməni-daşnak quldurlarının çarizmin fitvası ilə Azərbaycan xalqına qarşı törətdiyi soyqırımları Əhməd bəy Ağaoğlunun yazılarının əsas mövzularından idi. O, faciənin əsl günahkarlarını – çar hakimiyyətinin iç üzünü qələminin gücü ilə açıb göstərirdi. Qafqaz canişininin milli qırğınların kəskinləşməsi ilə əlaqədar 1906-cı il fevralın 20-də çağırdığı «barışdırıcı qurultay»da Əlimərdan bəy Topçubaşov, Qara bəy Qarabəyov, İsgəndər bəy Hacınski və Əhməd bəy Ağaoğlu birlikdə Bakı şəhərinin ali sosial təbəqələrinin nümayəndələri kimi iştirak etmiş və Azərbaycan tərəfinin proqramını səsləndirmişdilər. Əhməd bəy Ağaoğlu qurultaydakı çıxışında xalqların hüquq bərabərliyinin təmin edilməsini, Azərbaycan xalqına qarşı milli qırğınlara dərhal son qoyulması üçün «Daşnaksutyun» partiyasının və digər erməni təşkilatlarının buraxılmasını tələb etmişdi. Bildirmişdi ki, əks halda müdafiə

olunmaq üçün Azərbaycan tərəfinə də ordu yaratmağa icazə verilməlidir.

Hələ «Kaspi»də dərc etdirdiyi «Müsəlman söhbətləri», «Müsəlman xalqlarının vəziyyəti» silsilə məqalələrində, «İslama görə və İslam aləmində qadın», «İslam, axund və hatifülqeyb» kitablarında Əhməd bəy müsəlman xalqlarının düşdüyü acınacaqlı vəziyyəti təhlil edir və bunun səbəblərini açıqlayırdı. Ayrı-ayrı şair, mütəfəkkir, alimlər haqqında maraqlı yazılarla çıxış edirdi.

Bu dövrdə Məhəmməd ağa Şahtaxtlının Tiflisdə nəşr etdirdiyi «Şərqi-Rus» qəzetində, həmçinin Kəlküttə və Qahirə mətbuatında da Ağaoğlunun yazıları çıxırdı. Jurnalistlik fəaliyyəti ilə yanaşı, «Nicat», «Nəşri-maarif», «Səadət» kimi xeyriyyə cəmiyyətlərinin təşkilində və işində fəal iştirak edirdi.

1905-ci ilin iyun ayından Ağaoğlu Əli bəy Hüseynzadə ilə birlikdə Azərbaycanda millətçilik düşüncəsinin formalaşmasında mühüm rol oynamış «Həyat» qəzetinə redaktorluq edir. Həmin il dekabrın 19-dan «İrşad» qəzetini, 1907-ci ildə isə eyni zamanda rus dilində «Proqress» qəzetini nəşr etdirir. 1908-ci ilin iyunundan «Tərəqqi» qəzetini çıxarmağa başlayır və Türkiyəyə gedənə qədər onun naşiri olur. Bu mətbuat orqanları içərisində «İrşad» xüsusi yer tuturdu. Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov, Əli bəy Hüseynzadə, Ömər Faiq Nemanzadə, Sultan Məcid Qənizadə, Abdulla Sur, Firidun bəy Köçərli və digər görkəmli qələm sahibləri, millət və vətən təəssübkeşləri «İrşad»ın ətrafında toplaşmışdılar. Qəzetin hər nömrəsində Ü.Hacıbəylinin dövrün kəskin problemlərinə həsr olunmuş məqalə və felyetonları dərc olunurdu. Təbii ki, əsas ağırlıq baş redaktorun üzərinə düşürdü. Ə.Ağaoğlu «İrşad»ı ümummilli qəzetə çevirmək, abunəçilərini artırmaq, genişləndirmək istəyirdi. Professor Əziz Mirəhmədov yazırdı ki, «Əhməd bəy Ağayev «İrşad»da bütün jurnalistlik məharətini, şərqşünaslıq biliyini, siyasi mütəfəkkir simasını nümayiş etdirmişdir».

Həm rus, həm də Azərbaycan dillərində yazdığı məqalələrdə Ə.Ağaoğlu təkcə publisist kimi deyil, həm də tənqidçi,

ədəbiyyat tarixçisi, teatrşünas və etnoqraf kimi çıxış edirdi. Qələm və məslək dostu Yusif Akçura deyirdi ki, «Əhməd bəy asanlıqla və çox yaza bilmək kimi fövqəladə bir istedada malik idi. Türkcə, fransızca, rusca eyni həvəslə yazırdı. Hətta fars dilində də yazmışdı. Özü isə zarafatla deyərdi ki, həyatım boyu yazdığım məqalələrin hamısı bir araya toplansa, Bakıdan İstanbula qədər bir geniş yol ortaya gələ bilər». Amma sözün doğrusunu elə zarafatla deyirlər.

1908-ci ildə Əhməd bəyə qarşı Bakıda törədilən fitnəkarlıqlar isə zarafatdan çox uzaq və acı həqiqət idi. Həmin ilin əvvəllərində Ə.Ağaoğluya «dərs vermək» üçün Bakının İctimai yığıncaqlar salonunda (filarmoniyanın binasında) onu muzdla tutulmuş qoçulara döydürürlər. O, həyatının həmin çətin günlərini belə xatırlayırdı: «Şiddətli təqib edilənlər arasında idim. İş elə bir dərəcəyə çatmışdı ki, artıq daha izzəti-nəfsimin deyil, ailəmin sakitliyi və salamatlığı təhlükə altına düşmüşdü. 1908-ci ildə Türkiyədə inqilab olmuşdu. Tanıdığım bəzi şəxslər iş başına gəlmişdilər. Digər tərəfdən, Qafqaz canişini vəzifəsinə təyin olunmuş Vorontsov-Daşkov məni necə olursa-olsun həbs etdirib sürgünə göndərməyə qərar vermişdi. Bunu eşidən kimi mən getməyə qərar verdim».

1909-cu ilin ortalarında Əhməd bəy sürgündən can qurtarmaq üçün Türkiyəyə yollanır. Amma onu izləyən taleyində hələ çox sürgünlər olacaqdı.

Əhməd Ağaoğlu Bakıda başladığı jurnalistlik işini və ictimai-siyasi fəaliyyətini İstanbulda da eyni həvəslə davam etdirirdi. O, tezliklə Əli bəy Hüseynzadə, Ziya Göyalp, Yusif Akçura, Həmdulla Sübhi, Mehmet Əmin Yurdaqul ilə bir sırada türkçülük hərəkatının liderinə çevrilir. «Xalqa doğru» və «Sirati-müstəqim» qəzetlərində mütəmadi çıxışlar edir. 1911-ci ildə İstanbulda yaradılan «Türk yurdu» cəmiyyətinin başlıca təsisçilərindən və təşkilatçılarından, az sonra təşəkkül tapan «Türk ocağı»nın isə dörd qurucusundan biri olur. Həmçinin «Tərcümani-həqiqət» qəzetinin redaktoru kimi fəaliyyət göstərir. Bu məmləkətə təzə gəlməsinə baxmayaraq, çoxşaxəli fəaliyyəti Əhməd bəyi tezliklə hörmətli bir şəxsə çevirir.

Azərbaycan əsilli türklərin yaşadığı Afyon – Qarahisardan Osmanlı parlamentinə deputat seçilir. Ə.Ağaoğlu bütün bunlarla yanaşı, İstanbul Universitetində rus dili və ədəbiyyatından dərs verir. Türkiyədən Rusiyanın türklər yaşayan bölgələrinə müəllimlər göndərilməsini təşkil edir.

Xatırladaq ki, hələ Azərbaycanda olarkən Əhməd bəy xalqın hüquqlarını qorumaq məqsədilə 1906-cı ildə «Difai» partiyasını yaratmışdı. O, Bakı müsəlman sahibkarlarının xahişi ilə iki dəfə şəxsən II Nikolayın və onun nazirlərinin qəbuluna getmiş, Rotşild, Nobel kimi neft maqnatlarının sərvətlərimizə sahib olmasına maneçilik etmək istəmişdi. Bu səfərlərin sayəsində azərbaycanlıların Bakı ətrafındakı neftli torpaqlardan köçürülməsi dayandırılmışdı.

Onun təbiətindəki narahatlıq, qaynarlıq övladlarının və müasirlərinin xatirələrində də özünü aydın göstərir. Məsələn, qızı Sürəyya xanım öz xatirələrində yazır: «Ailə həyatımızda hamımıza çox təsir edən bir müvazinət vardı. Anam son dərəcə sakit, yumşaq təbiətli, atam isə intizamlı, hər şeylə maraqlanan, tez özündən çıxan insanlardandı. Atam süfrədə duzqabının yerinin dəyişdirilməsinə belə razı olmazdı. Hirsləndiyi zaman anam heç vaxt dərhal cavab verməz, amma ertəsi gün ötəri həmin mövzuya toxunar, atam da dərhal öz davranışına görə sıxılardı».

Qürbətdə yaşamasına baxmayaraq, Əhməd bəy Ağaoğlu vətəni ilə əlaqəni heç vaxt kəsməmişdi. 1915-ci ildə Rusiyada yaşayan milli azlıqların Lozannada keçirilən konfransında Azərbaycanın təmsilçisi kimi çıxış etmişdi. İki il sonra isə Ə.Hüseynzadə, Ə.İbrahimov və Y.Akçura ilə birlikdə ABŞ Prezidenti V.Vilsona təqdim edilən və Rusiya imperiyasında türk xalqlarının dözülməz vəziyyətindən söz açan müraciəti imzalamışdı.

Uzunmüddətli ayrılıqdan sonra 1918-ci ilin yayında Ə.Ağaoğlu Türkiyənin Qafqaz ordusunun komandanı Nuru paşanın müşaviri kimi Azərbaycana gəlir. O zaman Azərbaycan özünün çətin günlərini yaşayırdı. Bakı bolşevik-erməni qüvvələrinin əlində idi. Qarabağda, Zəngəzurda, Naxçıvanda

erməni terrorçu dəstələri ardıcıl cinayətlər törədirdilər. Mayın 28-də İstiqlal Bəyannaməsini elan edən Azərbaycan hökuməti xalqı fəlakətdən qurtarmaq üçün qardaş Türkiyəyə üz tutmuşdu.

1918-ci ildə Ə.Ağaoğlu Azərbaycan parlamentinə üzv seçilir. Azərbaycanda vəziyyət nisbətən sakitləşdikdən sonra İstanbuldakı evinin yanması, ailəsinin küçədə qalması xəbərini alan Əhməd bəy Türkiyəyə dönür. Tezliklə Paris Sülh Konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin tərkibində o, Fransa paytaxtına yollanmalı idi. Lakin Ə.Ağaoğlu əvvəlcə ağır xəstələnir, sonra isə cibində Azərbaycan Demokratik Respublikasının diplomatik pasportu və Bakıdakı ingilis hərbi qüvvələrinin baş komandanı general Tomsonun zəmanət məktubu olmasına baxmayaraq, İstanbuldakı ingilis işğalçı qüvvələri tərəfindən həbs edilir.

Sürgün həyatı 1921-ci ilin mayında başa çatır. Bu vaxt Nəriman Nərimanov onu Bakıya, yeni hökumətdə yüksək bir vəzifə tutmağa dəvət etmişdi. Beləliklə, Ağaoğlu «Azərbaycan, yoxsa Türkiyə?» dilemması qarşısında qalmışdı. Xeyli götür-qoydan sonra o, Türkiyəni seçmişdi.

1920-1930-cu illərdə Əhməd bəy yenə də ictimai-siyasi fəaliyyətlə yanaşı, elmi-ədəbi yaradıcılığını da davam etdirir. Bir-birinin ardınca «Türk hüququ tarixi», «Türk mədəniyyət tarixi», «Konstitusiya hüququ», «Dövlət və fərd» və bir sıra digər kitabları nəşr olunur. Yeri gəlmişkən qeyd edək ki, müəllifin ölümündən sonra da türk nəşriyyatları tərəfindən bir çox əsərləri buraxılır. Onların arasında publisistik üslubda böyük ustalıqla qələmə alınmış «Mən kiməm?» kitabı xüsusi dəyər kəsb edir.

Əhməd bəy Ağayevin dünyagörüşündə ziddiyyətli məqamlar da vardı. Həyatının müxtəlif illərində siyasi düşüncəsində, fəaliyyətində və yaradıcılığında islamçılıq, qərbçilik və türkçülük kimi üç xətt cəmlənmişdi. Belə ki, Ə.Ağaoğlu yazılarında Qərb mədəniyyətindən öyrənmək fikrini irəli sürmüş, İslama münasibətində demokratik mövqedən çıxış etmişdir. O, Azərbaycan türklərində türkçülük və millətçiliyin oyanması

üçün onlarla məqalə yazmışdır. Odur ki, Sovet hakimiyyəti illərində Ə.Ağaoğluya «pantürkist», «panislamist» damğası vurulmuşdu. Əsərlərinin oxunub öyrənilməsinə qadağa qoyulmuşdu.

Xarakterindəki və dünyaya baxışındakı təzadları özü də görür və bilirdi. Təsadüfi deyil ki, «Mən kiməm?» kitabında belə yazırdı: «Başdan-başa bir-birini inkar və rədd edən qarmaqarışıq təzadlar, gündüzlə gecə, ağla qara arasındakı bənzəyiş mənim içimlə çölüm arasındakı bənzəyişdən daha çoxdur».

O, bir an belə dayanmadan işləmək, çalışmaq üçün yaranmışdı. Özünü fasiləsiz, ardı-arası kəsilməyən fəaliyyətdə təsdiq edirdi. 70 illik ömrünün 50 ildən çoxunu sevdiyi və ürəkdən bağlandığı çoxşaxəli yaradıcılıq işinə həsr etmişdi. Buna görə də «Ağaoğlu» dedikdə həmin qısa imzanın arxasında təkcə görkəmli bir publisistin deyil, həm də istedadlı yazıçı, hüquqşünas, şərqşünas, islamşünas, qısaca, böyük bir alimin həyatının izlərini görürük.

Bu da bir repressiya idi…

CÜMHURİYYƏTİN ƏN GƏNC NAZİRİ

Tarixdə yaşayıb-yaratmış görkəmli şəxsiyyətlərin tərcümeyi-halına baxdıqda onlarda oxşar cəhətlərin olduğunu görürsən. Talelərindəki bənzərlik hətta bu insanların mübarizələrində də öz əksini tapır. Moskvada, Sankt-Peterburqda və Avropanın digər şəhərlərində yüksək təhsil alan, xüsusən Qərb mədəniyyəti ilə yaxından tanış olan bu ziyalılar öz intellektual potensialı, millətinə olan sədaqəti ilə XX əsrin əvvəllərində gedən proseslərdə fəal iştirak etmiş, ictimai-siyasi xidmətləri ilə xalqın milli oyanışında misilsiz rol oynamışlar. Vətənə, millətə xidmət missiyasında da onları vahid bir amal – milli mənafeyin hər şeydən yüksəkdə tutulması birləşdirmişdi. Zəngin və keşməkeşli mübarizələrlə dolu, nəsillərə nümunə olan ömür yaşamış Mustafa bəy Nadir ağa oğlu Vəkilov da Azərbaycanın milli istiqlal hərəkatının fəal iştirakçılarından biri idi. O, Xalq Cümhuriyyəti parlamentinin üzvü kimi fəaliyyət göstərmiş, daxili işlər naziri vəzifəsində çalışmışdır. Həmin dövrdə M.Vəkilov «Azərbaycan» qəzetinin redaksiya heyətinin də üzvü olmuşdur.

Mustafa bəy Demokratik Cümhuriyyətin qurulması ərəfəsində, eləcə də onun 23 aylıq fəaliyyəti dövründə bütün istedadını, bilik və bacarığını, gücünü dövlətçiliyin bərqərar olmasına, xalqın azadlığına həsr etmişdi. O, doğma yurduna qəlbən bağlı olsa da, ömrünün çox hissəsini qürbətdə yaşamışdı. Sovetlər Azərbaycan torpağında öz hakimiyyətlərini qurduqdan sonra cümhuriyyətin görkəmli siyasi xadimləri təqib edilir və cəzalandırılırdı. Zamanın bu gərdişi nəticəsində Mustafa bəy də öz vətənini tərk etmək məcburiyyətində qalmışdı…

M.Vəkilov 1896-cı ilin sentyabrında Qazax qəzasının Salahlı kəndində dünyaya göz açmışdı. Bakı Gimnaziyasını qızıl

Mustafa bəy Vəkilov

medalla bitirmiş, 1912-ci ildə Moskva Universitetinin Hüquq fakültəsinə daxil olmuşdu. Mustafa bəyin siyasi dünyagörüşünün formalaşmasında əmisi Məmmədrza Vəkilovun və yaxın qohumu Əlimərdan bəy Topçubaşovun böyük təsiri olmuşdu. O, 1917-ci ilin yazında universiteti bitirib hüquqşünas diplomu ilə Bakıya qayıtmışdı. Bu vaxt gənc hüquqşünas tələbəlik illərində daxilində çağlayan arzularının həyata keçməsinə imkan tapmış, siyasi fəaliyyətlə daha fəal məşğul olmağa başlamışdı. Bakıya gəldikdən az sonra Qafqaz müsəlmanlarının, həmin ilin yazında Kiyevdə professor Qruşevskinin başçılıq etdiyi qeyri-rus millətlərinin qurultaylarında iştirak etmiş, həmin ilin yayında isə Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayına dəvət almışdır. Bütün bunlar Mustafa bəyin artıq siyasi aləmə tam daxil olduğunu təsdiqləyirdi.

1917-ci ildə ölkədə siyasi hadisələr sürətlə inkişaf edirdi və M.Vəkilov bu mürəkkəb olayların mərkəzində idi. Ona artıq məsul vəzifələr etibar edilirdi. Belə ki, Əlimərdan bəy Topçubaşovun təqdimatına əsasən Xüsusi Zaqafqaziya Komitəsi M.Vəkilovu Bakı quberniyası komissarının müavini təyin etmişdi. Gənc siyasətçi eyni zamanda Rusiya parlamentinin Azərbaycandan olan millət vəkili statusunu daşıyırdı. Oktyabr ayında Mustafa bəy Bakıda keçirilən «Müsavat» partiyasının I qurultayında MK-ya üzv seçilir. Noyabrda isə o, Zaqafqaziya Komissarlığında daxili işlər naziri Çxenkelinin məsləhətçisi vəzifəsini daşımağa başlayır. Biliyi, bacarığı, məntiqi təhlil gücü ilə seçilən siyasətçi paralel olaraq Seymdə Müsəlman fraksiyasının üzvü kimi də çalışırdı.

1918-ci ilin mayında Azərbaycan öz istiqlaliyyətini elan edir. Bu zamana qədər Mustafa bəy etibarlı bir silahdaş kimi özünü doğruldaraq Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin və başqalarının böyük etimadını qazanmışdı. Həmin ildə o, artıq Xalq Cümhuriyyətində Daxiliyyə Nazirliyinin məsul işçisi kimi çalışmağa başlayır.

1918-ci ilin iyun ayında Mustafa bəy Vəkilov M.Ə.Rəsulzadənin başçılığı ilə İstanbul konfransına gedən nümayəndə heyətinin tərkibində məsləhətçi-ekspert kimi Türkiyəyə gəlir. O, İstanbul şəhərində nümayəndə heyəti sədrinin bütün siyasi görüşlərinin təşkilatçısı olur və bu tədbirlərin hər birində onu müşayiət edir. Azərbaycanlı nümayəndələr konfrans iştirakçıları ilə iqtisadi, siyasi, maliyyə və hərbi sahələrə aid danşıqlar aparır, müqavilələr bağlayırdılar. Qeyd edək ki, burada Almaniyanın, Türkiyənin, Avstriyanın, Bolqarıstanın, Macarıstanın və Qafqazın nümayəndələri iştirak edirdi.

Mustafa bəy Türkiyədə olduğu vaxt oradan doğmalarına məktublar göndərirdi. Həmin məktublardan birini 1918-ci il sentyabrın 15-də arxa-dayağı və himayədarı olan əmisi Məmmədrza ağaya yazır. Əvvəla, məktubun rusca yazılması onu göstərir ki, Mustafa bəy hələ gənc ikən bu dilə mükəmməl yiyələnibmiş. İkinci tərəfdən, məktubda həmin dövrün siyasi cəhətdən dolğun təhlil olunması, cərəyan edən hadisələrə düzgün qiymət verilməsi diqqəti çəkir. Üçüncü isə, məktubun hər cümləsində cavan hüquqşünasın öz xalqının taleyi üçün nigarançılığı aydın hiss olunur: «Hər gecənin bir gündüzü var. Türkiyə üçün nəyin yaxşı olduğu hələ bəlli deyildir: güclü və qalibiyyətli müttəfiq Almaniya, yoxsa İngiltərə və Almaniya arasında siyasi balanslaşdırma. Biz onun öz zəif müttəfiqi Türkiyə ilə nə sayaq rəftar elədiyinin bu yaxınlaradək şahidi idik.

Öz daxili həyatlarında türklər islahatlar və idarəetmədə mərkəzdənqaçma yolu tutublar. Ərəbistana bir qisim muxtariyyət vəd edilir. Azərbaycana gəldikdə isə… əgər gələcək sülh konqresinə Qafqazın bütün xalqları dost və həmrəy kimi

gələrlərsə və bütöv kimi çıxış edərlərsə, onda onlar öz istiqlallarının bu və ya digər şəkildə tanınmasına nail olarlar. Ərazilərin hüdudlanması məsələsində ermənilər böyük inadkarlıq göstərəcəklər, hərçənd sərhədlər məsələsi burada həllini tapmayıb, belə ki, konfederasiya baş tutmayıb, özü də ermənilər təkcə Qazax qəzasının dağlıq hissəsinə deyil, həm də Şuşa qəzasının böyük bir hissəsinə, Cavanşir və Zəngəzur qəzalarının bir hissəsinə iddia irəli sürürlər».

1918-ci ilin sonunda, təxminən yarım illik ayrılıqdan sonra Mustafa bəy Vəkilov vətənə qayıdır və onun həyatında yeni bir dövr başlanır. Çünki İstanbul həyatı ona daha geniş siyasi biliklər və zəngin təcrübə bəxş edir. Dekabrın 7-də Azərbaycan parlamenti açılır və Vəkilov onun üzvü seçilir. Parlamentin Büdcə-maliyyə komissiyasının üzvü kimi fəaliyyət göstərir, bu sahədə qayda-qanuna riayət olunmasına nəzarət edir. Lakin 1919-cu ilin sonunda Nəsib bəy Yusifbəylinin təşkil etdiyi kabinədə daxili işlər nazirinin müavini təyin olunduğundan həmin komissiyadan çıxır. M.Vəkilov 1919-cu ilin dekabrında keçirilən «Müsavat» partiyasının II qurultayında yenidən MK-ya üzv seçilir. Növbəti il fevralın 18-də isə ona daxili işlər naziri vəzifəsi etibar edilir. Onda Mustafa bəyin cəmi 23 yaşı vardı və o, ölkədə ən gənc nazir idi. Buna baxmayaraq, nazirliyin işini layiqincə icra etməyi, baş verən hadisələrə operativ surətdə müdaxilə etməyi, təxirəsalınmaz tədbirlər görməyi və kadrları seçib onlarla birgə çalışmağı bacarırdı.

Mustafa bəy Nadir ağa oğlu təbiətcə də çox cəsarətli və şücaətli bir insan idi. 1920-ci il yanvarın 14-də Zaqafqaziya dövlətlərinin istiqlaliyyətini Antanta dövlətlərinin tanıması ilə bağlı parlament iclası keçirilərkən «Süngülərin ucunda azadlıq gətirilmir» deyə replika atması onun öz xalqının müstəqilliyini qorumaq üçün heç nədən çəkinmədiyini təsdiqləyir. Bununla o, çatdırmaq istəyirdi ki, sosialistlərin vəd etdiyi azadlıq, əslində, azadlıq deyil. Çünki zorla, zərbə ilə, süngü ilə gələn hakimiyyət heç vaxt xalqa azadlıq gətirə bilməz.

1920-ci ilin yazında cümhuriyyət özünün narahat günlərini yaşayırdı. Bu dövrdə Mustafa bəy Vəkilov Azərbaycanın

istiqlaliyyətini, demokratiya və dövlətçiliyini qorumaq üçün var qüvvəsi ilə çalışırdı: həm vətəndaş, həm də nazir kimi.

Martın 22-də Mustafa bəy Vəkilovun «Bakı rayonu fəhlələrinə Daxiliyyə Nazirliyindən» adlı müraciəti yayıldı. Nazir o çətin, keşməkeşli günlərdə hadisələrin mahiyyətini açıqlamağa, insanların «gözünü açmağa» çalışırdı: «Zəhmətkeşlərin mənafeyi keşiyində dayanan cümhuriyyətin ali inzibati orqanı fəhlə sinfinin öz iqtisadi və hüquqi vəziyyətini yaxşılaşdırmaq üçün apardığı mübarizəyə qarışmaq niyyətində deyildir, lakin fəhlə sinfinin mənafeyinin müdafiəsi ilə pərdələnərək cinayətkar təbliğat və planlar yolu ilə öz pozuculuq işini aparan kənar qüvvələrin agentlərinin dövlətə zidd çıxışlarını sərəncamımda olan bütün vasitələrlə yatıracağıq».

Nazir nə üçün bu qərarda olduğunu aydınlaşdıraraq deyirdi ki, sözügedən əməllər Azərbaycan demokratiyasına zidd olan ünsürlər tərəfindən kənardan diktə edilir və Azərbaycan Cümhuriyyətinin istiqlalını, eləcə də fəhlə sinfinin özünün rifahını hədələyir. O, fəhlələrə, eyni zamanda onların şəxsində bütün insanlara müraciət edərək yazırdı: «Vətəndaş fəhlələr! Məsuliyyətsiz, qara niyyətli və satqın təbliğatçıların fitnələrinə uymayın. Dövlətin qayda-qanunlarını mütəşəkkil halda qorumağınız – istiqlalımızı və azadlığımızı möhkəmləndirməyin rəhnidir. Öz demokratik hökumətinizin işini müdafiə edin və möhkəm əmin olun ki, hər bir ədalətli iqtisadi və hüquqi iddianız Daxiliyyə Nazirliyi tərəfindən tam hüsn-rəğbət və coşqun həmrəyliklə qarşılanacaqdır».

Bu dövrdə erməni xəyanətkarlığı yenə də tüğyan edirdi. 1920-ci ilin ağır mart günlərində Mustafa bəy öz nazir kabinetində qərar tuta bilməmiş, hadisələrin qaynar nöqtəsinə – Qarabağa getmişdi. On günə yaxın orada qalmış və qayıdandan sonra, aprelin 1-də parlamentin iclasında çıxış edərək deputatlara mövcud vəziyyət barədə ətraflı məlumat vermişdi. O, əmin olduğunu bildirmişdi ki, xalqın və rəşadətli əsgərlərin köməyi ilə tezliklə ərazilərimiz düşməndən təmizlənəcək.

Lakin 1920-ci ilin aprel ayında çevriliş baş verir və Mustafa bəy onunla eyni kənddən olan Xədicə Müftizadə adlı qadının

evində gizlənir. 10-15 gün burada qalan Mustafa bəyi bolşevik xəfiyyələri hər yerdə axtarırdılar. Buna görə də Mustafa bəy vətənini tərk etmək qərarına gəlir və silahdaşlarının köməyi ilə Tiflis şəhərinə gedir. Ona keçmiş müsavat zabiti Sultan Hüseynzadə də kömək edir.

Mübarizə isə bitmir – Mustafa bəy Vəkilov Tiflisdə məskunlaşdıqdan sonra da üzvü olduğu partiyanı unutmur və onun gizli fəaliyyətlə məşğul olan strukturları ilə əlaqə saxlayır. O, silahdaşlarına yazdığı məktublarda yenə də siyasi prosesləri təhlil edir, vəziyyətdən çıxış yollarını göstərirdi: «Gürcülər ermənilərə, ermənilər də gürcülərə inanmır – onlar bir-birini aldadır. Türkiyənin vəziyyəti ağırdır, onun ərazisinin bir hissəsi Antanta tərəfindən tutulub. Türkiyə ancaq öz azadlığı uğrunda mübarizə apara bilir. İngiltərə və Fransa kimi güclü dövlətlərə isə inanmaq olmaz. Onlar bir əsgərini də qurban verməyəcəklər. Onlar hər bir qruplaşmaya yardım edəcəklər ki, toqquşmalar, çəkişmələr baş alıb getsin».

Mustafa bəy «Təşkil olunmaq lazımdır» deyə xalqa müraciət edirdi. Sovet hakimiyyəti devrilən zaman, – hərçənd ki, o, buna inanırdı, – hakimiyyəti heç kəsə verməməyə çağırırdı.

Bir neçə aydan sonra M.Vəkilov Gürcüstandan Türkiyəyə keçir. Sonra geriyə qayıdır və yenidən İstanbula dönür. Bu vaxt artıq 1921-ci ilin əvvəlləri və Tiflisin rus-sovet qoşunları tərəfindən işğalının ərəfəsi idi…

Mustafa bəy Türkiyədə «Müsavat»ın xarici bürosunun fəalları sırasına qoşulur. 1924-cü ildə İstanbulda Azərbaycan Milli Mərkəzi yaradılanda M.Vəkilov buranın Mərkəzi Komitəsinin üzvü seçilir. Təşkilatın vəzifəsi siyasi mühacirəti vahid toplumda birləşdirmək idi. O, burada «Müsavat» partiyasını təmsil edirdi. Mustafa bəy, həmçinin, 1928-ci ildə yaradılmış «Prometey» təşkilatının fəaliyyətində iştirak edirdi. Təşkilatın əsas məqsədi sovet quruluşunu devirmək idi. Həmin illərdə M.Vəkilov Azərbaycanda baş verən olayların bütün Avropaya çatdırılmasında misilsiz işlər görürdü. 1929-cu ildə Mustafa bəy Azərbaycan Milli Mərkəzindən istefa verir və Polşaya gedir.

Beləliklə, 1930-1940-cı illərdə M.Vəkilovun həyatı Avropa ilə bağlı olur. O, bir müddət Polşada yaşayır. Sonra Almaniyaya gedir, oradan Fransaya və İsveçrəyə yola düşür.

Qeyd edək ki, Mustafa bəy rus dilindən əlavə bir çox xarici dilləri də mükəmməl öyrənmişdi. Mühacir həyatı yaşadığı illərdə Türkiyənin əksər mətbu orqanlarında – «Yeni Qafqaziya», «Azəri türkü», «Odlu yurd», «Azərbaycan yurd bilgisi» dərgilərində çıxış etmişdi. Onun Parisdə fransız dilində olan «Prometey» jurnalında, eləcə də alman və rus dillərində çıxan nəşrlərdə onlarla məqaləsi dərc olunmuşdu. Berlində nəşr edilən «Qurtuluş», Fransada rus dilində olan «Kavkaz» jurnallarında Azərbaycanın tarixi ilə bağlı siyasi memuarları çapdan çıxmışdı. Varşavada yaşadığı dövrdə «Prometey» adlı siyasi klubun ikinci rəisi olmuşdu. Mustafa bəyin yazılarına «Azərbaycan», «Mücahid» və digər dərgilərdə də rast gəlinirdi. Yazdıqlarının hamısı siyasət və tarix mövzusunda olsa da, öz publisistik dəyərinə, təhlilin dərinliyinə görə diqqəti cəlb edirdi. Başqa sözlə desək, Mustafa bəy həm də əsl mühərrir qələminin sahibi idi.

Bu da təsadüfi deyildi. Çünki o, hər şeydən öncə, ədəbiyyatı çox sevirdi, mütaliəsi güclüydü. Xüsusilə poeziyanın vurğunu idi. M.Ə.Sabirin şeirlərindən doymaq bilmirdi. Səməd Vurğunla isə qohum, daha dəqiqi, eyni soyadı daşıyan əmizadə idilər. O, bu böyük şairlə fəxr edirdi. Amma təəssüf ki, vətəndə yaşayan çoxsaylı qohumlarının – istər adlı-sanlı olan, istərsə də sadə həyat sürən doğmalarının heç biri ilə əlaqə yarada bilməmişdi. Sovet rejimi dövründə, əlbəttə, bu, mümkün deyildi… Onunla ünsiyyətdə olmuş insanların dediklərinə görə, uzun illər uzaqlarda yaşasa da, danışıq tərzində doğma Qazax ləhcəsinin şirinliyini ömrünün sonuna qədər qoruyub saxlamışdı.

Qəribədir ki, dünyanın harasına getsə də, Mustafa bəyi həyat yolları yenidən Türkiyəyə gətirmişdi. Hətta başqa ölkələrdə yaşadığı zaman da tez-tez buraya gəlirmiş. Bəlkə bu da bir alın yazısı imiş. Çünki ona son mənzil də ömrü boyu

gəzib-dolaşdığı, işlədiyi və yaşadığı ölkələrin heç birində deyil, məhz Türkiyədə qismət olmuşdu.

Beləliklə, İkinci Dünya savaşının sonlarında o, Amasiyaya gəlir. Burada yaşayan qohumları ilə görüşür. Həmçinin ailə həyatı qurur və sonra Ankara şəhərinə qayıdır. Ankarada yaşadığı illərdə öz ixtisası üzrə işləyir, Vilayətlər Bankının baş hüquq məsləhətçisi olur.

…Azərbaycanın Qazax mahalında dünyaya göz açan Mustafa bəy 1965-ci ilin sazaqlı bir noyabr günündə Ankarada vəfat edir. Çox təəssüf ki, vətən eşqini ömrü boyu qəlbinin dərinliyində gəzdirən və uzaqlarda ola-ola xalqının azadlığına, rifahına çalışan bu insan haqqında uzun illər heç deyilməmiş, bir sətir belə yazılmamışdı. Onun barəsində Bakı mətbuatında yalnız 1980-ci illərin sonlarında məlumat verilməyə başlanmışdı. Mustafa bəyin mühacirətdəki fəaliyyəti onun vətəndə yaşayan qohum-əqrəbasına, qardaş-bacısına böyük zərbələr vurmuşdur. Güllələnən, sürgün edilən, təqiblərə, təzyiqlərə məruz qoyulan Vəkilovların «cinayət işləri»ndə hökmən Mustafa bəyin adı çəkilmiş, bu adamların onunla qohumluqları müxtəlif bucaqlar altında hallandırılmışdı.

Mustafa bəy Vəkilov Xalq Cümhuriyyəti dövrünün qaynar və zəngin ictimai-siyasi hadisələrində öz dəst-xətti ilə, vətəninə və xalqına sədaqəti ilə seçilən, dövlətçilik tariximizdə şərəfli yer tutan şəxsiyyətlərdən olmuşdur.

XUDADAT BƏYİN ACI TALEYİ

Bütün zamanlarda ömrünü xalqına, onun azadlığına və hərtərəfli inkişafına həsr edən insanlar olub. Qəlbində daim vətən eşqi yaşadan, xalqına canı-qanı ilə bağlı olan belələrinə bəzən quruluş, dövrün dəyişkən ab-havası, nizamsız proseslər maneçilik etsə də, məhdudiyyətlər qoysa da, onlar yollarından dönməyib, öz məqsədlərinə doğru gediblər. Onların xalqa xidmət etmək, fayda vermək məqsədi vətəndaşlıq heysiyyətindən irəli gəlib.

Tarix boyu elə görkəmli şəxsiyyətlər olub ki, yaşadıqları dövrdə hakimiyyət, dövlət quruluşu bir neçə dəfə dəyişib. Təbii ki, həmin şəxslər, əslində, bu quruluşların hansısa birinə rəğbət bəsləyib, tərəfdarı olublar. Bununla belə, xalqına, millətinə xidmət etmək amalları siyasi əqidələrini üstələyib, elə ürəklərincə olmayan quruluşda da bildiklərini, bacardıqlarını vətənə həsr ediblər. Başqa sözlə, xalqa gərək olmaq, onun sabahı üçün çalışmaq əqidələri dəyişməz qalıb.

Azərbaycan xalqının ləyaqətli oğlu, dəfələrlə təqiblərə məruz qalan, həbsdən, işgəncələrdən, ölümdən belə qorx-mayan, dönüb yenidən bütün bilik və bacarığı ilə vətəni naminə çalışan Xudadat bəy Məlikaslanovun tərcümeyi-halı ilə tanış olandan sonra məhz belə duyğulara köklənirsən.

X.Məlikaslanov istiqlal mücahidlərindən olub. Biz onu Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimlərindən biri kimi tanıyırıq. Azərbaycanın ən ağır, ən məsuliyyətli illərində yüksək vəzifələr daşıyan bu şəxs, əslində, həmin vaxtadək də, sonra da bütün varlığı ilə vətəninə xidmət mücəssəməsi olub. Əfsuslar ki, ömrünün son illəri Sovet hakimiyyəti dövrünə təsadüf edən Məlikaslanov amansız rejim tərəfindən gözümçıxdıya salınaraq, təqiblərə, təzyiqlərə, işgəncələrə məruz qalaraq məhv edilib. İnsan cəmiyyətini sarsıdıb silkələyən, onun tarixi yaddaşında qanlı iz qoyan, bir

Xudadat bəy Məlikaslanov

tərəfdən şəxsiyyətə pərəstişi təbliğ edən, digər tərəfdən isə şəxsiyyətlərin alçaldılmasını adi həyat norması kimi mənimsəyən sovet totalitarizminin ötən əsrin 30-cu illərində həqiqi siyasi mahiyyəti bu idi. Beləliklə, X.Məlikaslanov da heç bir günah işlətmədən Stalin dövrü repressiyalarının qurbanlarından birinə çevrilib.

Xoş siması, kübar görkəmi, ağıllı baxışları ilə diqqəti cəlb edən Xudadat bəy daim qorxu kabusunun təsiri altında narahat ömür yaşayıb. O zaman Leninin kommunizm idealları gerçəkləşib xalqlara firavanlıq gətirməliydi. Amma bu «firavanlıq» ilk günlərdən minlərlə, bəlkə də yüz minlərlə insanın həbsxanalarda çürüməsinə səbəb oldu, dövrün mütərəqqi ruhlu ziyalıları güllələnmə ilə, sürgünlərlə «mükafatlandırıldı».

Müxtəlif ensiklopediyalarda X.Məlikaslanovun cümhuriyyət dövründə rəhbər vəzifələrdə çalışdığı, parlament üzvü olduğu göstərilir. Bütün bunlardan öncə isə Xudadat bəy dərin biliyə və savada malik nadir mütəxəssis, ixtiraçı-mühəndis və alim idi. Xüsusilə dəmiryol nəqliyyatı sahəsində ixtisaslaşmışdı. Texnika elmləri üzrə azərbaycanlılar arasında ilk professor adını alanlardan idi.

Xudadat bəy Ağa oğlu Məlikaslanov 1879-cu ilin aprel ayında Şuşanın Tuğ kəndində anadan olmuşdu. 1899-cu ildə Şuşa realnı məktəbini bitirdikdən sonra Peterburq Yol Mühəndisliyi İnstitutuna qəbul edilmişdi. Beş il sonra həmin ali məktəbi birinci dərəcəli diplomla başa vurmuşdu.

1901-1904-cü illərdə Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının üzvü olan və partiyanın Peterburq komitəsində çalışan

Xudadat bəy bir müddətdən sonra həmişəlik bitərəf qalır. Yəni ömrünün sonunadək heç bir partiyaya üzv olmur.

Xaricdə təhsil alması onun taleyini xeyli dərəcədə müəyyənləşdirir. Belə ki, təhsilini başa vurandan sonra uzun illər Azərbaycandan, doğma Şuşadan kənarda yaşayıb işləyir. İnstitutu bitirən gənc mühəndis yarım il Sankt-Peterburqda Voloqda-Petrozavodsk Dəmir Yolunun Çəkilişi İdarəsində çalışır. Peşəkarlığı ilə hamını heyran qoyur.

1905-ci ildə Tiflisə köçərək əmək fəaliyyətini yenə də həmin sistemlə bağlayır. Zaqafqaziya Dəmir Yolunda işləyir. Əvvəlcə mühəndis, stansiya rəisinin köməkçisi olur. Sonra Zaqafqaziya Dəmir Yolunun Suram aşırımı keçidində yol xidməti rəisi köməkçisi vəzifəsinə keçir. Tapşırılan bütün vəzifələrdə etimadı doğrultduğuna görə onu buraya rəis təyin edirlər.

X.Məlikaslanov geniş günyagörüşə malik, hərtərəfli inkişaf etmiş insan idi. O, istər Peterburqda yaşadığı, istərsə də sonrakı illərdə həmin şəhərdə çıxan jurnallarda elmi məqalələrini dərc etdirirdi. Qazandığı nəzəri bilikləri istehsalatla sıx əlaqələndirməyi bacarırdı. Dəmiryol texnikasına aid yeni ixtiralar etmişdi. Bütün bunlar cavan mühəndisin tezliklə tanınmasına, ad-san qazanmasına səbəb olmuşdu.

1917-ci ilin fevral inqilabından az sonra – mart ayında Xudadat bəy Məlikaslanov Müvəqqəti hökumətin sərəncamı ilə Xüsusi Zaqafqaziya Komitəsində dəmir yolu üzrə müvəkkil təyin edilir. Onun vəzifəsi tez-tez dəyişir, bacarığı, idarəetmə qabiliyyəti ilə hamının rəğbətini qazanır, eyni zamanda, yüksəliş pillələri ilə də sürətlə irəliləyir. Heç bir il keçmir ki, ona Zaqafqaziya komissarlığında Dəmiryol Nəqliyyatı Nazirliyi üzrə komissar vəzifəsi tapşırılır. Bir neçə ay sonra isə təzəcə yaradılmış müstəqil Zaqafqaziya Federativ Respublikası hökumətinin dəmiryol naziri təyin edilir.

1918-ci ildə Məlikaslanovun ilk kitabı işıq üzü görür. Müəllif Tiflis dəmiryol nəqliyyatının tarixi barədə bilgilərini qələmə alaraq rus dilində oxuculara təqdim edir.

1919-cu ildə Xudadat bəyin təşəbbüsü ilə Bakıda dərslərin ana dilində keçirildiyi ilk dəmiryol nəqliyyatı məktəbi açılır.

Azərbaycanın dəmir yollarında təmir işlərinin aparılması da bu dövrdə onun təklifi, iştirakı və rəhbərliyi ilə həyata keçirilən tədbirlərdən biri olur. Bütün bunlar nəqliyyatın ahəngdar işləməsinə imkan verir və yollarda qayda-qanun yaranırdı.

Xudadat bəyin fəaliyyəti bununla bitmirdi. 1919-cu ilin aprelində latın əlifbasına keçmək üçün yaradılan xüsusi komissiyaya rəhbərlik etməyi Nazirlər Şurası məhz X.Məlikaslanova tapşırır. Komissiya o zaman Azərbaycan parlamentinə layihə də təqdim edir. Lakin onun müzakirəsi yarımçıq qalır.

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra o, daha böyük həvəslə çalışır, özünü oda-közə vurur, gücü və bacarığı nəyə çatırsa, onu da yerinə yetirir.

Xudadat bəyin məsləkdaşları və silahdaşları çox idi. Onları sanki zamanın özü yetirmişdi. Şərqin ilk demokratik respublikasında, heç bir təcrübəsi olmayan cümhuriyyətdə məsul vəzifələrə irəli çəkilir və layiqincə işləyə bilir, inamı və etibarı doğruldurdular. Əksəriyyətinin heç yaşı da çox deyildi. 30-35 yaşlarında idilər, hətta 25 yaşında olanlar da vardı. Onların üstün cəhəti ondaydı ki, bu insanların əksəriyyəti təhsillərini Avropanın nüfuzlu universitetlərində almışdı, siyasi proseslərdə bişmiş mütərəqqi ruhlu ziyalılar idilər.

X.Məlikaslanov da cümhuriyyətdə ilk dəfə nazir təyin olunanda 40 yaşı yox idi. Amma zəngin təcrübə toplamışdı. Dərin biliyə, idarəçilik qabiliyyətinə və təşkilatçılıq bacarığına malik idi.

Cümhuriyyət hökumətinin qərarı ilə 1918-ci il iyunun 1-dən ölkə ərazisindəki bütün dəmiryol xətləri müstəqil Azərbaycan dəmir yoluna çevrilmişdi. Dəmir Yolu İdarəsi yaradılmışdı. Bu dövrdə Azərbaycan dəmir yollarının ümumi uzunluğu 954,2 kilometr idi. Az sonra Yollar Nazirliyi yaradıldı. Nazir vəzifəsini isə bütün hökumət kabinetlərində Xudadat bəy Məlikaslanov icra edirdi.

Gənc respublikanın gənc yollar naziri öz həmkarları və məsləkdaşları ilə əl-ələ verərək məqsədyönlu tədbirlər həyata keçirirdi. Onlar həm yolların şəbəkəsinin genişləndirilməsinə və rahatlığının təmin olunmasına, həm də bu yollarda hərəkət

edən texnikanın sazlığına və çoxaldılmasına böyük əhəmiyyət verirdilər. Ən vacib məsələlərdən biri də yollarda, xüsusilə digər respublikalara gediş-gəliş yollarında təhlükəsizliyin təmin olunması idi. Bu məqsədlə 1918-ci il iyunun 4-də Batumda Azərbaycan, Osmanlı, Gürcüstan və Ermənistan hökumətləri arasında Cənubi Qafqaz dəmir yollarının vaqon-parovoz parkını bölüşdürmək barədə saziş bağlandı. Azərbaycan tərəfindən sənədi Məhəmməd Əmin Rəsulzadə və Məmməd Həsən Hacınski imzaladılar.

Lakin həmin illərdə bütün işlər heç də rəvan getmirdi. Cənubi Qafqaz respublikaları arasında ərazi mübahisələri olduğuna görə sazişin müddəaları reallaşmadı. Hər dəfə belə problemli məqam və şərait yarananda vəziyyətdən çıxış yolu tapmaq, işi düzgün istiqamətdə aparmaq çox çətin idi. Bununla belə, gənc respublikanın nəqliyyat sahəsində artıq ixtisaslaşmış və püxtələşmiş yollar naziri müvafiq qərarlar qəbul etməyə qadir idi. 1918-ci il dekabrın 26-da Azərbaycan Xalq Cümhuriyyəti Gürcüstanla ayrıca müqavilə imzaladı. 1919-cu il martın 18-də Azərbaycanla Gürcüstan arasında dəmiryol rabitəsi haqqında daha bir saziş imzalandı. 1919-cu il aprelin 17-də Azərbaycan Dəmir Yolu İdarəsi Batumda öz ticarət agentliyini təşkil etdi. 1918-1920-ci illərdə dəmiryol xətlərinin, hərəkət vasitələrinin təmiri qaydaya salındı. Dəmiryolçuların məvacibi artırıldı. Artıq 1920-ci ilin yazında Azərbaycana məxsus dəmir yolunda çalışanların ümumi sayı 11 minə çatırdı. Ölkə daxilində və xaricə hərəkət yalnız dəmir yolu ilə bitmirdi. Bu dövrdə Bakıdan Xəzər vasitəsilə Salyan, Lənkəran, Ənzəli, Port-Petrovsk (Mahaçqala), Həştərxan istiqamətlərində əsas su yolları fəaliyyət göstərirdi. Xəzər ticarət donanmasında 17 böyük buxar gəmisi vardı.

Beləliklə, o dövrdə X.Məlikaslanovun rəhbərlik etdiyi nazirliyin xəttilə görülən işlər tarixin yaddaşında bu cür qalıb: 1919-cu il iyulun 15-dən Bakı–Batum istiqamətində 4 cüt qatarın, ilin sonunda isə Bakı–Port–Petrovsk istiqamətində də ciddi qrafik üzrə gündə 4 cüt qatarın hərəkəti təmin edildi.

1918-ci il oktyabrın 30-da Bakı Ticarət Limanı İdarəsinin fəaliyyəti bərpa olundu. Ticarət gəmiləri ilə Bakı–Mahaçqala,

Salyan, Lənkəran limanları arasında sərnişin və yük daşınması təşkil edildi. Hökumətin ciddi səyləri və nazirliyin gərgin zəhməti nəticəsində 1919-cu ildə Bakı–Batum neft kəməri də bərpa edilib istifadəyə verildi. 1919-cu ilin avqust ayında ingilis qoşunları Azərbaycandan çıxdıqdan sonra Bakı limanı və ticarət donanması da cümhuriyyət hökumətinin sərəncamına keçdi. Ölkənin ticarət gəmiləri Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı altında üzməyə başladı.

Hökumətin şose yollarının bərpası üçün 1919-cu il fevralın 17-də nazirliyə ayırdığı 1 milyon manat kredit Xudadat bəyin səriştəsi sayəsində səmərəli istifadə olunurdu. Həmin il aprelin 24-də isə bilavasitə Yevlax–Şəki şose yolunun təmiri və seldən qorunması üçün bənd tikintisinə 210 000 manat vəsait verildi. Nəqliyyat vasitələrinin təmiri və normal istismarı məsələləri daim diqqət mərkəzində saxlanılırdı. 1919-cu il aprelin 28-də Bakıda avtomobillərin ilkin təmiri və avtomobil zavodunun saxlanması üçün 175 000 manat vəsait ayrıldı.

Nazir X.Məlikaslanovun rəhbərliyi ilə yollarda hələ çox yeniliklərin olacağı şübhəsiz idi. Lakin 1920-ci ilin aprel işğalı bu planları yarımçıq qoydu.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimi X.Məlikaslanov bu illər ərzində həm siyasi proseslərin önündə olmuş, həm də böyük quruculuq fəaliyyəti göstərmişdi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının üzvü olan X.Məlikaslanov cümhuriyyətin birinci və ikinci hökumət kabinetlərində yollar və poçt-teleqraf naziri, üçüncü, dördüncü və beşinci kabinetlərdə yollar naziri idi. Beşinci hökumət kabinetində 1920-ci il fevralın 18-dək müvəqqəti olaraq həm də ticarət, sənaye və ərzaq nazirinin səlahiyyətlərini icra etmişdi.

Onun haqqında yazılmış məqalələrin birində deyilir: «X.Məlikaslanov dekabrın 7-də (1918-ci il) Bakıda açılmış Azərbaycan parlamentinin üzvü seçilmişdir. O, Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəylinin təşkil etdiyi birinci və ikinci kabinetdə də həmin vəzifəni icra etmişdir. X.Məlikaslanov təşkilatçılıq qabiliyyətinə görə N.Yusifbəylinin birinci müavini təyin olunmuşdu. Bundan başqa, o, 1919-cu il iyunun

11-də yaradılmış respublika Dövlət Müdafiə Komitəsi sədrinin birinci müavini idi».

1920-ci ilin aprel ayında Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra X.Məlikaslanov bir sıra rəhbər vəzifələrdə çalışır. 1921-ci ilin əvvəlində Dövlət Tikinti Komitəsində şöbə müdiri işləyir, daha sonra həmin komitənin sədri olur. O, Azərbaycan Ali Xalq Təsərrüfatı Şurası yanında Dəmiryol Tikintisi İdarəsinin rəisi və şuranın məsləhətçisi vəzifələrini icra edir.

Sovetlər X.Məlikaslanovun nəyə qadir olduğunu yaxşı bilirdi. Başa düşürdü ki, o, yüksək ixtisaslı mütəxəssis, təcrübəli təşkilatçı və vətənini sevən ziyalıdır. Bunun üçün də ona ən məsul vəzifələri tapşırmaqdan belə çəkinmirdilər. Əlbəttə, onlar bunu X.Məlikaslanova olan hörmət və etimada görə deyil, öz mənafeləri naminə edirdilər. Odur ki, Xudadat bəyə 1923-1925-ci illərdə Azərbaycan Dövlət Plan Komitəsinin Sənaye-nəqliyyat-tikinti bölməsinin müdiri vəzifəsini tapşırırlar. 1922-1924-cü illərdə Zaqafqaziya Dəmir Yolu İdarəsinin üzvü seçilir. 10 ilə yaxın (1921-1930) Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsində yol, sənaye, nəqliyyat və tikinti bölməsinin sədri işləyir, bunlardan 6 ilini (1924-1930) həmin fakültənin dekanı olur.

1928-ci ildə Azərbaycan SSR Ali Texnika Komitəsinin sədr müavini, 1921-1930-cu illərdə RSFSR və Azərbaycanın bir sıra elmi-texniki mədəni-maarif təşkilatlarının üzvü, üç il (1927-1930-cu illər) SSRİ Xalq Təsərrüfatı Şurasının Elmi-texniki kollegiyasının üzvü kimi də fəaliyyət göstərir. 1926-1930-cu illərdə o, həm Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin, həm də Zaqafqaziya MİK-in üzvü idi.

Beləliklə, Xudadat bəyə getdikcə daha məsul tapşırıqlar verilir, ən çətin vəzifələr etibar olunurdu. Onu bir vəzifədən götürüb digərinə təyin edirdilər. Çünki hara getsə, oranı dirçəldə bilirdi, nizam-intizam, qayda-qanun yaratmağı, işləri təşkil etməyi bacarırdı. X.Məlikaslanov hətta müxtəlif illərdə paralel olaraq bir neçə vəzifəni icra edib. 1929-cu ildə Azərbaycan SSR MİK-in qərarı ilə Azərbaycan Dövlət Elmi-Tədqiqat

İnstitutuna həqiqi üzv seçilməsi və növbəti, 1930-cu ildə Azərbaycan Neft İnstitutunun Nəqliyyat fakültəsinə rəhbərlik etməsi deyilənlərə sübutdur.

Bütün bunlarla yanaşı, X.Məlikaslanov elmi yaradıcılıqla da məşğul olmuş, bir çox məqalələri Moskvada nəşr edilən jurnallarda işıq üzü görmüşdür. Uzun illər dəmiryol işi ilə bağlı topladığı bilik və təcrübəni sonralar yazdığı kitablarda ümumiləşdirmişdir. Belə ki, 1927-ci ildə Politexnik İnstitutunun nəşriyyatında, iki il sonra isə Azərbaycan Dövlət Nəşriyyatında dəmiryol texnikasına aid iki kitab nəşr etdirmişdir.

Sovet hökuməti cümhuriyyət dövrünün kadrlarından öz mənafeyi naminə istifadə etsə də, onları həmişə düşmən gözündə görürdü. Onları izləyir, şərləyir, cəzaya məhkum edirdilər. Əslində, bolşeviklərin əsas siyasi opponentləri müsavatçılar idi. Onlarla haqq-hesabı çürütmək həmişə gündəmdə qalırdı. Lakin yeni hökumətin vəzifəli şəxsləri buna mübahisə, diskussiya və s. vasitəsilə nail olmağı düşünmürdülər. Çünki müsavatçıların intellekti, dünyagörüşü, inkişaf səviyyələri düşünüb hazırlaşmadan, necə gəldi «dünya inqilabı»na doğru gedənlərdən xeyli yüksək idi. Respublikanın yeni rəhbərlərinin vəzifəsi, məqsədi bir idi: mane olanları aradan götürmək, onlardan yaxşı düşünənləri, mütərəqqi fikirliləri təkləyib məhv etmək. O zaman – Rusiyada Sovet hakimiyyəti qurulduqdan sonra Leninin və Trotskinin sərəncamı ilə Solovetsk adalarında (Ağ dəniz), Suzdal, Yaroslavl və başqa yerlərdə həbs düşərgələri yaradılırdı. Minlərlə «inqilab düşməni» həmin düşərgələrin ilk sakini oldu. Düşmən adlandırılanlar kimlər idi? Rusiya zadəganları, başqa millətlərdən olan görkəmli şəxsiyyətlər, Avropanın müxtəlif ölkələrində təhsil almış ziyalılar, Sovet hakimiyyətinin qurulması uğrunda mübarizə aparan, ona inanan bütün adamlar, bir də yaxşı yaşadıqlarına görə təqsirləndirilən minlərlə günahsız kəndli. Məhbuslar arasında Azərbaycan xalqının ən yaxşı oğulları da vardı. Təkcə «Müsavat» partiyasının yüzlərlə üzvü dəfələrlə belə düşərgələrə sürgün edilmişdi.

Bir faktı da qeyd edək ki, Azərbaycanda Sovet hakimiyyəti qurulan kimi XI ordunun Xüsusi şöbəsi ziyalılara, mövcud

partiyaların üzvlərinə, hətta liberal əhvali-ruhiyyəli adamlara belə amansız divan tutmağa başladı. On nəfərdən çox azərbaycanlı general məhkəməsiz və istintaqsız güllələndi. Halbuki Azərbaycan Ordusu qırmızı orduya qarşı vuruşmamışdı və mövcud razılaşmaya əsasən, generallar təqib olunmamalı idilər. Təkcə iki general – Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski Nəriman Nərimanovun sayəsində sağ qalmışdılar. Beləliklə, 1920-ci ilin axırlarından başlanan həbslər, istintaqlar, dindirmələr 1930-cu illərdə dəhşətli bir vəziyyət aldı. Əvvəllər Fövqəladə Komissiya müsavatçılar arasında say-seçmə həbslər aparırdı. İki-üç ay çəkən istintaqdan sonra məhbuslar buraxılırdılar. Həmin məhbusların əksəriyyəti də sovet platformasında işləməyə, bütün qüvvələrini yeni hakimiyyətə sərf etməyə hazır olduqlarını bildirirdilər. Hətta partiyanın sol qanadını təşkil edənlər «Müsavat»ın fəaliyyətinin dayandırıldığı barədə xüsusi bəyanat da vermişdilər. Onlar güman edirdilər ki, gizli fəaliyyətdən çıxdıqdan sonra təqib olunmayacaq, respublikanın bütün vətəndaşları kimi azad surətdə yaşayıb işləyəcəklər. Lakin müsavatçıların təqibi dayandırılmadı, əksinə, sürətləndi. Bəyannamə dərc olunan günün ertəsi leqal «Müsavat» partiyasının bütün üzvlərini müəyyən bəhanə ilə tutmağa, istintaq edib Baş Dövlət Siyasi İdarəsi Kollegiyasının Xüsusi müşavirəsinin qərarına əsasən həbs düşərgələrinə göndərməyə başladılar.

X.Məlikaslanovu da belə bir tale gözləyirdi. 1930-cu ilin əvvəlində Azərbaycan SSR XDİK-in Siyasi İdarəsi tərəfindən «Azərbaycan Milli Mərkəzinin işi» üzrə ittiham olunaraq həbs edildi. 1933-cü ilin ortalarında azadlığa buraxıldı.

Bundan sonra sovet hakimiyyəti yenidən X.Məlikaslanovun istedad, bilik və bacarığından istifadə edərək ona məsul vəzifələr tapşırdı. 1933-cü il sentyabrın 1-dən, yəni həbsdən azad olunandan bir-iki ay sonra Azərbaycan Nəqliyyat İnstitutunda Dəmir yolu və Azərbaycan İnşaat İnstitutunda İnşaat işinin təşkili kafedralarına rəhbərlik etdi.

Ovaxtkı rejim Xudadat bəyin qol-qanadını dəfələrlə sındırmış, onu yersiz alçaltmış, nahaq yerə incitmiş, həbs

etmişdi. Amma bu insanın iradəsi sınmamış, gücdən düşməmişdi. Bütün bunlardan sonra da o, Azərbaycanda magistral dəmiryol şəbəkəsinin inkişaf planının işlənib həyata keçirilməsinə böyük töhfə vermişdi. Onun həllinə çalışdığı problemlərdən biri də şəhərdaxili nəqliyyat məsələləri idi.

Bütün bu illər ərzində Xudadat bəy qələmini də yerə qoymamışdı. O, çalışdığı sahələrə aid 70-dən çox əsər yazmışdı. Bunların arasında dəmiryol nəqliyyatına aid 3 monoqrafiya da var idi.

Lakin Xudadat bəyin başı üzərində daim qara qüvvə, təhlükə, kabus dolaşmaqda idi. Başqa sözlə, Stalin üsuli-idarəsi onu elə «nişan almışdı» ki, həmin təhlükədən sovuşmaq mümkün deyildi. Odur ki, 1934-cü ilin avqust ayında yenidən həbs olunur. Təbii ki, yenə də əsassız ittihamlarla: əksinqilabi-millətçi təşkilatın üzvü olduğu, ideoloji cəbhədə rəhbər vəzifələri zəbt etmək niyyəti daşıdığı və xalq təsərrüfatının əsas sahələrində (neft, nəqliyyat, poçt-teleqraf) «ziyankarlıq» apardığı üçün. Ona «trotskiçi», «əksinqilabi-millətçi» və daha nə adlar qoymamışdılar?! X.Məlikaslanovun işi üzrə ittihamnamədə oxuyuruq: «...Antisovet təşkilatında iştirakına, Azərbaycan K(b)P MK rəhbərliyini hörmətdən salmaq üçün millətçi söhbətlərdə iştirak etdiyinə və əksinqilabi iş apardığına görə Azərbaycan SSR CM-in 72 və 73-cü maddələri ilə cinayət məsuliyyəti daşıyır». Xüsusi müşavirənin gündəliyini Azərbaycan SSR Xalq Daxili İşlər Komissarını əvəz edən baş leytenant Xoren Markaryan tərtib edir.

Həyat yolları onu ömrünün sonunda da gəncliyinin keçdiyi Rusiyaya aparır. Həbs düşərgəsində amansız işgəncələr, ağrı-acılar onu həm mənəvi, həm də fiziki cəhətdən məhv edirdi. Hər gün ona nə vaxt divan tutulacağını gözləyirdi. Bütün bunlar – insan amilini üstələyən ideoloji zorakılıq, siyasi məntiqsizlik, güllələnmə, sürgünlük şəxsiyyətə pərəstiş üzərində qərar tutan siyasi sistemin tükürpədən reallıqları idi. Beləcə, 1935-ci il iyulun 23-də Xudadat bəy Məlikaslanov elə həbs düşərgəsində dünyasını dəyişir.

İllər keçdi, çox bulanıq sular axıb duruldu. 1959-cu ildə X.Məlikaslanov da bəraət aldı. Axı heç bir günah işlətməmiş, heç bir səhvə yol verməmiş, heç bir cinayət törətməmişdi! Öz əqidəsinin, istiqlal təşnəsinin, bəlkə də istedadının, biliyinin, gücünün (!) qurbanı olmuşdu. Bədxahların, gözü götürməyənlərin, vəzifə kürsülərini özlərindən güclülərə qısqananların qəzəbinə tuş gəlmişdi.

Deyirlər, insan var evdən gedər, insan var eldən gedər. Hər bir halda Xudadat bəy cəllad əli ilə xalqının, vətəninin əlindən alınmış bir ziyalı idi. Bu gün onun həyatını, fəaliyyətini öyrənənlər bilirlər ki, Xudadat bəy Məlikaslanov dövlətinə, xalqına hələ çox fayda verə bilərdi. Min təəssüf! Amma hər halda o, həm insan və vətəndaş, həm də mütəxəssis və vəzifə sahibi kimi milyonlarla insana nümunə olan bir ömür yaşadı. Əqidəsindən, amalından, tutduğu yoldan dönmədi!

HƏYATI GÜLLƏYƏ TUŞ GƏLDİ

XX əsrin 30-cu illərində qara bir kabus Azərbaycanı oba-oba, oymaq-oymaq dolaşırdı. Elə bir bölgə, elə bir kənd yox idi ki, repressiya maşını həmin vaxt oranı hədəfə götürməmiş olsun. Bəzən eyni ailənin bir neçə üzvü ittiham olunur, bəzən eyni nəslin bir qrup nümayəndəsi «qaralanırdı». Həmin illərin amansız olayları Qazax mahalının sayılıb-seçilən nəsillərindən olan Vəkilovların da neçə-neçə övladını «nişan almışdı». Onların arasında bir xanım da var idi. Mədinə Mehdi ağa qızı (Vəkilova) Qiyasbəyli.

Azərbaycanın tanınmış nəsillərindən birinin övladı, digər nüfuzlu bir ailənin isə gəlini olan, adı xalqımızın ilk təhsilli qızları sırasında çəkilən, uzun illər pedaqoji sahədə fəaliyyət göstərən Mədinə xanım Qiyasbəyli haqqında çox eşitmişik. Yüksək mənəvi keyfiyyətlərə, böyük iradəyə malik, şəxsiyyətini, heysiyyətini zədəsiz qoruyub saxlayan həmin Azərbaycan qadını XX əsrin 30-cu illərinin repressiya qurbanlarından birinə çevrilmişdi.

Hadisələri bir qədər qabaqlayaraq qeyd edək ki, Mədinə Qiyasbəyli Dövlət Siyasi İdarəsi və XDİK tərəfindən 1925-ci ildən başlayaraq həbs olunduğu vaxta – 1936-cı il dekabrın 8-dək daim izlənilib, fəaliyyəti nəzarətdə olub. Bu idarələrin agentləri onun hər addımını qeydə alıblar. Mədinə xanımı guya «Müsavat» partiyasının keçmiş üzvləri ilə əlaqə saxladığı və onların fəal həmkarı olduğu üçün «gözaltılamışdılar».

Əslində isə Azərbaycan SSR XDİK-in M.Qiyasbəylinin belə bir fəaliyyət göstərməsi barədə heç bir konkret məlumatı olmamışdı. Yəni belə bir əlaqənin yoxluğundan onun haqqında məlumat yığmaq da qeyri-mümkün idi. Bununla belə, repressiya maşını Azərbaycanın bu ləyaqətli, ziyalı qızını ləkələməyə və ömrünün çiçəklənən dövründə onun həyatına amansızcasına son qoymağa nail oldu.

Mədinə Qiyasbəyli

Sovet siyasi idarəsinin casusları niyə məhz Mədinəni izləyirdilər? O, hansı işi ilə diqqəti cəlb etmişdi? Nə üçün Sovet hakimiyyəti şəxsiyyəti heç bir şübhə doğurmayan, yüksək mənəviyyatlı bu müəllimə qənim kəsilmişdi? Mədinə xanımın tərcümeyihalına qısaca nəzər yetirək.

M.Qiyasbəyli Azərbaycanın ilk maarifpərvər qadınlarından biri, görkəmli pedaqoq və ictimai xadim olub. O, jurnalist və tərcüməçi kimi də fəaliyyət göstərib. Mədinə xanım Qiyasbəyli soyadını ailə həyatı qurarkən qəbul edib. Onun qızlıq familiyası Vəkilova olub. M.Qiyasbəyli 1889-cu ilin aprel ayında Qazax qəzasının Salahlı kəndində Vəkilovlar nəslinin nümayəndəsi Mehdi ağanın ailəsində dünyaya göz açıb. Atası elmə, maarifə və mədəniyyətə önəm verən bir insan idi. Anası Gülzar xanım isə Tiflisdə Nəcib Qızlar Seminariyasında təhsil almışdı. Bəzi mənbələrdə Mədinənin ailənin yeganə övladı olduğu qeyd edilir. Bəzilərində isə onun qardaşlarının da olduğu, lakin hələ yeniyetmə ikən dünyadan köçdükləri göstərilir. Mədinə xanım əmisi uşaqları, siyasi xadim, Azərbaycan Cümhuriyyəti parlamentinin üzvü Rəhim bəy Vəkilovla (müsavatçı kimi fəaliyyət göstərdiyinə görə sürgün edilib. Solovetsk adasından sürgündən qayıtdıqdan sonra Tiflisdə yaşayıb. 1934-cü ildə DTK tərəfindən yenidən həbs ediləcəyini hiss edib və ələ keçməmək üçün Kür çayının üzərindəki körpüdə özünü güllə ilə vurub), İsfəndiyar bəy Vəkilovla (maarifçi olub, Qazax Seminariyasında müəllim işləyib. 10 il Solovetsk düşərgəsində həbs cəzası çəkib. 1936-cı ildə sürgündən qayıdıb), Bahadır bəylə (Azərbaycan Milli Ordusunun zabiti və rota komandiri

olub. 1920-ci ildə güllələnib), Zəkəriyyə bəylə (uzun illər müəllimlik edib. 10 il Solovetsk düşərgəsində sürgündə olub) mehriban qohumluq əlaqələri saxlayıb.

İlk təhsilini Mədinə elə evdə ata-anasından alıb. Onun oxumağa davam etməsi həm özünün, həm də valideynlərinin arzusu olub. Bu məqsədlə də Mehdi ağa qızını Tiflisə aparır və onu «Müqəddəs Nina» qız məktəbinə qoyur. 1904-cü ildə həmin məktəbi bitirən Mədinə xanım təhsilini üstəlik birillik kursda da davam etdirir. Ata qızının bütün bu qərarlarına böyük razılıqla dəstək verir.

Mütərəqqi fikirli ailədə böyüməsi, Tiflisdəki təhsil illəri gənc qızın dünyagörüşünün formalaşmasında xüsusi rol oynayır. 1905-ci ildə birillik kursları da əla qiymətlərlə bitirən Mədinənin artıq müəyyən arzuları, planları vardı. Belə ki, Tiflisdən kəndə qayıtdıqdan sonra o, burada qızlar üçün məktəb açmaq qərarına gəlir. Təbii ki, atası yenə də onunla həmfikir olur. Amma bu da həqiqət idi ki, mollaların, cəhalət tərəfdarlarının əhalisini «məngənə»də saxladığı ucqar bir kənddə belə yeniliyi həyata keçirmək o qədər də asan deyildi. Valideynlər qızlarını Mədinə xanımın məktəbinə gətirməyə cəsarət etmirdilər. Gənc müəllim çıxış yolunu əvvəlcə məktəbə özünün yaxın qohumlarının ailəsində böyüyən qızları cəlb etməkdə tapır. 30 şagird toplayaraq məktəb təşkil etməyə müvəffəq olur. 1906-cı ildə maarif idarəsi məktəbin fəaliyyətini rəsmiləşdirir. Mədinə xanım təhsil ocağının müdiri və müəllimi təyin edilir. Burada türk və rus dilləri, hesab, təbiətşünaslıq, hətta musiqi dərsləri də keçilirdi. Təbiətşünaslığı Mədinənin atası Mehdi ağa Vəkilov, türk dilini Əhməd ağa Gülməmmədov tədris edirdi. Qalan fənlərdən dərsləri Mədinə xanım özü deyirdi.

Artıq Mehdi ağanın qapısına elçilər də ayaq açmışdı. Lakin ata qızının öz seçiminə azadlıq verdiyini bəyan etmişdi. Mədinə isə hələ susurdu. Nəhayət, o, Şəhriyar bəylə ailə həyatı qurmağa qərar verir.

Şəhriyar bəy tanınan, sayılıb-seçilən Qiyasbəyovlar nəslindən idi. Kiçik yaşlarında atasını itirmiş, anası Güləndam xanımın himayəsində böyümüşdü. Anası savadsız olsa da,

oğlunun təhsil alması üçün əlindən gələni əsirgəməmişdi. Şəhriyar bəy Qori Seminariyasını bitirmiş və bir müddət müəllim işləmişdi. Sonra onu Qazax qəzasının rəisi ştabs-kapitan Reuttun dəftərxanasına dilmanc (tərcüməçi) götürmüşdülər. Çox mədəni, mərifətli, ziyalı bir cavan idi. Amma onun xəstə (vərəm) olduğu da sirr deyildi.

Mehdi ağa həyat yoldaşı seçməkdə əvvəllər qızına azadlıq versə də, onun Şəhriyar bəyi üstün tutmasından çox narahat oldu. Gəncin xəstəliyini qızına xatırlatdı. Lakin Mədinə taleyini məhz Şəhriyar bəylə birləşdirməkdə israrlı olduğu üçün ata bu izdivaca xeyir-dua verdi. Beləliklə, 20-21 yaşlı müəllim Dağ Kəsəmən kəndinə gəlin köçdü.

Mədinə xanım bu dağ kəndində də qız məktəbi açmağa müvəffəq olur. 1911-ci ildə onun ilk övladı – anası Gülzar xanımın adını verdiyi qızı dünyaya gəlir.

1914-cü ildə ikinci dəfə analıq səadətini duyur. Təzə dünyaya gəlmiş bu qızına isə qayınanası Güləndam xanımın adını verir. Şəhriyar bəyin işi ilə əlaqədar ailə bir müddət Gədəbəydə yaşamalı olur. Bu bölgədə də Mədinə xanım qızların savadlanması istiqamətində fəaliyyətini davam etdirir.

Atası Mehdi ağanın işlədiyi Əskipara kəndində qətlə yetirilməsi Mədinəyə ağır zərbə olur. Bu vaxt onun anası da artıq həyatda yox idi, çoxdan dünyasını dəyişmişdi. Atasının ölümü barədə dəhşətli xəbəri eşidəndə Mədinə üçüncü övladını gözləyirdi. Az sonra oğlunu dünyaya gətirir və atasının şərəfinə onu Mehdi adlandırıb bir qədər təsəlli tapır.

Lakin bir-birinin ardınca gələn bədbəxtliklər Mədinəni göz açmağa qoymur. Bu ərəfədə həyat yoldaşı Şəhriyar bəyin də səhhəti pisləşir və o, vərəm xəstəliyindən vəfat edir. Beləcə, ömrünün ən xoşbəxt çağlarında bir-birinin ardınca gələn faciələr gənc qadını böyük sınağa çəkir. Ancaq Mədinə iradəli idi. O özünü ələ almağı bacarır. Kiçik övladı – oğlu artıq ayaq açıb yeriyəndə ana Tiflisə köçməyi qərara alır.

Tiflisdə Mədinə xanım Zaqafqaziya Komissarlığında çalışır. Lakin az sonra Cənubi Qafqaz üç hissəyə parçalanır. Azərbaycan hökuməti Gəncəyə köçür və o öz ata-baba yurdu Qazaxa qayıdır.

Qazaxda Mədinə Qiyasbəylini xalq məktəbləri inspektoru təyin edirlər. Həmişə olduğu kimi, yenə də maarifin inkişafı yolunda var qüvvəsi ilə çalışır.

Mədinə xanımın siyasətlə maraqlanması məhz bu dövrdən başlanır. O, Azərbaycanın istiqlalının tərəfdarlarından birinə çevrilir. 1919-cu ildə uşaqlarını da götürüb Bakıya gəlir. Bu həmin dövr idi ki, ölkənin ziyalı təbəqəsi Bakı şəhərində cəmləşirdi.

Bakıda Mədinə xanım general İbrahim bəy Usubovun həyat yoldaşı Gövhər xanıma pənah gətirir və bir müddət onunla çalışır. Gövhər xanımın öz mənzilində türklər üçün təşkil etdiyi savad kurslarının strukturu Mədinənin çox xoşuna gəlir. 1920-ci ilin mart ayında o da öz evində təxminən belə bir axşam kursu açа bilir. Kurs rəsmiləşdirilir və buraya qısa müddətdə 20 nəfərə qədər savad almaq istəyən qadın cəlb olunur. Onlara Üzeyir bəy Hacıbəyli, Xədicə Ağayeva, Şəfiqə Əfəndizadə və başqaları dərs keçirdilər.

Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu 1920-ci ilin dekabrında Mədinə xanım darülmüəllimatın müdiri təyin olunur. Gövhər xanım Usubovanı ona müavin təyin edirlər. Qeyd edək ki, o zaman general Usubovu yeni hökumət Nargin adasında güllələmişdi.

Mədinə xanıma, əslində, məsuliyyətli bir vəzifə həvalə olunmuşdu. Belə ki, onun müdir olduğu təhsil müəssisəsi Azərbaycanın müxtəlif yerlərində açılması nəzərdə tutulan qız məktəbləri üçün müəllimlər hazırlamalı idi. Dərsləri ana dilində keçmək imkanı yaranırdı. Mədinə xanım buraya dövrünün görkəmli pedaqoqları olan bir qrup müəllimi cəlb edə bilmişdi. Gələcək müəllimlərə Şəfiqə Əfəndizadə, Xədicə Ağayeva, Sara Talışinskaya, Badisəba Köçərli, Fatma Topçubaşova kimi ziyalı xanımlar dərs deyirdi.

Darülmüəllimatın sorağı hər yana yayılmışdı. Buraya təkcə Azərbaycanın ayrı-ayrı yerlərindən deyil, digər türk-müsəlman ölkələrindən də oxumağa gəlirdilər. Dağıstanda, Özbəkistanda, Türkmənistanda belə məktəblər yaradarkən Mədinə xanımın təcrübəsindən istifadə edirdilər. Bu arada M.Qiyasbəylini

Tiflisdə açılan Türk Pedaqoji Texnikumuna işləməyə dəvət edirlər. Lakin o, buna razı olmur.

1928-ci ildə Mədinə xanım müdirlikdən azad edilir. Əlbəttə ki, əsil-nəcabətinə, bəy nəslindən, «köhnə» ziyalılardan olduğu üçün. O, artıq qızların və oğlanların birgə oxuduğu (birləşdirilmiş) və Pedaqoji Texnikum adlandırılan təhsil müəssisəsində sıravi müəllim işləyirdi. Demə, onun gizli izlənməsi hələ iki-üç il bundan qabaq başlayıbmış...

Və təqiblər müxtəlif şəkillərdə davam edirdi. Texnikumun binasında yerləşən otaqlarda yaşayan Mədinə xanımı buradan çıxarırlar. Ona köhnə Proletar küçəsində pəncərələri olmayan, yarıqaranlıq, nimdaş, iki otaqdan ibarət mənzil verirlər. Mədinə xanım çarəsiz oraya köçür.

Digər tərəfdən, bu xanımı şəxsi həyatında da bədbəxtliklər izləyirdi. 1932-ci ildə tramvaydan düşərkən yıxılıb ağır zədə alır. Həyata Mustafa bəy Topçubaşovun şəfalı əllərinin və cərrah bıçağının sayəsində qayıdır. Lakin onurğa sütununda edilmiş cərrahiyyə əməliyyatından sonra da fəaliyyəti tam bərpa olunmur. Yəni o, çətinliklə hərəkət edir, çox yeriyə bilmir. Nəticədə fəaliyyət növünü də dəyişməli olur. Tərcüməçiliyə başlayır. Onun həm də gözəl jurnalist qələmi vardı.

Təsadüfi deyil ki, Mədinə xanım Qiyasbəyli «Şərq qadını» jurnalının yaradıcılarından biri olmuşdu. Qohumu olan xalq şairi Səməd Vurğun rus şairi Puşkinin «Yevgeni Onegin» poemasını Azərbaycan dilinə tərcümə edərkən Mədinə ondan öz köməyini əsirgəmir. Rusca mükəmməl bilən bu xanım dilin incəliklərinə aid bir sıra məsləhətləri ilə şairə kömək edir. O, eləcə də şairlərimizdən Səməd Vurğunun, Süleyman Rüstəmin, Nigar xanım Rəfibəylinin, Rəsul Rzanın bir çox şeirlərini tərcümə edərək rusdilli oxuculara çatdırmışdı. M.S.Ordubadinin «Dumanlı Təbriz», Əbülhəsənin «Yoxsullar» romanlarını da rus dilinə o çevirmişdi.

Mədinə Qiyasbəyli xalqını, millətini, vətənini sevən bir insan idi. Stalin rejimi onun mənsub olduğu Vəkilovlar nəslinin bir dəstə nümayəndəsini «xalq düşməni» elan etmişdi. Təbii ki, qohumcanlı bir xanım olan Mədinə onlar üçün narahat ola, bir

xəbər tutmağa çalışa bilərdi (görəsən, doğmalarını sevmək, onlar üçün narahat olmaq nə vaxtdan qəbahət sayılıb?!). Amma bu o demək deyildi ki, Mədinə xanım Sovet hakimiyyətinin əleyhinə idi, yaxud bu quruluşa xəyanət edirdi. Müxtəlif vaxtlarda ona ayrı-ayrı yerlərə təqdim etmək üçün verilən, sovet idarələrinin möhürü ilə təsdiqlənən arayışlar da göstərir ki, M.Qiyasbəyli yeni quruluşa tam sadiq olub.

Həmin arayışlardan yalnız birinə diqqət yetirək:

> *«Həmin arayış verilir Mədinə xanım Qiyasbəyliyə, ondan ötrü ki, o, 1930-1931-ci tədris ilində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Fəhlə fakültəsi hazırlıq kurslarının müəllimi vəzifəsində çalışırdı. AKTİ-də işlədiyi vaxt o, geridə qalan tələbələrə pulsuz dərs demiş və yaxşı müəllim kimi mükafat almışdır.*
>
> **AKTİ-nin müdir müavini Hacızadə**
> *Gəncə, 28 iyul 1932-ci il».*

1936-cı ildə 13506 saylı istintaq işi Əliabbas Qədimovla Mədinə Qiyasbəylinin ortaq «cinayət»i üzrə açılır. Xatırladaq ki, o vaxt həbs edilib istintaqa cəlb olunan insanlara əsasən «müsavatçı» damğası vururdular. Daha «fəal» hesab etdiklərini də «Müsavat»ın Mərkəzi Komitəsinin dördüncü heyətinə mənsub olmaqda günahlandırırdılar. Ə.Qədimov da məhz belə bir ittihama məruz qalmışdı. Mədinə Qiyasbəyli Əliabbas Qədimovdan bir gün sonra – 1936-cı il dekabrın 8-də 1747 saylı orderlə həbs edilib. Kim idi Əliabbas Qədimov?

Ə.Qədimov Şəkidə doğulmuş, Kazanda və Türkiyədə ali təhsil almış, oranın ən tanınmış təbibləri, həmçinin yurddaşımız Əli bəy Hüseynzadə ilə birgə çalışmışdır. Vətənə döndükdən sonra yurdumuzun müxtəlif bölgələrində insanlara şəfa vermiş, eyni zamanda, Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mücadilə aparmışdır. Bu səbəbdən də dəfələrlə kommunist zindanına atılaraq dözülməz işgəncələrə məruz qalmış, sonda

güllələnmişdir. Bu da azmış kimi, görkəmli ziyalı Əliabbas Əli oğlu Qədimovun adı uzun müddət millətimizə unutdurulmuşdur.

M.Qiyasbəyli iki il həbsdə qalır. Bu müddət ərzində o, 12 dəfə dindirilir. 1936-cı il dekabrın 10-da keçirilən ilk istintaqın müstəntiq Platonov tərəfindən tərtib olunmuş protokolundan görünür ki, təzyiqlə onun boynuna gizli əksinqilabi «Müsavat» təşkilatının üzvü olduğunu qoymaq istəyiblər. Sürgün edilən Vəkilov soyadlı yaxın qohumlarının adlarını çəkərək onlarla əlaqələrini «aydınlaşdırmağa» çalışıblar. Hətta Vəliyev soyadlı bir nəfəri də Vəkilov kimi qələmə veriblər. Mədinədən «Baharlı» təxəllüslü həmin şəxslə münasibətləri barədə soruşublar. Qadın deyir ki, Baharlını cəmi bir dəfə görüb və onunla sürgündə olan əmisi oğlu barədə maraqlanıb. Lakin müstəntiqlər Baharlının daha çox məlumat verdiyini iddia edir, Mədinə Qiyasbəylinin «Müsavat», müsavatçılar haqqında daha geniş bilgilərə malik olduğunu eyhamlayırlar.

Repressiya olunanların çoxunun məhz müsavatçı kimi damğalanması ondan irəli gəlirdi ki, müsavatçılıq o vaxt istiqlalın, cümhuriyyət ideallarına sadiqliyin ifadəsi idi. «Müsavat» partiyasının 1919-cu ilin dekabrında keçirilən II qurultayında Nəsib bəy Yusifbəyli müstəqil Azərbaycan ideyasının gerçəkləşməsində həmin partiyanın rolunu belə dəyərləndirmişdi: «Azərbaycan amalı yalnız «Müsavat»ındır» demək yanlışdır. Bu, ümumi bir amal və arzu idi. Ancaq onu ilk dəfə «Müsavat» üzə çıxardı. Kül örtülü bir od idi, «Müsavat» üfürüb alovlandırdı». «Müsavatçı» M.Qiyasbəylinin növbəti istintaqlarında onun bu partiyanın üzvləri ilə sıx əlaqədə olması fikri daha da şaxələndirilir. Yeni adlar çəkilir, yeni ittihamlar irəli sürülür, Mədinə Qiyasbəylini iştirakçısı olmadığı hadisələrdə, söhbətlərdə günahlandırırlar. Az qala onun özünü etmədiyi əməllərə inandırmaq istəyirlər. Mədinə xanımın boynuna qoymaq istəyirlər ki, müsavatçıların düşərgədə keçirdiyi aclıq aksiyası, Butırka həbsxanasının divarındakı əksinqilabi yazılar, yazıçı Maksim Qorkinin həbs düşərgəsinə gəlişi, bir müsavatçının məruz qaldıqları əzab-

əziyyət barədə ona verdiyi məktub haqqında geniş məlumata malikdir, bu barədə müxtəlif yerlərdə danışıb.

Müstəntiqlərin öz istəklərinə nail olmamaları, yəni tələb etdikləri cavabı almamaları istintaqı xeyli uzadıb.

Yeri gəlmişkən: 1920-ci ilin yazında Azərbaycan Cümhuriyyəti hakimiyyəti bolşeviklərə təhvil verərkən razılaşma əldə olunmuşdu ki, kommunistlər əvvəlki hökumətin üzvlərinin, deputatların toxunulmazlığına, siyasi partiyaların azadlığına, sərbəstliyinə maneçilik etməyəcəklər. Lakin bu vədlərin heç birinə əməl olunmur. Yarım il keçməmiş artıq yüzlərlə insan zindanlara atılır. Təqiblər, təzyiqlər, repressiyalar tüğyan edir.

Hələ Sovet hakimiyyətinin ilk illərində V.İ.Leninin layihəsi ilə Ağ dənizin qoynundakı Solovetsk adasında həbs, əslində isə ölüm düşərgəsi yaradılmışdı. Bu düşərgəyə düşənin oradan sağ-salamat çıxması ya təsadüf, ya da tale işi idi. O zaman bu cəhənnəm məkan haqqında sovet ölkəsinin hər yerində gizli söhbətlər gedirdi. Tanınmış yazıçı Maksim Qorki də oraya əsl vəziyyəti öyrənməyə getmişdi. Lakin əvvəlcədən xəbərdarlıq almış məhbuslar susmuşdular. Yalnız müsavatçılar ona əsl həqiqəti sezdirə bilmişdilər. Mədinə Qiyasbəyli həm də o olayların canlı şahidi olmuş insanlarla əlaqədə, onların danışdıqlarını yaymaqda günahlandırılırdı.

1936-cı il dekabrın 16-da Mədinə xanımı milliyyətcə erməni olan müstəntiq Ohanesov dindirir. Həmin məkrli istintaqın bir hissəsinə diqqət yetirək:

«**Sual:** Sizə bəlli olan müsavatçıların hamısının adını yenə demədiniz. Hamısının adını çəkmək təklif olunur.

Cavab: Daha heç kəsi tanımıram.

Sual: Yalan danışırsınız. Müsavatçı Qədimov Abbas bəyi tanıyırsınızmı?

Cavab: Mən həkim Qədimov Abbas bəyi tanıyıram. O mənim şagirdim Hüseynova Nazilənin əridir. Onu müsavatçı kimi tanımıram.

Sual: Qədimovla şəxsən tanışsınız?

Cavab: Bəli.

Sual: Onunla harada və haçan tanış olmusunuz?

Cavab: 1930-1931-ci illərdə. Harada, xatırlamıram.

Sual: Qədimov sizdə olubmu?

Cavab: Yox.

Sual: Bu, doğru deyil. İstintaqa məlumdur ki, Qədimov sizdə bir neçə dəfə olub, 1930-cu ildə də. Etiraf edirsinizmi?»

Müstəntiq eyni sualı daha bir neçə dəfə təkrar edir. Məhbus xanım isə belə bir adamın onun evində olmadığını təkrar-təkrar söyləyir. Lakin M.Qiyasbəyli müstəntiqlərin bu sualına hökmən «müsbət» cavab verməli idi...

İttiham edənlər istədiklərinə nail olurlar. Aydın məsələdir ki, Mədinə xanımın ertəsi gün artıq müstəntiqlər Ohanesovun, Platonovun tələb etdiyi ifadələri verməsi səhhəti çox zəifləmiş bu qadına qarşı tətbiq olunan işgəncələrin nəticəsi idi. Beləliklə, hərəkətləri insanlığa heç cür sığmayan bu vəhşilərin zavallı kökünə saldıqları qadın deyir: «Boynuma alıram ki, istintaqa bir sıra yanlış ifadələr vermişəm. Səmimi olmaq qərarına gəlmişəm. Mən müsavatçıların əhatəsindəyəm. Ən yaxın qohumlarım – Mustafa bəy Vəkilov keçmiş Müsavat hökumətinin daxili işlər naziri və Rəhim Vəkilov müsavatçı idi və buna görə mən də «Müsavat»a rəğbət bəsləməyə başladım».

M.Qiyasbəyli hətta «etiraf edir» ki, Qədimov, həqiqətən, onun evində olub: «Onun özü Bakıda olan müsavatçılarla əlaqə qurmaq istəyirdi, çünki Şəkidəki hərəkata yardım gərəkdi. Qədimov mənə bunu da bildirdi ki, xaricdəki «Müsavat» mərkəzi ilə əlaqə yaratmaq və ondan yardım almaq məqsədilə şəxsən özü Türkiyəyə getmək istəyir. O, Türkiyədəki müsavatçıların yerini ona deyə bilib-bilməyəcəyimi soruşdu. Mən heç bir ünvan olmadığını, hətta ən yaxın qohumlarımdan Mustafa Vəkilovun Türkiyədə olub-olmadığını bilmədiyimi dedim... Mən Qədimova Şəki avantürasına qatılmamağı da məsləhət gördüm».

Mədinə xanıma belə bir sual da verirlər ki, Qədimov Bakıda yaşayan müsavatçılarla əlaqə yaratmaq üçün niyə məhz ona müraciət edib. Yenidən istintaq davam edir. Üç gün dalbadal dindirilən, ac-susuz saxlanan, işgəncələrə məruz qalan qadın yenidən mənən güc toplayıb 1930-cu ilə qədər Qədimovu

tanımadığını bildirir. Müstəntiq Platonovun ona təzyiq altında qol çəkdirdiyinə baxmayaraq, yalanları boynuna almamaqda davam edir.

1936-cı il dekabrın 25-26-da keçirilən dördüncü dindirmədə ondan Cəfər bəy Rüstəmbəyovun müsavatçı olduğunu bilib-bilmədiyini soruşurlar. Mədinə də Cəfər bəyin 1924-cü ilə qədər müsavatçı kimi sovet quruluşunun əleyhinə getdiyini söyləyir. Sonra o, Cəfər bəydən 1928-ci ildə əksinqilabi müsavat jurnallarını aldığını etiraf edir.

Sonrakı dindirmələrdə Mədinə Qiyasbəylidən kimlərin haqqında xəbər almırlar?! Ona Bəkir Çobanzadə, Qubaydullin, Əziz Şərif, Abdulla Şaiq, İsmayıl Hikmət, Hənəfi Zeynallı və başqaları haqqında suallar verirlər.

Mədinə Qiyasbəylinin sonuncu, on ikinci dindirilməsi 1937-ci il sentyabrın 8-də olur. Ona deyirlər: «İzah edin görək, Azərbaycan əksinqilabi-millətçi təşkilat ilə sizin əksinqilabi əlaqəniz konkret olaraq nədən ibarət idi?» Mədinə xanım belə bir əlaqənin olduğunu yenə inkar edir.

Elə həmin gün istintaqın başa çatması haqqında protokol tərtib olunur. Mədinə xanım Qiyasbəyli bir daha elan edir ki, heç vaxt «Müsavat» firqəsində olmayıb, əksinqilabi-millətçi təşkilatla heç bir əlaqə saxlamayıb.

Əsl həqiqət məhz belə olduğu halda, 1937-ci il sentyabrın 23-də ona qarşı yalan və böhtanlarla, başdan-başa şərlə dolu ittihamnamə yazırlar. İttihamnamənin məzmununu oxuculara olduğu kimi çatdırırıq: «Azərbaycanda Sovet hakimiyyəti hələ bərqərar olmamışdan qabaq Qiyasbəyli Mədinə xanım «Müsavat» firqəsinin fəal üzvü olub, Məhəmməd Əmin Rəsulzadə və «Müsavat»ın başqa görkəmli başçıları ilə sıx əlaqəsi var idi. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Qiyasbəyli yenə də əksinqilabi müsavatçı mövqeyində qalıb, Bakıda olan qeyri-leqal əksinqilabi «Müsavat» təşkilatına daxil idi və Baharlı Məmməd Həsən, Vəkilov Rəhim və başqaları tərəfindən rəhbərlik edilən qeyri-leqal «Müsavat» mərkəzi ilə əlaqə saxlayırdı».

Onların yazdıqlarına görə, guya həmin təşkilatın 1927-ci ildə ləğv olunmasından sonra azad gəzən Qiyasbəyli öz ətrafına

əksinqilabi-millətçi ruhda olan gəncləri toplayıb. 1930 və 1933-cü illərdə İranda olan müsavatçılarla qeyri-leqal əlaqə saxlayıb. Həbs olunan günə kimi əksinqilabi-millətçi təşkilatın üzvləri Ruhulla Axundov, Bəkir Çobanzadə və başqaları ilə təmasda olub, sovet hökumətinə qarşı mübarizə mövqeyində qalıb, respublika rəhbərliyinin əleyhinə işlər aparıb.

Nəhayət, Qiyasbəyli Mədinə Mehdi qızının güllələnməsi, əmlakının müsadirə edilməsi barədə qərar qəbul olunur. Təkbaşına üç uşaq böyüdən, bir bölgədən digərinə, bir şəhərdən başqa şəhərə köçən, ömrü boyu müəllimlik edən bu qadının müsadirə olunmalı, akademik Ziya Bünyadov demişkən, görəsən, nəyi varmış?!

1937-ci il sentyabrın 26-da 45 yaşlı Mədinə xanıma amansız hökm oxunur. Sentyabrın 28-də saat 01.25-də onun keşməkeşli həyatı böyük faciə ilə bitir. Ziyalı, vətənpərvər, insansevər bir Azərbaycan qızının güllələnməsi aktını Suxanov və Koqan soyadlı zabitlər imzalayırlar.

Mədinə Qiyasbəyliyə atılan güllə Azərbaycan qadınlarının, analarının ürəyinə tuşlanan güllə idi. Bu güllə həm də onların ziyasına, tərəqqisinə, yeni fikir və dünyabaxışına atılmışdı.

İllər, onilliklər sonra digər repressiya qurbanları kimi, bu ləyaqətli Azərbaycan qadınının da günahsızlığı dönə-dönə sübut edilsə və o, bəraət alsa da, ailəsinin, doğmalarının ürəyindəki göynərtini yox etmək mümkün olmayıb. Milyonlarla insan neçə illərdir ki, sovet rejiminin bu amansız, bağışlanmaz səhvləri barədə yazılmış əsərləri oxuyur, çəkilən filmlərə baxır, dəhşətə gəlir!

Tarix bu zülmü heç vaxt bağışlamayacaq!

Erməni terrorunun qurbanı

CAVANŞIR NƏSLININ NAZIR OĞLU

Behbud xan Cavanşir

Azərbaycanın istənilən şəhərində, bölgəsində elə nəsillər, sülalələr var ki, onları çox vaxt mənsub olduqları soyadları ilə tanıyırlar. Məşhur «Cavanşir» soyadı da bu qəbildəndir. Behbud xan Cavanşir həmin nəslin sayılıb-seçilən övladlarındandır: Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, ictimai-siyasi xadim, AXC dövrünün daxili işlər naziri, parlamentin üzvü... Bir sözlə, dövrünün tanınmış iş adamı, eyni zamanda siyasətçisi olmuş bu şəxsiyyət Azərbaycan tarixinə dövlət xadimlərindən biri kimi düşmüşdür.

B.Cavanşir «Müsəlman Xeyriyyə Cəmiyyəti»nin rəhbərlərindən idi. Eləcə də Müsəlman Milli Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü kimi fəaliyyət göstərmişdir. Vaxtilə «Rusiya Texniki Cəmiyyəti»nin işində yaxından iştirak etmiş, elmi fəaliyyətlə də məşğul olmuşdur. Cümhuriyyət hökumətində isə iki nazir vəzifəsini yerinə yetirmiş, Azərbaycan Milli Şurasının «Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanunu»na əsasən cümhuriyyət parlamentinə üzv seçilmişdir.

Bunlar qısa avtobioqrafik məlumatlardır. Əslində isə Behbud xan Cavanşir keşməkeşli bir ömür yaşamış, gücünü, potensialını, bilik və istedadını xalqının rifahı naminə tam sərf edə bilməmişdir. Bunun səbəbi təkcə ömrünün qısa olmasında deyil, həm də yaşadığı dövrün çətinliklərində idi.

Behbud xan Cavanşirin həyatına, keçdiyi yola nəzər salandan sonra belə bir qənaətə gəlirsən ki, onun ölümü namərd ermənilər tərəfindən xalqımıza vurulan saysız-hesabsız ağır zərbələrdən biridir.

Beləliklə, cümhuriyyət dövrünün bir çox vəzifəli şəxsləri, məmurları, görkəmli insanları kimi, onun da həyatı ağır və faciəli olmuşdur.

B.Cavanşir 1877-ci ildə Tərtər qəzasının Azad Qaraqoyunlu kəndində doğulmuşdur. O, Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın nəticəsi, Azad xanın oğlu idi.

Behbud 13 yaşında alman dili təmayüllü Tiflis realnı məktəbinə daxil olmuş və o zaman şəhər mağazalarından birinin erməni əsilli xidmətçisinin oğlu ilə eyni sinifdə oxumuşdur. Bu, gələcək «inqilabçı», əslində isə amalı-məsləki müəmmalı olan Stepan Şaumyan idi.

1902-ci ildə Behbud xan Cavanşir Almaniyaya gedir və Fraybergq Dağ-Mədən Akademiyasına qəbul olunur. Burada mükəmməl biliklərə yiyələnərək akademiyanı fərqlənmə diplomu ilə bitirib mühəndis ixtisasına yiyələnir. Qeyd edək ki, B.Cavanşir həmin akademiyanı bitirən ilk azərbaycanlı məzun idi.

Behbud xan sonra Londona yola düşür. Bir il orada təkmilləşdirmə kursları keçir və 1907-ci ildə vətənə qayıdıb Şubayevin neft mədənlərində işləməyə başlayır.

Qərbi Avropada təhsil alması Behbud xan Cavanşirin ictimai-siyasi dünyagörüşünə güclü təsir göstərir. Alman, ingilis, fransız, rus, gürcü və erməni dillərini mükəmməl öyrənir.

Behbud xan Bakının neft müəssisələrində baş mühəndis işləməklə yanaşı, xalqın maariflənməsi yolunda da ciddi işlər aparır. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin rəhbəri seçilir, Rusiyada və Avropada ali təhsil alan bir neçə azərbaycanlı gəncə öz vəsaiti hesabına təqaüd verir, Azərbaycan dilində nəşr olunan mətbuat orqanlarına yardımlar göstərir.

Çox keçmir ki, onun fəaliyyəti çar xəfiyyələri tərəfindən izlənməyə başlanır. 1920-ci ildə Bakıda rus dilində çapdan çıxan «Zaqafqaziyada rus siyasətinə dair sənədlər» kitabından məlum olur ki, Behbud xan Cavanşir Əhməd bəy Ağayevin 1905-ci ildə gizli yaratdığı «Difai» partiyasının Mərkəzi Komitəsinə daxil

idi. O, həm də «Nicat» Cəmiyyətinin və «Rusiya Texniki Cəmiyyəti»nin Bakı şöbəsinin üzvü seçilmişdi. Bu cəmiyyətin elmi əsərlərində onun xeyli məqaləsi çap olunmuşdu.

Əslində Behbud xan xəfiyyələrin diqqətini çoxdan cəlb etmişdi. Hələ 1907-ci il avqustun 28-də Cavanşir uyezdi rəisinin Daxili İşlər Nazirliyinə yazdığı raportda deyilirdi ki, «xeyriyyə cəmiyyəti» pərdəsi altında gizli fəaliyyət göstərən «Difai» antidövlət komitəsinin rəhbərləri Əhməd bəy Ağayev, Qarabəy Qarabəyov, Məmmədhəsən Hacınski, İsabəy Aşurbəyov, Behbud bəy Cavanşirski və Niftalı bəy Behbudovdur. Bu fakt da göstərirdi ki, çarizm xəfiyyəsi həmin ziyalıların Behbud xanın Azad Qaraqoyunlu kəndindəki evinə yığılmasından xəbərdar idi.

Yeri gəlmişkən, Behbud xanın tərcümeyi-halında «Cavanşir qəzası» coğrafi adına tez-tez rast gəlinir. Bu, cümhuriyyət dövründə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində inzibati-ərazi vahidi idi. 1873-cü il qanununa əsasən təşkil edilmişdi. Mərkəzi Tərtər məntəqəsi idi. Burada qəza idarəsi fəaliyyət göstərirdi.

Qəzada çar idarə üsuluna və sosial ədalətsizliyə qarşı müntəzəm çıxışlar baş verirdi. Çarizmin devrilməsindən sonra ermənilər burada möhkəmlənmək və azərbaycanlılara qarşı soyqırımına başlamaq məqsədilə tədbirlərə hazırlaşırdılar. Erməni silahlı dəstələri hələ 1917-ci ilin sonlarından Kolanı və digər kəndlərə basqınlar edir, aran və dağ kəndlərinin bir-biri ilə əlaqəsini kəsirdilər. Tədbirlər görülənə qədər xalq arasında böyük nüfuza malik olan «Difai»nin səyi nəticəsində erməni terroru ilə üz-üzə qalan çox sayda günahsız insan ölüm təhlükəsindən xilas olmuşdu.

Dövrün salnaməsindən məlum olur ki, Behbud xanın sinif yoldaşı olmuş Stepan Şaumyan onun kölgəsində pərdələnərək Bakıda «Daşnaksutyun» partiyasını möhkəmləndirməyə çalışırdı. O, Behbud xanın sayəsində hətta «Xalq evi»nin müdiri təyin edilmişdi. Bu məsələlərə sonralar Dubinski-Mexadzenin «Şaumyan» kitabında aydınlıq gətirilmişdir. Kitabda bildirilirdi ki, bu gəncləri bir-birindən çox şey ayırırdı – ictimai vəziyyəti, həyat amalları, siyasi baxışları...

B.Cavanşir fevral-burjua inqilabından sonra yaranmış Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin tərkibinə

seçilir. 1918-ci il martın 18-dən 20-dək S.Şaumyanın başçılığı altında bolşeviklər tərəfindən milli məsələnin düzgün qoyulmaması nəticəsində törədilən qırğında otuz minə yaxın azərbaycanlı həlak olmuşdu. Bu qırğının qabağını almağa çalışanlardan biri də B.Cavanşir idi. O, həm də barışıq komitəsinə üzv seçilmişdi.

1918-ci il iyunun 17-də Behbud xan Cavanşir Gəncədə Fətəli xan Xoyskinin yaratdığı hökumət kabinetində daxili işlər naziri vəzifəsini tutur. Müavini general-mayor Sadıx bəy Ağabəyov olur. O zamanlar neft mədənlərini mühafizə edən Bakı şəhər polisinin maaşları məhz Behbud xanın köməyi ilə neftdən gələn gəlirin üç faizi hesabına ödənilirdi. B.Cavanşir polis əməkdaşlarının problemlərinə yaxından bələd idi. Elə onun daxili işlər naziri təyin olunmasında da bu məsələlərin rolu az olmayıb. Belə ki, yeni yaradılan nazirlik və onun tərkib hissəsi olan polis dövlətin formalaşmasında, milli maraqların qorunmasında mühüm rol oynayırdı. Behbud xan Cavanşirin təqdimatı ilə Azərbaycan hökuməti 1918-ci il iyunun 2-də Gəncə quberniyasının 9 qəzasında polis orqanlarının təsis edilməsi barədə qərar qəbul edir. Behbud xan Cavanşirin daxili işlər naziri olduğu dövrdə Bakı erməni-daşnak və bolşevik qüvvələrindən təmizlənir. Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Gəncədən Bakıya köçür. Daxili İşlər Nazirliyi «Metropol» mehmanxanasının binasında fəaliyyətə başlayır və ölkənin asayişi buradan idarə olunur. Behbud xan daxili işlər naziri işlədiyi dövrdə İçərişəhərdə polis müdavimləri hazırlayan məktəb açılır. Məktəbdə 1200 müdavimin təhsil alması nəzərdə tutulur. Behbud xan Cavanşirin nazirliyə rəhbərlik etdiyi dövrdə ölkədə anarxiyaya son qoymaq, qanunvericiliyi və vətəndaş təhlükəsizliyini təmin etmək məqsədilə əməli işlər görülür.

1918-ci il oktyabrın 6-da hökumətin tərkibində kabinetdaxili dəyişikliklərdən sonra o, həm də sənaye və ticarət nazirini əvəz edir. B.Cavanşir yerli sənayenin inkişaf etdirilməsinə və Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələrinin yaradılmasına önəm verir və buna çalışır. 1918-ci il dekabrın 26-da Azərbaycan Xalq Cümhuriyyəti ilə Gürcüstan Respublikası arasında mal mübadiləsi haqqında müqavilə imzalanır. Azərbaycan tərəfindən bu müqavilələri Behbud xan Cavanşir imzalayır. Həmin sənədlərə

görə, tərəflər dəmir yolu ilə daşınan yüklər üçün bir il müddətində azad tranzitə, yəni gömrük rüsumu alınmamasına razılıq verirlər. Partiya mənsubiyyəti sarıdan bitərəf olan B.Cavanşir həmin il dekabrın 7-də Azərbaycan parlamentinə üzv seçilir. Parlamentdə fəaliyyət göstərən fraksiyalardan biri Behbud xan Cavanşirin də daxil olduğu bitərəflər fraksiyası idi. 1919-cu ilin oktyabrından fraksiyada parçalanma baş verir. Bəhram bəy Axundov, Behbud xan Cavanşir və Əbdüləli bəy Əmircanov müstəqil olaraq bitərəflər qrupu yaradırlar. Həmin vaxt Fətəli xan Xoyski hökuməti ilə birgə Behbud xan da tutduğu vəzifədən istefa verir. Ancaq o, parlamentdəki fəaliyyətini davam etdirir.

1919-cu il iyulun 18-dən «Dəyanət» kommersiya şirkəti açır və xarici ticarətlə məşğul olmağa başlayır. Bu sahədə uğurlar əldə edir.

Behbud xan Almaniyada oxuduğu illərdə oranın aqrar sahəsinə yaxından bələd olmuşdu. Onun sonralar həmin ölkədən yumşaq buğda növləri gətirərək Qarabağda əkib-becərməsi öz bəhrəsini vermişdi. Bu diyara ilk avtomobilin gətirilməsi də, yolların abadlaşdırılması da Behbud xanın adı ilə bağlıdır.

O zaman «Müsavat» da sol qanadda formalaşmışdı. Onun fəaliyyəti istər partiya daxilində, istərsə də parlamentdə və cəmiyyətdə sabitliyin pozulmasına səbəb olurdu. Parlamentdə Q.Qarabəyovun «İttihad»ı sağlam müxalifət sayılırdı. Sol qanadın əsas lideri M.Hacınski idi. Bitərəf qrupun rəhbəri Behbud xanın M.Hacınskiyə qoşulması burada ciddi platforma yaradırdı. Çünki Behbud xan böyük nüfuza malik idi. Hətta vaxtilə bəzi tədqiqatçılar Əhməd Ağaoğlu ilə birlikdə «Difai»ni yaratmış Qarabəy Qarabəyovun, Məmmədhəsən Hacınskinin, Behbud xan Cavanşirin Sovet Rusiyası ilə diplomatik münasibətlər qurmaq tələbini təftiş etmişdilər. Onların bu məqsədə görə günahlandırılmasının isə əsası yox idi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklər peşəkar mühəndis kimi tanınan və xariclə əlaqələri olan Behbud xana toxunmurlar.

1920-ci ilin sonlarında Behbud xan Cavanşir Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə neft-mədən avadanlığı almaq üçün bir müddət Almaniyada yaşamalı olur. O, bu tapşırığı Cənubi Qafqaz Soveti xarici ticarət təmsilçisi kimi yerinə yetirirdi.

1921-ci ilin yayında Behbud xan Cavanşir həyat yoldaşı Tamara, qardaşları Surxay və Cümşüdlə İstanbula, Əhməd bəy Ağaoğlugilə qonaq gedir. Yazıçı-alim Vilayət Quliyev 1998-ci ildə nəşr olunmuş «Ağaoğlular» kitabında bu məqama da toxunur. Orada Əhməd bəyin qızı Sürəyya xanımın xatirələrindən sitat gətirir: «Atam Maltadan qayıtdıqdan sonra erməni dostlarından bir professor bizə gələrək atamın ermənilərin qara siyahısında olduğunu, atamı sevən dost kimi onu xəbərdar etməyi özünə vəzifə bildiyini və buna görə də hərəkət etmək lazım gəldiyini söylədi... Azərbaycanın daxili işlər naziri Behbud xan Cavanşirin də ermənilərin qara siyahısında olması xəbərini almışdıq. O arada Cavanşir xanımı və iki qardaşı ilə Parisə getmək üçün İstanbula gəlmişdi. Özü vəziyyətə tez uyğunlaşan adam idi və bizim Şahzadə bağındakı evimizdə beş gün gizli yaşadı. Ancaq rus əsilli xanımı bu həbs həyatına dözə bilməyəcəyini söylədiyindən onlar evimizi tərk edib «Pere Palas» mehmanxanasında yerləşdilər. Ertəsi gün səhər tezdən Behbud xanın axşam «Pere Palas» mehmanxanasına gələrkən bir erməni tərəfindən vurulduğunu eşitdik».

Beləliklə, 1921-ci il iyulun 17-də axşam saat 23-də Behbud xan Cavanşir arvadı və qardaşları ilə «Təpədaşı» ailə kazinosunun italyan səfirliyinə baxan qapısından çıxaraq «Pere Palas» hotelinə gedərkən «Daşnaksutyun» partiyasının üzvü, Ermənistan ordusunun keçmiş əsgəri Misak Torlokyan tərəfindən üç güllə ilə qətlə yetirilir. Qatil həbs olunur.

Hadisə iyulun 17-si gecə baş verdiyindən bəzi mənbələrdə bu tarix iyulun 18-i kimi də göstərilir. Behbud xan Cavanşir 1921-ci il iyulun 20-də, ölümündən üç gün sonra Beşikdaşdakı Yəhya əfəndi dərgahında dəfn olunur. Bəzi qüvvələrin müqavimətinə baxmayaraq, onun dəfn mərasimi kütləvi nümayiş halını alır. Bu zaman onun qatili Misak Torlokyan İstanbuldakı «Kroker» hotelində, ingilis hərbçilərinin qərargahında saxlanılmışdı. Məhkəmə isə Misakın törətdiyi terror hadisəsini araşdırmaq əvəzinə millətlərarası münaqişəni qızışdırmaqla, baş vermiş hadisəni siyasiləşdirməklə məşğul idi.

Behbud xan Cavanşirin ölümü Murat Çulcunun «Erməni intriqalarının pərdəarxası: Torlokyan davası» kitabında da öz əksini tapıb. Belə ki, üç dəfə dalbadal açılan atəşdən sonra yaralı

Behbud xan qatilin üzərinə yeriyərkən üzü üstə yerə yıxılır. Tamara və Cümşüdün qatilin silah tutan əlindən yapışmalarına baxmayaraq, növbəti güllə Cümşüdün sol yanağını sıyırır. Qalatasaray mərkəzi karakolunun polis məmuru Əli əfəndi hadisə yerinə çatır, Misak Torlokyanın qollarını qandallayır.

Behbud xan xəstəxanaya çatdırılır. O, həmin vaxtadək də rus inqilabı və hərc-mərclik dövründə dəfələrlə sui-qəsdlərə məruz qalmışdı. Lakin özünü soyuqqanlıqla qoruya bilmişdi. Bəlkə də payına düşən ömür hələ bitməyibmiş... Bu dəfə isə vəziyyət başqa cür idi. O, həyatının sona çatdığını dərk etmişdi. «Cənablar, pəncərəni açın, hava çatışmır, mən ağırlaşıram» – demişdi. Beləliklə, o, xəstəxanaya çatdırılandan 35 dəqiqə sonra heç bir tibbi müdaxilə edilmədən dünyadan köçdü...

O zaman İstanbul ingilis işğalı altında idi. Odur ki, cinayət hadisəsindən 20 gün sonra cani ingilis hərbi tribunalında mühakimə edilir. Lakin erməni hiyləgərliyi burada da özünü göstərir. İşi elə qururlar ki, cinayətkar cəzasından qurtarır. Əhməd Ağaoğlunun qızı Sürəyya xanım məhkəmənin iştirakçısı kimi sonralar yazdığı «Bir ömür də belə keçdi» memuarında qeyd edir: «Nəhayət, məhkəmə bitdi. Prokuror qatil üçün ölüm cəzası istədi. Bu tələb hətta bizi çaşdırdı. Lakin prokuror 24 saat içərisində Türkiyədən uzaqlaşdırıldı. Yerinə gələn prokuror isə müttəhimə bəraət istədi və qatil Torlokyan gecə ikən qaçırıldı».

Məhkəmə prosesində qatil Torlokyan az qala millət qəhrəmanına çevrilir. Məhkəmə həqiqətən siyasi bir iclasa, tədbirə çevrilir. Vəkil Hasruyan Behbud xan Cavanşirin mətbuatda yayımlanan bəyanatına müraciət edir. Onun bolşeviklərlə əlaqəsi məsələsi gündəmə gətirilir.

«Azərbaycan» qəzetinin baş redaktoru olmuş Şəfi bəy Rüstəmbəyli Behbud xan Cavanşirin qatilinin məhkəməsində şahid qismində çıxış edir.

Şəfi bəy sözlərinin təsdiqi kimi Behbud xanın qəzetlərdə dərc olunmuş müraciətini xatırladır. Yazıdakı «bəzi məsuliyyətsiz şəxslərin soyğun və qəsdlərə yol verdiyi, onların hərbi məhkəmələrdə cəzalanacaqları» fikrini yada salır.

Qara Ağazadə Bakıda mart qırğınları zamanı şəhərdə iki böyük binadan biri olan, müsəlman mədəniyyətinə dair nadir kitabların saxlanıldığı «İsmailiyyə»nin yandırılmasını xatırladır.

Əhməd Həmid erməni Mirzabekyanın binasının toxunulmaz qaldığını söyləyir.

Qacar nəslindən olan Ziba xanım silahları yığılmış müsəlmanlara ermənilərin hücumu barədə danışır: «Erməni məhəlləsindən güllələr yağırdı. Qətliamın üçüncü günü küçəyə çıxıb bizə yaxın olan yanğın yerlərinə getdim. On səkkizə qədər qadın və uşaq cəsədləri gördüm. Qarnı yarılmış hamilə qadının körpəsi qarnından çıxarılaraq parçalanmışdı. Yaşlı bir kişinin damarları kəsilərək həyatına ağır-ağır son qoyulmuşdu. Qətliam bizə paralel olan küçəyə qədər gəlib çatmışdı. Orada dayandırılmışdı».

Şahid Yusif bəy Qasımov divara mıxlanmış uşağı, parça-parça edilmiş qadını xatırladır, Təzəpir məscidində təqribən 600-ə qədər cənazənin dəfnə hazırlandığını bildirir. Bakıda bir çox evlərin yandırıldığını söyləyir. Lakin bütün bunlar məhkəmə üzvləri tərəfindən soyuqqanlıqla qarşılanır. Şəfi bəy məhkəmənin gedişinə kəskin etirazını bildirir və işin düzgün aparılmasını tələb edir. Bütün bunlara baxmayaraq, məqsəd qatili cəzasız qoymaq idi. Cinayət sübut edilsə də, tribunalın qərarı ədalətsiz və sarsıdıcı olur. M.Torlokyan bəraət alır.

44 illik ömründə Behbud xan çox çətinliklərdən çıxmış, çox imtahanlardan keçmiş və ölümlərdən qurtulsa da, namərd erməni gülləsinə tuş gəlmişdi. Ölüm ayağında ikən son sözləri belə olub: «Mənim şəxsi düşmənim yoxdur. Məni ancaq ermənilər vura bilərlər» – demişdi.

Behbud xanın ölümündən sonra qardaşları Cümşüd və Surxay həmişəlik Türkiyədə qalırlar. Tamara isə ömür-gün yoldaşını itirəndən sonra yenidən ailə qurmur. Ömrünün sonunadək Moskva şəhərində tənha yaşayır.

Behbud xan Cavanşirin adı gələndə gözlərimiz önündə tarix vərəqlənir. Onun yaşadığı dövrün çətinlikləri, keşməkeşləri haqqında düşünürük. Bu igid insanın şəxsində namərd ermənilərin qətlə yetirdiyi Azərbaycan oğullarını xatırlayırıq. Nankor qonşularımızın istəyi Azərbaycanın məhz belə say-seçmə oğullarını aradan götürmək olub. Lakin onlar bilmirlər ki, «su gələn arxa bir də gələr». Azərbaycan xalqı belə oğulları həmişə yetişdirir və qisas heç vaxt qiyamətə qalmır.

ZİYA BÜNYADOV – QƏHRƏMAN KİMİ DÖYÜŞDÜ, QƏHRƏMAN KİMİ YAŞADI

«Akademik Ziya Bünyadovun qiyməti yüksəkdir və onun xidmətləri əvəzsizdir… Ziya Bünyadov Azərbaycan xalqını ən gözəl təmsil edən şəxsiyyətlərdən biri və o şəxsiyyətlərin içində ən seçiləni idi… Ziya Bünyadov öz iradəsi, biliyi, elmi əsərləri ilə… tariximizi saxtalaşdıran, təhrif edən insanlara qarşı mübarizə aparırdı, Azərbaycan tarixinin doğru-dürüst olduğunu sübut edirdi və onu qoruyurdu».

Heydər ƏLİYEV

Jurnalist sənətinin mənə yaxından tanıtdığı maraqlı simalardan, adlı-sanlı insanlardan biri də görkəmli elm xadimi, akademik Ziya Bünyadovdur. Sovet İttifaqı Qəhrəmanı, böyük alim Z.Bünyadov hərtərəfli istedada malik, bənzərsiz, nadir bir şəxsiyyət idi.

Ötən əsrin 90-cı illərində bu nəhəng insanın repressiya qurbanları haqqında araşdırmalarının qəzet variantlarının hazırlanması mənə tapşırılmışdı. O zaman «Azərbaycan müəllimi» qəzetində işləyirdim. Bir gün qəzetin baş redaktoru Şahin Səfərov mənə məsuliyyətli bir iş veriləcəyini bildirdi. İki-üç gündən sonra redaktorun qəbuluna çağırıldım.

Kabinetdə Şahin müəllimlə XX əsrin görkəmli alimlərindən sayılan Z.Bünyadov üz-üzə oturmuşdular. Ziya müəllimi dərhal tanıdım. Başında yenə də araxçına bənzər papaq, qarşısında isə üç iri qovluq vardı. Otağa daxil olanda Ziya müəllim dərhal ayağa qalxdı və biz salamlaşdıq. Bu, təbii ki, onun yüksək mədəniyyətindən, daxili ziyalılığından irəli gəlirdi. Sonrakı əməkdaşlığımız dövründə akademikin bu xüsusiyyəti özünü bir az da aydın göstərdi. Redaktorumuz məni təqdim edəndə



Ziya Bünyadov

ailəmiz haqqında da məlumat verdi. 1941-1945-ci illər müharibəsində Z.Bünyadov atamla eyni cəbhədə vuruşmuşdu. Sonralar da dostluq münasibətlərini qoruyub saxlamışdılar. Ona görə də biz Z.Bünyadovu uşaqlıqdan tanıyırdıq. Qısa söhbətdən sonra o, atamı xoş sözlərlə xatırladı. Bu isə mənə məmnun duyğular bəxş etdi. Sonra Şahin müəllim akademikin redaksiyaya gəlişinin səbəbini açıqladı. Söylədi ki, bu qovluqlarda Ziya Bünyadovun Stalin repressiyası qurbanları haqqında tədqiqatının nəticəsi olan 30-dan çox ziyalı barədə istintaq materialları əsasında yazdığı məqalələr toplanıb. O zaman gizli arxivlərin qapıları alimlərin, tədqiqatçıların üzünə təzəcə açılmışdı. Azərbaycan tarixinin bütün dövrlərinin həqiqətlərini incəliyinə qədər üzə çıxarmağa çalışan Ziya müəllim həmin illərdə bu faciəni xalqa çatdırmaq üçün var qüvvəsi ilə işə girişmişdi. Lakin onun repressiya qurbanları haqqında yazılarını dərc etməyə o zaman bir çox qəzetlər cürət etməmişdi. Şahin müəllim isə onları dərc etməyi qərara almış və həmin yazıların çapa hazırlanmasını mənə həvalə etmişdi.

Qeyd edim ki, məqalələr rus dilində təqdim olunmuşdu. Onlar tərcümə edilir, qəzet üçün hazırlanıb çapa imzalanmazdan əvvəl müəllif tərəfindən diqqətlə oxunurdu. Böyük alim hər bir söz, ad, fakt üzərində, necə deyərlər, əsirdi. O zaman Ziya Bünyadovun, deyəsən, heç səhhəti də bir o qədər yaxşı deyildi. Amma buna baxmayaraq, məqalələrin son variantını oxumağa həvəslə gəlirdi. Bu məsuliyyət, yazılarına bu qədər həssaslıq məni az qala təəccübləndirirdi. O, sinəsi «Qızıl Ulduz»lu qəhrəman, tanınmış alim və ictimai xadim olmaqla

bərabər, həm də sanballı bir insan idi. Xalqına böyük sevgi və sədaqət bəsləyən, Şərq mentalitetinə dərindən bələd olan bu şəxsiyyətin üstəlik də rusca mükəmməl təhsil alması, yüksək Avropa mədəniyyətinə yiyələnməsi xarakterində tam bir vəhdət yaratmışdı.

Qəzetdə repressiya qurbanları haqqında yazılar dərc olunduqca redaksiyaya saysız-hesabsız məktublar gəlir və fasiləsiz telefon zəngləri edilirdi. Ayrı-ayrılıqda Ziya Bünyadova oxucular öz minnətdarlıq duyğularını bildirirdilər. İnsanlar bir tərəfdən ədalətin bərqərar olmasından, günahsız qurbanların adlarının bir daha təmizə çıxarılmasından sevinirdilər, digər tərəfdən isə əziz oğullarını xatırlayan xalqın, bir növ, yarasının qaysağı qopurdu... Həmin dövrdə qəzetimiz əllərdə gəzirdi, hamı «Azərbaycan müəllimi»ni axtarırdı, onun surətini çıxarıb arxivlərində saxlayırdı. Bu, ilk növbədə, akademik Ziya Bünyadovun xalqı, geniş mənada isə tarix qarşısında böyük xidmətləri idi.

Sonralar mən «Azərbaycan» qəzetində işləməyə başladım. Əməkdaşlığımız yenə də davam edirdi. Yaşı artıq 70-i haqlasa da, Ziya müəllim yenə axtarışlarda, işdə-gücdə, öz əqidəsi, tapıntıları uğrunda mübarizələrdə idi...

Onun mübarizə yolu çox erkən başlamışdı. 1923-cü il dekabrın 21-də Astara şəhərində dünyaya göz açan Ziya Musa oğlu Bünyadov orta məktəbi bitirəndən sonra Bakı Ümumqoşun Məktəbinə daxil olmuşdu. Seçdiyi bu hərbi istiqamət onu qəhrəmanlıqlarla dolu uzun bir ömür yoluna qovuşdurmuşdu. Çox keçmir ki, müharibə başlanır və Ziya Bünyadov cəbhəyə gedir.

Gənc zabit 1-ci Belarus cəbhəsinin tərkibində Berlinədək döyüş yolu keçir. Orduda onu cəsur və istedadlı döyüşçü kimi tanıyırdılar. Şücaətindən bəhs edən döyüş epizodlarından birində deyilir ki, kapitan Bünyadovun əlahiddə bölüyü Pilitsa çayını birincilər sırasında keçib. Həmişə düşmənin müdafiə xətlərini bir-birinin ardınca adlayan bölük döyüşçüləri bu dəfə də hünər göstərirlər. Çayın o biri sahilinə çatan kimi qəfləti zərbə ilə mühüm əhəmiyyət daşıyan körpünü tuturlar.

Hitlerçilər üç piyada diviziya ilə çaya yaxınlaşırlar, lakin burada güclü müqavimətə rast gəlirlər. Düşmən əlavə qüvvə – dörd tank və yüzlərlə əsgər göndərir. Faşist təyyarələri göydən od ələməyə başlayır. Döyüşçülər hər tərəfdən hücuma məruz qalsalar da, nəinki davam gətirməyə, hətta üstünlük əldə etməyə nail olurlar. İki saat yarım körpünü nəzarətdə saxlayır və sovet tərəfinin tank və mexanikləşdirilmiş hissələrinin oradan, yəni körpüdən keçməsinə imkan yaradırlar. Bu zaman kapitan Bünyadovun cəsur hərəkətləri düşmənin dörd piyada diviziyasına zərbə endirməyə şərait yaradır. Əməliyyatlar maneəsiz davam edir.

Təkcə bu döyüşdə Ziya Bünyadovun bölüyü 160 faşist əsgərini və zabitini məhv edir, 45-ni isə əsir götürür, xeyli döyüş texnikasını ələ keçirir.

Müharibənin dörd ağır ili boyu Bünyadov çox odlardan keçir, şücaətlər göstərir. Hər an da Tanrı özü onu qoruyur, bəlalardan hifz edir ki, sağ-salamat vətəninə qayıtsın, hələ uzun illər öz istedad və zəkasından xalqının yoluna ziya saçsın.

Müharibənin gedişi boyu Ziya Bünyadov «Qırmızı Bayraq», «Qırmızı Ulduz», «Aleksandr Nevski» ordenləri, «Qafqazın müdafiəsinə görə», «Varşavanın azad edilməsinə görə», «Berlinin alınmasına görə» medalları, bir çox digər orden və medallarla təltif olunur, fəxri fərmanlar, təşəkkürlər alır. SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 fevral 1945-ci il tarixli qərarı ilə Sovet İttifaqı Qəhrəmanı kimi yüksək və şərəfli ada layiq görülür. Ziya Bünyadov sinəsindəki «Qızıl Ulduz»u qəhrəmanlığın rəmzi kimi həmişə iftixarla və hörmətlə gəzdirirdi. Hətta Azərbaycan dövlət müstəqilliyini əldə etdiyi ilk vaxtlarda bəzi qüvvələrin tarixi hadisələri düzgün qiymətləndirməyərək Azərbaycan xalqının müharibədə göstərdiyi hünərin üstünə kölgə salmağa cəhd etdiyi vaxtlarda, ölkədə Qələbə bayramı qeyd olunmayanda, müharibə qəhrəmanlarının gözdən salınmasına cəhd göstəriləndə belə akademik Z.Bünyadov sinəsindəki nişanı çıxarmamış, bundan, əksinə, qürur hissi keçirmişdi. Ümummilli lider Heydər Əliyev vaxtilə buna münasibətini belə bildirmişdi: «*Azərbaycanlılardan İkinci Dünya*

müharibəsində iştirak edib, alman faşizminin qarşısını almaqda rəşadət göstərərək yüksək adlar alanları, həmvətənlərimizi, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən insanları həmişə yüksək qiymətləndirmişik... Ziya Bünyadov azərbaycanlıların içərisindən çıxmış az – yüz nəfərdən bəlkə bir az çox olan Sovet İttifaqı Qəhrəmanından biri idi və bu adı həmişə şərəflə, böyük iftixar hissi ilə daşıyırdı. Son illər, Sovet İttifaqı dağıldıqdan sonra dünyada, keçmiş Sovet İttifaqında, Azərbaycanda gedən cürbəcür ictimai proseslər zamanı, hətta burada, Azərbaycanda tarixinə, millətinin qəhrəmanlıq səhifələrinə ləkə yaxmaq istəyən bəzi adamlar Vətən müharibəsi qəhrəmanlarının adlarını tarixdən silməyə cəhd göstərən zaman, Qələbə gününü Azərbaycanda ləğv edən adamlar belə şəxslərə mənfi münasibət göstərən zaman da Ziya Bünyadov Sovet İttifaqı Qəhrəmanının «Qızıl Ulduz»unu döşündə həmişə iftixarla gəzdirirdi».

Bu gün mübaliğəsiz demək olar ki, akademik Ziya Bünyadov elmdə də əsl döyüş, qəhrəmanlıq dolu yarım əsrlik bir yol keçib.

1946-cı ildə ordudan tərxis edildikdən sonra Z.Bünyadov N.Nərimanov adına Moskva Şərqşünaslıq İnstitutuna daxil olur. Sonra həmin institutun aspiranturasını da bitirir və 1954-cü ildə görkəmli sovet şərqşünası Y.A.Belyayevin rəhbərlik etdiyi kafedrada ilk tədqiqat işi olan «Afrikada İtaliya imperializmi» mövzusunda namizədlik dissertasiyasını müdafiə edir.

Həmin il alim Bakıya qayıdır və elmi axtarışlarını Azərbaycan Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunda davam etdirir. 1964-cü ildə isə artıq «Azərbaycan VII-IX əsrlərdə» mövzusunda doktorluq dissertasiyasını müdafiə edir və bundan sonra Yaxın və Orta Şərq Xalqları İnstitutunun Orta əsrlər şöbəsinə rəhbərliyi ona tapşırırlar. Professor Ziya Bünyadov 1967-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1973-cü ildə isə həqiqi üzvü seçilir. 1981-ci ildən Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsində çalışır. 1990-cı ildə Azərbaycan EA-nın vitse-prezidenti olur və ömrünün sonunadək bu vəzifənin öhdəsindən layiqincə gəlir.

Ziya Bünyadovun çox operativ və sadə iş üslubu var idi. Bu illər ərzində böyük alimin elmi yaradıcılığı iki istiqamətdə inkişaf edirdi: Yaxın və Orta Şərq ölkələrinin feodalizm dövrü tarixinin tədqiqi və Yaxın və Orta Şərq xalqlarının tarixinə, elm və mədəniyyətinə dair orta əsr müəlliflərinin əsərlərinin araşdırılması, izahlı tərcüməsi və nəşri.

Akademik Ziya Bünyadovun qələmindən çıxan 300-dən çox elmi əsərin hər biri onun geniş erudisiyasını, hədsiz işgüzarlığını və böyük tədqiqatçılıq qabiliyyətini nümayiş etdirirdi. Görkəmli alimin orta əsr yaşayış məntəqələrinin müəyyənləşdirilməsinə, şəcərə cədvəllərinin dəqiqləşdirilməsinə, Azərbaycanın qonşu ölkələrlə tarixi əlaqələrinə dair mühüm faktların sistemləşdirilməsinə həsr olunmuş yazıları, habelə tibb, seysmologiya və astronomiyaya dair orta əsr ərəb mənbələrindəki məlumatların aşkara çıxarılıb elmə gətirilməsi sahəsindəki səyi gərgin əməyin və ciddi tədqiqatçılıq məharətinin bəhrəsi idi.

Ziya Bünyadov orta əsrlər Azərbaycan və Yaxın Şərq tarixinin ən məhsuldar tədqiqatçılarından idi. Onun «Azərbaycan VII-IX əsrlərdə», «Xarəzmşahlar dövləti», «Azərbaycan Atabəylər dövləti (1136-1225)» və digər əsərləri tarixşünaslığın klassik nümunələridir. 1965-ci ildə çap olunan «Azərbaycan VII-IX əsrlərdə» kitabı Z.Bünyadova Azərbaycanın orta əsrlər tarixi üzrə ciddi tədqiqatçı və mütəxəssis şöhrəti gətirmişdi. Bu, Azərbaycan tarixinin ərəb xilafəti dövrünə dair sovet tarixşünaslığında yazılmış ilk tədqiqat əsəri idi. Burada geniş şəkildə araşdırmaya cəlb olunmuş ərəb, fars, türk, gürcü mənbələrinin o vaxtadək məlum olmayan və çətin əldə edilən yazılı abidələrin dərin tədqiqi və təhlili sayəsində ərəb işğalı ərəfəsində və xilafət dövründə Azərbaycanın sosial-iqtisadi və siyasi həyatı hərtərəfli öyrənilmiş, Azərbaycanın orta əsrlər tarixinə dair bir sıra mühüm problemlər öz həllini tapmışdır. Əsərdə xilafətə qarşı xalq kütlələrinin mübarizəsinə xüsusi yer verilmiş, Babəkin başçılıq etdiyi Xürrəmilər hərəkatı geniş şəkildə işıqlandırılmışdır.

1978-ci ildə Ziya Bünyadov «Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər)» adlı monoqrafiyasını nəşr etdirir. Bu mono-

qrafiya görkəmli alimin Şərq renesansı dövründə Azərbaycanın iqtisadi, sosial və mədəni inkişaf problemlərinin öyrənilməsi sahəsindəki uzunmüddətli əməyinin məhsuludur. Kitabda Azərbaycanın o dövrdəki siyasi tarixi məsələləri ilə yanaşı, XII əsrin ikinci yarısı və XIII əsrin birinci rübündə Orta Şərqin feodal sülalələrinə mənsub hökmdarların qurduğu dövlətlərin, o cümlədən Azərbaycan Eldəniz Atabəyləri dövlətinin o zaman siyasi və mədəni həyatda mühüm rol oynadığı göstərilmişdir. Əsərdə, həmçinin, həmin dövrdə Qafqazda siyasi şəraiti xarakterizə edən bir çox qiymətli və ilk dəfə elmi dövriyyəyə daxil edilmiş materiallar yerləşdirilmişdir. Ziya Bünyadov öz monoqrafiyasında Azərbaycanın və qonşu ölkələrin orta əsr tarixinə dair bir sıra problemlərin gələcək həlli, kifayət qədər öyrənilməmiş məsələlərin tədqiqi üçün böyük əhəmiyyət kəsb edən əsaslı elmi nəticələr əldə etmiş, bununla da feodalizm dövrü tarixinin başlıca problemlərinin, Şərqdə feodalizmin inkişafının ümumi qanunauyğunluqları və fərdi xüsusiyyətləri kimi mühüm nəzəri məsələlərin həllinə böyük töhfələr vermişdir.

Akademikin «Azərbaycan Atabəylər dövləti» əsəri ölkəmizin və qonşu dövlətlərin tarixinin çox az öyrənilən dövrünün araşdırılmasında mühüm əhəmiyyət kəsb etdiyinə görə elmi ictimaiyyət tərəfindən layiqincə qiymətləndirilmişdir. Əsər 1980-ci ildə elm və texnika sahəsində respublika Dövlət mükafatına layiq görülmüşdür.

Ziya Bünyadovun 1986-cı ildə Moskvada nəşr olunan «Xarəzmşahlar – Anuştəkinlər dövləti (1097-1231)» adlı monoqrafiyası Orta Asiya və qonşu dövlətlərin Xarəzmşahların dördüncü sülaləsi hökmdarlığı dövrünün 140 illik tarixinə həsr edilmişdir. Həmin kitabda mərkəzi Xarəzm olan dövlətin yaranması, inkişafı və dağılmasından bəhs edilir. Tədqiqat əsərində Xarəzmşahlar dövlətinin siyasi və iqtisadi tarixinin problemləri araşdırılır, mədəniyyət tarixi məsələlərinə böyük yer verilir. Akademik Ziya Bünyadova tarixçi-mediyevist kimi böyük şöhrət qazandırmış əsərləri həmişə məzmun dərinliyi, ümumiləşdirmə orijinallığı və çıxardığı nəticələrin lazımi dərəcədə əsaslandırılması ilə səciyyələnirdi.

Tədqiqatçı-alim türk, ərəb, fars, rus, gürcü, alban və Qərbi Avropa mənbələrindən də geniş istifadə edir, haqqında az məlumat olan yazılı abidələri öyrənirdi. Akademikin çox geniş elmi maraq dairəsi var idi. Tarixçi olmasına baxmayaraq, daim Şərq ədəbiyyatını araşdırırdı, bu sahədə, əslində, böyük işlər görürdü. Nizaminin müasiri, XII əsr Azərbaycan müəllifi Xosrov əl-Ustadın «Munisnamə» əsərinin əlyazmasını Böyük Britaniya kitabxanalarından tapıb çıxarmış, surətini gətirərək professor Rüstəm Əliyevə vermişdi. Ziya müəllim uzun müddət XI əsr müəllifi İmadəddin əl-İsfahaninin «Xəridətül-əsr fi cəridətül-qəsr» əsərinin surətini əldə etmək üçün yorulmadan cəhd göstərirdi və nəhayət, 1996-cı ildə ona məlumat verdilər ki, əsərin surəti Küveyt kitabxanasında saxlanılır. Ziya Bünyadov dərhal Birləşmiş Ərəb Əmirliklərinin institutla elmi əməkdaşlığı olan mədəniyyət mərkəzinə məktub yazır, müəyyən adamlarla əlaqə yaradır, bu işdə kömək göstərmələrini xahiş edir. Çox keçmir ki, əsərin surəti instituta gətirilir.

Ziya Bünyadov, eyni zamanda, orta əsr müəlliflərinin əsərlərini, Yaxın və Orta Şərq xalqlarının tarixinə, elm və mədəniyyətinə dair qədim yazıları tədqiq, tərcümə və şərh edir, onların nəşri ilə məşğul olurdu. Bu da elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilirdi. Tədqiqatları təkcə Azərbaycanda deyil, Rusiyada, İraqda, Misirdə, Fransada, Türkiyədə, Orta Asiya respublikalarında da nəşr olunurdu. O, alban tarixçisi Mxitar Qoşun «Alban salnaməsi»ni ingilis, Əbdürrəşid Bakuvinin «Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri», Nəsəvinin «Sultan Cəlaləddin Mənqburinin həyatının təsviri» və İbn əl-Əsirin «Kamil ət-təvarix» əsərlərini ərəb dilindən rus dilinə şərhli tərcümə etmişdi. Beləliklə, Azərbaycanın, Yaxın Şərqin feodalizm dövrü tarixinin tədqiqi, həmçinin Asiyada, Qafqazda həmin dövrlərə aid nadir mənbələrin nəşri sahəsində fundamental elmi əsərləri ona ölkəmizdə «mediyevistlər məktəbi»nin banisi və klassiki kimi böyük şöhrət qazandırmışdı. Alimin monoqrafiyaları, yüksək səviyyəli tərcümə və mətnşünaslıq işi olan kitabları bütün İslam Şərqi və Yaxın Avropa məkanında klassik fonda daxil olan fun-

damental əsərlər idi. Akademik onların cəmindən milli arxetip, xalqın qan yaddaşı, etnik gen və kod tərkibinin sistemini müəyyənləşdirirdi. Keçmiş hərbçi zabitin elmdə seçdiyi strateji silah tarixi yaddaşın özü idi. O, şəxsi təcrübəsindən bilirdi ki, qalib ordu özünə əbədi tabe etmək istədiyi xalqda ən əvvəl yaddaşı məhv etməyə çalışır.

Ümummilli lider Heydər Əliyev 1997-ci il fevralın 24-də akademik Ziya Bünyadovla vidalaşma mərasimində geniş və məzmunlu bir nitq söyləmişdi. Həmin nitqdə akademiklə bağlı bir çox hadisələr xatırlanmışdı. Onlardan biri də Azərbaycanın Rusiyanın tərkibinə qatılması ilə əlaqədar yaşanan olaylar idi. Heydər Əliyev nitqində deyirdi: «*…60-cı illərin ikinci yarısında Azərbaycanın 150 il öncə Rusiyaya könüllü surətdə qəbul olunması haqqında elmi mülahizələr gedirdi. Məlumdur ki, 1964-cü ildə qərar qəbul edilmişdi ki, 150 il öncə Azərbaycan könüllü surətdə Rusiyanın tərkibinə daxil olmuşdur. Biz bunu bir bayram kimi qeyd etmişdik. Bu münasibətlə Azərbaycan Lenin ordeni ilə təltif olunmuşdu. Bunların hamısı da tariximizin səhifələridir.*

Amma Ziya Bünyadov bir alim kimi heç nədən qorxmayaraq, heç kəsdən çəkinməyərək öz elmi fikirlərini söyləyirdi. Xatirimdədir, 67-68-ci illərdə Ziya Bünyadov bu barədə artıq bir neçə dəfə açıq bildirmişdi ki, doğrudur, Azərbaycan Rusiyanın tərkibinə daxil olubdur. Amma bu, könüllü olmayıbdır. Odur ki, tarixi həqiqəti demək lazımdır».

Bu, o vaxtlar idi ki, yaşadığımız siyasi mühit, siyasi konyunktur bunu qəbul etmirdi. Ziya Bünyadov buna görə günahlandırılırdı, hətta onu cəzalandırmaq istəyirdilər. Məsələsini Elmlər Akademiyasının Partiya Komitəsinin müzakirəsinə də çıxarmışdılar. Lakin Ziya Bünyadov dediyinin üstündə durmuşdu. «*İndi bunlar adi bir məsələ kimi görünür. Amma o zamanlar belə fikirlər söyləmək açıq-açığına hökumətin, partiyanın əleyhinə getmək kimi yozulurdu*». Ziya Bünyadov isə çəkinmirdi, öz elmi fikirlərini cəsarətlə irəli sürürdü. Dedikləri doğru olsa da, ovaxtkı rejimdə bunları sübut etmək çətin idi. Lakin sonrakı tarixi araşdırmalar onun fikirlərinin düzgün olduğunu göstərdi.

Bunlar günəşin özü kimi aydın həqiqətlər idi və Ziya Bünyadov qanından-iliyindən gələn cəsarətlə yeri düşdükcə içindəkiləri uca səslə, qorxub-çəkinmədən açıb söyləyir, yazır, elan edirdi. Və indi biz onu da açıq deyə bilərik ki, həmin çətin illərdə sovet alimlərinin yazdıqlarının əksinə fikirlər söyləyən insanı həbslərdən, cəzalardan qoruyan mühüm bir amil də məhz onun daşıdığı Sovet İttifaqı Qəhrəmanı adı idi. Görünür, həyatda təsadüfi heç nə yoxdur. Bu xoşbəxtlik də Ziya müəllimə taleyi tərəfindən verilmişdi.

Ziya müəllimin elmi axtarışları təkcə orta əsrlər dövrü ilə məhdudlaşmırdı. Alimi vətənin yaxın keçmişi də maraqlandırırdı. O, əsrin əvvəllərində Azərbaycanda baş verən hadisələr, Xalq Cümhuriyyətinin fəaliyyəti, Bakı kommunası və s. mövzulara bir sıra məqalələr həsr etmişdir.

Nəhayət, Ziya Bünyadov bolşevizm terroru və siyasi repressiyaların qurbanları ilə bağlı bir neçə sanballı tədqiqat əsərini ortaya qoyur. Böyük alim elə tarixi həqiqətləri üzə çıxarır ki, onların həmin dövrdə – sovet rejimi illərində aşkar söylənilməsi azı cinayət hesab olunurdu. Başqa sözlə, o, bolşevizm terroru nəticəsində 1920-1930-cu illərdə Azərbaycanda aparılmış repressiyalar haqqında həqiqətləri araşdırarkən, 37-nin qurbanlarını xalqa tanıtdırarkən, onlara bəraət qazandırarkən, adlarını tarixdə bərpa etdirərkən və beləliklə, o dövrü doğru-düzgün işıqlandırarkən də əsl hünər göstərir.

Ümummilli lider Heydər Əliyev Z.Bünyadovun fəaliyyətinin bu dövrünü də yüksək dəyərləndirib: «*Ziya Bünyadovun xidmətləri çoxdur və onun ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, 80-ci illərin axırlarında – 90-cı illərin əvvəllərində o, bir daha böyük alim kimi, tədqiqatçı kimi Azərbaycanın açılmamış arxivlərinə bir daha getdi, o arxivlərdən Azərbaycan tarixinin XX əsrə aid səhifələrini açdı, tədqiq etdi, öz kitablarında, dövri mətbuatda yazılar verdi və beləliklə də, əgər əvvəllər Azərbaycan tarixinin orta əsrlərə aid çox mühüm dövrlərini elmi əsərlərində işıqlandırdısa, açdısa, göstərdisə, son illərdə özünü buna həsr etdi. O cümlədən, ilk Azərbaycan Demokratik Respublikasının yaranması ərəfəsində gedən prosesləri də, o dövrü də doğru-düzgün tədqiq edənlərdən biri də Ziya Bünyadovdur*».

Cəmiyyətdə ədalətsizliklər davam etdikcə Ziya Bünyadovun mübarizəsi də davam edirdi. O həm də Azərbaycanın bütövlüyünə, onun müstəqilliyinə qənim kəsilmiş məkrli düşmənləri, millətçi erməni ideoloqlarını həqiqi elmin gücü ilə ustalıqla ifşa edirdi. Onun şəxsiyyəti Azərbaycan xalqının düşmənlərini həmişə vahiməyə salırdı. Bir vaxtlar sovet, Ermənistan mətbuatında, onların kitablarında və «elmi əsər»lərində Azərbaycan tarixi təhrif olunurdu. Hər tərəfdən dəstə-dəstə alimlər, yaxud alim adı daşıyan cürbəcür adamlar Azərbaycan tarixinə təcavüz edirdilər. Lakin bu tərəfdə Ziya Bünyadov dayanmışdı. O öz iradəsi, biliyi, elmi əsərləri ilə onlara tutarlı cavablar verirdi. Azərbaycan tarixini qoruyurdu, onun dünyaya doğru-düzgün çatdırılmasına xidmət edirdi.

«Qurani-Kərim»in şərhli tərcüməsi də Ziya Bünyadovun xidmətlərindən biridir. Alim ötən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq professor Vasim Məmmədəliyevlə birgə müqəddəs «Qurani-Kərim»i dilimizə çevirir, ona şərhlər yazır. Sonra «Dinlər, təriqətlər, məzhəblər» adlı irihəcmli soraq kitabı hazırlayır. Bununla da bu sahədə yaranmış boşluğu aradan qaldırmağa çalışır. Kitab alimin vəfatından sonra 1997-ci ildə ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində işıq üzü görür. Alimə 1990-cı ildə «Qurani-Kərim»in tərcüməsinə görə H.Z.Tağıyev adına mükafat verilir. Akademik, bundan başqa, A.A.Bakıxanovun «Gülüstani-İrəm»inin avtoqraf nəşrini, M.Füzulinin «Mətləül-etiqad» əsərinin elmi mətninin nəşrini işləyib hazırlayır. O, 1993-cü ildə «Gülüstani-İrəm» əsərinin şərhli nəşrinə görə A.A.Bakıxanov adına mükafata layiq görülür. Vətənin tarixindən və taleyindən bizə səhifələr açan «İrəvan sancağının dəftəri»ndən sonra alimin sağlığında işıq üzü görən son kitabı «Naxçıvan sancağının dəftəri» olmuşdu. «Maraqlıdır, Ziya Bünyadovun böyük elmə yolu Atabəylər dövləti haqqında kitabla başlamışdı. Və bu gün «Naxçıvan sancağının dəftəri» ilə tamamlanır. O, bir daha göstərir ki, görkəmli tədqiqatçının bütün kitablarında ana xətt ağrılı nöqtələrdən keçir» *(Akademik Fəraməz Maqsudovun çıxışından, 1997).*

Azərbaycanda milli azadlıq hərəkatı başlayarkən Ziya Bünyadovun elmi, ictimai-siyasi fəaliyyəti yeni bir istiqamət və vüsət alır. Gənclərimizdə milli dirçəliş və milli oyanış hisslərinin gündən-günə inkişaf etməsi Z.Bünyadov kimi alimlərin əsərlərinin təsiri ilə bağlı idi. Bunlar alimlərimizin, yazıçılarımızın, şairlərimizin milli ruhu qaldırmağa, milli əhvali-ruhiyyəni inkişaf etdirməyə yönəldilmiş səyinin nəticəsi idi. Odur ki, həmin illərdə milli azadlıq hərəkatının cücərib boy atmasında akademik Ziya Bünyadovun da böyük xidməti vardı. Həm də görkəmli alim milli dirçəliş hisslərinin inkişaf etməsinə bir tərəfdən öz əsərləri, digər tərəfdən məhz ictimai-siyasi fəaliyyəti ilə xidmət edirdi.

O illərdə Z.Bünyadov meydanlarda nitq söyləyən, Ermənistanın Azərbaycana təcavüzünə qarşı səsini qaldıran və erməni qəsbkarlarının haqsız iddialarına etiraz edən, bu sahədə ən qabaqda gedən insanlardan biri idi. Məhz Ziya Bünyadov kimi güclü və mötəbər insanların əməli, hərəkəti ilə Azərbaycanın on minlərlə vətəndaşı, gənclər bu hərəkata qoşuldular. Onlar Azərbaycanın milli azadlığına, müstəqilliyinə, vətənimizin ərazi bütövlüyünə qarşı edilən təcavüz əleyhinə öz etirazlarını bildirir, mübarizəyə qalxırdılar.

Yeni Azərbaycan Partiyasının yaranmasında yaxından iştirak edənlərdən biri də məhz Ziya Bünyadov idi. Azərbaycanda hadisələr son dərəcə qarışıq olan zaman – bir tərəfdən bədxah qonşularımız torpağımızda qan tökəndə, digər tərəfdən isə «sapı özümüzdən olan baltalar» xalqın arasına çaxnaşma salıb ölkəni parçalamağa cəhd edəndə Ziya müəllimin bütün varlığı vulkan kimi püskürürdü. Bir dəstə ziyalı ilə birlikdə neçə dəfə Naxçıvana getdi, ulu öndər Heydər Əliyevlə görüşüb söhbət etdi. Bu gün biz rahatlıqla deyə bilərik ki, nə yaxşı, həmin mübarizələr nəticəsiz, bəhrəsiz qalmadı. 1992-ci ilin soyuq, sazaqlı bir payız günündə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Ziya Bünyadovu yeni yaranan partiyanın sədr müavini seçdilər...

Akademik 1995-ci il noyabrın 12-də keçirilən müstəqil Azərbaycanın demokratik əsaslarla seçilmiş ilk parlamentinin

deputatı kimi fəaliyyət göstərməyə başlayır. O, ölkədə aparılan islahatların hüquqi bazasının yaradılmasında, qanun yaradıcılığının təkmilləşdirilməsində yaxından iştirak edir. Milli Məclisin deputatı kimi seçiciləri ilə görüşlərə böyük həvəslə gedir, problemləri ilə maraqlanırdı…

Beləcə, bundan sonra da Azərbaycanın azadlığı, dövlət müstəqilliyi uğrunda fədakarcasına mübarizə apara-apara şəhid oldu Ziya Bünyadov. Böyük alimin faciəli ölümü bütün xalqımız üçün əvəzsiz itki idi. Akademik 1997-ci il fevralın 21-də öz evinin astanasında amansızcasına qətlə yetirildi.

O, hərb illərində Sovet İttifaqı Qəhrəmanı adını almışdı, sonra elmdə qəhrəmanlıqlarla dolu uzun bir yol keçmişdi. Nəhayət, müstəqil Azərbaycan Respublikasında əsl qəhrəman kimi həlak olmuşdu. «*Ziya Bünyadov haqqında çox danışmaq olar və güman edirəm, bundan sonra daha da çox danışılacaq, haqqında kitablar, xatirələr yazılacaqdır. Çünki o öz varlığı ilə elə bir insan idi ki, böyük, şərəfli həyat yolu ilə elə bir yüksək səviyyəli şəxsiyyət adı almışdı ki, onun haqqında nə qədər çox desək də, yenə də tam qiymətini verə bilməyəcəyik*». Ümummilli lider Heydər Əliyev xalqımızın görkəmli oğullarından olan Ziya Bünyadov haqqında belə deyib. Ulu öndər onun fitri istedada malik olduğunu həmişə yüksək qiymətləndirib, cəsurluğunu, cəsarətini, zəkasını, fədakarlığını, zəhmətsevərliyini, işgüzarlığını, əzmini layiqincə dəyərləndirib. Ölümündən sonra, 1998-ci ildə Ziya Bünyadov «İstiqlal» ordeni ilə təltif olunub.

Görkəmli alimin zəngin biliyi, geniş dünyagörüşü, hədsiz zəhmətsevərliyi və böyük tədqiqatçı istedadı onun qələminə məxsus hər bir əsərində özünü büruzə verir.

Akademik Z.Bünyadov hələ çox xatırlanacaq. Bir də ki, Ziya Bünyadov haqqında əsl sözü elə Ziya Bünyadov özü deyib. Keçdiyi həyat yolu ilə sanki özünə əbədi, uçulmaz-sökülməz bir heykəl ucaldıb. Qəhrəman kimi döyüşüb, qəhrəman kimi də yaşayıb.

«QIRMIZI TERROR»: CİLOVSUZ QAN ÇANAĞI

Milli mətbuatımızın banisi, böyük mütəfəkkir Həsən bəy Zərdabinin 1905-ci il dekabrın 28-də «Həyat» qəzetində dərc edilən «Rusiyada əvvəlinci türk qəzetəsi» sərlövhəli məqaləsində maraqlı bir məqam öz əksini tapıb.

Məqalədə H.Zərdabi 1875-ci ilin 22 iyulunda «Əkinçi» qəzetinin yarandığı tarixi şəraitdən, ilk mətbu orqanımızın nəşri zamanı üzləşdiyi çoxsaylı çətinliklərdən danışır. Bu zaman Minasov familiyalı bir erməni mürəttibini də yaddan çıxarmır. O yazır: «O vaxtda Bakıda iki basmaxana (mətbəə – **red.**) vardı. Onların birisində ki Quberniski Pravleniyanın idi, bircə müsəlman hürufatını alayarımçıq düzən Minasov adlı bir erməni var idi. Onu götürdüm danışdırdım. Söz verdi ki, nə qədər hürufat düzən lazım olsa, öyrədib mənim qəzetəmdə işlədər. ...İyul ayına qəzetənin açılmasını salmaqdan muradım o idi ki, zikr olan Minasovdan başqa türk hürufatı düzən tapılmadı. O da bircə bacısı oğlunu gətirib yanında şagird saxladı».

Həsən bəy Zərdabi «Əkinçi» qəzetinin nəşrinə mürəttib Minasov familiyalı həmin erməni ilə başlayır və əvvəldə niyyət xoş olsa da, erməni xisləti özünü çox gözlətmir. Yanına şagird götürdüyü bacısı oğlu ilə birgə bu qəzetdən dolanan, Həsən bəydən məvacib alan Minasov «Əkinçi»dən, onun naşirindən Bakı jandarmasına çuğulluq etməyə başlayır.

«...Elə ki Dağıstanda şuluqluq başlandı, «Əkinçi»nin günü dəxi artıq qarə oldu: bir gün Nəcəf bəy Vəzirovun məqaləsi ki Moskvadan göndərmişdi, vermişdim düzməyə, – deyə Həsən bəy Zərdabi xatırlayır. – Məqalədə bir dərviş bazarda dükanların qabağında qəsidələr oxuyub onları elm, təhsil etməyə

çağırırdı. Senzor qol çəkib çap olmağa izin vermişdi. Qəzetə çap olub paylanandan sonra qubernatorun hökmünə görə o nömrəni bağlayıb məni istədilər. Gedib gördüm ki, mənim Minasovum oradadır.

Qubernator buyurdu ki, Minasov deyir, dərvişin sözlərinin qeyri mənası var. Ona görə nömrəni bağlayıb sənə hökm edirəm ki, bir qeyri nömrə çap edəsən. Cavab verdim ki, qeyri nömrə çıxarda bilmərəm. Mən gedəndən sonra qubernator özü bir nömrə çıxardıb paylatdı. Çünki nömrə mənim adımdan çıxmışdı, mən təvəqqe elədim ki, dəxi mənim adımdan qəzetə çıxarmasınlar» *(H.Zərdabi, «Seçilmiş əsərləri», Azərbaycan Dövlət Nəşriyyatı, 1960).*

Bir çox sovet dövrü tədqiqatçılarının fikrincə, Həsən bəy Zərdabinin xatırlatdığı bu fakt burjua millətçiliyi ilə zəhərlənmiş Minasovun qəzet barəsində qubernatora yalan məlumat verməsinə işarə kimi yozulur. Əslində isə Minasovun məlum əməli sırf erməni-daşnak xislətindən irəli gəlirdi. Həsən bəy Zərdabini Bakı jandarmasına şeytanlayan Minasovun simasında bu millətçilik zəhəri Azərbaycan düşüncəsində yeni parlamağa başlayan işıqlı ömürləri söndürməyə, ictimai fikrimizi zülmətə bürüməyə can atırdı.

«Rusiyada əvvəlinci türk qəzetəsi» məqaləsindəki həmin xatırlatmanı böyük Zərdabi bütün dövrlərə ismarış kimi vermiş və bədnam erməni toplumuna inamın, güvənin mümkünsüzlüyünü, onların təfəkküründə bizə qarşı nifrət zəhərinin hər zaman olduğunu çatdırmışdır.

1905-1918-ci illərdə ermənilər tərəfindən azərbaycanlılara qarşı ardıcıl soyqırımlarının törədilməsinə, minlərlə soydaşımızın qətliamına rəvac verən nifrət zəhəri Sovet hakimiyyətinin qurulmasından sonra özünə yeni mühit tapdı.

1920-ci ilin 28 aprelindən etibarən Azərbaycanda bütün hakimiyyət Müvəqqəti İnqilab Komitəsinin və Azərbaycan Xalq Komissarları Sovetinin (XKS) əlinə keçdi. Xalq Komissarları Sovetinə Nəriman Nərimanov başçılıq etsə və hər iki təsisatın tərkibində azərbaycanlılar təmsil olunsa da, bu, əslində, formal

xarakter daşıyırdı. Real hakimiyyət hələ 1920-ci ilin fevralında yaradılmış Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının əlində idi.

AK (b)P Rusiya Kommunist (bolşeviklər) Partiyasının tərkib hissəsi idi. Bilavasitə Moskvanın göstərişlərini yerinə yetirirdi. Onun fəaliyyətinə, faktiki olaraq, A.İ.Mikoyan rəhbərlik edirdi. Partiyanın rəhbər özəyi də qeyri-millətlərdən, xüsusən ermənilərdən təşkil olunmuşdu. Onlar Azərbaycan Xalq Cümhuriyyətinin dövlət strukturlarının dağıdılmasında xüsusi canfəşanlıq göstərirdilər.

Cümhuriyyətin hakimiyyət strukturlarını parçalamaq üçün Azərbaycanın hər yerində inqilab komitələri yaradılmışdı. Onlara fövqəladə səlahiyyətlər verilmişdi. Bolşeviklər Azərbaycanın müstəqil dövlətçilik ənənələrini məhv etmək üçün xalq arasında nifaq və düşmənçilik salır, əhalinin müxtəlif təbəqələrini üz-üzə qoyurdular. Onlar xalqı öz tərəflərinə çəkmək məqsədilə guya «istismarçılara qarşı fəhlə-kəndli hakimiyyəti» yaratmağa çalışdıqları barədə geniş təbliğat kampaniyası aparırdılar. Amma zahiri təbliğatla real hərəkət bir-birinə zidd idi. Əslində, hər şey xalqın dövlətçilik ənənələrini və milli müstəqillik şüurunu məhv edən qanlı diktaturanın təşəkkülünə yönəldilmişdi. Yerli inqilab komitələri məhz bu məqsədə xidmət edirdi.

Elə həmin məqsədlə də yeni güc strukturları yaradılırdı. Bu sahədə atılan ilk addım ölkənin hər yerində əvvəlki polisi ləğv edərək fəhlə-kəndli milisinin təşkilindən ibarət oldu. Fəhlə-kəndli milisi ilə yanaşı, Fövqəladə Komissiya – FK və Ali İnqilabi Tribunal fəaliyyətə başlamışdı.

Fövqəladə Komissiyanın və Ali İnqilabi Tribunalın qanunla heç bir məhdudiyyət qoyulmayan fövqəladə səlahiyyətləri vardı. Onların qərarı dərhal icra olunurdu. Hər iki struktur «əksinqilaba və təxribatçılığa qarşı mübarizə» pərdəsi altında müstəqil dövlətçilik ənənələrinin və milli mənlik şüurunun

daşıyıcıları olan dövrün öndə gedən, qabaqcıl adamlarını, xüsusilə ziyalı potensialını məhv edirdilər.

Ölkənin hər yerində «qırmızı terror» küləyi əsirdi. Bolşevik rejiminin möhkəmlənməsinə müqavimət göstərə biləcək hər kəs «xalq düşməni», «əksinqilabçı», «pantürkist», «millətçi» və ya «təxribatçı» adı ilə «qırmızı terror»un hədəfinə tuş gəlirdi.

Beləliklə, 1918-ci ilin qanlı mart olaylarından sonra, faktiki olaraq, Azərbaycan xalqına qarşı yeni soyqırımı dalğası başlanmışdı. Fərq bircə onda idi ki, bu dəfə millətin say-seçmə adamları – Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimləri, generallar, Milli Ordunun yüksək rütbəli zabitləri, qabaqcıl ziyalılar, elm, maarif, incəsənət, mədəniyyət, din xadimləri, partiya rəhbərləri, siyasi xadimlər, məşhur alimlər məhv edilirdi.

Bolşevik-daşnak güruhu bu dəfə bilərəkdən xalqın «düşünən beyinlər»ini hədəf seçmişdi. Xalqı başsız qoymağa hesablanmış bu siyasət, əslində, 1918-ci ilin mart soyqırımından daha amansız, daha dəhşətli idi. Bütün bu kütləvi qırğınlar Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin razılığı olmadan XI Qırmızı ordunun Xüsusi şöbəsi, XDİK, FK, Ali Hərbi Tribunal tərəfindən həyata keçirilirdi. Həmin strukturların rəhbər heyətinin mühüm qismi ermənilərdən ibarət idi. Onlar bütün ölkə boyu repressiyanın yüksək səviyyədə icra olunmasında fəal rol oynayırdılar.

Azərbaycan xalqının qabaqcıl övladlarına qarşı qanlı qırğınlar bilavasitə Orconikidze, Kirov, Mikoyan, Sarkisyan, Mirzoyan, Lominadze, Yeqorov və başqaları kimi bolşevik-daşnak cəlladlarının göstərişi ilə yerinə yetirilirdi. Ölkənin güc strukturlarında özlərinə yer etmiş ermənilər azərbaycanlıları kütləvi surətdə istintaqsız və məhkəməsiz güllələyirdilər. 1920-ci ilin 28 aprelindən sonra təxminən bir il ərzində Azərbaycan xalqının 50 000-ə yaxın say-seçmə övladı güllələnmiş, sürgünə göndərilmiş, millət özünün görkəmli simalarından məhrum edilmişdi.

İşğal prosesində və «qırmızı terror» zamanı bolşevik-daşnak cəlladları güllələnənlərin əmlakını da müsadirə edirdilər. Bununla kifayətlənməyərək bütün əhalini, o cümlədən yoxsulları qarət edir, xalqın olan-qalanını, hətta nəsillərdən yadigar saxlanmış zinət və qiymətli əşyalarını da zorla əllərindən alırdılar. Azərbaycanlıların boşaldılmış mənzillərinə əsasən ermənilər və qeyri-millətlərin nümayəndələri köçürülürdü.

Bir sözlə, Azərbaycan xalqına divan tutulurdu.

Bolşevik rejimi müstəqil dövlətçilik ənənəsini, milli mənlik ruhunu əhalinin şüurundan çıxarmaq üçün xalqın mənəviyyatına qarşı da hücuma keçmişdi. Cümhuriyyət dövründə dövlət dili olan Azərbaycan dili sıxışdırılırdı. Milli kadrların hazırlanması kəskin surətdə məhdudlaşdırılırdı. Silklər, silki, mülki və dini imtiyazlar, rütbələr ləğv edilmişdi. «Bəy», «xan», «ağa» sözlərinin hətta müraciət forması kimi işlənməsi belə qadağan olunmuşdu. Dini ayinlərin icrası və məktəblərdə şəriət dərslərinin keçilməsi yasaq edilmişdi. Dini məktəblər kütləvi surətdə bağlanmışdı. Qədim memarlıq abidələri olan məscidlər, minarələr uçurulub dağıdılırdı. Azərbaycan xalqının mənəviyyatına və milli mədəniyyətinə qarşı amansız hücum dövrü başlanmışdı.

Milli kadrların yetişdirilməsinə yaradılan süni maneələrlə bir arada kənardan Azərbaycana rus, erməni, yəhudi və qeyri-millətlərdən olan əhalinin axınına hər cür şərait yaradılır, onlar müvafiq iş və Bakı şəhərinin ən yaxşı yerlərində mənzillərlə təmin olunurdular.

Açıq-aşkar ruslaşdırma siyasəti yeridilirdi. Bu siyasət ölkənin paytaxtında – «beynəlmiləl» şəhər kimi təbliğ olunan Bakıda daha sürətlə gedirdi. Rus dili Azərbaycan dilini sıxışdıraraq faktiki dövlət dilinə çevrilmişdi. Bəhs olunan dövrdə Azərbaycan ərazisinin qonşulara paylanması siyasəti məqsədyönlü surətdə davam etdirilirdi.

Hakim dairələrin həmin illərdə ideoloji məqsədlər naminə tarixin gedişini geriyə çevirmək niyyəti, Azərbaycan xalqına yad ideologiyanı, adətləri zorla qəbul etdirmək cəhdi ermənilər

üçün göydəndüşmə bir fürsət idi. Və onlar bu fürsətdən yararlanıb Azərbaycan mədəniyyətini, mənəviyyatını, sözün əsl mənasında, özününküləşdirirdilər.

Azərbaycan xalqını tam və qeyd-şərtsiz özünün tarixi-mədəni köklərindən qoparmaq, genetik yaddaşını unutdurmaq, milli ənənələrindən məhrum etmək üçün bütün vasitələrə əl atılırdı.

Ermənilər hakim dairələrdə mövqe sahibi olmuş A.Mikoyan kimi havadarlarının köməyi ilə tutduqları ərazilərin «azlığı», «yoxsulluqları» bəhanəsi ilə tarixi Azərbaycan torpaqları olan Zəngəzuru, Göyçə gölünün ətrafındakı geniş və münbit sahələri indiki Ermənistan ərazisinə birləşdirdilər. Üstəlik, Azərbaycan torpaqları daxilində Dağlıq Qarabağ Muxtar Vilayəti adı altında süni bir qurumun yaradılmasına nail oldular.

Azərbaycan xalqının həyat tərzi, məişəti, mədəniyyəti ilə əlaqədar olan hər dəyər bir tərəfdən kommunist ideologiyasının, digər tərəfdən erməni millətçiliyinin təqiblərinə məruz qalırdı. 1920-1930-cu illərdə mənəvi nihilizmin, milli özüllərə, ənənələrə etimadsızlığın əsası qoyuldu və bunun ziyanlı təsirlərini müəyyən məqamlarda günü bu gün də hiss etməkdəyik.

Azərbaycan xalqının simasızlaşdırılmasına yönəldilmiş tədbirlərin ümumi zəncirində görkəmli ziyalıları, eləcə də el arasında böyük nüfuza malik din xadimlərini nüfuzdan salmaq və məhv etmək xüsusilə mühüm bir halqa kimi görünürdü. Özünün «düşünən beyinlər»indən, genetik bağlarından məhrum edilmiş xalqı kommunist şüarlarının köməyi ilə daha asanlıqla dəyişmək və adamları hər hansı əmri yerinə yetirməyə hazır olan itaətkarlara çevirmək idi əsas niyyət.

Amma ən böyük dəhşət hələ qarşıda imiş.

Bəşər tarixində dönüş nöqtəsi olan 1933-cü ildə bütün dünyada Böyük iqtisadi depressiya dövrü (1933-1937) başlandıqdan və bəzi ölkələrdə faşizm meyillərinin güclənməsindən sonra Avropada dəhşətli bir müharibə ruzgarının kükrəyəcəyi Stalinə sirr deyildi. Artıq 1933-cü ilin əvvəlindən etibarən

birbaşa Stalinin göstərişi ilə ölkə daxilində və xaricdə faşizm və müharibə əleyhinə mütəşəkkil təbliğat kampaniyasına start verilmişdi.

Qaçılmaz müharibə təhlükəsi Stalini qurduğu rejimi və öz şəxsi hakimiyyətini nəyin bahasına olursa-olsun qoruyub saxlamaq üçün kompleks tədbirlərə əl atmağa tələsdirirdi. Bu tədbirlər sırasında ölkənin bütün ehtiyatlarını «hərbi relslərə» keçirməklə yanaşı, «daxili və xarici düşmənlər»ə qarşı kütləvi repressiyalar da xüsusi yer tuturdu.

1930-cu illərin əvvəllərində ittifaq məkanında aşkar müxalifət ləğv edilsə də, ölkədə hələ də mövcud olan və müharibə şəraitində baş qaldıracağı gözlənilən potensial müxalifətin varlığı Stalini ciddi narahat edirdi. Hələ partiyanın 1934-cü ilin yanvar-fevral aylarında keçirilmiş XVII qurultayından xeyli əvvəl, 1932-ci ilin dekabrında Stalin əleyhdarlarına qarşı repressiyaların həyata keçirilməsinin əsas mexanizmi olan yeni təmizləmələrə start vermişdi.

Əgər əvvəlki təmizləmələrin hədəfi yalnız «sosial cəhətdən yad elementlər» və keçmiş müxalifət idisə, 1933-cü ilin yanvarından aparılan təmizləmələr zamanı partiya sıralarından kənarlaşdırılacaq şəxslərin ənənəvi kateqoriyaları siyahısına yeniləri – «etibarsızlar» və «məsləkinə dönük çıxmışlar» da əlavə edilmişdi. Xaraktercə ziyalılıq dəyərlərindən çox-çox uzaq olan Stalin ziyalılara nifrət edirdi. O, dövrün reallıqlarını anlayan ziyalıları özünün qeyri-məhdud hakimiyyətinə qarşı ən ciddi təhlükə gözündə görürdü. Bu səbəbdən repressiya dalğası da ilk növbədə «düşünənlər»i vururdu. Guya xalq düşmənlərinin ifşa edilməsi bəhanəsi ilə ziyalı təbəqəsinə məhvedici zərbələr endirilirdi.

Leninin və Trotskinin təşəbbüsü ilə bir vaxtlar ölkənin ən sərt iqlimli yerlərində qurulmuş düşərgələrə qısa müddət ərzində bolşevizmə zidd fikirlərə malik on minlərlə ziyalı sürgün olundu. O illərdə xalqımızın taleyini və müqəddəratını həll edən «ÇK», «QPU» kimi dəhşət saçan bolşevik güruhunun əli ilə və müxtəlif uydurma, cəfəng ittihamlar əsasında

Azərbaycanın, demək olar ki, ən qabaqcıl ziyalıları məhv edildi. Repressiya illərində Azərbaycanın 51 rayonundan 31-nin Xalq Daxili İşlər Komissarlığı rayon şöbələrinin rəisi erməni idi. Və bu qanlı prosesdən ən çox bəhrələnənlər yenə Azərbaycan xalqına faciələr yaşatmaqdan ötrü ən kiçik fürsəti belə qaçırmayan erməni cəlladları idi.

L.Beriyanın Bakıya göndərdiyi erməni əlaltılarının – Sumbatovun, Qriqoryanın, Markaryanın, Qalstyanın, Ohanesyanın, Avanesyanın, Sinmanın, Şerin və onlarla başqalarının cəllad fəaliyyəti ilə qısa müddətdə 80 minə qədər ziyalımız güllələndi. Bakıda bütün quldur tribunal iclaslarını Vişinskinin müavini, bəşər övladının qatili Matuleviç öz həmkarları Zaryanov və Jiqurla birgə aparırdı. Bu qətllərin başında isə L.Beriya və erməni A.Mikoyan dururdu. Məhkəmə iclasları və hökmun oxunması cəmi 15 dəqiqə çəkirdi. İttiham olunan şəxsin güllələnməsi ilə də kifayətlənməyən cəlladlar repressiya olunmuş insanların ailəsinə, yaxınlarına, dostlarına da «xalq düşməni» damğası vurur, onları hər şeydən təcrid edir, min cür acı çəkdirirdilər.

Bu illərdə DTK-nın rəhbərləri Stalinə lazım olan «ölkədə geniş miqyasda yayılmış antisovet» «terrorçu» və «trotskiçi», «zinovyevçi», «millətçi» və başqa buna bənzər təşkilatların mövcud olmasını sübut etməyə çalışırdılar. Azərbaycanda belə millətçi, əksinqilabçı, üsyançı təşkilatlar guya ifşa olunduqdan sonra yerli DTK-nın əsasən ermənilərdən ibarət olan rəhbərləri müəyyən etdilər ki, demə, bu təşkilatın başçıları R.Axundov, Ə.Qarayev, B.Çobanzadə, M.D.Hüseynov və başqalarıdır. Bunlar da, öz növbəsində, respublikada mövcud olan nazirliklərin rəhbərlərini, MK-nın məsul işçilərini, onlara tabe olan müəssisə, zavod və fabrik, mədən və s. müdir və rəhbərlərini həmin ümumrespublika əksinqilabi-millətçi təşkilata cəlb edib antisovet üsyanı qaldırmalı, Mircəfər Bağırovu öldürməli, Azərbaycanı SSRİ-nin tərkibindən çıxarmalı idilər. Gələcək Azərbaycan burjua-demokratik respublikasının prezidenti Ruhulla Axundov olmalı idi. Minlərlə Azərbaycan övladı bu

uydurma ittihamın güdazına getdi, ya güllələndi, ya da ömrünün ən gözəl illərini həbsxanalarda min bir işgəncə içində keçirdi. 1936-cı ildən etibarən Stalin rejimi azərbaycanlı ziyalılara qarşı ən ağır, amansız, total hücumunu daha da genişləndirdi. 1937-ci ildə bu proses özünün zirvə nöqtəsinə çatdı və 1938-ci ilə kimi səngimək bilməyən sürətlə davam etdi. Şübhəsiz ki, sonrakı illərdə də kütləvi repressiyalar ara verməyəcəkdi, lakin müharibənin astanada olması vəziyyəti bir qədər dəyişdi.

1936-cı ildə SSRİ DTK-nın sədri L.Beriyanın rəsmi sərəncamı ilə dustaqlardan istintaqa lazım olan ifadələrin alınması üçün üç nömrəli metodun tətbiqinə icazə verildi. Bu metodun mahiyyəti isə dustaqları döymək, onları istintaq məngənəsinə salıb müxtəlif işgəncə üsullarına məruz qoymaq idi.

Azərbaycanlılaraın soyqırımlarında insan övladına qarşı bəşər tarixinin ən tükürpədici qəddarlıqlarını törədən erməni vəhşiliyi yenə özünə fürsət tapmışdı. Aradan illər keçəndən və repressiya cəlladlarının müəyyən qismi öz layiqli cəzalarına çatandan sonra edilən etiraflar o dövrdə ermənilərin Azərbaycanın layiqli övladlarına necə divan tutduqlarının acı mənzərəsini yaradır.

...1936-cı il dekabrın 25-də imzasız məktub əsasında MİK-in, Bakı Sovetinin, Yazıçılar İttifaqının üzvü olan Böyükağa Talıblı «əksinqilabi-millətçi meyillərinə görə» həbs edilir. Müstəntiq Xoren Qriqoryan tərəfindən 16 dəfə dindirilir. Altı ay ərzində ondan lazım olan ifadələri ala bilmirlər. Bununla da günlərlə, saatlarla işgəncələr başlanır. Onu əlləri, ayaqları ilə, rezin şlanqlarla amansızcasına döyməyə başlayırlar... Nəhayət, B.Talıblı sınır. Buna kim dözərdi?! Beləliklə də Qriqoryan, Markaryan, Avetisyan, Qalstyan və bu tipli digər müstəntiqlərin uydurduqları dünyanın saysız-hesabsız mənasız günahlarında B.Talıblı özünün təqsirkar olduğunu etiraf edir.

Mədinə Qiyasbəyli, Gülarə Qədirbəyova, Xədicə Qayıbova erməni müstəntiqləri Ohanesov, Tevosyan, Qriqoryan, Ozanyan tərəfindən dindirilir, amansız işgəncələrə məruz qalırlar.

...1937-ci il iyulun 15-də keçmiş maarif naziri, ictimai xadim Məmməd Cuvarlinski dindirilir. DTK-nın keçmiş əməkdaşı İ.M.Krotkov öz ifadəsində deyir ki, «bir dəfə Şerin göstərişi ilə Cuvarlinskini beş-altı müstəntiq əhatəyə alıb rezin dəyənək və burulmuş nəm döşəkağı ilə döyüb işgəncə verirdilər. Cuvarlinski küt ağrılara dözməyib yıxılır, yenidən təpik və yumruqla onu ayağa qaldırıb vururdular. Bütün bunlar təhqir xarakteri daşıyırdı. Sonra isə bunu əyləncə məqsədilə edirdilər. Verilən işgəncələr nəticəsində Cuvarlinski tam taqətdən düşürdü, yarışüurlu vəziyyətdə, özünə heç bir hesabat vermədən istənilən sənədə, ifadəyə qol çəkirdi».

Belə amansız münasibət minlərlə azərbaycanlı ziyalının başına gətirilirdi. H.Zeynallı, B.Çobanzadə, Y.V.Çəmənzəminli, B.Həsənbəyov, H.Biləndərli, M.Hüseynov, R.Axundov, A.Tağızadə, T.Salahov, İ.Eminbəyli və başqaları erməni müstəntiqləri tərəfindən ən ağır işgəncələrə məruz qalmışlar.

...Azərbaycan Milli Diviziyasının komandiri olmuş Qambay Vəzirovun işini Azərbaycan XDİK DTİ-nin 5-ci şöbəsinin keçmiş rəisi, qatı millətçi Avanesyan aparırdı. Şahidlərin etirafına görə, Qambay Vəzirovu dindirmələr zamanı vəhşicəsinə döyürmüşlər. Avanesyan şəxsən özü şöbə əməkdaşlarının yanında şallaqla zərbələr endirərək tələb edirmiş ki, o özünün əksinqilabi-millətçi mərkəzdə iştirakı haqqında ifadə versin.

...Vaxtilə Teatr Muzeyinin direktoru vəzifəsində çalışan Qasım Vahabzadə də repressiya dövründə erməni vəhşiliyini öz taleyində yaşamış, ömrünün 18 ilini Sibir çöllərində sürgündə keçirmiş dəyərli ziyalılarımızdan idi. Onu Azərbaycan Dövlət Universitetinin professoru Bəkir Çobanzadənin tələbələr arasında guya pantürkist ideyaları yaydığını iddia edən sənədə imza atmadığına görə tutmuşdular. İşi NKVD-nin Azərbaycan ziyalılarına qarşı minlərlə repressiya faktında adı keçən Qriqoryan familiyalı əməkdaşı aparırdı. Qasım Vahabzadə yaşının ixtiyar çağlarında xatırlayırdı: «Mən işgəncənin, qəddarlığın, amansız döyülmənin insanın mənliyini, iradəsini almaq qüdrətində olduğunu bəlkə də

təsəvvürümə gətirə bilərdim. Amma bu, nəsə başqa idi. ...Beynimdə yalnız «imza atmayacağam» sözləri dolaşırdı. Qriqoryan psixoloq idi. Məni diqqətlə süzəndən sonra nə hisslər keçirdiyimi anladı. Sakit buraxdılar məni. Bir neçə saatdan sonra iki nəfər idbar, bədheybət adam gəldi. Erməni idilər. Qriqoryan mənə yaxınlaşıb sakitcə dedi:

– Evdən adam gəlib yanına. Arvadın mənim kabinetimdədir. Gəlib səni evə aparsın. Əvvəl bura qol çək.

Halsız idim. Həmin iki nəfərin yenə məni döyəcəklərini düşündüyümdən beynimdə yenidən eyni sözlər dolanmağa başladı: «Qol çəkməyəcəyəm».

İmzaların uzun siyahısına baxıb başımı yellədim. Onda Qriqoryan iki nəfəri mənə göstərib gülümsündü. Kameradan çıxdı. Bir neçə dəqiqədən sonra gənc xanımımla qayıtdı. Onunla, tələbə yoldaşımla təzəcə evlənmişdim. İndi görəcəyim həyatımın ən ağır epizodu olacaqdı. Qriqoryan əyilib gözlərimin içinə baxdı. Xeyli baxandan sonra pıçıldadı:

– ...Bəlkə qol çəkəsən?

Kağızı yenə gözlərimin qarşısına gətirdi.

Bəkir Çobanzadənin xarici kəşfiyyatla bağlı fəaliyyəti haqqında sənədin altında filologiya fakültəsinin tələbələrinin imzasından ibarət uzun siyahıya mənim də imzam əlavə olundu».

Həmin dövrdə Qərbi Azərbaycanda da amansız təqiblər həyata keçirilirdi. Repressiyadan canını qurtarıb İran və Türkiyəyə qaçan mühacirlərin verdikləri məlumatlar Türkiyədə və Almaniyada çıxan bir sıra məcmuələrdə öz əksini tapmışdır. Həmin məcmuələrdə 30-cu illərdə erməni zülmü nəticəsində Vedibasarda, Zəngibasarda və Qəmərlidə baş vermiş və müəyyən motivləri bizlərə Fərman Kərimzadənin ssenarisi əsasında çəkilmiş «Axırıncı aşırım» filmindən tanış olan kəndli üsyanlarından bəhs edilirdi.

O zaman Zaqafqaziya Seyminin xüsusi komissiyası İrəvan vilayətində 200-dən artıq türk kəndinin məhv edilmiş olduğunu təsbit etmişdi. 30-cu illərdə Vedibasarın, Zəngibasarın,

Qəmərlinin, Dərələyəzin, Ağbabanın və digər bölgələrin 50 000-dən artıq azərbaycanlı əhalisi ailəliklə Qazaxıstan çöllərinə sürgün olunmuşdu. Sərt iqlim və bərbad mənzil şəraitinə uyğunlaşa bilməyən əhalinin əksəriyyəti həyatına vida etmişdi. Sürgün müddəti qurtardıqdan sonra öz evlərinə qayıtmaq istəyən ailələrin çoxunu yaşadıqları rayonun Türkiyə ilə sərhəd olması bəhanəsi ilə Ermənistana buraxmamışdılar. Onlar ya geri qayıtmış, ya da Azərbaycan və Gürcüstanda sığınacaq tapmışdılar. Hazırda Qazaxıstanda yaşayan soydaşlarımızın əksəriyyətini 30-cu illərdə Ermənistandan sürgün edilmiş ailələrin övladları təşkil edir.

Bütün bunlar hələ ötən əsrin 40-cı illərinin sonlarında indiki Ermənistan ərazisindən azərbaycanlıların kütləvi deportasiyası başlanana qədər ermənilər tərəfindən aparılmış etnik təmizləmənin müəyyən hissəsi idi.

Dağlıq Qarabağ Muxtar Vilayətində də Baş Siyasi İdarənin ermənilərdən ibarət «üçlük»ləri fəaliyyət göstərirdi. Onlar Qarabağa və ətraf rayonlara (xüsusən Ermənistanla həmsərhəd rayonlara) daxil olan azərbaycanlı kəndlərinə də nəzarət edirdilər. 1920-ci illərin sonlarından başlayaraq Xankəndidə fəaliyyətdə olan xüsusi «üçlüy»ə yalnız ermənilər daxil idi. Onların özbaşına hərəkəti və təqibləri nəticəsində Qarabağın azərbaycanlı kəndlərinin sayı getdikcə azalırdı. Hər kənddən xüsusi siyahılarla 10-15 kişi güllələnirdi. Azərbaycanlıların əmlakları müsadirə edilir, ailələri sürgün olunurdu. Elə o vaxtlardan Qarabağın azərbaycanlı kənd və obalarının sakinlərinin sayı getdikcə azalıb yerlərini ermənilər tuturdu.

Bakıda rəhbərliyi ələ keçirmiş erməni-daşnak qrupu ilə Ermənistanın partiya rəhbərliyi, vaxtilə Şaumyanla Andronikin etdiyi kimi, əlbir hərəkət edirdi. Stalinə və Beriyaya arxalanaraq Azərbaycanda istədiyini edən erməni-daşnak güruhunun fitvası ilə bu dövrdə Şimali Azərbaycanda, xüsusilə Bakıda yaşayan minlərlə cənubi azərbaycanlı soydaşımız zorla İrana qaytarıldı. Onların böyük qismi şah zülmündən Arazın bu

tayına pənah gətirənlər idi və zorla geri qaytarıldıqdan sonra həmin insanların ömrü qırıldı.

O illərdə müəyyən vəzifələrə irəli çəkilmiş Azərbaycan övladlarının min bir iftira ilə ləkələnib, gözdən salınıb repressiya maşınının cənginə itələnməsi də ermənilərin ən çox istifadə etdikləri metod idi.

1953-cü il martın 5-də Stalin vəfat etdi. Onun ölümü faciələrlə zəngin böyük bir mərhələyə son qoydu. M.Bağırov və onun silahdaşları Stalinin ölümündən sonra həbs edildilər. Markaryan, Qriqoryan, Borşev, Yemelyanovun cinayət işi üzrə ittihamnamələrdə deyilirdi ki, 1953-cü il dekabrın 23-də SSRİ Ali Məhkəməsinin qərarı ilə «vətənə xəyanət və digər ağır dövlət cinayətləri törətdiklərinə görə Beriya və onun yaratdığı xəyanətkar qrupun üzvləri ən ağır cəzaya – güllələnməyə məhkum edilsinlər».

Günahsız adamların istintaq işinin saxtalaşdırılması, onlara qarşı yalançı əksinqilabi fəaliyyət barədə ittihamın irəli sürülməsi yolu ilə L.Beriyanın sui-qəsdçi qrupu Azərbaycanın bir çox ziyalı nümayəndələrini terrorçuluqla məhv etmişdi. Beriya və onun erməni əlaltıları qorxu, xof yaratmaq, namuslu adamlar arasında şübhə, inamsızlıq toxumu səpmək, milli zəmində düşmənçilik törətmək, onları ifşa edə biləcək insanları aradan götürmək yolu ilə törətdikləri cinayətlərin məsuliyyətindən yaxalarını qurtara bilmədilər. Stalin repressiyaları nəhəng bir ölkənin xalqına qarşı yönəlsə də, onun ən ağrılı nəticələrini məhz Azərbaycan öz üzərində hiss etmişdi. Qəddar düşmənlərimizin əli 80 000 azəri övladının qanına bulaşmışdı.

Vaxtilə on minlərlə günahsız insanı vətənə xəyanətdə, sovet dövlətinə qarşı üsyan hazırlamaqda, dövlət çevrilişinə cəhddə, əksinqilabi fəaliyyətdə ittiham edənlər özləri eyni ittihamlarla müttəhimlər kürsüsündə əyləşdilər. Əlbəttə, bunu tarixin ironiyası da adlandırmaq olar, amma bu, daha çox tarixin intiqamına bənzəyirdi. Çünki həmin qatillər öz qanlı əməlləri ilə zamanın təkərini istədikləri istiqamətə döndərməyə, zamanın özünə hökm etməyə çalışırdılar. Ancaq yanılırdılar.

Hökmü zaman verir! Və «yaddaşın məhkəməsi» deyilən bir anlayış da var. Burada Azərbaycan xalqına dəyən zərbələr, keçmişə saxta don geydirənlər, Stalin epoxası ilə bağlı qanlı həqiqətləri törədənlər mühakimə edilir və süzgəcdən keçirilir. Bu isə başımıza gətirilən faciələrlə dolu keçmişimizi daha dərindən öyrənmək, səhvən əyintilərdən ibrət götürmək üçün çox lazımdır.

Ulu öndər Heydər Əliyev həmişə deyirdi ki, Azərbaycanın tarixini, əsrlər boyu keçdiyi yolu həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrin elm adamlarına, ziyalılarına, respublikamıza maraq göstərənlərə tanıtmaq borcumuzdur. Tarix elmimizin Heydər Əliyev konsepsiyası ölkəmizin şanlı səhifələrini araşdırmağı və təbliğ etməyi qarşıya məqsəd qoyur, eyni zamanda bu tarixin faciəli tərəflərini də olduğu kimi obyektiv şəkildə tətbiq etməyi vacib sayır. Azərbaycan tarixinin «Stalin repressiyası» dönəmi də bu baxımdan istisna deyil.

SİYASİ REPRESSİYA QURBANLARINA BƏRAƏT VERİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

1920-ci il aprelin 28-dən başlayaraq Azərbaycan Respublikası ərazisində insan hüquqlarına zidd qanunlar əsasında totalitar dövlət rejiminin törətdiyi özbaşınalıq, zorakılıq nəticəsində yüz minlərlə günahsız insan öz siyasi əqidəsinə, fəaliyyətinə, başqa cür düşündüyünə və ayrı səbəblərə görə repressiyalara məruz qalmışdır.

Bu qanunun məqsədi Azərbaycan Respublikası ərazisində törədilmiş siyasi repressiyaların qurbanlarına bəraət verilməsi, onların siyasi, sosial və vətəndaşlıq hüquqlarının bərpa edilməsi, mənəvi itkilərinin əvəzinin ödənilməsi, həmçinin özbaşınalığın başqa nəticələrinin aradan qaldırılması üçün hüquqi əsasların müəyyən edilməsidir.

Maddə 1. Siyasi repressiya anlayışı

Bu qanunun məqsədləri üçün siyasi mülahizələrə görə dövlət tərəfindən tətbiq edilən, məhkəmələrin və mühakimə funksiyaları verilmiş başqa orqanların qərarı ilə, yaxud icra hakimiyyəti orqanları və vəzifəli şəxslər, inzibati səlahiyyət verilmiş ictimai təşkilatlar və ya onların orqanları tərəfindən inzibati qaydada icra olunan, həyatdan və ya azadlıqdan məhrumetmə, qeyri-qanuni məcburi müalicə üçün ruhi müalicəxanaya yerləşdirmə, ölkədən çıxarma və vətəndaşlıqdan məhrumetmə, əhali qruplarını yaşayış yerindən çıxarma, sürgünetmə, köçürtmə və xüsusi məskənə göndərmə, azadlığın məhdudlaşdırılması şəraitində məcburi əməyə cəlbetmə şəklində müxtəlif məcburiyyət tədbirləri, habelə sinfi, sosial, milli, dini və ya sair əlamətlərə görə dövlət və ya siyasi quruluş üçün sosial təhlükə sayılan şəxslərin hüquq və azadlıqlardan başqa cür məhrum edilməsi və ya bunların məhdudlaşdırılması siyasi repressiya hesab olunur.

Maddə 2. Siyasi repressiya qurbanları

Siyasi repressiya qurbanları bu qanunun 1-ci maddəsində göstərilən siyasi repressiya növlərinə məruz qalmış şəxslər, onların ailə üzvləri, o cümlədən öz valideynləri və ya qohumları ilə birlikdə repressiyanın icra edilməsi (sürgünün, köçürtmənin, cəzanın çəkilməsi) yerlərində olan şəxslər, repressiyanın icra edilməsi yerlərində anadan olmuş uşaqlar, həmçinin siyasi repressiya kimi ölüm cəzasına məhkum edilmiş şəxslərin uşaqlarıdır.

Maddə 3. Qanunun tətbiq sahəsi

Bu qanunun bəraət verilməsi qaydasına aid hissəsi yaşayış yerindən asılı olmayaraq, 1920-ci il aprelin 28-dən 1991-ci il oktyabrın 18-dək olan dövrdə Azərbaycan Respublikası ərazisində siyasi repressiyaya məruz qalmış şəxslərə şamil edilir.

Azərbaycan Respublikası göstərilən dövrdə SSRİ-nin tərkibinə daxil olan başqa respublikaların ərazisində repressiyaya məruz qalmış Azərbaycan Respublikası vətəndaşlarına bəraət almaqda kömək göstərir.

Maddə 4. Bəraət hüququ olmayan şəxslər

Qanuni və əsaslı surətdə məhkum edilmiş aşağıdakı şəxslərə bəraət verilmir:

1941-1945-ci illərin müharibəsində faşist qəsbkarları ilə əməkdaşlıq edənlərə;

ədalət mühakiməsi əleyhinə cinayət və hərbi cinayət törədənlərə;

siyasi repressiya törədilməsində iştirak edənlər və sonradan özləri repressiyalara məruz qalan şəxslərə;

qətllər, soyğunçuluq və başqa zorakı hərəkətlər törədən bandaların təşkilatçılarına, habelə bu cür bandaların tərkibində bu kimi əməllərin törədilməsində şəxsən iştirak edənlərə.

Maddə 5. Bəraət haqqında vəsatətlərə baxılması

Bəraət verilməsinə dair ərizələri siyasi repressiyaya məruz qalmış şəxslər, başqa maraqlı şəxslər, yaxud ictimai təşkilatlar verə bilərlər.

Ərizələrə Azərbaycan Respublikası Prokurorluğunda qanunla müəyyən edilmiş müddətdə baxılır.

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikası Daxili İşlər Nazirliyini və Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyini cəlb etməklə siyasi repressiyaya məruz qalmış şəxslərin işlərini yoxlayır və yoxlamanın nəticələrinə əsasən məhkəmədən kənar tətbiq edilmiş repressiya ilə bağlı bəraət məsələsinə dair (müsbət və ya mənfi həlli barədə) rəy verir.

Azərbaycan Respublikası Prokurorluğunun bəraət verilməkdən imtina edilməsi haqqında rəyindən Azərbaycan Respublikasının Ali Məhkəməsinə şikayət edilə bilər.

Azərbaycan Respublikası (Azərbaycan SSR) məhkəmələri tərəfindən məhkum edilmiş siyasi repressiyaya məruz qalmış şəxslərin işləri Azərbaycan Respublikası Prokurorluğunun protesti ilə birlikdə Azərbaycan Respublikasının Ali Məhkəməsinə göndərilir. Azərbaycan Respublikasının Ali Məhkəməsi siyasi repressiyaya məruz qalmış şəxslərin işlərinə və verilmiş şikayətlərə bir ay müddətində baxmalıdır.

Maddə 6. Siyasi repressiya faktının məhkəmə qaydasında müəyyənləşdirilməsi

Siyasi repressiya haqqında arxiv materialları olmadıqda, siyasi repressiya faktı şahid ifadələrinə əsasən məhkəmə qaydasında müəyyənləşdirilir.

Maddə 7. Əvvəllər bəraət verilmiş şəxslərin hüquqları

Siyasi repressiya ilə bağlı bəraət verilməsi haqqında səlahiyyətli orqanların qəbul etdikləri qərar bu qanun qüvvəyə mindikdən sonra da qüvvədə qalır. Bəraət verilmiş belə şəxslər bu qanunda nəzərdə tutulmuş hüquqlardan və güzəştlərdən istifadə edirlər.

Maddə 8. Siyasi repressiya materialları

Bəraət verilmiş şəxslərin və onların varislərinin işlərdə qorunub saxlanılan əlyazmaları, fotoşəkilləri və başqa şəxsi sənədləri almaq hüququ vardır.

Repressiya ilə bağlı işləri arxivdə saxlayan orqanlar və vəzifəli şəxslər bəraət almış şəxsin öldüyü vaxtı, ölümünün səbəbini, həmçinin dəfn edildiyi yeri ərizəçilərin xahişi ilə onlara bildirməlidirlər.

Maddə 9. Bəraət verilmiş şəxslərin hüquqlarının bərpası

Bəraət verilmiş şəxslərin siyasi repressiya ilə əlaqədar dövlət mükafatından, elmi dərəcədən, hərbi rütbədən, pensiyadan və başqa hüquqlardan məhrum edilməsi haqqında qərarlar qüvvədən düşmüş sayılır.

Bu qanunun 3-cü maddəsində göstərilən dövrdə Azərbaycan Respublikası ərazisindən sürgün edilmiş şəxslərin Azərbaycan Respublikası ərazisində yenidən məskunlaşması üçün zəruri tədbirlər dövlət tərəfindən görülür.

Maddə 10. Pensiya təyin edilərkən əmək stajının hesablanması

Əmək pensiyası hesablanarkən bəraət verilmiş şəxslərin əmək stajı «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hesablanır.

Əmək stajının hesablanması 16 yaşından başlanır.

Maddə 11. Dövlət rüsumunun ödənilməsindən azad edilmə

Siyasi repressiya qurbanlarına bəraət verilməsi ilə əlaqədar məhkəmə sənədlərinin hazırlanması, surətlərin çıxarılması üçün dövlət rüsumu və məhkəmə xərcləri tutulmur.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV
Bakı şəhəri, 15 mart 1996-cı il



KÜLƏK YARADANLAR TUFANA DÜŞDÜLƏR

İosif Vissarionoviç Cuqaşvili

İosif Stalin

Milliyyətcə gürcü olan İosif Vissarionoviç Stalin 1879-cu il dekabrın 21-də Gürcüstanın Qori şəhərində anadan olmuşdur. Stalinin həqiqi soyadı – İosif Vissarionoviç Cuqaşvili (onun və atasının adı gürcü dilində İoseb və Besarion kimi tələffüz olunur), qısaldılmış formada isə Sosodur. İnqilaba qədər Cuqaşvili çoxlu təxəllüs və partiya ləqəblərindən istifadə etmişdir: əsasən Besoşvili (Beso – «Vissarion» ləqəbinin qısaldılmış forması), Nijeradze, Çijikov, İvanoviç. Bu ləqəblər arasında (Stalini çıxmaq şərtilə) ən məşhuru gürcü folklorundan çıxan «Koba» olmuşdur. Stalini sonralar da qoca bolşeviklər «Koba» ləqəbi ilə çağırarmışlar, müharibəyə qədər hətta Voroşilov da ona bu cür müraciət edərmiş.

1941-1945-ci illər müharibəsində ona «yoldaş Stalin» deyərmişlər.

1953-cü il martın 5-də 73 yaşında Moskvada vəfat etmişdir.

Ailədə üçüncü uşaq olmuşdur, iki ilkinlər uşaqlıqda ölmüşdür. Doğma dili gürcü dili olmuş, rus dilini sonra öyrənmişdir, lakin həmişə hissolunacaq gürcü ləhcəsi ilə danışmışdır.

Lenin və Stalin

Kasıb çəkməçinin və kəndli qızının ailəsində böyümüşdür. İosifin 11 yaşı olanda atası vəfat etmişdir. O, 1888-ci ildə Qoridə möhkəm nizam-intizamın hökm sürdüyü kilsəyə, 1894-cü ildə isə Tbilisidə seminariyaya daxil olur. Lakin buranı bitirə bilməyib oradan qovulur (rəsmi versiyaya görə, marksizmin təşviqatına görə). Daim lider olmağa çalışmış və yaxşı oxumuşdur, anasının istəyi ilə karyerasını kilsədə qurmaq istəyir. Təhsil illərində seminariyada gürcü dilində şeir yazmışdır. Onun şeirlərindən bir neçəsi inqilabdan əvvəl nəşr olunmuş şeirlər toplusunda olmuşdur: 1949-cu ildə Stalinin 70 illiyinə onun rus dilində şeirlərindən ibarət kitabı hazırlanırdı (gürcü dilindən tərcüməyə böyük mütəxəssislər, əsasən Arseni Tarkovski cəlb olunmuşdu), lakin kitab nədənsə nəşr olunmadı.

İosif 1901-1902-ci illərdə RSFSR-in Tbilisi və Batumi komitələrinin üzvü seçilmiş, RSFSR-in II qurultayından (1903) sonra artıq bolşevizmin fəal iştirakçısı olmuş, dəfələrlə həbs edilmiş, sürgün olunmuş və sürgündən qaçmışdır. 1905-1907-ci illərdə Birinci rus inqilabının iştirakçısı, 1907-1908-ci illərdə RSFSR-in Bakı komitəsinin üzvü, RSFSR-in 6-cı Ümumrusiya konfransından (1912) sonra MK-nın plenumunda MK-nın və RSFSR MK-nın rus bürosuna seçkisiz qəbul olunmuşdur.

1907-ci il iyunun 25-də bolşeviklərin pula ehtiyacını ödəmək üçün inkassator faytonuna hücum təşkil etmişdir.

O, 1917-ci il fevral inqilabından sonra Petroqrada qayıdır. Lenin mühacirətdə olarkən MK-ya və bolşevik partiyasının Peterburq komitəsinə rəhbərlik edir. 1917-ci ildən «Pravda» («Həqiqət») qəzetinin redaksiya heyətinin, Bolşevik Partiyası

MK-nın Siyasi Bürosunun, Hərbi-İnqilabi Mərkəzin üzvü olur. Leninin məcburi gedişi səbəbi ilə əlaqədar olaraq gizli şəraitdə keçirilmiş RSDF(b)P-nin VI qurultayında Stalin MK-da hesabat məruzəsi ilə çıxış edir. Oktyabr silahlı üsyanında fəallıq göstərir. 1917-ci il Oktyabr inqilabından sonra Xalq Komissarları Sovetinə millətçilik üzrə xalq komissarı kimi daxil olur.

Müvəqqəti hökumətə və onun siyasətinə mövqeyindən belə çıxır ki, demokratik inqilab hələ qurtarmayıb və hökumətin devrilməsi praktiki məqsəd deyil.

Rusiyada vətəndaş müharibəsi başlayandan sonra Stalin Rusiyanın cənubuna Şimali Qafqazdan çörəyin hazırlanıb sənaye mərkəzlərinə çatdırılması üçün ÜMİK-in (ВЦИК) fövqəladə səlahiyyətli nümayəndəsi kimi göndərilir. 1918-ci il iyunun 6-da Sarıtsına çatan Stalin şəhərdə nizam yaradır, Moskvaya ərzaq çatdırılmasını təmin edir, daha sonra isə Sarıtsını Krasnovun dəstələrindən müdafiəyə hazırlayır. K.E.Voroşilovla birlikdə onlar Sarıtsının müdafiəsini təmin edib Krasnovun və Dutovun ordu hissələrinin birləşməsinin qarşısını alırlar.

1918-ci ilin dekabrında admiral Kolçakın Sibirə hücumu başlayır. O, şimaldan hücuma keçmiş ingilislər və ağqvardiyaçılarla birləşməyi planlaşdırırdı. Yaranmış fövqəladə, həm də ciddi vəziyyəti aradan qaldırmağı Lenin Stalinə tapşırır. Stalin Dzerjinski ilə birlikdə Perm altındakı vəziyyəti tez və qətiyyətlə bərpa edir.

1922-ci ilin aprelində RK(b)P MK-nın plenumunda Stalin MK-nın birinci katibi seçilir. Əvvəllər bu vəzifə yalnız partiya aparatına rəhbərlik demək idi, partiyanın lideri və dövlətə rəhbərlik isə formal da olsa Xalq Komissarları Sovetinin sədri V.İ.Lenində qalmaqda idi.

Lenin Stalinin təşkilatçılıq qabiliyyətini, biliyini, təcrübəsini, milli və digər kəskin siyasi problemləri həll edə bilməsi bacarığını yüksək qiymətləndirirdi. Onların arasında şəxsi və prinsipial mübahisələr də olurdu. Lakin bu hallar heç bir şəkildə siyasi ziddiyyətə gətirib çıxarmamışdı. Buna baxmayaraq, Lenin Stalini kobudluqda çox kəskin surətdə ittiham edirdi. Onun fikrincə, Stalinin bu keyfiyyəti birinci katib vəzifəsində

olan şəxs üçün deyil, bu hal partiya rəhbərliyinin parçalanmasına gətirib çıxara bilər.

Lenin «Qurultaya məktub»unda qeyd edirdi ki, Stalin çox kobuddur və onu birinci katib vəzifəsindən çıxarmaq lazımdır. Stalinin işçi kimi keyfiyyətlərini nəzərə alan partiya rəhbərləri bunu etmədilər. Leninin vəfatından sonra Stalin Siyasi Buronun iki ən nüfuzlu üzvləri L.B.Kamenev və Q.E.Zinovyevlə birləşib «üçlük» formalaşdırdı. Birlikdə onlar L.D.Trotski və onun tərəfdarlarını məğlub etdilər.

1930-cu illərin əvvəlindən etibarən kənd təsərrüfatının mərkəzləşmiş kolxozlarda birləşdirlməsi – təsərrüfatın məcburi kollektivləşdirilməsi aparılır. Torpağa hüququn ləğv edilməsi «siniflər məsələsi»nin həllinin nəticəsi idi. Həmçinin ozamankı iqtisadi düşüncələrə əsasən iri kolxozlar texnikanın birləşdirilməsi və əməyin bölüşdürülməsi hesabına daha effektiv işləyə bilərdi. QULAQ adlanan ozamankı kəndlilər kollektivləşməyə qarşı çıxıb-çıxmadıqlarından asılı olmayaraq, məhkəməsiz, istintaqsız əmək düşərgələrində işlədilir və ya Sibirin və Şərqin ucqar hissələrinə göndərilirdilər.

Stalinin yeritdiyi sənayeləşdirmə buğda və digər məhsulların xaricə ixracından əldə olunan böyük vəsaitlər və avadanlıqlar tələb edirdi. Kolxozlar üçün dövlətə veriləcək böyük miqdarda kənd təsərrüfatı məhsulları planı qoyulmuşdu. Bəzi tarixçilərin fikrincə, məhz bu planlar 1932-1933-cü illərdə baş vermiş kütləvi aclıqlara gətirib çıxarmışdı.

Sənayeləşmənin məcburiyyət qarşısında ağır sənayenin baza sahələrindən inkişafa başlaması bazarları kəndə lazımi məhsullarla təmin edə bilmədi.

Şəhərlərin normal məhsul təchizatı pozuldu, təsərrüfat malları vergisi natura şəklində idi, 1924-cü ildə isə pulla əvəzləndi. Çıxılmaz vəziyyət yaranmışdı: balansın bərpası üçün sənayeləşməni sürətləndirmək lazım idi, sənayenin sürətli inkişafı üçün kənddən gələn məhsulların, eksporta gedəcək malların və işçi qüvvəsinin miqdarı artmalı idi, bunun üçün isə çörək istehsalı və onun əmtəəliyi artırılmalı idi və kəndlərdə

ağır sənaye məhsullarına (maşınlara, dəzgahlara) ehtiyac yaratmaq lazım idi.

Bu çətinliyi aradan qaldırmaq isə yalnız kənd təsərrüfatının radikal modernləşməsindən sonra həll oluna bilərdi. Nəzəri olaraq bunu üç yolla etmək olardı. Birinci – «Stolıpin islahatları»nı yeni formada davam etdirmək, QULAQ-ların artan gücünü dəstəkləmək, kəndlilərin iri fermerlərə və proletariata təbəqələşməsi, kəndin əsas vəsaitini onların xeyrinə yönəltmək. İkinci – kapitalist təsərrüfatının mənbələrini (QULAQ-ları) ortadan qaldırmaq və iri mexanikləşdirilmiş kollektiv təsərrüfatların yaradılması. Üçüncü yol – fərdi kəndli təsərrüfatlarını tədricən inkişaf etdirmək və onları «təbii» tempdə birləşdirmək – bu yol, bütün hesablara görə, çox gec baş verəcəkdi. 1927-ci ildə çörək istehsalı dayandırılandan sonra qəti addımlar atmaq lazım gəldi (sabit qiymətlər, qapalı bazar və hətta repressiyalar) və artıq 1928-1929-cu illərdə baş vermiş növbəti çörək qıtlığı bu problemin tezliklə həllini labüd etdi.

1929-cu ildə tədarük zamanı görülmüş fövqəladə tədbirlər artıq qeyri-normal hal kimi qəbul edildi və 1 300-ə qədər qiyama gətirdi. 1929-cu ildə artıq bütün şəhərlərdə (1928-ci ildə yalnız bəzi şəhərlərdə) çörəyə kartoçka tətbiq edildi.

Kəndlərdə fermerliyi kəndliləri təbəqələrə bölməklə yaratmaq Sovetlərin ideoloji prinsiplərinə uyğun deyildi. Kollektivləşmə kursu götürüldü. Bu da QULAQ-ların bir sinif kimi məhvinə səbəb oldu.

İkinci mühüm sual – sənayeləşmə üsulunun seçilməsi idi. Bu məsələnin müzakirəsi çətin və uzun çəkdi, müzakirənin nəticəsi isə dövlətin və cəmiyyətin gələcək taleyini müəyyənləşdirdi. Əsrin əvvəllərindəki Rusiyadan fərqli olaraq, xarici investorlar mühüm maliyyə mənbəyi kimi SSRİ-də yox idi və SSRİ sənayeləşməni yalnız və yalnız öz daxili resursları hesabına inkişaf etdirə bilərdi. Nüfuzlu qruplar (Siyasi Büronun üzvü N.İ.Buxarin, Xalq Komissarları Sovetinin sədri A.İ.Rıkov və ÜMPİS-in (ВЦСПС) sədri M.P.Tomski) Yeni İqtisadi Siyasət (YİS) sayəsində vəsaitin toplanması və inkişafın «amanverici» üsuluna, İ.V.Stalin isə sürətləndirilmiş üsula tərəfdar idilər. Stalinin nöqteyi-nəzəri qalib gəldi.

Tehran konfransı: Stalin, Ruzvelt, Çörçill

1938-ci ildə Qərb ölkələrinin Çexoslovakiyanı onun zəngin sənaye potensialı ilə birlikdə Hitlerə bağışlayıb imzaladıqları «Münhen sövdələşməsi»nə cavab olaraq 1939-cu ilin 23 avqustunda Stalin Adolf Hitlerlə «hücumetməmə paktı» imzaladı. Molotov–Ribbentrop paktının gizli əlavələrində (yalnız XX əsrin sonlarında nəşr olunub) SSRİ və Almaniya öz aralarında Şərqi Avropanı nüfuz dairələrinə bölməyi razılaşdırmışdılar. Nəticədə paktın imzalanmasının bütün «günahı» antinasist cəbhəsi yaratmaq istəməyən və Almaniyanı «sakitləşdirmək» siyasəti yürüdən Qərb ölkələrinin boynuna qoyuldu.

Bu pakt Hitleri öncə İngiltərəyə hücum etməklə iki cəbhədə döyüşməyə məcbur etdi. Beləliklə, müttəfiqlər SSRİ-yə kömək etməyə məcbur oldular. Lakin tarixçi Dmitri Volkoqonovun fikrincə, pakt müdafiəedici olmaqdan daha çox hücumedici idi, Robert Konkvest isə düşünür ki, Stalinin və Hitlerin rəhbər olduqları rejimlərin bir-biri ilə yaxın olması paktın bağlanması üçün əsas səbəbdir. Paktın iqtisadi cəhətlərindən də yan keçmək olmaz. Sovet rəhbərliyinin əsas şərti SSRİ-yə kredit verilməsi idi.

Müharibədən öncə potensial düşməndən kredit götürmək – unikal tarixi hadisədir, lakin Stalin bunu bacardı. Nəticədə SSRİ 7 il müddətinə 4,5%-lə 200 mln. alman markası aldı. Bu vəsait investisiya məqsədi üçün istifadə olundu: Almaniyadan avadanlıq, maşın və dəzgahlar alındı, bu avadanlıqların böyük hissəsi sonda Almaniyaya qarşı döyüşdə istifadə olundu.

Sentyabrın 1-də – paktın imzalanmasından düz bir həftə sonra Hitler Polşaya qərbdən hücum etdi. 17 sentyabrda Sovet İttifaqı ukraynalıları və belorusları müdafiə bəhanəsi ilə Polşanın şimalına girdi və ölkənin şərq hissəsini tutdu (indiki Qərbi Ukrayna və Qərbi Belorus). O da deyilməlidir ki, hücum zamanı Polşa və Sovet İttifaqı arasında hücumetməmə haqqında pakt mövcud idi. Elə həmin il SSRİ və Latviya, Litva və Estoniya arasında əldə edilmiş razılığa əsasən bu ölkələrə Sovet ordusunun azsaylı kontingenti yeridildi (1940-cı ildə bu ölkələr öz parlamentlərinin qərarı ilə SSRİ-yə qoşuldular). Az sonra Sovet İttifaqı sovet-rumın razılaşması əsasında Bessarabiyanı tutdu, belə ki, Rumıniya 1918-ci ilin aprelində onu birtərəfli surətdə özünə birləşdirmişdi (1918-ci ildə RSFSR ilə imzalanmış müqaviləni pozaraq). Bu ərazi Moldova SSR elan edildi. Bu yerlərin əhalisinin bir qismi beynəlxalq münasibətlərin kəskinləşməsi ucbatından mərkəzi rayonlara köçürüldü.

1941-ci ilin mayında Stalin öz üzərinə Xalq Komissarları Sovetinin sədri məsuliyyətini götürdü.

1941-ci il iyunun 22-də Üçüncü Reyx Sovet İttifaqına təcavüz etdi. SSRİ üçün Böyük Vətən müharibəsi başladı. Bəzi tarixçilərin fikrincə, Stalin faşist Almaniyasının tezliklə hücum edəcəyi haqqında casus məlumatlarına haqsız olaraq etinasız yanaşmışdır. Digərləri isə düşünür ki, bu haqda məlumat kifayət qədər deyildi və Stalinin əlində əsas var idi ki, bu məlumatları dezinformasiya hesab etsin (bəzi tarixçilər almanların SSRİ-yə hücumunun gözlənilməzliyini yaponların Perl-Harbora hücumu ilə müqayisə edirlər). Hər halda hücum zamanı Sovet ordusunun dislokasiyası sərhədlər qərbə çəkildiyi üçün zəif idi, qüvvələr sərhəddə zəif konsentrasiyada və müdafiəyə tam hazırsız vəziyyətdə idi. Məhz bu şərtlər,

həmçinin şəxsi heyətin elə də yüksək olmayan hazırlığı və pis idarəolunma müharibənin ilk mərhələsində Hitlerə SSRİ üzərində üstünlük qazandırdı və o, qısa müddətdə sovet müdafiəsini yarıb Sovet ordusunun nəzərəçarpacaq qüvvələrini əhatəyə alıb məhv edə bildi, həmçinin Belorusiyanı, Baltikyanını, Ukraynanı və RSFSR-in qərb hissələrini tutdu.

Bir neçə aydan sonra Sovet ordusu öz müdafiəsini təmin etdi və 1941-ci ilin qışında almanları Moskva yaxınlığında dayandırdı. O zamana kimi artıq sənaye müəssisələri Şərqə köçürülmüşdü. 1937-ci il «təmizləmə»sinin qurbanları əvəzinə yeni nəsil hərbçiləri özünü büruzə verdi – Jukov, Konev, Vasilevski və həbsdən azad olunmuş 1937-ci il «təmizləmə»sinin qurbanı – Rokossovski.

Müharibə başlayan kimi Stalin Dövlət Müdafiə Komitəsinin sədri, müdafiə xalq komissarı və SSRİ Hərbi Qüvvələrinin ali baş komandanı oldu. 16 avqust 1941-ci il tarixli ali baş komandanın qərargahının 270 saylı əmrində deyilirdi: «Döyüş zamanı üzərlərindən fərqlənmə nişanlarını çıxarmış və düşmən tərəfə keçmiş və ya onlara əsir düşmüş komandir və siyasi işçilər qatı dezertir hesab olunsunlar, onların ailələri isə hərbi andı pozmuş və vətəni satmış dezertirlərin ailəsi kimi həbsə məhkum edilsin». Mühasirədən çıxmış və ya əsirlikdən qayıtmış sovet əsgərləri filtrasiya düşərgələrinə düşür, bundan sonra isə böyük əksəriyyəti yenidən orduya qayıdırdı. Müharibədən sonra alman düşərgələrindən azad olmuş bütün sovet əsgərləri XDİK-in yoxlanışından keçirdilər. Onların bir hissəsi SSRİ-də həbs və məhkum olunmuşdu.

Müharibənin başlanğıcında Povoljye almanları Sibirə və Mərkəzi Asiyaya köçürüldü, 1944-cü ildə isə Krım tatarları və bəzi Qafqaz xalqları da (həmçinin Axıska türkləri) öz yerlərindən deportasiyaya məruz qaldılar.

Aralarında ideoloji nifrət olmasına baxmayaraq, SSRİ, Böyük Britaniya və ABŞ rəhbərləri antihitler koalisiyası yarada bildilər və 1944-cü ildə ikinci cəbhə açıldı. Bir neçə dəfə keçirilmiş yüksəksəviyyəli görüşlərdə Stalin özünü bacarıqlı və qətiyyətli diplomat kimi göstərdi.

Müharibə zamanı Stalin «Sovet İttifaqı Qəhrəmanı» adına layiq görülüb, iki dəfə «Qələbə» və I dərəcəli «Suvorov» ordenləri ilə təltif olunub. 6 mart 1943-cü ildə Stalin Sovet İttifaqı marşalı rütbəsi, 27 iyun 1945-ci ildə isə məxsusi daxil edilmiş Sovet İttifaqı generalissimusu rütbəsi verildi. Hətta müharibə qurtardıqdan sonra da Stalin hərbi idarələrə (1946-cı ilin fevralınadək xalq müdafiə komissarı və 1947-ci ilin martına kimi SSRİ Hərbi Qüvvələri naziri) rəhbərlik edib.

Müharibədən sonra ölkə iqtisadiyyatının sürətli inkişafı və qəsdən yandırılmış torpaqların bərpasına başlanıldı. Müharibədən sonrakı quldur özbaşınalığını Stalin qəti tədbirlərlə kökündən kəsdi.

Müharibədən sonra azad edilmiş və daha sonradan Varşava Müqaviləsi Təşkilatını əmələ gətirəcək Şərqi Avropa ölkələrində prostalin kommunist rejimləri quruldu. SSRİ və ABŞ arasında Uzaq Şərqdə baş vermiş münaqişə Koreya müharibəsinə gətirib çıxardı.

1940-cı illərin sonlarında böyük dövlətçilik ideologiyası (kosmopolitizmlə mübarizə) gücləndi. 1950-ci illərin əvvəllərində Şərqi Avropa ölkələrində, daha sonra isə SSRİ-də böyük səs-küyə səbəb olmuş antisemit istiqamətli bir neçə proses baş verdi.

Stalinin göstərişinə əsasən ictimai, xüsusilə də humanitar elmlərdə dərin yenidənqurma həyata keçirildi. Orta və ali məktəblərdə vətən tarixinin tədrisi bərpa olundu.

Elm, texnika və mədəniyyət xadimlərini həvəsləndirmək məqsədilə hər il verilən (1941-ci ildən başlayaraq) Stalin mükafatı təsis edilir. Bu dövrdə elmin inkişafını yüksəliş kimi qiymətləndirmək olar. Fundamental və tətbiqi elmi-tədqiqat institutları şəbəkəsinin, konstruktor bürolarının və ali məktəblərdə laboratoriyaların yaranması hərcəhətli tədqiqatlara imkan yaratdı. Alimlər ölkənin həqiqi elitasına çevrildi. Fiziklərdən Kurçatov, Landau, Tamm, riyaziyyatçılardan Keldış, kosmik texnikanın yaradıcısı Korolyov, aviakonstruktor Tupolevin adları bütün dünyada tanınır. Stalin SSRİ-ni yeni inkişaf mərhələsinə çıxaracaq mütərəqqi elm və texnika

sahələrinə daha çox diqqət ayırırdı. Təkcə 1946-cı ildə şəxsən Stalin özü atom texnikası və elminin inkişafı ilə əlaqədar mühüm əhəmiyyətli 60 sənəd imzalayıb. 1952-ci ildən başlayaraq yerli kompüterlər yaradılmağa başlandı. Bu qərarların nəticəsi təkcə ölkənin nüvə zirehinin yaradılması olmadı, həmçinin dünyada ilk atom-elektrik stansiyası – Obninsk AES tikildi (1954), 1957-ci ildə dünyada ilk atom buzqıran «Lenin» gəmisi suya buraxıldı və energetikanın növbəti inkişafı sürətləndi.

Lakin o da deyilməlidir ki, elmi fəaliyyətin mərkəzi şəkildə idarə olunması dialektik materializmə zidd olan elmi sahələrin inkişafdan qalmasına səbəb oldu. Genetika və kibernetika kimi böyük elmi-tədqiqat sahələri «burjuaziyanın yalançı elmi» elan edildi. Bunun nəticəsi çoxsaylı həbslərə və tanınmış sovet alimlərinin güllələnməsinə cəbəb oldu. Stalinin özünün maraqlı olduğu biologiyada keçəlləşmə, linqvistikada dil haqqında yeni təlim kimi yalançı elmi sahələr Stalin dövründə həqiqətən də dövlət tərəfindən dəstəklənirdi.

Stalin şəxsiyyətinə pərəstiş: Sovet təbliğatı Stalinin ətrafında yarıilahi «böyük rəhbər və müəllim» siması yaratdı. Stalin və onun yaxın ətrafının adları şəhərlərə, zavodlara, kolxozlara, hərbi texnikalara verilirdi. Onun adı Marks, Engels və Leninlə birlikdə çəkilir, haqqında tərifləyici mahnılar bəstələnirdi və hətta SSRİ-nin 1944-cü il himninin mətninə də salınmışdı.

Stalinin şəxsi həyatı və ölümü: 1904-cü ildə Stalin Yekaterina Svanidze ilə evlənir, lakin üç ildən sonra arvadı vərəmdən dünyasını dəyişir. Onların yeganə oğlu Yakovu II Dünya müharibəsi zamanı almanlar əsir alır. Bu haqda yayılmış versiyaların birində, həmçinin İvan Stadnyukun «Müharibə və Qurtuluş» sovet kinosunda almanlar Stalinə onun oğlunu feldmarşal Paulusa dəyişməyi təklif edirlər, buna cavabında isə Stalin deyir: «Mən əsgəri feldmarşala dəyişmirəm». 1943-cü ildə Yakov qaçmağa cəhd edərkən alman hərbi düşərgəsi Zaksenhauzendə güllələnir. Yakov üç dəfə evli olub, Yevgeni adlı oğlu hətta 1990-cı illərin Rusiya siyasətində də iştirak edib (Stalinin nəvəsi An-

pilov blokunun namizədləri sırasında olmuşdur); Cuqaşvililərin bu birbaşa kişi xətti indi də mövcuddur.

1919-cu ildə Stalin ikinci dəfə evlənir. İkinici arvadı ÜK (b) P üzvü Nadejda Alliluyeva olur. O, 1932-ci ildə Kremldəki otağında özünə qəsd edir (rəsmi olaraq isə qəfil ölüm kimi göstərilir). Stalinin ikinci nikahından iki uşağı olur: Svetlena və Vasili. Hərbi hava qüvvələrinin zabiti Vasili Böyük Vətən müharibəsində müxtəlif komandir vəzifələri tutur, müharibədən sonra isə Moskvanın havadan müdafiəsinə (general-leytenant) rəhbərlik edir, Stalinin vəfatından sonra isə həbs olunur. 1960-cı ildə azadlığa çıxdıqdan bir müddət sonra vəfat edir. Stalinin qızı Svetlana Alliluyeva 1967-ci il martın 6-da Dehlidəki Amerika Birləşmiş Ştatları səfirliyindən siyasi sığınacaq istəyir və elə həmin il də ABŞ-a köçür. Stalinin ailəsində 11 yaşına kimi Artyom Sergeyev (vəfat etmiş inqilabçı Fyodr Sergeyevin oğlu – «yoldaş Artyom») də tərbiyə alıb.

Həmçinin mühacirətdə Stalinin nikahdankənar oğlu – Konstantin Kuzakov dünyaya gəlir. Stalin onunla əlaqə saxlamamışdır.

1953-cü il martın 5-də Stalin beyninə qansızmadan vəfat edir. Belə bir versiya da mövcuddur ki, L.Beriya və ya N.Xruşşov ona kömək etməməklə ölümünə səbəb olmuşlar.

1953-cü il martın 5-də böyük insan axını Stalinlə vidalaşmaq istədiyindən basabas yaranır. O zaman həlak olanların dəqiq sayı hələ də məlum deyil, lakin ölən kifayət qədər çox olmuşdu. Həmçinin bir fakt da məlumdur ki, basabasda həlak olanlardan biri 1422 nömrəsi almışdı; nömrələmə yalnız o cəsədlər üçün aparılırdı ki, onları qohumlarının və ya dostlarının köməyi olmadan müəyyən etmək mümkün deyildi.

Stalinin balzamlanmış cəsədi Lenin mavzoleyində ümumxalq nümayişinə qoyulur və həmin mavzoley 1953-1961-ci illərdə «V.İ.Lenin və İ.V.Stalin mavzoleyi» adlanır. 1961-ci il oktyabrın 30-da Sov.İKP-nin XXII qurultayında qərara alınır ki, «Stalinin Lenin vəsiyyətlərini kobud şəkildə pozması ... onun cəsədini mavzoleydə saxlamağı qeyri-mümkün edir». 1961-ci

il oktyabrın 31-dən noyabrın 1-nə keçən gecə Stalinin cəsədi mavzoleydən çıxarılır və Kreml divarında basdırılır. Sonradan məzarın üzərində abidə ucaldılır (büstün müəllifi M.V.Tomski).

Stalin Sosialist Əməyi Qəhrəmanı (1939) və Sovet İttifaqı Qəhrəmanı (1945) fəxri adlarına layiq görülüb. İki «Qələbə» ordeni (1943, 1945), üç «Qırmızı Bayraq», üç Lenin , I dərəcəli Suvorov ordenləri kavaleridir.

Mixail Şoloxov Stalinin şəxsiyyətə pərəstişi haqqında yazırdı: «*Bu, həqiqətdir, pərəstiş var idi, amma şəxsiyyət də var idi*».

İllər ötdükcə Stalin haqqında yeni fikirlər söylənilir, yeni faktlar açıqlanır. Çörçill xatirələrində deyirdi ki, «Sezar və Napoleon kimi, Stalinin də şəxsiyyəti və sirri dünyanı həmişə məşğul edəcək».

1943-cü ildə Stalin öz qeydlərinin birində yazırdı: «Mən bilirəm ki, ölümümdən sonra mənim məzarıma çoxlu sayda zibil atacaqlar, amma tarixin küləyi amansızcasına onları dağıdacaq».

Mircəfər Abbas oğlu Bağırov

Mircəfər Bağırov 1896-cı il sentyabrın 17-də Qubada anadan olmuş, 26 may 1956-cı ildə 60 yaşında vəfat etmişdir. Azərbaycan SSR Kommunist Partiyası MK-nın birinci katibi (1933 – 12 iyul 1953); Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri (oktyabr 1932 – dekabr 1933; aprel-iyul 1953); general-polkovnik idi.

Atası Mirabbas, anası Yaxşı xanım. Mircəfər ailənin ən kiçik uşağı idi. İki bacısı olub. Özündən böyük bacısı Seyid Məsumə 1883-cü ildə anadan olub.

Mircəfər Bağırovun iki övladı olub. O, Həştərxanda işləyərkən Mariya adlı bir zadəgan qızı ilə ailə qurur və bu nikahdan 1919-cu ildə Cahangir (Vladimir) adlı oğulları dünyaya gəlir. 1926-cı ildə Mariya vəfat edir. Məsumə və digər bacısının təkidi ilə Mircəfər Bağırov 4 ildən sonra İçərişəhərdə

Mircəfər Bağırov

yaşayan Yevgeniya Mixaylovna ilə evlənir. Bu nikahdan 1932-ci il avqustun 9-da ikinci oğlu Cen dünyaya gəlir. Böyük oğlu Cahangir aviasiya məktəbində oxuyub. İkinci Dünya müharibəsi başlayanda artıq təyyarəçi idi. Müharibədə iştirak edib və 1 il sonra yaralı halda tərxis olunub. Müharibəyə yararsız olmasına baxmayaraq, Cahangir yenidən cəbhəyə gedib. 1943-cü il iyun ayında qeyri-bərabər döyüşdə 7-8 alman təyyarəsini vurub, sonda yanacağı qurtardığı üçün tarana gedib və təyyarəsini alman təyyarəsinə çırpıb. Vəfatından sonra «Lenin» ordeni ilə təltif olunub. Cənazəsi Həzi Aslanovun köməkliyi ilə Bakıya gətirilərək Yasamal qəbiristanlığında dəfn edilib. Hazırda Cahangirin qəbri anası Mariyanın qəbrinin yanındadır.

Cen isə Bakıda 10-cu sinfə qədər 6 saylı məktəbdə təhsil alıb. Tiflisdə hərbi məktəbdə, 1951-ci ildə Moskvada Jukov adına Aviasiya Akademiyasında oxuyub. 1953-cü ildə Mircəfər Bağırovu işdən azad ediblər və o zaman Cenə akademiyadan çıxmaq, başqa instituta getmək təklif olunub. O da Kənd Təsərrüfatı İnstitutunu seçib. Professor, elmlər doktoru idi. 1994-cü il mayın 24-də Moskvada vəfat edib. Cen 1971-ci ildə ailə həyatı qurub. 1978-ci il aprelin 26-da bir oğlu olub, adını Mircəfər qoyub. Həmin Mircəfər də 2005-ci ildə Hindistanda məzuniyyətdə olarkən avtomobil qəzası nəticəsində dünyasını dəyişib.

Mircəfər Bağırov ilk təhsilini mollaxanada alıb. 1907-ci ildə Quba şəhərindəki ibtidai məktəbə daxil olub. Təhsilini Quba Ali ibtidai məktəbində davam etdirib. 1913-cü ildə məktəbi bitirərək, Petrovskda (Mahaçqala) 2 illik pedaqoji kursa (rus dili müəllimliyi) daxil olub. 1915-ci ildə kursu bitirib və əmək

fəaliyyətinə gənc müəllim kimi Xudat stansiyasındakı kənd məktəbində başlayıb. 1915-1917-ci illərdə Nəcəfkənd, Quba şəhər məktəblərində müəllimlik edib və məktəbə uşaqların cəlb olunması, böyüklər üçün axşam kursunun açılması və savadsızlığın ləğvi sahəsində xeyli iş görüb.

Mircəfər müəllimliklə yanaşı, zəhmətkeşlər arasında fəal maarifçilik və çarizm əleyhinə gizli inqilabi təbliğat işi aparırdı. Kəndlilərə və onların övladlarına savad öyrətməklə azərbaycanlı qızları məktəbə cəlb edir, kəndlilərə yoxsulluqlarının və hüquqsuzluqlarının səbəbini anladır, onları zülmkarlara və istismarçılara qarşı mübarizə aparmağa çağırırdı.

1917-ci il fevral inqilabı dövründə açıq inqilabi fəaliyyətə başlayan M.Bağırov Qubada əsgər və kəndli deputatları sovetinin yaradılması, fəhlə və kəndli ittifaqının möhkəmlənməsi, xan və bəy torpaqlarının yoxsul kəndlilər tərəfindən zəbt olunması uğrunda mübarizə aparır.

M.Bağırovun və başqa inqilabçıların rəhbərliyi altında əksəriyyəti yoxsul kəndli və əsgərlərdən ibarət olan İnqilabi Şura Qubada hakimiyyəti ələ alır, döyüş drujinası yaradır və mülkədar mülklərini ələ keçirir. Qubada İnqilab Komitəsinin hakimiyyəti elan edilir və qəza icraiyyə komitəsi yaradılır. M.Bağırov komitənin sədr müavini seçilir.

1918-ci ilin mart-may aylarında M.Bağırovun və başqa inqilabçıların Quba qəzasında fəhlə, kəndli və əsgər sovetləri yaratmaq, milli qırğının qarşısını almaq uğrunda apardıqları mübarizəyə baxmayaraq, fəaliyyətləri uğursuz olur. M.Bağırov gizli fəaliyyətə keçir. Sonra isə Bakıya gəlir. O, ilk gündən döyüş drujinasının tərkibinə daxil olur və Bakının müdafiəsində iştirak edir. 1918-ci ildə Bakıda sovetlər məğlubiyyətə uğrayır. M.Bağırov bu zaman Petrovun dəstəsinin qalıqları ilə birlikdə Həştərxana gedir.

Bağırov 1919-cu ilin mart ayında Moskvada keçirilən I Kommunist Beynəlmiləl Konqresinin iştirakçısı olur və məşvərətçi səs hüququna malik Azərbaycan kommunistlərini təmsil edir.

1918-1920-ci illərdə M.Bağırov Həştərxanda dəmir polkun partiya kollektivinin katibi, Birinci müsəlman polkunun hərbi komissarı, XI ordunun Hərbi İnqilab Şurasının mühüm

tapşırıqlarını yerinə yetirən işçi, xüsusi təyinatlı dəstənin hərbi komissarı, Qafqazda Sovet hakimiyyətinin qurulması üzrə Qafqaz bürosunun əməkdaşı, Qafqaz korpusu Hərbi İnqilabi Şurasının müvəkkili vəzifələrində çalışır. Onun başçılıq etdiyi dəstə Həştərxanda əksinqilabi mart qiyamının yatırılmasında, Ural, Voronej, Volqoqrad ətrafında ağqvardiyaçılara qarşı döyüşlərdə vuruşur, özünü bacarıqlı komandir və zəhmətkeşlərin azadlığı uğrunda mübariz bir əsgər kimi göstərir. M.Bağırov igidlik və mərdliyə görə 1920-ci ilin əvvəllərində RSFSR MİK tərəfindən «Qırmızı bayraq» ordeni ilə mükafatlandırılır.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra M.Bağırov Azərbaycan Müvəqqəti İnqilab Komitəsi tərəfindən Dağlıq Qarabağa göndərilir. O, Dağlıq Qarabağ Vilayət İnqilab Komitəsi sədrinin müavini və XI ordunun Hərbi İnqilabi Şurasının müvəkkili kimi fəaliyyət göstərir və burada Azərbaycan ordusu hissələrinin tərkibində Qarabağ qiyamının yatırılmasında, erməni-daşnak və əksinqilabi qüvvələrin darmadağın olunmasında xeyli əmək sərf edir.

1920-1921-ci illərdə XI ordunun Hərbi İnqilabi Şurasının sərəncamında olan M.Bağırov II briqadanın komandiri, I atıcı diviziyanın hərbi tribunalının, XI ordu hərbi tribunalının səyyar sessiyasının sədri, Azərbaycan diviziyasının hərbi komissarı vəzifələrində çalışır. O, bu məsul hərbi vəzifələrdə Azərbaycan ordusunun yaradılmasında, onlara azərbaycanlıların cəlb edilməsində, əsgərlərin nizam-intizamının möhkəmləndirilməsində, yeni silahlarla silahlanmalarında, döyüş qabiliyyətinin yüksəldilməsində xeyli iş görür.

1921-ci il fevralın 25-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun iclasında iştirak edən M.Bağırova Azərbaycanda ali idarəedici orqan olacaq Azərbaycan Fövqəladə Komissiyasının təşkil edilməsi tapşırılır. O, martın 28-də Siyasi Büroda «AzFK» – «AzÇK» haqqında çıxış edir, aprelin 2-də isə əlavələrlə geniş məruzə edir. M.Bağırov 1921-ci il aprelin 2-də AzFK sədri təsdiq olunur. Bu qərar 1921-ci il mayın 6-19-da keçirilmiş I Ümumazərbaycan sovetlər

qurultayı tərəfindən bəyənilir və o, Nəriman Nərimanov başda olmaqla, təşkil edilmiş Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibinə seçilir. Bu vəzifədə 1927-ci il sentyabrın ortalarına kimi çalışır. M.Bağırov bu illərdə AzFK sədri olmaqla yanaşı, eyni zamanda Azərbaycan xalq daxili işlər komissarı və Azərbaycan SSR XKS sədrinin müavini vəzifələrini də daşıyır. N.Nərimanovun təklifi ilə M.Bağırov RK(b)P MK Siyasi Bürosunun 1921-ci il oktyabrın 15-də keçirilən iclasında Qafbüronun tərkibinə tövsiyə edilir. O, ağır və çətin olan bu vəzifələrdə ilk gündən antisovet qüvvələrə qarşı amansız mübarizə aparır, üsyanları qəddarlıqla yatırır, Azərbaycanda kəşfiyyat işinin təşkilində və möhkəmlənməsində, bu sistemə azərbaycanlıların cəlbi sahəsində xeyli iş görür. M.Bağırov AK(b)P MK-nın tapşırığı ilə 20-ci illərdə Azərbaycanın bir sıra rayonlarında fövqəladə vəziyyət yarandığı zaman həmin yerlərə göndərilən komissiyalara başçılıq edir və MK-ya məlumatlar verir. Onlardan «Cavanşir qəzasında vəziyyət haqqında», «Qarabağ qəzasında vəziyyət haqqında», «Dağlıq Qarabağ Muxtar Vilayətinin vəziyyəti haqqında», «Dəmir yolu haqqında» və s. göstərmək olar.

1927-1928-ci illərdə Tiflis şəhərinə göndərilən M.Bağırov Zaqafqaziya Su Təsərrüfatı İdarəsinin, 1928-1929-cu illərdə isə Zaqafqaziya Kənd Təsərrüfatı İdarəsinin sədri vəzifələrində çalışır. O, burada da özünün bacarıqlı bir təşkilatçı olduğunu göstərir.

Azərbaycan kəndlərində kollektiv təsərrüfatların yaradılmasına qarşı artan etiraz hərəkatı ilə əlaqədar M.Bağırov yenidən Bakıya çağırılır və 1929-cu ilin sentyabrında Azərbaycan Dövlət Siyasi İdarəsinin sədri təyin edilir. O, bu vəzifədə 1930-cu ilin sentyabrına kimi çalışır və antisovet qüvvələrə qarşı amansız mübarizəyə başçılıq edir.

M.Bağırov 1930-cu ilin sentyabrında Moskvaya ÜİK(b)P MK yanında marksizm-leninizm kursunda oxumağa göndərilir. 1932-ci ilin fevralında kursu bitirərək ÜİK(b)P MK aparatında təlimatçı təyin edilir. 1932-ci ilin axırlarında yenidən Bakıya göndərilir və həmin ilin oktyabrından 1933-cü ilin dekabrına-

dək Azərbaycan SSR Xalq Komissarları Sovetinə sədr təyin olunur.

1933-cü il dekabrın 10-da Azərbaycan KP MK və Bakı Komitəsinin birləşmiş büro iclasında M.Bağırov Azərbaycan K(b)P MK və BK-nın birinci katibi təsdiq edilir.

1937-ci il avqustun 5-də SSRİ NKVD-si bir qərar çıxarır. Həmin qərara 3 nəfər – SSRİ daxili işlər naziri Yejov, Mikoyan və Stalin qol çəkir. Qərarda yazılır ki, müsavatçılar, ittihadçılar, sosial-demokratlar, hümmətçilər, eyni zamanda menşeviklər və daşnaklar güllələnməlidir. Bundan sonra M.Bağırovun fəaliyyətində 1937-1938-ci illər qara ləkə kimi qalır. Çünki bu illərdə Azərbaycanın minlərlə millətsevər alimi, şair və yazıçısı, partiya, dövlət xadimi, qabaqcıl, öndə gedən ziyalıları həbs edilmiş, güllələnmiş və ya sürgünə göndərilmişdir. Bu repressiya təkcə onun deyil, həmin dövrdə SSRİ məkanında partiya, sovet və s. təşkilatlarda çalışanların əksəriyyətinin həyatında bir qara ləkə olaraq qalır. Çünki o dövrdə «vətən xainlərini», «əksinqilabçıları», «xariclə əlaqələri olanları» tapıb üzə çıxarmaq müttəfiq respublikalarda adi hal olmuş və plana çevrilmişdi.

Ceyhun Hacıbəyliyə görə, 1937-ci ilin oktyabr ayında keçirilən məhkəmələr Azərbaycan sovet rəhbərliyinin təmizlənməsinin ən qızğın vaxtı idi. Bağırovdan başqa bir çox şəxs vəzifəsindən azad olunmuş və həbs edilmişdi. Ceyhun bəy bildirir ki, sadəcə həqiqi millətçiləri deyil, stalinizmin marksizmlə eyni olmadığını sübut edə biləcək marksist mütəfəkkirləri də aradan götürürdülər. Beriya ilə yaxın dostluğu olduğundan Bağırovdan başqa, demək olar ki, digər köhnə bolşeviklər aradan qaldırılmışlar. Ceyhun bəyin yazdıqlarına görə, o, Bağırovu Azərbaycandakı repressiyalara görə günahkar hesab etmirdi, Ceyhun bəy onu Beriya ilə yaxın əlaqələrinə görə xilas olmuş potensial qurban kimi görürdü. Lakin Bağırov repressiyanın təməlini hazırlayan partiya qurultaylarında və 1937-1938-ci illərdə keçirilən məhkəmələrdə öz rəqiblərini ləkələməkdən və onlara qarşı ittihamlar irəli sürməkdən geri çəkilmirdi.

1937-ci ildə Mircəfər Bağırovun özünü də həbs edirlər və o, 10 gün ev dustağı olur.

1933-1953-cü illərdə M.Bağırov Azərbaycan Kommunist Partiyası MK və BK-nın birinci katibi vəzifələrini daşımışdır. Bu dövrdə Bakı neft sənayesinin hərtərəfli inkişafı ilə yanaşı, başqa sənaye sahələri də inkişaf etmiş, yeni fabrik və zavodlar tikilib istifadəyə verilmiş, bir sıra yeni neft yataqları və mədənləri kəşf olunmuşdur. Kənd təsərrüfatında əkinçilik, pambıqçılıq sahələri genişləndirilmiş, subtropik bitkilər əkilməyə başlanmış, süni suvarma kanalları çəkilmiş və Azərbaycan tarlalarında traktorlar, kombaynlar və s. texnika işləməyə başlamışdır.

- 1941-1945-ci illər müharibəsi zamanı alman-faşist işğalçılarına qarşı mübarizəyə və Qələbəyə Azərbaycan fəhlələri, kəndliləri və ziyalıları var qüvvə ilə səfərbər edilmişlər.

Azərbaycan xalqı müharibədən sonra – 1946-cı ilin fevralında SSRİ Ali Sovetinə keçirilən ilk seçkilərdə M.Bağırovun deputatlığa namizədliyini irəli sürür.

1953-cü il aprelin 18-də Azərbaycan KP MK-nın plenumu keçirilir. Həmin plenum M.Bağırovu Azərbaycan KP MK-nın birinci katibi vəzifəsindən azad edib Azərbaycan SSR Nazirlər Sovetinin sədri təsdiq edir. Lakin dövlətə xain çıxmış L.Beriya ilə əlaqədar olaraq bir neçə aydan sonra M.Bağırova da münasibət dəyişir.

1953-cü il iyulun 12-13-də Azərbaycan KP MK və Bakı Komitəsinin birləşmiş VI plenumu (plenumda 989 nəfər, demək olar, respublikanın əksər rəhbər işçiləri iştirak etmişlər) M.Bağırovu Azərbaycan SSR Nazirlər Soveti sədri vəzifəsindən azad edir və Azərbaycan KP MK bürosunun tərkibindən çıxarır. VI plenumda L.Beriya və M.Bağırovun məsələsi geniş müzakirə olunur. Plenumun M.Bağırov haqqında qərarında yazılır: «Beriya ilə əlaqədar yoldaş M.Bağırovun partiyaçıya yaraşmayan hərəkətlərini qəbul etmək və pisləmək. Beriya işi ilə əlaqədar partiyaçıya yaraşmayan hərəkətlərinə, partiya qarşısında qeyri-səmimiliyinə, öz işlərində böyük siyasi səhvlər

buraxdığına görə M.Bağırovu Azərbaycan SSR Nazirlər Soveti sədri vəzifəsindən götürmək və onu Azərbaycan KP MK bürosunun tərkibindən çıxarmaq».

1954-cü il martın 13-də partiyadan çıxarılan M.Bağırov 1953-1955-ci illərdə Kuybışev neft idarəsi rəisinin müavini vəzifəsində çalışır.

Mircəfər Bağırovun məhkəməsi

M.Bağırov 1955-ci ildə həbsə alınaraq istintaqa cəlb olunur, Bakıda 12-26 aprel 1956-cı il tarixdə keçirilmiş məhkəmənin hökmü ilə ən ağır cəzaya – güllələnməyə məhkum edilir və rəsmi məlumata görə, hökm yerinə yetirilir. Məhkəmə indiki Şəhriyar adına mədəniyyət evində keçirilir. Məhkəməni Nürnberqdə SSRİ-nin nümayəndəsi olmuş prokuror Rudenko aparır. M.Bağırovun bağışlanmaq haqqında sovet rəhbərliyinə müraciətləri rədd edilir. Lakin Sov.İKP MK Siyasi Bürosunun iclaslarının sənədlərindən aydın olur ki, beynəlxalq vəziyyət mürəkkəb olduğundan Mikoyanın təklifi ilə bu qərarın icrası iki il dayandırılır. Bununla belə, Azərbaycana güllələnmə haqqında qərarın qüvvədə qaldığı bildirilir.

Onun həbsi əhali arasında birmənalı qarşılanmır və hətta bəzi etiraz aksiyalarına da səbəb olur. Cəmil Həsənlinin «Azərbaycanda milli məsələ: həqiqətlər və müəmmalar (1956-1959)» məqaləsində göstərilir ki, 1956-cı il martın 9-da Tbilisidə Stalinin heykəlinin yanında keçirilən mitinqdə əsas tələblərdən biri Mikoyanın, Bulqaninin və Xruşşovun vəzifədən kənarlaşdırılması, digəri isə Azərbaycan KP MK-nın keçmiş birinci katibi M.Bağırovun həbsdən azad edilməsi olub.

1980-ci illərdə xarici mətbuat və radioların yaydıqları məlumata görə, M.Bağırov Sibirdə həbsxanaların birində vəfat edib. Lakin o, hələ 1956-cı ilin aprelində SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən ölüm cəzasına məhkum edildikdən bir qədər sonra, həmin ilin may ayında güllələnib.

Sovet Sosialist Respublikaları İttifaqı adından HÖKM

26 aprel 1956-cı il SSRİ Ali Məhkəməsinin Hərbi kollegiyasının aşağıdakı tərkibdə:

Sədr: ədliyyə general-leytenantı Çeptsova A.A.

Üzvləri: ədliyyə polkovniki Kovalenko Q.Y. və ədliyyə polkovniki Kostromina A.A.

Katiblərin yanında: kapitan Afanasyev M.V. və ədliyyə kapitanı Smirnov N.Q.,

Tərəflərin iştirakı ilə: dövlət ittihamçısı tərəfindən – SSR İttifaqı Baş prokuroru, həqiqi dövlət ədliyyə müşaviri Rudenko R.A. və müdafiəçi vəkillər Qavrilova V.N., Nutenko Y.M., Boqaçeva P.Y., Semyonovski Q.S., Apraksina K.N. və Qrineva M.İ. Bakıda açıq məhkəmə iclasında ittiham işinə baxaraq: Bağırov Mircəfər Abbasoviç, təvəllüdü 1896-cı il, Azərbaycan SSR Quba şəhəri; Borşev Timofey Mixayloviç, təvəllüdü 1901-ci il, Azərbaycan SSR Qusar rayonunun Qusar kəndi; Qriqoryan Xoren İvanoviç, təvəllüdü 1902-ci il, Ermənistan SSR Qafan rayonunun Sevakar kəndi; Azərbaycan SSR Cinayət Məcəlləsinin 63-2, 70-ci maddələrinə, törədilən cinayətlərin cəminə əsaslanaraq cəzalandırmaq:

Bağırov Mircəfər Abbasoviçə,

Borşev Timofey Mixayloviçə,

Markaryan Ruben Ambartsumoviçə,

Qriqoryan Xoren İvanoviçə ən yüksək cəza – güllələnmə hökmü verilsin, hər birinin bütün əmlakı müsadirə edilsin.

Hökm qətidir və kassasiya şikayətinə qəbul olunmur.

AZƏRBAYCAN DTK-sının KEÇMİŞ İŞÇİSİ LAVRENTİ PAVLOVİÇ BERİYANIN ZİDDİYYƏTLİ KARYERASI NECƏ BAŞA ÇATDI...

SSRİ Xalq Daxili İşlər Komissarlığının sədri, yüz minlərlə insanın güllələnməsinə və sürgünə göndərilməsinə əmr verənlərdən biri, məşhur sovet cəlladı Lavrenti Pavloviç Beriyanın güllələnməsindən 60 ildən çox keçir.

Lavrenti Pavloviç Beriya

Stalinin ən yaxın tərəfdaşlarından olan Lavrenti Beriya 23 dekabr 1953-cü ildə SSRİ Ali Məhkəməsinin hökmü əsasında güllələndi. L.P.Beriya onilliklər ərzində Rusiyanın bütün tarixi boyu mövcud olmuş ən kədərli fiqurlardan biri hesab olunur. Onu tez-tez çar İvan Qroznının yaxın tərəfdaşı Malyuta Skuratovla müqayisə edirlər.

L.Beriya siyasi repressiyalara görə əsas məsuliyyət daşıyan şəxs və Stalinin «baş cəlladı» kimi tanınıb. Bu, daha çox onunla bağlıdır ki, tarixi həmişə qaliblər yazır. L.Beriya İosif Stalinin ölümündən sonra hakimiyyət uğrunda mübarizəni uduzaraq məğlubiyyətini təkcə öz həyatı hesabına ödəmədi, eyni zamanda Stalin dövrünün «günah keçisi» kimi də tarixə düşdü.

L.Beriyanı günahsız qurban hesab etmək axmaqlıq olardı. Lakin etiraf etmək lazımdır ki, bu adamın tarixdəki real rolu və şəxsiyyəti barədə az məlumat var.

1899-cu il martın 17-də Abxaziyanın kasıb kəndli ailəsində anadan olan Beriya 16 yaşından Cənubi Qafqazda inqilab hərəkatına qoşulur. Bir neçə dəfə həbs edilir. Sovet hakimiyyətinin

qurulmasından sonra 21 yaşlı Beriya Azərbaycan FK-nın sıralarında xidmətə başlayır, daha sonra Gürcüstanda işləyir, əksinqilabçı qüvvələrin zərərsizləşdirilməsində iştirak edib «Qırmızı Bayraq» ordeni alır.

1927-ci ildə Beriya Gürcüstanın xalq daxili işlər komissarı olur. 1931-ci ildə isə Gürcüstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edilir.

O vaxtdan etibarən Beriyanın ziddiyyətli imici formalaşır. Bir tərəfdən onu repressiyalarda ittiham edirdilər, digər tərəfdən isə 32 yaşlı Beriya özünü güclü təsərrüfatçı kimi təsdiqləmişdi və onun sayəsində Gürcüstan iqtisadiyyatı sürətlə inkişaf edirdi. Məhz Beriyanın sayəsində Gürcüstanda dövlət tərəfindən çayın, mandarinin və üzümün ən yuxarı alış qiyməti müəyyən edilmişdi. Gürcüstan onun dövründə SSRİ-nin ən sürətlə inkişaf edən respublikalarından birinə çevrilmişdi.

Şübhəsiz ki, Beriyanın siyasi repressiyalarda əli var idi. Ancaq onun 1937-1938-ci illərdə yüz minlərlə ziyalının, dövlət və partiya xadiminin məhv edildiyi «Böyük terror»da iştirakı və rolu ziddiyyətlidir.

Lavrenti Beriya SSRİ NKVD aparatında 1938-ci ildə görünür. Həmin ilin noyabrında o, Nikolay Yejovu NKVD-nin rəhbəri postunda əvəzləyir. Məhz Beriyanın gəlişi ilə «Böyük terror» dayanır, daha sonra iki il ərzində Yejovun dövründə həbs edilmiş 200 000-dək adam həbsdən buraxılır.

Müharibə illərində Beriya təkcə NKVD və NKVQ-nin (Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı) rəhbəri olmur, o, həmçinin müdafiə sənayesini və nəqliyyatı da kurasiya edir.

Beriya sənaye müəssisələrinin Uzaq Şərqə köçürülməsini təşkil edən əsas adam idi. 1944-cü ildə isə müharibə şəraitində Beriya sovet atom silahı layihəsinin kuratoru olur. Bu proqram sayəsində 1949-cu ildə SSRİ amerikalıların gözlədiyindən xeyli tez atom bombası əldə edir. Məhz «atom layihəsi» sayəsində Beriya SSRİ-nin ən yüksək rütbəli dövlət xadimlərindən birinə çevrilir və Stalinin varisi kimi qəbul edilməyə başlanır.

1953-cü il martın 5-də İosif Stalin öləndə rəhbərlikdə hakimiyyəti tam ələ ala biləcək fiqur yox idi. Hakimiyyətdə, faktiki olaraq, üçlü koalisiya – Sovet hökumətinin rəhbəri və

ölkənin formal lideri Georgi Malenkov, Stalinin ölümündən sonra partiyanın lideri olan Nikita Xruşşov və Dövlət Təhlükəsizliyi ilə Daxili İşlər nazirliklərini birləşdirib ona rəhbərlik edən Lavrenti Beriya mövcud idi.

Bu üçhakimiyyətlik çox davam edə bilməzdi. Tərəflərdən hər biri öz mövqelərini möhkəmləndirirdi. Beriya Daxili İşlər Nazirliyinin rəhbərliyinə öz adamlarını təyin edərək inanırdı ki, məhz güc strukturlarına nəzarət hakimiyyət məsələsini həll edəcək.

Əgər hakimiyyət Beriyanın əlinə keçsəydi, ölkəni nə gözləyəcəyini demək çətindir. Bəziləri deyir ki, bu, yeni repressiyalara səbəb olardı, digərləri əmin edir ki, Beriya siyasi məhbusların genişmiqyaslı əfvinə və reabilitasiyasına hazırlaşırdı. Daha radikallar isə iddia edir ki, ümumiyyətlə Beriya təcrübəli təsərrüfatçı kimi ölkənin ideologiyasızlaşdırılmasına, bazar iqtisadiyyatına və hətta Baltikyanı respublikalara müstəqillik verməyə meyillənirdi.

Beriyanın planları nə olsa da, onu reallaşdıra bilmədi. Vaxtilə «Böyük terror»un əsas dəstəkçilərindən biri olan Nikita Xruşşov qabaqlayıcı oyuna başladı. O, Georgi Malenkov və daha iki nüfuzlu siyasətçi – Nikolay Bulqanin və Vyaçeslav Molotovla ittifaq bağlayıb Beriyaya hücuma keçdi. Mərkəzi Komitə əvvəlcə DİN-ə nəzarət edən xüsusi şöbə yaratdı. Beriya təhlükəni hiss etmədi və hesab etdi ki, DİN-ə nəzarət ona öz təhlükəsizliyi üçün narahat olmamağa imkan verəcək. Ancaq N.Xruşşov hərbçiləri, o cümlədən marşal Georgi Jukovu öz tərəfinə çəkə bildi.

1953-cü il iyunun 26-da Kremldə SSRİ Nazirlər Kabinetinin müşavirəsində N.Xruşşov gözlənilmədən Beriyanı dövlət əleyhinə fəaliyyətdə və Britaniyanın xeyrinə casusluqda ittiham etdi.

Özünü itirmiş Beriya cavab verməyə çalışdı. Qəsdçilərin bir hissəsi tərəddüd edib Beriyanın sadəcə «səhvlərini göstərməyi» təklif etdi. Lakin həlledici məqamda iclas zalına başda Jukov olmaqla generallar daxil oldu və onlar Beriyanın əllərini qandalladılar.

Generalların birinin maşınında Beriyanı Kremldən çıxartdılar və Moskva Hərbi Dairəsinin qarnizon hauptvaxtına saldılar. Bir sutkadan sonra Moskva Hərbi Dairəsi qərargahının altında yerləşən bomba sığınacağına düşürdülər. Beriyanın həbsi günü Moskva küçələrinə ordu bölmələri çıxarıldı. Lakin məsələ küçə döyüşlərinə qədər gedib çıxmadı. Sonrakı bir neçə gün ərzində Beriyanın bütün yaxın tərəfdaşları həbs edildi.

1953-cü ilin dekabrında SSRİ Ali Məhkəməsinin xüsusi iclası marşal İvan Konevin sədrliyi ilə «Beriyanın işi»nə baxdı. Ona qarşı irəli sürülmüş ittihamlar «Böyük terror» illərində irəli sürülən ittihamlardan az fərqlənirdi. Casusluq, hakimiyyətdən sui-istifadə, kütləvi zorlama və bir çox digər ittihamlar...

Bu ittihamların Beriyanın real fəaliyyətinə aidiyyəti yox idi, ancaq məhkəmənin məqsədi heç də həqiqətləri üzə çıxarmaq deyildi.

1953-cü il dekabrın 23-də Lavrenti Beriya ölüm cəzasına məhkum edilir və Moskva Hərbi Dairəsi qərargahının bunkerində ölkənin Baş prokuroru Rudenkonun iştirakı ilə güllələnir. Gecə Beriyanın cəsədini 1-ci Moskva krematoriyasına aparıb yandırır, külünü Moskva çayının üzərinə səpirlər.

Doğrudur, alternativ versiya da var. Beriyanın oğlu Serqonun və Stalinin qızı Svetlananın danışdığına görə, 1953-cü il iyunun 26-da heç bir iclas olmayıb. Lavrenti Beriya öz evində onu həbs etməyə gələnlərlə atışmada öldürülüb...

«Arqumenti i faktı» həftəliyi
Rusiya
2015-ci il

700 MİN İNSANI QƏTLƏ YETİRƏN NKVD BAŞÇISI

Nikolay Yejov

Nikolay İvanoviç Yejov 19 aprel 1895-ci ildə anadan olmuş, 4 fevral 1940-cı ildə vəfat etmişdir.

Cəmi iki il SSRİ Xalq Daxili İşlər Komissarlığına (XDİK – NKVD) başçılıq edən Nikolay Yejov qəddarlığı və cəlladlığı ilə tarixdə amansız iz qoyub. 700 000-ə yaxın insanın ən ağır cəzalara məhkum olunmasında birbaşa iştirakı olan N.Yejovun NKVD-də fəaliyyəti «yejovşina» dövrü kimi repressiyalarla yadda qalıb.

Stalinin repressiya maşınını böyük ustalıqla idarə edən Nikolay Yejov həmin dövrdə «dəmir komissar» adı ilə tanınıb. İki illik ibtidai təhsili olan N.Yejov bütün varlığı ilə Stalinə sədaqət nümayiş etdirib. Ardı-arası kəsilməyən repressiyaların, sürgünlərin, güllələnmələrin icrasını həyata keçirib. N.Yejov o qədər amansız olub ki, ölüm hökmü ilə bağlı sənədlərə imza atmaqla öz cəlladlıq ehtirasını söndürə bilməyib, bir çox hallarda cəzaların icrasında şəxsən iştirak edib.

N.Yejovun NKVD-yə rəhbərlik etdiyi dövrdə diqqətçəkən məqamlardan biri «xalq düşmənləri»nin sayına qoyulan plan olub. NKVD başçısı hər bir respublikaya və vilayətə neçə nəfər insanın cəzalanmasını konkret rəqəmlərlə göstəriş verib. Cəzalar iki növə bölünüb: güllələnmə və xüsusi düşərgələrə sürgün. Repressiyaya məruz qalacaq insanların sayı və siyahısı

N.Yejovun başçılığı ilə NKVD-də hazırlanıb. Bu insan talelərinə son qoyan sənəd Siyasi Büroda təsdiqlənib. Stalin siyahıda kimin adının qarşısına 1 rəqəmi qoyubsa, yəni 1-ci kateqoriya güllələnmə, 2 rəqəmi qoyubsa, sürgün və həbs cəzası nəzərdə tutulub.

Cəzaların say planı ilə bağlı məmurlar arasında bu cür yazışmalar olub. Omsk Vilayət Xalq Daxili İşlər Komissarlığı idarəsinin rəisi Qorbaçın N.Yejova teleqramı: «Vilayətdə 1-ci kateqoriyadan 5 444 nəfər həbs olunub». Yejovun cavabı: «1-ci kateqoriyaya aid olan həbslərin sayı 8 000-ə çatdırılsın və təcili məruzə edilsin». Digər məruzələrdə göstərilir ki, Ukrayna planı 30 000 nəfər, Belarusiya 5 000 nəfər artıq yerinə yetirib.

Rəhbərin bütün tapşırıqlarını kor-koranə olsa da canla-başla lazımi səviyyədə həyata keçirən Nikolay Yejov mövcud dövrdə Stalin üçün sərfəli kadr olub. Onun üçün N.Yejov repressiya aləti funksiyasını daşıyıb. Ölkədə tüğyan edən repressiya dalğasının xalqda böyük narahatlıq yaratdığını Stalin dərk edib və təbii ki, bunun törədə biləcək fəsadlarını da düşünüb. Amma rəhbər üçün çıxış yolu tapmaq çətin olmayıb: «yejovşina dövrü»nə son qoymaq və sonradan onu lənətləmək.

Digər tərəfdən də N.Yejovun fəaliyyətində bir sıra qüsurlar özünü büruzə verməyə başlayıb. Spirtli içkilərin aludəçisi olmaqla yanaşı, N.Yejov narkotik vasitələrdən də istifadə edib. Hətta bəzi hallarda içkinin təsirindən özünü idarə edə bilməyib. Bu haqda Siyasi Büronun üzvləri və şəxsən Stalin də məlumatlı olub. Stalin sonralar Yejov haqqında bu fikirləri səsləndirib: «Yejov. Bu insanı yalnız alçaq adlandırmaq olar. O bizim ən dəyərli insanlarımızı məhv etdi. Son vaxtlar özünü tamamilə itirmişdi. Zəng edirdin komissarlığa, deyirdilər Mərkəzi Komitəyə gedib. Zəng edirdin Mərkəzi Komitəyə, deyirdilər işə qayıdıb. Evinə adam göndərirdin, kefli vəziyyətdə meyit kimi yatıb. Neçə günahsız insanın həyatına son qoyub bu insan. Buna görə də biz onu güllələdik».

SSRİ adlı məkanda at oynadan, meydan sulayan Yejovun ailəsində böyük problemlər yaşanıb. Rəsmi nikahda olduğu həyat yoldaşı Sulamifya bir çox kişi ilə eşq macəraları ilə ad

çıxarıb. 1938-ci ildə isə Mixail Şoloxovun məşuqəsi olub. Onlar heç kimdən çəkinmədən Moskva mehmanxanalarında sevgi oyunları yaşayıblar. Onların olduqları otaqlarda gizli səsyazan qurğular quraşdırılıb və Yejov həyat yoldaşı ilə Şoloxovun intim söhbətlərinə dəfələrlə qulaq asıb. Yejov isə özünə Sulamifyanın rəfiqəsini məşuqə seçib.

Nikolay Yejov 1939-cu il aprelin 10-da xarici kəşfiyyatla əməkdaşlıq, Sovet hakimiyyətinə qarşı gizli silahlı üsyanın hazırlanması ittihamı ilə həbs olunub. Nikita Xruşşov xatirələrində Yejovun həbs olunduğu günü belə xatırlayır: «Həmin gün mən Kremldə idim. Stalin məni Kremldəki mənzilinə şam yeməyinə dəvət etmişdi. Otaqda bizdən başqa Molotov və bir neçə nəfər də var idi. Yejovdan söhbət düşəndə heç vaxt öz təmkinini pozmayan Stalin möhkəm əsəbiləşdi və dedi ki, bu təhlükəli caninin həbs olunmaq vaxtıdır, elə bu gün. Biz nadir hallarda Stalinin belə əsəbiləşdiyini görmüşdük. Qısa bir vaxtdan sonra otaqda telefon zəng çaldı. Yejovun həbsi haqqında Stalinə məruzə edildi».

1940-cı il fevralın 1-də Yejovun istintaqı sona çatır. İstintaqı aparan Yesaulov ittihamnaməni oxuduqdan sonra soruşur:

– Siz günahınızı etiraf edirsinizmi?

Yejov qətiyyətlə etirazını bildirir:

– Xeyr, mən ittihamnamə ilə razı deyiləm. Tələb edirəm Siyasi Büronun üzvlərindən biri mənimlə görüşsün.

– Axı siz istintaq materiallarına qol çəkib imza atmısınız.

– Bunu ona görə etmişəm ki, məni incitməsinlər, döyməsinlər.

N.Yejovla söhbəti alınmayan müstəntiq onun tələbi haqqında Beriyaya məlumat verir. Beriya da, öz növbəsində, istintaqın yekunlaşıb işin məhkəməyə verilməsi haqqında Stalinə məruzə edir və deyir ki, bu balacaboy (Yejovun boyu 1 m 51 sm olub) yaramaz məhkəmədə öz günahını etiraf etməyəcək, hələ üstəlik artıq-əskik də danışacaq. Nəhayət, belə qərara gəlinir ki, Beriya Yejovla görüşsün. Səhərisi gün Beriya türmədə Yejovla özünəməxsus tərzdə görüşür. Görüş otağına girən kimi stolun üstünə bir qrafin araq qoyur:

– Süz iç, Kolya, bir az rahatlan. Bu nədir? Əllərin əsir. Qoy mən sənə süzüm. Sənin kimi o qədər çinovniklər partiyamızın qarşısında mərdi-mərdanə günahlarını etiraf ediblər. Amma heç biri sənin kimi qorxmayıb. Bəlkə sən də günahlarını boynuna alsan, həyatını xilas etmiş olarsan.

– Siz mənə söz verə bilərsiniz ki, mənim qohumlarım repressiyaya məruz qalmayacaq? Axı onların heç bir günahı yoxdur.

– Buna şübhən olmasın. Birini də iç və get düşün. Məhkəmədə günahlarını boynuna al.

Əslində, N.Yejov onu nə gözlədiyini çox gözəl bilirdi. Axı vaxtilə belə məsələlərlə birbaşa özü məşğul olmuşdu. O, yaxşı dərk edirdi ki, məhkəmədə etiraf edilib-edilməməsindən asılı olmayaraq, Stalinin qərarı yerinə yetirilməlidir.

Yejovun məhkəməsi çox da uzun çəkmir. Ona qarşı irəli sürülən ittihamların heç biri ilə razılaşmır.

Məhkəmədəki son çıxışında Yejovun ən yaddaqalan ifadəsi isə bu olur: «Yoldaş Stalinə çatdırın ki, mən ona sədaqətlə xidmət etmişəm, öləndə də Stalin uğrunda deyib öləcəm».

Məhkəmə Nikolay Yejova ona məxsus olan əmlak və əşyalarını müsadirə etməklə güllələnmə hökmü çıxarır.

1940-cı il fevralın 4-də məhkəmənin hökmü icra olunaraq Nikolay Yejov güllələnir. Həyatının sonuncu dəqiqəsində o, «Yaşasın Stalin!» sözünü deyir.

Modern.az

Ruben Ambartsumoviç Markaryan: 1896-cı ildə Dağlıq Qarabağın Şuşa şəhərində anadan olmuş, 1956-cı ildə güllələnmişdir – Xalq Daxili İşlər Komissarlığının (XDİK) əməkdaşı, sovet xadimi, partiya üzvü, general-leytenant.

SSRİ Ali Sovetinin deputatı (1946-1950).

R.Markaryan dərzi ailəsində anadan olmuşdur, milliyyətcə ermənidir. 1915-1917-

ci illərdə çar ordusunda xidmət etmişdir. 1918-ci ildə könüllü olaraq Qırmızı orduya yazılmışdır. 1921-ci ildə bitərəf olaraq Qırmızı ordudan könüllü şəkildə təhlükəsizlik orqanlarına keçmişdir. 1932-1934-cü illərdə Dağlıq Qarabağın Stepanakert şəhəri üzrə Baş Siyasi İdarəsinin vilayət şöbəsinin rəisi olmuşdur.

15 iyul 1934 – sentyabr 1935-ci illərdə XDİK-in Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə idarəsinin rəisi olmuşdur.

1939-cu ilədək Azərbaycan XDİK orqanlarında qeyri-rəhbər işdə olmuş, sonra iki-üç ay xalq komissarını əvəz etmiş, 1939-cu ilin fevralından 1941-ci ilin avqustunadək xalq komissarının müavini vəzifəsində çalışmışdır. 1941-ci ilin avqustundan 1942-ci ilədək İran əməliyyatında ordu bölmələrində xidmət etmişdir.

1943-cü il mayın 7-dən 1953-cü il avqustun 7-dək Dağıstan Muxtar Sovet Sosialist Respublikasının daxili işlər naziri – xalq komissarı olmuşdur. 1953-cü ilin axırlarında təqaüdə çıxmışdır.

1955-ci ilin əvvəlində «qəsdçi Beriya–Bağırov qrupu»nun iştirakçısı kimi həbs edilmiş və Butırka həbsxanasının təkadamlıq kamerasına yerləşdirilmişdir. Bəraət almamışdır. 1956-cı ildə güllələnmişdir.

Xoren İvanoviç (Ovanesoviç) Qriqoryan: 1902-ci ildə Qərbi Azərbaycanın Sevakar kəndində (indiki Qafan) anadan olmuş, 1956-cı il mayın 16-da güllələnmişdir.

X.İ.Qriqoryan keşiş ailəsində doğulmuş, Şuşa şəhərində təhsil almışdır. 1923-cü ildən dövlət təhlükəsizlik orqanlarında çalışmışdır. 1937-ci ilin dekabrından 1939-cu ilin fevralınadək Azərbaycan SSR XDİK-in Su nəqliyyatı şöbəsinə başçılıq etmişdir. Bu vəzifədə Xəzər Gəmiçiliyi işçilərinə, «Krasnaya Zvezda» zavodunun rəhbərliyinə qarşı saxtalaşdırılmış cinayət işlərinin açılmasının, döyülmələrin və işgəncələrin, kütləvi həbslərin təşəbbüskarı olmuşdur. İkinci Dünya

müharibəsi illərində Qafqazın müdafiəsində iştirak etmişdir. 1943-1947-ci illərdə Azərbaycan SSR xalq daxili işlər komissarının müavini, 1947-1953-cü illərdə Ermənistan SSR-in xarici işlər naziri olmuşdur. 1953-cü ildə Daxili İşlər Nazirliyinin Yerevan şəhəri üzrə idarəsinin rəisi təyin edilmişdir. Həmin il orqanların adına xələl gətirdiyi üçün hərbi rütbəsindən məhrum edilmiş, 1953-cü ilin may ayında həbs olunmuş və sonradan məhkəmənin qərarı ilə güllələnmişdir. İstintaqın gəldiyi qənaətə görə, X.Qriqoryanın iştirakı ilə 100-ə yaxın cinayət işi saxtalaşdırılmışdır. Bu cinayət işləri ilə bağlı yüzlərlə təqsirsiz adam mühakimə edilmiş, sonradan onların çoxu güllələnmişdir.

Timofey Mixayloviç Borşev: 1901-ci ildə Bakı quberniyasının Quba rayonunun Qusar kəndində anadan olmuş, 1956-cı il mayın 16-da güllələnmişdir.

Qəssab ailəsində anadan olmuş, Tiflisdəki şəhər məktəbinin üç sinfini bitirmişdir. 1913-1920-ci illərdə nəşriyyatda yığıcı işləmişdir. 1918-ci ilin noyabrından Fəhlə-Kəndli Partiyasının üzvü olub. 1920-ci il mayın 17-də həbs olunaraq Azərbaycandan qovulub.

1920-ci ildən Vladiqafqazda, Bakıda və Azərbaycan SSR-in digər rayon və şəhərlərində daxili işlər və təhlükəsizlik orqanlarında müxtəlif vəzifələrdə çalışmış, 1937-ci ilin noyabrından Azərbaycan SSR xalq daxili işlər komissarının müavini təyin edilmişdir. 1938-ci ilin iyulunda Türkmənistan SSR xalq daxili işlər komissarı vəzifəsinə təyin olunmuş, Türkmənistan SSR-in partiya orqanları tərəfindən amoral davranışda ittiham edilmişdir. Bu barədə 1939-cu il avqustun 5-də Stalinə məlumat verilmişdir. 1941-ci ilin fevralından Borşev SSRİ Dövlət Təhlükəsizliyi Xalq Komissarlığının (DTXK) İkinci İdarəsinin rəis müavini işləmişdir. 1941-ci ilin iyulundan 1948-ci ilin aprelinədək daxili işlər və təhlükəsizlik orqanlarının Sverdlovsk vilayəti üzrə rəisi olmuşdur. 1948-ci

ilin aprelində pul islahatı keçirilən zaman vəzifəsindən suiistifadə etdiyi üçün işdən qovularaq ehtiyata göndərilmişdir. 1948-ci ilin noyabrından 1952-ci ilin fevralınadak Bakı Şəhər İcraiyyə Komitəsinin sədr müavini, 1952-ci ilin may ayından 1953-cü ilin aprelinədək Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsi katibinin köməkçisi və inzibati orqanlar şöbəsinin müdir müavini işləmişdir. 1953-cü ilin aprel-iyul aylarında Daxili İşlər Nazirliyinin Azərbaycan Dəmir Yolundakı mühafizə idarəsinin rəisi olmuş, Beriyanın həbsindən sonra DİN orqanlarından qovulmuşdur.

1955-ci il yanvarın 25-də həbs edilmiş, 1956-cı il aprelin 26-da Azərbaycan SSR Cinayət Məcəlləsinin 62-2 və 73-cü maddələri üzrə təqsirli bilinərək güllələnməyə məhkum edilmişdir. M.Bağırovun işi üzrə mühakimə olunmuşdur. 1956-cı il mayın 16-da güllələnmişdir. Bəraət almamışdır.

İvan Mixeyeviç Zaryanov: 1936-cı il yanvarın 27-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının üzvü İ.M.Zaryanova briqada hərbi hüquqşünası, 1938-ci il martın 4-də İ.Zaryanov diviziya hərbi hüquqşünası adı verilmişdir. Uzun illər SSRİ Ali Soveti Hərbi Kollegiyasının tərkibində olmuşdur. Minlələ günahsız insanların ölüm hökmünə imza atmışdır. 1943-cü il martın 11-də İ.Zaryanova ədliyyə general-mayoru rütbəsi verilmişdir. İ.V.Stalinin ölümündən sonra həbs edilmiş və general-mayor rütbəsindən məhrum edilmiş, Sov.İKP sıralarından çıxarılmışdır.

İvan Osipoviç Matuleviç: SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının sədr müavini, ədliyyə general-leytenantı. 1895-ci ildə Rusiya imperiyasının Peterburq şəhərində anadan olmuş, 1961-ci il iyunun 19-da vəfat etmişdir.

Fəhlə ailəsində anadan olmuşdur, litvalıdır. Şəhər məktəbinin üç sinfini bitirmiş, yeniyetmə yaşlarından zavodda fəhlə işləmişdir. 1918-ci ildən Moskvada Fövqəladə

Komitənin komissarı, təlimatçı, yeddinci atıcı diviziyası siyasi şöbəsinin rəis müavini olmuşdur. 1920-ci ildən məhkəmə və istintaq işində çalışmışdır: XIII ordunun hərbi tribunalının müstəntiqi, Xerson Hərbi Dairəsinin VI ordusunun hərbi tribunalının üzvü, Türküstan cəbhəsinin 51-ci diviziyasının hərbi tribunalının rəis müavini, 19-cu atıcı korpusunun 32-ci atıcı diviziyasının hərbi tribunalının sədri olmuşdur. 1928-ci ildən SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının üzvü, 1933-cü ilin martından SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının sədri V.V.Ulrixin müavini olmuşdur.

1940-cı ilin noyabrında Xarkov Hərbi Dairəsinin hərbi tribunalının sədri, 1941-ci ilin iyunundan Cənub cəbhəsinin 18-ci ordusunun hərbi tribunalının sədri, 1941-ci ilin avqustundan Cənub, Şimali Qafqaz və Zaqafqaziya cəbhələrinin hərbi tribunalının sədri vəzifələrində işləmişdir.

1945-ci ilin sentyabrından yenidən SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının üzvü təyin edilmişdir. 1948-1954-cü illərdə SSR Ali Məhkəməsi Hərbi Kollegiyasının sədr müavini işləmişdir.

İ.Matuleviç Stalin repressiyalarında fəal iştirak etmişdir. 1936-1938-ci illərdə o, məşhur Moskva proseslərində bütün məhkəmə heyətlərinə daxil olmuş, Ali Məhkəmənin Leninqraddakı kollegiyalarında sədrlik etmişdir. Həmin vaxt şair Boris Kornilov və astrofizik Matvey Bronşteyn güllələnməyə məhkum edilmişlər.

1950-ci il sentyabrın 29-30-da ədliyyə general-leytenantı İ.O.Matuleviç Leninqraddakı Zabitlər evində keçirilən «Leninqrad işi» prosesinə sədrlik etmişdir.

Lenin, «Qırmızı Bayraq» və digər ordenlərlə təltif edilmişdir.

1955-ci ilin yayında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Partiya nəzarəti komissiyası SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının işini yoxlayır. İ.Matuleviç cinayət işlərini saxtalaşdırdığını etiraf edir. Həmin ilin avqustunda o, qanunçuluğu pozduğuna görə partiya sıralarından xaric edilir və ədliyyə general-leytenantı rütbəsindən məhrum olunur.

Yuvelyan Davidoviç Sumbatov-Topuridze: Üçüncü dərəcəli dövlət təhlükəsizliyi komissarı, general-leytenant.

1889-cu ildə Kutaisi quberniyası Senaki rayonunun Papana kəndində anadan olmuşdur.

1896-1901-ci illərdə doğulduğu kənddə təhsil almış, 1905-ci ildə ikiillik rus məktəbində oxumuşdur.

Milliyyətcə gürcüdür. 1905-1910-cu illərdə menşeviklərin Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının, 1918-ci ildən isə Kommunist Partiyasının üzvü olmuşdur. 1920-ci ilin mayından 1921-ci ilədək Azərbaycanın təhlükəsizlik orqanlarında məxfi əməkdaş olmuşdur. 1921-ci ildən sonra təhlükəsizlik orqanlarının agenturasına rəhbərlik etmişdir.

Birinci və ikinci çağırış SSRİ Ali sovetlərinin deputatı, 1934-1937-ci illərdə Baş Siyasi İdarənin sədri, Azərbaycan XDİK-in rəisi, 1937-1938-ci illərdə Azərbaycan Daxili İşlər Nazirliyinin xalq komissarı, 1937-1950-ci illərdə SSRİ Ali Sovetinin deputatı olmuşdur. 1938-ci il aprelin 17-dən SSRİ XDİK-in İnzibati-Təsərrüfat İdarəsinin rəisi, 1947-ci il martın 27-dən 1953-cü ilədək Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini işləmişdir.

1947-ci il aprelin 3-də DİN orqanlarından tərxis edilmişdir.

1953-cü il iyulun 15-də həbs edilmişdir. Həmin ilin dekabr ayında psixiatriya xəstəxanasına yerləşdirilmiş, istintaq zamanı vəfat etmişdir.

Andrey Aleksandroviç Jdanov: 26 fevral 1896-cı ildə Mariupolda anadan olmuş, 31 avqust 1948-ci ildə Moskvada vəfat etmişdir.

A.Jdanov 1915-ci ildə bolşeviklərə qoşulur və partiya sıralarında yüksəlir. 1934-cü ildə S.M.Kirova sui-qəsddən sonra Leninqradda Kommunist Partiyasının liderlərin-

dən olur. 1940-cı ilin aprelində Sovetlər tərəfindən işğal edilən Estoniyaya yollanır, oyuncaq dövlətin qurulmasında və ölkənin SSRİ ilə birləşməsində böyük rol oynayır. İkinci Dünya müharibəsində A.Jdanov Leninqrada cavabdehlik daşıyırdı. Daha sonra Finlandiya ilə Sovetlər arasında 4 iyul 1944-cü ildə atəşkəs anlaşması imzalayır. 1947-ci ildə Paris anlaşmasına qədər Finlandiyada müttəfiq nəzarət komissiyasına başçılıq edir.

1946-cı ildə Stalin tərəfindən SSRİ Mədəniyyət Nazirliyinə gətirilir və ilk işi Anna Axmatova və Mixail Zoşşenko kimi rus yazarlarını qaralamaq olur. 1947-ci ildə Kominformu yaradır və Avropanın kommunist partiyalarını koordinasiya edir. 1948-ci ilin fevralında ölkədə geniş ölçüdə musiqi biçimçiliyinə qarşı təmizləmə hərəkatına başlayır. D.Şostakoviç, S.Prokofyev və digər bəstəkarlar bu təmizləmələr sırasında ağır zamanlar yaşayırlar.

1948-ci ildə Moskvada ürək tutmasından vəfat edir. Stalinin əmri ilə 1948-ci ildən Mariupol şəhəri onun adı ilə adlandırılır. Heykəli də şəhərin mərkəzində qoyulur. 1989-cu ildə şəhərin adı özünə qaytarılır, heykəli isə 1990-cı ildə sökülür.

FAKTLAR

Repressiya illərində Azərbaycanın 51 rayonundan 31-nin Xalq Daxili İşlər Komissarlığı rayon şöbələrinin rəisi erməni idi. Ona görə təkcə 1937-ci ildə Azərbaycanda «xalq düşməni» adı verilən 29 min ziyalımız güllələndi. 1937-1938-ci illərdə Azərbaycanın minlərlə ziyalısı, o cümlədən Hüseyn Cavid, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli, Əli Nəzmi, Əhməd Cavad və bu kimi görkəmli elm xadimləri xarici dövlətlərə casusluqda və pantürkizmdə günahlandırılaraq repressiya olundular.

Beləliklə, ermənilərin Azərbaycanda apardıqları soyqırımı fəaliyyəti müxtəlif üsul və yollarla hər zaman davam etməkdə idi. Sovetlər birliyi və həmişə rusların əlaltıları olan ermənilər əllərinə keçən bütün vasitələrlə Azərbaycanı türkçülükdən uzaqlaşdırmağa, tariximizi saxtalaşdırmağa çalışırdılar.

Ziyalılarımızı məhv etməklə kifayətlənməyən ermənilər tarixi abidələrimizi də yandırır, bunu hər zaman «qəza» adlandırır və istintaqdan yayınırdılar.

Bəzi mənbələrə əsasən, bu müddətdə 40 000 (qırx min) azərbaycanlı ziyalı repressiya olunub. Ən şiddətlisi isə 1937-1941-ci illər arasında baş verib.

ÜZEYIR BƏY HACIBƏYLİ HAQQINDA ERMƏNİ DONOSU

1937-ci ildə Azərbaycan Dövlət Filarmoniyası Həmkarlar Komitəsinin sədri Akopyan Moskvaya göndərdiyi məktubda yazırdı: «...Ü.Hacıbəyov rəhbərlik etdiyi Dövlət Xor Kollektivinə digər təhsil ocaqlarından qovulmuş yad ünsürləri cəlb edir. Məsələn, Q.Əmiraslanova iri neft sənayeçisi olmuş sinfi düşmən qızıdır. S.Məmmədbəylinin atası xalq düşməni kimi güllələnmiş polkovnikdir. Ü.Hacıbəyov Müsavat hakimiyyəti dövründə «Ordan-burdan» adlı qəzet çıxarmışdır. Əməkdar incəsənət xadimi İonesyanın söylədiyinə görə, həmin qəzetin bir nüsxəsi xalq artisti Sarabskidədir (Fikir verin, bir erməni o biri ermənini şahid göstərir – **red.**)... Ü.Hacıbəyovun qardaşı «Müsavat» partiyasının üzvü olmuşdur. Bolşeviklər Bakıya daxil olanda o, İrana qaçmışdır. Fransada yaşayan qardaşına yeddi il müddətində pul göndərmişdir. Bütün bunları, eləcə də onun Naxçıvan MSSR-dən SSRİ Ali Sovetinin Millətlər Sovetinə deputatlığa namizədliyinin irəli sürülməsini nəzərə alaraq, Sizdən xahiş edirik ki, Ü.Hacıbəyovun tərcümeyi-halını hərtərəfli yoxlayasınız və onun əsl simasını aşkara çıxarasınız».

O zaman Moskva məktubdakı faktların araşdırılması üçün onu Bakıya Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri işləyən Y.Sumbatova göndərir. Y.Sumbatov özünün apardığı araşdırmalarından sonra Ü.Hacıbəylinin deputatlığa namizədliyinin geri götürülməsini təklif edir.

Mircəfər Bağırov Sumbatovun təklifini rədd edir və Ü.Hacıbəyli deputat seçilməklə xilas olunur.

Qeyd edək ki, M.Bağırov dahi bəstəkarı qorumaq üçün onun deputat seçilməsini özü təklif etmiş və buna nail olmuşdu.

Başqa şərhə ehtiyac qalmır…

Terrorla bağlı bəzi rəqəmlər

- Nikita Xruşşovun dövründə yaradılmış komissiyanın məlumatına əsasən, 1921-1953-cü illərdə SSRİ-də 25-26 milyon insan repressiyaya məruz qalıb.

- 17 milyon insanın cəzasını QULAQ düşərgələrində çəkdiyi və onda-birinin orada öldüyü qeyd olunur.
- Repressiya olunanlardan 7 milyonunun mülkü müsadirə edilib, özlərisə sürgün olunub.
- 1989-cu ildə SSRİ DTK 1921-1953-cü illərdə siyasi repressiyaya məruz qalanların sayını **799 455** nəfər kimi göstərərək onlardan **681 692** nəfərin 1937-1938-ci illərdə repressiya olunduğunu qeyd edib.
- Bundan əlavə, İkinci Dünya müharibəsi illərində **153 000** insan hərbi tribunalların qərarı əsasında güllələnib. Daha **115 000** adam istintaq dövründə, böyük ehtimalla, işgəncələrə dözməyərək həlak olub.
- 1940-cı ilin məlumatına əsasən, QULAQ düşərgələrində «xalq düşmənləri» və kriminalların sayı məhbusların ümumi sayının yarısından az olub. Məhbusların 57 faizi xırda oğurluq, əmək intizamının pozulması, «brak» məhsul buraxılması və bu kimi digər pozuntulara görə cəzalandırılıb.
- «Memorial» təşkilatının məlumatına görə, hazırda Rusiyada repressiya qurbanları və onların övladlarının sayı 800 000 nəfər təşkil edir.

Kitabın içindəkilər

Ön söz 5

Redaktordan:

Tarix «qirmizi terror»u hələ çox mühakimə edəcək 10

Zor dünyani darmadağın edir, zaman isə böyük işlər görür 14

Bu dünya bir tələdir 32

Adi repressiyanın tarixi və ya bir qızıl əsgərin taleyi 36

I. Raykom katibini bakıya nə üçün çağırdılar 36

II. «Ədalət»dən birinci kommunist polkuna və ya sosializm demokratiyası pərdəsinə bürünmüş cəmiyyət 39

III. AZFK – «AZÇK» 43

IV. Bolşevik funksioneri 47

V. Mircəfər 52

VI. Terror maşınının içində 60

VII. Həqiqət və yalan: bir partiya, bir ideologiya, bir diktatura 63

VIII. İstintaq 72

IX. Bəraət 84

Epiloq əvəzi 94

Alov ocaqdan qalxar 104

Taleyüklü görüş... 109

AZƏRBAYCAN ELMINƏ
ATILAN GÜLLƏLƏR

Haqsızlığa ölümü ilə üsyan etdi 117
41 yaşında ölümünə fərman verildi 129
Nikbin nəğmələrində siyasi motivlər «tapdılar» 142
Yarımçıq ömrün hekayəti 153
Bir insan haqqında… Yalan və həqiqət 166
Otuz doqquz baharın xəzanı 175
Uydurulmuş cinayətin amansız cəzası 191
Həyatı odlar içində keçdi 204
Əqidəsi xalqına sevgisindən qaynaqlanırdı 219
Fəaliyyətinə «əhsən», özünə «düşmən» dedilər 227
Təzadlar dövrünün böyük ziyalısı 236
Cümhuriyyətin ən gənc naziri 245
Xudadat bəyin acı taleyi 253
Həyatı gülləyə tuş gəldi 264
Cavanşir nəslinin nazir oğlu 276
Ziya Bünyadov – qəhrəman kimi döyüşdü,
qəhrəman kimi yaşadı 284
«Qırmızı terror»: Cilovsuz qan çanağı 297
Siyasi Repressiya Qurbanlarına bəraət verilməsi haqqında
Azərbaycan Respublikasinin Qanunu 311

Kitabın içindəkilər

KÜLƏK YARADANLAR TUFANA DÜŞDÜLƏR

İosif Vissarionoviç Cuqaşvili 317

Mircəfər Abbas oğlu Bağırov 328

Azərbaycan DTK-sının keçmiş işçisi
Lavrenti Pavloviç Beriyanın ziddiyyətli karyerası
necə başa çatdı.....337

700 min insanı qətlə yetirən NKVD başçısı 341

Faktlar 351

Üzeyir bəy Hacıbəyli haqqında erməni donosu 352

QEYD ÜÇÜN

Bədii və texniki redaktor: *Rizvan Qasımov*
Kompüter dizaynı: *Cəfər Kərimov, Alianna Duxanina*
Korrektor: *Kəmalə Cəfərova*

Çapa imzalanıb: 25.11.2015.
Kağız formatı: 60x90 $^{1}/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi: 22,5.
Tiraj: 200.

"Letterpress" nəşriyyat evində çap olunmuşdur.
office@letterpress.az